# ARİSTOTEL

# SİYASƏT

# BÖYÜK ETİKA

3361
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - 2006

87.3(0)
A 22

Tərcümə edəni:
**Fikrət Təbibi**

Redaktor **Nizami Zeynalov**

Korrektor **Mahmud Yusifli**

Kompyuter tərtibatı **Mehriban Quliyeva**
**Gülçöhrə Mirzəyeva**

**Aristotel.**
**«Siyasət. Böyük etika».** Bakı, XXI-Yeni Nəşriər Evi, 2006, 432 səh.

Bu kitabda dahi yunan filosofu Aristotelin iki məşhur əsəri – «Siyasət» və «Böyük etika» oxuçulara təqdim olunur. Bunlardan birincisi əsasən qədim yunan polislərində (şəhər-dövlətlərində) mövcud olan dövlət quruluşlarına və dövlət quruluşu layihələrinə, ikincisi isə adından göründüyü kimi əxlaq məsələlərinə həsr olunmuşdur. Kitab geniş oxucu kütləsi və universitet tələbələri üçün nəzərdə tutulmuşdur.

A $\frac{440601000-05}{080-06}$

© XXI-YNE, 2006

# Ön söz

E.ə. 384-cü ildə Stagirdə anadan olan Qədim yunan filosofu Aristotel 367-ci ildə Afinaya gəlib Platonun şagirdi olmuş və 20 il müddətində, yəni Platonun vəfatına qədər onun akademiyasında iştirak etmişdir. 343-cü ildə Makedoniya çarı Filipp oğlu İskəndərin tərbiyəçisi kimi onu öz sarayına dəvət etmişdir. 335-ci ildə təzədən Afinaya qayıdan mütəfəkkir burada öz məktəbini **(Likey)** təşkil etmişdir. Sonralar dinə qarşı cinayətdə taxsırlandırılan Aristotel Xalkidə qaçmış və 322-ci ildə orada da vəfat etmişdir. Aristotelin elmi fəaliyyətinin səciyyəvi cəhətlərindən biri onun çoxcəhətliyidir. Engels Aristoteli nahaq yerə qədim yunan filosofları içərisində «ən universal zəka» adlandırmamışdır. Onun elmi irsi, demək olar, o dövrdə mövcud olan bütün sahələri əhatə etmişdir. Dövlət və cəmiyyət onun nəzər dairəsindən kənarda qalmamışdır. Bu yöndə başlıca yeri, şübhəsiz ki, onun «Siyasət» əsəri tutur. Aristotel göstərir ki, siyasətin məqsədi rifahdır. Yəni ümumun rifahı, bu isə ədalətli bir işdir. Buna görə siyasətçi ən yaxşı dövlətin, yəni göstərilən məqsədə cavab verən dövlət quruluşunun axtarışında bulunmalıdır.

Aristotel dövlətin siyasi quruluşunu qanunvericilik, icra və məhkəmə hakimiyyəti olmaqla üç yerə bölür. Siyasi quruluş qanunun hökm sürməsini nəzərdə tutmalıdır; çünki harda ki, qanunlar hökm sürmür, orada siyasi quruluş da yoxdur. Dövlət öz növbəsində bir çox hissələrdən ibarətdir, bu özü də yeganə ümumi yaşayış forması deyil. Digər formalar ailə və yaşayış məntəqəsidir. Dövlət quruluşları layihələrinə Platonun (Sokratın) layihəsinin araşdırılmasından başlayır. Bunun ardınca bir-bir o dövrün qanunvericilərinin layihələrini müzakirəyə çıxarır. Daha sonra onun dövründə mövcud olan ən yaxşı – lakedemon,

krit və karfagen dövlət quruluşlarını nəzərdən keçirir. Dövlət quruluşu formalarını araşdırarkən ilk öncə vətəndaş anlayışını müzakirə edir. Göstərir ki, dövlət vətəndaşlardan təşkil olunmuşdur. Hər dövlət quruluşunun özünəməxsus vətəndaş anlayışı var. Aristotelə görə məhkəmədə və idarəetmədə iştirak edənlər dövlətin vətəndaşlarıdır. Bu mütləq vətəndaş anlayışıdır. Vətəndaşlar vətəndaş imtiyazlarından istifadə edirlər. Ən yaxşı dövlətin vətəndaşları heç bir peşəyə yiyələnməməli, ovçuluqla, balıqçılıqla, əkinçiliklə və ümumiyyətlə, fiziki əməklə məşğul olmamalıdır. Onlar torpaq, mal-mülk sahibi olub, barbar-qulların əməyindən faydalanmaqla öz vətəndaş borcunu yerinə yetirməlidir: orduda qulluq etməli, qanunvericilik işlərində bulunmalı, məhkəmə işlərini aparmalı, məbədlərdə Allaha xidmət göstərməlidirlər.

Aristotel altı dövlət quruluşu formasını təxmin edir və bunlardan üçünü düzgün, qalan üçünü isə qeyri-düzgün sayır. Aristotelə görə çar hakimiyyəti (monarxiya), aristokratiya və politiya düzgün, istibdad üsul–idarəsi **(tiraniya),** oliqarxiya və demokratiya qeyri-düzgün dövlət quruluşu formalarıdır. Çar hakimiyyəti – bir nəfərin idarəçiliyi olub, ümumun rifahını nəzərdə tutur; istibdad üsul-idarəsi – bir nəfərin idarəçiliyi olub, şəxsi mənafeyə əsaslanır. Aristokratiya – ən yaxşılardan ibarət azlığın idarəçiliyi olub, hamının marağını güdür; oliqarxiya – bir para varlı vətəndaşın idarəçiliyi olub, yalnız bunların şəxsi mənafeyini nəzərə alır. Politiya – müəyyən senz əsasında seçilmiş və ümumun rifahı naminə çalışan çoxlugun idarəçiliyi; demokratiya isə – yoxsullardan ibarət çoxluğun idarəçiliyi olub, müstəsna olaraq bu çoxluğun marağını güdür.

Aristotelin çox diqqət yetirdiyi məsələlərdən biri də dövlət çevrilişləridir. Onun bu çevrilişlərin səbəbləri haqqında olan mühakimələri zəngin tarixi misallara əsaslanır. Bu çevrilişlərin dəf



edilməsinə, bu və digər dövlət quruluşlarının saxlanmasına dair onun ortaya qoyduğu fikirlər də çox maraqlıdır. Əsərin axırıncı fəsillərində isə söhbət vətəndaşları xöşbəxt həyata gətirib çıxara biləcək ən yaxşı dövlət quruluşu layihəsindən gedir. Təxminən 20 çap vərəqi həcmində olan əsərin qısa məzmunu bundan ibarətdir.

Bir neçə kəlmə də «Böyük etika» haqqında. Etikaya dair üç əsəri Aristotelin adı ilə bağlayırlar: «Nikomax etikası», «Yevdem etikası» və «Böyük etika». «Böyük etika» digər iki etikanın xülasəsini təşkil edir. Bu əsər şəxsiyyətin və cəmiyyətin əxlaqi problemlərinə, habelə Aristotel etikasının əsas prinsipi olan düzgün davranış qaydalarına həsr edilib. Aristotel etikanı siyasətin tərkib hissəsi hesab edir. O, göstərir ki: «Doğrudan da, müəyyən əxlaqi keyfiyyətlərə malik olmayan adamın, yəni ləyaqətsiz adamın ictimai həyatda fəaliyyət göstərməsi qətiyyən mümkün deyil. Ləyaqətli adam olmaq – məziyyətlərə malik olmaq deməkdir. Və hər kim ictimai və siyasi həyatda fəaliyyət göstərməyi düşünürsə, o, xasiyyətcə yaxşı adam olmalıdır». O, Pifaqorun məziyyətlər xüsusunda düzgün mühakimə yürütmədiyini qeyd edir, Sokratın məziyyətləri bilik hesab etməsinə tənqidi yanaşır, Platonun da bu xüsusda söylədiyi bəzi fikirlərlə razılaşmır. Aristotel göstərir ki, insan qəlbi mürəkkəb struktura malik olduğundan, ondakı məziyyətlər də müxtəlifdir. Qəlb əsas etibarı ilə iki – şüurlu və şüurdankənar hissələrdən ibarətdir. Qəlbin şüurlu hissəsinə müdriklik, ağıllılıq, öyrənmə qabiliyyəti və s., şüurdankənar hissəsinə isə əxlaqi məziyyətlər aiddir. İnsan şüurlu hissəyə aid olan məziyyətlərə aldığı təhsil, əxlaqi məziyyətlərə isə aldığı tərbiyə vasitəsi ilə yetir.

Aristotel məziyyətləri müfəssəl surətdə araşdırır. O, məziyyəti iki qüsurlu cəhətin, başqa sözlə, artığın və əksiyin ortası kimi müəyyənləşdirir. Məsələn, israfçılıq əliaçıqlığın artıqlığı, xəsislik isə onun əksikliyidir.

İki hissədən ibarət olan əsərin ikinci hissəsində Aristotel dostluq münasibətlərindən də söz açır və bu məsələni özünəməxsus surətdə araşdırır.

«Böyük etikanın» bu gün ana dilimizdə çap olunması önəmli hadisədir. Çünki Azərbaycan oxucusu bütün dövrlərin və xalqların ən böyük mütəfəkkiri sayılan Aristotelin bu əsəri ilə hələ indiyə qədər öz ana dilimizdə tanış ola bilməmişdir.

Hər bir əsərin təcrüməsi istər-istəməz müəyyən itki ilə nəticələnir. Söz yox ki, bizim tərcüməmiz də bundan kənarda qalmamışdır, hərçənd ki, biz bunu mümkün qədər orijinala yaxın tərcümə etməyə çalışmışıq. Buna nə qədər nail olduğumuzu isə yəqin ki, mütəxəssislərin dilindən eşidəcəyik.



# S İ Y A S Ə T

## BİRİNCİ KİTAB (A)

I. 1. Bir halda ki, biz gördüyümüz kimi hər bir dövlət özündə bir növ münasibəti təmsil edir, bütün münasibətlər isə hər hansı rifah naminə təşkil edilirsə (axı hər bir fəaliyyət ehtimal olunan rifahı nəzərdə tutur), onda aydındır ki, bütün münasibətlər bu və ya digər rifaha doğru yönəlir **(stokhadzontai)**, bununla belə hamıdan çox və bütün rifahlardan ən yüksəyinə o münasibət can atır ki, o hamısından daha çox vacibdir və özündə bütün münasibətləri əhatə edir. Bü münasibət isə dövlət, yaxud siyasi münasibət adlanır.

2. «Dövlət xadimi», «çar», «təsərrüfat başçısı», «ağa» anlayışlarını bir-birinin eyni sayan adamlar düz danışmırlar[1]. Axı onlar hesab edirlər ki, bu anlayışlar bir-birindən keyfiyyət cəhətçə deyil, kəmiyyət cəhətçə seçilirlər; deyək ki, ağa o kəsdir ki, onun tabeçiliyində az adam var; təsərrüfat başçısı o kəsdir ki, onun tabeçiliyində çox adam var; lakin kimin tabeçiliyində daha çox adam varsa o, dövlət xadimi, yaxud çardır; güya böyük ailə və kiçik dövlət arasında heç bir fərq yoxdur və güya dövlət xadimi ilə çar arasında fərq ondan ibarətdir ki, çar şəxsən ona məxsus olan səlahiyyətin gücü ilə idarə edir, dövlət xadimi isə qismən hökm sürür, qismən müvafiq elmin-siyasətin əsaslarına tabe olur. Amma bu, həqiqətdən uzaqdır. 3. Şərh etdiklərimiz bizim vaxtı ilə mənimsədiyimiz üsulları nəzərdən keçirdikdən sonra aydınlaşacaq: digər hallardakı kimi mürəkkəbi sadə elementlərə qədər parçalayıb (tamın ən xırda hissələri), dövlətin

nədən ibarət olduğunu təhlil edərkən, biz həm də sadalanan anlayışlara nisbətən daha yaxşı görəcəyik ki, onlar bir-birindən nə ilə fərqlənir və onların hər birinin elmi izahını vermək mümkündürmü.

Burda da hər yerdə olduğu kimi nəzəriyyəni qurmaq üçün ən yaxşı üsul şeylərin ilkin olaraq necə yaranmasını nəzərdən keçirməkdən ibarət olmalıdır. 4. Belə ki, zərurət hər şeydən öncə cüt-cüt o kəsləri birləşməyə vadar edir ki, onlar bir-birindən ayrı yaşaya bilmirlər, – qadın və kişi nəsli davam etdirmək naminə; və bu üyğunlaşma şüurlu surətdə edilmir, lakin təbii cəhətdən asılıdır, özündən sonra özünəuyğun varlıq qoyub getmək həm də yerdə qalan digər canlılara və bitkilərə də xasdır.

[Eləcə də qarşılıqlı surətdə özünü saxlamaq məqsədilə canlı məxluqlar üçün birləşmək zəruridir], başlıca olaraq ağalıq edənlə və başlıca olaraq itaətdə bulunan məxluq. Birinci öz intellektual xassələrinə görə uzağı görməyə qabildir, buna görə də artıq öz başlıca xüsusiyyətinə görə ağalıq edən və hökm sürən məxluqdur; ikinci isə necə ki, öz fiziki gücü hesabına yalnız aldığı sərəncamları yerinə yetirməyi bacarır, o köləlikdə bulunan və alçalan məxluqdur. Buna görə də ağa və qul üçün elə eyni şeylər sərfəlidir. 5. Lakin qadın və qul öz xüsusiyyətlərinə görə iki müxtəlif məxluqlardır: axı təbiətin yaradıcılıq işi dəmirçilərin düzəltdiyi əhəmiyyətsiz «delfi bıçağına»[2] hec cürə bənzəmir, əksinə, təbiətdə hər şeyin öz təyinatı var. Belə ki, hər hansı bir alət çox deyil, əgər bir işi görmək üçün nəzərdə tutularsa işin öhdəsindən daha yaxşı gələcək. Barbarlarda qadın və qul eyni mövqedə durur və bunu onunla izah edirlər ki, onlarda əzəldən hakimiyyətə can atmaq meyli yoxdur. Onlarda yalnız bircə növ münasibət var-qul və kəniz münasibəti. Buna görə də şair deyir: «Yunanlanı barbarlar üzərində ağalığı layiqlidir»; barbar və qul öz başlıca xüsüsiyyətlərinə görə oxşar anlayışlardır. 6. Beləliklə, göstərilən iki növ munasibətdən birinci növü ailə münasibətindən ibarətdir. Gesiodun şeri düzgün səslənir: «Ailə hər şeydən öncə həm həyat yoldaşı, həm yerşumlayan öküzdür» (kasıblarda öküz qul əvəzinə işləyir). Müvafiq surətdə təbii yolla gündəlik tələbatı təmin etməkdən ötrü meydana çıxan münasibət ailənin özüdür ki, var, bu cur ailənin üzvləri haqqında Harond deyir ki, onlar eyni anbardan yeyir, Epimenid Kritli işə «onları eyni axurdan yeyənlər» adlandırır.

7. Bir neçə ailənin arasında yaranmış və yalnız qısamüddətli təminatların ödənməsi ilə başa çatmayan münasibət-yaşayış məntəqəsidir. Yaşayış məntəqəsinə ailənin koloniyası kimi baxmaq tamamilə təbiidir, bəziləri eyni yaşayış məntəqəsində həyat sürənləri «süd qardaşları», «oğulları», «nəvələri» deyə adlandırırlar. Yunan dövlətləri əvvəllər ona görə çarlar tərəfindən idarə edilirdi ki, (hal-hazırkı dövrdə biz bunu qeyri-yunan olan tayfalarda da görürük) bunları çar hakimiyyətini qəbul edən adamlar yaratmışdı: axı hər bir ailədə onun böyüyü çar səlahiyyətinə malikdir. Həm də ailə koloniyalarında-yaşayış məntəqələrində qohumluq əlaqələrinin köməkliyilə onların üzvləri arasında eynən həmin qayda mövcuddur. Homer «hər kəs arvadlarını və uşaqlarını idarə edir» deyəndə, məhz bunu yada salırdı, axı onlar ayrı-ayrı yaşayış məntəqələrində yaşayıblar, necə ki, insanlar, ümumiyyətlə, lap qədim dövrlərdə yaşayırdılar. Habelə, allahlar haqqında deyirlər, onlar çarların hakimiyyəti altındadır, çünki insanlar-bir qismi elə indi də, bir qismi isə lap qədim zamanlarda çarlar tərəfindən idarə olunurdu, necə ki, insanlar allahların xarici görünüşlərini özləninin görünüşlərinə oxşadırlar, eynən onlar bu təsəvvürü allahların həyat tərzinə də intişar edirlər.

8. Bir neçə yaşayış məntəqəsindən ibarət cəmiyyət tamamilə bərqərar olmuş dövlətin özüdür ki var, bu da, demək olar,

bütövlükdə müstəqilliyə çatmış və həyati tələbatlar naminə meydana çıxsa da, lakin yaxşı həyat qazanmaq naminə mövcüddür. Buradan belə çıxır ki, hər bir dövlət ilkin münasibətlər kimi zərurətin təbii məhsuludur: bu, onların tamamlanması, bu tamamlanmada isə mahiyyət vardır. Axı biz onu hər hansı bir şeyin mahiyyəti adlandırırıq ki, – məsələn götürək insanın, atın, ailənin mahiyyəti-onun vəziyyəti inkişafının sonunda məlum olsun. Üstəlik, son məqsədə yetişməkdən ötrü tamamlanma yüksək səviyyədə olmalıdır, müstəqil yaşamaqsa həm tamamlanmış, həm də ən yüksək səviyyəli mövcudluqdur.

9. Bütün deyilənlərdən məlum olur ki, dövlət zatən kim mövcuddursa, ona aiddir və insan öz mahiyyətinə görə siyasi varlıqdır, kim də təsadüfi hallar nəticəsində deyil, öz xüsusiyyətinə görə dövlətdən kənarda yaşayır-ya mənəvi cəhətdən inkişaf etməmişdir, ya da fövqəlbəşərdir: onu da Homer söyüb deyir ki, «Əsilsiz-nəsilsiz, tayfasız, qanunsuz, yurdsuz-yuvasızdır»; bu cür adam, əslində, yalnız müharibə arzu edir; onu oyun taxtası üzərində təcrid edilmiş piyada ilə müqayisə etmək olar.

10. Arılara və sürüylə yaşayan hər hansı qəbildən olan heyvanlara nisbətən insanın daha çox cəmiyyətin övladı olması aşağıdakından aydındır: təbiət, biz təsdiq etdiyimiz kimi, heç nəyi nahaqdan etmir; həmçinin bütün canlı məxluqlar arasında yalnız insan nitq qabiliyyətinə malikdir. Səs kədər və sevinci ifadə edir, bu digər canlı məxluqlar üçün də xarakterikdir (belə ki, onların təbii xüsusiyyətləri o dərəcəyə qədər inkişaf etmişdir ki, sevinc və kədəri hiss edib, bu hisləri bir-birinə ötürə bilirlər). Amma nitq, həmçinin nəyin xeyirli və nəyin zərərli, eynən də nəyin haqlı və nəyin haqsız olduğunu bildirməyə də qabildir. 11. İnsanlara məxsus bu xüsusiyyət onları digər canlı məxluqlardan fərqləndirir: belə ki, yalnız insan xeyirxahlıq və yamanlıq, haqlı və haqsız və s. anlayışları dərk etməyə qabildir. Bütün bunlarınsa məcmusu



ailənin və dövlətin əsasını təşkil edir. Mahiyyətinə görə dövlət ailə və hər birimizlə müqayisədə öndə durur, çünki tamın hissələrdən qabaqda olması zəruridir. Canlı məxluqu bütünlüklə məhv etsən, onun nə ayağı, nə də əli olacaq, yalnız adı qalacaq. Buna, müvafiq olaraq biz «daş əl» deyirik; axı bədəndən ayrılmış əl də, məhz daş əl kimi olacaq. Hər hansı bir şey yerinə yetirdiyi hərəkətlə və bu hərəkəti yerinə yetirmək imkanı ilə müəyyənləşdirilir, əgər bu xassələr həmin şeydə itibsə, onda ondan olduğu kimi danışmaq lazım deyil: bunu yalnız qeyd etmək qalır. 12. Beləliklə, göründüyü kimi dövlət, zatən mövcuddur və zatən hər insandan öndədir; nə qədər ki, axırıncı təcrid edilmiş vəziyyətə düşüb, müstəqil məxluq deyil, onun dövlətə münasibəti, hər hansı hissənin özünün tamına olan münasibəti kimidir. Bir kəs ki, münasibət yaratmağa qadir deyil, yaxud özünü müstəqil varlıq sayır, heç nəyə ehtiyac duymur, o, artıq dövlətin bir hissəsini təşkil etməyib ya heyvana, ya da bütə çevrilir.

Təbiət bütün insanlarda dövlətlə münasibətə bir meyl yaratmışdır və ilk dəfə bu munasibəti təşkil edən adam bəşəriyyətə həddindən artıq böyük yaxşılıq etmişdir. Kamilliyə yetişmiş insan canlı məxluqların ən mükəmməlidir və əksinə, qanun-qaydadan kənarda yaşayan insan hamıdan pisdir, ona görə ki, haqsızlıq hər şeydən ağırdır. Təbiət isə insanın əlinə əqli və mənəvi güc kimi silahlar veribdir ki, bunlarla da əks istiqamətdə işlər görmək mümkündür. Buna görə də yaxşı cəhətlərdən məhrum olan insan özünün cinsi və zövq aldığı ehtiyaclarının ödənməsindən ötrü ən şərəfsiz, alçaq və vəhşi məxluqa çevrilir. Ədalət anlayışı dövlət anlayışı ilə bağlıdır, belə ki, hüquq ədalətin meyarı kimi siyasi münasibəti tənzimləyən normadır.

II. 1. Dövlətin hansı hissələrdən ibarət olmasını müəyyənləşdirmək üçün, biz hər şeydən öncə ailənin təşkili haqqında

danışmalıyıq, zira hər bir dövlət ayrı-ayrı ailələrdən ibarətdir. Ailə öz növbəsində o hissələrdən təşkil edilmişdir ki, bunların məcmusu onun özünü təşkil edir. Mükəmməl ailədə iki hissə mövcuddur: qullar və sərbəstlər. Belə ki, hər hansı bir şeyin təhlilinə öncə onu təşkil edən ən kiçik hissəciklərdən başlamaq lazımdır, ailənin isə ən ilk və ən kiçik hissəcikləri ağa və qul, ər və arvad, ata və oğul olduğundan elə bu üçlükdən başlayıb, onların hər birinin özlüyündə nə kəsb etdiyinə və onların necə olmasına nəzər salınmalıdır.

2. [Göstərilən mövcud, üç cütün münasibətini xarakterizə etmək olar] belə ki: ağalıq, kəbin (ər və arvadın bir yerdə həyat sürməsini göstərmək üçün xüsusi termin yoxdur) və üçüncü atalıq (həmçinin bu münasibət də xüsusi terminlə göstərilmir). Qoy onlar bilavasitə biz sadalayan kimi üç olsun (ailənin bir hissəciyi də mövcuddur ki, bir çoxlarının fikrincə bu, elə onu, digərlərinin təbirincə isə bu, onun əsas hissəsini təşkil edir; mən necə deyərlər yığıb, dala atmaq bacarığını nəzərdə tuturam; bunun nə olduğunu biz sonra araşdıracayıq).

Hər şeydən öncə, biz ağa və qul üzərində dayanaq və onların qarşılıqlı əlaqəsinə təcrübi əhəmiyyət nöqteyi-nəzərindən diqqət yetirək. Biz bu munasibəti izah etmək üçün mövcud olan nəzəriyyələrə nisbətən daha düzgün nöqteyi-nəzər üstündə dura bilərikmi? 3. İş ondadır ki, bir çoxlarının fikrincə ağanın qul üzərində səlahiyyəti bir növ elmdir, biz artıq yuxarıda qeyd etdiyimiz kimi nəzərə də almaq lazımdır ki, həm bu səlahiyyət, həm ailənin təşkili, həm dövlət, həm də çar hakimiyyəti eyni-eyni şeylərdir. Əksinə, digərlərinin fikrincə ağanın qul üzərində səlahiyyəti qeyri-normaldır; yalnız qanunla biri qul, digəri sərbəstdir, mahiyyətcə isə heç bir təfavüt yoxdur. Buna görə ağanın qul üzərində səlahiyyəti də, zora əsaslandığı üçün, ədalətsizdir.



4. Mülkiyyət evin bir hissəsidir və əldə edilmiş şey ailəni təşkil etməyin bir hissəsidir: ən zəruri tələbat avadanlıqları olmadan nəinki yaxşı yaşamaq, ümumiyyətlə, yaşamaq mümkün deyil. Bütün sənət sahələrində qarşıya qoyulmuş müəyyən məqsəd üçün müvafiq alətlər vardır, əgər işi axıra çatdırmaq lazımdırsa və bu alətlərdən bəzisi canlı, bəzisi çansızdırsa (məsələn, başçı üçün sükan cansız alət, sükançı isə canlıdır), bu halda incəsənətdə sənətkar alət rolunu oynayır. Eləcə də ev sahibi üçün mülkiyyət onun yaşamasından ötrü özünəməxsus surətdə bir alətdir. Mülkiyyəti əldə etmək üçün çoxlu alət tələb olunur, belə ki, qul-bir canlı mülkiyyətdir, necə ki, incəsənətdə, ümumiyyətlə, hər hansı bir sənətkar bir alət kimi digər alətlərdən öndə durur. 5. Əgər hər hansı bir alət ona verilən əmrlə, yaxud özü qabaqcadan duymaqla ona məxsus olan işi özü yerinə yetirə bilsəydi, özlərini Dedalın heykəlinə, yaxud Hefestin sacayaqlarına oxşatsaydılar – necə ki, şair onlar haqqında deyib: «öz xoşları ilə **(aytomatoys)** allahların yığıncaqlarına gəldilər»; əgər toxucu məkiklər özləri tikə, mizrablar[3] isə kifarada özləri ifa edə bilsəydi, onda memarlar işçilərə, ağalar isə qullara ehtiyac duymazdılar. Necə ki, alətlər öz təyinatları üzrə məhsuldar fəaliyyət **(poiëtika)** göstərir, xüsusi mülkiyyət də aktiv fəaliyyətin **(praktikon)** aləti sayılır; axı toxuculuq məkiklərindən istifadə etməklə, onun tətbiqinə aid olmayan nəsə başqa şey alırıq, pal-paltar və yataq isə bizdən ötrü yalnız istifadə əşyalarıdır. 6. Məhsuldar və aktiv fəaliyyətin spesifik fərqi ilə əlaqədar, əlbəttə, müvafiq olaraq o alətlər müxtəlifdir ki, bu və digər ehtiyacların ödənməsi üçün lazımlıdır. Lakin həyat-aktiv fəaliyyətdir **(praxis),** məhsuldar fəaliyyət **(poiēsis)** deyil; demək, qul da nəyin xidmətində bulunursa, o aktiv fəaliyyət sahəsinə aiddir. «Xüsusi mülkiyyət»i «hissə» sözünün mənası kimi başa düşmək lazımdır. Hissə isə yalnız nəyinsə bir şeyin

hissəsi deyii, ümumiyyətlə, heç nəyi bunsuz təsəvvürə gətirmək olmaz. Bu, butunlukdə xususi mülkiyyətə də aiddir. Buna görə də ağa yalnız qulun ağasıdır, ancaq ona məxsus deyil, qul isə yalnız ağanın qulu deyil, həm də bütünlüklə ona məxsusdur.

7. Yuxarıda deyilənlərdən aydındır ki, özünün mahiyyətinə və təyinatına görə qul nədir: kim, əslində, özü-özünə deyil, insan olmasına baxmayaraq başqasına məxsusdur, o, zatən quldur. İnsan isə o halda başqasına məxsus olur ki, o, insan kimi qalsa da mülkiyyətə çevrilir; axırıncı öz-öziüyündə aktiv və ayrıca mövcud olan alət kimi təmsil olunur.

Bundan sonra baxmaq lazımdır görək bu cur xarakterli adam ola bilər, yoxsa yox, yəni qul, həm də kimə isə qul olmaq yaxşıdırmı, ədalətlidirmi, yoxsa yox, amma hər hansı bir köləlik təbiətlə ziddiyyət təşkil edir.

8. Bu suallara həm nəzəri mühakimələr, həm də faktiki dəlillər əsasında cavab vermək çətin deyil. Axı ağalıq etmək və itaətdə bulunmaq nəinki vacibdir, həm də faydalıdır və bir çox məxluqlar bilavasitə anadan olandan itaətdə bulunmaq və digərləri ağalıq etməklə bir-birindən seçilirlər [bununla əlaqədar onlardan biri, necə deyərlər, əvvəlcədən təyin edilir]. Ağalıq etməyin və itaətdə bulunmağın çox müxtəlif növləri var, amma mütilər nə qədər yüksəkdə dayanırsa, onların üzərindəki ağalıq da bir o qədər mükəmməldir; belə ki, məsələn: insan üzərindəki ağalıq, heyvan üzərindəki ağalığa nisbətən daha mükəmməldir. Axı usta nə qədər yuxarıda dayanırsa, onun gördüyü iş daha mükəmməl olacaq; amma harda ki, bir tərəf ağalıq edir, digər tərəf isə itaətdə bulunur, yalnız orada onların hər hansı bir işindən söhbət gedə bilər.

9. Necə ki, hər şey bir neçə hissədən ibarətdir, ayrılıqda, yaxud fasiləsiz biri – digərilə bağlı olub, bir tamı əmələ gətirir, bu, özünü ağalıq etməyin və mütiliyin kökündə də göstərir. Bu, təbiətin ümumi qanunudur, necə ki, canlı varlıqlar ona tabedir.



Düzdür, bəzi cançız əşyalarda da, məsələn, musiqili harmoniyada ağalıq etməyin nə isə bir əsasını tapmaq olar; lakin bu məsələ xüsusi tədqiqat obyekti ola bilər. 10. Canlı məxluq hər şeydən öncə ruhdan və bədəndən ibarətdir; əslində, bunlardan biri əzəldən ağalıq edən, digəri əzəldən itaətdə bulunandır. Əlbəttə, əgər söhbət şeyin xassəsindən gedirsə, axırıncı dəyişikliyə məruz qalmış vəziyyətdə deyil, gərək təbii halda nəzərdən keçirilsin. Buna görə elə adama müraciət edib, onu nəzərdən keçirmək lazımdır ki, onun fiziki və psixi durumu ən yaxşı halda olsun; bunun timsalında bizim müddəamız aydınlaşacaq. Sağlamlığı pozulmuş, yaxud pozulmağa yaxın adamlarda onların qeyri-sağlam və təbiətlə ziddiyyət təşkil edən vəziyyətləri çox vaxt elə təsəvvür yaradır ki, guya bədən ruh üzərində ağalıq edir.

11. Bizim müddəamıza müvafiq olaraq hər bir canlı məxluqda hər şeydən öncə ağalıq etmək və siyasi hakimiyyət meyli görmək olar. Ruh bir ağa kimi bədən üzərində, ağıl isə dövlət xadimi kimi meyllərimiz üzərində hökm sürür. Burdan aydın olur ki, bədən üçün ruhun tabeçiliyində olmaq nə qədər təbii və faydalıdır, amma ruhun həyəcanlanmağa meylli hissəsinin- ağıl və ruhun mücərrəd elementinin tabeçiliyində olması düz, yaxud əks mənada həmişə ziyan gətirir. 12. Həmin bu müddəa həm insana, həm də digər canlı məxluqlara münasibətdə öz gücündə qalır, məsələn, öz xüsusiyyətlərinə görə ev heyvanları vəhşi heyvanlardan yüksəkdə durduğu kimi ev heyvanları üçün də insanın himayəsində olmaq məqsədəuyğundur: bəli, bu onların xeyrinədir **(sōlērias)**. Eləcə də kişi qadına münasibətdə: birinci öz xüsusiyyətinə görə yüksəkdə, ikinci aşağıda durur və budur, birinci ağalıq edir, ikinci itaətdə bulunur. Bax bu nöqteyi-nəzər mütləq gərək bütün bəşəriyyətə də şamil edilsin.

13. Digər insanlardan kəskin surətdə fərqlənən bütün bu insanlar, necə ki, ruh bədəndən, insan da heyvandan fərqlənir

(bu, bütün o insanlarda olur ki, onların fəaliyyəti fiziki gücün tətbiqindən ibarətdir, bu isə onların bildikləri ən yaxşı şeydir), zatən quldur; yuxarıda göstərilən məxluqlar kimi, onlar üçün ən yaxşı qismət belə bir hökm altında olmaqdır. Axı qul, əslində, o kəsdir ki, o başqasına məxsus ola bilər (buna görə də o başqasına məxsusdur) və bunun tərəfdarları bu dərəcədə mühakimə yürüdürlər ki, o, əmri anlamağa qadirdir, amma özü dərrakəyə malik deyil. O ki, qaldı digər canlı məxluqlara, zatən onlar ağlın sərəncamlarını dərk etməyə qadir deyillər, amma hisslərin hərəkətlərinə tabe olurlar. 14. Bununla belə ev heyvanlarının gətirdiyi mənfəət qulların gətirdiyi mənfəətdən çox az fərqlənir; həm bunlar, həm də onlar öz fiziki qüvvələri hesabına bizim ən zəruri tələbatlarımızın ödənilməsinə yardım göstərirlər.

Təbiət istəyir ki, azad adamların fiziki göstəriciləri qulların fiziki göstəricilərindən fərqli olsun: axırıncılar bədən cəhətcə güclü, zəruri işləri görmək üçün yararlıdırlar; azad adamlar isə dik gəzirlər və bu kimi işləri yerinə yetirmək üçün iqtidarlı deyillər, lakin onlar siyasi həyata yararlıdırlar, bu axırıncı isə onların fəaliyyətində hərbi və dinc dövrlərə bölünür. Bununla belə tez-tez əksinə də olur: bir çoxları yalnız ona xas olan azad bədənə, digərləri isə-adamlara malikdir. 15. Hər halda aşağıdakılar aydındır: əgər insanlar bir-biri ilə yalnız fiziki göstəricilərinə görə fərqlənsəydilər, özü də o dərəcədə ki, necə ki, allahların təsvirləri bu mənada onlardan fərqlənir, onda hamı bununla razılaşardı ki, fiziki göstəricilərinə görə geridə qalan insanlar qul olmağa layiqdir. Əgər bu muddəa insanların fiziki xüsusiyyətlərinə görə qanunauyğundursa, onda onların psixi xüsusiyyətlərinə görə bu həddi müəyyən etmək daha qanunauyğundur, çünki bədənin gözəlliyini görməkdən fərqli olaraq ruhun gözəlliyini görmək elə də asan deyil. Hər halda aydındır ki, bir qism insan, zatən azad, digərləri – quldur və bu axırıncılar üçün qul olmaq həm sərfəli, həm də qanunauyğundur.



16. Bunun əksini iddia edənlərin də bir növ düzgün olduqlarını görmək çətin deyil. Doğrudan da «köləlik» və «qul» ifadələri iki mənada işlədilir: qul və köləlik qanuna görə də olur; qanun özunəməxsus surətdə bir müqavilədir ki, bunun gücü ilə muharibədə əldə olunanlar bunlara sahib olanların mülkiyyəti sayılır. Çoxları bu qanunu hərdənbir natiqlərin təklif etdikləri qanunsuzluqlara aid edirlər; dəhşətli olar ki, böyük fiziki gücə malik adam yalnız zorakılığa qadir olduğuna görə zorakılıq yolu ilə əldə etdiklərinə öz qulu və köləsi kimi baxsın. Bəziləri bu, digərləri isə, bəzi müdriklər də daxil olmaqla, başqa fikrin üstündə dururlar.

17. Bu fikir ayrılığının səbəbi, belə ki, hər iki tərəf müdafiə etdiyi müddəaya öz dəlillərini göstərir, ona qulluq edir ki, hətta yaxşı adamlar belə əgər ona belə bir imkan verilirsə tamamilə məlum dərəcədə zorakılığa əl ata bilər; sanki hər cürə üstünlük həmişə özünü hər hansı bir rifahın yüksəlməsində göstərir, belə ki, zorakılıq da məlum dərəcəyə qədər yaxşı insanlara xasdır: bu minvalla, yalnız ədalət haqqında mübahisə etmək qalır. Bəzilərinin fikrincə insanlara qarşı mərhəmətli, lütfkar olmaq ədalətlə bağlıdır, digərlərinin fikrincə ədalət ondan ibarətdir ki, daha güclü adam hökm sürsün. 18. Bu müddəaları ayrıca bir-birinə qarşı qoyanda məlüm olur ki, bunlardan heç birinin nə mənası, nə də əsası vardır, guya insaflılar mənasında yaxşılar hökm sürməməli və hakimlik etməməlidirlər. Bəziləri fikirləşdikləri kimi hansısa bir ədalət prinsipinə söykənərək (axı qanun bir növ ədalətin özüdür), hesab edirlər ki, müharibə nəticəsindəki köləlik ədalətlidir, lakin eyni zamanda bunu inkar da edirlər. Axı, doğrudan da, müharibə prinsipinin özunu ədalətsiz saymaq lazımdır və heç cürə təsdiqləmək olmaz ki, qul olmağa layiq olmayan adam, bununla belə bu vəziyyətə düşsün. Əks təqdirdə ən nəcib əslə malik adamlar yalnız ona görə qul və qul nəsli ola bilərlər ki, əsir düşdükdə qul kimi satılacaqlar. Buna görə də

3361
Azərbaycan Respublikası Prezidentinin
İşlər idarəsi
PREZİDENT KİTABXANASI

göstərilən axırıncı fikrin tərəfdarları onları qul adlandırmaq istəmirlər, onlar ancaq barbarları belə çağırırlar. Lakin onda ki, onlar bunu deyirlər, biz bunu lap əvvəlcədən bildiyimiz kimi, əslində, onlar köləlikdən başqa heç nə axtarmırlar; istər-istəməz razılaşmaq lazım gəlir ki, bəzi adamlar hər yerdə quldur, digərləri isə heç bir yerdə belə deyil.

19. Eynən bu surətlə onlar əslin nəcibliyi haqqında da mühakimə yürüdürlər. Onlar özlərini yalnız öz yerlərində deyil, həm də hər yerdə, barbarları isə yalnız onların öz vətənində alicənab sayırlar, guya bir halda şərtsiz alicənablıq və azadlıq hökm sürür, digərində-qeyri şərtsiz. Feodektdə Yelena da bu tərzdə danışır: «Mən hər iki tərəfdən ilahi nəsillərdən törəndiyim halda, kimin cürəti çatar ki, mənə kölə desin?» Bunu deməklə onlar insanı kölə və azad olmaqla iki yerə, nəcib və qeyri-nəcib kökdən olan insanları yalnız yaxşı və pis əlamətlərinə görə bölürlər; bununla belə guman edirlər ki, necə ki, insan insandan törənir, heyvan da-heyvandan, beləcə yaxşı valideynlərdən də yaxşı törənir; təbiət isə tez-tez buna can atsa da, amma buna nail ola bilmir.

20. Beləliklə, deyilənlərdən aydındır ki, [zatən köləliyə dair görüşlərdə] tərəddüd etməyin bir çox əsasları var: bir tərəfdən bəziləri, zatən kölə deyil, digərləri isə-azad, o biri tərəfdənsə bəzilərində bu fərq mövcuddur və həm də onlar üçün birinin köləlikdə, digərinin-ağalıqda bulunması faydalı və ədalətlidir, ağalıq etməkdən ötrü isə birinin tabeçilikdə olması, digərinin isə təbiətin onun üzərinə qoyduğu ağalığı həyata keçirmək lazımdır. Lakin səlahiyyətin yaramaz tətbiqi nə bir, nə də digər tərəfə xeyir gətirmir: axı hissəyə nə xeyirdirsə, tama da elə o xeyirlidir, bədənə nə xeyirlidirsə, ruha da o xeyirlidir, qul isə hansısa bir ağanın hissəsi sayılır, ayrıca bir canlı məxluq olsa da onun cisminin bir hissəsidir.

21. Buna görə də əgər onların qarşılıqlı münasibəti əzəldən bu köklər üstündə durursa, qul və ağaya qarşılıqlı dostluq



münasibətində bulunmaq faydalıdır; lakin kimlərdə bu, belə deyilsə, münasibətlər qanun və zorakılığa əsaslanırsa, hər şey tərsinə baş verir.

Yuxarıda deyilənlərdən aydın olur ki, ağanın səlahiyyəti ilə dövlət xadiminin səlahiyyəti bəzilərinin təsdiq etdiyi kimi bütün digər səlahiyyət halları ilə eynilik təşkil edir. Bir səlahiyyət – zatən azad insanlar, digər səlahiyyət qullar üzərindədir. Ağanın ailədə səlahiyyəti-monarxiyadır (zira hər bir ailə öz ağası tərəfindən monarx sayağı idarə edilir), dövlət xadiminin səlahiyyəti isə-azad və bərabər insanlar üzərində səlahiyyətdir. 22. İnsanı biliyinə görə deyil, təbii xüsusiyyətlərinə görə ağa adlandırırlar; qullarda və azad insanlarda da eynən belədir. Döğrüdür, köləlik haqqında olan elm kimi ağanın səlahiyyəti haqqında da elm düşünmək olar, əvvəlinci-bir növ Sirakuzada mövcud olan kimi, necə ki, bir nəfər insanlara köləlikdən təlim keçirdi: məlum muzd müqabilində o cavan qullara bilik öyrədirdi. Bu cürə təlim digər sahələrə də istiqamətləndirilə bilərdi, məsələn, kulınariya sənətini və digər buna uyğun ev xidmət işlərini də öyrətmək olardı. Axı işlər müxtəlif olur-bəziləri daha yüksək, digərləri daha zəruri xarakterlərdə, necə ki, atalar sözündə deyilib: «Qul quldan, ağa ağadan-fərqlidir».

23. Quldan necə istifadə etmək və ağa olmaq üçün, bütün bu kimi elmlər-köləlik, ağalıq haqqında elmlər-qullar əldə etmək üçün deyil, onlardan necə istifadə etmək üçündür. Bu elmdə heç bir böyük, heç bir yüksək şey yoxdur: axı nəyi ki, qul yerinə yetirməlidir, ağa da onu əmr etməyi bacarmalıdır. Buna görə də kimin ki, bu cür qayğılardan qaçmaq imkanı var, bu vəzifəni işlər müdiri öz üzərinə götürür, onlar özləri isə siyasət, yaxud fəlsəfə ilə məşğul olurlar. O ki, qaldı qulların əldə olunması elminə (o dərəcədə ki, nə qədər bu ədalətlidir) onda bu, haradasa müharibə xüsusunda, yaxud ovçuluq xüsusunda olan elm

kimi yuxarıda göstərilən iki şeydən fərqlənir. Bizim qul və ağa haqqında düşüncələrimiz bundan ibarətdir:

III. 1. İndi isə biz özümüzün qəbul etdiyimiz araşdırma üsullarını rəhbər tutaraq necə ki, qul da mülkiyyətin bir hissəsidir, mülkiyyətin, ümumiyyətlə, nə olduğunu və var-dövlət toplamaq bacarığının nədən ibarət olduğunu təhlil edək. Hər şeydən öncə ortaya sual çıxa bilər: var-dövlət toplamaq bacarığı təsərrüfat haqqında olan elmlə eynidirmi, yoxsa bu bacarıq həmin elmin bir hissəsidir, yaxud onunla münasibətdə köməkçi mövqe tutur, əgər bu belədirsə, onda var-dövlət toplamaq bacarığı təsərrüfat haqqında olan elmlə bu münasibətdə deyilmi, necə ki, toxuculuq sənəti üçün toxuculuq məkiki düzəltmək bacarığı var, yaxud heykəltaraşlıq sənəti üçün tunc xəlitəsi hazırlamaq bacarığı. İş bundadır ki, iki axırıncı bacarıq onlara bağlı sənətlərlə eyni xidməti münasibətdə deyildir, belə ki, birinci-alətlə, ikinci-xammalla təmin edir (xammal adı altında mən substratı [əsası] nəzərdə tuturam ki, bunun vasitəsi ilə hər hansı bir iş axıra çatdırıla bilər, məsələn, toxucu üçün-yun, heykəltaraş üçün-tunc).

2. Aydındır ki, var-dövlət toplamaq bacarığı təsərrüfat haqqında olan elmlə eyniyyət təşkil etmir: bir halda söhbət vəsait əldə etməkdən gedir, digərində – bundan istifadə etmək haqqında; doğrudan da, evdə olan hər şeydən istifadə etmək bacarığı təsərrüfat haqqında olan elm deyil, bəs nədir? Lakin iş ondadır ki, var-dövlət toplamaq bacarığı təsərrüfat haqqında olan elmin bir hissəsini təşkil edirmi, yoxsa bu, ondan fərqli olan xüsusi bilik sahəsidir, əgər hesab etsək ki, göstərilən bacarıqlara yiyələnən hər hansı bir insan əmlakdan yaranan firavanlığın mənbəyini və ümumiyyətlə, mülkiyyətin nədən ibarət olduğunu araşdıra bilər, onda ortaya çətinlik çıxacaq. «Mülkiyyət» və «var-dövlət» anlayışlarının müxtəlif növləri var. Birincisi,



əkinçilik-bu, təsərrüfat haqqında olan elmin bir hissəsidirmi, yoxsa xüsusi, ondan ayrı bir bilik sahəsidir? Həmin bu sualı, ümumiyyətlə, dolanışacaq vasitələrinə və onları əldə etmək xüsusundakı qayğılara da aid etmək olar.

3. Necə ki, müxtəlif qida növləri mövcuddur, eləcə insanların və heyvanların həyat tərzi də müxtəlifdir; yeməksiz yaşamaq mümkün olmadığından qida məhsullarının növ müxtəlifliyi heyvanların həyat tərzinin müxtəlifliyinə gətirib çıxarır. Heyvanların bir çoxunun sürüylə, digərlərinin dağınıq halda yaşaması qida əldə etmək üçün hansı həyat tərzinin münasibliyi ilə əlaqədardır, belə ki, heyvanların bir qismi ətyeyən, digərləri otyeyən, üçüncülərsə hər şey yeyən heyvanlardır. Təbiət heyvanların həyat tərzini elə təxminlə müəyyənləşdirmişdir ki, onların hər biri özü üçün lazım olan qidanı çox asanlıqla əldə edə bilsin; zatən eyni bir qida hər bir heyvan üçün deyil, çünki birinə bir şey yarayır, digərinə – başqa şey; buna görə də ətyeyən heyvanların həyat tərzi, otyeyən heyvanların həyat tərzindən fərqlənir. 4. Bu, insanlar arasında da belədir. Onların həyat tərzi olduqca müxtəlifdir. Onlardan ən tənbəlləri heç bir zəhmət və dərd çəkmədən köçəri həyat tərzi keçirib ev heyvanlarının əti ilə qidalanır, belə ki, köçərilər öz sürüləri üçün otlaq axtarışında bulunmaqla həmişə köç yerlərini dəyişirlər, amma onlar özləri də istər-istəməz sürünün arxasınca gedirlər; elə bil ki, onlar oyanmış əkin yerlərini becərirlər. Digər insanlar ovçuluqla yaşayırlar, ovçuluğun müxtəlif-cürbəcür formaları ilə; məsələn, bəzilərinin meyli oğurluğa, digərlərinin balıqla zəngin göl, bataqlıq, çay, yaxud dəniz kənarında yaşayanların meyli balıq tutmağadır, üçüncülərsə quş, yaxud vəhşi heyvan ovuna çıxırlar. 5. Yaşamaqdan ötrü mübadilə və ticarətlə deyil, bilavasitə həyatın bəxş etdikləri-lə-köçəri həyat, əkinçilik, talançılıq, balıqçılıq, ovçuluqla məşğul olanların həyat tərzi təxminən belədir. Bəziləri bu tərzlərdən bu

və ya digərini birləşdirib yaxşı yaşayır və müstəqil olmaqdan ötrü bunlardan birində olmayanı o birindən əxz edir, məsələn, bəziləri köçəri və talançılıq həyat tərzlərini birləşdirir, digərləri əkinçilik və ovçuluğu, qalanları da eyni şəkildə. Ehtiyac insanları nəyə təhrik edirsə, onlar da o cür həyat tərzi keçirir.

6. Görünür ki, təbiətin özü hamıya meydana çıxdıqdan dərhal sonra verdiyi xüsusiyyəti, tam inkişafa yetişməkdən ötrü də onlara bəxş edir. Bəzi heyvanlar balaladıqdan sonra onlara o vaxta kimi lazımi qədər yemək gətirir ki, daha onlar özləri özlərinə yemək əldə edə biləcək vəziyyətdə olsunlar, məsələn, sürfə çıxaran və yumurta qoyan heyvanlar beləlărindəndir. Amma diri bala doğan bütün heyvanların özlərində doğduqlarını qidalandırmaqdan ötrü, məhz süd adlandırılan maddə olur.

7. Eyni qayda ilə aydındır ki, və müşahidələrdən də belə nəticəyə gəlmək mümkündür ki, bitkilər canlı məxluqlara görə mövcuddur, heyvanlar isə-insanlara görə; ev heyvanları necə ki, evin adi həyat tələbatlarını ödəməkdən ötrü xidmət edir, eləcə də yeməkdən ötrudur, vəhşi heyvanlardansa hamısı olmasa da, böyük əksəriyyəti – yemək üçün, onlardan geyim almaq üçün və digər zəruri tələbatların ödənilməsi üçündür. Əgər, təbiət heç nəyi yarımçıq və nahaqdan yaratmır kəlamı doğrudursa, onda təsdiq etmək lazım gəlir ki, bütün yuxarıda göstərilənlər insanlar üçündür.

8. Buna görə həm də hərb sənətinə mülkiyyət əldə etmək üçün məlum dərəcəyə qədər təbii vasitə kimi baxmaq olar, axı ovçuluq sənəti hərb sənətinin bir hissəsidir: necə ki, vəhşi heyvanların, eləcə də yaranışından itaətdə bulunmaq alnına yazılmış itaət etmək istəməyənlərin ovuna çıxılır; bu cür müharibə öz mahiyyətinə görə ədalətlidir.

Beləliklə, qazanmaq bacarığının bir tərzi də öz mahiyyətinə görə təsərrüfat haqqında olan elmin bir hissəsidir və biz ya



gərək qəbul edək ki, bu öz-özünə mövcuddur, ya da bunun mövcudluğunu vəsait toplayanlar təmin edir ki, bu da həyat üçün zəruri, həm də dövlət və ailə münasibətləri üçün xeyirlidir. 9. Əsil zənginlik, görünür ki, bu vasitələrin məcmusundan ibarətdir. Axı mülkiyyətə sahiblik dərəcəsi, hansı ki, kifayət qədər yaxşı yaşamaqdan ötrüdür, hədsiz deyil; necə ki, Solon özünün bir şerində deyib: «insanlar üçün zənginliyin heç bir həddi göstərilməyib». Bu hədd vardır, necə ki, yerdə qalan bacarıqlarda mövcuddur: bütün bacarıqlarda bütün vasitələr özünün sayı və həcminə görə hədsiz deyil; zənginlik isə özundə iqtisadi və siyasi vasitələrin məcmusunu ifadə edir. Beləliklə, deyilənlərdən aydın olur ki, qazanmaq bacarığı öz mahiyyətinə görə hansı baxımdan və hansı səbəbdən təsərrüfat başçısının və dövlət xadiminin fəaliyyətinə aiddir.

10. Qazanmaq bacarığının bir növü də vardır ki, bunu sadəcə olaraq və çox qanunauyğun halda var-dövlət toplamaq bacarığı adlandırırlar, həm də bu bacarıqla, guya zənginlik və qazancın heç bir həddi yoxdur təsəvvürü bağlıdır. Çoxları hesab edir ki, bu bacarıq qazanmaq bacarığı ilə yaxın qonşuluğa görə axırıncı ilə eynilik təşkil edir; əslində, bu, adı çəkilənlə eyni deyil, lakin ondan uzaqda da deyil, onlardan biri öz mahiyyətinə görə, digəri-mahiyyətinə görə yox, daha çox məlum təcrübəyə və texniki uyğunlaşmaya görə mövcuddur.

11. Bu bacarığı təhlil edərkən aşağıdakı müddəaya əsaslanaçayıq. Sahiblik edilən hər bir şeydən iki cür istifadə etmək olur; hər iki halda bundan eyni cur deyil, elə beləcə də istifadə edilir; bir halda şeydən onun öz təyinatına görə istifadə edirlər, digərində-təyinatına görə yox; məsələn, ayaqqabıdan həm ona görə istifadə edirlər ki, onu ayağa geyinsinlər, həm də ona görə ki, onu nə ilsə başqa şeylə dəyişsinlər. Həm bu, həm də digər halda ayaqqabı faydalanma obyektidir: axı ayaqqabını ehtiyac ucundan pula, yaxud ərzaq məhsullarına dəyişən şəxs də,

ayaqqabıdan ayaqqabı kimi istifadə edir, amma təyinatına görə yox, belə ki, bu ondan ötrü deyil ki, dəyişdirilsin. Sahiblik edilən digər şeylərdə də iş bu cürədir-onların hamısı mübadilə əşyası ola bilər. Mübadilə ticarətinin ilkin inkişafı təbii səbəblərlə şərtlənmişdi, belə ki, insanlar həyat üçün zəruri olan əşyaların birinə çox, digərinə-az miqdarda yiyələnmişdilər. 12. Buradan həmçinin aydın olur ki, mahiyyətinə görə kiçik ticarətin var-dövlət toplamaq bacarığına heç bir aidiyyatı yoxdur, ona görə ki, ilk əvvəllər mübadilə yalnız ən zəruri tələbat əşyaları ilə məhdudlaşırdı. İlk icmada, yəni ailədə, şübhəsiz, mübadilə üçün heç bir ehtiyac olmayıb, onda ki, münasibətlər artıq daha çox miqdarda üzvləri əhatə etməyə başladı, bu labüd oldu. Doğrudan da ilkin ailədə hər şey ümumi idi; bölündükdə nə ki, başqalarına məxsusdur, əsasən, buna ehtiyac yaranmağa başladı və qarşılıqlı mübadiləyə əl atmaq qaçılmaz oldu. Bu mübadilə üsulu hələ bu günün özündə də barbar xalqlarının çoxunda tətbiq edilir. Onlar bir-birinin arasında yalnız zəruri əşyaları dəyiş-düyüş edirlər, başqa heç nə; məsələn, onlar şərabı çörəyə dəyişdirirlər və əksinə və i.a. 13. Bu cür ticarət mübadiləsi həm təbiətə zidd deyil, həm də qətiyyən cürbəcür var-dövlət toplamaq bacarığına aid deyil, zira onun rolu-müstəqil yaşamaq üçün təbiətlə əlbirlikdən nə çatmırsa, onun yerini doldurmaqdır. Amma buna baxmayaraq göstərilən mübadilə ticarətindən tamamilə məntiqi olaraq var-dövlət toplamaq bacarığı inkişaf etmişdir. Haçan ki, çatışmayan şeyləri gətirmək və artıq şeyləri kənara çıxarmaq üçün özgənin köməyinə daha çox ehtiyac yarandı, istər-istəməz sikkəyə tələbat hiss edildi, belə ki, zəruri olan hər əşyanı gətirmək heç də asan deyildi. 14. Bununla əlaqədar olaraq qərara alındı ki, qarşılıqlı mübadilə zamanı alıb-vermək üçün elə şey lazımdır ki, bu özü-özlüyündə qiymət kəsb etsin, bununla bərabər həm də gündəlik həyat üçün münasib olsun, məsələn, dəmir, gümüş, yaxud başqa şey; əvvəlcə sadə ölçü və çəki ilə bu cur əşyaların qiymətini təyin edirdilər, amma axırda bunları ölçməkdən azad olmaq üçün qiymət göstəricisi olan sikkələr nişanladılar. 15. Mübadilə etmək üçün bir zərurət kimi pul meydana çıxdıqdan sonra var-dövlət toplamaq bacarığının digər növü, məhz ticarət peyda oldu. İlk əvvəl bu iş ola bilsin çox zəif aparılırdı, amma sonradan, təcrübə artdıqca, mənbələr və üsullar mənasında təkmilləşməyə başladı ki, hansı ticarət dövriyyəsi daha çox gəlir gətirə bilər. Bax buna görə də belə bir təsəvvür yarandı ki, guya var-dövlət toplamağın məqsədi əsas etibarı ilə puldur və onun əsas vəzifəsi o mənbəyi araşdırmaqdan ibarətdir ki, ondan daha çox miqdar əldə etmək mümkün olsun, axı buna zənginlik və pul ələ gətirmək bacarığı kimi baxılır. 16. Zənginliyi isə tez-tez, məhz pulun həddindən artıq çox olması kimi başa düşürlər, həmin səbəbdən guya ki, var-dövlət toplamaq bacarığı və ticarət bu məqsədə doğru istiqamətlənmişdir. Bəzən, pul insanlara, həmçinin boş və tamamilə şərti şey, əslindəsə heç bir şey kimi görünür, belə ki, kim puldan istifadə edirsə, onunçün qiymətlidir, buna münasibəti dəyişərkən pul da tamamilə dəyərini itirəcək, gündəlik həyat üçün heç bir əhəmiyyət kəsb etməyəcək, belədə hətta çoxlu pula sahib olan adam özünə lazım olan qidanı tez-tez əldə etmək iqtidarında olmayacaq; bu cür var-dövlətin doğrudan-doğruya heç bir xeyri olmaya bilər və buna həddən artıq malik olan adam əfsanəvi Midas kimi acından ölə bilər, necə ki, tamahkar olduğuna görə öz arzusu ilə ona təklif edilən bütün təamlar qızıla çevrilmişdi.

17. Bütün yuxarıda göstərilənlərə görə o adam düzgün araşdırma yolu tutur ki, o, zənginlik və var-dövlət toplamaq bacarığını bir-birindən fərqli olan şeylər kimi şərtləndirə bilir. Doğrudan da, var-dövlət toplamaq bacarığı və zatən buna müvafiq olan zən-

ginlik ayrı-ayrı şeylərdir; var-dövlət toplamaq bacarığı təsərrüfat sahəsinə aiddir, lakin ticarət fəaliyyəti mülkiyyəti hər yolla deyil, yalnız mübadilə yolu ilə meydana çıxarır. Aydındır ki, ticarətin işi əsas etibari ilə pul nişanları ilədir, bu da lazımi şey kimi işlədilir, həm də hər hansı bir mübadilənin məqsədidir. Həmin var-dövlət toplamaq bacarığına uyğunlaşmaq nəticəsində yaranmış zənginliyinsə heç bir həddi yoxdur. İnsanın sağlamlığını mütləqləşdirmək üçün tibbin məqsədi hədsiz olduğu kimi, eləcə də hər bir bacarıq öz məqsədinə müvəffəq olmaq üçün hədsizdir və buna onlar hər şeydən çox cəhd göstərirlər, lakin bu vasitələr, hansılar ki, bacarığı müvəffəqiyyətlə onu məqsədinə doğru aparır, məhduddur, çünki bu halda məqsədin özü hər bir bacarıq üçün son həddir. Bunun kimi var-dövlət toplamaq bacarığında da heç vaxt məqsədə yetməkdən ötrü hədd olmur, burdakı məqsəd isə zənginlik və pul əldə etməkdən ibarətdir. 18. Əksinə, var-dövlət toplamaq bacarığında deyil, təsərrüfat sahəsində hədd vardır, belə ki, təsərrüfat pul toplamaq üçün deyil. Bununla bərabər aydındır ki, hər bir zənginliyin gərək öz həddi olsun, lakin, əslində, biz bunun əksinin baş verdiyini görürük: bütün pul dövriyyəsi ilə məşğul olanlar pulun miqdarını hədsiz dərəcəyə qədər artırmağa can atırlar. Buna səbəb hər iki sahənin sıx yaxınlığıdır: həm bu, həm də digəri öz məqsədinə nail olmaq üçün eyni vasitələrin tətbiqi zamanı bir-biri ilə toqquşur. Həm bu, həm də digər sahədə bir bərabərdə olmasa da eyni mülkiyyətdən istifadə olunur: bir halda məqsəd-nəsə başqadır, digərində-məhz onun özünü artırmaqdır. Buna görə də bəziləri bunu təsərrüfat sahəsinin son məqsədi hesab edir və bunda israr edirlər ki, əldə olunan pul vəsaitini ya saxlamaq, ya da bunu hətta hədsiz dərəcəyə qədər artırmaq üçün səy göstərmək lazımdır.

19. Bunun əsasında yaxşı həyata deyil, ümumiyyətlə, həyata can atmaq durur; bu yanğı hədsiz olduğundan həmin yanğını söndürməyə səbəb olan vəsaitlərə can atmaq həvəsi də hədsizdir. Hətta, yaxşı həyata can atan insanlar da onu axtarırlar ki, bu onlara cismani zövq bəxş edir və necə ki, onların təsəvvürünə görə bunu həyata keçirmək üçün vəsaiti mülkiyyət verir, onda bu cür insanların bütün fəaliyyəti yığmağa yönəlir. İkinci tərz var-dövlət toplamaq bacarığı bax bu yolla öz inkişafına çatmışdır. Cismani zövq bolluqdan yarandığı üçün həmin insanlar da onlara həddindən artıq zövq gətirə biləcək vəsaitləri axtarırlar. Əgər insanlar var-dövlət toplamaq bacarığının köməkliyi ilə öz məqsədlərinə yetə bilmirlərsə, onda onlar buna başqa yollarla cəhd göstərirlər və bundan ötrü hətta təbiətin ziddinə olsa da belə bütün imkanlarını işə salırlar. 20. Belə ki, məsələn, igidlik pul yığmaqdan deyil, şücaətdən ibarətdir, eləcə də hərb və həkimlik sənətləri pul yığmağı deyil, birinci-qələbə qazanmağı, ikinci-sağlamlıq gətirməyi nəzərdə tutur. Lakin bu insanlar özlərinin bütün qabiliyyətlərini pul yığmağa yönəldirlər, guya bu, məqsəddir, məqsədə yetmək üçün isə hər şeyə getmək lazım gəlir.

Mən zəruri olan var-dövlət toplamaq bacarığı haqqında bunları deməyi lazım bildim; mən, zatən onu təsvir etdim və o səbəbləri göstərdim ki, bunlara görə ona tərəf can atırıq. Zəruri olan var-dövlət toplamaq bacarığına gəldikdə mən onun qeyri-zəruri bacarıqdan fərqini göstərdim: zəruri bacarıq təsərrüfat sahəsinə aiddir, o, təbiətlə əlaqədardır, yaşamaq üçün vəsaitlərin əldə olunmasına doğru istiqamətləndirilmişdir və qeyri-zəruri bacarıq kimi hədsiz deyil, çünki özünün hüdudları vardır.

21. İndi əvvəldə qoyulan suala cavab da aydındır: var-dövlət toplamaq bacarığı təsərrüfat başçısının və dövlət xadiminin fəaliyyət sahəsinə aiddir, yoxsa daha yox? Doğrudur, zənn etmək olar ki, bu bacarıq artıq mövcud həqiqətdir. Axı siyasət də insanları yaratmır, lakin onları təbiət necə yaratmışsa elə də

qəbul edir. Eləcə təbiət də – torpaq, dəniz və s. – insanı gərək zəruri qida ilə təmin etsin; təsərrüfat başçısının vəzifəsi isə bundan ibarətdir ki, bu mənbələrdən nə əldə edilirsə, onlara müvafiq təyinat versin. Beləcə, toxuculuq sənətinin işi yun istehsal etmək deyil, yalnız hansı yunun keyfiyyətli və yararlı, hansının keyfiyyətsiz və yararsız olduğunu müəyyənləşdirməkdir.

22. Yenə də bir sual qoymaq mümkündür: nə üçün var-dövlət toplamaq bacarığı təsərrüfat sahəsinə aiddir, tibb isə yox? Axı sağlamlıq da qida və buna müvafiq həyati tələbatlar kimi ailə üzvləri üçün zəruridir. Bir tərəfdən təsərrüfat başçısı və hökmdar öz tabeçiliklərində olanların sağlamlığına qayğı göstərməlidir, digər tərəfdən isə bu iş onları deyil, həkimi qayğılandırmalıdır; eləcə də pula münasibətdə: bir tərəfdən pul vəsaitlərini təşkil etmək təsərrüfat başçısının ixtiyarındadır, digər tərəfdən-yox, lakin yardımçı təsərrüfat fəaliyyəti dairəsinə daxil olur; çox vaxt isə bu, əvvəldə qeyd edildiyi kimi, gərək əslində, belə də olsun. Axı təbiət yaratdığı məxluqun qida əldə etməsinin qayğısını çəkir. Hər bir belə məxluq öz qidasını sanki irsən o məxluqdan alır ki, hansı ki, onu həyata o gətirmişdir. Buna görə də hamı üçün təbiətlə uyğunluq təşkil edən yığmaq bacarığı barbəhərdən və heyvanlardan faydalanmaqdan ibarətdir.

23. Bu bacarıq, biz dediyimiz kimi, iki cür olur: bir tərəfdən o, ticarət sahəsinə aiddir, digər tərəfdən təsərrüfat sahəsinə, həm də nəzərə almaq lazımdır ki, axırıncı zərurətdən irəli gəlir və tərifə layiqdir, mübadilə fəaliyyəti isə qeyri-təbii səbəblərlə şərtləndiyindən haqqına pislənir, halbuki, [insanlar arasındakı] qarşılıqlı mübadilə [zərurət əsasında meydana çıxmışdır]. Buna görə də sələmçilik əsaslı surətdə nifrət doğurur, belə ki, bu, pulu mülkiyyətə çevirir, bununla da özünün o rolunu itirir ki, hansı ki, onlar bundan ötrü təşkil edilmişdi: axı onlar mübadilə ticarətindən ötrü meydana gəlmişdi, faizlərin alınması isə bilavasitə pul artımına gətirib çıxarır. Buradan da o, öz adını almışdır[4]; necə ki, uşaqlar öz valideynlərinə öxşamaq istəyirlər, eləcə də faizlər puldan əmələ gəlmiş puldur. Bu cür yığım çox vaxt təbiətin ziddinə olur.



IV. 1. Var-dövlət toplamaq bacarığı nəzəriyyəsini kifayət qədər təhlil etdikdən sonra, biz gərək məsələnin təcrübi tərəfinə keçək. Nəzəriyyədə bütün bu cür şeylər geniş meydan açır, halbuki təcrübə hər bir halda müəyyən şəraitlə bağlıdır. Var-dövlət toplamaq bacarığının təcrübi tərəfi işdə sahiblik edilən şeylərin əldə olunması təcrübəsinin mənimsənilməsindən ibarətdir: onlardan hansılar daha xeyirlidir, onları harda və necə əldə etmək olar; məsələn, at, inək, qoyun, eləcə də digər ev heyvanlarını alarkən, onu bilmək lazımdır ki, bu heyvanlardan hansı daha çox xeyir gətirir, onların hansıları hansı tərəflərdə olur, çünki ev heyvanlarından bəziləri bir yerdə daha çox artırlar, digərləri-başqa yerdə; buna görə əkinçilik haqqında, bundan başqa, sadəcə olaraq meyvəçilik, həmçinin arıçılıq və mənfəət əldə etmək mümkün olan digər üzən və uçan heyvanlar haqqında məlumatlı olmaq lazımdır.

2. Sozün əsil mənasında var-dövlət toplamaq bacarığının əsas mühüm sahələri bax bunlardır. Mübadilə fəailiyyətinin ən mühüm sahəsi isə ticarətdir. Bu da üç hissədən ibarətdir: dəniz ticarəti, tranzit ticarət və pərakəndə ticarət. Bunlar bir-birindən onunla fərqlənir ki, bəziləri daha az risklə bağlıdır, digərləri isə daha çox qazanc gətirir. Mübadilə fəaliyyətinin ikinci sahəsi pulu artıma verməkdən ibarətdir; üçüncü – öz əməyini pula satır; bu axırıncı öz tətbiqini qismən peşələrdə, qismən də o insanlarda tapır ki, onlar peşə qazanmaqda iqtidarlı deyillər və özlərini yalnız fiziki əməyin hesabına dolandırırlar. Nəhayət, var-dövlət toplamaq bacarığının üçüncü sahəsi bu sahə ilə

birinci arasında orta mövqe tutur, zira bu, o fəaliyyət sahəsinə aiddir ki, burada məqsəd təbiətlə münasib halda var-dövlət yığmaqdan ibarətdir, [bu, o fəaliyyət sahəsidir ki, burada, var-dövlət toplamaq] mübadilə yolu ilədir; bu üçüncü sahə özündə torpağa aid olmaq etibarı ilə, həm yerin üstündə yetişən, həm də sözün əsil mənasında bar-bəhər verməyən bütün şeyləri tamamlayır, bununla belə xeyir gətirir, necə ki, məsələn, meşələri yarmaq və mədən işlərinin bütün sahələri; axırıncının öz növbəsində bir çox sahəsi var, çünki yerdən çıxarılan mədən suxurları olduqca müxtəlifdir.

3. Var-dövlət toplamaq bacarığına aid olan sahələrin hər birinin ümumi əlamətləri haqqında bu qədər danışmaq kifayət edər. Əlbəttə, burada *əsaslı surətdə təfsilatı araşdırmaq* təcrübi nöqteyi-nəzərdən daha yaxşı olsa da, lakin bunların üstündə dayanmaq yersiz olardı. Sadalanan bütün fəaliyyət sahələrindən ən yaxşısı odur ki, orada təsadüflər az əhəmiyyət daşıyır, ən pisi-odur ki, orada bədən zədələnir, ən mütisi-odur ki, orada həddindən artıq fiziki qüvvə tələb olunur, ən qeyri-nəcibi isə-daha az xeyirxahlıq tələb olunanıdır.

4. Göstərilən şeylərin özlərinə dair ədəbiyyatları var, məsələn, Haret Parosskinin və Apollodor Lemnosskinin [5] həm adi, həm də meyvəçiliyi əhatə edən əkinçilik haqqında əsərləri, eynən başqa yazarların da bu cür şeylərə dair əsərləri var. Bunlarla maraqlananlar göstərilən əsərlərdən kifayət qədər məlumat ala bilərlər. Üstəlik, o hekayətləri də cəmləşdirmək faydalı olardı ki, onlarda bəzi insanlara necə var-dövlət toplamaq qismət olmasından danışılır. Bütün bunlar o adamların xeyrinə olacaq ki, onlar var-dövlət toplamaq bacarığına yaxşı münasibət göstərirlər. Miletli Fales haqqında hekayət də bu cür hekayətlər sırasına daxildir. 5. Bu, gələcəyi görüb, var-dövlət toplayan bir adam haqqındadır, bunusa Falesin müdrikliyini nəzərə alaraq onun adına çıxırlar, lakin buna ümumi nöqteyi-nəzərdən də baxmaq olar. Haçan ki, onu kasıbçılıq üstündə məzəmmətləyib iddia edirdilər ki, guya fəlsəfə ilə məşğulluq heç bir fayda gətirmir, nəql edirlər ki, onda o, astronomik məlumatlar əsasında qabaqcadan zeytunun bol məhsul verəcəyini görərək hələ qış qurtarmamış özündə olan kiçik məbləğ pulu Milet və Xiosdakı yağ zavodlarına börca verib, onlarla ucuz müqavilə bağlamışdı ki, onunla heç kim rəqabətə girməsin. Elə ki, zeytun yığımı vaxtı çatdı, əlüstü hamıya eyni vaxtda yağ zavodları lazım oldu, o da özünə sərfəli olan şərtlərlə yağ zavodlarını iltizama [6] verib çoxlu pul yığdı, sübut etdi ki, filosof istədiyi halda asanlıqla varlana bilər, lakin bu, onların can atdığı şey deyil. 6. Deyirlər ki, Fales beləcə öz müdrikliyini sübut etdi. Ancaq, ümumiyyətlə, biz dediyimiz kimi, var-dövlət toplamaq işində kiminsə hansı bir monopoliyanı əlinə keçirməsi faydalıdır. Buna görə də bir çox dövlətlər çətin maliyyə vəziyyətinə düşərkən gəlir əldə etmək üçün bu yola əl atırlar – onlar bu və ya digər mallar üzərində inhisar yaradırlar. 7. Belə ki, Siciliyada bir nəfər dəmirçi emalatxanalarından, ona faizlə verilən pula, bütün dəmirləri alır, sonra qalvaneydən tacirlər gələn zaman bir inhisarçı *kimi onun adi qiymətindən bir balaca yuxarı dəmirləri* satmağa başlayır. Beləliklə də o, əlli talantdan yüz qazanır. 8. Bundan xəbər tutan Dionisi[7] əmr çıxarır, bununla da həmin adama pulları özü ilə aparmaq icazəsi verilir, lakin onun özü Sirakuzanı tərk etməli idi, çünki o, elə gəlir mənbəyi tapmışdı ki, bu, Dionisinin maraqlarına ziyan vururdu. Falesin və siciliyalının tapıntısı eynilik təşkil edir: onlar ikisi də özlərinə monopoliya yarada bilmişdilər. Bu cür məlumatları əldə etmək siyasi xadimlər üçün də faydalıdır: ailələr kimi əksər dövlətlər də bundan daha artıq dərəcədə pul vəsaitlərinə və bu cürə gəlirlərə ehtiyac duyurlar. Elə dövlət xadimlərinə rast gəlinir ki, onların bütün fəaliyyətləri bu məqsədə doğru yönəlmişdir[8].

V. 1. Təsərrüfat haqqında olan elm üç cür səlahiyyəti təxmin edir: birincisi, ağanın qula münasibətdə səlahiyyəti (bu barədə biz yuxarıda danışmışdıq); ikincisi, atanın övladlarına qarşı münasibəti, üçüncüsü, ərin arvadına qarşı münasibəti. Həqiqətən, sərbəst məxluqlar kimi həm arvad üzərində, həm də övladlar üzərində səlahiyyət var, lakin bu səlahiyyət eyni tərzdə həyata keçirilmir. 2. Ərin arvadı üzərində səlahiyyətini siyasi xadimin səlahiyyəti ilə, atanın övladları üzərində səlahiyyətini – çarın səlahiyyəti ilə müqayisə etmək olar. Axı kişi öz xüsusiyyətlərinə görə bu və ya digər qeyri-normal işlərinin üstündən keçmək şərti ilə rəhbərlik etməyə qadından daha çox iqtidarlıdır, yaşlı və kamil adam isə cavan və kamilləşməmiş adama nisbətən yaxşı rəhbərlik edə bilər.

Dövlət vəzifələrinin əksəriyyətinə adam təyin edilən zaman ardıcıllığa riayət olunur: həm bunlar, həm də digərləri tamamilə təbii olaraq bərabərliyə və bütün fərqlərin aradan qaldırılmasına can atırlar. Bununla belə haçan ki, bəziləri hökm sürür, qalanları isə tabeçilikdə qalır, yenə də bunları və o biriləri onların xarici görünüşləri, onların danışıqları və yaxşı mənada seçilən əlamətlərinə görə fərqləndirmək cəhdi ortaya çıxır. Yeri gəlmişkən Amasis də özünün ayaq yuduğu qab haqqında danışarkən elə bunu nəzərdə tuturdu[9]. Kişinin qadına qarşı münasibəti həmişə yuxarıda göstərilən tərzdə müəyyən edilir. Atanın övladı üzərində səlahiyyətini isə çarın səlahiyyətinə bənzətmək olar: valideynin övladları üzərində ağalıq etməsi onlara qarşı olan məhəbbətdən, həm də onun onlardan böyük olmasından irəli gəlir, bu cür ağalıq da bilavasitə çar hakimiyyətinin özüdür ki, var. Buna görə də Homer Zevsi hamının hökmdarı kimi «insanların və allahların atası» adlandıranda çox gözəl ifadə işlətmişdir. Çar öz xüsusiyyətlərinə görə təbəələrindən seçilmişdir, lakin onlarla eyni soydan olmalıdır. Bu, böyüklə kiçik və valideynlə uşaq münasibətinə də aiddir.

3. Aydındır ki, təsərrüfatda cansız mülkiyyətin əldə olunmasından çox insanların, əvvəlincinin bolluğundan çox (nəyi ki, biz var-dövlət adlandırırıq, onu) axırıncının məziyyətlərinin, quldan çox azad insanların qeydinə qalmaq lazımdır. Hər şeydən öncə qullar xüsusunda sual meydana çıxa bilər: ümumiyyətlə, qullarda işə yaramaqdan və xidmət göstərməkdən savayı hər hansı bir başqa məziyyətin olması ağla batandırmı? Qul digər daha yüksək, məsələn, təvazökarlıq, comərdlik, doğruculuq və bu kimi xüsusiyyətlərə malikdirmi? Yoxsa özünün fiziki qüvvəsi hesabına xidmət göstərmək qabiliyyətindən savayı heç bir başqa kefiyyətə malik deyil. «Hə» və «yox» cavabı vermək çətin olardı. Əgər hə, onda onlar azad insanlardan nə ilə fərqlənirlər? Əgər yox, bu qəribə olardı, zira axı, qullar da – zəka sahibidirlər. 4. Təxminən bu cür çətinliklər qadın və uşaq barəsindəki məsələləri də araşdırarkən meydana çıxır: onlar məziyyətlərə malikdirlərmi, axı, qadın gərək təvazökar, comərd və doğrucu olsun, uşaq necə, özbaşınadırmı, təvazökardırmı, ya yox? Bu məsələyə əlavə olaraq, zatən alnına itaətdə bulunmaq yazılmış məxluqla, zatən alnına hökm sürmək yazılmış məxluqun məziyyətlərinin eyni, yoxsa bir-birindən fərqli olmasına ümumi nöqteyi-nəzərdən baxmağa dəyər. Əgər mükəmməllik bu hər iki məxluqa xasdırsa, bəs onda nədən həmişəlik onlardan birinin alnına hökm sürmək, digərinin alnına isə – itaətdə bulunmaq yazılmışdır. Bu fərq isə bu və digər məxluqa xas olan mükəmməlliyin çox və ya az olmasına əsaslanmalıdır, zira «itaətdə bulunmaq» və «hökm sürmək» anlayışlarının özləri bir – birindən kəmiyyət cəhətcə deyil, keyfiyyət cəhətcə fərqlənir.

5. [Mükəmməlliyi] bir qisim adamda qəbul edib, qalanlarında danmaq çox qəribə olmazdımı? Axı əgər rəhbərlik edən təm-

kinli və ədalətli olmasa onun hökm sürməsi necə yaxşı ola bilər? Eləcə də itaətdə bulunan bu məziyyətlərə malik olmasa o, necə yaxşı xidmət göstərə bilər? Azğın və alcaq adam heç cür öz vəzifəsini yerinə yetirə bilməz. Beləliklə, aydındır ki, hər ikisi də məziyyətlərə malik olmalıdır, lakin bu məziyyətlər, zatən hökm sürənlərlə itaətdə bulunanlar bir-birilərindən neçə fərqlənirlərsə, elə də fərqlənməlidir.

Bu fərq bizi bilavasitə ruhun xüsusiyyətlərini araşdırmağa sövq edir. Bunun bir səbəbi, zatən hökm sürən, digəri – itaətdə bulunandır; onlar, biz iddia etdiyimiz kimi, özlərinə müvafiq məziyyətlərə malikdir ki, bu da ağıllı və ağılsız səbəblərin məziyyətləridir. 6. Aydındır ki, bu cür münasibət başqa sahələrdə də mövcud olmalıdır, zatən hökm sürməyin və itaətdə bulunmağın cürbəcür üsulları mövcuddur. Axı azad adamın qul üzərindəki səlahiyyəti kişinin qadına qarşı, böyük adamın isə uşağa qarşı olan münasibətindən fərqlənir.

Beləcə, qula, ümumiyyətlə, qərar çıxarmaq xas deyil, bu qadına xasdır, lakin təsir qüvvəsi yoxdur, həmçinin uşağa da xasdır, lakin o, yetkinləşməmiş vəziyyətdədir. 7. İş, bu minvalla, əxlaqi cəhətlərin üstünə gəlib çıxır: bütün məxluqlarda bunların olmasını nəzərə almaq lazımdır, lakin eyni tərzdə deyil, hər kəs üçün vəzifəsinə müvafiq surətdə. Buna görə də rəhbərlikdə olan gərək bütünlüklə əxlaqi cəhətlərə malik olsun (həqiqətən, əsər sadəcə olaraq yaradıcıya məxsus olsa da, əsil yaradıcının özü – ideyadır), yerdə qalanların isə hər biri buna o qədər malik olmalıdır ki, onun payına düşən həmin bu qədər ümumi məsələlərin həllində iştirak etməyə kifayət etsin. 8. Belə ki, Sokrat hesab etdiyi kimi qadına və kişiyə təkcə bir təvazökarlıq, yalnız elə comərdlik və doğruçuluq xas deyil, görünür, yuxarıda adları çəkilənlərin hamısı xüsusi məziyyətə malikdir, lakin bir comərdlik başçıya xasdır, digəri – nökərə; digər məziyyətlər də elə bu



cür. Bu, məsələyə bir az dərindən yanaşanda da aydın olur. O adamlar yanılır ki, onlar ümumi nöqteyi-nəzərə tərəfdar çıxıb iddia edirlər ki, guya vəziyyətin yaxşı olması, yaxud düzgün həyat tərzi və s. elə məziyyətin özüdür ki, var. O adamlar nisbətən düzgün hərəkət edirlər ki, onlar Qorgiya kimi məziyyəti müəyyən qrup adamlara aid edirlər. Məsələn, şairin qadın haqqında dediyi: «Susmaq qadının yaraşığıdır» sözü, ümumiyyətlə, bütün qadınlara eyni dərəcədə şamil edilməlidir, lakin bunun artıq kişilərə heç bir dəxli yoxdur. 9. Buna görə uşağın yektinləşmədiyini nəzərə alaraq, şübhəsiz, onun özlüyündə əhəmiyyəti olan məziyyətindən danışmaq olmaz, ancaq hər halda bunun uşağın sonrakı inkişafına və onu dolandıran adama aidiyyatı var. Qulun ağaya olan münasibətində onun məziyyəti haqqında da bunu demək olar.

Biz müəyyənləşdirdik ki, qul gundəlik tələbat işləri üçün yararlıdır. Buradan aydındır ki, o, az da olsa məziyyətə malik olmalıdır, məhz eləsinə ki, onun özbaşınalığı və ölüvaylığı gördüyü işlərə ziyan gətirməsin. 10. Əlbəttə, ortaya sual çıxa bilər: bizim müddəamız sənətkarlara da aid edilə bilərmi, onların özbaşınalığı tez-tez öz işlərinə ziyan vurduğu halda onlar da məziyyətə malik olmalıdırmı? Yoxsa burda biz tamamilə ayrı bir hadisə ilə üzləşirik? Axı qul həmişə öz ağası ilə qarşılıqlı münasibətdə yaşayır; sənətkar bundan xeyli uzaqdır, buna görə də sənətkar özünün məziyyəti ilə qulu, nə qədər ki, sənətkar əməyi qul əməyindən yüksəkdə durur, bir o qədər üstələməməlidirmi? Aşağı səviyyəli işlə məşğul olan sənətkar hansısa məhdudlaşdırılmış köləliyə yaxın vəziyyətdə olur; qul artıq yaranışından bu cürdür, lakin nə çəkməçi, nə də başqa peşə sahibi yaranışından belə olmur. 11. Aydındır ki, qulda xeyirxahlığın olması üçün ağa ona lazımi stimulu verməlidir, hərçənd ki, bu xeyirxahlığı qula öyrətmək onun vəzifəsi deyil. O adamlar düz danışmırlar

ki, onlar qulla danışmağın lüzumsuzluğunu, ona yalnız sərəncam verməyin lazım olduğunu iddia edirlər; yox, uşaqdan çox qula nəsihət vermək lazımdır.

Lakin biz bu məsələləri kifayət qədər əhatə etmişik; ərlə arvadın, ata ilə övladın münasibətləri haqqında, onların hər birinə xas olan məziyyətləri haqqında, bir çox hallarda rifaha yetmək üçün, digər hallarda isə – qada-baladan uzaq olmaq üçün – hansı yolu seçmək haqqında, bütün bunları dövlət quruluşunu araşdırarkən şərh etmək lazımdır.

12. Hər bir ailə dövlətin hissəsini təşkil etdiyindən, yuxarıda göstərilən bütün adamlarsa ailənin hissələridir və ayrı-ayrı hissələrin məziyyətləri tamın məziyyətlərinə uyğun gəldiyindən uşaq və qadınlar mütləq dövlət quruluşuna müvafiq surətdə tərbiyə olunmalıdır; həm də layiqli quruluşa cəhd göstərən dövlət əgər buna laqeyd deyilsə, onda həmçinin layiqli uşaq və qadınlara da malik olmaq lazımdır, çünki qadınlar bütün azad insanların yarısını təşkil edir, uşaqlardan isə sonralar siyasi həyatın istirakçıları inkişaf edir. Buna dair olan əsas müddəalar bizim tərəfimizdən müəyyən edilib, yeri düşdükcə də bu barədə söhbət gedəcək. Bunu nəzərə alaraq biz özümüzün hazırkı mühakimələrimizi bitmiş hesab edib bir kənara qoyuruq və təzə başlığa keçirik. Hər şeydən öncə o müəlliflərin layihələrini araşdıracayıq ki, onların dövlət quruluşuna dair verdikləri layihələr ən yaxşılarındandır.



## İKİNCİ KİTAB (B)

I. 1. Biz öz qarşımıza insanlara onların cəhdlərinə görə böyük imkanlar verən münasibəti daha mükəmməl formada araşdırmağı məqsəd qoyduğumuz üçün, o mövcud dövlət quruluşlarını araşdırmaq lazımdır ki, bunlardan bir tərəfdən abad hesab edilən bəzi dövlətlər istifadə edirlər, digər tərəfdən isə bir sıra *müəlliflər* tərəfindən layihələşdirilib, yaxşı kimi görünürlər. Beləliklə, bunlarda düzgün və yararlı nə varsa, bizim onu aşkar etmək imkanımız olacaq, bununla bərabər sübut da edəcəyik ki, bizim məqsədimiz nəyin bahasına olursa olsun əllaməlik etmək yox, elə bir dövlət quruluşu tapmaqdır ki, mövcud olanlardan fərqlənsin, çünki hazırkı mövcud quruluşlar özləri yararsızdır.

2. Hər şeydən öncə o nöqteyi-nəzəri müəyyənləşdirmək lazımdır ki, bu hal-hazırkı mühakimədə çıxış nöqtəsi rolunu oynasın, yəni: ya mütləq bütün vətəndaşlar ölkə həyatına aid olan bütün işlərdə iştirak etməli, ya heç birində iştirak etməməlidir, ya da bəzilərində iştirak etməlidir, bəzilərində – yox. Aydındır ki, vətəndaşların heç bir işdə iştirak etməməsi mümkün deyil, çünki dövlət özündə nə isə bir münasibəti təmsil edir, buna görə də hər şeydən öncə birlikdə müəyyən yer tutmaq lazımdır; axı bir dövlətin tutduğu yer özündə müəyyən birliyi təmsil edir, vətəndaşlar isə bir dövlətin şərikləridirlər **(koinonoi).** Lakin vətəndaşlara ölkə həyatında nə dərəcədə iştirak etməyə imkan vermək olar? Daha yaxşı dövlət qurmağa cəhd göstərməkdən gözəl nə ola bilər: hər şey imkan daxilində vətəndaşların ümumi malı olsun, yaxud bəzi şeylər ümumi olsun, bəziləri isə – yox? Axı uşaqların, qadınların, mülkiyyətin ümumiliyini təsəvvür etmək olar, necə ki, Platonun «Dövlət» əsərində Sokratın uşaqlar da, qadınlar da, mülkiyyət də gərək ümumi olsun fikrinə rast gəlirik. Hansı yol daha yaxşıdır: hal-hazırda mövcud olan, yoxsa «Dövlət» də göstərilən.

3. Qadınların hamıda ümumi olmasına gəldikdə isə bu nəzəriyyə çoxlu müxtəlif çətinliklərlə üzləşir, həm də Sokratın bu qanunun müdafiəsi üçün gətirdiyi əsas, görünür, onun öz düşüncəsindən süzülüb gəlmir. Üstəlik, bu müddəa həmin o axır məqsədlə də hec cür uzlaşmır, hansı ki, bunun həyata keçməsi, onun sözləri ilə desək dövlət üçün zəruridir. Bəs heç bir müəyyənləşdirmə aparılmadığı halda biz onun mühakiməsini necə düzgün başa düşək. Mən Sokratın fikrini nəzərdə tuturam: hər şeydən öncə hər bir dövlət üçün imkan daxilində yaxşı olardı ki, o, özündə birliyi təmsil etsin; məhz bu ilkin şərti Sokrat öz müddəasının əsası hesab edir.

4. Aydındır ki, dövlət öz birliyini daima gücləndirdiyi halda dövlət olmaqdan kənarda qalacaq. Axı özlüyündə dövlət nə isə bir çoxluğu təmsil edir. Əgər o, birliyə cəhd göstərirsə, bu halda dövlətdən ailə əmələ gəlir, ailədən isə ayrıca adam: hər kəs bununla razılaşar ki, ailə dövlətdən, bir adam isə – ailədən öz birliyi ilə seçilir. Beləliklə, kimsə bunu həyata keçirmək iqtidarında olsa idi, onda hər halda bu işi etmək də lazım deyildi, çünki o zaman o, dövləti məhv edərdi. Bundan başqa dövlətin tərkibi yalnız ayrı-ayrı insan yığınından ibarət deyil, həm də onlar bir-birindən öz keyfiyyətlərinə **(eidei)** görə fərqlənirlər; axı dövləti formalaşdıran hissələr eyni ola bilməz. Dövlət – hərbi birlik kimi deyil: hərbi birlikdə yalnız üzvlərin miqdarı əhəmiyyət daşıyır, halbuki onların hamısı keyfiyyət cəhətcə eynidir; axı bu cür birlik yardım göstərməkdən ötrü yaradılır və bu, o tərəzini xatırladır ki, onun bir gözü digərindən ağır gəlir. 5. Dövlət, eləcə də tayfa birliyindən seçilir, onu təşkil edən adamların sayının nə qədər çox olduğunu fərz etsək də belə, onlar da, məsələn, arkadlılar kimi öz yaşayış məntəqələrindən ayrı yaşamırlar. Birlik nədən təşkil olunursa, bunlar keyfiyyətcə bir-birindən fərqlənir. Bu səbəbdən də bundan əvvəl «Etika» əsərində deyildiyi kimi



qarşılıqlı əvəzvermə prinsipi dövlət üçün xilasedicidir; bu prinsip azad və bərabər adamlar arasındakı münasibətdə özünü göstərməlidir, çünki onların hamısı eyni bir vaxtda hökm sürə bilməz, ya ildə biri, ya hasısa bir başqa qaydada, ya da, ümumiyyətlə, dövri surətdə. Onda belə çıxır ki, hamı idarə edir, əgər çəkməçilər və dülgərlər öz peşələrini dəyişməyə başlasalar, əsla eyni adamlar həmişə çəkməçi və dülgər kimi qalmazdılar. 6. Lakin...[1] bu qaydanı dövlət münasibətlərinə tətbiq edərkən daha da mükəmməl olur və görünür, imkan daxilində eyni adamların idarəçiliklə məşğul olması daha yaxşı olardı. Lakin bunu bəzi halları nəzərə almasaq çətin ki, həyata keçirmək mümkün olsun: bir tərəfdən, zatən hamı bərabərdir, digər tərəfdənsə – ədalət tələb edir ki, gərək idarəetmədə – idarə etmək yaxşıdırmı, pisdirmi – hamı iştirak etsin. Bu üsul bərabər adamların öz yerlərini bir-birinə güzəştə getməsinə bənzəyir, elə bil hakimiyyətdə bərabər surətdə təmsil olunmaqdan savayı, onların bir-birlərinə bənzərlikləri də vardır; sanki növbə ilə dəyişə-dəyişə bir para adam hökm sürür, digərləri isə itaətdə bulunur. Bu halda da müxtəlif adamlar eyni bir vəzifəni tutub qalmırlar.

7. Deyilənlərdən aydın olur ki, dövlətdə, bəzilərinin istədiyi kimi, zatən bu dərəcəyə qədər birlik ola bilməz; o şeylər ki, dövlətlər üçün ən zəruri şey kimi qələmə verilir, bu onları məhvə doğru aparır, hərçənd ki, hər şeyə xas olan yaxşı şey onun qorunub saxlanmasına xidmət edir. Başqa yolla da sübut etmək olar ki, dövlətin həddindən artıq tam olmasına cəhd göstərmək heç də yaxşı deyil: ailə ayrı-ayrı adamlara, dövlət isə – ailəyə nisbətən daha müstəqildir, dövlət də o halda mövcud olur ki, çox şeyi özündə bir tam kimi birləşdirib müstəqilləşsin. Müstəqilliyin çox olması nə qədər yaxşıdırsa, bütövlüyün də çox deyil, az olması daha məqsədəuyğundur.

8. Lakin hətta bununla razılaşsaq ki, ən zəruri şey münasibətin son həddə çatana qədər birliyindədir, yenə də vəziyyət hamı deyəndə ki: «Bu mənimdir» və «Bu mənim deyil», bu cür birliyi göstərməyəcək, halbuki, Sokrat, məhz bunu dövlətin mükəmməl birliyinin əlaməti hesab edirdi. Əslində, «hamı» ifadəsi ikimənalıdır. Əgər [«hamı» sözünün mənasını] «hər kəs ayrılıqda» kimi anlasaq, onda Sokrat nəyi arzulayırdısa, onun həyata keçməsinə tezliklə nail olmaq mümkün olardı; hər kəs eyni bir oğlanı, yaxud, eyni bir qadını nəzərində tutub deyərdi: «Bu mənim oğlumdur», «Bu mənim arvadımdır» və eləcə də o, mülkiyyət və ümumiyyətlə, hər şey barəsində bu cür düşünərdi. 9. Lakin, həqiqətən, ümumi arvad və uşaqlara malik olsalar, onda «Bu mənimdir» ifadəsini işlədən olmayacaq, hər kəs belə deyəcək: «Bu bizimdir»; eləcə də hamı mülkiyyətə ayrı-ayrı adamlara deyil, ümumə mənsub olan şey kimi baxacaq. Beləliklə, «hamı» sözü açıq-aydın bir qədər aldadıcı ifadədir: «hamı», «hər iki», «cüt», «tək» kimi sözlər ikimənalı olduğundan mühakimələr zamanı mübahisələr doğurur. Buna görə də hamının eyni cür, birmənalı danışması bir tərəfdən yaxşı olsa da, lakin bunun həyata keçməsi mümkün deyil, digər tərəfdən isə heç bir vəchlə birmənalı danışmaq lazım deyil.

10. Üstəlik, Sokratın müddəası özünü başqa bir pis tərəfdən də göstərir, o şey ki, həddindən artıq adama məxsusdur, onun qeydinə daha az qalınır. İnsanlar ən çox şəxsən onların özlərinə məxsus olan şeylərin qeydinə qalırlar, ən az isə o şeylərin qeydinə qalırlar ki, onlar ümumə məxsusdur, yaxud hər kəs bu şeylərin ona nə qədər dəxli varsa, o qədər də onların qeydinə qalır. Bütün bunlardan başqa insanlar necə ki, bunu ev xidmətçisinə qarşı edirlər, eləcə də kənardan göstərilən qayğıya etinasız yanaşırlar: sayca çox xidmətçi, bəzən aza nisbətən daha zəif qulluq göstərir.



11. Hər cür vətəndaşın min oğlu olacaq, onlar da oğul hesab ediləcək və kiminsə təklikdə oğlanları olmayacaqlar, lakin istənilən hər kəs eyni dərəcədə istənilən adamın oğlu olacaq, beləliklə hamı eyni qaydada atasına laqeydlik göstərəcək. Bundan əlavə belə bir halda hər kəs nə qədər firavan yaşayan, yaxud yoxsulluq çəkən vətəndaş varsa, onlar haqqında «mənimdir» deyəcək; məsələn: «Bu mənimdir», yaxud «Bu filankəsindir» deyərək ölkədə min nəfərdən hər birinin, yaxud nə qədər vətəndaş varsa onların adlarını çəkəcək, bununla belə hətta dediklərinə şübhə də edəcək. Axı bu, yaxud digər uşağın kimdən olması və onun anadan olandan sonra salamat qalması naməlum olacaq. 12. «Mənimdir» ifadəsini hər hansı şey üçün hansı mənada işlətmək daha yaxşıdır, bu ifadəni fərq qoymadan iki min, yaxud on min şeyə aid etməkmi, yaxud bunu o mənada işlətmək ki, hansı ki, müasir dövlətlərdə «mənimdir» kimi başa düşülür? Hal-hazırda eyni bir adamı biri özünün oğlu, digəri – özünün qardaşı, üçüncüsü – özünün əmisi oğlu, yaxud hansısa bir qan qohumu, yaxud da əvvəl onun özu ilə, sonrasa yaxınları ilə qudalaşdığına görə qohum adlandırır. Üstəlik, biri digərini frator, yaxud flet adlandırır. Axı sözün həqiqi mənasında əmi oğlu olmaq bu mənada oğul olmaqdan yaxşıdır. 13. Hər necə olsa bəzi vətəndaşların bu və yaxud digərlərini özlərinin qardaşları, övladları, ataları, anaları kimi tanıması hallarından hər halda qaçmaq mümkün olmayacaqdır: uşaqlar və valideynlər arasında mövcud olan zahiri oxşarlıq, şubhəsiz, onların həqiqətən, qohum olmasını sübuta yetirən dəlilə çevriləcəkdir. Təsviri coğrafiya ilə məşğul olanların dediklərində də bu cür şeylərə rast gəlmək olur. Yuxarı Liviyanın bəzi tayfalarında arvadlar ümumidir, təzə doğulanlar isə valideynlər arasında oxşarlığına görə müəyyən edilir. Hətta bəzi heyvanlarda, məsələn, at və inəklərdə dişinin doğduğu balalar onları törədənlərə çox oxşa-

yırlar; buna misal kimi ədalət ləqəbli farsal madyanını göstərmək olar.

14. Üştəlik, kimlər bu kimi birliyi layihələşdirirsə, onlar üçün təhqir, qəsdən və qərəzsız adam öldürmək, dava-dalaş, söyüşmə kimi pis hadisələri aradan qaldırmaq çətindir; bütün bunlar isə yad adamlara qarşı olmasa da atalara, analara və yaxın qohumlara qarşı münasibətdə günahdır. Bununla belə bütün bunlar istər-istəməz baş verir, ən çox da o halda ki, öz yaxınlarını tanımırsan, tanıdığın halda yenə də gördüyün işləri, günahı yüngülləşdirmək üçün müəyyən edilmiş qaydalarla yumaq olar, amma tanımadığın halda bunu etmək olmur. 15. Həmçinin nəzərdə tutulmuş oğulların ümumiliyi məsələsində sevişənlər arasında olan cinsi əlaqəni istisna etmək də mənasızdır, sevişməyə isə heç bir maneçilik törədilmir, eləcə də ata ilə oğul, yaxud qardaşlar arasında çox ləyaqətsiz münasibətlərin olmasına mümkünat verilir, heç olmazsa, bunlar müstəsna olaraq məhəbbət hislərinə əsaslanaydı. Cinsi əlaqələri, yalnız bundan ən yüksək dərəcədə həzz alındığına görə istisna etmək mənasız olardı, həm də söhbətin ata və oğul haqqında, yaxud qardaşlar barəsində getdiyini də nəzərdən qaçırmaq olmaz. Deyəsən axı, qadınların və uşaqların ümumi olması keşikçilərdən çox əkinçilərə uyğun gəlir; uşaqlar və qadınlar ümumi olduqları halda dostluq duyğuları az olur, itaətdə bulunan adamlar isə gərək iğtişaşçı deyil, sözəbaxan olmaları ilə fərqlənsinlər. 16. Ümumiyyətlə, düşünülmüş qanun nəticə etibarı ilə ortaya çıxması lazım olan qanuna istər-istəməz zidd olur və Sokrat da bunu nəzərə alıb qadın və uşaqlar üçün, məhz bu cür qanunun olmasını lazım bilirdi. Bizsə hesab edirik ki, dostluq münasibətləri – dövlət üçün ən zəruri şeydir (axı münasibətlər belə olduqda ixtilaf daha az olur), Sokratın özü də ən çox dövlətin birliyini təqdir edirdi, bu birlik isə, görünür, onun özünün iddia etdiyi



dostluq münasibətlərinin nəticəsidir (bu haqda məlum olduğu kimi Aristofan özünün məhəbbətə dair çıxışında deyirdi ki, məhz sevənlər özlərinin dərin məhəbbətləri nəticəsində bu bağlılığa can atırlar, cəhd edirlər ki, iki can bir olsun).

17. Beləliklə, iki nəfər, yaxud onlardan biri istər-istəməz özünü qurban verir;birlik kimi layihələşdirilən dövlət isə dostluğun möhkəmləndirilməsinə gətirib çıxarardı, həm oğul atanı, həm də ata oğlunu özününkü hesab edə bilərdi. Bunun kimi az miqdarda şirnini çox miqdarda su ilə qarışdıranda necə ki, dadında heç bir dəyişiklik duyulmayan qatışıq əmələ gəlir, birbirinə bağlılıq da yalnız dildə mövcud olanda eynən belə olur; amma düşünülmüş dövlət quruluşunda oğul atanın, ata oğulun, qardaş qardaşın qeydinə, əlbəttə, hər şeydən az qalacaq. Axı insanlar ən çox o şeyin qeydinə qalıb onu sevirlər ki, birincisi, bu onlara məxsus olsun, ikincisi isə bu onlar üçün əzizdir, lakin nə bunu, nə də o birisini bu cür dövlət quruluşu olduğu halda insanlar arasında təsəvvürə gətirmək olmur.

18. Təzə doğulmuş uşaqların yerlərinin əkinçilər və sənətkarlar zümrəsindən keşikçilər zümrəsinə və əksinə keçirilməsi məsələsində çoxlu dolaşıqlıqlar vardır. Bu yerdəyişmə necə həyata keçiriləcəkdir? Verən və dəyişdirən şəxslər bilməlidirlər ki, onlar hansı uşağı kimə verirlər. Bu zaman, bir az əvvəldə qeyd etdiyimiz kimi, məhz qalmaqal, dava, qətl halları istər-istəməz daha artıq dərəcədə meydana çıxacaqdır; axı başqa zümrəyə verilmişlər keşikçiləri özlərinin qardaşları, övladları, ataları, anaları adlandırmayacaq, habelə keşikçilər içərisindən də heç kim digər vətəndaşları bu cür çağırmayacaq. Bu, ona gətirib çıxaracaqdır ki, qohumlara qarşı yolverilməz hərəkətlər etməkdən daha çəkinən olmayacaqdır. Beləliklə, bizim uşaq və qadınların ümumi olması barədə fikirlərimiz bax bu qədərdir.

II. 1. Bunun ardınca mülkiyyət haqqında məsələni nəzərdən keçirmək lazımdır. Bu, ən yaxşı dövlət quruluşuna cəhd göstərənlərdə necə təşkil olunmalıdır – mülkiyyət ümumi olmalıdır, yoxsa yox? Uşaq və qadınlara aid məsələyə qanundan kənarda da baxmaq olar. Mən aşağıdakıları nəzərdə tuturam: əgər hətta uşaq və qadınlar, necə ki, bu indi hamı tərəfindən belə qəbul edilib, ayrı-ayrı şəxslərə məxsus olmalıdır, onda mülkiyyətin ümumi olması və bundan ümumən istifadə etmək yaxşıdırmı...[2] Yaxud, əksinə, qoy torpaq ümumi olsun və birgə becərilsin, buradan götürülmüş məhsul isə ayrı-ayrı şəxslər arasında bolüşdürülsün (deyirlər ki, elə bu cür bəzi barbarlar da ümumi torpağa malikdirlər). Yoxsa ki, nəhayət, həm torpaq sahələri, həm də bunlardan götürülən məhsul ümumi olmalıdır? 2. Əgər torpağın becərilməsi xüsusi adamlara həvalə edilərsə, onda bütün işləri başqa cür qurmaq və yüngül həll etmək olardı, lakln əgər əkinçilərin özləri yalnız özləri üçün çalışırlarsa, onda mülkiyyətlə bağlı məsələlərin həlli əhəmiyyətli dərəcədə böyük çətinliklərlə üzləşəcək. İşdə və ondan alınan nəticələrdə bərabərlik əldə etmək mümkün olmadığından – əksinə, burdakı münasibət bərabər deyil, – istər-istəməz az işləyib çox alanlarla, çox işləyib az alanların dedi-qodusu başlayır. 3. Ümumiyyətlə, bir yerdə yaşamaq və insanların qarşılıqlı münasibətlərinə aid olan bütün ümumi işlərdə iştirak etmək asan deyil, ələlxüsus da bu halda. Bir yerdə səyahətə çıxan dəstəyə diqqət yetirsək, görərik ki, iştirakçıların çoxu adi, mənasız şeylərin üstündə bir-birləri ilə düz gəlmirlər və bunun üstündə də araları dəyir. Biz də ən çox o ev xidmətçiləri ilə çənələşirik ki, onların qulluğundan gündəlik istifadə edirik. Mülkiyyətin ümumiliyinin bu və bu kimi çətinlikləri var.

4. Buna görə də mülkiyyətdən istifadə etməyin o üsulu üstünlük təşkil edir ki, o, əziz tutulan adət-ənənəyə və nizama



salınmış düzgün qanuna istinad edir, necə ki, hal-hazırda qəbul olunub: bu, özündə hər iki üsulun yaxşı tərəflərini birləşdirir, mən məhz ümumi mülkiyyəti və xüsusi mülküyyəti nəzərdə tuturam. Mülkiyyət yalnız *nisbi mənada ümumi*, *ümumiyyətlə* isə xüsusi olmalıdır. Axı onda ki, müxtəlif adamlar eyni dərəcədə bunun qeydinə qalmağa başlayacaqlar, onlar arasındakı anlaşılmazlıqlar da aradan götürüləcək, əksinə, bundan böyük fayda hasil olacaq, çünki hər kəs özünə məxsus olan şeyin qeydinə ciddi – cəhdlə qalacaq; xeyirxahlıq naminə isə mülkiyyətdən istifadə «Dostlarda hər şey ümumidir» atalar sozünə *uyğun gəlir*[3]. 5. Hal-hazırkı dövrdə bəzi ölkələrdə elə bir qaydanın təməli qoyulubdur ki, bu da onun binaən həyata keçməməsinin qeyri-mümkünlüyünü göstərir, xüsusən yaxşı təşkil edilmiş dövlətlərdə bu, bir qədər həyata keçirilib, bir qədər də keçirilə bilərdi: xüsusi mülkiyyətə sahib olan adam bunu bir halda öz dostlarının, digər halda ümumun istifadəsinə verir. Beləcə, məsələn, Lakedemonda hər kəs öz xüsusi malı kimi başqasının qulundan istifadə edir, eləcə də at və itlərdən, həm də ehtiyac olan halda dövlət zəmilərindəki ərzaqlardan – azuqə ehtiyatlarından istifadə edilir. Beləliklə, göründüyü kimi o yaxşıdır ki, mülkiyyət xüsusi olsun, ondan istifadə isə – ümumi. Vətəndaşları buna hazırlamaqsa – qanunvericilərin işidir. 6. Bütün bunlardan başqa nəyinsə sənə məxsus olduğunu bildikdə bundan nə qədər həzz aldığını sözlə ifadə etmək çətindir, axı hər kəsdə öz-özünə qarşı olan məhəbbət hissi təsadüfi deyil, bu, bizə təbiətin özü tərəfindən bəxş edilib. Doğrudur, eqoizm haqlı olaraq pislənir, lakin bu, öz-özünə məhəbbətdən ibarət deyil, bu məhəbbətin lazımi dərəcədən artıq olmasının nəticəsidir; bu, tamahkar adama da aiddir; bu və başqa hislərə demək olar ki, bütün adamlar meyllidir. Digər tərəfdən dostlara, tanışlara yaxud yoldaşlara qulluq və yardım göstərmək nə qədər də

xoşdur. 7. Lakin bu, yalnız xüsusi mülkiyyət olduğu halda mümkündür. Əksinə, o adamlar ki, həddindən artıq dövlətin birliyinə cəhd göstərir, onlarda bu, olmur, hələ onu demirəm ki, bu halda iki məziyyətin işdə ortalığa çıxması imkanı tamam məhdudlaşır: qadın cinsinə qarşı əxlaqlı olmaq (axı əxlaqlı olub, özgənin qadınından kənar gəzib dolanmaq – gözəl işdir) və öz mülkiyyətinə münasibətdə alicənablıqla əliaçıqlıq; mülkiyyət ümumi olduğu halda alicənablıq göstərib, əliaçıqlıq etmək mümkün olmayacaq, heç kəs də bunu həyata keçirmək iqtidarında olmayacaq, çünki əliaçıqlıq, məhz öz malın üzərində binagüzarlıq edərkən mümkündür.

8. Nəzərdən keçirdiyimiz qanunvericiliyin münasib olduğunu və insansevərlik üzərində qurulduğunu güman etmək olar. Bununla tanış olub, sevinclə bundan yapışmaq və düşünmək olar ki, bu qanunlarla hamı bir-birinə qarşı təəccüb doğuracaq dərəcədə məhəbbət bəsləyəcək, xüsusən də o vaxt ki, kim isə müasir dövlətlərdə ümumi mülkiyyətin olmadığını göstərib, pis işləri ifşa edəcək: mən alınan pul borcları üzrə prosesləri, yalançı şahidlik üstündə məhkəmə işlərini, varlılar qarşısındakı yaltaqlıqları nəzərdə tuturam. 9. Lakin bütün bunlar mülkiyyətin ümumi olmaması üzündən deyil, adamların mənəvi pozğunluğu nəticəsində meydana çıxır, çünki görürük ki, nəyə isə sahib olub, bundan müştərək istifadə edənlər bir-birləri ilə xüsusi mülkiyyətə sahib olanlardan daha çox çəkişirlər; lakin bizim fikrimizcə müştərək mülkiyyət üstündə çəkişənlərin sayı, xüsusi mülkiyyətə sahib olan adamların sayından çox deyil. Üstəlik, əgər mülkiyyət ümumi olarsa, ədalət yalnız bunun hansı pis tərəflərinin itəcəyini göstərməyi tələb etmir, həm də onu göstərməyi tələb edir ki, bu halda hansı müsbət xüsusiyyətlər aradan qalxacaq, bizim fikrimizcə mövcudluğun özü artıq mümkün olmayacaq. Sokratın layihəsindəki əsas səhvi onun ilkin şərtlərinin qeyri – düzgünlüyündə görmək lazımdır. İş bundadır ki, həm ailədə, həm də dövlətdə birliyin mütləq deyil, nisbi olmasını tələb etmək lazımdır. Əgər bu birlik həddini aşarsa, onda dövlətin özü məhv olacaqdır, hətta əgər bu baş verməzsə, onsuz da məhvə doğru sürüklənən dövlət daha pis vəziyyətə düşəcək, zira nə fərqi var ki, kimsə təranəni ağız-ağıza verib oxuyur, yoxsa ritmi bir taktla əvəz edir.

10. Əvvəl başda deyildiyi kimi kütləni tərbiyələndirmək yolu ilə birləşdirməyə və ümumiləşdirməyə cəhd göstərmək lazımdır. Kim kütləni tərbiyələndirmək niyyətini güdürsə və ümid edirsə ki, onun verdiyi tərbiyənin köməkliyi ilə dövlətin də vəziyyəti yaxşılaşacaq və əgər Lakedemonun və Kritin qanunvericilərinin mülkiyyət məsələsində yaxşı adətləri, fəlsəfəni və qanunları tətbiq edib sissitiyanı[4] qanuna salmaqla həll etdikləri kimi deyil, Sokratın təklif etdiyi üsullarla dövləti düzəltmək istəsə, çox böyük səhvə yol vermiş olacaq. Nəinki nəzərdən qaçırmaq lazım deyil, əksinə, ona diqqət yetirmək lazımdır ki, əgər bu qayda yaxşı olsaydı böyük vaxt ərzində, uzun illər boyu naməlum qalmazdı. Axı az qala hər şey hələ lap çoxdan düşünülüb, lakin biri uyğun gəlmir, digəri adamlara məlum olsa da tətbiqini tapmır. 11. Bu birliyin həyata keçməsini gerçəklikdə müşahidə edərkən bu, daha da aydınlaşır. Ya sissitiyanın, ya da fratsiya və filin köməkliyi sayəsində tərkibinə daxil olan elementlərin parçalanması və xüsusiləşməsi ilə dövlət yaratmaq olmaz. Beləliklə, Sokratın qanunlarından yalnız bircə o qalır ki, keşikçilər gərək əkinçiliklə məşğul olmasınlar; bu axırıncını lakedomonlular hal-hazırkı dövrdə həyata keçirmək istəyirlər. Ümumi mülkiyyətə malik olanlar üçün bütövlükdə dövlət qanunlarının hansı yolla təsis ediləcəyi haqqında da – Sokrat həmçinin heç nə deməyib, hərçənd ki, bu barədə rəy söyləmək də asan deyil. Baxmayaraq ki, qalan vətəndaşlar məlum olduğu kimi dövlətin az qala bütün əhalisini

təşkil edir, amma onlar haqqında da aydın surətdə heç bir şey deyilməyib: əkinçilərin mülkiyyəti ümumi olmalıdırmı, yoxsa xüsusi, eynən bunun kimi onların qadınları və uşaqları ümumi olmalıdır, ya yox. 12. Axı bu minvalla əgər hər şey hamıda ümumi olarsa, onda əkinçilər keşikçilərdən nə ilə fərqlənəcəklər? Yaxud nəyə görə onlar o birilərin ixtiyarında olmalıdır? Yaxud keşikçilərə öz səlahiyyətlərini qoruyub saxlamaqdan ötrü kritlilərin qullara yalnız gimnasiyalara getməkdən və silah əldə etməkdən başqa bütün hüquqları verdikləri kimi bir şey düşünmək lazımdır? Əgər bunlardakı qaydalar da başqa dövlətlərdəki kimi olacaqsa, onda vətəndaş birliyi özünü nədə göstərəcək? İstər-istəməz bir dövlətdə bir-birinə düşmən olan iki dövlət meydana çıxacaq. Sokrat axı keşikçilərə əlavə olaraq bir növ hərbi qarnizon rolunu verir, əkinçiləri, sənətkarları və əhalinin qalan hissəsini isə vətəndaş mövqeyində qoyurdu. 13. Sokratın sözlərinə görə dövlətlərdə rast gəlinən ittihamlar, çəkişmələr, pis işlər ki, var – bütün bunlardan onun dövlətinin vətəndaşları da qurtulmayacaqdır. Doğrudur, Sokrat göstərir ki, tərbiyə vətəndaşları qanunun çox olması zəruriliyindən azad edər, məsələn, astinomiya, aqoranomiya[5] və bu kimi şeylərə aid olanlardan, çünki tərbiyəni yalnız keşikçilər alacaq. Üstəlik, o, mülkiyyəti əkinçilərin ixtiyarına töycü ödəmək şərti ilə verir, amma aydındır ki, bu cür mülkiyyətçilər bəzi dövlətlərdə yaşayan ilotlar, penestlər[6] və qullardan daha qorxulu və iddialı olacaqlar. 14. Bununla belə qətiyyən müəyyən edilməyib ki, bu, eyni dərəcədə zəruridir, ya yox, eləcə də buna yaxın olan şeylərdə, yəni: [əkinçilər üçün] siyasi quruluş necə olacaq, onların tərbiyəsi nədən ibarət olacaq, onlardan ötrü hansı qanunlar təsis ediləcək? Buna rəğmən bütün bunları təsis etmək asan deyil, hərçənd ki, buna qarşı laqeydlik də yoxdur, əkinçilərdən ötrü həmin ümumiliyi saxlamaq üçün elə qaydalar olacaqmı, hansı ki, beləsi keşikçilərdən ötrü var. Hesab edək ki, əkinçilərin arvadları ümumi, mülkiyyətləri isə şəxsidir – onda ev işlərini kim görəcək, eləcə də zəmilərə aid nə varsa, bütün bunlardan kişilər necə istifadə edəcək? Əkinçilərdə mülkiyyət də, arvadlar da ümumi olsa, bəs necə olacaq...[7]

15. Düşünəndə ki, qadınlar da həmçinin ərlərinin gördükləri işlərlə məşğul olmalıdırlar, heyvanlardan nümunə götürmək duzgün olmazdı, axı heyvanların heç bir təsərrüfatı yoxdur.

Vəzifələrin təşkilində də Sokratın əsaslandığı fikir səbatsızdır. Hakimiyyət, onun fikrincə, həmişə eyni adamların əlində olmalıdır. Amma bu nəinki hərarətli və cəngavər adamların, hətta yüksək məziyyətlərə malik olmayanların da etirazına səbəb olur. Aydındır ki, onun nöqteyi-nəzərincə gərək hakimiyyət mütləq eyni adamların əlində olsun: axı «qızıl ilahə» gah bunun, gah onun qəlbində deyil, həmişə eyni adamların qəlbində olur. Sokratın inancına görə Allah bəzi keşikçilər üçün, onlar anadan olan kimi qızıl yoğurur, digərləri üçün gümüş, mis və dəmir isə o kəslər üçündür ki, onlar sənətkar və əkinçi olacaqlar. 16. Bundan başqa keşikçilərin fərəhini əlindən almaqla o, iddia edir ki, qanunvericinin vəzifəsi – dövləti bütövlükdə xoşbəxt etməkdir. Lakin dövlətin böyük bir hissəsi, yaxud heç olmasa, bəziləri xoşbəxtlik içində üzməsələr, bütün dövləti xoşbəxt etmək olmaz. Axı xoşbəxtlik anlayışı dəqiq rəqəmlər anlayışına aid olan kateqoriya deyil: toplananlar tək rəqəmli olanda, alınan cəm cüt rəqəmli olur, lakin xoşbəxtliyə gələndə bu, belə olmur. Əgər keşikçilər xoşbəxt deyillərsə, bəs onda kimlər xoşbəxtdir? Axı bunlar nə sənətkarlardır, nə də fiziki əməklə məşğul olan kütlə.

Beləliklə, Sokrat deyən dövlət quruluşunun bu kimi, habelə göstərilənlərdən heç də az əhəmiyyətli olmayan digər çətinlikləri var.

III. 1. Sonradan yazılmış «Qanunlar»da da iş təxminən belədir. Buna görə də orada təsvir edilmiş dövlət qruluşunu qısaca olaraq nəzərdən keçirmək məqsədəuyğundur. «Dövlət» əsərində Sokrat çox az şeyləri aydınlaşdırır: qadınların və uşaqların ümumi olması ilə, habelə mülkiyyət və vətəndaşlıqla əlaqədar işlər necə olmalıdır. Bütün əhalini iki hissəyə bölmək təklif olunur: bir hissə – əkinçilər, digəri – hərbçilər; üçüncü hissə isə axırıncıdan təşkil olunan – məşvərətçilər və dövləti idarə edənlərdir. Əkinçilər və sənətkarlar idarəetmədə iştirak edirlərmi, əgər edirlərsə, onda, məhz nədə iştirak edirlər, onların silah gəzdirməyə və hərbçilərlə birlikdə yürüşlərdə iştirak etməyə hüquqları var, ya yox – bütün bünlara Sokrat heç bir aydın cavab verməyib. Qadınlar, əksinə, Sokratın fikrinə görə hərbçilərlə birlikdə yürüşlərdə iştirak etməlidirlər və keşikçilər alan tərbiyəni onlar da almalıdırlar. Bununla belə onun mühakimələri, ümumiyyətlə, əsil məsələdən uzaqlaşır, keşikçilərin tərbiyəsi necə olmalıdır məsələsinə aid olan hissələrdə də bu, belədir.

2. «Qanunlar» əsərinin böyük hissəsi qanunlara həsr olunub, dövlət quruluşu barədəsə orada az danışılır. Hərçənd qanunverici elə dövlət quruluşu təqdim etmək istəyir ki, bu, ümumiyyətlə, bütün dövlətlər üçün münasib olsun, lakin «Qanunlar»da hər şey yavaş-yavaş başqa quruluş tərəfə istiqamətləndirilir, qadınların və uşaqların ümumi olmasını çıxmaq şərti ilə o, eyni şeyləri hər iki dövlət quruluşuna aid edir: tərbiyə burda da, orda da eynidir, həyat tərzi də bunun kimi – vacib olan gündəlik işlərdə, habelə sissitiyalarda iştirak etməmək. Təfavüt yalnız ondadır ki, «Qanunlar»a görə sissitiyalar qadınlar üçün də olmalıdır; birinci halda silah daşıyan vətəndaşların heyəti min nəfər müəyyən edilir, ikinci halda – beş min.

3. Sokratın bütün mühakimələri ağıllıdır, incəliyi, yeniliyi ilə seçilir, adamı düşünməyə vadar edir, amma bunlarda hər şeyin doğru olmasını etiraf etmək çətindir: belə ki, bununla çətinliklə razılışmaq olar ki, əhalinin göstərilən kütləsi üçün Babilistanın ərazisi, yaxud hansısa digər böyük bir ərazi tələb olunur; yalnız bu halda heç nə ilə məşğul olmayan beş min adam, üstəlik, onlara aidiyyatı olub, dəfələrlə onlardan çox olan qadın və xidmətçi kütləsi yemək ala bilər. Əlbəttə, ehtimalları istənilən kimi qurmaq olar, amma bu halda yerinə yetirilməsi mümkün olmayan şeylər şübhəsiz, olmamalıdır.

4. Daha sonra «Qanunlar»da göstərilir ki, qanunverici qanun təsis edilərkən iki şeylə hesablaşmalıdır: torpaqla və insanlarla. Əgər dövlət ayrı deyil dövlətə məxsus həyat tərzi keçirməlidirsə, bura «qonşu yerləri» də daxil etmək yaxşı olardı; axı dövlətə istər-istəməz elə hərbi qüvvələrdən istifadə etmək lazım gəlir ki, o, təkcə ərazisinin müdafiəsi üçün deyil, həm də ondan kənardakı ərazilərdə hərəkət etməyə yararlı olsun. Əgər hətta kim isə həm şəxsi, həm də ictimai həyat tərzini təqdir etmirsə – yenə də mütləq düşmənləri, yalnız onların ərazisinə basqın etməklə deyil, uzaqdan da qorxu altında saxlamaq lazımdır.

5. Xüsusi torpaq sahəsinin hansı böyüklükdə olması haqqında da düşünmək lazımdır, bunu başqa cür, daha dürüst müəyyən etmək yaxşı olmazdımı. O, göstərir ki, bunun sahəsi o qədər olmalıdır ki, soyuqqanlılıqla yaşamaq mümkün olsun, necə ki, bir kimsə deməli olsaydı «məmnunluqla yaşa». Lakin bu, həddindən artıq ümumi müəyyənləşdirmədir; həm də bundan əlavə hər halda çatışmamazlıqlar olsa belə sadə yaşamaq da mümkündür. Buna görə belə qənaətə gəlmək daha yaxşı olardı: ağılla, ata-anası kölə olmayan adama layiq surətdə yaşamaq; axı bu şərtlərdən birini əgər istisna etsək, onda bir halda həyat təmtəraqlı, digər halda – həyat ağır zəhmətlə dolu olacaq. Mülkiyyətdən istifadə məsələsi nəzərdən keçirildikdə, doğrudan da, adamın ağlına yalnız göstərilən məziyyətlər gəlir,

deyək ki, mülkiyyətə «təmkinli», yaxud «mərdcəsinə» yanaşmaq olmaz, bundan isə ağılla və alicənablıq göstərib, əliaçıqlıqla istifadə etmək mümkündür. Mülkiyyətə münasibət belə də olmalıdır.

6. Bu da mənasızdır ki, mülkiyyəti tənləşdirməklə o, vətəndaşların sayını sahmanlamır, əksinə, qeyri-məhdud uşaq doğumunun mümkünlüyünə yol verib, təxmin edir ki, bunda tarazlıq olacaq və vətəndaşların sayı artmayacaq, çünki bəzi vətəndaşlar halhazırda dövlətlərdə müşahidə olunduğu kimi övladsız olacaqdır. Lakin burada onda və indi – dövlətlər tamamilə oxşar ola bilməz: indi heç kəs ehtiyac içində bulunmur, çünki mülkiyyət hər kəs arasında sayla bölünür, onda ki, mülkiyyət artıq bölünməyəcək, əhalinin qalan hissəsinin bu, azmı olacaq, yoxsa çox, yəqin ki, heç nəyi olmayacaq. 7. Bəlkə də düşünən olacaq ki, mülkiyyətdən çox uşaq doğumuna hədd qoymaq lazımdır, belə ki, doğum hansısa bir müəyyən edilmiş saydan artıq olmasın. Bu sayı onda müəyyənləşdirmək olar ki, hər cür təsadüflər hesaba alınmasın, məsələn, bəzi təzədoğulanlar öləcək, yaxud bir çox nigahlar uşaq doğumu ilə nəticələnməyəcək. Əgər bu məsələni dövlətlərin çoxusunda olduğu kimi diqqətdən kənarda qoysaq, onda bu, mütləq vətəndaşların kasıblaşmasına gətirib çıxaracaq, kasıbçılıq isə – hiddət və cinayətlərin mənbəyidir. Bax buna görə ən qədim qanunvericilərdən biri olan Korinfli Fidon[8] hesab edirdi ki, pay alan ailələrin sayı həmişə vətəndaşların sayına bərabər olmalıdır, baxmayaraq ki, əvvəl başda hamıya düşən pay bərabər deyildi. «Qanunlar»da isə iş tamamilə başqa cürdür, lakin bütün bunların daha yaxşı necə qurulması haqqında olan fikrimizi biz sonra açıqlayacayıq.

8. «Qanunlar»da idarə edənlərin, idarə olunanlardan necə fərqlənəcəyi məsələsi də kənarda qalıb. Sokrat deyir: necə ki, parça sapdan deyil, əsasən başqa yundan toxunur, belə münasibət də idarə edənlərlə idarə olunanlar arasında olmalıdır. Lakin əgər o, hər hansı bir mülkiyyətin beş dəfəyə qədər artmasını mümkün hesab edirsə, onda nə üçün xüsusi torpaq sahəsinə bu cür müəyyən olunmuş hədd tətbiq edilməsin? Diqqəti, habelə tikinti işləri aparılan bölünmüş sahəyə də yönəltmək lazımdır ki, hər halda bu cür sahə təsərrüfata ziyan yetirməsin (axı o, tikinti işləri aparmaq üçün hər kəsə iki ayrıca sahə verir, iki evdə isə yaşamaq – çətin işdir).

9. Dövlət quruluşu bütövlükdə nə demokratiyadır, nə də oliqarxiya, bu onların arasında olub politiya adlanır; burda tam hüquqlu adamlar yalnız ağır silah gəzdirənlərdir. Əgər qanunverici dövlətlər üçün bunu başqaları ilə müqayisədə daha yararlı hesab edirsə, onda bu müddəa, çox guman, doğrudur; lakin əgər o, bunu qabaqcadan təsvir etdiyi formadan sonra daha yaxşı hesab edirsə, onda o, burda səhv edir, ola bilsin ki, hamı daha çox lakedemon dövlət quruluşunu, yaxud daha mükəmməl ifadə edilmiş aristokratik xarakterə malik olan hansısa birini tərifləyəcək.

10. Bəziləri iddia edirlər ki, ən yaxşı dövlət quruluşu bütün dövlət quruluşlarının qarışığını özündə təmsil etməlidir; bəzilərinin fikrincə, bu qarışıq oliqarxiyadan, monarxiyadan və demokratiyadan ibarətdir, buna görə onlar lakedemon quruluşunu tərifləyirlər: axı Lakedemondakı çar hakimiyyəti özündə monarxiyanı, herontların hakimiyyəti – oliqarxiyanı təcəssüm etdirir, demokratiyanın əsas prinsipləri isə eforatların[9] hakimiyyətində meydana çıxır, çünki axırıncılar xalqın içindən seçilirlər; digərlərinin fikrinə görə eforiya özündə istibdad üsul-idarəsini təcəssüm etdirir, demokratiyanın əsas prinsiplərini isə onlar sissitiyalarda və digər gündəlik adi yaşayışda görürlər.

11. «Qanunlar»da isə göstərilir ki, ən yaxşı dövlət quruluşu demokratiya və istibdad üsul-idarəsinin birləşməsindən ibarətdir,

lakin bu axırıncıları kimsə, ümumiyyətlə, çətin ki, dövlət quruluşu hesab etsin, əgər onlar dövlət quruluşu hesab edilsə, onda hamısından pisi sayılacaq. Beləliklə, kimlər ki, bir neçə formanı qarışdırır, onlar doğru mühakimə yürüdürlər, çünki o dövlət quruluşu ki, digər formalarla birləşdirilir, həqiqətən, yaxşıdır.

Daha sonra, bu dövlət quruluşu belə məlum olur ki, heç bir monarxiyanın əsas prinsiplərini deyil, özündə yalnız oliqarxiya və demokratiyanın əsas prinsiplərini ehtiva edir, həm də nəzərə almaq lazımdır ki, bu, daha çox oliqarxiyaya meyllidir. Bu, vəzifəli adamların təyin olunması üsulundan daha aydın görünür: onda ki, onlar qabaqcadan seçilmiş şəxslər içərisindən püşklə təyin olunurlar, bu quruluş hər iki dövlət quruluşu ilə yaxınlaşır, amma onda ki, yalnız böyük əmlak senzinə[10] malik olanlar xalq yığıncaqlarında iştirak etməyə borcludurlar, vəzifəli şəxsləri təyin etməli və ümumiyyətlə, dövlət işləri ilə məşğul olmalıdırlar, başqaları isə bundan kənarlaşdırılır – bütün bunlar oliqarxiyaya uyğun gəlir, eləcə də ona cəhd göstərilir ki, vəzifəli adamların əksər hissəsi, varlı adamlardan təyin edilsin, ən yüksək vəzifələrə isə ən yüksək mülkiyyət senzinə malik olanlar yerləşdirilsinlər.

12. Şuranın komplektləşdirilməşi üsulunu da o, oliqarxiyasayağı qanuniləşdirir: seçkilərdə mütləq hamı iştirak edir, lakin yalnız birinci mülkiyyət təbəqəsindən olan adamlar seçilir, sonra təzədən bu qayda ilə ikincidən, daha sonra – üçüncüdən seçilir; lakin seçkilərdə üçüncü və dördüncü təbəqələrin adamlarının hamısı iştirak etməyə bilər, bununla belə dördüncü təbəqədən olanların seçkilərdə iştirakı yalnız birinci və ikinci təbəqənin adamları üçün lazımdır. Sonra o, göstərir ki, bu yolla seçilənlər gərək hər təbəqədən bərabər sayda təyin edilmiş olsun. Bu qayda üzrə aparılan seçkilərdə aydındır ki, yüksək mülkiyyət təbəqəsinə mənsub olanlar çoxluq təşkil edəcək, həm də ən



yaxşıları, bu işdə məcburilik olmadığından, xalq içərisindən bəzi adamlar seçkilərdə iştirak etməyəcəkdir.

13. Bu formada olan dövlət quruluşunun demokratiya və monarxiyanın vəhdətinin əsas prinsiplərini özündə təmsil etməyəcəyi yuxarıda göstərilənlərdən aydındır və bundan sonra deyilənlərdən, haçan ki, biz buna oxşar dövlət quruluşlarını araşdırmaq üzərinə gələcəyik, daha da aydınlaşacaq. Vəzifəli şəxslərin seçilməsi üzərinə gəldikdə isə bunu qeyd etmək lazımdır ki, haçan seçkilər qabaqcadan nəzərdə tutulan namizədlərlə baş verirsə vəziyyət çətinləşir: əgər müəyyən qədər, hətta çox olmayan sayda adam öz aralarında razılığa gəlmək istəsə, onda seçkilər həmişə onların istədikləri kimi başa çatacaq.

«Qanunlar»da dövlət quruluşu haqqında təsvir edilənlər bundan ibarətdir.

IV. 1. Bir yandan ayrı-ayrı şəxslər, digər yandan isə filosoflar və dövlət xadimləri tərəfindən təklif olunan başqa dövlət quruluşu layihələri də vardır. Bütün bu layihələr o biri ikisinə nisbətən dövlət həyatının əsasını təşkil edən mövcud dövlət quruluşlarına daha yaxındır. Heç kəs uşaq və qadınların ümumi olması və qadın sissitiyaları kimi yenilikləri daxil etməyib[11], əksinə, bütün bu layihələr daha çox həyatın tələbi kimi üzə çıxır. Bəzilərinə mülkiyyətə dair daha əhəmiyyətli əla qayda təqdim etmək təklif olunur, çünki onlar bildirirlər ki, adətən, hamı, məhz bu cür işlər xüsusunda çəkişməyə başlayır. Buna görə də Xalkedonlu Faley[12] bu barədə birinci olaraq belə bir təklif vermişdir: vətəndaşların xüsusi torpaq sahəsi bərabər olmalıdır. 2. Onun fikrincə, dövləti təşkil edən vaxtda bu işi həyata keçirmək çətin deyil, hərçənd ki, mülkiyyəti tənləşdirməyi mümkün qədər tez, məhz bu tərzdə etmək lazımdır: varlılar gərək cehiz versinlər, amma onu almasınlar; kasıblar isə cehiz vermir, ancaq onu alır.

Platon «*Qanunlar*» *yazarkən hesab edirdi ki*, mülkiyyətin artmasına müəyyən həddə qədər yol vermək olar, yəni: vətəndaşlardan heç kimə mülkiyyəti, əvvəl deyildiyi kimi, mövcud olan ən kiçik mülkiyyətdən beş dəfədən çox artırmağa icazə verilməməlidir. 3. Bu cür şeylərin qanuna salınmasını ona görə nəzərdən qaçırmaq olmaz ki, (hal-hazırda bu nəzərdən qaçırılır), mülkiyyətin həddi müəyyən edilərkən, həmçinin uşaqların sayını da müəyyənləşdirmək lazımdır: axı uşaqların sayı əgər mülkiyyətin miqdarından artıq olacaqsa, onda qanun [payların bərabərliyi] hökmən öz gücünü itirəcək, bundan əlavə həm də o pis olacaq ki, varlıların çoxu kasıblaşacaqdır, axı güman etmək olmaz ki, bu cür adamlar qaydaların dəyişdirilməsinə cəhd göstərməyəcəklər. 4. Mülkiyyətin dövlət münasibəti üçün əhəmiyyət daşıdığını – görünür ki, bəzi keçmiş qanunvericilər də açıq-aydın başa düşmüşdülər. Beləcə, məsələn, Solon qanun təsis etmişdir ki, (bu başqalarında da mövcuddur) bu, istənilən qədər torpaq əldə etməyi qadağan edir. Eyni qaydada qanun mülkiyyətin satışını qadağan edir; məsələn, lokrlarda[13] mövcud olan qanun, əgər adam sübut edə bilməsə ki, ona açıq-aşkar fəlakət üz verib, mülkiyyətin satışını qadağan edir. Həmçinin çoxdankı torpaq sahələrinin saxlanması haqqında qanun var, bu qanunun Levkadda ləğvi ona gətirib çıxardı ki, burdakı dövlət quruluşu həddindən artıq demokratikləşdi: məlum oldu ki, canfəşanlıqla vəzifə əldə etmək açıq-aşkar senzsiz də mümkünmüş. 5. Gəlin mülkiyyətin bərabər olmasının mümkünlüyünü zənn edək; bu halda mülkiyyət ya həddindən artıq böyük olacaqdır ki, bu dəb-dəbəyə gətirib çıxaracaq, ya da, əksinə, son dərəcə az olacaqdır ki, bu yaşayışı çox kasıblaşdıracaqdır. Buradan aydın olur ki, qanunvericiyə daha mülkiyyəti tənləşdirmək kifayət deyil; o, nəsə orta bir məxrəcə gəlməlidir. Lakin hətta kimsə əgər hamı üçün mülkiyyəti orta həddə müəy-



*yənləşdirsəydi, yenə bunun heç bir xeyri olmayacaqdı*, çünki mülkiyyətdən çox, insanda olan tamahı tarazlığa gətirmək lazımdır. Buna isə o halda nail olmaq mümkündür ki, vətəndaşlar qanunlar vasitəsi ilə lazım olan kimi tərbiyələnsinlər.

6. Buna Faley, ola bilsin, deyərdi ki, o da bu müddəa ilə razıdır, çünki onun fikrincə də dövlətlərdə bərabərçiliyin həyata keçməsinə iki cür münasibət göstərmək lazımdır: mülkiyyətə yiyələnməyə münasibət və tərbiyəyə münasibət. Lakin bu tərbiyənin *nədən ibarət olmasını* göstərmək lazımdır, əgər desək ki, hamının tərbiyəsi eyni olacaq, onda bu heç bir xeyir verməyəcək. Bu, hamı üçün eyni ola bilər, lakin buna yiyələnən vətəndaşlar hər halda acgözlüklə pula, yaxud şan-şöhrətə, yaxud da hər ikisinə birlikdə can atacaqlar.

7. Bundan əlavə insanlar yalnız əmlak bərabərsizliyinə görə deyil, həm də olduqları qeyri-bərabər mənsəbə, rütbəyə görə qısas almağa başlayırlar. Qısasçılıq isə göstərilən hər iki halda ziddiyyət təşkil edir. Kütlə qısasçılığa əmlak bərabərsizliyi ucbatından başlayır, ziyalı adamlar isə – mənsəbə, rütbəyə görə, buna da o vaxt gedirlər ki, onları hamı ilə eyniləşdirirlər. Bu barədə də deyilir: «Eyni bir rütbə həm qorxaqlara, həm də cəsurlara verilir». Adamlar bir-birinə qarşı yalnız ən zəruri şeylər üstündə ədalətsiz hərəkət etmirlər (Faley buna tədbir kimi mülkiyyəti bərabərləşdirməyi nəzərdə tuturdu, belə ki, heç kəsə soyuqdan, yaxud kasıbçılıqdan oğurluq etmək lazım olmayacaqdı), həmçinin də ona görə ki, şad-xürrəm yaşasınlar və öz arzularını həyata keçirsinlər. Əgər onlar ən vacib ehtiyaclarından daha çox şey arzu etsələr, onda onlar, məhz özlərinin bu arzularını təmin etməkdən ötrü başqalarını incidəcəklər. 8. Bu üç pis şeyə qarşı hansı çarə köməklik göstərə bilər? Bir çoxları – kiçik mülkiyyətə və işə malikdir, digərləri qənaətkardır; üçüncülərə gəldikdə isə əgər kimsə öz-özünü şad görmək istəyirsə,

ona yalnız bir vasitəyə – fəlsəfəyə müraciət etmək lazımdır, çünki digər vasitələrə yetişmək üçün insanların köməyi tələb olunur. Ən böyük cinayətlər ən zəruri şeylərə görə deyil, bolluğa can atmaq üstündə baş verir; məsələn, ondan ötrü zalım hökmdar olmurlar ki, soyuqdan qorunsunlar, buna görə də böyük ehtiram o adama göstərilmir ki, o, oğrunu öldurub, o adama göstərilir ki, o, zalım hökmdarı məhv edib. Beləliklə, Faleyin təklif etdiyi dövlət quruluşu yalnız kiçik ədalətsizliklərə qarşı müdafiəni təmin edə bilər.

9. Üstəlik o, öz dövlətini elə təşkil etmək arzusundadır ki, qarşılıqlı münasibətdə bulunan vətəndaşlar çox gözəl yaşasınlar. Lakin, axı qonşularla və bütün yadlarla da münasibəti nəzərdən qaçırmaq olmaz. Bunun ardınca hökmən dövlət quruluşunda hərbi qüvvə də nəzərə alınmalıdır, lakin o, bu haqda, eləcə də [dövlətin] maddi imkanları haqda heç nə deməyib. Bununla belə lazımdır ki, bu axırıncılar dövlətin təkcə daxili tələbatları üçün deyil, həmçinin lazım olan halda onu xarici təhlükələrdən qorumağa da kifayət etsin. Buna görə də dövlətin maddi imkanları elə olmalıdır ki, bunlar kənardan daha güclü qonşularda tamahkarlıq oyatmasın, vəsaitə malik olanlar isə basqın etmiş düşmənləri dəf etmək iqtidarında olmasınlar; digər tərəfdən, bu vasitələr o qədər olmalıdır ki, miqdarca və keyfiyyətcə eyni qədər vəsaitlərə malik olan dövlətlərlə müharibədə davam gətirmək mümkün olsun. 10. O, bu barədə heç bir müəyyən göstəriş verməyib; bununla belə mülkiyyətə hansı miqdarda yiyələnməyin də daha sərfəli olduğunu nəzərdən qaçırmaq olmaz. Bəlkə də ən yaxşı hədd bu ola bilərdi ki, daha güclülər qazanc əldə etmək üçün apardıqları hərbi işlərdən xeyir tapmayaydılar, müharibələrdən də o qədər itirəydilər ki, bu vəsaitləri geri qaytarmaq mümkün olmayaydı. Məsələn, Avtofradat Atarneyi mühasirəyə almaq istəyərkən Evbul ona təklif etmişdi ki, düşünüb görsün bu istehkamı o, nə qədər vaxta ala bilər və bununla bərabər mühasirə ilə bağlı xərcləri hesablasın və Atarneyi az məbləğə tərk etməyə razılıq versin. Bu təklifi düşündükdən sonra Avtofradat mühasirədən əl çəkmək fikrinə gəldi[14]. 11. Beləliklə, mülkiyyətin bərabər olması vətəndaşların qarşılıqlı münasibəti baxımından müəyyən dərəcəyə qədər sərfəli görunur, onlar arasındakı narazılıqları aradan götürür, amma ümumiyyətlə desək bu, əsla böyük əhəmiyyət daşımır. Axı istedadlı adamlar ola bilsin ki, bu cür bərabərçiliyi özlərinə layiq sanmayıb bundan hiddətlənsinlər; buna görə də onlar tez-tez qiyamların səbəbkarları olurlar. Bununla belə insanın gözləri doymur: əvvəl onlara iki xırda gümüş pul kifayət edir, haçan ki, buna öyrəşirlər, onlara həmişə daha çox lazım olur, beləcə də axıra qədər. İş bundadır ki, zatən insanların istəyi hədsizdir və əksər adamların da həyatı bu istəklərin təmin edilməsi üçün sərf olunur.

12. Bütün bunlarda iş əsasən – mülkiyyəti bərabərləşdirməkdən çox, bunu elə təşkil etməkdir ki, heç zaman ləyaqətli insanlar çox şey arzu etməsinlər, ləyaqəti olmayanların isə buna imkanları olmasın; bu, o halda ola bilər ki, bu axırıncıları aşağı mövqedə qoysunlar, lakin incitməsinlər. Bununla belə Faley mülkiyyətin bərabərliyini düzgün müəyyənləşdirməyib: o, yalnız torpaq mülkiyyətini bərabərləşdirib, lakin var-dövlət axı həm də qullardan, mal-qaradan, puldan və necə deyərlər, hərəkətdə olan müxtəlif mülkiyyət əşyalarından ibarətdir. Beləliklə, bu işi belə qoymadan, bunların hamısını ya bərabərləşdirmək, ya da hansısa bir orta məxrəcə gətirməyə cəhd göstərmək lazımdır. 13. Faleyin təsis etdiyi qanunlardan aydın olur ki, əgər bütün sənətkarlar dövlətin qulları olsalar və əhalinin vətəndaş hissəsində artım olmasa, o, kiçik dövlət quruluşunu nəzərdə tutur. Amma əgər onlar dövlətin qulları olsalar gərək ictimai işlərlə

məşğul olsunlar, bu isə Epidamnedə mövcud olana, yaxud vaxtı ilə Diofantın[15] Afinada tətbiq etmək istədiyi işə bənzəyir.

Bütün yuxarıda göstərilənlərin əsasında hər kəs təyin edə bilər ki, Faley özünün təklif etdiyi dövlət quruluşunda nəyi yaxşı deyib, nəyi yox.

V. 1. Miletdən olan Yevrifondun oğlu Hippodam[16] (o, polislərin ayrılması fikrini irəli sürmüş, Pireyi planlaşdırmışdır: o, ümumiyyətlə, həyatda şöhrətpərəstliyi ilə seçilirdi, son dərəcə qeyri-adi adam idi, belə ki, bəzilərinə elə gəlirdi ki, o öz qalın saçları və qiymətli zinət əşyaları, həmçinin yalnız qış vaxtı deyil, həm də yay vaxtı sadə və isti geyimi ilə çox məşğul olur və özünü bütün şeylərin təbiətindən başı çıxan alim kimi göstərmək istəyir) dövlət işində çalışmayan adamlar içərisindən birinci olaraq ən yaxşı dövlət quruluşu haqqında nə isə deməyə cəhd göstərib. 2. O, əhalisinin sayı on min olan üç hissəyə bölunmuş dövlət layihələşdirib: birincini sənətkarlar təşkil edir, ikincini – əkinçilər, üçüncünü – silahlı dövlət müdafiəçiləri. Dövlətin ərazisi də, həmçinin üç hissəyə bölünür: müqəddəs, ictimai və xüsusi. Müqəddəs – odur ki, mədaxildən təsis edilmiş dini ayinlər üçün göndərilsin; ictimai – odur ki, mədaxildən dövlət müdafiəçilərinin olması üçün vəsait alınsın; üçüncü əkinçilərin şəxsi mülkiyyətinə daxildir. Onun fikrincə qanunlar da yalnız üç cür olur, çünki məhkəmə işləri üç cür cinayətdən (təhqirdən, zədələnmədən, ölümdən) törəyir. 3. O, bir ali divanxana da təsis etməyi təklif edirdi ki, iddiaçıların fikrincə, düzgün həll edilməyən bütün təhqiqat işləri burada keçirilməlidir; bu divanxana seçki yolu ilə təyin edilmiş müəyyən sayda ağsaqqallardan ibarət olmalıdır. Onun fikrincə, gərək məhkəmədə çıxarılan qanunlar daş göndərmə yolu ilə həll edilməsin: hər bir hakim lövhəcik alır, əgər hakim müttəhimə şərtsiz iş kəsirsə, onda cəzanı ora



yazmaq lazımdır, əgər hakim müttəhimə şərtsiz bəraət qazandırırsa, onda lövhə boş saxlanılır, qismən cəza verildiyi, yaxud bəraət qazandırıldığı halda isə qərar yazılır. Müasir qanunları o, yanlış hesab edirdi: hakimlər ya ittihamedici, ya da bəraətverici qərarlar çıxarmaqla özlərinin içdikləri andı pozmuş olurlar. 4. Üstəlik, o, dövlətə xeyir vermək üçün nə isə düşünən adamlardan ötrü də qanun təsis etmişdi: onlar gərək şan-şöhrət sahibi olsunlar; belə qanun hələ başqalarında olmadığından müharibədə həlak olanların da övladları dövlət hesabına tərbiyə edilməlidir. Bu cür qanun hal-hazırkı dövrdə Afinada və digər dövlətlərdə mövcuddur. Bütün vəzifəli şəxslər xalq tərəfindən seçilməlidir, yəni dövlətin göstərilən həmin üç hissəsi tərəfindən. Seçilmiş vəzifəli şəxslər dövlət işlərinə, həmçinin əcnəbilərə və yetimlərə qayğı göstərməyə borcludurlar. Hippodamın təklif etdiyi quruluşun böyuk və gərəkli hissələri bunlardır.

5. Hər şeydən öncə hamını, demək olar, əhalinin vətəndaş hissəsinin bölünməsi çətin vəziyyətə salar. Dövlətin idarəçiliyində hamı iştirak edir: həm sənətkarlar, həm əkinçilər, həm hərbçilər. Bununla belə əkinçilərin silah gəzdirməyə ixtiyarı yoxdur, sənətkarların nə torpağı, nə silahı var, belə ki, onlar az qala silah gəzdirməyə ixtiyarları olan qullardır. Deməli, onlar üçün bütün imtiyazlara malik olmaq mümkün deyil, axı strateqləri də, qanun keşikçilərini də[17] və ümumiyyətlə, silah gəzdirməyə ixtiyarı olan ali rütbəli şəxsləri təyin etmək lazımdır. Bəs dövlət idarəçiliyndə iştirak etməyənlər dövlət quruluşuna döstluq münasibəti göstərə bilərmi? 6. Lakin digər tərəfdən silah gəzdirməyə ixtiyarı olan adamlar o biri iki hissəyə mənsub olanlardan güclü olmalıdır. Bu iş o halda asan olmur ki, silah gəzdirənlər azlıq təşkil etsinlər, əgər onlar güclü olacaqlarsa, onda yerdə qalan vətəndaşlara dövlət idarəçiliyndə iştirak etmək və vəzifəli şəxslərin təyin edilməsində səs hüququna malik olmaq nəyə lazım-

dır? Bundan başqa əkinçilərin dövlət üçün nə faydası var? Sənətkarlar olmalıdır, çünki hər bir dövlətin onlara ehtiyacı var və onlar digər dövlətlərdəki kimi öz sənətlərindən əldə etdikləri gəlirlə yaşaya bilirlər. Əkinçilərsə yalnız o halda qanun əsasında dövlətin bir hissəsini təşkil edə bilərlər ki, onlar silah gəzdirmək ixtiyarına malik olanları ərzaqla təmin etsinlər; bununla belə Hippodamın təklifi ilə əkinçilər öz torpaq sahələrinə xüsusi mülkiyyət hüququ əsasında sahibdirlər və bu sahələri şəxsən özləri üçün becərməlidirlər. 7. Üstəlik, əgər dövlət müdafiəçiləri dövlət ərazisinin bu hissəsini özləri becərib, buradan yaşamaq üçün vəsait əldə edəcəklərsə, onda hərbçilər, qanunvericinin istədiyi kimi, əkinçilərdən fərqlənməyəcəklər. Əgər torpağı özləri üçün becərənlərdən və hərbçilərdən fərqlənən hər hansı digər adamlar da olsa, onda dövlətdə heç bir işdə iştirak etməyən, vətəndaşlığa yabançı, əhalinin yeni dördüncü hissəsi əmələ gələcək. Əgər işi elə qurmaq olsaydı ki, eyni adamlar həm özlərinin sahələrini, həm də dövlətə məxsus olan sahələri becərsinlər, onda əvvələn, ayrıca adamın torpağı becərməsi nəticəsində o miqdarda ərzaq əldə olunmayacaq ki, bu, iki ailəyə kifayət etsin, ikincisi, nə üçün də həmin ayrıca şəxslər özlərinə ərzaq əldə etməsinlər və bunu, bilavasitə öz torpaqlarından hərbçilərə pay verməsinlər? Bütün bunlarda dolaşıqlıq az deyil.

8. Məhkəmə istintaqı haqqında olan qanun da yaxşı vəziyyətdə deyil. Ona görə qanundakı hökmün bölmələrdən ibarət olması lazımdır, halbuki ittihamnamə sadə yazılıb: bu surətlə, hakim münsifə müraciət edir. Bu cür qayda tretey istintaqı zamanı həyata keçirilə bilər, hətta trerey hakimləri bir neçə nəfər olduğu halda belə, çünki onlar hökm haqqında qarşılıqlı razılığa gələ bilərlər. Lakin məhkəmələrdə belə bir qaydaya yer yoxdur, əksinə, əksər qanunvericilər tədbir görürlər ki, hakimlər öz qərarlarını bir-birinə deməsinlər. 9. Bundan başqa, məgər hökmdə



o halda dolaşıqlıq olmayacaqmı, haçan ki, hakimin fikrincə müttəhim iddiaçının tələb etdiyini yox, gərək müəyyən məbləği ödəsin. Axırıncı ondan iyirmi mina[18] tələb edir, bir başqa hakim isə ondan on mina almaq qərarını çıxarır (yaxud hakim böyük məbləğ kəssə də, az cərimə alınır), digəri – beş mina, üçüncüsü – dörd (hakimlər də açıq-aydın bu surətlə fərqlənirlər); yaxud bəziləri bütün məbləğin ödənməsi üçün qərar çıxarır, digərləri isə heç nə kəsmir. Onda səslərin sayı hecə hesablanmalıdır? Üstəlik heç kim hakimi, madam ki, o, şərtsiz bəraət verir, yaxud ittiham edir, əgər yazılan şikayətlər də sadəcə olaraq qaydasındadırsa, qanunu pozmağa təhrik etmir; bəraət hökmü çıxarmaq o qərara gəlmək deyil ki, müttəhim heç nə verməməlidir, təkcə ona görə ki, o, iyirmi mina borclu deyil; fəqət müttəhimin iyirmi mina borclu olduğuna əmin olmaya-olmaya yenə də ittihamedici hökm çıxaran hakim andını pozur.

10. Dövlət üçün faydalı nə isə düşünən adamların hörmətə, şan-şöhrətə layiq görülməsinə gəldikdə isə bunu da qanuna salmaq təhlükəsiz deyil. Bu cür təkliflər yalnız üzdə gözəl görünür, amma həqiqətdə yalançı donoslara və hətta vəziyyətdən asılı olaraq dövlət quruluşunun sarsılmasına gətirib çıxara bilər. Bununla belə bu, artıq o biri məsələ ilə toqquşduğundan ayrıca müzakirə edilməlidir. İş ondadır ki, bəziləri tərəddüd edirlər, görən atalardan qalma qanunlar, hətta hər hansı bir təzə qanun mövcud olandan yaxşı olduqda belə, dövlət üçün zərərlidir, yoxsa xeyirli[19]. Buna görə də yuxarıda göstərilən təkliflə dərhal razılaşmaq asan deyil, ələlxüsus onda ki, mövcud olan quruluşu dəyişmək sərfəli deyil; ola bilər ki, kimsə guya ümumun rifahı naminə qanunların, yaxud dövlət quruluşunun ləğvi haqqında təklif versin.

11. Bir halda ki, biz bu mövzunu xatırladıq, onda bunun üzərində bir qədər dayanmaq düzgün olardı. Məsələnin həlli, biz dediyimiz kimi, çətinlik törədir. Dəyişiklik yaxşı kimi görünə

bilər. Doğrudan da bu, biliyin digər sahələri üçün xeyirlidir, məsələn, tibbdə bu, əcdadlarda olduğu ilə müqayisədə irəli doğru inkişaf etdikdə, həmçinin gimnastikada və ümumiyyətlə, bütün incəsənət və elm sahələrində. Siyasəti də bu sıraya aid etmək lazım olduğundan, yəqin ki, onda da məsələ elə bu curdur. Gerçəkliyin özü, demək olar, bu müddəanı təsdiq edir: axı çoxdankı qanunlar olduqca sadədir və barbar qanunlarını xatırladır. 12. İbtidai dövrlərdə yunanlar silahla gəzirdilər, bir-birindən özləri üçün satın arvad alırdılar, haradasa saxlanılan köhnə qanunlar, ümumiyyətlə, böyük sadədilliyi ilə fərqlənir. Məsələn, Kimdə[20] qətlə dair qanun belədir: əgər ittihamçı özünün qohumları arasından müəyyən sayda qətl faktını təsdiqləyən şahid göstərsə, onda müttəhim bununla qətlin günahkarı sayılır. Ümumiyyətlə isə, bütün insanlar müqəddəs yazılara deyil, yaxşı şeyə can atırlar; necə ki, ilk insanlar – onlar torpaqdanmı əmələ gəlmişlər, yaxud hansısa bir bədbəxtlikdən qurtulmuşlar – adi, özü də yüksək təfəkkür qabiliyyəti olmayan insanlara bənzəyirlər, bir növ torpaqdan əmələ gəlmişlər barəsində deyildiyi kimi, onların hökmü altında qalmaq ağılsızlıq olardı. Üstəlik, yazılmış qanunları dəyişilməz halda saxlamaq yaxşı olmazdı: digər sənətlərdə olduğu kimi dövlət quruluşunda da hər şeyi yazılı surətdə dəqiqliklə ifadə etmək mümkün deyil. Axı qanunları istər-istəməz ümumi, insanın fəaliyyətini isə fərdi formada şərh etmək lazım gəlir. Buradan aydın olur ki, bəzi qanunları arabir dəyişmək lazımdır. 13. Amma digər tərəfdən bu iş, görünür ki, çox ehtiyatlı olmağı tələb edir. Əgər qanunun düzəlişi cüzi yaxşılaşma üçündürsə, qazanılmış bu vərdişləsə rahatca qanunu dəyişdirmək məqbul deyilsə, onda aydındır ki, həm qanunvericilərin, həm də vəzifəli şəxslərin bu və ya digər günahlarını bağışlamaq daha yaxşıdır: əgər mövcud qaydalara riayət etməmək bir adət halını alsa, dəyişmiş qanunların xeyirdən çox ziyanı olacaqdır.



14. Həmçinin, məsələn, sənət sahəsindən iqtibas gətirmək aldadıcıdır. Sənəti dəyişdirməklə qanunu dəyişdirmək eyni-eyni şeylər deyil. Axı qanunun mövcud olan adətlərin əksinə məcbur etdirmək gücü yoxdur; bu, yalnız zaman dolandıqca həyata keçir. Beləliklə, mövcud qanunları digərləri ilə dəyişdirmək ağılsızlıqdır, yeniləri – qanunun güclü surətdə zəifləməsi deməkdir. Bundan başqa əgər qanunlar dəyişikliyə məruz qalırsa, onda ortalığa yenə sual çıxır, bütün qanunlarmı və hər hansı dövlət quruluşumu? Hər yoldan keçənə, yoxsa [bu və ya digərlərinə] müəyyən [şəxslərə] qanunu dəyişdirməyə imkan vermək olarmı? Axı bunlar heç də eyni-eyni şeylər deyil. Biz bu məsələni araşdırmağı saxlayaq, bunu başqa vaxta qədər təxirə salaq.

VI. 1. Lakedemon və krit dövlət quruluşlarının müzakirəsi zamanı, demək olar, bütün dövlət quruluşlarındakı kimi iki cəhəti araşdırmaq lazımdır: birincisi, onların qanunları ən yaxşı dövlət quruluşuna uyğun gəlirmi, ya yox, ikincisi, bu qanunlar onlarda olan quruluşun özünün canı və əsas xarakteri ilə bir ziddiyyət təşkil edirmi. 2. Hamı tərəfindən qəbul edilib ki, çox gözəl quruluş istəyən dövlətdə vətəndaşlar ən zəruri şeylərin qayğılarından azad olmalıdırlar. Lakin bunu necə həyata keçirməyi aydınlaşdırmaq çətindir. Axı fessal penestləri fessaliyalılara qarşı tez-tez qiyam qaldırmışdılar, eləcə də ilotlar spartiatlara qarşı (onlar sanki haçan özlərinə bədbəxtlik üz verəcəyindən çəkinirdilər). 3. Lakin kritlilərdə heç zaman buna bənzər şeylər baş verməmişdir. Bunu onunla izah etmək olar ki, Kritdə qonşu olan şəhərlər, hətta bir-biriləri ilə dava etsələr də, heç zaman qiyamçılarla ittifaqa girməmişlər, çünki bu, özlərinin periekləri[21] olduğuna görə onların özlərinə ziyan yetirə bilərdi. Əksinə, spartiatlarla bütün qonşuları düşmənçilik edirdilər: həm arqoslar, həm messenslər, həm arkadlılar. Penestlərin fessaliyalılara qarşı ilk qiyamları,

həmçinin onun nəticəsində baş vermişdi ki, axırıncılar hələ öz qonşuları ilə – axeylərlə, perreblərlə və maqnetlərlə sərhəd boyu müharibələr aparırdılar. 4. Bütün bunlardan başqa tabeçilikdə olanlara nəzarət etmək, görünür ki, məsələnin çətinliyini təşkil edir: onlarla necə rəftar etmək lazımdır? Əgər onlar başlı-başına buraxılsa, həyasızlıq göstərməyə başlayacaqlar və özləri üçün öz ağaları kimi bərabər hüquqlu olmağı tələb edəcəklər, əgər onlar əsarət altında saxlanılsa, ağalarına qarşı bəd əməllərdə bulunacaqlar və onları görməyə gözləri olmayacaq. Beləliklə, aydındır ki, ilotlarla işi bu yerə gətirib çıxaranlar, onlarla ən yaxşı pəftar üsülunu tapa bilməyiblər. 5. Qadınların həddindən artıq sərbəst vəziyyəti [lakedemon] dövlət quruluşunun əsas məqsədindən doğan *nöqteyi-nəzərə görə zərərlidir və ümumiyyətlə*, dövlətin xoşbəxtliyinə **(eydaimonian)** xidmət etmir. Axı necə ki, kişi və qadın ailənin bir hissəsidir, eləcə də dövləti mütləq iki hissəyə – kişi və qadın əhalisinə bölünmüş kimi zənn etmək lazımdır. O dövlət quruluşunda, hansında ki, qadının vəziyyəti ilə əlaqədar işlər pisdir, dövlətin yarısı istər-istəməz qanuna zidd vəziyyətə düşür. Bu isə Lakedemonda baş vermişdir: qanunverici dövlətin bütövlükdə möhkəm olması arzusunda bulunduğundan kişi əhalisinə qarşı öz məqsədinə tamamilə nail olmuşdu, lakin bunu qadın əhalisinə qarşı etməyə laqeydlik göstərmişdir: Lakedemonda qadınlar cah-cəlala meyl salıb sözün əsl mənasında, kefləri istədikləri kimi həyat sürürlər. 6. Bu cür dövlət quruluşunda, xüsusən də əgər qadınlar kişilərə rəhbərlik edirlərsə, *var-dövlət böyük* əhəmiyyət daşımalıdır, bu da keltləri istisna etməklə döyüşkən tayfaların çoxunun arasında və ola bilər ki, bir çox başqalarında – kişi ilə əlaqədə olmaq açıq-aşkar üstünlük təşkil edənlərdə müşahidə olunur. Deyəsən, birinci mifoloq Aresini[22] Afroditaya[23] yaraşdırmaqda düzgün hərəkət edib: yuxarıda xatırlanan bütün tayfalar, görünür ki, ya kişilərlə, ya da qadınlarla sevgi əlaqəsində bulunmağa böyük həvəs göstərirlər. 7. Lakedemonlularda da həmin bu şey olmuşdu və onların hegemonluğu zamanı, onlarda çox şey qadınların ixtiyarında olmuşdu[24]. Doğrudan da fərq nədədir: qadınlar rəhbərlik edirlər, yoxsa vəzifəli şəxslər qadınlar tərəfindən idarə edilir? Nəticə eynidir. Ədəbsizlik gündəlik həyatda heç bir şeyə xeyir gətirmir, bu, görəsən təkcə müharibədə gərəkdirmi, lakin lakedemon qadınları burda da çox ziyan verdilər; bu özünü fivansların basqını zamanı açıq-aydın göstərdi: burda başqa dövlətlərdə olduğu kimi qadınlar heç bir xeyir vermədilər, ancaq düşmənlərdən çox, onlar çaxnaşma yaratdılar. 8. İlk əvvəl lakedemon qadınlarının sərbəst həyat tərzi keçirmələrinin, *görünür ki, səbəbi vardı, belə ki,* kişilər onda arqoslarla, sonrasa arkadlılar və messenslərlə müharibə apardıqlarından uzun zaman vətəndən kənarda hərbi yürüşlərdə olurdular[25]. Haçan ki, dinc dövrlər başlandı, qanunvericinin fikrincə, keçirdikləri əskəri yaşayışın hesabına kişilərin hazırlığı yaxşı oldu (bu yaşayışın çoxlu yaxşı cəhətləri vardır). Likurq idarəçilikdə bulunan zaman öz qanunlarını qadınlar üçün də intişar etdirmək istədi, onlar müqavimət göstərməyə başladılar, belə ki, o, geri çəkilməyə məcbur oldu. 9. Beləliklə, baş verənlərin səbəbi yuxarıda göstərilən nöqsanlardır. Amma biz kimin döğru, kimin günahkar olduğunu deyil, nəyin düzgün, nəyinsə yanlış olduğunu araşdırırıq. Qadınların qeyri-normal vəziyyəti təkcə dövlət quruluşunun özünə yaraşmayan bir cəhət deyil, əvvəl deyildiyi kimi, həm də müəyyən dərəcədə tamahkarlığa səbəb olur. 10. Belə fikirlərdən sonra bəziləri çox güman, tənə ilə mülkiyyətin qeyri-bərabər bölüşdürülməsini göstərməyə başlayacaqlar: məlum olacaq ki, vətəndaşlarıin bir qismi mülkiyyətə çox böyük dərəcədə yiyələnib, digərləri – tamailə az. Buna görə də iş o yerə çatmışdır ki, torpaq mülkiyyəti bir para adamların əlində

cəmlənmişdir. Buna dair olan qanunlar eyni zamanda qüsurludur: qanunverici düzgün hərəkət edərək əldə olan mülkiyyətin alqı və satqısını pis bir şey kimi damğalamışdı, amma o, bu mülkiyyəti bağışlamaq və bunu miras kimi vəsiyyət etmək istəyənə hüquq vermişdi, bəs axı bu halda nəticə istər-istəməz satqıdakı kimi alınır. 11. Qadınlar bütün torpağın təxminən beşdə ikisinə yiyələniblər, cünki xeyli sayda varis qız vardır[26], həm də qıza böyük cehiz verirlər. Qızlara heç bir cehiz verilməməsinin, yaxud cüzi, ya orta halda cehiz verilməsinin qanuna salınması yaxşı olardı...[27] Hal-hazırda ata könüllü surətdə varis qızını kimə istəsə ərə verə bilər. Əgər o, vəsiyyətnamə qoymadan vəfat etsə, onda ondan sonra qalan varis də [cehizi] kimə istəsə verə bilər. Belə çıxır ki, dövlət min beş yüz atlını və otuz min ağır silah gəzdirən əskəri yedirtməyə qadir olsa da, onlardan heç mini yığılmayıb. 12. Faktların özü bunu göstərir ki, Lakedemonda bütün bu qaydalar nə cür pis təşkil edilmişdi: hər halda dövlət düşmən zərbəsinə tab gətirmədi və məhz adam azlığına görə məhv oldu[28]. Deyirlər, ilk çarların vaxtında vətəndaş olmayanlara da vətəndaşlıq hüququ verirdilər, belə ki, o zaman uzunmüddətli müharibələrin aparılmasına baxmayaraq adam azlığı olmurdu və spartiatlarda vaxtilə on minə yaxın adam olub: bu, belədirmi ya yox, amma yaxşısı odur ki, dövlətdə mülkiyyətin bərabər bölünməsi nəticəsində adam çox olsun.

13. Uşaq doğumuna aid olan qanunlar, həmçinin adam azlığının qarşısını almaq məqsədi güdür, qanunverici spartiatların daha çox olmasına cəhd göstərərək, vətəndaşlarda mümkün qədər çox uşaq döğumuna həvəs oyadır. Onlarda hətta qanun vardır ki, üç oğül atası hərbi xidmətdən azad edilir, dörd oğul atası isə bütün mükəlləfiyyətlərdən. Bununla belə aydındır ki, hətta əhalinin artımı zamanı torpaq mülkiyyəti bölgüsünə dair mövcud olan qayda istər-istəməz kasıbların sayını artıracaqdır.



14. Eforatla da iş pisdir. Bu hökümət orqanı onlarda idarə etmənin mühüm sahələrinə nəzarət edir; bu da bütün vətəndaş əhalisi içərisindən tamamlanır, belə ki, hökumətin tərkibinə tamamilə kasıb adamlar düşür ki, təmin olunmadıqlarına görə onları asanlıqla pulla ələ almaq olur və əvvəlki vaxtlarda bu cur ələ almalar tez-tez baş verirdi, həm də bu yaxınlarda bunlar andros işində də olmuşdu, onda ki, eforatlardan bəziləri pulla yoldan çıxarılmışdılar, bütün dövləti, bu hər halda onlardan nə qədər asılı idisə, məhv etmişdilər[29]. Eforatların səlahiyyəti müstəbid səlahiyyəti kimi böyük olduğundan, hələ çarların özləri də demaqoqluğa əl atmağa məcbur olurdular ki, bundan da həmçinin dövlət quruluşuna ziyan dəyirdi: apistokratiyadan demokratiya əmələ gəlirdi. 15. Əlbəttə, bu dövlət orqanı dövlət quruluşunu möhkəmlədir, çünki xalqın yüksək dövlət adamlarına yolu olduğundan dinc durur; belə vəziyyət təsadüf nəticəsində yaranarkən bu, faydalı olur, axı uzun müddət mövcud olmağı nəzərdə tutan dövlət quruluşunun məqsədi ona xidmət etməlidir ki, dövləti təşkil edən bütün hissələr, mövcud qaydaların saxlanmasında istədiyini tapsın[30]. Çarlar bunu onlara göstərilən hörmətə görə, yüksək cəmiyyətin adamları **(kaloi k'agathoi)** – herontlara görə (bu vəzifəyə seçilmək bir növ yaxşılığa görə mükafatdır), xalq – eforata görə və ona görə ki, hamıdan komplektləşdirilir. 16. Amma bu vəzifəyə bütün vətəndaşlar içərisindən seçib, təyin etmək lazım idi, həm də indiki dövrdə edildiyi kimi həddindən artıq uşaqsayağı yox. Üstəlik, eforatlar vacib məhkəmə işlərinə dair qərar çıxarırlar, bununla belə məlumdur ki, onların özləri təsadüfi adamlardır; buna görə düzgün olardı ki, onlar öz hökmlərini şəxsi mülahizələrinə görə yox, qanuna istinad etməklə çıxarsınlar. Eforatların özlərinin həyat tərzi dövlətin ümumi ab-havasıyla düz gəlmir: onlar həddindən artıq sərbəst yaşaya bilərlər, halbuki başqalarına qarşı daha çox gərək-

siz yerə tələbkarlıq göstərirlər, belə ki, onlar özlərini saxlaya bilmək vəziyyətində olmadıqda, gizlicə qanundan kənara çıxıb, nəşəli ehtiraslara uyurlar.

17. Heront hökumət nümayəndələri ilə də iş pisdir. Onlar – nəcib şəxslərdirsə və aldıqları tərbiyəyə görə mükəmməl adamlara məxsus olan keyfiyyətlərə malikdilərsə, onda hətta şübhə belə yaransa ki, onlar həmişə vacib olan işləri həll edirlər, hər kəs dərhal onların dövlət üçün xeyrini təsdiq edəcək, axı bədən kimi ağıl da qocalmış olur. Amma əgər herontların tərbiyəsi elə olsa ki, qanunvericinin özü onları mükəmməl xadimlər hesab etməyib, onlara inamsızlıq göstərmək fikrinə düşsün, onda herontlar dövlət üçün təhlükəsiz olmayacaq. 18. Bu vəzifəni tutan adamlar pula satılan olur və razı salındıqda tez-tez dövlətin işlərini qurban verirlər. Buna görə yaxşı olardı ki, onların üzərindən heç bir nəzarət götürülməsin, indinin özündə isə bu, məhz belədir. Doğrudur, eforatların bütün vəzifəli şəxslərə nəzarət etməsinə etiraz etmək olar. Amma eforatlara da tamamilə böyük üstünlük verən bu cəhətdir, həm də nəzarətin özünün həyata keçirilmə üsulu, bizim fikrimizcə, başqa cür olmalıdır. Üstəlik, herontların ləyaqətlərinə görə seçilmə üsulu da uşaqsayağıdır; bu da düz deyildir ki, bu vəzifəyə şərəfyab olmağa cəhd göstərən adam, buna özü çalışır, halbuki dəyərli şəxsin bunu istəyib-istəməməsindən asılı olmayaraq vəzifə tutması vacibdir. 19. Hal-hazırda isə digər işlərdə olduğu kimi dövlət quruluşu barədə də, görünür ki, qanunvericidə bir fikir üstünlük təşkil etmişdir: o, vətəndaşlarda şöhrətpərəstliyə həvəs oyatmağa çalışmışdır və herontların seçki işində də bundan istifadə etmək istəyir. Axı heç kim şöhrətpərəst olmadan vəzifə tutmağa çalışmayacaq. Amma ki, cinayətlərin böyük əksəriyyətini də adamlar, məhz şüurlu surətdə şöhrətpərəstlik və tamahkarlıq üzündən törədirlər.



20. Çar hakimiyyəti haqqında – bunun dövlət üçün yaxşı olub-olmamasına dair söhbət başqa yerdə aparılacaq. Amma bu yöndə iş hər halda onda yaxşı olardı ki, hər bir lakedemon çarı onun həyat tərzinə verilən qiymətə görə çar elan olunsun[31]. Bununla belə aydındır ki, qanunvericinin özü çarları mükəmməlləşdirməyin mümkünlüyünə ümid etmir, hər halda o, inanmır ki, onlar lazımi qədər şanlı xadimlərdir. Bax buna görə də müşayiətçi sifəti ilə onların şəxsi düşmənlərini onlarla birlikdə göndərirdilər və haçan ki, çarlar arasında hesablaşma başlayırdı, bunu dövlətin xilası hesab edirdilər.

21. Fiditiya adlanan sissitiyaların yaradılıb qanuna salınmasını da düzgün hesab etmək olmaz. Bunun yaradılması üçün Kritdə olduğu kimi vəsaiti ən öncə dövlət verməlidir. Lakedemonlularda hər kəs haqq verməyə borcludur, baxmayaraq ki, bəziləri ifrat kasıbçılıq üzündən bu cur xərclərin qarşısında durmaq vəziyyətində deyil, belə ki, nəticə qanunvericinin məqsədinin əksinə alınır. Axırıncı istəyir ki, sissitiya sistemi demokratik olsun, lakin mövcud qanunlar buradakı demokratiyanın qarşısını alır. Axı çox kasıb adamlar üçün sissitiyalarda iştirak etmək asan deyil, bununla belə irsən keçən təsəvvürlərə görə bunlarda iştirak etmək vətəndaş olmağın göstəricisidir, zira bu haqqı ödəmək vəziyyətində olmayanlar vətəndaş hüququndan istifadə etmirlər.

22. Navarxlar haqqında qanuna gəldikdə isə onu artıq başqaları da məzəmmət edirdilər[32] və bu məzəmmət tamamilə əsaslı idi: o, qisasçılığa səbəb olur; əslində, əvəzedilməz sərkərdələr olan çarlarla bərabər navarxlar az qala ikinci çar səlahiyyətini daşıyır.

Spartalı qanunvericinin əsas məqsədini sərkiləmək də olar, necə ki, Platon «Qanunlar»da rəyini bildirmişdi: bütün qanunların hamısı yalnız məziyyətlərin bir hissəsi üçün, məhz

hərbdə göstərilən qəhrəmanlıqlar üçün nəzərtə tutulub, çünki bu, üstünlüyə nail olmaq üçün sərfəlidir. Buna görə onlar nə qədər müharibə aparırdılar dözdülər, hegemonluğa nail olarkən isə ölməyə başladılar; onlar asudə vaxtdan istifadə edə bilmirdilər, hərb işindən daha yüksək məşğuliyyətləri də yox idi. 23. Digər xəta da bundan geri qalmır: onların fikrincə, insanların əldə etmək istədikləri rifaha daha çox məziyyətlərin köməkliyilə yetmək olur, nəinki əksikliklərlə və bunda onlar tamamilə haqlıdırlar, amma o yaxşı deyil ki, bu rifahı onlar məziyyətdən üstün tuturlar.

Spartiatda dövlətin maliyyə işləri də pisdir; haçan ki, dövlətə böyük müharibələr aparmaq lazım gəlir, onun xəzinəsi boşalır və bura az pul daxil olur, amma torpaq mülkiyyətinin böyük hissəsi spartiatların əlində cəmləşdiyindən, onlar vergi ödəməkdə bir-birlərinə nəzarət etmirlər. Nəticə də qanunvericinin nəzərdə tutduğu mənfəətin əksinə oldu, dövləti pul vəsaiti sarıdan kasıb etdi, ayrı-ayrı şəxsləri isə – tamahkar. Lakedemon dövlət quruluşu haqqında kifayət qədər söylənilib; biz töhmətə daha çox nə layiqdirsə onu da qeyd etdik.

VII. 1. Krit dövlət quruluşu Lakedemon dövlət quruluşuna yaxındır. Onun bəzi cizgiləri pis deyil, bununla belə o, özünün əksər cəhətləri ilə geri qalır, ehtimal ki, – bu rəvayətlərdə də təsdiq olunur – Lakedemon dövlət quruluşu özünün əksər cəhətləri ilə kritdəkinə bənzəyirdi, bu da məlumdur ki, köhnə təsisatlar sonrakılardan əksəriyyətcə daha az təkmil idi. Rəvayətə görə, çar Xarillin qəyyumluğundan imtina etdikdən sonra səyahətə çıxan Likurq, onda öz vaxtının böyük hissəsini əsir kimi Kritdə keçirmişdi. İş bundadır ki, Liktın sakinləri Lakedemondiyanın kolonisti idi; haçan ki, onlar koloniyanı təşkil



etməyə getmişdilər, onda oranın sakinlərindən onlarda mövcud olan qanunların hamısını əxz etmişdilər.

2. Krit adası elə bil ki, yaranışından Yunanıstan üzərində ağalıq üçün təyin edilmişdi və onun coğrafi vəziyyəti də əladır: onun dənizlə əlaqəsi vardır ki, bunun da ətrafında, demək olar, ellikcə yunanlar məskunlaşıblar; bir tərəfdən Peloponnes, digər tərəfdən – Asiya ilə, yəni Tripolis vilayəti və Rodosla onun arasında az məsafə var. Buna görə Minos da dəniz üzərində öz hakimiyyətini möhkəmlətdi, adalardan isə bəzilərini özünə tabe etdi, digərlərini məskunlaşdırdı, nəhayət, o, Koriekada öz həyatına son qoymamışdan öncə Siciliyaya hücum etdi. 3. Krit və Lakedemon qaydaları arasındakı oxşarlıq aşağıdakılardan ibarətdir: spartiatlar üçün torpağı ilotlar becərirlər, kritlilər üçün – perieklər; spartiatlarda da, kritlilərdə də sissitiyalar mövcuddur, bunların ilk vaxtlar lakedemonlularda fiditiya, kritlilərdə isə andriya adlandırılmaması açıq-aydın sübut edir ki, bunlar oradan əxz edilib. Bundan başqa həm də siyasi quruluş: o səlahiyyət ki, eforatlarda vardır, beləsinə Kritdə kosma adlandırılanlar malikdirlər; fərq yalnız bundadır ki, eforatların sayı-beş, kosmaların sayı – ondur. Herontlar o herontlara uyğundur ki, beləsini kritlilər şura adlandırırlar. Əvvəllər çar hakimiyyəti də mövcud idi, lakin kritlilər bunu ləğv etdilər; müharibə zamanı başçılıq etmək isə onlarda kosmalara aid olan məsələdir. 4. Xalq məclisində hamı iştirak edir, lakin xalq məclisinin heç bir şeydə müstəqil qərar qəbul etməyə hüququ yoxdur, yalnız herontların və kosmaların qənaətlərini təsdiq edir. Sissitiyalarla bağlı iş kritlilərdə lakedemonlulara nisbətən yaxşı qurulub. Lakedemonda hamı elliklə lazımi haqqı ödəməlidir, əks halda yuxarıda deyildiyi kimi qanun onun vətəndaş hüququnu əlindən alır; Kritdə sissitiyalar daha çox ümumxalq xarakteri daşıyır: dövlətin götürdüyü bütün məhsuldan, heyvanların artımından, bütün gəlirlər-

dən və...[33] perieklərin ödədiyi haqdan bir hissə ayrılıb dini işlərə və ümumi dövlət xərclərinə gedir, digər hissə isə sissitiyalara. Beləliklə, hamı, qadınlar da, uşaqlar da, kişilər də dövlətin hesabına dolanırlar.

5. Qanunverici çox tədbirlər düşünüb tapmışdı ki, kritlilər öz xeyirlərindən ötrü az yesinlər; həmçinin qadınları kişilərdən ayırmaq məqsədilə ki, onlar çox uşaq doğmasınlar, o, kişi ilə kişinin intim əlaqəsini həyata keçirmişdi, bu iş pisdirmi, yoxsa yaxşı – bu, fürsət düşən kimi başqa munasib vaxtda müzakirə ediləcək.

Sissitiyaların kritlilərdə lakedemonlulara nisbətən yaxşı təşkil edilməsi aydındır. Əksinə, onlarda kosmalarla iş spartalı eforatlara nisbətən daha pis qurulub. Eforat sisteminə məxsus mənfi tərəflər kosmalara da aiddir, çünki onların sırasına təsadüfi adamlar düşür. Amma orada dövlət quruluşunun götürdüyü xeyri, biz burada görmürük. Orada eforatlar hamının içərisindən seçilir və beləliklə, xalqın yüksək dövlət adamlarına yolu olduğundan mövcud dövlət qaydalarının saxlanılmasını istəyir; burada isə kosmalar hamının deyil, məyyən nəsillərin içərisindən seçilir, herontlar isə – kim əvvəllər kosma olmuşdu, onlardan seçilir. 6. Onların haqqında da Lakedemondakı herontlar kimi eyni şeyləri demək olar: onların məsuliyyətsizliyi və əvəzedilməzliyi – ləyaqətlərilə müqayisədə onlara olduqca böyük şərəfdir, əslində isə onların yazılı qanunlar əsasında deyil, özbaşına olan idarəçiliyi xatalıdır. İdarəetmədən məhrum edilmiş xalqın susması, heç bir vəchlə bu qaydaların doğruluğuna dəlalət etmir. Kosmaları – eforatların əksinə olaraq – ələ almaq heç cür mümkün deyil, ona görə ki, onlar, onları ələ almaq istəyənlərdən uzaqda, adada yaşayırlar[34]. Kritlilərin çatışmazlıqları aradan qaldırmaqdan ötrü seçdikləri yol isə yanlışdır və siyasi quruluş üçün deyil, dinastiya quruluşu üçün yararlıdır. 7. Kosmaları qovmaqdan ötrü onların bəzi yoldaşları, yaxud ayrı-ayrı



şəxslər, onlara qarşı, məhz tez-tez birləşirlər; həmçinin kosmaların özlərinə də icazə verilir ki, icra etdikləri vəzifədən imtina etsinlər. Əlbəttə, yaxşı olardı ki, bütün bunlar qanun əsasında baş versin, daha heç kimin qərarına görə yox, çünki bu axırıncı meyar xatalıdır. Ən acınacaqlısı isə – qaydaların tamamilə ləğv edilməsinin mümkünlüyüdür; bu, tez-tez onları hədələyən məhkəmələrə tabe olmaq istəməyən qüdrətli şəxslər tərəfindən təşkil edilir. Buradan aydındır ki, krit quruluşu politiyadan bir növ ilgilənir, lakin bu politiya deyil, hər şeydən öncə dinastiyadır. Bu da təbiidir ki, kübarlar xalqı və dostlarını özlərinə qoşmaqla anarxiya, qarşılıqlı qisasçılıq və daxili çəkişmələr yaradırlar. 8. Bu cür vəziyyət, ümumiyyətlə, dövlətin mövcudluğuna müvəqqəti nəhayət verilməsindən nə ilə fərqlənir? Məgər bu halda həm də dövlət münasibətləri alt-üst olmurmu? Haçan dövlət təsvir etdiyimiz vəziyyətə düşsə onda kim istəsə və ona basqın etmək iqtidarında olsa böyük təhlükə meydana çıxacaqdır. Amma yuxarıda deyildiyi kimi, bu quruluş dövlətin coğrafi vəziyyəti hesabına xilas olacaqdır; uzaqlıq və yadellilərin qovulmasına yönələn tədbirlər bununla nəticələnəcək[35]. Buna cörə kritlilərdə perieklər yerlərində dinc oturublar, bununla belə ilotlar kimi tez-tez qiyam edirlər. Kritlilər adadan kənarda heç nəyə sahib deyillər və yalnız bu yaxınlarda onlara kənardan edilən basqın oradakı qanunların zəifliyini aşkar etdi[36]. Hesab edirik ki, Krit dövlət quruluşundan kifayət qədər danışdıq.

VIII. 1. Belə hesab edirlər ki, karfagenlilər də əksər cəhətcə digərlərindən fərqlənən gözəl dövlət quruluşuna malikdirlər; bir çox halda o, əsas etibarı ilə lakedemon dövlət quruluşu ilə eynilik təşkil edir. Ümumiyyətlə, bu üç – krit, lakedemon və karfagen – dövlət quruluşu müəyyən dərəcəyə qədər bir-birlərinə çox yaxındır və digərlərindən xeyli fərqlənir. Həqiqətən, kar-

fagenlilərdə dövlət həyatının əksər tərəfləri çox yaxşı qurulmuşdur. Dövlət quruluşunun qaydasında olmasına artıq o dəlalət edir ki, orda hərc-mərcliyi və istibdadı xatırladan şeylər olmasın deyə xalq könüllü surətdə mövcud qaydaları dəstəkləyir.

2. Lakedemon dövlət quruluşu ilə eynilik təşkil edən bunlardır: lakedemon fiditiyasına bənzər Karfagendə yoldaşlıq sissitiyaları mövcuddur; yüz dördlərin vəzifəsi eforatlara uyğundur (bu yüz dördlərin eforatlardan fərqi – həm də yaxşı tərəfdən – bundan ibarətdir: eynilə necə ki, hər yetən eforat olur, yüz dörd nəfər də yalnız əsilzadələr içərisindən seçilir); çarlar və herusiyalar, lakedemon çarları və herontlarına uyğundur, bununla belə yenə də üstünlük ondan ibarətdir ki, çarlar nə mütləq eyni nəsildən olmalıdır, nə də hər yetəndən, amma görkəmli nəslə mənsub olmalıdırlar...[37] Bu sıradan seçilirlər[38], həm də yaşa görə yox. Əslində, herontlar əsas vəzifələri tutublar, əgər onlar dəyərsiz adamlar olmuş olsalar, böyük ziyan vura bilərlər, artıq lakedemon dövlətinə də ziyan vurublar.

3. Əsasən nə xüsusda bu dövlət quruluşunu yuxarıda göstərilən hər üç dövlətə eyni dərəcədə xas olan mükəmməl quruluşdan yayındığına görə qınamaq olar. Dövlətə və politiyaya xidmət etmək niyyəti ilə dəvət edilmiş ən yaxşılar **(aristokratias)** arasında elələri vardır ki, onlar bir qədər demokratiya tərəfə, bir qədər də oliqarxiya tərəfə meyl edir. Çarlar herontlarla bərabər onların arasında tam razılıq olduğu halda məsələni həll etməkdən ötrü xalq məclisinə çıxarmağa da səlahiyyətlidirlər, çıxarmamağa da; əgər ki, razılıq yoxdursa, onda həlledici səs xalq məclisinə məxsusdur. O işlər ki, onlar haqqında çarlar və herontlar qərar verirlər, bunlara yalnız hakimiyyətin çıxardığı qərar kimi qulaq asılmır, həm də bunları müzakirə etməyə icazə verilir və bu istəkdə bulunan hər kəs irəli sürülən təkliflərə qarşı çıxış edə bilər ki, bunu da biz digər dövlət quruluşlarında görmürük.



4. Həmçinin pentarxlar[39] çoxlu mühüm səlahiyyətlərə malik olmaqla öz-özlərinə nəzarət edirlər, yüzlər şurasını seçirlər, üstəlik başqa vəzifəli şəxslərə nisbətən onlar hakimiyyətdə uzun müddət qalırlar (pentarxlar həm vəzifədən gedəndə, həm də vəzifəyə keçməyə hazırlaşanda hakimiyyətdə qalırlar), – bütün bu xüsusiyyətlər oliqarxiya quruluşuna xasdır. Əksinə, vəzifəli şəxslərin xidmətə görə mükafatlandırılmamasını, onların püşkə və bu kimi şeylərə görə təyin edilməsini aristokratiya quruluşuna xas olan xüsusiyyətlər hesab etmək lazımdır; həmçinin Lakedemondakı kimi ayrı-ayrı işlərin ayrı-ayrı hakimlərə aid olması yox, Karfagendə bütün məhkəmə işlərinin müəyyən vəzifəli şəxslər tərəfindən araşdırılması buna uyğundur.

5. Ancaq karfagen dövlət quruluşunun aristokratiya dövlət quruluşundan daha çox oliqarxiya tərəfə meyl etməsi əksərlərini bu qənaətə gətirir: onlar hesab edirlər ki, vəzifəli şəxslər yalnız əsilzadələrdən deyil, həm də dövlətlilərdən seçilməlidir, ona görə ki, təminatsız adamın yaxşı idarə etməsi mümkün deyil və bundan ötrü onun kifayət qədər asudə vaxtı da olmayacaq. Amma adamların var-dövlətə görə vəzifəyə seçilməsi əgər oliqarxiyaya, məziyyətlərinə görə isə aristokratiyaya xasdırsa, onda biz buna istinadən, bunu dövlət quruluşunun həmin üçüncü forması hesab edə bilərik ki, belə dövlət qaydaları karfagenlilərə məxsus üslubda təşkil edilmişdir; axı onlar vəzifəyə, bundan başqa ən əsas – çarları və sərkərdələri seçərkən, məhz bu iki şərti nəzərə alırlar. 6. Amma aristokratiya quruluşunun beləcə qəbul edilməməsinə qanunvericinin səhvi kimi baxmaq lazımdır. Axı ən başlıcası – buna da hər şeydən öncə diqqət yetirmək lazımdır – bundan ibarətdir ki, ən yaxşı adamlar dövlətdə asudə vaxta malik ola bilsinlər və vəzifədə olub-olmamalarından asılı olmayaraq onlar heç bir ləyaqətsizliyə məruz qalmasınlar. Bununla da hesablaşmaq lazımdır ki, var-dövlət

asudə vaxtın əmələ gəlməsinə imkan yaradır, amma pisi odur ki, ən yüksək şeylər, yəni çarın ləyaqəti və strategiya pulla ələ alına bilsin. Bu cür qanunlar ona gətirib çıxarır ki, var-dövlət məziyyətdən üstün tutulur və bütün dövlət tamahkar olmağa başlayır. 7. Axı o şey ki, vəzifə sahiblərində qiymətli sayılır, o biri vətəndaşların təsəvvüründə də bu, istər-istəməz belə olacaq. Amma harada ki, məziyyət bütün şeylərdən üstün sayılmır, orada aristokratiya dövlət quruluşu möhkəm ola bilməz. Tamamilə təbiidir ki, hakimiyyəti pulla ələ alanlar vəzifəyə keçdikdən sonra pulsuz qalsalar bundan gəlir götürməyə adət edəcəklər; kasıb və təmiz adamın gəlir əldə etmək təmənnasında bulunması inanılmaz şeydir, amma bundan pisi pulsuz qalsa bunun təmənnasında olacaq. Ona görə də o adamlar idarə etməlidirlər ki, onlar idarəetməni daha yaxşı bacarırlar **(arista)**. Əgər qanunverici təmiz adamların firavan yaşamasına cəhd göstərib, buna imkan yaratmamışdırsa, onda o, heç olmasa elə etməli idi ki, vəzifəli şəxslərin lazımi qədər asudə vaxtı olsun.

8. Onu da mənfi cəhət saymaq olar ki, bir adama eyni vaxtda bir neçə vəzifə tutmaq imkanı verilir; bununla belə Karfagendə bu qayda tərəqqi edir. Amma hər hansı bir iş bir adam tərəfindən daha yaxşı icra olunur. Qanunverici bununla mütləq hesablaşmalıdır; o yol verməməlidir ki, eyni bir adam həm fleytada çalsın, həm də ayaqqabı tiksin. Beləliklə, heç də kiçik olmayan, daha çox politiya, bununla da bərabər demokratik bir ölkənin idarə edilməsində vətəndaşların böyük qisminin iştirak etməsi mümkündür: onda biz qeyd etdiyimiz kimi, hər kəs öz işini ictimaiyyətin mənfəətini daha çox düşünərək həm daha yaxşı, həm də tez görəcəkdir. Bu, əmr və tabeçiliyin hər şeyi üstələdiyi hərb və dəniz işlərində özünü daha aydın göstərir.

9. Beləliklə, [Karfagendə dövlət quruluşu] oliqarxiya olsa da, amma karfagenlilər məharətlə xalqın [hiddətinin qarşısını



ona] varlanmağa imkan verməklə alırlar, belə ki, onlar həmişə xalqın müəyyən qismini hakimiyyətləri altında olan şəhərlərə göndərirlər. Bununla onlar öz dövlət quruluşlarını müalicə edib, ona möhkəmlik verirlər. Lakin hər bir hadisə baş verə bilər, bununla belə çaxnaşmaların qarşısını almaq qanunvericinin öhdəsinə düşən işdir. İndiki vəziyyətdə hər hansı bir bədbəxtlik baş verərsə və tabeçilikdə bulunan kütlə cızığından çıxarsa, qanunlarda sakitliyi bərpa etmək üçün vasitə tapılmayacaq.

Yaxşı ad qazanan Lakedemon, Krit və Karfagen dövlət quruluşlarında işlər belədir.

IX. 1. Dövlət quruluşu haqqında bu və ya başqa cür fikir söyləmiş adamlar arasında, bəziləri hətta az da olsa belə dövlət işində çalışmayıbdır, bütün ömürlərini ancaq adi adamlar kimi keçiriblər; onların bu barədə az-çox söylədikləri ən yaxşı fikirlərin, demək olar, hamısını biz yuxarıda qeyd etmişik. Bəziləri, əksinə, qanunverici idi; onların bir qismi öz dövlətləri üçün qanun çıxarmışdı, digərləri – özgələri üçün, həmçinin onlar dövlət işlərində şəxsən iştirak etmişdilər. Bu qanunvericilərin bir qismi yalnız qanunların yaradıcılarıdır, digərləri isə məsələn, Likurq və Solon, həm də dövlət quruluşunun; onlar həm qanunları hazırlamış, həm də dövlət quruluşunu yaratmışdılar.

2. Lakedemon dövlət quruluşu haqqında yuxarıda danışılmışdı. Solonu isə bir çoxları mükəmməl qanunverici hesab edir: o, oliqarxiyanı qəti surətdə ləğv etdi, sadə xalqın köləliyinə son qoydu və müvəffəqiyyətlə ayrı-ayrı dövlət quruluşlarında olan əsas şeyləri götürüb, ulu babaların demokratiyasını bərpa etdi; areopaq oliqarxiyanın əsaslarını təşkil edir, seçki yolu ilə vəzifəyə adam təyin etmək – aristokratiyanın, xalq məhkəməsi isə – demokratiyanın əsaslarıdır. Bununla belə, Solon göründüyü kimi, əvvəllər mövcud olan şeyləri, yəni areopaq və vəzifəyə

gəlməyin seçki yolu ilə olmasını saxlamışdır, lakin demokratiyanı o, məhz xalq məhkəmələrini tətbiq etməklə elə qurmuşdur ki, burada istənilən şəxs hakim ola bilər. 3. Bir çoxları Solonu bunun üstündə məzəmmət edib, göstərirdi ki, o, dövlət quruluşunun digər əsaslarını heçə endirərək bütün səlahiyyətləri üzvləri püşklə təyin edilən məhkəməyə vermişdir. Haçan ki, xalq məhkəməsi möhkəmləndi, onda müstəbidin qarşısında olduğu kimi sadə xalqın da önündə yaltaqlanmağa başladılar və dövlət quruluşu indiki demokratiyaya çevrildi. Areopaqın əhəmiyyətini Periklla bərabər Efialt azaltdı; Perikl məhkəmədə iştirak etmək üçün ödəniş tətbiq etdi, beləliklə də hər bir demaqoq demokratiyanı daha uzağa – indiki vəziyyətə gətirib çıxardı. 4. Bu isə göründüyü kimi Solonun fikrinə yox, daha çox şəraitə müvafiqdir. Axı İran müharibələri zamanı sadə xalq dənizdə hegemonluğa nail olduqdan sonra lovğalanmağa başladı və nəcib adamların etirazına baxmayaraq özünə səfeh başçılar seçdi; bununla belə Solon, göründüyü kimi, sadə xalqa ən lazımi – vəzifəli şəxsləri seçmək və onlardan hesabat almaq səlahiyyəti vermişdir (əgər o, bu hüquqlara malik olmasaydı, onda qul vəziyyətində olardı və düşmənçilik əhval – ruhiyyəsində bulunardı); amma Solonun fikrincə bütün vəzifələrə zadəgan əsilli və varlı adamlar təyin edilməlidir – pentakosiomedimlərdən, zevgitlərdən və süvarilər adlanan üçüncü təbəqədən; dördüncü təbəqəni heç bir vəzifəyə keçmək imkanı olmayan fetlər təşkil edir.

5. Həmçinin Lokrov Epizefirdən olan Zalevk və Katanadan olan Harond öz vətəndaşlarının, həm də İtaliya və Siciliyada olan digər xalkid şəhərlərinin qanunvericiləri idilər[40]. Bəziləri Onomakriti də qanunvericilərin siyahısına salmağa çalışır, guya ki, qanunvericilik işində birinci olaraq o, fərqlənmişdir; onun mənşəcə lokr olduğunu göstərirlər, yaşadığı Kritdə təlim alıb mantika sənətinə yiyələnmişdi; Faley isə onunla dostluqda



bulunmuşdu; Likurq və Zalevk Faleyin, Harond isə – Zalevkin tələbəsi olmuşdu[41]. Lakin kimlər bu cür ardıcıllıq yoluna keçirsə, onlar xronologiya ilə tamam az hesablaşırlar.

6. Fivalılarda qanunverici Filolay Korinfli idi, Filolay[42] Bakxiadlar nəslindən çıxmışdı; olimpiya yarışlarının qalibi Dioklla məhəbbət münasibətində bulunduğundan Fivaya çəkilmişdi, anası Alkionun ona qarşı olan cinayətkar məhəbbəti zəhləsini tökən zaman Korinfi tərk etdi. Orada da hər ikisi ömrünü başa vurdu. İndinin özündə də onların məzarlarını göstərirlər, onlar elə yerləşmişdir ki, birindən digərini yaxşı görmək olur. Lakin Korinfin ərazisi bir qəbir tərəfdən görünür, digərindən isə – yox. 7. Rəvayətə görə dəfn barədə onlar özləri göstəriş vermişdilər. Diokl – öz başına gələnlərə doğan nifrətdən istəmişdi ki, onun məzarından Korinf vilayəti görünməsin, Filolay isə, əksinə – istəyirdi ki, o, görünsün. Onların ikisi də yuxarıda göstərilən səbəbə görə Fivada məskunlaşmışdı. Filolay bununla belə, həm də onlarda uşaq döğumuna dair qanunlar təsis etmişdi (bu qanunları onlar övladlığa götürmə haqqında qanunlar adlandırırlar). Onlar bunu xüsusi olaraq pay torpaqlarının eyni bərabərdə saxlanması məqsədilə təsis etmişdilər.

8. Harondun qanunlarında yalandan şahidlik etmək üstündə məhkəmənin təqibi haqqında qanunu istisna etməklə, başqalarından fərqli olan bir şey yoxdur (o, birinci olaraq buna görə məsuliyyətə cəlb etməni qanuna salmışdır). Dürüstlüyünə görə Harondun qanunlarında xülasə edilmiş fikirlər, hətta indiki qanunvericilər arasında fərqlənir. Faleydə mülkiyyətin bərabərliyi haqqında qanun xüsusiyyət təşkil edir. Platonda qadınların, uşaqların və mülkiyyətin ümumiliyi, qadın sissitiyaları, həmçinin də içki məclisləri haqqında qanun, yəni bunlara birbaş ağıllı – başlı adamlar sədrlik etməlidir, daha sonra – hərbi təlim haqqındakı qanuna görə təlim keçənlər hər iki əllə eyni dərəcədə işlə-

məyi bacarmalıdır, belə ki, bir əl yararlı, digəri isə yararsız olmamalıdır.

9. Drakontun qanunları var, lakin o, bunları artıq mövcud olan dövlət quruluşu üçün vermişdir. Dərəcəsinə görə cəzanın şiddətli olmasını istisna etməklə, bu qanunlarda başqalarından fərqli olan, yadda qalacaq heç nə yoxdur. Pittak[43] da dövlət quruluşunun yox, qanunların yaradıcısı idi. Pittakın başqalarından fərqli olan qanunu aşağıdakıdır: öz yaramaz hərəkətlərinə görə sərxoşların cəzası ayıqlardan daha artıq olmalıdır; belə ki, sərxoşlar əksər hallarda ayıqlardan böyük həyasızlıqları ilə seçildiklərindən o, ictimaiyyətin mənfəətini güdmüş və çox guman bunun nəticəsi kimi onlara iltifat göstərmək istəmişdir.

Frakiyalı xalkidlərin qanunvericisi regiyalı Androdamant idi[44]; qətlə dair və varis qızlar haqqında qanunlar ona məxsusdur; bununla belə kimsə çətin ki, Androdamantın qanunlarında başqalarından fərqli olan hansısa bir cizgini görə bilsin.

Həm gerçəklikdə mövcud olan, həm də yalnız layihə olaraq qalan dövlət quruluşları haqqında bizim fikirlərimiz bax bunlardır.



## ÜÇÜNCÜ KİTAB (Q)

I. 1. Dövlət quruluşunun formaları və onlara məxsus xassələri tədqiq edənlərə hər şeydən öncə, ümumiyyətlə, dövlət haqqında məsələni nəzərdən keçirmək və dövlətin nə olduğunu araşdırmaq lazımdır. İndiki dövrdə bu xüsusda fikir ayrılığı var; bəziləri iddia edirlər ki, dövlət bu və ya digər işlər nəticəsində əmələ gəlmişdir, digərləri deyirlər: yox, dövlət deyil, oliqarxiya, ya da müstəbid. Əslində, biz görürük ki, dövlət xadiminin və qanunvericinin bütün fəaliyyəti müstəsna olaraq dövlətə **(polis)** yönəlmişdir, dövlət quruluşunu **(politeia)** isə dövlətin müəyyən sakinləri təşkil etmişlər. 2. Hər bir tama müvafiq olaraq dövlətin də hissələrdən, lakin daha çox hissələrdən ibarət tərkibə malik olduğunu nəzərə alsaq, aydındır ki, öncə vətəndaşın **(politēs)** nə olduğunu müəyyənləşdirmək lazımdır, axı dövlət vətəndaşların məcmusundan ibarətdir. Beləliklə, araşdırmaq lazımdır ki, kimi vətəndaş adlandırmaq olar və vətəndaş nə deməkdir. Axı biz vətəndaş anlayışını müəyyənləşdirərkən tez-tez fikir ayrılığına rast gəlirik: eyni bir adamı hamı vətəndaş kimi tanımaq istəmir; kim ki, demokratiyada vətəndaşdır, o, oliqarxiyada tez-tez olduğu kimi artıq vətəndaş sayılmır.

3. Hansısa xüsusi bir mənada vətəndaş adına yiyələnənləri, məsələn, vətəndaş sıralarına qəbul edilənləri diqqətdən kənarda qoymaq lazımdır[1]. Vətəndaş harda yaşamağından asılı olmayaraq yenə vətəndaş olaraq qalır: axı həm meteklər[2], həm də qullar vətəndaşlarla yanaşı olaraq daimi yaşayış yerlərinə malikdirlər, həmçinin də o kəslər vətəndaş deyildir ki, onlar iddiaçılıq və cavabdehlik hüququna malikdirlər, zira bu hüquqdan əcnəbilər də, onlarla bağlanan müqavilə əsasında istifadə edirlər (onlar, məhz bu hüquqdan istifadə edirlər). Meteklərə gəldikdə isə onlar əksər yerlərdə bu hüquqa tam malik deyillər, lakin

özlərinə prostat[3] seçməlidirlər; beləliklə, onlar bu sayaq münasibətlərdə tam iştirak etmirlər.

4. Həm həddi-buluğa çatmayan və buna görə vətəndaşlıq siyahısına[4] daxil edilməyən uşaqlar haqqında, həm də vətəndaşlıqdan azad edilən qocalar haqqında demək lazımdır ki, bunlar da, onlar da – şərtsiz deyil, yalnız nisbi mənada vətəndaşdırlar; həm də birincilərə «günahdan azad» vətəndaşlar, ikincilərə isə – «son yaş həddini adlamış», yaxud buna uyğun nə isə artırmaq lazımdır (iş bu, yaxud başqa ifadədədir – bizim fikrimiz onsuz da aydındır). Biz isə vətəndaş anlayışını bu sözün şərtsiz mənasında müəyyənləşdirməyi qarşımıza məqsəd qoymuşuq, o mənada ki, daha düzəldilməsinə ehtiyac duyulan heç bir nöqsanı olmasın, əks halda həm hüquqlarını itirmiş vətəndaşların, həm də qaçqınların məsələlərini həll etmək işində bulunmaq lazım gələcəkdir. Bəzi vəzifələr müvəqqəti olur: eyni bir adam ya ümumiyyətlə bunları ikinci dəfə tuta bilməz, ya da yalnız müəyyən vaxtdan sonra tuta bilər; vaxta görə digər məhdudiyyətlər yoxdur – bura məhkəmədə və xalq məclisində iştirak etmək də aiddir. 5. Hər halda kimsə bəlkə də sezə bilər ki, hakimlər və xalq məclisi iştirakçıları vəzifə sahibləri deyillər və buna görə onlar dövlətin idarə edilməsində iştirak etmirlər, lakin digər tərəfdən, məhz mühüm qərarlar çıxaran adamları səlahiyyətsiz hesab etmək gülməlidir. Amma bu, heç bir əhəmiyyət daşımır, çünki söhbət yalnız addan gedir. Doğrudan da, hakimlər və xalq məclisinin iştirakçılarına məxsus ümumi əlamətlər yoxdur, qoy bu vəzifələr daha az təriflənsin, təki anlayış dürüst müəyyən edilsin. Biz o adamları vətəndaş hesab edirik ki, onlar məhkəmədə və xalq məclisində iştirak edirlər. Vətəndaş anlayışının təxminən bu cur müəyyənləşdirilməsi hər şeydən çox o kəslərə uyğun gəlir ki, onlar vətəndaş adlanırlar.



6. Nəzərdən qaçırmaq olmaz ki, şeylərin forma müxtəlifliyi onların məzmununu müəyyən edir, belə ki, onlardan biri birinci, digəri – ikinci, sonrakı – üçüncüdür, ümumi əlamətlər ya tamamilə olmur, ya da tamam az dərəcədə olur. Bununla belə dövlət quruluşları forma cəhətcə müxtəlif olur, onlardan biri bu ada az, digəri isə – çox dərəcədə layiqdir; axı düz təsis edilməyən və düzgünlərdən yayınan dövlət quruluşları istər-istəməz bu çatışmazlıqlara malik olmayanlardan aşağıda dururlar (biz yayınan formalar deyərkən nə düşündüyümüzü sonra açıqlayacayıq). Beləliklə, dövlət quruluşunun bu, yaxud digər formasından asılı olaraq vətəndaş da bu və ya başqa cür olmalıdır. Yuxarıda danışdığımız vətəndaş əsasən demokratik quruluşa uyğun gəlir; digər dövlət quruluşuna da bu təyinat uyğun gələ bilər, lakin bu, vacib deyil. 7. Bir çox dövlət quruluşu formalarında rəiyyət yoxdur, fövqəladə halları istisna etməklə xalq məclisi çağırmaq qaydası da yoxdur və məhkəmənin səlahiyyətləri ayrı-ayrı vəzifəli adamlar arasında bölüşdürülmüşdür; belə ki, məsələn, Lakedemonda ayrı-ayrı mülki işləri eforatlardan bu və ya digəri, cinayət işlərini herontlar, digər işləri – həmçinin hansısa başqa vəzifəli şəxslər araşdırır. Eyni qayda ilə Karfagendə də bütün məhkəmə işlərinə dair qərarları müəyyən vəzifəli şəxslər çıxarırlar. 8. Demək, bizim müəyyənləşdirdiyimiz vətəndaş anlayışının düzəlişə ehtiyacı var: başqa dövlət quruluşlarında xalq məclisinin iştirakçıları və hakimlər heç bir təsir altına düşməyən təyinatlı vəzifəli şəxslərdir, daha səlahiyyət verilmiş şəxslər deyil: onların ya hamısına, ya da bəzilərinə şuranın üzvü olmaq, həm də ya bütün məhkəmə işlərini, yaxud bunlardan bir qismini araşdırmaq hüququ verilir. Vətəndaşın nə olduğu bundan məlumdur. Kimin ki, qanun layihələrini müzakirə edən orqanla, yaxud məhkəmə orqanı ilə əlaqəsi var, biz təsdiq edirik ki o, həmin dövlətin vətəndaşıdır. Biz elə vətəndaşların məcmusunu

dövlət adlandırırıq ki, ümumiyyətlə desək, müstəqil yaşamaqdan ötrü imkanlı olsun.

9. Təcrübədə biz o adamı vətəndaş hesab edirik ki, onun valideynlərinin biri deyil, hər ikisi – atası da, anası da – vətəndaş olsun. Digərləri bu məsələdə daha uzağa gedib tələb edirlər ki, məsələn, vətəndaşın ikinci, üçüncü əcdadları və hətta daha əvvəlki nəsli vətəndaş olmalıdır. Lakin dövlət üçün bu cür lazımlı və tələsik müəyyənləşdirmədən bəzən çətinliklər meydana çıxır, əcdadların üçüncü, yaxud dördüncü nəslinin vətəndaş olmasına necə əmin olmaq olar. Doğrudur, leontiyalı Qorgi qismən, deyəsən çətinliyə düşdüyü üçün, qismən də istehza ilə demişdir: «bunun kimi necə ki, həvəngdəstə – həvəngdəstə düzəldən ustaların işidir, eləcə də Larisanın vətəndaşları – yaradıcıların məhsuludur» (iş bundadır ki, axırıncılardan bəziləri larisi hazırlayanlardır)[5]. Lakin, əslində, burda hər şey sadədir: əgər Larisanın vətəndaşları biz yuxarıda müəyyənləşdirdiyimiz kimi, dövlətin idarə edilməsində bulunursa, onda onlar vətəndaş olardılar, çünki hec cür, ümumiyyətiə, təsəvvür etmək olmur ki, ilk sakinlər, yaxud dövlətin baniləri vətəndaş kişidən, yaxud vətəndaş qadından törənib. 10. Haçan ki, kimsə vətəndaşlıq hüququnu dövlət quruluşunun dəyişdirilməsi sayəsində alırsa, bu halda həmin tələb daha böyük çətinliklərlə üzləşir, məsələn, necə ki, bünü Afinada Klisfen müstəbidlərin qovulmasından sonra etdi; o, çoxlu əcnəbiləri və qul – metekləri təbəəliyə qəbul etdi[6]. Bu vətəndaşlara münasibətdə məsələnin mübahisəli olması onlardan hansı birinin hüququ çatdığı və ya hüququ çatmadığı halda vətəndaş olmasında deyil, baxmayaraq ki, burada da çətinliklərlə üzləşmək olar, yəni: əgər birisi hüququ çatmayan halda vətəndaş olursa, onda demək o, vətəndaş deyil, çünki ədalətsizlik yalana bərabərdir. Lakin biz görürük ki, bəziləri hətta hüquqları çatmadan vəzifə tuturlar, amma buna baxmayaraq biz onları vəzifəli şəxslər adlandırırıq, hərçənd ki, bu, düzgün deyil. Beləcə, biz vətəndaş anlayışının bu və ya digər vəzifədən asılı olduğunu müəyyən etdik, yəni dedik ki, vətəndaş – o kəsdir ki, hər hansı bir vəzifədə bulunmuş olsun, onda vəzifə tutanları biz, şubhəsiz, vətəndaş hesab etməliyik, lakin onların vətəndaş olmağa hüquqları çatırmı, ya yox – bu, yuxarıda göstərilən mübahisəli məsələ ilə əlaqədardır.

Bir çoxları bu və ya digər işin haçan dövlətə aid olduğuna, haçansa olmadığına cavab verməyə çətinlik çəkir; məsələn, oliqarxiyadan, yaxud istibdad üsul-idarəsindən demokratiyaya keçərkən bəziləri öhdəlikləri yerinə yetirməkdən imtina edib, bu öhdəlikləri, eləcə də bunun kimi bir çox şeyləri dövlətin deyil, müstəbiqin öz üzərinə götürdüyünü bəhanə gətirərək bəzi dövlət quruluşlarının ümumun xeyri naminə deyil, zorakılığın nəticəsində mövcud olduğunu göstərir. 11. Bəzilərinin demokratik surətdə idarə olunmasına baxmayaraq, oliqarxiya və istibdad üsul-idarəsi olan dövlətlərin hökumətlərinin göstərdikləri fəaliyyət kimi, bu demokratik dövlətin hökumətinin göstərdiyi fəaliyyət də dövlət fəaliyyəti kimi qəbul olunmalıdır.

Bizim qoyduğumuz məsələ, çox güman, həll edilməsi çətin mümkün olan belə bir məsələ ilə toqquşur: hansı cəhətlər dövlətin eyni cür qalmasının, yaxud dəyişib başqa cür olmasının göstəricisidir? Ən yüngül halda bu məsələ ərazi və əhaliyə aiddir, axı təsəvvür etmək olar ki, ərazi və əhali bölünmüşdür və bir para adam ərazinin bir hissəsində, digərləri başqa hissəsində yaşayır. Lakin bu, nisbətən sadə çətinlikdir (ona görə ki, «dövlət» sözü müxtəlif mənalarda işləndiyindən məsələni araşdırmaq yüngülləşir). 12. Eləcə də əksər insanlar eyni bir ərazidə yaşayırlarsa, onda hesab etmək lazımdır ki, bu bütöv dövlətdir. Əlbəttə, iş hasarda deyil, axı bütün Peloponnessi bir divarla əhatə etmək olar. Bunun kimi Babil və hər hansı bir

şəhər ərazi vahidindən çox əsarətdə olan mahalı andırır: deyilənlərə görə Babilin alınmasından üç gün keçsə də, şəhər əhalisinin bir hissəsinin bundan xəbəri yox idi. Lakin bu məsələyə baxılmasını gələn dəfəyə saxlamaq yaxşı olardı (dövlət xadimi dövlətin böyük-kiçikliyi, onun necə olması haqqında məsələni, eləcə də dövlət üçün bir, yoxsa bir neçə xalqın məskunlaşmasının sərfəli olduğunu diqqətdən kənarda saxlamamalıdır). 13. Elə hesab edək ki, eyni bir ərazidə eyni sakinlər məskunlaşıblar; sual olunur: nə qədər ki, onun sakinləri eyni bir nəsildən törəyir, onların dövlətlərini elə həmin dövlət hesab etmək olarmı, baxmayaraq ki, həmişə bəziləri ölür, digərləri anadan olur? Çay və çeşmələrdə baş verənlər burada təkrar olunurmu? Biz bir qayda olaraq çayları da, çeşmələri də eyni adla adlandırırıq, hərçənd ki, suyun kütləsi fasiləsiz olaraq artıb azalır. Yoxsa bu cəhətləri nəzərə alaraq sakinləri elə həminki, dövləti isə başqa dövlət kimi qəbul edək? Əgər dövlət nə isə bir münasibətdirsə – o isə, məhz vətəndaşların siyasi münasibətidir ki, var – onda təbii ki, dövlət quruluşu hərgah formasını dəyişib əvvəlkindən fərqlənirsə, dövləti də həminki kimi qəbul etmək olmaz; axı xorları da biz bir-birindən fərqləndiririk – komediyada xor, faciədə xor, hərçənd ki, çox zaman bu və digər xoru eyni adamlar təşkil edir. 14. Eləcə də biz hər cür münasibəti və birləşməni, əgər onun forması mahiyyətcə dəyişibsə başqa cür adlandırırıq; məsələn, eyni səsdən ibarət olan tonallığı biz bir halda – doriya, digər halda – frigiya adlandırırıq. Əgər belədirsə, dövlətlərin oxşarlığı əsas etibarı ilə quruluşlarının müvafiq olması ilə müəyyənləşdirilməlidir; dövlətin eyni, yaxud tamamilə başqa sakinlərlə məskunlaşmasından asılı olmayaraq onu başqa, yaxud həmin adla adlandırmaq olar. Dövlətin quruluşu dəyişərkən öhdəlikləri yerinə yetirmək və ya bunları yerinə yetirməmək ədalətlidirmi – bu, tamam başqa məsələdir.



II. 1. Bilavasitə indicə xülasə edilmiş fikirlərin ardınca hökmən bu məsələni müzakirə etmək lazımdır: yaxşı adamın və dəyərli vətəndaşın məziyyətlərini bir-birinin eyni kimi qəbul etmək olarmı?

Bununla belə, əgər bu məsələni araşdırmaq lazım gəlirsə, qabaqcadan vətəndaşın məziyyətini ümumi cəhətlərlə müəyyənləşdirmək lazımdır. Biz deyirik ki, vətəndaşın dövlətə qarşı olan münasibəti, gəmidə olan dənizçinin qalan heyətə qarşı münasibəti kimidir. Hərçənd dənizçilər gəmidə qeyri-bərabər vəziyyətdə bulunurlar: onlardan biri avar çəkir, digəri sükanı idarə edir, üçüncüsü sükançının köməkçisidir, dördünçüsü özünə uyğun başqa ad daşıyır, bununla belə yəqin ki, onlardan hər birinin məziyyətinin müəyyənləşdirilməsi ayrılıqda yalnız onun özünə uyğun gələcək, lakin hər hansı ümumi müəyyənləşdirmə eyni dərəcədə hamıya aid olacaq; axı gəmi səfərində sağ-salamat bulunmağı bütün dənizçilər cəm halda və ayrı-ayrılıqda arzu edirlər. 2. Bu, vətəndaşlara da aiddir: onlar bir-birilərinə bənzəməsələr də, ancaq onların vəzifəsi təşkil etdiklərii münasibəti xilas etməkdən ibarətdir, bu münasibət isə dövlət quruluşudur. Buna görə də vətəndaşın məziyyəti istər-istəməz bu axırıncı ilə şərtlənir. Dövlət quruluşunun isə bir neçə forması olduğundan aydındır ki, dəyərli vətəndaşın məziyyəti, mükəmməl məziyyət olaraq, yeganə ola bilməz, bununla belə biz kimisə, etdiyi bir yaxşılığa görə yaxşı adam adlandırırıq. Buradan aydındır ki, hər bir vətəndaş, adamı dəyərli edən məziyyətin olmadığı halda belə dəyərli ola bilər. 3. Amma başqa yolla, yəni ən yaxşı dövlətin quruluşu haqqında məsələnin araşdırılmasından çıxarılan nəticəyə görə də bu fikrin üstünə gəlmək olar. Əgər mövcud olan dövlətin müstəsna olaraq dəyərli adamlardan ibarət olduğunu fərz etsək, onda onlardan hər biri üzərinə

düşən işi yaxşı görməlidir, bu isə vətəndaşın məziyyətlərindən asılıdır. Lakin bütün vətəndaşların eyni cür olması mümkün olmadığından, vətəndaşla yaxşı adamın məziyyətləri də eyni ola bilməz; dəyərli vətəndaşların məziyyətləri bütün vətəndaşların gözü qabağında olmalıdır, zira yalnız bu halda dövlət ən yaxşılarından olur, lakin yaxşı adama məxsus məziyyətlər hamıda olmur, bir şərtlə ki, ən yaxşı dövlətdə bütün vətəndaşlar yaxşı olmalıdır fikri burada ehtimal edilməsin. 4. Bundan başqa dövlətin müxtəlif hissələri vardır; bunun kimi hər insan ruhdan və bədəndən ibarətdir, ruh isə öz növbəsində ağıl və ehtirasdan ibarətdir, bunu kişi ilə qadının ailəni təşkil etməsinə də bənzətmək olar, sahiblikdə isə ağa və qul vardır, eləcə də dövlət özündə bütün bunların hamısını, hələ üstəlik, digər müxtəlif şeyləri də birləşdirir. Burdan labüd nəticə hasil olur: xor üzvləri arasında xorün rəhbərinin məziyyəti ilə parastatın[7] məziyyəti kimi, bütün vətəndaşların məziyyətləri də eyni cür ola bilməz.

5. Beləliklə, deyilənlərdən aydındır ki, yaxşı adamla dəyərli adamın məziyyətləri, ümumiyyətlə, eyni şey deyil. Amma bu, kimdəsə belə ola bilməzmi? Axı biz deyirik ki, dəyərli hökmdar yaxşı və ağıllı olmalıdır, dövlət xadimi isə hökmən ağıllı olmalıdır. Bəziləri iddia edirlər ki, hökmdarın tərbiyəsi lap əvvəlcədən başqa cür olmalıdır, bu, elə əslində də belədir; çarın oğlanları at sürməyi və hərb sənətini öyrənirlər, necə ki, Yevripid deyirdi: «Mənə incəliklər deyil, dövlətə lazım olan şeylər gərəkdir»[8], bununla da hökmdarın xüsusi tərbiyəsini nəzərdə tuturdu. 6. Əgər yaxşı adamla yaxşı hökmdarın məziyyətləri eynidirsə və tabeçilikdə bulunan da vətəndaşdırsa, onda vətəndaşın məziyyəti ilə adamın məziyyəti eyni ola bilməz, yalnız müəyyən vətəndaşlarda bu, belə ola bilər, çünki hökmdarla vətəndaşın məziyyəti bir-birindən fərqlidir. Bu da, elə çox guman, Yasonu[9] o, müstəbid olmayanda aclıq çəkir deməyə vadar etmişdir, bu isə o deməkdir ki, o, başqa



cür ola bilmir. 7. Hökm sürmək və tabeçilikdə bulunmaq qabiliyyəti tərifə layiqdir, vətəndaşın məziyyəti də, çox güman, hökm sürmək və tabeçilikdə bulunmaq qabiliyyətindən ibarətdir. Beləliklə, əgər biz zənn etsəydik ki, yaxşı xadimin məziyyəti hökm sürmək qabiliyyətindən, vətəndaşın məziyyəti isə həm bu, həm də digərindən ibarətdir, onda bu iki məziyyət eyni dərəcədə tərifə layiq olmazdı, lakin onlar, əslində, bir-birindən seçildiklərindən, hökmdar və tabeçilikdə bulunan başqa-başqa şeyləri öyrənməli olduqlarından, vətəndaş bunu da, onu da bilməlidir və bunda da, onda da iştirak etməlidir...[10] Bunu aşağıda göstərilənlərdən izləmək olar. 8. Ağanın hakimiyyəti vardır; bu hakimiyyəti biz ən zəruri işlərin təzahür etməsi kimi başa düşürük: hökmdar üçün bunları icra etməyi bilmək lazım deyil, o, daha çox bunlardan istifadə etməlidir; əks təqdirdə vəziyyət qulun vəziyyəti kimi olardı; mən azad adamın qula munasib olan işləri icra etməsini nəzərdə tuturam. Biz iddia edirik ki, qullar müxtəlif olduğu kimi işlər də müxtəlifdir. Bu işlərin bir hissəsini sənətkarlar icra edirlər, məhz o sənətkarlar ki, bunu onların adı da göstərir, «öz əlləri ilə»[11] dolanırlar, onların sırasına ustalar da daxildir. Buna görə də qədim dövrlərdə bəzi dövlətlərdə hələ ki, demokratiya qəti surətdə bərqərar olmamışdı, sənətkarlar dövlət vəzifələrinə keçə bilmirdilər. 9. Beləliklə, nə pis adam, nə pis dövlət xadimi, nə kobud vətəndaş alnına tabeçilikdə bulunmaq yazılmış olan adamlara münasib işləri öyrənməməlidirlər, yalnız ehtiyac olduqda özlərindən ötrü bu işləri görə bilərlər, bu halda gah ağa, gah qul olmağa lüzum olmur. Lakin elə bir hakimiyyət də vardır ki, insan bununla həm özü kimi adamlar, həm də azad adamlar üzərində hökm sürür. Biz bu hakimiyyəti dövlət hakimiyyəti adlandırırıq; burda özünü göstərməkdən ötrü hökmdar tabeçilikdə bulunmaq məktəbi keçib öyrənməlidir, məsələn, hippax olmaqdan ötrü süvari dəstəsində qulluq etmək, strateq olmaqdan ötrü xidmət göstərib loxaq, taksiarx

olmaq lazımdır[12]. Tamamilə də doğrü fikirdir ki, tabeçilikdə bulunmağı öyrənmədən yaxşı rəhbərlik etmək olmaz. 10. Bütün bunlarda məziyyətlər bir-birindən fərqlidir; iakin yaxşı vətəndaş tabeçilikdə bulunmağı da, rəhbərlik etməyi də həm bacarmalı, həm də buna qabiliyyəti çatmalıdır, vətəndaşın məziyyəti isə azad adamlar üzərində hökm sürmək və tabeçilikdə bulunmaq bacarığından ibarətdir. Yaxşı adamın məziyyəti bunu da, onu da nəzərdə tutur. Əgər, azad adam istisna olmaqla, rəhbərlik edəndə və tabeçilikdə bulunanda təmkinlilik və ədalət bir-birindən fərqlidirsə, onda aydındır ki, yaxşı vətəndaşın məziyyəti yalnız, məsələn, ədalətdən ibarət deyil; lakin insanın hökm sürməsi, yaxud itaətdə bulunması ilə əlaqədar bu, tərkib hissələrinə bölünür, kişinin və qadının təmkinliyi və cəsarəti bir-birindən fərqlənir: əgər kişinin cəsurluğu cəsarətli qadının cəsurluğu qədər olsaydı, onda o, qorxaq kimi görünərdi, qadınsa əgər ki, xoşxasiyyət kişi kimi təvazökar olsaydı çərənçi adam kimi görünərdi; həm də kişidə və qadında ayrı-ayrı təsərrüfatları idarə etmək bacarığı məlum olur; kişinin işi – toplamaq, qadının işi isə – saxlamaqdır. 11. Düşüncə – hökmdarda seçilən yeganə məziyyət bax budur; qalan məziyyətlər, görünür ki, həm itaətdə bulunanlarda, həm də hökmdarlarda olan ümumi vacib cəhətlərdir; tabeçilikdə bulunanlardan bir məziyyət olaraq düşüncə gözləməyə dəyməz, fəqət yalnız ağıllı mühakimələr tələb etmək lazımdır; tabeçilikdə bulunan – elə fleyta düzəldən ustadır, hökmdar isə – fleyta çalandır, özü də ifaçılığı onun fleytasında edir. Beləliklə, yaxşı adamla dəyərli vətəndaşın məziyyətinin eyni olub-olmaması, bunun nədə eyni, nədə isə fərqli olması – əvvəl deyilənlərdən aydındır.

III. 1. Vətəndaş anlayışının müəyyənləşdirilməsinin daha bir çətinliyi qalıb: vətəndaşlar, doğrudan da, yalnız idarəetmədə



bulunanlardımı, yoxsa sənətkarları da vətəndaş hesab etmək olar? Əgər vəzifədə olmayanları da vətəndaş hesab etmək lazımdırsa, onda belə çıxır ki, rəhbərlik edənin məziyyəti hər bir vətəndaşa xas ola bilməz, çünki bu halda o biri də vətəndaş olur. Əgər bunlardan heç biri vətəndaş deyilsə, onda sual olunur ki, onların hər biri əhalinin hansı təbəqəsinə aiddir. Əlbəttə, o, nə metek, nə də əcnəbidir. Yaxud biz gərək etiraf edək ki, yaranmış bu vəziyyət heç bir qəribəliklə əlaqədar deyil, zira axı nə qullar, nə də köləlikdən azad olunmuşlar heç bir halda göstərilənlərə aid edilmir. 2. Dövlətin keçinə bilmədiyi bütün adamları vətəndaş hesab etmək qətiyyən ədalətli deyil, ona görə ki, kiçiklər böyüklərə aid olan mənada vətəndaş deyillər; axırıncılar – tam mənada vətəndaşdırlar, birincilər isə – şərti: onlar natamam vətəndaşdırlar. Qədim dövrlərdə bəzilərində sənətkarlar qullardan, yaxud əcnəbilərdən idi, buna görə də indiki dövrdə onların əksəriyyəti, məhz belədir. Lakin ən yaxşı dövlət sənətkara vətəndaş hüququ verməz; əgər o da – vətəndaşdırsa, onda təsdiq etmək lazımdır ki, vətəndaşın məziyyəti, hansından ki, söhbət getmişdi, hamıya uyğun gəlmir, hətta ata-anası kölə olmayanların bir çoxuna da, yalnız o kəslərə uyğundur ki, onlar zəruri olan ən vacib qida məhsulları əldə etmək işindən azaddır. 3. Bu kimi işləri bir nəfər üsün görənlər – qullar, ümumun xeyri üçün görənlər isə – sənətkarlar və günəmuzd işləyənlərdir. Buradan aydın olur ki, onların işi nə yerdədir və əvvəl deyilənlər də bütün məsələni əhatə edir. Yəni dövlət quruluşunun bir neçə forması olduğu kimi, vətəndaşlar da cürbəcur olmalıdır, əksəriyyətini isə tabeçilikdə bulunan vətəndaşlar təşkil etməlidir, beləliklə də dövlət quruluşlarının birində sənətkarları və günəmuzd işləyənləri mütləq vətəndaş hesab etmək lazımdır, digərində, harda ki, hörmətli vəzifələr yalnız məziyyətə və ləyaqətə görə verilir, məsələn, aristokratiya adlandırılan qu-

ruluşda bu, mümkün deyil, axı sənətkarlıqla, yaxud günəmuzd işlə dolanan adamın xeyirxahlığa alışması mümkün deyil. 4. Oliqarxiyada günəmuzd işləyən vətəndaş ola bilməz (orada vəzifəyə keçmək böyük mülkiyyət senzilə şərtlənir), sənətkar isə ola bilər, çünki sənətkarların çoxu öz sənəti hesabına varlanır. Fivada qanun vardı: kim ki, on il ərzində bazar ticarətindən vaz keçmirdi onun dövlət vəzifəsi tutmağa ixtiyarı yox idi. Əksinə, əks dövlətlərdə əcnəbilərin də vətəndaşlığa qəbul edilməsinə qanun yol verir, belə ki, bəzi demokratiyalarda yalnız anaları vətəndaş olanlar da – vətəndaşdır; həmin bu qayda qanundan kənar doğulmuşlara münasibətdə çoxlarında müşahidə olunur. 5. Buna baxmayaraq aclıq üzündən belə adamları da qanuni vətəndaş edirlər (dövlətdə əhalinin azlığına görə qanun buna yol verir), əhali artımı ilə əlaqədar, ancaq tədricən, öncə quldan və kölə qadından törəyənlər, sonra isə qadın – vətəndaşdan olanlar kənar edilir, ən axırda ancaq hər iki vətəndaş – valideyndən əmələ gələnlər vətəndaş olurlar. 6. Beləliklə, deyilənlərdən aydın olur ki, vətəndaşlar cürbəcür olurlar, bu da aydındır ki, vətəndaş əsasən o kəs olur ki, o, vətəndaş hüquqlarının hamısına sahib olur; Homerdə də deyilib: «elə bil ki, mən himayə olunan yurdsuz adamam», zira kim ki, vətəndaş hüquqlarının hamısına[13] sahib deyil, o metekə bənzəyir. Harda ki, bu cür şeylər ört-basdır olunur, bu, həmin dövlətdə daimi yaşayış yerlərinə malik olanları çaş-baş salmaq məqsədilə edilir.

Bu minvalla, yaxşı adamla dəyərli vətəndaşı bir-birindən fərqləndirən məziyyətin onlarda fərqli, yoxsa oxşar olması deyilənlərdən aydındır: bir dövlətdə yaxşı adamla dəyərli vətəndaş anlayışı birləşir, digərində ayrılır; həm də birinci halda hər bir yaxşı adam eyni zamanda vətəndaş deyil, vətəndaş yalnız o kəsdir ki, o dövlət həyatına qarşı məlum münasibətdə bulunur,



dövlət işlərinə təkbaşına, yaxud başqaları ilə bərabər qayğı göstərməyə səlahiyyəti var, yaxud bu səlahiyyəti əldə edə bilər.

IV. 1. Aparılan araşdırmalardan sonra bir, yoxsa bir neçə dövlət quruluşunun mövcud olmasının gərək olub-olmadığını araşdırmaq lazımdır və əgər onlar bir neçədirsə, onda bu quruluşlar nə təhərdir, sayları neçədir və onlar bir-birindən nədə fərqlənir.

Dövlət quruluşu **(politeia)** – bu, ümumiyyətlə, dövlət vəzifələrinin təşkili, ilk növbədə də ali hakimiyyətə aid olan rejimdir, ali hakimiyyət hər yerdə dövlət idarəetmə qaydaları ilə bağlıdır **(politeyma),** axırıncı isə həm də dövlət quruluşunun özüdür. Mən, məsələn, onu nəzərdə tuturam ki, demokratik dövlətlərdə ali hakimiyyət – xalqın əlindədir; oliqarxiyada, əksinə, bir para adamın əlindədir; buna görə də biz onlardakı dövlət quruluşuna fərqli deyirik. Bu nöqteyi-nəzərə istinadən qalanları haqqında fikir deyəcəyik.

2. Məsələyə giriş vermək lazımdır: dövlətin yaradılmasının səbəbi nədir və ictimai həyatda insan tərəfindən idarə edilən hakimiyyətin neçə forması var? Hələ əvvəlki mühakimələrimizdə təsərrüfat və ailədə ağanın səlahiyyəti haqqında məsələləri aydınlaşdırarkən göstərilmişdi ki, insan öz xüsusiyyətlərinə görə siyasi məxluqdur, buna görə də, hətta heç bir köməyə ehtiyacı olmayan adamlar belə mülahizə etmədən birgə yaşamağa can atırlar.

3. Lakin ümumun mənfəətini də başa düşmək insanları buna təhrik edir, çünki gözəl həyatda bulunmaq hər kəsə nəsibdir **(dzen kalos)**; bu da başlıca olaraq insanların həm cəm halda, həm də hər bir kəsin ayrı-ayrılıqda birləşməsinə səbəb olur. Adamlar dövlət münasibətinə bənd olmaqla həyatın özü naminə birləşirlər: ola bilsin ki, həyat da, əzab-əziyyətin həddindən artıq üstünlük təşkil etdiyi halları istisna etməklə, yalnız özlüyündə götürdükdə zərrə qədər də olsa çox gözəldir. Aydın-

dır ki, adamların əksəriyyəti həyata bağlı olduqlarına görə böyük çətinliklərə dözməyə hazırdırlar, çünki bunun özündə bir xoşbəxtlik və təbii zövq var.

4. Hakimiyyətin, necə deyərlər, formalarını ayırd etmək çətin deyil; eksoterik[14] əsərlərdə də bu barədə biz dəfələrlə danışmışıq. Ağanın qul üzərində hakimiyyəti, hərçənd ki, bu eyni-eyni şeylərdir, anadangəlmə qul olanlar üçün də, anadangəlmə ağa olanlar üçün də xeyirlidir, hər halda əsas etibarı ilə ağanın xeyri nəzərdə tutulur, quldan ötrü isə bu, kənardan daxil olduğu üçün faydalıdır (əgər qul ölürsə ağanın onun üzərindəki səlahiyyətinə yəqin ki, son qoyulur). 5. Uşaqlar üzərində, qadınlar üzərində, həm də bütün ev üzərində səlahiyyət, bizimsə, ümumiyyətlə, adlandırdığımız evin idarə edilməsi ya tabeçilikdə bulunanların xeyrini, ya da hər iki tərəfin birlikdə xeyrini nəzərdə tutur, lakin işin mahiyyətinə görə tabeçilikdə bulunanların xeyrini, necə ki, yerdə qalan sənətlərdə biz bunu müşahidə edirik, məsələn, təbabətdə və gimnastikada, bu sənətlərə sahib olanların xeyrinə də bu, təsadüfən xidmət göstərə bilər. Axı pedotribin[15] özünə vaxtaşırı gimnastika təlimi ilə məşğul olmağa heç nə mane olmur, bunun kimi sükançı həmişə dənizçilərdən biridir. Pedotrib də, sükançı da özlərinin tabeçiliklərində bulunanların xeyrini nəzərdə tutur, lakin haçan onun özü onlardan biri olursa, onda təsadüfən ona da faydalanmaq nəsib olur: sükançı dənizçi olur, pedotrib isə – gimnastika təlimi ilə məşğul olanlardan biri. 6. Buna görə də dövlət vəzifələrinə münasibətdə – vətəndaşların hüquq bərabərliyi və bərabərlik əsasında qurulan dövlət nəzərdə tutulur – növbə ilə idarə etmək iddiasında bulunurlar. Bu iddia əvvəl başda təbii idi; tələb edilirdi ki, dövlət mükəlləfiyyəti növbə ilə icra edilsin, hər kəs də istəyirdi ki, onun özü hakimiyyətdə olarkən başqasının mənafeyinə çalışdığı kimi, həmin başqası da öz növbəsində onun mənafeyi



üçün çalışsın. Hal-hazırda ictimai işlə və hakimiyyətlə bağlı mənfəət götürməkdən ötrü, hamı çalışır ki, buna fasiləsiz olaraq yiyələnsin; başqalarının bu vəzifəyə can atmamasından ötrü hakimiyyət başında duranlar özlərini, xəstə vəziyyətlərinə baxmayaraq, sağlam kimi göstərirlər. 7. Beləliklə, aydındır ki, yalnız ümumun mənafeyini nəzərdə tutan dövlət quruluşları ədalət naminə, düzgündür; yalnız idarə edənlərin xeyrini nəzərdə tutanların isə – hamısı səhvdir və özlüyündə düzgünlərdən yayınanlardır, onlar ağalıq etmək naminə təsis edilmişdi, dövlət isə azad adamların münasibətidir.

Bu müəyyənləşdirmədən sonra dövlət quruluşlarını – onların sayı və xüsusiyyətlərini, hər şeydən öncə isə düzgünləri nəzərdən keçirmək lazımdır, çünki bunları təyin etdikdən sonra onların qəbul edilməməsi aydınlaşacaq.

V. 1. Dövlət idarəetmə qaydaları nəyi göstərirsə, dövlət quruluşu da onu ifadə edir, birinci isə dövlətdə ali hakimiyyəti təcəssüm etdirir, ali hakimiyyət isə hökmən ya bir nəfərin, ya bir para adamın, ya da çoxluğun əlində olur. Və haçan bir nəfərmi, ya bir para adammı, ya da çoxluqmu ictimai mənafeyi əldə rəhbər tutaraq idarə edirsə, təbii ki, həmin dövlət quruluşu formaları düzgun sayılır, lakin hansılar ki, ya bir nəfərin, ya bir para adamın, ya da çoxluğun mənafeyini nəzərdə tutur, bunlar qəbul edilməzdir. Axı ikisindən birini qəbul etmək lazımdır: ya dövlət munasibətində bulunan adamlar vətəndaş deyillər, ya da onların hamısının ümumun mənafeyinə aidiyyatı olmalıdır. 2. Ümumun mənafeyini nəzərdə tutan şah idarəçiliyini biz bir qayda olaraq çar hakimiyyəti adlandırırıq; bir nəfərdən çox olan, bir para adamın hakimiyyətini – aristokratiya (ya ona görə ki, ən yaxşılar idarə edir, ya da ona görə ki, dövlətin və ona daxil olanların rifahı ən yüksək dərəcədə nəzərdə tutulur); amma ha-

çan ümumun mənafeyi naminə çoxluq idarə edir, onda biz bütün dövlət quruluşu formaları üçün ümumi politiya[16] məfhumunu işlədirik. 3. Bu da məntiqi cəhətdən doğrudur: bir nəfər, yaxud bir para adam öz məziyyətinə görə seçilə bilər, lakin çoxları üçün məziyyəti ilə hər şeyə müvəffəq olmaq – artıq çətin işdir, baxmayaraq ki, ən asanı – hərbi şücaətdir, çünki axırıncıya, məhz xalq kütləsində rast gəlinir. Bax buna görə bu cür politiyada ali hakimiyyət hərbçilərin əlində cəmləşir ki, onlar da öz hesablarına silahlanırlar. 4. Göstərilən quruluşlardan yayınanlar aşağıdakılardır: çar hakimiyyətindən – istibdad üsül – idarəsi, aristokratiyadan – oliqarxiya, politiyadan – demokratiya. İstibdad üsul – idarəsi – yalnız hökmdarın mənafeyini nəzərdə tutan çar hakimiyyətidir; oliqarxiya dövlətli adamların məqnafeyini qoruyur; demokratiya isə – yoxsulların mənafeyini; ümumun mənafeyini isə onlardan heç biri nəzərdə tutmur.

Lakin göstərilən hər bir dövlət quruluşu formalarının ayrı-ayrılıqda özündə nəyi təmsil etməsi barəsində ətraflı danışmaq lazımdır. Bu araşdırma bəzi çətinliklərlə bağlıdır. Axı yalnız təcrübədə mənfəət və fayda əldə etmək üçün deyil **(plos to prattein)**, həm də elm üçün şərh edilən hər fəndə tədqiqatçı heç nəyi diqqətdən kənarda qoymamalı, yaxud heç nəyin üstündən keçməməlidir; onun vəzifəsi ondan ibarət olmalıdır ki, hər bir məsələdə həqiqətin üstünü açsın.

5. İstibdad üsul – idarəsi, biz dediyimiz kimi, siyasi münasibət sahəsində müstəbidin təmsil etdiyi monarxiyadır; oliqarxiya – o formadır ki, dövlətdə ali hakimiyyət mülkiyyət sahiblərinin əlindədir, əksinə, demokratiyada bu hakimiyyət böyük varidata sahib olanların əlində yox, yoxsulların əlində cəmləşib. Və budur onları dürüst müəyyənləşdirmək istərkən birinci çətinlik meydana çıxır: əgər ki, ali hakimiyyət dövlətdə çoxluğun əlində olsaydı və bunlar da dövlətli adamlar olsaydılar (axı demokratiya, məhz onda olur ki, ali hakimiyyət çoxluğun əlində cəmləşir), digər tərəfdən eynən bunun kimi, əgər hardasa kasıblar, baxmayaraq ki, onlar dövlətli adamlarla müqayisədə azlıq təşkil edirlər, hər halda idarəetmədə ali hakimiyyəti öz əllərinə keçiriblər (bizimsə fikrimizcə oliqarxiya, harda ki, ali hakimiyyət bir para adamın əlində cəmləşib ordadır), onda görmək olar ki, dövlət quruluşu formalarını dürüst müəyyənləşdirməkdən ötrü təklif olunanlar nöqsansız deyil. 6. Lakin elə hesab edək ki, kimsə əlamətləri birləşdirib: əmlak firavanlığı və azlıq, həm də əksinə, əmlak azlığı və çoxluq, bu əlamətlərə də əsaslanaraq dövlət quruluşu formalarına ad verək: oliqarxiya – elə formada olan dövlət quruluşudur ki, burada vəzifələrə sayca azlıq təşkil edən dövlətli adamlar sahib olurlar; demokratiya isə – o formadır ki, burada vəzifələr sayca çoxluq təşkil edən yoxsulların əlində cəmləşir. Digər çətinlik yaranır: əgər göstərilənlərdən başqa heç bir dövlət quruluşu mövcud deyilsə, onda biz indi göstərdiyimiz dövlət quruluşu formalarını – hansında ki, ali hakimiyyət çoxluq təşkil edən dövlətlilərin əlində cəmləşib, onu və hansında ki, bu, azlıq təşkil edən yoxsulların əlindədir, onu – necə ifadə edəcəyik? 7. Beləliklə, gətirilən fikirlərin nəticəsi aşağıda göstərilənlər kimi ehtimal olunur: o əlamət ki, ali hakimiyyət ya azlığın əlində olur, ya çoxluğun təsadüfi əlamətdir, bu, oliqarxiyanın da nə olduğunu müəyyənləşdirəndə, demokratiyanın da nə olduğunu müəyyənləşdirəndə belə olur, çünki hər yerdə dövlətli adamlar az olur, yoxsullar isə çox, deməli, bu yuxarıda göstərilən təfavütün əsası ola bilməz. Onda demokratiya və oliqarxiya nə ilə fərqlənir, yoxsulluq və zənginlik var; bax buna görə harda hakimyyət – bunun çoxluqda, yaxud azlıqda olmasının fərqi yoxdur – var-dövlətə əsaslanır bizim işimiz oliqarxiya ilədir, harda isə yoxsullar idarə edir, orada biz demokratiya ilə üzləşirik, o əlamət isə hansı ki, birinci halda bizim işi-

miz azlıqla, ikinci halda isə – çoxluqla idi, təkrar edirəm təsadüfi əlamətdir. Dövlətli adamlar azdır, bütün vətəndaşlar isə azadlığa malikdirlər, bununla isə başqaları da dövlətdə hakimiyyətə yetmək iddasında bulunurlar.

8. Hər şeydən öncə oliqarxiya və demokratiyanın göstərilən adi fərqli cəhətlərini, habelə oliqarxiya və demokratiya nöqteyi-nəzərindən nəyin ədalətli sayıldığını araşdırmaq lazımdır. Axı hamı ədalət deyilən bir şeyə istinad edir, lakin bununla yalnız müəyyən həddə qədər gəlib çatırlar, bunu da onlar ədalət adlandırırlar, əslinə baxandasa ədalət bütövlükdə yoxdur. Belə ki, məsələn, ədalət bərabərlik kimi görünür, bu belə də var, lakin hamı üçün yox, ancaq bərabərlər üçün, bərabərsizlik də, həmçinin ədaləti ifadə edir, əslində, belə də var, lakin yenə də hamı üçün yox, yalnız tən olmayanlar üçün. Bununla belə «kimin üçün?» sualını nəzərdən qaçırırlar və buna görə səfeh fikir söyləyirlər; özlərinin şəxsi işlərinə dair mühakimələrdə az qala adamların çoxu – pis hakimlərdir. 9. Zira ədalət – nisbi anlayışdır və obyektin xüsusiyyətindən asılı olduğu qədər subyektin xüsusiyyətindən də asılıdır, necə ki, vaxtı ilə bu barədə «Etika»-da göstərilmişdi, obyektlərə aid olan bərabərliklə hamı razılaşır, lakin subyektlər xüsusunda olan bərabərliyə gəldikdə tərəddüd edirlər, başlıca olaraq da indi göstərilən səbəbdən sonra, yəni öz şəxsi işləri haqqında pis düşündüklərinə görə; sonradan bunlar və digərləri hesab edirlər ki, onlar hər halda ədaləti, sözün əsl mənasında, nisbi anlayış kimi başa düşməyə razıdırlar. Bəziləri belə düşünürlər: əgər onlar məlum cəhətdən, məsələn, pul cəhətdən bərabər deyillərsə, onda, deməli onlar, ümumiyyətlə, bərabər deyillər; digərləri isə belə düşünürlər: əgər onlar hər hansı bir cəhətdən, məsələn, müstəqillik cəhətdən bərabərdirlərsə, deməli onlar, ümumiyyətlə, bərabərdirlər. Lakin ən vacib şeyi onlar burada da nəzərdən qaçırırlar.



10. Doğrudan da, əgər onlar bir əlaqədə bulunsaydılar və yalnız əmlak əldə etmək naminə birləşsəydilər, onda dövlət həyatında iştirak etməyə o dərəcədə iddia edərdilər ki, bu, onların əmlak vəziyyətilə müəyyənləşərdi. Bu halda oliqarxiya prinsipi, görünür ki, tam güçə malik olmalıdır: axı, məsələn, nə vaxt kimsə yüz mina olan ümumi məbləğə bir mina daxil eiməklə ilkin məbləğə artan faizi ilə bütün qalan məbləği verənlə bahəm eyni bərabərdə tələb irəli sürərsə, bu vəziyyət ədalətli hesab edilməz.

Dövlət yalnız yaşamaq naminə deyil, başlıca olaraq xoşbəxt yaşamaq naminə qurulur, əks təqdirdə həmçinin qullardan, yaxud heyvanlardan ibarət dövləti də ehtimal etmək olardı, bu isə gerçəklikdə mövcud deyil, zira nə bunlar, nə də o birilər xoşbəxtliyə can atanların və özlərinə istədikləri kimi həyat quranların hamısı tək cəmiyyəti təşkil etmir. Eləcə də dövlət hansısa bir tərəfdən edilməsi mümkün ola bilən haqsızlığın qabağını almaqdan ötrü ittifaq bağlamaq naminə, həmçinin qarşılıqlı ticarət mübadiləsi və xidmət naminə meydana gəlmir; yoxsa etrusklarla karfagenlilər və ümumiyyətlə, bütün xalqlar arasında bağlanan ticarət müqavilələri, onları birləşdirdiyindən hamı bir dövlətin vətəndaşı sayılardı. 11. Doğrudur, onlarda malların idxalı və ixracına dair razılaşma mövcuddur, qarşılıqlı anlaşılmazlıqların qabağını almaqdan ötrü müqavilələri və hərbi müttəfiqliyə dair yazılı qətnamələri vardır. Lakin bütün bunları həyata keçirməkdən ötrü onlarda hər hansı bir ümumi vəzifəli şəxslər yoxdur, əksinə, bunlarda və o birilərində onlar ayrı-ayrıdır; nə bunlar, nə də onlar başqalarının necə olacaqlarının qeydinə qalmırlar, onun da dərdinə qalan yoxdur ki, danışıqda iştirak edənlərdən kimsə biri ədalətsizlik edib, hər hansı bir alçaqlığa yol verməsin; onlar ancaq ondan ehtiyatlanırlar ki, bir-birlərinə ziyan yetirməsinlər. Dövlətdə olan yaxşı işləri və qüsurları o adamlar diqqətlə izləyirlər ki, onlar qanunçuluğun tərəfində dururlar; bu da göstərir

ki, yalnız sözdə deyii, həqiqətdə dövlət adlandırılan ölkədə vətəndaşların yaxşı cəhətlərinin qeydinə mütləq qalmaq lazımdır. Əks təqdirdə dövlət münasibəti, uzaqda yaşayanlarla da müttəfiqlikdə bulunan digər birliklərdən fərqlənən adi birliyə çevrilərdi. Həm də bu halda qanun adi müqavilə, yaxud sofist Likofran dediyi kimi şəxsi hüquqların adi təminatı olardı; bunun isə vətəndaşları xeyirxah və ədalətli etməyə zoru yoxdur.

12. İşin belə olmağı – aydındır. Axı əgər ki, kimsə ayrı-ayrı əraziləri birləşdirsəydi, məsələn, Meqar və Korinf şəhərlərinin divarları bir-birinə toxunsaydı belə yenə də bir dövlət əmələ gəlməzdi; onlar bir-birilə epiqamiyaya[17] girdikləri halda da bu, olmazdı, baxmayaraq ki, axırıncı, dövlətlər arasında olan əlaqələrin xüsusi formalarından biridir. Əgər adamlar bir-birindən ayrı yaşasaydılar, lakin elə böyük məsafədə yox ki, onların arasında əlaqə mümkün olmasın, yenə dövlət yaranmazdı, hətta mübadilə zamanı bir-birinə ziyan yetirməyi qadağan edən qanun təsis edilsəydi belə, əgər ki, məsələn, biri dülgər olsaydı, digəri – əkinçi, üçüncüsü – pinəçi, dördüncü isə – bunlar kimi birisi və onların sayının on minə çatmasına baxmayaraq, hər halda onların əlaqələri yalnız son dərəcə ticarət mübadiləsi və hərbi ittifaqa aid olardı. 13. Hansı səbəbə görə? Yəqin ki, münasibətlərin yaxın olmamasına görə yox. Doğrudan da, əgər ki, bu cür münasibət müqabilində hətta onlar birləşsəydilər, hər kəs öz evinə həm də dövlət kimi baxardı və əgər ki, onlar müdafiə birliyində olduğu kimi, yalnız kimsə tərəfindən haqsızlıq edilərkən bir-birini müdafiə etsəydi, onda bu halda da, diqqətlə baxdıqda görünür ki, onların bir-birinə qarşı münasibəti birləşdikdən sonra da, madam ki, əlahiddə yaşadıqları vaxtlardakı kimi qalacaqsa, yenə dövlətin əmələ gəlməsi mümkün olmazdı. Beləliklə, aydındır ki, dövlət ümumi yaşayış yeri deyil, o, qarşılıqlı haqsızlığın qabağını almaq məqsədilə, yaxud münasib mübadilə naminə yaradılmır. Əlbəttə, dövlətin mövcud olması üçün bütün bü şərtlər üzdə olmalıdır, lakin hətta bunların hamısını birgə götürəndə də dövlət olmur; o, yalnız yaxşı həyat naminə **(ey dzēn)**, mükəmməl və müstəqil yaşamaq məqsədilə ailələr və tayfalar arasında münasibətlər yaranarkən meydana çıxır. 14. Bununla belə bu cür münasibət yalnız o halda həyata keçə bilər ki, adamlar eyni bir ərazidə yaşasınlar və epiqemiyasız da keçinməsinlər. Bu səbəbdən dövlətdə qohumluq ittifaqları və fratsiyalar, qurban kəsmə və birgə yaşamaq xatirinə – əyləncələr meydana çıxmışdır. Bütün bunlar qarşılıqlı dostluq əsasında qurulmuşdur, buna görə də, məhz dostluq birgə yaşamağın vacib şərtidir. Beləliklə, dövlətin məqsədi yaxşı həyatdır və bütün göstərilənlər bu məqsəd naminə yaradılır; dövlətin özü isə tamamilə müstəqil yaşayış əldə etmək naminə tayfaları və yaşayış məntəqələrini özündə təmsil edir ki, bu da biz iddia etdiyimiz kimi xoşbəxt və çox gözəl həyatdan ibarətdir. Belə ki, dövlət münasibəti də – bu cür düşünmək lazımdır – sadəcə olaraq birgə yaşamaq naminə deyil, gözəl fəaliyyət naminə mövcuddur.

15. Bax buna görə də kim ki, bu cür münasibətə əlindən gələni əsirgəmir, dövlət həyatına da böyük hüsn – təvəccöh göstərməlidir, özlərinə bərabər, yaxud müstəqillik və əsli-nəcabət cəhətdən, hətta onları üstələyənlər dövlətə xeyirxahlıq göstərməkdə onlarla müqayisə oluna bilməz, yaxud var-dövlət cəhətdən onları üstələyənlər xeyirxahlıq cəhətdən onları üstələmək vəziyyətində deyillər.

Beləliklə, deyilənlərdən aydındır ki, dövlət quruluşu haqqında bəhs edənlərin hamısının gətirdiyi dəlillər yalnız qismən gerçəkdir.

VI. 1. Araşdırmalar zamanı dövlətdə ali hakimiyyətin kimə məxsus olmasının gərəkliyini müəyyənləşdirmək asan deyil:

xalq kütləsinəmi, yoxsa varlılara, yoxsa nəcib adamlara, yoxsa bütün adamların ən yaxşılarından birinə, yoxsa müstəbidə. Bütün bunlar, sən demə, məsələnin həlli üçün çətinlik törədir. Doğrudan da, nə üçün? Məgər çoxluq təşkil etmələrinə istinad edərək yoxsulların dövlətli adamların varidatını öz aralarında bölüşdürmələri ədalətli olardımı? Deyəcəklər – «bəli, ədalətlidir», çünki ali hakimiyyətin çıxardığı qərarla bu, düzdür. Lakin bəs, onda ifrat haqsızlıq anlayışına nə uyğun gəlir? Hər halda aydındır ki, əgər çoxluq hər şeyi özünə götürüb, azlığın sərvətini bölüşdürməyə başlasa, onda bununla dövləti məhv edəcək, axı xeyirxahlıq özündə daşıdığı şeyi məhv etmir, həm də ədalət elə şey deyil ki, o, dövləti məhv etsin. Beləliklə, aydındır ki, bu cür qanun ədalətli sayıla bilməz. 2. Üstəlik, müstəbidin gördüyü bütün işləri ədalətli saymaq lazım gələrdi: axı o, öz üstünlüyünə istinad edərək zor işlədir, necə ki, kütlə – bunu dövlətlilərə qarşı edir. Bəlkə dövlətlilərdən ibarət olan azlığın hökmranlıq etməsi ədalətli olardı? Amma axırıncılar əgər bu cür hərəkət etməyə başlasalar, yəni kütlənin əmlakını əlindən alıb talasalar, bu ədalətli olardımı? Bu halda bunun əksi də ədalətlidir. Görünür ki, bu cür tərzi-hərəkət alçaq və ədalətsizdir. 3. Bəs nəcib adamların hər şeyin başında durub, hökm sürməsi nə deməkdir? Amma bu halda qalanların hamısı dövlət vəzifələri tutmaq şərəfindən məhrum olmaqla siyasi hüquqlarını itirəcək. Axı vəzifə tutmağı biz şərəfli iş sayırıq, əgər vəzifəyə eyni adamlar yiyələnəcəksə, onda qalanları mütləq bu şərəfdən məhrum olacaqdır. Bəs hakimiyyətin ən dəyərli adamın əlində cəmləşməsi yaxşı olmazdımı? Lakin bu daha çox oliqarxiyaya yaxınlaşma olardı, çünki çoxluq siyasi hüquqlardan məhrum olacaqdır. Çox guman, kimsə deyəcək: ümumiyyətlə, o pisdir ki, ali hakimiyyəti özündə qanun deyil, ruhu qorxunun təsiri altında olan insan təcəssüm etdirir. Lakin əgər bu, qanun olsa, amma oliqarxiya, yaxud de-



mokratiya qanunu, göstərilən çətinlikləri həll etmək üçün bunun nə xeyri olacaq? Yuxarıda nə deyilmişdisə, yenə də ortaya o, çıxacaq. 4. Qalan məsələlər barədə söhbət başqa yerdə gedəcək. Ali hakimiyyətin azlığın deyil, hamısından yaxşı çoxluğun, bununla belə onlardan ən yaxşılarının əlində olması fikri yəqin ki, məsələnin həlli üçün məqbul sayıla bilər, bu da özündə nə isə bir səbəbi, hətta çox guman, həqiqəti də ifadə edir. Axı ola bilər ki, çoxluğun tərkibində bulunan hər kəs ayrı-ayrılıqda dəyərli adam olmasın, amma birləşib, cəm halında olanda təklikdəkindən yaxşı olsun, bunun kimi şərikli naharların ən yaxşısı bir nəfərin vəsaiti hesabına təşkil edilənidir. Çoxluq özündə çox adamı birləşdirdiyindən olsun ki, ayrılıqda götürdükdə hər kəs müəyyən hissə xeyirxahlığa və dərrakəyə malikdir, amma haçan bu adamlar birləşirlər, onda elə bil ki, həm çox əli, həm çox ayağı, həm çox qavrayışı olan bir adam əmələ gəlir, xarakterlə də, anlayışla da bu cür olur. Bax buna görə də çoxluq musiqili və mənzum əsərlər haqqında daha yaxsı fikir söyləyir: bir para adam bir cəhət haqqında mühakimə yürüdür, digərləri başqa cəhət haqqında, hamısı birlikdə isə tam haqqında fikir söyləyir[18]. 5. Dəyərli adamlar götürülən hər hansı kütlədən, necə deyərlər, qəşənglər kifirlərdən, yaxud rəssamların çəkdiyi şəkillər – təbiət mənzərəsindən fərqləndiyi kimi fərqlənir: yəni onunla ki, onlarda birləşmiş şeylər müxtəlif yerlərə pərən-pərən salınmışdı; və haçan tam halında olan öz tərkib hissələrinə bölünür, bu, bir adamda göz ola bilər, digərində bədənin hər hansı bir hissəsi, şəkildə təsvir edildiyindən gözəl görünəcək. Lakin hər xalqa və hər xalq kütləsinə məxsus çoxluqla bir para dəyərli adam arasında bu çür münasibət qurmağın mümkün olub-olmaması aydın deyil. And olsun Zevsə, bu, bəziləri üçün yəqin ki, mümkün deyil (bu fikir heyvanlara da tətbiq edilə bilər; doğrudan da, necə deyərlər, bəzi xalqlar heyvanlardan nə ilə fərq-

lənir?). Lakin hər bir məlum soxluğa heç nə mane olmur ki, deyilənləri həqiqət kimi qəbul etsin.

6. Bax bu yolla da əvvəl göstərilən çətinliyi, həmçinin bununla bağlı olan digər çətinliyi də həll etmək mümkün olardı: əslində, nədən ata-anası kölə olmayan vətəndaş kütləsi, yəni var-dövlətə malik olmayan və heç bir nəzərə çarpan məziyyəti ilə fərqlənməyən adamlar ali hakimiyyətə yiyələnməlidirlər? Bu cür adamları yüksək vəzifəyə buraxmaq qorxuludur: ədalət hissinə və dərrakəyə malik olmadıqlarından onlar gah haqsız, gah da səhv hərəkətlərdə bulunacaqlar. Digər tərəfdən onları hökumət işindən kənarlaşdırmaq da qorxuludur: haçan dövlətdə çoxlu adam siyasi hüquqlardan məhrumdur, haçan orada çoxlu kasıb var, bu cür dövlət mütləq düşmənçilik əhval – ruhiyyəsində bulunan adamlarla dolu olur. Bircə şey qalır: onlara məşvərətçi və məhkəmə orqanlarında iştirak etməyə yol vermək. 7. Buna görə Solon da, bir para başqa qanunvericilər də vəzifəli şəxslərin seçkisində iştirak etmək və onlardan hesabat qəbul etmək səlahiyyətini onlara veriblər, lakin onların özlərini vəzifə tutmağa qoymurlar: bütöv halda birləşərkən onların kifayət qədər dərrakəsi olur və ən yaxşılarla qaynayıb-qarışdıqda dövlətə xeyir gətirirlər, bunun kimi təmizlənmiş qida məhsulları təmizlənməmişlərlə birlikdə hər yeməyi az miqdarda təmizlənmiş olandan daha da faydalı edir. Tək adam isə işlərin müzakirəsi zamanı mükəmməllikdən uzaqdır.

8. Dövlət quruluşunun bu təşkilatının çətinlik törətməsini hər şeydən öncə belə izah etmək olar, uğurlu müalicə barədə yalnız o adam düzgün mühakimə yürüdə bilər ki, o, özü həkimlik sənətilə məşğul olsun və xəstəni düçar olduğu mərəzdən sağaltsın, yəni həkim. Bu – təcrübəyə əsaslanan digər sənətlərə və hər cür fəaliyyətə də aiddir. Necə ki, həkim həkimə hesabat verməlidir, eləcə də digər sənət sahibləri öz həmkarlarına



hesabat verməlidirlər. Həm müalicə həkimi **(demioyrqos)**, həm yüksək bilik nöqteyi-nəzərindən tibbi öyrənən adam **(arkhitektonikos)**, həm də üçüncüsü, təzəlikcə tibbi təhsil alan adam həkim sayılır (bü cür dərəcəli adamlar, ümumiyyətlə desək, bütün sənətlərdə var) və biz bu cür təhsil alanlara bilicilər qədər mühakimə yürütməyə imkan veririk. 9. Çox guman, bu qayda hər cür seçkilərdə də qoyula bilər. Lakin düzgün seçimi yalnız bilicilər edə bilər, məsələn, yerölçmə sənətində bulunan səriştəli adamlar yerölçəni düzgün seçə bilər, gəmiçilik elmində bulunan səriştəli adamlar – sükançını; əgər ki, bir sıra işlər və sənətlər üçün adam seçilməsində kimsə bir xam adam iştirak edirsə, bunların sayı hər halda bilicilərdən çox olmur. Bu nöqteyi-nəzərlə xalq kütləsinə vəzifəli şəxslərin seçkilərində həlledici səsə malik olmağa imkan vermək olmazdı, onların fəaliyyəti haqqında heç vaxt hesabat qəbul olunmur. 10. Bununla belə bu deyilənlərin hamısı ola bilsin ki, düz deyil və əvvəlki mülahizəyə görə əgər xalq kütləsi ata-anası kölə olmayanlarla olduğu kimi bütünlüklə qədir-qiymətdən salınmırsa, onda hər kəs ayrılıqda götürəndə pis, hamısı birlikdə isə nə yaxşı, nə də pis hakim olacaq. Bəzi hallarda, yəni o yerdə ki, orda işi sənət sahibi olmayan adamlar da anlayır, yalnız usta yeganə və ən yaxşı hakim olmur, məsələn, evə təkcə onu tikən bələd deyil, bunun haqqında ondan kim istifadə edirsə, yəni ev sahibi daha yaxşı mühakimə yürüdə bilər; eynilə belə də sükandan, sükanı düzəldən ustadan çox, sükançı məlumatlıdır, ziyafət haqqında da aşbazdan çox qonaq daha düzgün fikir söyləyəcək. Əlqərəz, biz bu çətinliyi, yəqin ki, yuxarıda göstərildiyi tərzdə məqbul həll edə bilərik. 11. Lakin bu çətinliyin ardınca başqası da gəlir. Sadə adamların nəcib adamlardan üstün tutularaq daha vacib məsələlərdə həlledici rola malik olmaları qəribə görünərdi; bəs axı vəzifəli şəxslərdən hesabat qəbul etmək və onları seçmək –

çox vacib məsələdir. Deyildiyi kimi, bir sıra dövlət quruluşlarında bu, xalqın ixtiyarına verilmişdir, çünki xalq məclisi bütün bu kimi işlərdə müstəsna səlahiyyətə malikdir. Xalq məclisində, şurada və məhkəmədə az əmlak senzinə və istənilən yaş həddinə malik olan adamlar iştirak edir; xəzinədarlar, strateqlər və ümumiyyətlə, yüksək vəzifə sahibləri olan şəxslərsə iri əmlak senzinə malik olan adamlardır. 12. Lakin sonuncu çətinliyi də beləcə asanlıqla həll etmək olardı və ola bilsin, burada da hər şey düzgündür. Axı nə məhkəmənin üzvü, nə şuranın üzvü, nə xalq məhkəməsinin üzvü, hökumət nümayəndəsi deyil; adları çəkilən üzvlərin hər biri idarənin yalnız tərkib hissəsidir (mən tərkib hissəsi deyəndə şuranın, xalq məclisinin və məhkəmənin üzvlərini nəzərdə tuturam), belə ki, xalq kütləsi hüquqi cəhətdən daha vacib işlər üzərində müstəsna səlahiyyəti saxlayır: həm xalq məclisi, həm şura, həm də məhkəmə çoxtərkiblidir, özü də birlikdə götürəndə hamısının əmlak senzi dövlətdə yüksək vəzifə tutanlardan hər birinin ayrılıqda, yaxud kiçik bir qisminin əmlak senzini üstələyir. 13. Məsələ bax bu surətdə həll olunur. Bizim göstərdiyimiz birinci çətinlikdən açıq-aşkar yalnız aşağıdakı fikir hasil olur: ali hakimiyyətdə düzgün qanunlar olmalıdır, vəzifəli şəxslər isə – bu, istər bir nəfər olsun, istərsə bir neçə nəfər – yalnız o hallarda həlledici rola malik olmalıdır ki, qanunlarda doğru cavab tapmaq mümkün olmasın, zira, ümumiyyətlə, tam şəkildə bütün ayrı-ayrı hallara münasibət bildirib, qanunda müəyyən yer vermək asan deyil. Bəs düzgün qanunlar hansı xarakterdə olmalıdır – burada hələ aydın heç nə demək olmaz; burada hələ əvvəl göstərilən çətinliklər qalır, yəni ədalət prinsipinə əsaslanan və ya əsaslanmayan dövlət quruluşu formaları kimi, qanunlar da pis və ya yaxşı ola bilər. Yalnız bircə şey aydındır: qanunlar bu və ya başqa dövlət quruluşu formalarına uyğun olmalıdır. Əgər bu belədirsə, onda aydındır



ki, düzgün dövlət quruluşu formalarına münasib qanunlar ədalətli, düzgünlərdən yayınan formalara uyğun gələn qanunlar isə ədalətsiz olacaqdır.

VII. 1. Əgər bütün elmlərin və sənətlərin son məqsədi yaxşı şeydirsə, onda ən zəruri şey bütün elmlərdən və sənətlərdən yuxarıda duran siyasətin başlıca məqsədidir. Dövlətdə olan yaxşı şey ədalətdir, yəni o şeydir ki ümumun mənafeyinə xidmət edir. Ümumun təsəvvürünə görə ədalət bir bərabərlikdir: bu müddəa məlum dərəcəyə qədər əxlaqi məsələləri araşdıran fəlsəfi fikirlərə müvafiq gəlir. İddia edirlər ki, ədalət şəxsiyyətə aidiyyatı olan bir şeydir və bərabərlər tən olmalıdır. Lakin qoymaq olmaz ki, bərabərliyin və qeyri – bərabərliyin nədən ibarət olması aydınlaşdırılmamış qalsın, bu, çətin məsələdir, eyni zamanda da siyasi fəlsəfə sahəsinə aiddir.

2. Kimsə ola bilər desin: hər hansı nemətin bolluğu bəzilərində dövlət vəzifələrinin qeyri-bərabər bölünməsinə əsas verəcək, hətta adamların bütün qalan şeylərdə bir-birindən fərqlənməyib, bir bərabərdə olduğu halda; axı bir-birindən fərqlənənlər həm hüquqi, həm də onlara münasib olan işlər cəhətdən seçilirlər. Lakin əgər bu fikir düzgündürsə, onda dərisinin rəngi, yaxşı boyu və ümumiyyətlə, hər hansı bir cəhətdən üstünlük təşkil edənlər də siyasi hüquqda bir üstünlüyə malik olacaqlar. Lakin bu, hətta ilk baxışdan belə yanlış olmayacaqmı? Bu, digər elmlərin və sənətlərin müzakirəsindən məlum olacaq. Doğrudan da, məgər ən yaxşı fleytaları eyni dərəcədə mahir fleyta çalanlardan əsli – nəcabətilə seçilənəmi vermək lazımdır? Axı bu, onların ifaçılıq bacarığının artmasına təsir göstərməyəcək. Kim fleytada özünün ifaçılığı ilə seçilirsə, ən yaxşı aləti də ona vermək lazımdır. 3. Əgər bizim sözlərimiz hələ aydın deyilsə, onda bunlar sonrakı müzakirədə bizim gətirdiyimiz misaldan aydınla-

şacaq. Tutaq ki, kimsə fleytada məharətli ifaçılığı ilə seçilən bir şəxs əsli-nəcabətdə və ya gözəllikdə əhəmiyyətli dərəcədə başqasından geri qalır (bu üstünlüklərdən hər biri isə yəni əsil-nəcabət və gözəllik, əlbəttə, fleytanı məharətlə ifa etməkdən daha dəyərli cəhətdir və bunlar müvafiq olaraq fleytanı ifa etməkdən son dərəcə yüksəkdədir), – yenə də ən yaxşı fleytanı həmin fleytaçalana vermək lazımdır. Əks təqdirdə razılaşmaq lazım gələcəkdir ki, var-dövlətin və əsli-nəcabətin daşıdığı üstünlük musiqi ifaçılığına həlledici təsir göstərib, hərçənd ki, onların heç bir təsiri yoxdur. 4. Bundan başqa, əgər ki, belə olsa, onda hər bir yaxşı şeyi hər hansı digər yaxşı şeylə müqayisə etmək olar: hərgah yaxşı boy-buxun bir üstünlükdürsə, onda yaxşı boy-buxunu nəticə etibarilə var-dövlətlə də, müstəqilliklə də bərabər tutmaq olar, belə ki, əgər kimsə özünün yaxşı boy-buxunu ilə başqa birisinin məziyyətindən daha çox seçilirsə, onda hər şeyi, yaxşı boy-buxunu da, məziyyəti də müqayisə etmək olar, baxmayaraq ki, ümumi nöqteyi-nəzərə görə, əlbəttə, məziyyət yaxşı boy-buxuna nisbətən daha dəyərlidir; əgər birinin hər hansı bir xüsusiyyəti başqa birinin hər hansı bir xüsusiyyətindən yaxşıdırsa, onda aydındır ki, onların hansısa bir xüsusiyyəti uyğun olacaq. 5. Bu, amma mümkün deyil, buna görə də siyasət sahəsində heç bir bərabərsizliyə istinad etmədən vəzifə tutmaqda rəqabət aparırlar, zira əgər bəziləri asta-gəl, digərləri cəlddirlərsə, onda bu, heç bir vəchlə o demək deyildir ki, bu yarışmada ikincilərin hüququ çox, birincilərin isə – hüququ az olub; gimnastika yarışlarında[19] bu fərq əhəmiyyət daşıyır, siyasətdə isə yarışma zamanında yalnız dövləti təşkil edən adamlar meyar olmalıdır. Buna görə tamamilə əsaslı surətdə əsli-nəcabətli şəxslər, varlılar və ata-anası kölə olmayanlar dövlətdə hörmətli olmağa iddialıdırlar; dövlətdə ata-anası kölə olmayan adamlar da, vergi ödəyən adamlar da olmalıdır,



axı bunlar yalnız yoxsullardan və ya qullardan ibarət olmamalıdır. 6. Əgər bunlar hamısı lazımdırsa, onda aydındır ki, bunun üçün ədalət də, hərbi rəşadət də gərəkdir. Fərq yalnız bundan ibarətdir ki, əvvəl göstərilənlər olmadan, ümumiyyətlə, dövlətin mövcud olması mümkün deyil, bu axırıncılarsız isə dövlətdə gözəl yaşayışı təsəvvür etmək olmur.

Dövlətdə asan yaşamaq şərtlərini, görünür ki, – özü də tamamilə əsaslı surətdə – ya yuxarıda adları sadalananların hamısı, ya da onların bir qismi təmin edə bilər, lakin əvvəl deyildiyi kimi yaxşı həyatın labüd olması üçün tamamilə haqlı surətdə mütləq tərbiyə və xeyirxahlığın olması lazımdır.

7. Necə ki, bərabərlər də nə isə bir şeydə hamıyla bərabər olmalıdır, bərabər olmayanlar isə nə isə bir şeydə – hamıyla qeyri-bərabərdir, onda bunun baş verdiyi bütün dövlət quruluşu formalarında yayınmalar olacaqdır. Artıq yuxarıda deyilmişdi ki, hamı bu və ya digər hüquqa əsaslanaraq hakimiyyətə can atır, lakin bununla belə buna hamının haqqı çatmır. Varlılar ona arxalanırlar ki, onlar ölkənin böyük hissəsinə sahib olublar, axırıncı isə – dövlətin ümumi sərvətidir; bundan başqa onlar öhdəliklərin yerinə yetirilməsində, adətən, özlərinin çox etibarlı olduqlarını göstərirlər; ata-anası kölə olmayanlar və əsli-nəcabətli adamlar da bir-biriləri ilə sıx münasibətdə bulunduqlarını səbəb kimi göstərirlər, bəs axı əsli-nəcabətli adamlar, yoxsul adamlara nisbətən böyük hüquqlara malik vətəndaşlardır: əsli-nəcabət, doğrudan da, hər yerdə hörmətə malikdir, gözlənildiyi kimi də daha nəcib valideynlərdən törəyən adamlar daha yaxşı olurlar, yaxud tanınmış nəslə məxsus olan əsli-nəcabətlilik – yaxşı cəhətdir. 8. Eləcə də biz deyirik ki, xeyirxahlıq iddiasında olmaq ədalətlidir, çünki bizim təsdiq etdiyimiz kimi ədalət, məsələn, ictimai həyat üçün zəruri olan xeyirxahlığın özüdür ki, var, ədalətin arxasınca isə istər-istəməz qalan yaxşı cəhətlər gəlir. Bu surətlə azlıqdan üstün olan çoxluğun

iddiası da ədalətlidir, çünki çoxluq ümumilikdə azlıqla müqayisədə həm güclü həm varlı, həm də daha yaxşıdır. Beləliklə, bütün bu adamlar, – mən yaxşı adamları, varlıları və əsli-nəcabətliləri nəzərdə tuturam – hələ bunlarla da bərabər yerdə qalan vətəndaş kütləsi bir dövlətdə olsa, onda dövlətdə hakimiyyət kimə məxsus olmalıdır məsələsi ətrafında mübahisə qalxacaqmı, ya yox? 9. Əlbəttə, dövlətdə hakimiyyət kimin olmalıdır məsələsinin həlli, gərək yuxarıda göstərilən dövlət quruluşu formalarının hər birilə uyğunlaşsın, çünki bu formalar ali hakimiyyətin xarakteri ilə bir-birindən fərqlənir: məsələn, bir dövlət quruluşu formasında bu, varlıların əlində cəmləşib, digərində – dəyərli xadimlərin əlində, hər bir başqa quruluşda da buna bənzər surətdə. Amma biz hər halda baxmalıyıq ki, bunların hamısı eyni vaxtda olanda bunu necə həll etmək olar. 10. Tutaq ki, yaxşı cəhətlərə malik adamların sayı tamamilə azdır, – onda nəyə əsaslanmaq lazımdır? Bu adamların qarşısında duran məqsədi nəzərə alaraq, onların az olduqları ilə hesablaşmaq lazımdırmı, yəni: onlar dövləti idarə etmək iqtidarında olacaqlarmı, yoxsa bu adamlar o qədər olmalıdırlar ki, onlardan dövləti təşkil etmək mümkün olsun? Dövlətdə hörmətə iddialı olan bütün adamlarla əlaqədar yeni çətinlik ortaya çıxır: ola bilər ki, dövlətdə hakimiyyətə iddialı olub, öz var-dövlətinə arxalananlar, bununla bərabər əsli-nəcabətinə əsaslanaraq bu iddiada bulunanlar, əslində, heç bir hüquqa istinad edə bilmirlər. Axı aydındır ki, əgər var-dövlət cəhətdən bütün qalanlardan üstün olan hətta kimsə birisi peyda olsa, onda elə həmin hüquqa əsaslanaraq həmin birisi hamı üzərində hökm sürməlidir; eləcə də belə bir şey onda da ola bilər ki, ortaya çıxan birisi öz əsli-nəcabəti ilə azad mənşəyə malik olan bütün adamları üstələmiş olsun. 11. Məziyyətlə əlaqədar aristokratiya dövlətlərində də yəqin ki, belə bir şey ola bilər: əgər dövlət idarəçiliyində bulunan bütün xadimləri öz məziyyəti ilə üstələyən bir nəfər tapılsa, onda həminki haqla ali



hakimyyət ona məxsus olmalıdır. Lakin azlıqdan güclü olduğuna görə ali hakimyyətə yiyələnməli olan xalq kütləsinin içərisindən seçilən bir nəfər, yaxud bir nəfərdən çox, hər halda xalq kütləsinin əksər hissəsindən az adam, əgər yerdə qalanlarla müqayisədə böyük gücə malikdirsə və ya malikdirlərsə, onda ali hakimiyyət də kütlədən üstünlük təşkil etdiyi üçün ona və ya onlara məxsus olmalıdır. 12. Bütün bunlardan aydın görünür ki, o əlamətlərdən heç biri, hansılar ki, bunların əsasında adamlar hakimiyyətə gəlməyə iddialıdırlar və israr edirlər ki, bütün yerdə qalanlar onların tabeçiliyində olsun, düzgün deyil. Habelə yaxşı cəhətlərinə istinad edib, eynən də öz var-dövlətinə arxalanıb dövlət idarəçiliyində ali hakimiyyət iddiasında bulunanlara qarşı xalq kütləsi müəyyən dərəcədə ədalətli etirazını ortaya qoya bilər: axı bəzi hallarda xalq kütləsinə, əlbəttə, ayrı-ayrı şəxslər simasında deyil, ümumilikdə bir para adamla müqayisədə onlardan yüksəkdə durmağa və varlı olmağa heç nə mane olmur.

13. Bəzilərinin araşdırdığı və göstərdiyi çətinliklərə (yəni: onlar bu məsələni həll etməyə çətinlik çəkirlər ki, daha düzgün qanunlar çıxarmaq arzusunda bulunan qanunverici bunları ən yaxşıların və ya çoxluğun mənafeyinə uyğunlaşdırmalıdır, yoxsa, yox) yuxarıda deyilənləri nəzərə almaqla cavab vermək olar[20]. Burada biz düzgün sözünün mənasını bir bərabərdə kimi başa düşməliyik, belə düzgün bərabərlik isə bütün dövlətin mənafeyini və ümumən vətəndaşların xoşbəxtliyini nəzərdə tutur. Ümumiyyətlə, kimin ki, hökm sürməyə və tabeçilikdə bulunmağa aidiyyatı var, o adam vətəndaşdır; heç bir dövlət quruluşu formasında vətəndaşın mahiyyəti dəyişmir. Ən yaxşı dövlət quruluşunda xeyirxahlıqlarla həmahəng olan həyatı nəzərdə tutaraq tabeçilikdə bulunmağı və hökm sürməyi bacaran və bunu istəyən adam vətəndaş olur.

VIII. 1. Əgər kimsə birisi, yaxud bir nəfərdən çox, bir neçə adam, lakin o qədər çox yox ki, onlar dövləti tamamilə tuta bilsin, çoxluq təşkil edən məziyyətləri ilə o qədər fərqlənə bilsələr ki, yerdə qalanların hamısının məziyyətləri və onların siyasi qabiliyyəti, göstərilən bir nəfərin, yaxud bir neçə adamın məziyyətləri və siyasi qabiliyyəti ilə müqayisə edilə bilməsin, onda bu cür adamları dövlətin tərkib hissələri hesab etmək olmaz: axı öz məziyyətləri və siyasi qabiliyyətləri ilə axırıncılarla bu qədər tən olmadıqları halda, onlara yerdə qalanlara aidiyyatı olan hüquqlar verilsə, həmin adamlarla haqsız hərəkət edəcəklər. Bu cür adam hər halda insanlar arasında bir Allah olardı. 2. Buradan aydındır ki, qanunda da bərabərlərin həm mənşəyini, həm də qabiliyyətini nəzərə almaq lazımdır, amma bu cür adamlardan ötrü qanun da gərək deyil, çünki onların özləri – qanundur. Həm də onların barəsində qanunlar çıxarmağa səy göstərmək istəyən adam gülməli vəziyyətə düşərdi: onlar, çox guman, Antisfenin[21] sözlərinə görə dovşanlar heyvanların yığıncağında nitq söyləyib, hamı üçün bərabər hüquq tələb edərkən şirlərin dediklərini deyərdilər. Bunun əsasında demokratik quruluşa malik dövlətlər sürgün etməni özlərində qanuna salmışlar: görünür ki, ümumi bərabərliyə can atdıqlarından ya var-dövlətə, ya dostlarının çoxluğuna, ya da bir başqa qüvvəyə arxalanıb öz qüdrəti ilə seçilən və dövlətdə rola malik olan adamları müəyyən vaxta qədər sürgünə məruz qoyub, qovurmuşlar. 3. Rəvayətə görə elə bu səbəbdən arqonavtlar Heraklı tərk etmişdilər: o, dəniz səyyahlarını xeyli üstələdiyindən Arqo gəmisi onu onlarla aparmaq istəməmişdi. Eyni surətlə Periandrın istibdad üsul-idarəsi və şura xüsusunda Frasibulu qınamasını da tamamilə doğru hesab etmək olmaz: nəql edirlər ki, Periandr məsləhət üçün onun yanına göndərilmiş carçıya heç bir cavab vermir, yalnız öz hündürlüyü ilə çox fərqlənən sünbülləri dartıb çıxararaq əkilmiş sahəni bərabərləşdirir; carsı işin nə yerdə olduğunu başa düşməyib, gördüklərini Frasibula məruzə edir, o isə Periandrın hərəkətini o mənada anlayır ki, görkəmli adamları məhv etmək lazımdır. 4. Belə bir tərzi-hərəkət təkcə istibdad üsul-idarəsinə sərfəli deyil və bu cür hərəkətlərdə yalnız müstəbidlər bulunmurlar, bu kimi işlər oliqarxiyalarda da, demokratiyalarda da baş verir: sürgün etmə məlum dərəcədə elə həmin mənanı verir – yəni sürgün nəticəsində görkəmli adamların qüdrətini kökündən kəsmək. Hakimiyyətə malik olanlar [yunan] dövlətləri və [barbar] xalqları ilə, məsələn, afinalılar – samoslarla, xioslarla və lesboslarla bu cür də hərəkət edir; elə ki, afinalılar hakimiyyətdə möhkəmləndilər, onlar müqavilələrinin olmasına baxmayaraq həmin xalqları alçaltdılar; İran şahı dəfələrlə midiyalıları, babilləri və qalan xalqları qıraraq qürrələnirdi ki, onlar vaxtı ilə hökmranlıq etmişlər. 5. Ümumiyyətlə, bu məsələ, düzgünlər də bu sırada olmaqla, bütün dövlət quruluşu formalarının qarşısında durur. Doğrudur, düzgün dövlət formalarından yayınanlarda bu vasitədən şəxsi mənafe naminə istifadə olunur, lakin bu, eyni dərəcədə ümumun rifahını güdən dövlət quruluşlarında da öz yerini tapır. Bunu digər sənət və elm sahələrindən götürülən misallarla izah etmək olar. Məgər rəssam bu mütənasibliyin pozulmasına yol verə bilərmi ki, canlı varlıq ayağı ilə təsvir olunsun, hətta bu ayaq çox gözəl olsa da belə. Yaxud gəmiqayıran məgər, nə iləsə gəminin arxa tərəfini və ya başqa bir hissəsini ayıra bilərmi? Məgər xorun pəhbəri xorun bütün üzvlərindən daha üca və gözəl oxuyan birisini xorda iştirak etməyə qoyarmı? 6. Beləliklə, hakimiyyətə təkbaşına malik olub, dövlətin mənafeyinə uyğun hərəkət edən adamlara, həm şəxsi hakimiyyətləri, həm də dövlətin rifahı üçün eyni qaydada faydalı olduğu halda bu vasitəyə əl atmağa heç bir maneə yoxdur. Harda ki, söhbət danılmaz üstünlük haqqında gedir,

orada sürgün etmə fikrinə əbəs yerə haqq qazandırılmır. Əlbəttə, yaxşı olardı ki, qanunverici lap əvvəlcədən dövlətə elə quruluş versin ki, «ikinci gəmi səfərini»[22] istisna etməklə, bu cür çarəyə əl atmağa ehtiyac qalmasın; lazım gəldiyi halda vəziyyəti bunun köməyilə düzəltməyə səy göstərmək olar. Dövlətlərdə belə şey baş vermirdi: sürgün etməyə əl atmaqla, onlar dövlət quruluşuna münasib olan mənafeyi nəzərdə tutmurdular, bununla yalnız özləri kimilərin mənafeyini güdürdülər. Beləliklə, aydındır ki, düzgün dövlət quruluşu formalarından yayınanlarda sürgün etmə onlar üçün əlverişli vasitə kimi faydalı və ədalətlidir, lakin ümumi nöqteyi-nəzərə görə bu da aydındır ki, sürgün etmə, çox güman, haqlı iş deyil. 7. Ən yaxşı dövlət quruluşu formasında isə böyük çətinlik bundan ibarətdir: əgər birisi qüdrəti, var-dövləti, yaxud dostlarının sayının çoxluğu ilə deyil, məziyyətlərinin çoxluğu ilə digərlərindən fərqlənib, üstünlük təşkil edirsə, onda necə hərəkət etmək lazımdır? Axı demək olmaz ki, bu adamı da aradan götürmək, yaxud qovmaq lazımdır; digər tərəfdən təsəvvür etmək olmur ki, belə bir adamın üzərində ağalıq etsinlər, çünki bu halda təxminən o alınardı ki, dövlət vəzifələrini bölüşdürəndə Zevs üzərində hökmranlıq tələb etsinlər. Bir şey qalır ki, görünür bu da təbiidir: hamı məmnuniyyətlə elə adamın itaətində bulunaydı ki, belələri dövlətdə həmişəlik hökmdarlıq etmiş olaydı.

IX. 1. Ola bilsin, yuxarıdakı mühakimələrdən sonra bizim fikrimizə görə ən düzgün dövlət quruluşu formalarından biri olan çar hakimiyyətinin mahiyyətinə varıb, bunun müzakirəsinə keçmək lazımdır. Araşdırma sual doğurur: gözəl quruluş əldə etməyə cəhd göstərən dövlət və ölkə üçün çar hakimiyyəti sərfəlidirmi, yoxsa yox, yainki əksinə, idarəetmənin başqa bir forması daha yaxşıdır, yoxsa bir para dövlət üçün çar hakimiyyəti



sərfəlidir, digərləri üçün yox? Lakin əvvəlcədən çar hakimiyyətinin bir, yoxsa bir neçə forması olduğunu müəyyənləşdirmək lazımdır.

2. Çar hakimiyyətinin bir neçə formadan ibarət olmasını müəyyən etmək çətin deyil və hər belə bir halda bunu üzə çıxarmağın yolu da bir deyil. Məsələn, lakedemon dövlət quruluşunda çar hakimiyyəti görünür ki, başlıca olaraq qanuna əsaslanır, lakin ali hakimiyyət tamamilə ona mənsub deyil: çar yalnız ölkədən kənara çıxdıqda silahlı qüvvələrin ali rəhbəri olur; üstəlik dini işləri idarə etmək çarın ixtiyarına buraxılıb. Beləliklə, bu çar hakimiyyəti bir növ qeyri-məhdud və əvəzedilməz surətdə strategiyadan ibarətdir; lakin çarın adam öldürtdürməyə yalnız yürüşlər zamanı ixtiyari var. Bu çox-çox qədimlərdə də hərbi ekspedisiyalar zamanı, haçan ki, güclü adam ixtiyar sahibi idi, belə olmuşdu, bunu Homer də göstərir: Aqamennon xalq yığıncağında söyüş eşitsə də özünü saxlayırdı, lakin qoşun düşmənə qarşı yola düşən zaman onun edam etdirməyə ixtiyarı var idi; o, bica yerə elan etmirdi: «Kimi əgər ki, mən vuruşmadan kənarda [görsəm]... sonra o, artıq itlərin və quşların əlindən heç bir yerdə gizlənə bilməyəcək: axı ölüm mənim əlimdədir».

3. Beləliklə, çar hakimiyyətinin formalarından biri – ömürlük strategiyadır. Bu, ya varislik yolu ilə olur, ya da seçki yolu ilə. Bununla bərabər bəzi barbar xalqlarında olan çar hakimiyyətinin timsalında monarxiyanın digər formasına da rast gəlinir; bu, istibdad üsul-idarəsini andırır, lakin həm qanuna, həm də varislik hüququna əsaslanır. Ellinlərdən fərqli olaraq barbarlar öz təbii xüsusiyyətlərinə görə köləliyə daha yaxşı uyğunlaşırlar, asiya barbarları isə bu xüsusda avropada yaşayan barbarları üstələdiklərindən, onlar istibdad üsul-idarəsinə heç bir narazılıq ifadə etmədən tabe olurlar. Göstərilən səbəblər nəticəsində barbarlarda çar hakimiyyəti istibdad üsul-idarəsi xarakterini da-

şısa da öz yerində möhkəm dayanıb, çünki bunun əsasını varislik və qanun təşkil edir. 4. Bu səbəbdən onun mühafizəsi də müstəbidlərdə olduğu kimi yox, çarlarda olduğu kimidir: axı çarları silahlı vətəndaşlar mühafizə edir, müstəbidləri isə – muzdla tutulan adamlar, çünki çarlar qanun əsasında onlara könüllü olaraq tabe olan adamlar üzərində, müstəbidlər isə – tabeçiliklərində olanlar üzərində, onlar istəmədən hökm sürürlər; beləliklə, bəziləri öz hakimiyyətlərinin mühafizəsini vətəndaşlardan təşkil edir, digərləri isə – vətəndaşlara qarşı.

5. Bu, monarxiyanın iki formasıdır. Qədim ellinlərdə mövcud olan digər forma esimnetiya adlanır. O, özündə, demək olar ki, seçki üzrə olan istibdad üsul-idarəsini təmsil edir; o, barbar monarxiyasından qanuna əsaslanmadığına görə deyil, yalnız varislik olmadığına görə fərqlənir. Bəziləri buna ömürlük yiyələnirdilər, digərləri isə müəyyən müddətə, yaxud müəyyən tapşırıqları yerinə yetirmək üçün seçilirdilər, belə ki, məsələn, bir vaxt Antimenidin və şair Alkeyin başçılıq etdikləri sürgün edilmiş adamlardan müdafiə olunmaq üçün Mitilenin vətəndaşları Pittakı müstəbid seçmişdilər. 6. Alkey öz nəğmələrinin birində mitilenlilər tərəfindən, məhz Pittakın müstəbid seçilməsini göstərir. O, ümumi razılıq əsasında sülhsevər bədbəxt şəhərə əsli-nəcabəti olmayan Pittakın müstəbid təyin edilməsinə görə onları məzəmmət edir. Bu cür idarə formaları despotizmə əsaslanan istibdad üsul-idarəsi olub və olmaqda davam edir, digər tərəfdən isə çar hakimiyyəti formalarına aiddir, çünki esimnetlər könüllü olaraq seçilirlər.

7. Rəşadətli dövrlərdə mövcud olan çar təkhakimiyyətliyinin dördüncü forması həm vətəndaşların könüllü surətdə razılığına, həm də qanuni vərəsəlik hüququna əsaslanan monarxiyalar idi. Bu cəsur çarların əcdadları ya bu və ya digər peşələrin ixtiraçıları kimi, ya dövlət birliyinin baniləri kimi, ya ərazini genişləndirənlər kimi xalq kütlələrinin hamiləri olmalarına baxmayaraq, onlar vətəndaşların razılığı əsasında könüllü surətdə çar olurdular, amma onların gələcək nəsli çar hakimiyyətinə vərəsəlik yolu ilə yiyələnirdi. Onların səlahiyyəti müharibəyə başçılıq etməkdən, qurbankəsmə mərasimini yerinə yetirməkdən – çünki axırıncı ayrıca olaraq kahinlərin vəzifəsinə daxil deyildi – üstəlik də məhkəmə işlərini araşdırmaqdan ibarət idi, həm də bu axırıncı halda bəzi çarlar and içmədən, digərləri isə – and içdikdən sonra (andiçmə çarların öz hökmdar əsasını yuxarı qaldırmaqdan ibarət olub) məhkəmə işlərini aparırdılar.

8. Qədim zamanlarda çarlar bilavasitə dövlətə aid olan bütün işlərin idarəçiliyində bulunurdular, onun daxili və xarici siyasətinə rəhbərlik edirdilər, sonralar isə haçan ki, onlar öz səlahiyyətlərinin bəzilərindən özləri imtina etdilər, digərlərini isə xalq onların əlindən aldı, bir sıra dövlətlərdə çarlar yalnız qurbankəsmə mərasimini yerinə yetirmək səlahiyyətinə malik oldular, digərlərində – harda ki, söhbət hər halda çar hakimiyyəti barədə gedə bilər – çarlar özlərində ancaq ölkə kənarında ali baş komandan olmaq səlahiyyətini saxladılar.

X. 1. Beləliklə, çar hakimiyyətinin dörd forması budur: birincisi, rəşadətli dövrlərdə vətəndaşların könüllü olaraq tabeçiliklərinə əsaslanan, lakin məhdud səlahiyyətlərə malik olan çar hakimiyyəti, yəni: çar ordu başçısı və hakim idi, həm də dini işlərə nəzarət edirdi; ikincisi, barbarlarda qanun üzrə vərəsəlik yolu ilə keçən və zalımanə çar hakimiyyəti; üçüncüsü, esimnetiya adlanan – seçkili istibdad üsul-idarəsi və dördüncüsü, zatən özündə varisliyi və ömürlük strategiyanı təmsil edən lakedemon çar hakimiyyəti. Bu dörd forma yuxarıda göstərilən xüsusiyyətləri ilə fərqlənir. 2. Çar hakimiyyətinin beşinci forması ondan ibarət olacaqdır ki, bir adam hamı üzərində intəhasız hökmranlığa malikdir, eləcə də bu və ya digər xalqın, yaxud

dövlətin bütün işlərini idarə edir. Bu cür çar hakimiyyəti təsərrüfat sahəsindəki ağalığa bənzəyir: necə ki, təsərrüfat başçısının sülalə üzərində ağalığı bir növ çar hakimiyyətini andırır, eləcə də hər şeyi əlavə edən bu çar hakimiyyəti, zatən bir, yaxud bir neçə dövlət və xalq üzərində olan hökumət evidir.

Əslində, çar hakimiyyətinin müzakirəyə çıxarılmalı yalnız iki forması mövcuddur: bunlar axırıncı forma və Lakedemondakı çar hakimiyyətidir; qalan üç forma əksər hallarda göstərilənlər arasında orta mövqe tutur: onların səlahiyyəti bir tərəfdən hər şeyi əhatə edən çar səlahiyyətindən azdır, digər tərəfdən Lakedemon çarlarının səlahiyyətini üstələyir. Beləliklə, əslində aşağıdakı iki məsələni araşdırmaq lazımdır: biri – dövlətlər üçün həmişəlik olaraq mahir strateqin olması sərfəlidirmi, yoxsa sərfəli deyil və o, müəyyən nəsildən olmalıdırmı, yoxsa seçki yolu ilə; digəri – bir nəfərin hamı üzərində intəhasız hökmranlığa malik olması sərfəlidirmi, yoxsa sərfəli deyil?

3. Ömürlük strategiyanı araşdırmaq dövlət quruluşu haqqında olan məsələdən daha çox qanunvericilik fəaliyyəti sahəsinə aiddir, çünki bu srateqiya hər dövlət quruluşunda özünə yer tapa bilər, buna görə çar hakimiyyətinin birinci variantının üstündən keçirik, o ki, qaldı bunun digər variantına, bu özündə, həqiqətən, dövlət quruluşu formasını təmsil edir, bününçün biz də bunu müzakirə etməli və araşdırmalarda bununla əlaqədar olan çətinliklərə toxunmalıyıq. Bizim araşdırmalarımızın çıxış nöqtəsi aşağıdakı məsələnin müzakirəsindən ibarətdir: hansı hakimiyyət altında olmaq daha sərfəlidir – daha yaxşı xadimin hakimiyyəti altında, yoxsa daha yaxşı qanunların hökmü altında? 4. Çar hakimiyyətini sərfəli hesab edənlər o fikrə əsaslanırlar ki, qanunlar özündə yalnız ümumi vəziyyəti ifadə edir və onlarda ayrı-ayrı hallara dair əvvəlcədən heç nə göstərilmir; buna görə hər cür bəzi süni qanunların hərfindən köləcəsinə



yapışmaq mənasız olardı, bir növ necə ki, Misirdə həkimə dörd gün müddətinə kənara çıxmağa icazə verilirdi; əgər ki, o bunu əvvəllər etsəydi, onda öz həyatını təhlükə altına qoymuş olardı. Bu surətlə, göstərilən səbəbdən belə çıxır ki, qanunun hər nöqtəsindən möhkəm yapışmış dövlət quruluşu ən yaxşı quruluş deyil. Hər halda hökmdarlar ümumi qaydalara əsaslanmalıdır və yaxşı olardı ki, öz təbiətlərinə xas olan ehtiraslardan çox, bunlara zidd olanlara meyl etsinlər; bunlar qanunlarda olmasalar da hər insan qəlbində istər-istəməz olur. 5. Lakin ola bilər kimsə desin ki, əvəzində ən yaxşı xadim ayrı-ayrı hallarda daha düzgün mühakimə yürüdə bilər. Hər necə olsa da aydındır ki, ona qanunverici olmaq lazımdır və qanunlar da olmalıdır, hərçənd bunlar eybəcərləşən zaman öz qüvvəsini itirir, bütün digər hallarda isə qüvvədə qalır; əgər ki, qanun, ümumiyyətlə, nəyisə həll etmək vəziyyətində deyilsə, yaxud yaxşı həll edə bilmirsə, onda kim hökm sürməlidir – bir nəfər ən yaxşı xadim, yoxsa hamı? Doğrudur, indiki zamanda hamı bir araya gəlir, məhkəmə qurur, məsləhətləşir və qərar çıxarır, lakin bu məhkəmələr tək-tək işlərə aid olur. Əgər birisini ayrılıqda götürsək, mümkündür ki, o, daha pis olsun, amma dövlət axı çoxluqdan ibarətdir, necə ki, şərikli ziyafət bir nəfərin sadə naharından daha yaxşıdır, eləcə də kütlə çox şey haqqında bir nəfərdən, o, kim olsa belə daha yaxşı mühakimə yürüdür. 6. Üstəlik, kütlə korlanmaya daha az meyllidir: kütlə bir para adama nisbətən, daha az pis təsir altına düşür. Əgər qəzəb və ya buna bənzər digər bir ehtiras bir adamı bürüyərsə, axırıncının qərarı istər-istəməz pis olacaq; bununsa kütlədə baş verməsi üçün hamı dərhal qəzəblənməlidir və bunun nəticəsində səhv iş görməlidir. Kütlə sözü altındasa, yalnız qanun qeyri-qənaətbəxş olan zamanlarda qaçılmaz hallar istisna olmaqla, heç nədə qanunun ziddinə hərəkət etməyən ata-anası kölə olmayanları başa düşmək

lazımdır. Əgər bu, asan deyilsə, bəs onda çoxları arasında korlanmaya daha az meylli olan – xadimlərlə və vətəndaşlarla necə olacaq: hökmdar bir nəfərdirmi, yoxsa sayca daha çox, bir neçə nəfər, lakin hamısı eyni dərəcədə yaxşıdır? Məgər bunun axırıncılar olması aydın deyilmi? Lakin bu bir neçə nəfər qisasçılığa başlayacaq, birisi isə özünü bu mübarizədən kənarda saxlayacaq. Bu etiraza qarşı çox guman, həmin birisi kimi gözəl mənəvi keyfiyyətlərə malik olan bir neçə adamı qoymaq olar.

7. Əgər eyni dərəcədə yaxşı olan bir neçə adamın idarəçiliyi aristokratiya, bir şəxsin idarəçiliyi isə – çar hakimiyyəti hesab edilirsə, onda aristokratiya dövlət üçün çar hakimiyyətindən daha yaxşı olardı, hakimiyyətin hərbi qüvvəyə istinad etməsinin, yaxud onsuz keçinməsinin fərqi yoxdur, təki idarəetməyə bir neçə bu kimi adamların cəlb edilməsi mümkün olsun. Ola bilər əvvəlki dövrlərdə adamlar məhz ona görə çarlar tərəfindən idarə edilirdi ki, yüksək mənəvi keyfiyyətlərilə fərqlənən şəxslər tapmaq çətin idi, üstəlik də o vaxtlar dövlətlərdə, ümumiyyətlə, az əhali məskunlaşmışdı. Bundan başqa çarları, onların xeyirxahlıq göstərmələrinə görə təyin edərdilər, bunu isə yaxşı xadimlər göstərərdi. Haçan ki, eyni dərəcədə çoxlu rəşadətli adam üzə çıxdı, onda onlar bir nəfərin hakimiyyəti altında olmaqdan imtina edərək, ümumi idarəçilik forması axtarışında bulundular və politiyanı meydana çıxardılar.

8. Haçan ki, mənəviyyat korlandı, onlar ümumi sərvət hesabına zənginləşməyə başladılar, politiyadan təbii olaraq oliqarxiyalar əmələ gəldi, axı insanlar var-dövlətə hörmət etməyə başlamışdılar. Oliqarxiyadan isə əvvəlcə istibdad üsul-idarəsi meydana çıxdı, daha sonra istibdad üsul-idarəsindən – demokratiya: hökmdarların alçaqcasına mənfəət güdməsi, həmişə onları öz saylarını azaltmağa təhrik edirdi, bu xalq kütlələrinin güclənməsinə səbəb olduğundan, axırıncılar onların əleyhinə



çıxaraq demokratiyanı meydana gətirdilər. Dövlətlərin sayı çoxaldığı üçün, demokratiyadan savayı, yəqin ki, başqa dövlət quruluşlarının ortaya çıxması indi artıq asan deyil.

9. Əgər biri etiraf etsə ki, dövlətlər üçün ən yaxşı idarəçilik forması – çar hakimiyyətidir, onda ortaya sual çıxacaq, çarın uşaqları ilə necə olsun. Məgər sonrakı nəsil də çarlıq etməlidirmi? Amma ki, bunlar arasında əgər əvvəlkilərə bənzər adamlar meydana çıxsa, onda bu, çox pis olacaq. Bu halda gərək çar, əgər bütün hakimiyyət onun əlindədirsə, bu cür uşaqlara hakimiyyəti verməsin. Lakin bu işdə ona belə asanlıqla etibar etmək olmaz, ya da bu, özü-özlüyündə çətindir və insandan onun təbiətinə xas olan böyük cömərdlik istəyir. 10. Həmçinin hərbi mühafizə dəstəsinə dair məsələnin həllində də çətinlik vardır: özünə tabe olmaq istəməyənləri bu işə məcbur etmək iqtidarında olsun deyə, hakimiyyətə gələnin ixtiyarında arxalanmaq üçün hərbi mühafizə dəstəsi olmalıdırmı, əks təqdirdə o, idarə etmənin öhdəsindən necə gələ bilər? Axı əgər ki, hətta o, qanunla hakimiyyətə bütünlüklə sahib olan hökmdar olsa belə, həm də heç bir özbaşına və qanuna zidd hərəkətlərə yol verməsə, hər halda şübhəsiz, onun ixtiyarında məlum qüvvə olmalıdır ki, buna istinadən qanunları qorumaq iqtidarında olsun. Doğrudur, söhbət qanuni çardan gedirsə, bu məsələ tez və maneəsiz həll edilə bilər, belə çar silahlı qüvvəyə malik olmalıdır, bu isə o dərəcədə çox olmalıdır ki, çar buna istinad edərək hər bir ayrı-ayrı adamdan və hətta bir neçə nəfərdən güclü, amma vətəndaş kütləsindən zəif olsun. Qədimdəkilər dövləti idarə etməkdən ötrü birisini esimnet və ya müstəbid təyin edərkən ona, məhz belə mühafizə dəstəsi verirdilər; Dionisi isə özünə mühafizə dəstəsi tələb edən zaman, kim isə sirakuzalılara məsləhət görmüşdü ki, ona, məhz bu böyüklükdə mühafizə dəstəsi versinlər.

XI. 1. Bizim şərhimiz indi bizi elə çar haqqında müzakirəyə gətirib çıxardı ki, beləsi hər işdə öz xoşu ilə hərəkət edir, biz də belə çar haqqında öz fikirlərimizi bildirməliyik. Qanuni monarxiya adlanan, biz söylədiyimiz kimi, dövlət quruluşunun xüsusi forması deyil; onun hər formasında, məsələn, demokratiyada, yaxud aristokratiyada ömürlük strategiya mövcud ola bilər və əksər dövlətlərdə daxili idarəetmənin rəhbərliyinə bir nəfər səlahiyyətli şəxs təyin edilir; bu cür hakimiyyət, ancaq səlahiyyəti bir qədər məhdudlaşdırılmış halda Epidamnedə və Opuntedə mövcuddur[23].

2. Biz artıq indi öz bildiyi kimi idarə edən, necə deyərlər, hər şeyi əhatə edən çar hakimiyyəti haqqında mühakimə yürüdəcəyik. Dövlət bir bərabərdə olan adamlardan ibarət olduğu halda bütün vətəndaşların bir nəfərin tam hökmü altında olması bəzilərinə qeyri-normal görünür: zatən bir bərabərdə olanlar üçün, zatən eyni cür də qayda və saygı lazımdır. Cismən bir-birinə bənzəməyən adamlara eyni cür yeməklərlə qidalanmaq və ya eyni cür paltarlar geyinmək əgər zərərlidirsə, onda imtiyazlarla iş nə yerdədir; bərabərlər arasında qeyri-bərabərçilik də eyni dərəcədə zərərlidir. 3. Buna görə ədalət tələb edir ki, bütün bərabərlər hansı dərəcədə tabeçilikdə bulunursa, o dərəcədə də hökm sürməlidir və hər kəs növbə ilə həm hökm sürməli, həm də tabeçilikdə bulunmalıdır. Burda artıq bizim işimiz qanunla əlaqəlidir, yaxud qayda elə qanunun özüdür ki, var. Buna görə vətəndaşlar arasından kiminsə birinin deyil, qanunun hökm sürməsi yaxşı olardı. Buna da əsasən, hətta hakimiyyətin bir neçə adamın əlində olması yaxşı hesab edilsə belə, bu axırıncıları qanunu qorumaq və ona xidmət göstərmək üçün təyin etmək lazımdır. Əgər bu və ya digər vəzifənin olması zəruridirsə, onda deyəcəklər ki, hamı bir bərabərdə olarkən onların hamısının bir adamın ixtiyarında olması ədalətsizdir. 4. Bu qeyd onu göstərir ki, qanun, çox guman, bütün mümkün halları qabaqcadan nəzərə almaq iqtidarında deyil, həm də insanda o zor yoxdur ki, bunları öncədən bilsin. Hər halda, vəzifəli şəxsləri lazımi surətdə tərbiyələndirən qanun, onlara daha düzgün fikirlərə əsaslanmaqla, digər işlərdə məhkəmə qərarları çıxarmağa və idarə etməyə imkan yaradır. Təcrübə göstərəndə ki, onlar mövcud olan quruluşların yaxşılaşmasına yardım edir, qanun onlara özündə düzəliş aparmağa imkan verir. Beləliklə, kim tələb edirsə ki, qanun hökm sürsün, görünür ki, Allahın və ağılın hökm sürməsini istəyir, ancaq kim tələb edirsə ki, insan hökm sürsün, buna heyvani hissləri də əlavə edir, yaxud ehtiras nə isə heyvanabənzər bir şeydir və qəzəb hökmdarları doğru yoldan azdırır, baxmayaraq ki, onlar ən yaxşı adamlardır; əksinə, qanun – qeyri-iradəlikdən azad bir dərrakədir[24]. 5. Sənət sahəsindən gətirilən misaldan görünür ki, göstəriş necədirsə, ona əsasən müalicə olunmaq pisdir, həkimlik sənətinin bilicilərinə müraciət etmək məqsədəuyğun olsa da, səhv hərəkət kimi qəbul edilir. Axı həkimlər dostluğa görə qaydaların əleyhinə olan heç bir hərəkətdə bulunmayacaqlar: onlar haqlarını da xəstəni sağaltdıqdan sonra alırlar. Əksinə, dövlət vəzifələri tutan adamlar çox vaxt çox işdə ya qərəzçilik mövqeyi tuturlar, ya da dostluğa meyl edirlər. Şübhə yarananda ki, həkimlər bədxahların şəriylə qazanc naminə xəstəni tələf etmək istəyir, adamlar ona üstünlük verirlər ki, onlar göstəriş necədirsə, ona əsasən müalicə etsinlər. 6. Xəstə həkimlər öz yanlarına başqa həkimləri çağırırlar; gimnastika təlimi ilə məşğul olan pedotriblər digər pedotribləri dəvət edirlər, çünki o vaxt ki, iş onların özlərinə aid olur və onlar özləri ehtiraslara qapılırlar, bu şəxslər həqiqət haqqında mühakimə yürütmək iqtidarında olmurlar. Be-

ləliklə, aydındır ki, ədalət axtarışında bulunanlar nə isə bir qərəzsizlik axtarırlar, qanun isə həmin qərəzsizliyin özüdür ki, var.

Üstəlik, əlavə etmək lazımdır ki, yazılı qanunlara nisbətən adətlərə əsaslanan qanunlar böyük əhəmiyyətə malikdir və daha mühüm işləri əhatə edir, belə ki, əgər idarə edən şəxsin birisi qanunlara nisbətən daha etibarlı görünürsə, onda o, heç bir vəchlə adətlərə əsaslanan qanunlarla müqayisəyə gəlmir. 7. Həmçinin bir adamın çoxlarına göz qoyması heç də asan deyil. Buna görə ona lazım gələcəkdir ki, özünə yardımçı olmaqdan ötrü bir neçə vəzifəli şəxs təyin etsin. Bəs bu halda fərq nədən ibarət olacaqdır: bu cür vəziyyət dərhal yaranırmı, yoxsa bir nəfər buna uyğun olan qaydanı müəyyənləşdirir? Buna yuxarıda deyilənləri də əlavə etmək lazımdır; əgər dəyərli xadimin başqasından yaxşı olduğuna görə hakimiyyətə yiyələnməyə haqqı vardırsa, onda axı iki yaxşı xadim bir yaxşıdan daha yaxşıdır. Bura «bir yerdə gedən iki nəfər» kəiamı da Aqamemnonun «[əgər ki, ] on belə məsləhətçim [olsaydı]» arzusu da uyğun gəlir. İndiki zamanda da vəzifəli şəxslərin bəzi işlərə dair qərar çıxarmağa tam haqları var. Lakin heç kimin şübhəsi yoxdur ki, bu, harada mümkündürsə, orada da hakimiyyətin və qərar çıxarmaq işinin, məhz qanuna həvalə edilməsi yaxşı olardı. 8. Və yalnız bir sıra məsələlərin qanunla yoluna qoyula bilməsi, digərlərinin isə – qoyula bilməməsi üzündən, başa düşmək olmur və araşdırmaq lazım gəlir ki, nə daha yaxşıdır – ən yaxşı qanunların hökm sürməsimi, yoxsa ən yaxşı xadimin hökm sürməsi, zira, adətən, müzakirəyə çıxarılması tələb olunan məsələlər, qanunla əvvəlcədən həll edilə bilmir. Qanunun hökm sürməsinin tərəfdarları bu kimi hallarda heç də qərarın insan tərəfindən çıxarılmasının əleyhinə danışmırlar; onlar yalnız bunda israrlıdırlar ki, bunu bir adam deyil, bir neçə adam etsin. 9. Qanun ruhunda tərbiyələnmiş hər vəzifəli şəxs düz mühakimə yürüdəcək; lakin guya bir adamın, o necə adam olsa belə, ona məxsus bir cüt gözü, qulaqları, ayaqları və əllərilə, buna uyğun nisbətdə bu cür üzvlərə və bədən hissələrinə malik bir neçə adamdan məsələyə daha yaxşı baxmasını, qərar çıxarmasını və onu həyata keçirməsini zənn etmək, çox guman, mənasız olardı. Hal-hazırkı zamanda hökmdarlar çoxlu gözlərin, qulaqların, əllərin və ayaqların köməkliyinə əl atmaq məcburiyyətində qalaraq, onların idarəçiliyinə hüsn-rəğbət bəsləyən və şəxsən özlərinə meylli adamları öz hakimiyyətlərilə əlbir edirlər. Əgər bunlar hökmdarın dostları deyillərsə, qabaqcadan verilmiş göstərişə uyğun hərəkət etməyəcəklər, lakin əgər onlar hökdarın və onun hakimiyyətinin dostlarıdırsa [onda bu cür hərəkət edəcəklər]; axı dostluq istər-istəməz mükəmməl bərabərliyi nəzərdə tutur, belə ki, əgər hökmdar nəzərdə tutursa ki, bu cür dostlar onun hakimiyyətinə şərik olmalıdır, o bununla bahəm bərabərlərin və bunlar kimilərin səlahiyyətlərinin bir olmasını mümkün hesab edir. Çar hakimiyyətinə qarşı irəli sürülən bütün etirazlar təxminən bundan ibarətdir.

10. Yəqin ki, bir sıra adamlarla onların əlaqəsi möhkəmdir, digərləri ilə – yox. Hüquq və mənfəətin bir əsası müstəbid hakimiyyəti üçün, digəri – çar hakimiyyəti üçün, üçüncüsü – politiya üçün artıq təbiətin özü tərəfindən qoyulmuşdur; yalnız müstəbid üsul-idarəsi üçün, eləcə də düzgün dövlət quruluşu formalarından yayınanlar üçün təbiət bü cür əsaslar təşkil etməmişdir, ona görə ki, bütün bu formalar qeyri-normaldır. Əvvəl deyilənlərdən də aydındır ki, belələri və bərabərlər arasında bir nəfərin hamı üzərində qeyri-məhdud hökmranlığı qanun varmı, yoxsa yox nə sərfəli, nə də ədalətli deyil və yaxşılarınmı yaxşılar üzərində, yoxsa pislərinmi pislər üzərində, yaxud xeyirxahlarınmı daha az xeyirxah olanlar üzərində hökm sürüb – sürməməsin-

dən asılı olmayaraq qanunu bu bir nəfər təcəssüm etdirir. Bununla belə, bir halı istisna etmək şərti ilə, yuxarıda barəsində bir qədər söhbət açdığımız axırıncıları fərqləndirmək lazımdır.

11. Hər şeydən öncə monarxiyanın, aristokratiyanın və politiyanın əsasları deyərkən nə başa düşüldüyünü müəyyənləşdirmək lazımdır[25]. Həyata keçməkdən ötrü monarxiyanın əsasları elə xalq kütləsini təxmin edir ki, beləsi öz xarakterinə görə dövlətin idarəçiliyini özünün məziyyətləri ilə ondan yuksəkdə duran bir nəslin nümayəndəsinə verməyə iqtidarlı olsun. Aristokratiyanın əsasları da öz ləyaqəti ilə ata-anası kölə olmayan adamlardan geri qalmayıb, dövlət idarəçiliyini öz məziyyətləri ilə seçilən adamlara vermək iqtidarında olan xalq kütləsini təxmin edir. Nəhayət, politiyanın əsaslarının həyata keçməsi üçün qanun əsasında həm tabeçilikdə bulunmalı, həm də hökm sürməli olan xalq kütləsi vəzifələri göstərdikləri xidmətə uyğun olaraq varlı-hallı adamlar arasında bölüşdürür. 12. Haçan bir nəsil, yaxud onlardan biri öz məziyyəti ilə bütün yerdə qalanların hamısından fərqlənib, onlardan üstün olacaqsa, onda haqqına olaraq bu nəsil çar nəsli, onun bir nümayəndəsi isə – külli-ixtiyar sahibi və hökmdar olmalıdır: əvvəl deyildiyi kimi bu, o hüquqi əsaslara uyğundur ki, beləsinə aristokratiya, oliqarxiya və hətta demokratiya dövlət quruluşu formalarına əsaslananlar istinad edirlər, axı onlar hər yerdə üstünlüyü qəbul edirlər, amma hər üstünlüyü yox, eləsini ki, biz onu yuxarıda təsvir etdik. 13. Doğrudan da bu cür görkəmli xadimi öldürmək, ya qovmaq, yaxud sürgünə məruz qoymaq, eləcə də ondan az da olsa belə tabeçilikdə bulunmağı tələb etmək bağışlanmaz olardı, axı hissələrə tamdan yüksəkdə durmaq xas deyil, belə tam isə bizim göstərdiyimiz halda bu cür üstünlüyə malik olan adamdır. Deməli, bir şey qalır: belə adamın tabeçiliyində bulunmaq və onu külli-ixtiyar sahibi olan hökmdar kimi qəbul etmək.



Çar hakimiyyəti – onun hansı variantları var, dövlətə və kimə hansı baxımdan sərfəli olub-olmaması haqqında bizim fikirlərimiz budur.

XII. 1. Dövlət quruluşunun üç formasından, hansıları ki, biz düzgün hesab edirik, ən yaxşısı, əlbəttə, o formadır ki, orada idarəetmə ən yaxşıların əlində cəmləşib. Bu, o halda yerini tapacaqdır ki, ya ümumi xalq kütləsi içərisindən çıxan birisi, ya bütöv bir nəsil, ya da bütün xalq kütləsi öz məziyyətləri ilə üstünlük təşkil etsin, həm də bu zaman bəziləri hökm sürmək, digərləri – daha çox arzu etdikləri həyat naminə tabeçilikdə bulunmaq vəziyyətində olacaqdır. Əvvəlki mühakimələrdə göstərilmişdi ki, ən yaxşı dövlətdə dövlət xadiminin məziyyəti ilə vətəndaşın məziyyəti eyni olmalıdır. Buradan aydındır ki, eynilə bu tərzdə və həmin də vasitələrin köməkliyi ilə, hansılar ki, dəyərli adamın irəliləməsinə səbəb olur, dövləti, bu istər aristokratiya olsun, istərsə monarxiya bu cür də etmək olar. 2. Dövlət xadiminin, yaxud çarın mükəmməlləşməsinə təxminən eyni tərbiyə və eyni təcrübə səbəb olur. Bunu müəyyənləşdirdikdən sonra biz ən yaxşı dövlət quruluşu formasının hansı yolla meydana çıxması və mövcud olması haqqında danışmağa təşəbbüs göstərəcəyik.

# DÖRDÜNCÜ KİTAB (D)

I. 1. Yalnız bir hissə ilə məhdudlaşmayıb, tamamilə bir sahəni əhatə edən hər bir sənətin və elmin elə bir şöbəsi vardır ki, bura bütün bu sahəyə ən yaxşı cəhətdən uyğun gəlmək etibarı ilə bütün şeylərə diqqət yetirmək daxildir. Belə ki, məsələn, gimnastika sənəti ona diqqət yetirməyi nəzərdə tutur ki, gimnastika təliminin hansı növü kimin üçün faydalıdır, hansı məşqləri daha yaxşı hesab etmək lazımdır (yaxud aydındır ki, yaranışından çox gözəl bədənə malik olan adamlara və daha yaxşı qulluq görənlərə ən yaxşı məşqlər münasibdir), adamların əksəriyyəti üçün hər şeydən çox hansı məşqlər uyğundur (bu məsələ ilə də gimnastika sənəti hesablaşmalıdır); nəhayət, əgər birisi yarışa aid olduğuna görə lazım olan təcrübə və biliyə yiyələnməyə cəhd göstərmirsə, pedotrib və gimnastika təliminin rəhbəri hər halda az dərəcədə də olsa, onda bu bacarığın inkişaf etməsinə kömək göstərməlidir.

2. Bunları təbabət, gəmiqayırma, dərzilik və hər bir digər sənət barəsində də demək olar.

Buradan aydındır ki, bu kimi elmlərdən birinin mövzusu da ən yaxşı dövlət quruluşu formasını araşdırmaqdan ibarətdir: bu, nə formadır, onun xüsusiyyətləri necə olmalıdır ki, – kənardan heç bir maneə olmadıqda – o daha arzuedilən olsun; bundan başqa, kimə hansı forma daha münasibdir (çox guman, əksər dövlətlər üçün ən yaxşı forma əldə etmək mümkün olmayacaq, buna görə yaxşı qanunverici və həqiqi dövlət xadimi həm həqiqi mənada ən yaxşı dövlət quruluşu formasını, həm də şəraitə uyğun olan ən yaxşını nəzərdən qaçırmamalıdır); nəhayət, siyasət tanınmış nəslə zəmin yaratmaq əsasında qurulan üçüncü dövlət quruluşu forması ilə də hesablaşmalıdır. Bu dövlət quruluşu formasına da nəzəri cəhətdən diqqət yetirmək lazımdır: o, əvvəlcə necə və hansı yolla yarana bilər, yarandıqdan sonra mümkün qədər daha uzun müddətə qalmaqda davam edə bilərmi. Mən onu nəzərdə tuturam ki, məsələn, bir dövlət, ümumiyyətlə, ən yaxşı dövlət quruluşu formasından faydalanmadıqda, bunun üçün zəruri vəsaiti belə olmadığından, hətta mövcud formalardan heç biri onun üçün mümkün olmur, o, ancaq dəyərsiz dövlət quruluşuna malik olur. 3. Bütün bunlardan başqa elə dövlət quruluşu forması haqqında anlayışa malik olmaq lazımdır ki, beləsi, bütün dövlətlər üçün daha münasib olsun.

Tədqiqatçılar dövlət quruluşu haqqında öz fikirlərini şərh edib, çox şey barəsində gözəl mühakimələr yürütsələr də, onlar təcrübədə bu fikirləri tətbiq edərkən əksər halda səhvə yol verirlər. Axı yalnız ən yaxşı dövlət quruluşu formasını deyil, həm də müəyyən şərait üçün mümkün olan eləsini nəzərdə tutmaq lazımdır ki, bunu butun dövlətlərdə həyata keçirmək asan olsun. Hazırdasa bəzi tədqiqatçılar dövlət quruluşunun ali formasını göstərirlər ki, bunun da həyata keçməsi üçün, ümumiyyətlə, bir sıra xarici müqavilə olmalıdır, digərləri təcrübədə həyata keçməsi daha asan olan formanı nəzərdə tuturlar, belə ki, mövcud olan dövlət quruluşu formalarını rədd edib, lakedemon və ya digər bir quruluşu tövsiyə edirlər. 4. Bununla belə elə dövlət quruluşu tətbiq etmək lazımdır ki, beləsi məlum şəraitə münasib və uyuşan olsun: dövlət quruluşunu təkmilləşdirmək – onu lap əvvəlcədən qurmaqdan heç də asan deyil, necə ki, yenidən öyrənmək əvvəl öyrənməkdən asan olmur. Buna görə dövlət xadimi, indi xatırlatdığımız kimi, bütün bunlardan başqa mövcud olan dövlət quruluşu formalarının təkmilləşməsinə kömək etməyi bacarmalıdır. Əgər dövlət quruluşu formalarının nə qədər olması ona məlum deyilsə, bunu etmək onun üçün mümkün

olmayacaq. İndi bəziləri düşünür ki, guya demokratiyanın da, oliqarxiyanın da ancaq və ancaq bir forması vardır. Əslində isə bu, belə deyil. 5. Deməli, dövlət quruluşu formalarının müxtəlif olmasını, onların sayını və onların sayının uyğunluğunu yaddan çıxarmaq olmaz. Yaxşı qanunları da, dövlət quruluşu formalarından hər kəs üçün münasib olanını da qabaqcadan bu cürə nəzərə alıb, onlara diqqət yetirmək lazımdır. Müəyyən dövlət quruluşuna tətbiq etməklə qanunları çıxarmaq lazımdır – belədə də onların hamısı çıxır – əksinə, dövlət quruluşunu qanunlara tərəf sürüb gətirmək lazım deyil. Doğrudan da, dövlətlərdə vəzifələrə aid olan qayda dövlət quruluşunu şərtləndirir, yəni onların bölüşdürülmə üsulu ali hakimiyyətin xarakterini üzə çıxarır, hər bir siyasi münasibətin son məqsədini müəyyən edir. Amma qanunlar müəyyən dövlət quruluşunun nə ilə səciyyələndiyini fərqləndirməlidir; hökmdarlar qanunlara əsaslanaraq idarə etməli, eyni zamanda bunları pozanlara göz qoymalıdırlar[1]. 6. Beləliklə, aydındır ki, qanunvericilik işində dövlət quruluşu formalarının hər birini səciyyələndirən fərqli cəhətləri və onların sayının neçə olduğunu nəzərə almaq lazımdır, çünki demokratiyanın və oliqarxiyanın bir deyil, bir neçə forması mövcud olduğundan həm bütün demokratiyalar üçün, həm də bütün oliqarxiyalar üçün eyni qaydaların faydalı olacağını təxmin etmək olmaz.

II. 1. Biz dövlət quruluşu formaları haqqında olan əvvəlki mühakimələrimizdə onları belə təsnif etmişdik: üç düzgün forma – çar hakimiyyəti, aristokratiya, politiya – və onlardan yayınan üç forma – müstəbid üsul-idarəsi – çar hakimiyyətindən, oligarxiya – aristokratiyadan, demokratiya – politiyadan. Aristokratiya və çar hakimiyyəti haqqında yuxarıda danışılmışdı (ən yaxşı dövlət quruluşuna diqqət yetirmək, məhz aristokratiya və çar hakimiyyəti haqqında fikirlərə, həm də bu adlar altında



gizlənən şeylərin müəyyənləşməsinə bərabərdir, zira aristokratiya da, çar hakimiyyəti də bərqərar olmaqdan ötrü xeyirxahlığın olmasını nəzərdə tutur ki, bu da əlverişli xarici müqavilələrdə müşahidə olunur).

Əvvəllər, həmçinin bu da müəyyən edilmişdi ki, aristokratiya ilə çar hakimiyyətinin bir-birindən fərqi nədir və nə vaxt dövlət quruluşunu çar hakimiyyəti hesab etmək olar. Beləliklə, ümumən politiya adlandırılan dövlət quruluşunu, eyni zamanda digərlərini, yəni oliqarxiya, demokratiya və istibdad üsul – idarəsini müzakirə etmək qalır.

2. Düzgünlərdən yayınan formalardan hansının ən pis və hansının buna yaxın olduğu aydındır. Əlbəttə, ən pis forma bütün dövlət quruluşu formalarından ən birincisi və ən gözəlindən yayınanıdır. Çar hakimiyyəti, əgər o, boş şey deyilsə, əgər o, doğrudan da, mövcuddursa hökm-fərma edənin yüksək üstunlüyünə əsaslanır. Beləliklə, istibdad üsul-idarəsi dövlət quruluşu formalarından ən pisi kimi, lap əvvəldən hamısından daha uzaqda durur; oliqarxiya bilavasitə bununla yanaşı dayanır (oliqarxiyadan fərqli olaraq, aristokratiya aralıdadır); yayınan formalardan ən sadəsi isə – demokratiyadır. 3. Əvvəllər bu fikri mənim sələflərimdən biri demişdi[2], baxmayaraq ki, o, bizim nəzərdə tutduğumuzu düşünmürdü, onun fikrincə, əgər dövlət quruluşu formalarını nümunəvi halda götürsək, bir növ: oliqarxiya və başqaları yaxşı, demokratiya isə ən pisi, amma əgər onları korlanmış vəziyyətdə götürsək, onda ən yaxşısı – o, olacaqdır. 4. Biz isə öz tərəfimizdən iddia edirik ki, ümumiyyətlə, bütün bu dövlət formaları düzgün deyil, həm də demək olmaz ki, guya oliqarxiyanın bir forması digərindən yaxşıdır, lakin o, yalnız digərləri ilə müqayisədə daha az pisdir. Bununla belə indi biz bütün bunları araşdırmağı bir kənara qoyuruq. Bizim vəzifəmiz hər şeydən öncə bir-birindən fərqlənən dövlət quruluşu formalarının sayını

müəyyənləşdirməkdən ibarətdir, zira demokratiya da, oliqarxiya da bir neçə formaya bölünür; bunun ardınca biz ən yaxşıdan sonra ən ümumi və ən münasib dövlət quruluşu formasını müəyyənləşdirəcəyik və əgər məlum olsa ki, əksər dövlətlər üçün yaxşı sahmanlanmış və münasib olan digər bir aristokratiya idarə forması var, onda biz onu da tədqiq edəcəyik.

5. Bundan başqa bir yerdə qalan formalardan hansının kimin üçün münasib olması məsələsinə də toxunacayıq, zira bəziləri üçün oliqarxiyadan çox demokratiyanın, digərləri üçün isə – bunun əksinin münasib olması asanca aşkarlana bilər. Bundan sonra onu müzakirə edəcəyik ki, bir kimsə istədikdə bu dövlət quruluşlarını, yəni demokratiya və oliqarxiyanın ayrı-ayrı formalarını necə müəyyənləşdirə bilər. Nəhayət, biz bütün bu məsələləri mümkün qədər qısa şəkildə şərh etdikdən sonra, hər bir dövlət quruluşunun həm ümumi formada, həm onun ayrı-ayrı formalarında məhvinin və xilasının nədən ibarət olduğunu, həm də bunun və digərinin daha çox hansı səbəblərdən asılı olduğunu araşdırmağa cəhd göstərəcəyik.

III. 1. Dövlət quruluşu formalarının bir neçə olmasını hissələrin çoxluğu ilə izah etmək olar ki, hər bir dövlət də bundan təşəkkül tapır. Hər şeydən öncə biz görürük ki, bütün dövlətlər ailələrdən təşkil olunmuşdur, sonra bu çoxlu ailədən bir parası varlı olur, digərləri – yoxsul, üçüncülər isə orta səviyyədə dolanır. Varlıların və yoxsulların sırasından birincilər silaha malikdirlər, ikincilər malik deyillər. Sadə xalqı öz növbəsində əkinçilər, tacirlər, sənətkarlar təşkil edir; kübarlar yenə də öz var-dövlətlərinin dərəcəsinə və onlara məxsus olan mülkiyyətin böyüklüyünə görə seçilirlər, məsələn, kasıb adama at saxlamaq çətindir. 2. Bax buna görə qədim dövrlərdə süvari dəstəsinin gücünə əsaslanan dövlətlərdə quruluş oliqarxiya idi; süvari dəstəsinin



köməkliyilə onlar öz qonşuları ilə müharibə aparırdılar. Eritriya və Xalkiddə, həmçinin də Maqnesiyada, Meandrededə və bir çox kiçik asiya dövlətlərində belə olmuşdur. Var-dövlətlə şərtlənən fərqlərə, həm də əslə görə, məziyyətə görə, həmçinin bu kimi digər üstünlüklər də qatılır ki, aristokratiya haqqında söhbət açan zaman biz bunu göstərmişdik, bunun barəsində dövləti təşkil edən hissələrdən biri kimi danışmışdıq. Orada biz hər bir dövlətin neçə zəruri tərkib hissəsini araşdırmışıq; idarəetmədə onlardan ya hamısı, ya az, ya da çox hissəsi iştirak edir.

3. Beləliklə, mövcud olan bir neçə dövlət quruluşu formasının öz xarakterinə görə bir-birindən fərqli olmasının qaçılmazlığı aydındır, zira bizim göstərdiyimiz dövlətlərin tərkib hissələri də bir-birindən fərqlənir. Dövlət quruluşu vəzifələr yönümündə qaydanın özüdür ki, var. Bunda bütün hissələr ya özlərinə xas xüsusiyyətlərə görə, ya da ümumi nöqteyi-nəzərə əsasən onların bərabərliyini şərtləndirən bu, yaxud digər qaydalara görə öz yerini tapır (mən, məsələn, ya yoxsulları, ya varlıları, ya da ümumən bunları və o birilərini bərabərləşdirən qaydanı nəzərdə tuturam). Beləliklə, üstünlükləri və fərqli xüsusiyyətlərindən asılı olaraq dövlətin tərkib hissələrinə aid olan idarəetmə üsullarının sayı neçədirsə, dövlət quruluşu formaları da istər-istəməz o qədər olur.

4. Amma dövlət quruluşu formalarından başlıcaları, görünür ki, ikisidir – demokratiya və oliqarxiya, bunun kimi əsas iki külək haqqında danışırlar – şimal və cənub, qalanlarına isə bu ikisindən yayınanlar kimi baxırlar. Axı aristokratiyanı oliqarxiya hesab edirlər, politiya dediklərini isə – demokratiya, necə ki, qərb küləyini şimal küləyinə, şərq küləyini isə – cənub küləyinə aid edirlər. Bəzilərinin sözlərinə görə tonallıqla da iş bu cürdür: bunun da iki forması var – doriya tonallığı və frigiya tonallığı, yerdə qalan ahənglərin isə bir qismi doriya, digərləri – frigiya

tonallığına aiddir. 5. Dövlət quruluşu formalarına münasibətdə də, adətən, göstərilən fikirlərdən yapışırlar. Lakin bizim təklif etdiyimiz bölgü mövcud iki, ya bir ən gözəl dövlət quruluşu formasına uyğun olan daha düzgünü və yaxşısıdır, digər bütün formalar isə – ən yaxşıdan yayınanlardır, necə ki, yaxşı sahmanlı tonallıqdan da bu cürə yayınmalar olur; və biz daha gərgin tonda qəddarlığın xas olduğu oliqarxiya idarə formalarını tutuşdurmağa həvəs göstəririk, demokratik idarə formaları isə zəifiədilmiş fonda olub – ölüvaydır.

6. Ali hakimiyyətin xalq kütləsinin əlində cəmləşdiyi demokratiyaya, hal-hazırkı dövrdə, adətən, bəzilərinin etdiyi kimi sadəcə olaraq elə belə dövlət quruluşu forması tək tərif vermək lazım deyil[3]; çünki oliqarxiyalarda və ümumiyyətlə, hər yerdə ali hakimiyyət çoxluğa məxsusdur; eyni surətdə oliqarxiya deyəndə elə başa düşmək lazım deyil ki, bu dövlət quruluşu formasında hakimiyyət azlığın əlində cəmləşib. Tutaq ki, dövlət cəmi-cümlətani min üç yüz vətəndaşdan ibarətdir; onlardan mini varlıdır və yerdə qalan üç yüzü –yoxsul, lakin ata-anası kölə olmayan və hər baxımdan həmin min nəfərə bənzər adamları idarə etməyə buraxmırlar. Kimsə cürətə gəlib iddia edəcəkmi ki, belə dövlətin vətəndaşları demokratik quruluşdan yararlanırlar?

Eləcə də əgər ki, bir para yoxsul əksər varlılar üzərində hakimiyyətə malik olsaydı, qalan varlıların da heç bir sayğıya haqqı çatmasaydı, heç kim bu cür quruluşu oliqarxiya adlandırmazdı. 7. Beləliklə, daha çox eləsini demokratik quruluş adlandırmaq olar ki, orada ali hakimiyyət ata-anası kölə olmayanların əlindədir, oliqarxiya isə – varlılara məxsusdur, həm də təsadüfi hallarda bəziləri çox, digərləri isə az olur. Tutaq ki, vəzifələr, bəzilərinin Efiopiya xüsusunda iddia etdiyi kimi boya, yaxud gözəlliyə görə bölüşdürülür, bu oliqarxiya ola bilərmi? Bəs axı gözəllər və uca boylulur çox da olmur. 8. Yox, bu cür əlamətlərlə oliqarxiya və demokratiyanın mahiyyətini kifayət qədər dürüst müəyyənləşdirmək olmaz. Demokratiyanın da, oliqarxiyanın da çox tərkib hissələrdən ibarət olduğunu nəzərə alaraq, onları düzgün müəyyən etmək üçün uzağa gedib, etiraf etmək lazımdır ki, harada ata-anası kölə olmayan azlıq ata-anası kölə olan çoxluq üzərində hökmranlıq edirsə, o quruluşu da oliqarxiya hesab etmək olmaz, necə ki, biz bunu, məsələn, İon dənizində yerləşən Apolloniyada və Feredə görürük. Hər iki dövlətdə imtiyazlara əsli-nəcabəti ilə seçilənlər və bu dövlətlərdə ilkin olaraq məskunlaşanların törəmələri malik idi; onlar aydındır ki, çox əhali arasında azlıq təşkil edirdilər. O quruluşu da demokratik hesab etmək olmaz ki, beləsində varlılar çoxluq təşkil etdiklərinə görə üstün vəziyyətdədirlər; qədim zamanlarda Kolofonda belə olmuşdur, orada midiyalılarla müharibədən qabaq vətəndaşların üstünlük təşkil edən hissəsi böyük daşınmaz əmlaka yiyələnmişdi. Beləliklə, elə quruluşu demokratiya hesab etmək lazımdır ki, orada ata-anası kölə olmayanlar və yoxsullar çoxlüq təşkil etməklə ali hakimiyyəti də öz əllərində cəmləmiş olsunlar, oliqarxiya isə – elə quruluşdur ki, orada hakimiyyət azlıq təşkil edən varlılar və ata-anası kölə olmayan adamların əlindədir.

9. Biz göstərdik ki, dövlət quruluşunun bir neçə forması mövcuddur və bunun nədən asılı olduğunu da aydınlaşdırdıq. Lakin bu formalar hər halda sadalananlardan çoxdur və biz əvvəl göstərilənləri çıxış nöqtəsi kimi götürüb, onların necə, həm də nədən ötrü olması haqqında danışacayıq. Biz bununla razılaşdıq ki, hər bir dövlət bir deyil, bir neçə tərkib hissəsindən ibarətdir. Zənn edək ki, biz heyvanat aləminin ayrı-ayrı növlərini araşdırmaq istəyirik; bu halda biz əvvəlcə, hər bir heyvana nə lazımdırsa onu, məsələn, duyğu üzvlərini, qida qəbul edən və onu həzm edən üzvləri, yəni ağız və mədəni ayırardıq, sonra biz o hissələri ayırardıq ki, bunlar vasitəsilə heyvan hərəkət

haqqında danışdığımız hissələr qalır, yəni qanun layihələrini müzakirə etmək vəzifəsinə təhkim edilmişlər və iddiaçılar arasında məhkəmə quranlar. Əgər dövlətlərdə qanun layihələrini müzakirə edən və məhkəmə hakimiyyətləri çox gözəl və qanunauyğun təşkil edilməlidirsə, mütləq bu hakimiyyətləri təmsil edənlər siyasi xadimlərə xas olan məziyyətə malik olmalıdır.

15. Çoxlarına elə görünür ki, yerdə qalan vəzifələr eyni şəxslərə məxsus ola bilər, məsələn, eyni adamlar həm hərbçi, həm əkinçi, həm sənətkar, üstəlik də həm şuranın üzvü, həm də hakim ola bilər; bütün bu adamlar məziyyətin nailiyyətini nəzərə aldıqlarından, onlar da vəzifələrin böyük bir hissəsini tuta bilərlər. Lakin eyni adamlar bir vaxtda yoxsul və varlı ola bilməzlər; bax buna görə dövlətin bu hissələri, yəni varlılar və yoxsullar həm də onun əhəmiyyətli hissələri sayılırlar. Onlardan da biri həqiqətdə çox vaxt azlıq, digəri isə – çoxluq təşkil etdiyindən, dövlətdə bu hissələr bir-birinə tamamilə zidd olur, belə ki, birinln, yaxud digərinin üstünlüyündən asılı olaraq müvafiq dövlət quruluşu forması meydana çıxır. Buna görə elə görünür ki, guya dövlət quruluşunun yalnız iki forması var: demokratiya və oliqarxiya.

Dövlət quruluşunun bir neçə formasının hansı səbəbdən mövcud olması haqqında əvvələr deyilmişdi. İndi isə demokratiya və *oliqarxiyanın bir neçə formasının mövcud olması* haqqında danışaq.

IV. 1. Bu əvvəlki mühakimələrdən də aydındır, axı sadə xalqın, həmçinin də kubar adlananların müxtəlif növləri var. Məsələn, sadə xalqın bir növü əkinçilərdir, digərləri – sənətkarlar, üçüncüsü – alqı-satqı ilə məşğul olan tacirlərdir, dördüncüsü – hərbi donanmada xidmət edən dənizçilər, kimi – ticarətlə, kimi – daşıma işləri ilə, kimi – balıqçılıqla məşğul olur. Bəzi yerlərdə bu növlərdən hər hansı biri olduqca çox olur, məsələn, Tarantedə və Bizansda balıqtutanlar, Afinada hərbi matroslar, Egində və Xiosda ticarət gəmilərində matroslar, Tenedosda bərəçilər. Xalqın bir-bir adları sayılmış hissələrinə günəmuzd işləyənlər də aiddir ki, bunlar da yaşamaq üçün yalnız cüzi vəsaitə malik olduqlarından işdən azad vaxtları olmur, daha sonra iki valideynindən biri vətəndaş olmayan azad adamlar və nəhayət, xalq kütləsinin digər bu kimi növləri. Kübarlar öz növbəsində var-dövlətlərinə, əsli-nəcabətliyinə, məziyyətinə, təhsilinə və bu kimi fərqli əlamətlərinə görə seçilirlər.

2. Demokratiyanın birinci adlanan formasının xarakter fərqi bərabərlikdən ibarətdir. Bərabərlik isə, bu demokratiyanın əsas qanununda deyildiyi kimi, ondan ibarətdir ki, nə yoxsullar, nə də varlılır heç bir şeydə üstünlüyə malik deyillər; ali hakimiyyət bunların, yaxud o birilərin əlində cəmləşməyib, ancaq bunlar da, onlar da bərabərdir. Əgər bəzilərinin hesab etdiyi kim azadlıq və bərabərlik demokratiyanın ən mühüm əlamətləridirsə, onda bu, əsas etibarı ilə hamının hökmən dövlət idarəçiliyində iştirak etməsilə həyata keçirilə bilər. Amma demokratiyada çoxluğu xalq təmsil etdiyindən, çoxluğun qərarı da həlledici əhəmiyyətə malik olur, bu cür dövlət quruluşu isə demokratiyadır. Beləliklə, demokratiyanın bir forması budur.

3. *Onun digər forması* – odur ki, beləsində fəzifə tutmaq çox da böyük olmayan əmlak senzilə şərtlənir, buna malik olanlar vəzifə başına keçməlidir, senzi itirənsə bu hüquqdan məhrum olur. Demokratiyanın üçüncü forması odur ki, beləsində törəndikləri vaxtdan şəksiz vətəndaş olan bütün şəxslərin vəzifə tutmağa haqqı var, hökm sürənsə qanundur. Demokratiyanın dördüncü forması – odur ki, beləsində hər kəs, təki o, vətəndaş olsun, vəzifə tutmaq hüququna malikdir, hökm sürənsə yenə qanundur. Demokratiyanın beşinci formasında bütün qalan şərtlər eynidir, lakin ali hakimiyyət qanuna yox, sadə xalqa

məxsusdur. 4. Bu, o vaxt olur ki, qanun deyil, xalq məclisinin qərarları həlledici əhəmiyyət kəsb edir. Bu, demaqoqlar vasitəsilə əldə edilir. Qanunun həlledici əhəmiyyət daşıdığı demokratik ölkələrdə demaqoqlara yer yoxdur, burada birinci yerdə ən yaxşı vətəndaşlar durur, lakin harda ki, ali hakimiyyət qanuna əsaslanmır, orada demaqoqlar peyda olurlar. Xalq onda bir tam hacimi-mütfəq sözün yaxınlaşdırmaq kimi çoxluqdan ibarət olan hakimi-mütləq olur: ali hakimiyyət çoxuna, hər kəsə ayrılıqda deyil, hamıya ancaq bir yerdə məxsus olur. Bəs Homer çoxhakimiyyətlik – xoşbəxtlik deyil deyəndə, çoxhakimiyyətliyin hansı formasını nəzərdə tuturdu, onumu, hansını ki, biz indicə göstərdik, yoxsa hakimiyyətin bir neçə adamın əlində cəmləşməsini, həm də nəzərə almaq lazımdır ki, şəxsən onlardan hər birinə bunun mənsub olması məlum deyil. 5. Bu halda sadə xalq hökmdar olaraq, hökmdar kimi də idarə etməyə cəhd göstərir (yaxud bu halda qanunun onlara gücü çatmır) və müstəbid olur (buna görə yaltaqlar da onun yanında uca tutulur), bu demokratik quruluş isə hər şeydən çox monarxiyanın əiahiddə formalarından olan istibdad üsul-idarəsini xatırladır; buna görə onlar mahiyyətcə eynidir: ifrat demokratiyada, istibdad üsul-idarəsi də ən yaxşı vətəndaşlarla zalımcasına davranır; bu cür demokratiyanın qərarları, istibdad üsul-idarəsində olan sərəncamlar kimidir. Bundan başqa demaqoqlar və yaltaqlar, əslində, eyni-eyni şeylərdir, yaxud hər halda bir-birinə bənzərdir; bunlar da, onlar da böyük qüvvəyə malikdir – yaltaqlar müstəbid üsul-idarəsində, demaqoqlar isə bizim təsvir etdiyimiz demokratiyada. 6. Onlar əsas rolun qanuna deyil, xalqın qərarlarına verilməsində təqsirkardırlar, zira demaqoqlar hər şeyi onun ixtiyarına buraxırlar. Belə çıxır ki, demaqoqlar ali hakimiyyətin xalqın əlində cəmləşməsi nəticəsində qüdrətli olurlar, onlar onun fikrinə də hakim kəsilirlər, çünki xalq kütləsi onların



sözünə baxır. Üstəlik, onlar vəzifəli şəxslərə qarşı ittiham qaldıranda deyirlər ki, bu axırıncıları xalq mühakimə etməlidir, o isə məmnuniyyətlə ittiham etməyi boynuna götürür, belə ki, bütün vəzifəli şəxslərin rolu heçə endirilir. 7. Yəqin ki, demokratiyanın bu cür formasını o, özündə dövlət quruluşunu təmsil etmədiyinə görə tamamilə sərgiləmək olar: harda ki, qanun hökm sürmür, orada dövlət quruluşu da yoxdur. Qanun hamı üzərində hökm sürməlidir; vəzifəli adamlara və xalq məclisinə isə xüsusi məsələlərin müzakirəsini təqdim etmək lazımdır. Beləliklə, əgər demokratiya dövlət quruluşu formalarından biridirsə, onda aydındır ki, bu vəziyyət, hansı ki, hər şey xalq məclisinin qərarları ilə həll olunur, həqiqi mənada demokratiya hesab edilə bilməz, yaxud heç bir qərar ümumi xarakter daşıya bilməz.

Demokratiyanın ayrı-ayrı formaları bax bu cür dürüstlüklə müəyyən edilməlidir.

V. 1. Oliqarxiyanın birinci formasının fərqli əlaməti aşağıdakından ibarətdir: vəzifə tutmaq o qədər böyük əmlak senzinin olması zəruriliyi ilə şərtlənir ki, çoxluq təşkil etmələrinə baxmayaraq, yoxsullar vəzifəyə buraxılmır. Axırıncılardan yalnız əmlak senzi əldə edə bilən, bunu mümkün edir. Oliqarxiyanın digər forması – odur ki, beləsində vəzifəyə keçmək yenə də böyük əmlak senzi ilə şərtlənir, həm də buna malik olanlar bəs etməyən vəzifəli şəxslərin yerini kooptasiya[5] yolu ilə doldurur; əgər bu, bütünlüklə bu cürə şəxslərlə görülürsə, onda belə quruluş, çox guman, incə aristokratiya xüsusiyyətinə malikdir, əgər ki, bunlar yalnız məhdud saydadırsa, onda oliqarxiyadır. Oliqarxiyanın üçüncü formasında oğul atasının yerinə vəzifəyə keçir. Dördüncü forma – indicə göstərilən şərtlər mövcud olan zaman və qanun deyil, vəzifəli şəxslər hökm sürən zaman olur; oliqarxiya quruluşunun bu forması – monarxiyadakı müstəbid üsul-

idarəsi kimidir, demokratiyada isə – bunu biz onun ifrat forması andandırmışdıq. Oliqarxiyanın bu cür formasını dinastiya adlandırırlar[6].

2. Oliqarxiyanın və demokratiyanın formaları bax bu qədərdir. Yaddan çıxarmaq lazım deyil ki, çox yerlərdə dövlət quruluşu oradakı qanunlara görə demokratik deyil, lakin hökm sürən adət-ənənəyə və bütün həyat tərzinə görə belədir. Digər dövlətlərdə eynilə bunun əksi olur: qanuna görə quruluş daha çox demokratikdir, amma həyat tərzinə və hökm sürən adət-ənənəyə görə daha çox oliqarxiyadır. Bu kimi şeylərə ən çox dövlət çevrilişlərindən sonra təzə quruluşa dərhal keçməyən zamanlarda təsadüf olunur, amma öncə xırda qarşılıqlı güzəştlərə üstünlük verirlər, belə ki, əvvəllər mövcud olan qanunlar öz qüvvəsində qalır, hakimiyyətə isə dövlət quruluşunu dəyişdirənlər yiyələnirlər.

3. Demokratiya və oliqarxiyanın formalarının bu qədər olması deyilənlərdən aydındır. Axı idarəetmədə mütləq ya xalqın bütün xatırlanan hissələri, ya da onlardan bir parası iştirak edir, digərləri – yox. Haçan ki, dövlət idarəçiliyinin başında əkinçilər və orta gəlirə malik olanlar durur, onda dövləti qanunlar idarə edir. Onlar zəhmətlə yaşamalıdır, çünki boş dayana bilmirlər; buna görə, qanunu hər şeydən üstün tutaraq, onlar yalnız vacib hallarda xalq məclisinə yığışırlar. Yerdə qalan vətəndaşlar dövlətin idarə edilməsində yalnız qanunun müəyyənləşdirdiyi əmlak senzini əldə etdikdən sonra iştirak edə bilərlər: bunu əldə edən hər kəsin dövlətin idarə edilməsində iştirak etməyə haqqı var. Həm də bu haqq əgər hamıya verilməsəydi, onda meydana oliqarxiya quruluşu çıxardı; madam ki, dolanışacaq üçün tezliklə vəsait olmayacaq, hamının vaxtının boş keçməsinə imkan vermək olmaz. Göstərilən səbəblər həm də demokratiyanın birinci formasının yaranmasına gətirib çıxarır. 4. Demokratiyanın ikinci forması, birincidən aşağıdakı əlamətlərilə fərqlənir: bütün adamlar, yəni mənşəyi şübhə doğurmayan vətəndaşlar idarəetmədə iştirak edə bilsələr də, hər halda yalnız boş vaxta malik olanlar iştirak edir; demokratiyanın bu formasında qanun hökm sürür, çünki lazımi boş vaxtın olması üçün gəlir kifayət etmir. Demokratiyanın üçüncü formasında dövlətin idarə edilməsində ata-anası kölə olmayanların hamısı iştirak edə bilər, lakin, əslində, yuxarıda göstərilən səbəbə görə hamı iştirak etmir, belə ki, demokratiyanın bu formasında istər-istəməz qanun hökm sürür. 5. İlkin dövrlərə nisbətən dövlətlərin çoxalması, həm də gəlirin artması nəticəsində xalq kütləsinin üstünlüyünə istinad etməklə və yoxsullara boş vaxtlarının olması üçün mükafat verməklə imkan yaradıldığına görə hamı dövlətin idarə edilməsində iştirak edir. Xüsusən də o asudə vaxtdan xalq kütləsinin bu cür növü istifadə edir, öz şəxsi qayğıları bununla belə onlara maneçilik törətmir, halbuki varlılara başağrısı gətirən, məhz budur, belə ki, onlar xalq məclislərində və məhkəmə araşdırmalarında iştirak etmirlər. Burdan da o baş verir ki, dövlətə rəhbərlik edilməsində ali hakimiyyət qanuna deyil, yoxsullar kütləsinə mənsub olur. Dövlətin formaları bax bu qədərdir və göstərilən labüd səbəblərə görə onlar bu cürdür.

6. Oliqarxiyanın formaları aşağıdakılardır. Birinci forma – beləsində çoxluğa məxsus xüsusi mülkiyyət, həddindən artıq deyil, orta həddə olur; sahibkarlar bunun nəticəsində dövlətin idarə edilməsində bulunmağa imkan qazanırlar, amma bir halda ki, belə adamlar sayca çoxdur, onda ali hakimiyyət istər-istəməz adamlara deyil, qanuna məxsus olur. Axı onlar monarxiyadan nə qədər uzaqdırlarsa, o dərəcədə də, – əgər onların mülkiyyəti o qədər çox deyilsə ki, onlar qayğılanmadan asudə buluna bilsinlər, həm də dövlət təminatlarına ehtiyacları olan qədər az deyildirsə – onlar labüdən tələb edəcəklər ki, onlarda,

onların özləri deyil, qanun hökm sürsün. 7. Oliqarxiyanın ikinci formasında: mülkiyyətə sahib olan adamların sayı, oliqarxiyanın birinci formasında olan adamların sayından azdır, lakin mülkiyyətin özü böyükdür; bu sahibkarlar böyük qüvvəyə malik olmaqla, böyük də tələblər irəli sürürlər; buna görə onlar yerdə qalan vətəndaşların içərisindən idarə etməyə buraxılanları özləri seçirlər; lakin onlar qanuna məhəl qoymadan idarə etmək üçün hələ o qədər də güclü olmamalarına görə, özlərinə münasib olan qanun təsis edirlər. 8. Əgər sahibkarların sayının azalması nəticəsində vəziyyət daha da gərginləşirsə, mülkiyyət isə çoxalırsa, onda oliqarxiyanın üçüncü forması meydana çıxır – bütün vəzifələr sahibkarların əlində cəmləşir, həm də qanun tələb edir ki, onların ölümündən sonra oğlanları vəzifələrdə varis kimi onların yerini tutsunlar. Onlar çox böyük mülkiyyətə sahib olduqda özlərinə də çoxlu tərəfdar qazanırlar və onda qanun deyil, adamlar hakim olur – bu da oliqarxiyanın demokratiyanın ifrat formasına müvafiq olan dördüncü formasıdır.

9. Demokratiya və oliqarxiyadan başqa dövlət quruluşunun daha iki forması var. Onlardan birini – həm də biz bu barədə yuxarıda danışmışdıq – dövlət quruluşunun dörd formasından biri kimi hamı qəbul edir. Həmin dörd forma bunlardır: monarxiya, oliqarxiya, demokratiya və aristokratiya adlanan quruluş. Dövlət quruluşunun beşinci forması, ümumiyyətlə, dövlət quruluşunu ifadə edən adı daşıyır – onu sadəcə olaraq politiya adlandırırlar. Bu formaya tez-tez rast gəlinmir, buna görə də onu o adamlar nəzərdən qaçırır ki, onlar dövlət quruluşunun ayrı-ayrı formalarını sadalamaqla öz vəzifələrini bitmiş hesab edirlər; onların bu hesabı Platon kimi yalnız dörd forma ilə məhdudlaşır[7].

10. O dövlət quruluşu formasını tam qətiyyətlə aristokratiya adlandırmaq olar ki, bələsi haqqında söhbət yuxarıda göstərilən mühakimələrdə getmişdi. Yəni: o dövlət quruluşu formasını haqlı olaraq aristokratiya hesab etmək olar ki, məziyyət nöqteyi-nəzərindən, bələsini şübhəsiz, ən yaxşı xadimlər idarə edir, daha bəzi zəminlərdə qəhrəman olanlar yox; axı yalnız bu dövlət quruluşu formasında yaxşı xadimlə yaxsı vətəndaş – bir tutulur, halbuki qalanlarında yaxşılar həmin dövlət quruluşuna uyğun gəlməlidir. Hər halda oliqarxiyadan və politiya adlanan quruluşdan fərqlənən və aristokratiya adlandırılan dövlət quruluşu formaları da mövcuddur. Bunlar elə formalardır ki, bələsində vəzifəyə seçilmək təkcə var-dövlətlə deyil, həm də yüksək mənəvi keyfiyyətlərlə şərtlənir **(aristindēn)**.

11. Dövlət quruluşunun bu forması hər ikisindən seçilir və aristokratiya adını daşıyır. Zira o dövlətlərdə də, hansılarda kı, ümumiyyətlə, vətəndaşların məziyyətinə xüsusi tələb irəli sürülmür, hər halda yaxşı adından və təmiz adam kimi tanınmasından istifadə edənlərə rast gəlinir. Harda ki, dövlət quruluşu həm var-dövləti, həm məziyyəti, həm xalqı hesaba alır, məsələn, Karfagendə olduğu kimi, bu elə aristokratiya quruluşunun özüdür ki, var; harda göstərilən şərtlərdən yalnız ikisi, yəni vətəndaşın məziyyəti və xalq hesaba alınırsa, məsələn, Lakedemon dövlətində olduğu kimi iki formanın – demokratiyanın və məziyyətə əsaslananın qarışığı meydana çıxır. Beləliklə, aristokratiya quruluşunun birinci və daha mükəmməl formasından başqa göstərilən daha iki müxtəlif forması var; üçüncü isə politiya adlanan formadır ki, bu da daha çox oliqarxiyaya təmayüllüdür.

VI. 1. Bizə hələ politiya adlanan formadan və istibdad üsul-idarəsi haqqında danışmaq qalır. Politiyanı bura daxil etsək də aristokratiyanın indicə xatırlanan müxtəlif formaları kimi o da yayınanlardan deyil. Doğrusunu desək, dövlət quruluşunun bütün formaları onların içərisində olan ən düzgünündən[8] yayınır, lakin axırıncını, adətən, aristokratiyanın formaları ilə bə-

rabər qarışıq salırlar; biz öz mühakiməmizin əvvəlində dediyimiz kimi bununla və aristokratiya ilə müqayisədə artıq digər dövlət quruluşu formaları yayınır. Lap axırdasa müstəbid üsul-idarəsini xatırlamaq tamamilə məntiqə uyğun olardı, çünki dövlət quruluşuna tətbiq edilməyə ən qeyri-münasib odur. Bizimsə məqsədimiz, məhz dövlət quruluşu formalarını araşdırmaqdır. Təklif etdiyimiz təsnifatı əsaslandırmaq üçün biz politiyanı müzakirə etməliyik.

2. Oliqarxiya və demokratiyanın xarakteri müəyyənləşdikdən sonra onun mahiyyəti daha çox aydınlaşacaq. Sadəcə desək, politiya elə bil ki, oliqarxiya və demokratiyanın qarışığıdır. Demokratiya təmayüllü dövlət quruluşu formalarını, adətən, politiya, oliqarxiya təmayüllüləri isə aristokratiya adlandırırlar, çünki böyük əmlak sahibi olanlar hər şeydən öncə daha elmli və əsli-nəcabətli olurlar. Üstəlik, qanun pozuntuları nəyə görə olursa, varlı adamlar artıq ona malikdir; həm də təkcə bunun özü belə adamların yaxşı və kübar adlanmasına bəraət verir.

3. Aristokratiya quruluşu dövlətdə vətəndaşların ən yaxşılarına üstünlük verməyə cəhd etdiyindən, deyirlər ki, oliqarxiyada da əksəriyyət hər cəhətdən mükəmməl olan adamlardan ibarətdir. Bundan başqa, ümumiyyətlə, ən yaxşıların deyil, yaramaz adamların idarə etdiyi dövlətin abad olması nə isə tamamilə mümkün olmayan iş kimi görünür, necə ki, yaxşı qanunlara malik olmayan dövlətin ən yaxşı adamlar tərəfindən idarə edilməsi mümkün deyil; axı qanunçuluq ondan ibarət deyil ki, qanunlar yaxşıdır, ancaq onlara heç kəs əməl etmir. Buna görə qanunçuluğun bir formasının ondan ibarət olduğunu mümkün hesab etmək olar ki, mövcud qanunlara əməl olunur, digəri – ondan ibarətdir ki, saxlanılan qanunlar çox gözəl tərtib edilmişdir (axı pis tərtib edilmiş qanunlara da əməl etmək olar). Burada *iki hal mümkündür*: dövlətlər ya onlar üçün mümkün olan ən yaxşı qanunlara tərəfdar olur, ya da sözün əsl mənasında ən yaxşılara. 4. Aristokratiya *quruluşunun mahiyyəti, çox güman*, ondan ibarətdir ki, onda imtiyazlar məziyyətə uyğun surətdə bölüşdürülür, axı aristokratiyanın əsasını məziyyət, oliqarxiyanın əsasını – var-dövlət, demokratiyanın əsasını – azadlıq təşkil edir. Çoxluğun qərarının ali qüvvəyə malik olması isə dövlət quruluşunun bütün formalarına xasdır, dövlət idarəçiliyində bulunanların əksəriyyəti nə qərar çıxarırsa, bu da həm oliqarxiyada, həm aristokratiyada, həm demokratiyada qanun kimi qüvvəyə minir. Beləliklə, əksər dövlətlər varlılarla yoxsulları, istedadlılarla azad adamları qarışdırdığından öz dövlətlərinin *quruluş formasının əlaməti kimi iftixarla* politiyanı qabağa çıxarırlar, axı bəlkə də əksəriyyətin gözünə varlılar hər cəhətdən mükəmməl olan adamlar kimi görünür. 5. Dövlət quruluşunda üç əsas prinsip – azadlıq, var-dövlət, məziyyət eyni əhəmiyyət daşıdığından (dördüncüsü – əsli-nəcabətdir – bu, iki axırıncı ilə yanaşı durur, axı nəciblik qədimlərdə olan rəşadət və var-dövlətin özüdür ki, var), onda aydındır ki, beləsi iki əsasın – varlıların və yoxsulların qarışığından ibarətdir, üç əsas prinsipin qarışığını isə digər dövlət quruluşu formalarından üstün olan, yalnız onun həqiqi və birinci formasını istisna etməklə aristokratiya adlandırmaq lazımdır.

Biz dedik ki, monarxiya, demokratiya və oliqarxiyadan başqa digər dövlət quruluşu formaları da mövcuddur, onların mahiyyətini, həm də aristokratiyanın formalarının bir-birindən nə ilə fərqləndiyini və politiyanın aristokratiyadan nə ilə fərqləndiyini göstərdik; aydındır ki, politiya və aristokratiya bir-birindən uzaqda deyil.

VII. 1. Politiya adlanan quruluş demokratiya və oliqarxiya ilə bərabər necə meydana çıxır və bu quruluş necə olmalıdır, –

biz bu barədə bilavasitə xülasəmizdən sonra danışacayıq. Bununla bərabər demokratiya və oliqarxiyanın fərqli əlamətləri də aydın olacaq. Hər şeydən öncə bu dövlət quruluşu formalarını dürüst müəyyənləşdirmək lazımdır, sonra isə onların hər birinin yarısından götürüb, bir yerə qoymaqla – qonaqcıllığın əlamətlərilə[9] hərəkət edilən kimi etmək lazımdır.

2. Birləşmənin və qarışmanın üç forması var. Yaxud oliqarxiya və demokratiyada mövcud olan qanunları, heç olmasa, məsələn, mühakimə üsuluna aid olanı götürmək lazımdır. Oliqarxiyada məhkəmə öhdəliklərini icra etməkdən yayınan varlılara pul cəriməsi qoyulur, yoxsullara isə bunu yerinə yetirməyə görə heç bir mükafat çatmır; demokratiyalarda yoxsullar mükafatlandırılır, ancaq varlılara da cərimə qoyulmur. Bu qanunlardan həm demokratiyaya, həm oliqarxiyaya xas olan ümumisi və babatı, həm də bunun və o birinin qanunlarının qarışığı politiyanın fərqli əlaməti olacaq. Birləşmə üsullarından biri bax budur. 3. İkinci üsul oliqarxiya və demokratiyaya məxsus olan senzə dair qərarların arasındakı ortababını, tutak ki, xalq məclisində iştirak etməyi götürməkdən ibarətdir. Demokratiya quruluşunda, burada iştirak etmək üçün əmlak senzi ya qətiyyən tələb olunmur, ya da bu tələb tamamilə cüzi olur, oliqarxiya quruluşu, əksinə, yüksək senz tələbi irəli sürür. Burada ümumi əlamətlər yoxdur, orta senzi göstərilən bu ikisinin arasından götürmək olar. Birləşmənin üçüncü üsulunda qərarların bir hissəsini oliqarxiya qanunlarından, digər hissəsini isə demokratiya qanunlarından götürmək olar. Mən aşağıdakını nəzərdə tuturam: demokratiyanın əsas prinsiplərindən biri vəzifələrə adam təyin edilməsinin püşk yolu ilə, oliqarxiyanın isə – seçki yolu ilə olmasıdır, həm də demokratiyada bu təyinat əmlak senzi ilə şərtlənmir, oliqarxiyada isə bu şərtlə bağlıdır. Deməli, vəzifələrə adam təyin edilməsi işində oliqarxiya və demokratiyanın hərəsindən bir fərqli əlaməti, yəni oliqarxiyadan – vəzifəyə adam təyin edilməsinin seçki yolu ilə olmasını, demokratiyadan isə bu təyinatın əmlak senzi ilə şərtlənməməsini götürsək, aristokratiya və politiyanın fərqli əlamətini üzə çıxara bilərik. Beləliklə, qarışmanın üsullarından biri də bax budur. 4. Demokratiya və oliqarxiyanın bu cür qarışmasının yaxşı olmasının göstəricisi odur ki, dövlət quruluşunun eyni bir formasını həm demokratiya, həm də oliqarxiya adlandırmaq olsun. Bu iki göstərilәndən faydalananlar aydın hiss edir ki, onlarda çox gözəl qarışma ifadə olunur; həm də bü cür qarışma məhz ortababdan ibarətdir, çünki iki bir-birinə müqabil tərəflər yerini onda tapır.

Bu da, məhz lakedemon dövlət quruluşu üçün xarakterikdir. 5. Çoxları sübut etməyə çalışır ki, o, demokratikdir, çünki onun qaydaları demokratiyanın bir çox cizgilərini özündə daşıyır, hər şeydən öncə də uşaqların tərbiyəsi işində: varlıların uşaqları da, yoxsulların uşaqları yaşadığı şəraitdə yaşayır, həm də elə tərbiyə alırlar ki, beləsini yoxsulların uşaqları ala bilsin. Eyni şey həm gənclik, həm də yetkin yaşlarında davam edir – onda da varlılar və yoxsullar bir-birindən heç nəylə seçilmir: sissitiyalarda yemək hamı üçün eynidir, varlılar elə paltar geyinir ki, beləsini hər bir yoxsul özünə hazırlaya bilər. Həm də xalq iki ən mühüm vəzifədən birinə seçir, digərində isə özu iştirak edir: herontları onlar seçirlər, eforatların isə bir hissəsini xalq özü təşkil edir. Digərlərinin fikrincə, lakedemon dövlət quruluşu, oliqarxiyanın çox cizgilərinə malik olduğundan özündə oliqarxiyanı təmsil edir, misal üçün, bütün vəzifələrə adam seçki yolu ilə təyin edilir və püşklə təyin edilmiş bir adam belə yoxdur; bundan başqa edam qərarı çıxarmağa, sürgün etməyə və bu kimi çox şeylərə yalnız bəzi adamların haqqı çatır[10].

6. Əlbəttə, lazımdır ki, gözəl qarışdırılmış dövlət quruluşunda hər iki əsas prinsip ayrı-ayrılıqda deyil, bir yerdə təmsil olun-

olmağa nail ola bilər. 3. Belə bir ölçü xeyirxahlıq üçün qoyulduğu kimi, dövlət və onun quruluşu üçün də mütləq qoyulmalıdır: axı dövlətin quruluşu ki, var – bu, onun həyatıdır.

Hər bir dövlətin üç hissəsi var: çox varlı olanlar, həddindən artıq yoxsul olanlar, bunların və o birilərin arasında olan ortabablar. Orta və ortababın ən yaxşı kimi hamı tərəfindən qəbul edilməsi, orta firavanlığın da bütün rifahlar içərisində ən yaxşı olduğunu aydınlaşdırır. 4. Bu, olduqda ağılın dəlillərinə qulaq asmaq asan olur; əksinə, bu dəlillərdən nəticə çıxarmaq özünün ictimai vəziyyətinə görə ən yaxşı, ən güclü, ən tanınmış, ən varlı adam üçün, yaxud tərsinə ən yoxsul, ən zəif, ən alçaldılmış adam üçün çətindir. Birinci tip adamlar çox həyasız və çox yaramaz olurlar. İkinci tir adamlar isə çox vaxt cani və alçaq olurlar. Cinayətlərin isə bir parası həyasızlıq, digərləri – alçaqlıq üzündən baş verir. Üstəlik, bu hər iki tip adamlar hakimiyyətdən yayınmayıb, səylə ona can atırlar, amma ki, o da, o biri də dövlətə ziyan gətirir. 5. Bundan başqa birinci tip adamlar bolluğa, firavanlığa, gücə, var-dövlətə, dostluq əlaqələrinə və bu kimi şeylərə malik olduqlarından tabeçilikdə bulunmaq istəmirlər, həm də bunu bacarmırlar. Bu da artıq evdə, uşaq yaşlarından müşahidə olunur. Cah-cəlal içərisində yaşayıb, ərköyün böyüdüldüklərindən onlar hətta məktəbdə də sözə qulaq asmırlar. Çox pis təmin olunduqlarından ikinci tip adamların davranışı son dərəcə acizanədir. Beləliklə, bir paraları hökm sürməyə iqtidarlı deyillər və yalnız o hakimiyyətin tabeçiliyində bulunmağı bacarırlar ki, beləsi ağalarda qullar üzərində meydana çıxır; digərləri isə heç bir hakimiyyətin tabeçiliyi altında bulunmaq iqtidarında deyillər, hökm sürməyi isə yalnız o cür bacarırlar ki, belə hökmranlığı ağalar qullar üzərində edir. 6. Azad adamlardan deyil, qullardan və ağalardan ibarət olan dövlət meydana çıxıır ki, burada da bəzilərinin içi paxıllıqla, digərlərininki nifrətlə doludur.



Bu cür hislər dostluqla başlamalı olan siyasi münasibətdə dostluq hislərindən çox uzaq olur. Bizim xatırlatdığımız adamlar isə öz rəqiblərilə, hətta bir yolda belə addımlamaq istəmir.

7. Dövlət hər şeydən çox ona cəhd edir ki, hamı onda bərabər və eyni olsun, bu isə ən çox ortabab adamlara xasdır. Beləliklə, əgər sadəcə olaraq dövlətin tərkibini nəzərə alsaq, biz iddia etdiyimiz kimi, istər-istəməz belə nəticə çıxır ki, ortabab adamlardan təşkil edilmiş dövlət ən yaxşı dövlət quruluşuna malikdir. Dövlətdə ən çox da bu vətəndaşlar salamat və toxunulmaz qalır. Onlar yoxsullar kimi özgə malına can atmırlar, qeyriləri isə yoxsullar varlıların əmlakına can atdıqları kimi, buna əl uzatmırlar. Həm də heç kəs onlara, onlar da heç kəsə qəsd hazırlamadıqlarından onların həyatı da əmin-amanlıqla keçir. Odur ki, Fokilid çox gözəl arzu söyləmişdir: «Ortabablar çox xoşbəxtdir, dövlətdə ortabab olmağı arzu edirəm»[12]. 8. Beləliklə, aydındır ki, ən yaxşı dövlət münasibəti ortababların vasitəsi ilə əldə olunur və ortababların çoxluq təşkil etdiyi dövlət yaxşı quruluşa malikdir, burda onlar – ən yaxşı halda hər iki ifratçılıqdan, yaxud hər halda onların hər birindən ayrı-ayrılıqda güclüdür. Bu, yaxud o biri ifratçılıqla birləşdikdə onlar tarazlığı təmin edirlər və rəqiblərin üstünlüyünə maneçilik törədirlər. Deməli, dövlət üçün ən böyük xoşbəxtlik ondan ibarətdir ki, onun vətəndaşları, kifayət dərəcədə olmaqla, orta mülkiyyət sahibi olsunlar; amma o halda ki, bəziləri çox şeyə sahibdirlər, digərləri isə heç nəyə malik deyillər, məhz qarşıdakı ifratçılığın təsiri ilə ya ifrat demokratiya, ya təmiz halda oliqarxiya, ya da istibdad-üsul idarəsi meydana çıxır. Axı istibdad üsul-idarəsi həm son dərəcə başlı-başına buraxılmış demokratiyadan, həm də oliqarxiyadan, xeyli az isə – ortabab dövlət quruluşu formalarından və bunlara oxşar olanlardan törəyir. Bunun səbəbləri barəsində biz sonra, dövlət çevrilişləri haqqında müzakirə aparan zaman danışacayıq.

9. Beləliklə, aydındır ki, ortabab dövlət quruluşu forması ən yaxşıdır, yaxud yalnız o, daxili çəkişmələrlə nəticələnmir; harda ki, ortabab vətəndaşlar çoxdur orada vətəndaşların qruplaşması və çəkişməsi daha az olur. Böyük dövlətlərdə də elə bu səbəbdən – məhz ona görə ki, onlarda ortabab vətəndaşlar çoxdur, – çəkişmələrə meyllik azdır; kiçik ölkələrdə isə əhali asanlıqla iki yerə bölündüyündən ortabablar üçün yer qalmır və demək olar ki, orada hamı ya yoxsul, ya da varlı olur. Öz növbəsində demokratiyalarda əmin-amanlıq oliqarxiyalara nisbətən daha çoxdur; Ortabab vətəndaşların olması sayəsində bunlar daha uzunömürlü olur (onlar çoxdür, həm də onlar oliqarxiyalara nisbətən, demokratiyalarda imtiyazlarla bilavasitə daha çox əlaqəlidir). Amma ortabab vətəndaşlar olmadıqda yoxsullar öz çoxluqları ilə üstünlük təşkil edirlər, dövlətsə uğursuzluğa düçar olur və məhvə doğru gedir.

10. Bizim irəli sürdüyümüz müddəanın sübutu üçün onu da göstərmək olar ki, ən yaxşı qanunvericilər orta dairədən olan vətəndaşlar arasından çıxmışdır: Solon (bu, onun şerlərindən görünür), Likurq (o çar olmamışdır), Harond və demək olar ki, yerdə qalanların əksər hissəsi oradan əmələ gəlmişdir. İndi nəyə görə dövlət quruluşunun əksər hallarda ya demokratiya, ya da oliqarxiya olması aydın olur. Ortababların dövlətdə çox vaxt az yer tutması nəticəsində, onları üstələyən ikisi – ya böyük əmlak sahibləri, ya da sadə xalq – orta vəziyyətdən uzaqlaşaraq dövlət quruluşunu öz tərəfinə çəkir, belə ki, ya demokratiya, yaxud oliqarxiya meydana çıxır. 11. Üstəlik, sadə xalqla varlılar arasında çəkişmə və mübarizə baş verdiyindən, onlardan hansı rəqibini üstələməyə müvəffəq olursa, onlar da ümumi olmayan və bərabərçiliyə əsaslanmayan bir dövlət quruluşu müəyyənləşdirir, qələbə isə kimin tərəfində olursa, onlar da qələbəyə görə mukafat olaraq dövlət quruluşunda üstünlük qazanır və bəziləri demokratiya qurur, digərləri – oliqarxiya. Yunanıstanda üstünlüyə malik olan həmin iki yunan dövləti də[13] digər dövlətlərdə öz dövlət quruluşlarına uyğun gələni, birisi – demokratiyanı, digəri – oliqarxiyanı tətbiq edirdi, bununla belə həmin iki dövlətin mənafeyi ilə deyil, yalnız öz şəxsi mənafeləri ilə hesablaşırdılar. 12. Göstərilən səbəblərdən ortabab dövlət quruluşuna ya heç vaxt rast gəlinmir, ya da bəzilərində nadir hallarda rast gəlinir. Yalnız bir xadim əvvələr başda durana qarşı çıxıb, bu quruluşu tətbiq etməyə özünü inandırdı[14]. Ümumiyyətləsə, dövlətlərdə belə bir qayda əmələ gəlmişdir: bərabərlik arzusunda olmamaq, ancaq ya hökm sürməyə səy göstərmək, ya da tabeçilikdə yaşayıb, buna səbrlə qatlaşmaq.

Hansı dövlət quruluşunun, hansı səbəbdən ən yaxşı olması deyilənlərdən aydındır.

13. Bizim tərəfimizdən ən yaxşı dövlət quruluşu müəyyən edildikdən sonra, yerdə qalan demokratiya və oliqarxiya quruluşlarının (onların formaları isə bizim təsdiq etdiyimiz kimi bir neçədir) ən yaxşı və ən pisdən nə qədər aralı olmasından asılı olaraq hansının ən yaxşının ardınca birinci yerə, hansının ikinci yerə və s. qoyulmasına baxmaq çətin deyil. Ən yaxşı dövlət quruluşu həmişə ən mükəmmələ yaxınlaşanı, ən pisi isə ortababdan daha çox uzaqlaşanı olacaq. Kiminsə bu məsələni bu və ya digər ilkin şərtlərdən asılı vəziyyətdə müzakirəyə çıxarması burada istisna edilir. Mən «bu və ya digər ilkin şərtlərdən asılı vəziyyətdə» ona görə deyirəm ki, bəzi dövlətlərin başqasının yerinə, özü-özlüyündə daha üstün digər quruluşdan, lakin onlar üçün xeyirli olan quruluşdan yararlanmasına çox vaxt heç bir maneə olmur.

X. 1. Baxılan məsələlərlə birbaşa bağlı olan bu məsələyə də baxmaq lazımdır: hansı dövlət kimin üçün münasibdir və

onun mahiyyəti nədir? Əvvəlcə, ümumiyyətlə, bütün dövlət quruluşu formaları üçün ümumi qaydanı müəyyənləşdirmək lazımdır: dövlətdə bu və ya digər quruluşun tərəfdarları onun əleyhdarlarından güclü olmalıdır. Hər dövlət keyfiyyət və kəmiyyət baxımından nəzərdən keçirilməlidir. Keyfiyyət adı altında mən azadlığı, var-dövləti, təhsili, əsli-nəcabəti nəzərdə tuturam; kəmiyyət adı altında – xalq kütləsinin sayca üstünlüyünü. 2. Elə ola bilər ki, dövləti təşkil edən hissələrdən biri kəmiyyət, digəri isə keyfiyyət üstünlüyünə malik olsun; belə ki, məsələn, əsli-nəsli məlum olmayan adamlar əsli-nəcabətli adamları üstələsinlər, yaxud yoxsullar varlıları üstələsinlər, bununla belə bu kəmiyyət üstünlüyü kübarların və varlıların keyfiyyət üstünlüyündən elə də böyük olmamalıdır. Buna görə bu iki üstünlüyü tarazlaşdırmaq lazımdır. Harda ki, yoxsulların sayı göstərilən nisbəti üstələyir, orada təbii olaraq demokratiya, yəni sadə xalqın bu və ya digər növünün üstünlüyündən asılı olaraq onun ayrı-ayrı formaları meydana çıxır, məsələn, əgər üstünlük əkinçilər kütləsinin tərəfində olacaqsa, onda demokratiya quruluşunun birinci forması meydana çıxacaq, amma harda üstünlük sənətkarların və günəmuzd işləyənlərin tərəfindədirsə, orada demokratiya quruluşunun ifrat formalarından biri meydana çıxacaq. Bu surətlə də digər aralıq formalar. 3. Harda ki, varlıların və kübarların yüksək nüfuzu onların sayca azlığını üstələyir, hər halda oliqarxiyaya hüsn-rəğbət bəsləyən əhalinin üstünlüyünə mütabiq olan oliqarxiya quruluşu, yəni onun müxtəlif formaları meydana çıxır. Qanunverici bu və ya digər dövlət quruluşunu yaratdıqda ortabab vətəndaşları həmişə özünə cəlb etməlidir: əgər o, oliqarxiyanın xarakterinə uyğun qanunlar çıxaracaqsa o, ortababları nəzərdə tutmalıdır; əgər qanunlar demokratiya ruhundadırsa o, ortababları buna öyrətməlidir. 4. Harda əhalinin ortabab hissəsi ya hər iki ifratçılıq üzərində, ya da onlardan birinin üzərində üstünlüyə malikdirsə, orada dövlət quruluşu sabitliyə ümid bəsləyə bilər; ortababların əleyhinə çıxmaq üçün varlılarla yoxsulların razılığa gəlməsi təhlükəsi ola bilməz; heç vaxt nə bunlar, nə də o birilər bir-birinin qulu olmağa razı olmazlar; əgər onlar elə bir vəziyyət yaratmağa səy göstərsələr ki, beləsi həm bunları, həm də o biriləri təmin etsin, onda onlar ortababdan başqa heç bir ayrı dövlət quruluşu tapa bilməyəcəklər. Bir-birinə qarşı olan inamsızlığa görə onlar növbə ilə idarə etməyə razı olmazlar. Bununla belə vasitəçilər hər yerdə böyük etimada malikdir, bu halda isə vasitəçilər ortabab adamlardır. Dövlət quruluşu da nə qədər çox qarışsa, bir o qədər möhkəm olacaq. 5. Əksər qanunvericilər, eyni zamada da aristokratiya quruluşunu təsis etməyi nəzərdə tutanlar, yalnız varlılara həddindən artıq üstünlük verdiklərinə görə deyil, həm də sadə xalqı nəzərə almamağa çalışdıqlarına görə müvəffəqiyyətsizliyə uğrayırlar. Axı zaman dəyişdikcə saxta düşünülmüş firavanlığın ardınca həqiqi hirs, qəzəb gəlir, dövlət quruluşunu da çox vaxt sadə xalqın deyil, varlıların acgözlüyü məhv edir.

6. Hesab edirlər ki, mövcud olan beş hiylə vasitəsilə dövlət idarə etməsində sadə xalqa yer əldə etmək mümkündür. Bunlar xalq məclisilə, vəzifələrlə, divanxanalarla, orduyla və gimnastika təlimlərilə əlaqədardır. Xalq məclisində iştirak etməyə hamının haqqı var, lakin varlıların üzərinə bundan yayındıqda pul cərimәsi qoyulur; bunu ya gərək yalnız varlılar özləri ödəsinlər, ya da onları zorla cərimələyirlər. Adamların vəzifəyə təyin edilməsi işində, müəyyən əmlak senzinə malik olanların bu vəzifələrdən imtina etməyə haqqı yoxdur, yoxsullar isə bu hüquqa malikdir. Hakim vəzifəsindən yayınan varlı adamlar üzərində cərimə qoyulur, yoxsullarsa bundan azaddır, yaxud Harondun qanunlarında olduğu kimi varlıların üzərinə böyük cərimə qoyulur, yoxsulların üzərinə – kiçik. 7. Bəzi ölkələrdə və-

təndaşların siyahısında olanların hamısı xalq məclisində və məhkəmədə iştirak etmək hüququ alır[15], lakin əgər onlar vətəndaşların siyahısına daxil edildikdən sonra, bu və digər vəzifələrin icrasından yayınsalar, onların üzərinə böyük pul cəriməsi qoyulur. Bu, bir tərəfdən onları cərimə qorxusu ilə vətəndaşların siyahısına yazılmağa qoymamaq məqsədilə edilir; digər tərəfdən – əgər onlar vətəndaşların siyahısına yazılmasalar, onda məhkəmədə və xalq məclisində iştirak etmək hüququndan məhrum olacaqlar. Bu, eynən qanun əsasında silah gəzdirmək hüququna və gimnastika təlimlərində iştirak etməyə də aiddir: yoxsullara silah əldə etməməyə icazə verilir, varlılar isə əgər bunu əldə etməsələr cərimə olunurlar. Gimnastika təlimlərindən yayınan yoxsullara heç bir cərimə qoyulmur, varlılar isə cərimə ödəyirlər ki, bəziləri cərimənin qorxusundan gömnastika təlimlərində iştirak etsinlər, digərləri isə, hansılar ki, onları heç bir təhlükə gözləmir, bunda iştirak etməsinlər. Bunların hamısı – qanunlar sahəsində oliqarxiyanın hiylələridir.

8. Demokratiyalarda bu hiylələrə qarşı digərləri qoyulur: xalq məclisində və məhkəmədə iştirak etmək üçün yoxsullara mukafat verilir, varlıların üzərinə isə heç bir cərimə qoyulmur. Bu halda kim düzgün qarışma istəyirsə, yəqin bu iki qaydanı birləşdirməlidir: vəzifələrini yerinə yetirdiklərinə görə bir paralarını mükafatlandırmaq, digərlərini bunlardan yayındıqlarına görə cərimə etmək, ona görə ki, yalnız bu halda hamı dövlət həyatında iştirak edər. Əks təqdirdə onu yalnız bir para adam idarə edəcək. Bununla belə dövlətin idarə edilməsi ancaq o adamlara aid olmalıdır ki, onların öz hesablarına silah əldə etməyə mümkünatları olsun; o ki, qaldı əmlak senzinə, onun kəmiyyət ölçüsünü müəyyənləşdirmək mümkün deyil, hər halda işi elə təşkil etmək olar ki, bu senz mümkün qədər daha yüksək olsun, amma bununla bərabər belədə də dövlət idarəetməsində



iştirak edə bilən adamların sayı, yenə bu hüquqdan məhrum olanların sayını üstələyəcək. 9. İş bundadır ki, yoxsullar imtiyazlardan məhrum olsalar da, əgər onlara heç kim toxunmasa və o şey ki, onlara məxsusdur, onu onlardan almasa, yenə də yerlərində dinc durarlar. Lakin bu işi təşkil etmək – çətin məsələdir, çünki idarə edənlər həmişə incə adamlar olmurlar. Hərb zamanları yetişdikdə, yoxsullara pul verilməsə, onlar bir qayda olaraq buna laqeyd qalırlar, bu vəsaiti onlara verdikdə isə onlar gedib vuruşmağa hazırdırlar.

10. Bəzi dövlətlərdə bərabər hüquqlu vətəndaş hesab edilənlər yalnız hal-hazırkı dövrdə ağırsilahlı qoşunda xidmət göstərənlər deyil, həm də artıq xidmət möhləti bitmiş adamlardır. Məsələn, malaylarda bərabər hüquqlu vətəndaşlar məhz belələri olurdu, vəzifəli şəxsləri isə yalnız həqiqi hərbi qulluq keçənlərdən seçirdilər. Yunanıstanda da monarxiya quruluşu aradan qaldırıldıqdan sonra ilk zamanlar bərabər hüquqlu vətəndaşlar hərbçilər, yəni öncə – süvarilər olmuşdu, bu onunla izah olunur ki, o vaxt müharibədə güc və üstünlük atlı qoşununda idi, ağırsilahlı piyadalar isə düzgün təşkil edilmədiyindən səmərəsiz idi: piyada qoşununu təşkil etmək işi üzrə təcrübə və taktika qaydalarının hazırlanması keçmiş adamlarda yox idi, buna görə elə zənn edirdilər ki, bütün güc atlı qoşundadır. Dövlətlərin artması ilə ağırsilahlı piyada qoşun da böyük əhəmiyyət kəsb etməyə başladı, bu isə dövlət idarəçiliyində çoxlu vətəndaşın iştirak etməsinə səbəb oldu. Bax buna görə keçmişdəkilərin demokratiya adlandırdıqları dövlət quruluş formalarını biz indi politiya adlandırırıq. 11. Əslində isə, arxaistik[16] dövlət quruluşu formaları oliqarxiyaya və monarxiyaya aiddir. Adam azlığı nəticəsində onlarda əhəmiyyətli dərəcədə az, ya çox sayda ortabab vətəndaş yox idi; sayca az və qeyri-mütəşəkkil olduqlarından onlar tabeçilikdə bulunmağa daha meylli idilər.

İndi biz dövlət quruluşunun bir neçə formasının mövcud olmasının səbəbini bildik; bilirik, nəyə görə biz göstərdiklərimizdən başqa digər formalar da mövcuddur (axı demokratiyalar kimi, digərləri də bir formadan ibarət deyil); bilirik, bunlar arasındakı fərqlər nə cürdür və bunlar nə ilə izah olunur; üstəlik, bilirik, hansı dövlət quruluşu forması ən yaxşı hesab edilməlidir və o birilərdən hansı forma hansı dövlətlərə daha çox uyğun gəlir.

XI. 1. Biz ilkin səbəbləri müəyyənləşdirdikdən sonra, indi təzədən dövlət quruluşunun hər bir formasının əsasını təşkil edən ayrı-ayrı hissələrin həm ümumi, həm də əsaslı surətdə müzakirəsinə qayıdaq. Hər dövlət quruluşunun üç əsas hissəsi var; dəyərli dövlət xadimi bunlarla hesablaşıb, hər bir dövlət quruluşu üçün bunlardan fayda hasil etməlidir. Dövlət quruluşunun əla vəziyyətdə olması, bu hissələrin çox yaxşı vəziyyətdə olmasından asılıdır; həm də dövlət quruluşunun ayrı-ayrı formalarının bir-birindən fərqli olmasına, bu hissələrdən hər birinin müxtəlif quruluşa malik olması səbəb olur. Həmin üç hissə bax budur: birinci – dövlət işlərinə baxıb, qanun layihələrini müzakirə edən orqan, ikinci – vəzifələr (yəni, ümumiyyətlə, hansı vəzifələr olmalıdır, onlar nəyə nəzarət etməlidir, onlara adam təyin edilməsi üsulu neçə olmalıdır), üçüncü – məhkəmə orqanları.

Qanun layihələrini müzakirə edən orqan hərb və sülhə dair, ittifaqların bağlanması və ləğv edilməsinə dair, qanunlara dair, ölüm cəzasına dair, sürgünə dair, əmlakın müsadirə edilməsinə dair, vəzifəli şəxslərin seçilməsinə və onlardan hesabat alınmasına dair məsələlərin həll edilməsində səlahiyyətlidir. 2. Bütün bu kimi işlərin həlli ya bütün vətəndaşlara, ya da onların bir qisminə həvalə edilə bilər (məsələn, hansısa bir, yaxud bir neçə vəzifəli şəxsə), yaxud da bəzi məsələlərin həll edilməsi bütün vətəndaş heyətinə, digərlərinin həlli isə – onun bir qisminə təqdim oluna bilər. Demokratiyanın əsas prinsipi ondan ibarətdir ki, bütün məsələləri bütün vətəndaşlar həll edirlər, çünkü demokratiya elə bu cür bərabərliyə can atır.

3. Əgər qərarı hamı çıxarırsa, onda bu bir neçə üsulla həyata keçirilə bilər. Biri bundan ibarətdir ki, qərar çıxarmaq tam heyətlə hamının öhdəsinə buraxılmır, lakin onlar arasında məlum ardıcıllığa riayət olunur; Miletli Telaklın[17] dövlət quruluşu belədir. Digər dövlət quruluşlarında da vəzifəli şəxslər bir yerə yığışıb, məsləhətləşirlər, vəzifələrə isə fil qaydasında və hətta daha kiçik vətəndaş icması bölmələrindən, ta ki, hamı keçənə qədər, bütün vətəndaşlardan növbə ilə adam təyin edilir; vətəndaşlar məsləhətləşməyə tam heyətlə onda yığışırlar ki, bu vaxt söhbət qanuna dair məsələlərdən və dövlət quruluşunun özünə aid məsələlərdən, habelə vəzifəli şəxslərin sərəncamlarına qulaq asmaqdan gedir. 4. Digər üsul bundan ibarətdir ki, onlar bir yerdə məsləhətləşirlər, lakin yalnız vəzifəli şəxslərin seçilməsində, qanuna, hərbə, sülhə və hesabatın qəbul edilməsinə dair məsələlərdə bir-birilə düz gəlirlər, bütün qalan hallarda isə, bütün vətəndaşlardan seçki yolu ilə, yaxud püşk vasitəsi ilə hər bir sahəni xüsusi olaraq idarə etmək üçün təyin olunmuş vəzifəli şəxslər fəaliyyət göstərir. Üçüncü üsul: vətəndaşlar vəzifəli şəxsləri seçmək və hesabatları qəbul etmək xüsusunda, həm də hərb və ittifaqlar barədə məsləhətləşmək üçün yığışırlar; digər işləri mümkün olan dərəcədə seçki yolu ilə təyin edilən vəzifəli şəxslər idarə edir, bu da ələlxüsus o qulluğa gedənlər üçün lazımdır ki, beləlləri öz əhatəsində olanlardan xüsusi bilik tələb edir.

5. Dördüncü üsul ondan ibarətdir ki, bütün vətəndaşlar birgə yığıncaq keçirib, dövlətin bütün işlərini əhatə edən məsələlər haqqında məsləhətləşirlər; vəzifəli şəxslər heç bir məsələyə dair qərar çıxara bilməsələr də, amma qabaqcadan öz

rəylərini bildirirlər. Bu axırıncı üsul hal-hazırkı dövrdə ifrat demokratiyada tətbiq olunur ki, bunlar da, bizim fikrimizcə, oliqarxiyanın dinastiya və monarxiyanın istibdad-üsul idarəsi formalarına uyğun gəlir.

Bütün bu üsullar demokratiya quruluşuna xasdır. 6. Əgər ki, qanun layihələrini müzakirə edən hakimiyyət bütünlüklə yalnız bir neçə nəfərin əlində cəmləşibsə, onda bu, artıq oliqarxiya quruluşuna xarakter əlamətdir. Burda da bir neçə müxtəlif üsul var. Əgər xatırlanan bir neçə nəfərin seçilməsi, vətəndaşların çox hissəsinin seçilməyə aidiyyatı olması sayəsində çox və ya az surətdə orta əmlak senzilə şərtlənirsə, əgər qanunda yazılanlara riayət edilərək, qanunun qadağa qoyduğu işlərə yol verilmirsə və əgər senzə malik olanlar qanun layihələrini müzakirə edən hakimiyyətə buraxılırsa, onda ortabab olması ilə fərqlənən bu cür oliqarxiya politiyaya yaxınlaşır. Haçan ki, qanun layihələrini müzakirə edən hakimiyyətdə iştirak etmək hüququ hamıya deyil, yalnız seçilmişlərə məxsusdur, lakin onlar da birinci halda olduğu kimi idarə edirlər, qanunla, onda bizim işimiz həqiqi mənada oliqarxiya ilədir. Əgər qanun layihələrini müzakirə edən hakimiyyətə sahib olan şəxslər, oğul atanın yerini tutduqda və onlar qanundan yüksəkdə durduqda, öz heyətlərini kooptasiya yolu ilə öz içərilərindən artırırsa, onda bu cür quruluş ifrat oliqarxiya hesab edilməlidir. 7. Əgər qanun layihələrini müzakirə edən hakimiyyət bəzi işlərdə, məsələn, hərb, sülh, vəzifəli şəxslərin hesabatı kimi məsələlərdə hamıya, qalan işlərdə isə – vəzifəli şəxslərə məxsusdursa və vəzifələrə də püşk atmaq yolu ilə deyil, seçki yolu ilə adam təyin edilirsə, onda bu dövlət quruluşu aristokratiyadır. Əgər ki, vəzifəli şəxslər bəzi işlərə seçki ilə, digərlərinə – püşklə təyin edilirsə (axırıncı halda ya bilavasitə püşkə görə, ya da əvvəlcədən irəli sürülmüş namizədlər püşkə görə), yaxud əgər vəzifəyə adam təyin edilərkən



həm seçki, həm də püşk birlikdə tətbiq edilirsə, bu halda bizim işimiz həqiqi mənada qismən aristokratiya, qismən politiya ilədir.

Qanun layihələrini müzakirə edən hakimiyyət dövlət quruluşu formalarından asılı olaraq bax bu cür paylaşdırıla bilər və hər bir dövlət quruluşunun idarə edilməsi göstərilən paylaşdırmaya uyğun olaraq baş verir. 8. Demokratik quruluşdan ötrü, adətən, indiki dövrdə onu başa düşdükləri kimi (mən elə demokratiyanı nəzərdə tuturam ki, burada xalqın ali hakimiyyəti hətta qanundan da üstündür), qanun layihələrini müzakirə edən hakimiyyətin daha yaxşı təşkil edilməsi məqsədilə ona oliqarxiyalarda divanxanalar xüsusunda həyata keçirilən üsulun tətbiq edilməsi faydalı olardı. Yəni: orada hakim görmək istədikləri adamları pul cəriməsi qorxusu altında hakim vəzifələrini icra etməyə məcbur edirlər, halbuki demokratiyalarda yoxsullara muzd verirlər. Xalq məclisi xüsusunda da belə etmək lazımdır: onda hamı – sadə xalq kübarlarla, axırıncılar isə xalq kütləsi ilə – birgə məsləhətləşmə apararaq məsələləri daha yaxşı müzakirə edər. Həmçinin müzakirələrdə seçki, yaxud püşk yolu ilə əhalinin bütün vətəndaş hissəsinin bərabər nisbətdə iştirak etməsi faydalıdır. Həhayət, sadə xalq nümayəndələrinin, siyasi fəaliyyət göstərmək üçün hazırlanmış şəxslər üzərində sayca üstünlük təşkil etdiyi hallarda, mükafatların hamıya deyil, yalnız onların kübarların sayına uyğun gələn miqdarına verilməsi faydalı olardı, yaxud o qrupa ki, beləsi sayca üstünlüyə və ya artığa malikdir, onu püşklə kənar edəcəklər. 9. Oliqarxiyalarda ya seçki yolu ilə xalq kütləsi içərisindən məlum sayda adam artırmaq lazımdır, ya da elə vəzifə təsis edilməlidir ki, beləsi bəzi dövlətlərdə mövcuddur, – probullar və nomofilaklar[18] – həm də yalnız o işləri müzakirəyə çıxarmaq lazımdır ki, həmin işlər haqqında onlar öz rəylərini qabaqcadan təqdim etmiş olsunlar. Bu qayda ilə qanun layihələrini müzakirə edən hakimiyyətdə

xalq özünün iştirak payını alacaq və dövlətdə nəyi isə ləğv etmək imkanından məhrum olacaq, xalqın çıxardığı qərar onda ya probulların və nomofilakların qərarı ilə tamamilə uyğunlaşdırılacaq, ya da irəli sürülmüş qanun layihəsinə heç bir şeylə zidd olmayacaq. Eyni zamanda hamıya məşvərətçi səsə malik olmaq imkanı vermək olar, həlledici səs isə – yalnız vəzifəli şəxslərə verilməlidir. 10. Ümumiyyətlə isə politiyalarda[19] müəyyən edilmiş qaydaların əksinə hərəkət etmək lazımdır: xalq kütləsinə təklif olunan qanun layihələrini qəbul etməmək hüququ verilməlidir, daha müstəqil surətdə onları irəli sürmək hüququ yox, – qəbul olunmayan qanun layihəsi yenidən vəzifəli şəxslərə qaytarılmalıdır. Politiyalarda isə əksinə hərəkət edirlər: qanun layihələrini qəbul etməmək hüququna bir para adam malikdir, bunları irəli sürməyə isə onların hüququ yoxdur; axırıncı həmişə daha çox böyük məclisə məxsusdur.

Dövlətdə başlıca hakimiyyət olan qanun layihələrini müzakirə edən hakimiyyət haqqında bizim fikrimiz bax budur.

XII. 1. Vəzifələrin bölüşdürülməsinə dair məsələ bilavasitə yuxarıda göstərilənlərlə əlaqədardır. Həm də dövlət quruluşunun bu hissəsi ilə bağlı müxtəlif suallar vermək olar: neçə vəzifə olmalıdır, vəzifəli şəxslər nəyə nəzarət edir və onların səlahiyyət müddəti nə qədərdir (axı bəzi dövlətlərdə vəzifəli şəxsləri altı ay müddətinə seçirlər, digərlərində – daha az müddətə, üçüncülərdə – bir ilə, dördüncülərdə – daha uzun müddətə), vəzifələr ömürlükmü olmalıdır, ya uzunmüddətli, yoxsa nə bu olmalıdır, nə o birisi, ancaq eyni şəxslər bir neçə dəfə vəzifə tutmalıdır, yoxsa eyni bir adam iki dəfə deyil, yalnız bir dəfə vəzifə tuta bilər? 2. Həmçinin vəzifələrin təşkilinə dair müzakirə aparmaq lazımdır, vəzifələrə adam kimlərdən, kimlər və necə təyin edilməlidir. Nəzəriyyədə bu müxtəlif sualların cavablarını hər



cür göstərməyi bacarmaq lazımdır, sonrasa bu cavablar təcrübədə hansı vəzifələrin hansı dövlət quruluşu üçün faydalı olmasına uyğun surətdə tətbiq edilməlidir.

Vəzifə adlandırılan şeyə də sözün həqiqi mənasında müəyyənlik gətirmək asan deyil. Dövlət münasibəti üçün çoxlu rəhbər tələb olunur; buna görə seçki yolu ilə və püşklə təyin edilmiş adamların hamısını vəzifəli şəxs hesab etmək olmaz, məsələn, hər şeydən öncə kahinləri (onları dövlətin vəzifəli şəxslərindən ayrı tutmaq lazımdır), həmçinin xöreqləri[20] və carçıları; səfirlər də seçki yolu ilə təyin olunur.

3. Dövlət tapşırıqları isə müəyyən bir işi nəzərdə tutur, həm də ya bütün vətəndaşlara (belə ki, məsələn, strateq yürüşə çıxanların hamısına komandanlıq edir), ya da onların bir hissəsinə aid olur (məsələn, ginekonoma, yaxud gedenoma verilən tapşırıq[21]). Digər tapşırıqlar dövlət təsərrüfatını nəzərdə tutur (belə ki, tez-tez seçki yolu ilə sitometrlər təyin olunur[22]), bəzi tapşırıqlar isə ikinci dərəcəli xarakter daşıyır və bunların icrası üçün, əgər buna vəsait varsa qullar qoyurlar. O adamları həqiqi mənada vəzifəli şəxslər adlandırmaq lazımdır ki, belələrinə bəzi işlər üçün qanun layihələrini müzakirə etmək, həll etmək və idarə etmək səlahiyyətinə malik olmaq hüququ verilir, xüsusən də bu axırıncı, ona görə ki, «idarə etmək» anlayışı hər şeydən öncə hər cürə səlahiyyət haqqında təsəvvürlə bağlıdır. Lakin bu cür fərqləndirmə, əslində, heç bir təcrübi əhəmiyyətə malik deyil (çünkü hələ heç vaxt elə şey olmayıb ki, vəzifəli şəxslər onlara vəzifəli şəxs adının təqdim edilməsi barədə bəhs etsinlər); buna rəğmən bu məsələnin mücərrəd nöqteyi-nəzərdən bəzi əhəmiyyəti var.

4. Dövlətin mövcud olması üçün hansı sayda hansı vəzifələr tələb olunur? Hansı vəzifələr zəruri deyil, lakin yaxşı qurulan dövlət üçün faydalıdır? Hər dövlət üçün, xüsusən kiçik dövlətlər üçün həlli böyük əhəmiyyət kəsb edən suallar bax bunlar-

dır. Böyük dövlətlərə gəldikdə isə onlarda elə qaydalar müəyyənləşdirmək olar və olmalıdır ki, müəyyən vəzifələr müəyyən fəaliyyət sahəsinə uyğun gəlsin; vətəndaşların sayının çoxluğu onlardan çoxuna vəzifəyə keçməyə imkan verir, belə ki, vəzifələrdən bəzilərinə eyni bir şəxsi yalnız uzun müddət keçdikdən sonra təyin etmək olar, digərlərinə isə – ancaq bir dəfə; həm də hər iş onda yaxşı alınar ki, bununla bir işə baxan adam məşğul olsun, daha çox işə baxan adam yox.

5. Kiçik dövlətlərdə zərurət üzündən vəzifələrin çoxusunu bir para vətəndaşın əlində cəmləşdirmək lazım gəlir; əhalinin az olması nəticəsində çox adamın vəzifədə olmasını təşkil etmək asan deyil, həm də onların xələfi olacaq adamları haradan götürmək olar. Doğrudur, bəzi kiçik dövlətlərə də böyük dövlətlərdə olan vəzifələr və qanunlar lazım olur; fərq yalnız ondadır ki, kiçik dövlətlərdə tez-tez eyni vəzifələri eyni adamlara həvalə etmək lazım gəlir, böyük dövlətlərdə isə bu tədbirə yalnız aradan xeyli vaxt keçdikdən sonra əl atılır. Buna görə çox işin eyni adamlara tapşırılması üçün heç bir manеə yoxdur, zira bu tapşırılmış işin biri digərinə maneçilik törətmir; həm də, ümumiyyətlə, dövlətin əhalisi az olduqda vəzifələrdən istər-istəməz bir növ fırlanan şişlər – çıraqlar etmək lazımdır. 6. Beləliklə, əgər biz göstərə bilsək ki, hökmən hər dövlətdə hansı sayda, hansı vəzifələr olmalıdır, bunlara çox ehtiyac duyulmasa da, hər halda bu, göz qabağında *olmalıdır*, *hər kəs bunu bilsə*, *məhz hansı* vəzifələrin bir fəzifədə birləşdirilməsinin daha asan olduğunu dərk edər. Onu da nəzərdən qaçırmaq olmaz ki, bir çox vəzifələr yerli şəraitdən asılı olaraq hansı məsələlərə və hər yerdə bir vəzifə ən yüksək səviyyədə hansı məsələlərə baxmalıdır, məsələn, şəhər bazarında intizama nəzarət etmək üçün bir aqoranom, eyni məqsədlə də digər yerdə – digər aqoranom, yaxud elə həminkini bütün şəhər üzrə təyin etmək lazımdırmı.



Yenə bir sual: vəzifələri işlərin idarə edilməsi xarakterinə müvafiq olan surətdə, yaxud da adamlara münasib surətdə bölüşdürmək lazımdırmı? Mən onu nəzərdə tuturam ki, məsələn, ümumi ədəb qaydalarına bir nəfər vəzifəli şəxsin nəzarət etməsi lazımdır, yoxsa uşaqların və qadınların ədəb qaydalarına nəzarət etmək üçün xüsusi olaraq vəzifəli şəxs lazımdır. 7. Nəhayət, dövlət quruluşu formalarının arasında olan fərqlə də hesablaşmaq vacibdır, bununla əlaqədar özümüzə sual vermək lazımdır: ayrı-ayrı dövlət quruluşu formalarında olan vəzifələrin xarakterində fərq varmı, yoxsa yox? Məsələn, eyni vəzifələr demokratiyada, oliqarxiyada, aristokratiyada, monarxiyada başlıca sayılır, baxmayaraq ki, bu vəzifələrə bərabər və eyni mövqedə duran, yaxud da bəzi dövlətlərdə – bir mövqedə, digərlərində – başqa mövqedə duran adamlar təyin edilir (məsələn, aristokratiyalarda vəzifəli şəxslər təhsil görmüş, oliqarxiyalarda – varlı, demokratiyalarda – ata-anası kölə olmayan adamlardır). Yaxud *da bəzi vəzifələr dövlət quruluşu formalarının fərqli olması ilə* əlaqədar müxtəlif olur, lakin yalnız bəzi hallarda eyni olduqda faydalı olur, digər hallarda isə – müxtəlif olduqda, zira eyni vəzifələrə əlavə olaraq bəzən böyük, bəzən də kiçik fəaliyyət sahəsi vermək məqsədəuyğundur.

8. Bəzi vəzifələr xüsusilə bu və ya digər dövlət quruluşu formalarına xasdır. Məsələn, probul vəzifəsi demokratiyaya xas deyil, şura isə – demokratik qurumdur, axı hökmən elə bir qurum olmalıdır ki, onun vəzifəsi həll edilmək üçün xalq məclisinə daxil olan layihələrə qabaqcadan baxmaqdan ibarət olsun, onda axırıncı bunların müzakirəsinə həddindən çox vaxt sərf etməyəcək. Əgər bu qulluqda sayca az adam bulunursa, onda bu oliqarxiyanın əlamətidir. Ancaq sayca az probul bu qulluğun xarakterinə uyğun gəlir; burdan aydındır ki, bu demokratiya quruluşuna xas olan xüsusiyyətdir. Amma harada həm probul, həm

də şura varsa, orada probullar şuranın üzvlərindən yüksəkdə durur, ona görə ki, şuranın üzvləri demokratiya üçün xarakterikdir, probul – oliqarxiya uçün. 9. Şura elə qəbildən olan demokratiyalarda əhəmiyyətini itirir ki, orada hər işlə xalq məclisinin özü məşğul olur; bu, sadəcə olaraq onda baş verir ki, həmin vaxt xalq məclisində iştirak etmək üçün səxavətlə mükafat verilir; bu halda, asudə vaxta malik olduqlarından, məclisi tez-tez təşkil edib, özləri də bütün məsələlərə dair qərar çıxarırlar. Pedonomlar, ginekonomlar və bu kimi sahələrə baxan digər vəzifəli şəxslər ki, var – bu vəzifələrin hamısı demokratiyaya deyil, aristokratiyaya xasdır. Məsələn, ginekonomlar yoxsulların arvadlarına evdən çıxmağı necə qadağan edə bilər? Bundan başqa ginekonomiya oliqarxiya quruluşuna da xas deyil: axı oliqarxların arvadları cah-cəlal içərisində yaşayır. Buna rəğmən bizim tərəfimizdən edilən qeydlər tamamilə kifayətdir.

10. İndi vəzifələrə adam təyin edilməsi üsullarına dair məsələni əsaslı surətdə müzakirə etməyə çalışmaq lazımdır. Bu üsulların fərqi üç cəhətdən özünü göstərir; onların birləşməsindən istər-istəməz ən müxtəlif üsullar üzə çıxır. Birinci, vəzifəyə kim təyin edir; ikinci, bunlara adam kimlərdən təyin olunur; üçüncü, bu necə baş verir. Buna müvafiq olan üç variant var: vəzifəyə ya bütün vətəndaşlar təyin edir, ya onlardan və yaxud hamıdan bəziləri, ya bəzilərindən müəyyən adamlar, məsələn, əmlak senzini təmin edən vətəndaşlar, ya kubarlar, ya məziyyətləri *ilə seçilənlər, ya buna bənzər digər bir şeylə* fərqlənənlər, məsələn, Meqarada – sürgündən qayıdanlar və demokratiyaya qarşı mübarizədə iştirak edənlər; həm də bu, ya seçki yolu ilə, ya da püşk vasitəsi ilə olur. 11. Öz növbəsində bu üsulları iki-iki birləşdirmək olar. Mən aşağıdakıları nəzərdə tuturam: bəzi vəzifələrə bir paraları, digərinə hamı təyin edir; bəzi vəzifələrə adam hamıdan təyin olunur, digərlərinə – bir paralarından, bəziləri – seçki yolu ilə, digərləri – püşklə. Bu birləşmələrin hər birindən yenə də dörd ayrı-ayrı üsul mümkündür: ya bütün vəzifələrə adam seçki yolu ilə hamıdan təyin olunur; ya hamı hamıdan püşk yolu ilə, bundan başqa ya, ümumiyyətlə, hamıdan, yaxud bütün əhalinin bir hissəsindən, məsələn, fillər, demalar, fratriyalar üzrə, bu minvalla bütün vətəndaşlar vəzifəyə gəlib gedənə qədər; yaxud həmişə hamıdan...[23] ya da bir halda belə, digər halda – başqa cür. Digər tərəfdən əgər bəzi vətəndaşları təyin edirlərsə, onda ya hamıdan seçki yolu ilə, ya hamıdan püşklə, ya bəzilərindən seçki yolu ilə, yaxud bəzilərindən püşklə, ya da bir halda belə, digər halda – başqa cür, yəni ya seçki yolu ilə, ya da püşklə. Beləliklə, iki-iki birləşmələrdən alınanları istisna etməklə, on iki üsul alınır[24].

12. Göstərilən üsullardan ikisi demokratik quruluşa uyğun gəlir – bu onda olur ki, bütün vətəndaşlar vəzifəyə bütün vətəndaşlar içərisindən...[25] seçki yolu, ya püşklə, yaxud[26] bunun və o birinin birləşməsi vasitəsilə təyin edir, belə *ki, bəzi vəzifələrə* seçki yolu ilə adam təyin edilir, digərlərinə – püşklə. Əgər vəzifəyə adam təyin etmədə vətəndaşların hamısı iştirak etmirsə, – hamının içərisindənmi, ya bəzilərinin, püşkləmi, ya seçki yolu ilə, ya da bunun və o birinin birləşməsindən – yaxud əgər bəzi vəzifələrə bütün vətəndaşlardan adam təyin edilirsə, digərlərinə – bəzilərindən, seçki yolu iləmi, ya püşklə, yaxud bunun və o birinin birləşməsi vasitəsilə, yəni, məsələn, bəzi vəzifələrə seçki *yolu ilə adam təyin edilir, digərlərinə – püşklə,* onda bu üsul politiyaya uyğun gəlir. Əgər ki, vəzifəyə təyin etmədə hamının içərisindən bəziləri iştirak edirsə və təyin etmənin özü seçki yolu ilə, ya püşklə, yaxud da bunun və o birinin vasitəsi ilə keçirilirsə – bəziləri püşklə, digərləri seçki yolu ilə, – onda bu üsul oliqarxiyaya xasdır. Həm də bütün vəzifələrə eyni vaxtda seçki yolu ilə və püşklə adam təyin etmək daha çox oliqarxiyaya xas-

dır. 13. Bəzi vəzifələrə hamının içərisindən, digərlərinə – bəzilərindən təyin etmə daha çox aristokratiya çalarlı politiyaya xas olan üsuldur.

Oliqarxiya üsulunda – vəzifəyə təyin etməni bəziləri, bəziləri içərisindən aparır – bu halda püşk tətbiq ediləcəyinin fərqi yoxdur (hərçənd püşk seçkiyə nisbətən daha az tətbiq edilir), – yaxud bəziləri bəzilərindən hər iki üsulla.

Aristokratiya quruluşuna xas olan üsul isə ondan ibarətdir ki, vəzifəyə təyin etmədə hamısının, yaxud bəzilərinin içərisindən bəziləri, ya da hamı iştirak edir, həm də nəzərə almaq lazımdır ki, təyin etmə seçki yolu ilə keçirilir.

Vəzifəyə təyin etmənin bax bu qədər üsulu var, həm də bu və ya digər dövlət quruluşundan asılı olaraq, onlar bax bu cür təqsim edilir. Hansı üsulların hansı dövlət quruluşuna uyğun gəlməsi indi aydın olacaqdır; adamların vəzifələrə necə təyin edilməsi, onların hər birinin fəaliyyət sahəsinin nədən ibarət olması və hansı fəzifələrin olması da aydındır. Mən vəzifəli şəxsin fəaliyyət sahəsi dedikdə, məsələn, onun baxdığı sahənin dövlət mədaxilinəmi, yoxsa hərbi mühafizəyəmi daxil olduğunu nəzərdə tuturam. Əlbəttə, vəzifələrin fəaliyyət sahəsi müxtəlifdir və strateqin vəzifəsi, məsələn, bir şeydir, ticarət sazişinin bağlanmasına nəzarət etmək – başqa şey.

XIII. 1. Dövlət quruluşunun üç hissəsindən axırıncısı haqqında, yəni məhkəmə hakimiyyəti haqqında danışmaq qalır. Onun qurulma üsullarını da elə bizim araşdırmamızın əsasını təşkil edən şeydən müəyyənləşdirmək lazımdır. Məhkəmələr üç şeylə əlaqəlidir: hakimlər kimlərdəndir, onların çıxardığı qərara nə daxildir, hakimlər nə cür təyin olunur; başqa sözlə, hakimlər kimdir, yəni onlar bütün vətəndaşların içərisindən təyin edilir, yoxsa bəzilərinin içərisindən; onların çıxardığı qərara nə daxildir



– yaxud məhkəmənin ayrı-ayrı neçə forması var; hakimlər necə təyin edilir – püşklə, yoxsa seçki yolu ilə.

Hər şeydən öncə məhkəmələrin ayrı-ayrı formalarının sayını müəyyənləşdirək. Bunlar səkkizdir: biri-vəzifəli şəxslərdən hesabat almaqdan ötrüdür; digəri – o adamlardan ki, onlar dövlətə ziyan vurublar; daha birisi – dövləti cinayətlər xüsusundadır: dördüncü – cərimələmək xüsusunda vəzifəli və mülkü şəxslər arasında olan iddiaları araşdırmaqdan ötrüdür; beşinci – mülki şəxslər arasında olan iri ticarət sazişləri xüsusundadır; başqa birisi, qətl hadisələrini və əcnəbilərə dair məhkəmə işlərini araşdırmaqdan ötrüdür. 2. Qətl hadisələrini araşdıran məhkəmə – hakimlərin eyni, yaxud digər şəxslər olacağının fərqi yoxdur – öz növbəsində bir neçə formaya bölünür: əvvəlcədən düşünülmüş qətllər xüsusunda, qərəzli olmayan qətllər xüsusunda, o hadisələr xüsusunda ki, müttəhim öz cinayətini boynuna alsa da, iddia edir ki, buna onun haqqı vardı, dördüncü – sürgündən vətənə qayıtdıqda qətl üstündə ittiham olunanlar üzərində məhkəmə – bu, məhkəmənin o formasıdır ki, Afinada «Freattoda məhkəməsi» adlanır; amma bu kimi məhkəmə araşdırmaları, hətta böyük dövlətlərdə nadir hallarda olur. Əcnəbilər üzərindəki məhkəmə elə əcnəbilərin əcnəbilərlə, yaxud əcnəbilərin şəhər əhli ilə işlərinə baxır. Nəhayət, bütün sadalanan məhkəmə formalarından başqa kiçik ticarət sazişlərini araşdıran məhkəmə var, məsələn, dirhəmə beş dirhəm, ya bir az artıq və bu cür məhkəmə işləri araşdırılmalı olsa da, bunlardan ötrü hakimlərin çox olması vacib deyil.

3. Lakin biz qətl işləri üzrə olan məhkəmələri və əcnəbilərin işləri üzrə olan məhkəmələri bir kənara qoyub, yalnız dovləti cinayətləri araşdıran məhkəmələr haqqında danışacayıq. Bu məhkəmələrin pis qurulması daxili qarışıqlığa və hətta dövlət quruluşunun devrilməsinə səbəb olur. Bu məhkəmələrdə ha-

kimlər mütləq ya bütün işlərə dair bütün vətəndaşlardan olmalıdır, həm də nəzərə almaq lazımdır ki, hakimlər seçki yolu ilə, ya da püşklə təyin olunur; yaxud da hakimlər bütün işlərə dair bütün vətəndaşlardan olmalıdır, amma hakimlərin bir hissəsi seçki yolu ilə, digəri – püşklə təyin olunur; ya da, nəhayət, bəzi işlərdən ötrü hakimlər püşklə, digərlərindən ötrü – seçki yolu ilə təyin olunur. Beləliklə, dörd üsul alınır və bu qədər də üsul hakimlər bəzilərindən olduqları halda, həm də müəyyən növbəyə riayət etməklə hakimlik etdikdə olur; hər halda hakimlər bəzilərinin içərisindən bütün işlərdən ötrü ya seçki yolu ilə, ya püşklə, *ya bir para hallarda püşklə, digər hallarda – seçki yolu ilə* təyin edilə bilər, yaxud da, nəhayət, eyni işləri həm püşklə, həm də seçki yolu ilə təyin edilən hakimlər birlikdə araşdırmalı olur.

4. Bizim hesablamamıza görə məhkəmələrin qurulma üsulları bu cürdür, bundan əlavə onların iki-iki birləşmələri də var. Üstəlik, bu birləşmələr ikili xarakterə malik ola bilər; mən onu nəzərdə tuturam ki, məsələn, bəzi hakimlər hamıdan artırıla bilər, digərləri – bəzilərindən, üçüncülər – hamıdan və bəzilərindən, amma o halda ki, eyni bir məhkəmədə hakimlərin bir hissəsi hamının tərkibindəndir, digər hissəsi – bəzilərinin, bir para hakim püşklə, digərləri – seçki ilə, üçüncülər – hər iki üsulla təyin edilir.

Beləliklə, *məhkəmənin qurulma üsullarının mümkün olan* sayı haqqında danışıldı. Bunlardan birinci yerdə adları çəkilən məhkəmələr demokratik quruluşa xasdır; burdakı hakimlər bütün vətəndaşlar içərisindən çıxan şəxslərdir, onlar bütün məhkəmə işlərini araşdırırlar. İkinci yerdə adları çəkilən hakimlər oliqarxiya quruluşuna xasdır. Bunlarda bütün işləri bəzi vətəndaşlar araşdırır. Politiyaya xas olan aristokratiya məhkəmələri isə üçüncü yerdə adları səkilən məhkəmələrdir. Onlarda bir sıra işlərdən ötrü hakimlər bütün vətəndaşlar içərisindən, digərlərindən ötrü – bunların bəzi hissəsindən təyin edilən şəxslər olur.



## BEŞİNCİ KİTAB (E)

I. 1. Biz nəyi araşdırmağı nəzərdə tutmuşduqsa, demək olar ki, hamısına artıq baxmışıq. Biz bundan sonra dövlət çevrilişlərinin hansı səbəblər üzündən baş verdiyini, onların necə və hansı xarakterdə olduğunu araşdırmalıyıq; hər bir dövlət quruluşu formasında dağıdıcı əsaslar nədən ibarətdir; bunlardan hansı formalar daha çox hansılara keçir; ümumiyyətlə, hər bir dövlət quruluşu forması hansı özünüqoruma vasitələrinə malikdir və nəhayət, hər formanın qorunub saxlanmasına şəbəb *daha çox nədir.*

2. Hər şeydən öncə aşağıdakı ilk nəzər-nöqtəsini diqqətə çəkmək lazımdır: adətən, dövlət quruluşu formaları təşkil edildikdə, onların hüquqa istinad edəcəyi və nisbi bərabərlik ehtimalı ümumi yekdilliklə hökm sürürdü; lakin əvvələr deyildiyi kimi bu bərabərliyin başa düşülməsində səhvə yol verilirdi. Bəli, demokratik quruluş hər hansı cəhətdən olan bərabərliyin, ümumiyyətlə, bərabərliyə səbəb olması fikri əsasında meydana gəlmişdir: hamının eyni dərəcədə ata-anası kölə olmayan adamlar olması fikrindən həm də o nəticə çıxarırdılar ki, onlar, ümumiyyətlə, bərabərdir. Oliqarxiya quruluşu bir cəhətdən bərabərsizli*yin, ümumiyyətlə,* bərabərsizlikdən *irəli gəlməsi fikri* əsasında meydana çıxmışdır; bir halda ki, mülkiyyət bərabərsizliyi mövcuddur, onda bundan da, ümumiyyətlə, bərabərsizlik doğur. 3. Bərabərlik haqqında anlayışlara istinad edərək, demokratiyalarda hamı tam hüquq bərabərliyi tələb edir; oliqarxiyalarda isə bərabərsizlik haqqında olan anlayışlar əsasında hüququn daha çox alınmasına cəhd göstərilir, çünki çox şeyin əldə edilməsi elə bərabərsizliklə nəticələnir.

Məlum cəhətdən bütün bu cür dövlət quruluşu formaları özlərinə bəraət qazanır, lakin ümumi nöqteyi-nəzərə görə onlar

səhv əsaslar üstə durur. Bu səbəbdən bu və digər [vətəndaşlar], qabaqcadan lazım olan şərtlər əsasında, dövlət idarəçiliyində öz paylarını almadıqda qiyam qaldırırlar. Tamamilə əsaslı surətdə öz xeyirxahlığı ilə seçilənlər qiyam qaldıra bilərlər, axı yalnız belə adamların, onlara qarşı olan şərtsiz bərabərsizliyə görə buna tamamilə məntiqə uyğun əsası ola bilər, lakin onlar buna hər şeydən az əl atırlar. Görkəmli və kübar nəsildən olan elə adamlara da rast gəlinir ki, beləleri başqaları ilə, məhz bərabər olmasalar da hüquq bərabərliyi tələb etmirlər; o adamlar əsli-nəcabətli saylır ki, igidlik və var-dövlət onlara əcdadlarından vərəsəlik yolu ilə keçir.

4. Deməli, daxili qarışıqlığın ilkin mənbəyi bax bu cür olur, qiyam bax burda törəyir. Buna görə də iki cür dövlət çevrilişinə rast gəlinir; bəzən mövcud olan dövlət quruluşuna qəsd edilir ki, o digərilə əvəzlənsin, məsələn, demokratiya – oliqarxiya ilə, oliqarxiya – demokratiya ilə, oliqarxiya və demokratiya – aristokratiya və politiya ilə, yaxud əksinə, bəzən mövcud olan dövlət quruluşuna qəsd edilmir, o əvvəlki kimi qalır, lakin özləri idarəçiliyi öz əllərinə almaq istəyir, məsələn, oliqarxiya, yaxud monarxiyada. 5. Bundan başqa dövlət çevrilişi dövlət quruluşunu möhkəmləndirmək, yaxud zəiflətmək məqsədini güdür – məsələn, ya oliqarxiyanı daha çox, yaxud daha az oliqarxiya etmək, ya mövcud olan demokratiyanı gücləndirmək, yaxud zəiflətmək, eləcə də digər dövlət quruluşlarında – ya onları gücləndirmək, yaxud zəiflətmək. Bəzən dövlət çevrilişi dövlət quruluşunda yalnız qismən dəyişiklik edilməsi məqsədini güdür, məsələn, hər hansı bir vəzifəni təsis etmək, yaxud ləğv etmək. Bəli, bəzilərinin təsdiq etdiyinə görə Lakedemonda Lisandr çar hakimiyyətini ləğv etmək istəyirdi, çar Pavsani isə – eforatı[1]. 6. Epidamnedə də dövlət quruluşu o cəhətdən qismən dəyişikliyə məruz qalmışdı ki, filarxların yerinə şura təsis edilmişdi; dövlət quruluşunda oliqarxiyanın əsas prinsiplərindən o saxlanılmışdı ki, siyasi hüquqlara malik vətəndaşlar içərisindən hər hansı bir vəzifəyə adam təyin edildikdə vəzifəli şəxslər hər dəfə qaliyeyaya[2] gəlməyə borcludurlar; dövlət quruluşunda təkcə arxond olduqda belə, bu, oliqarxiyadır.



Ümumiyyətlə, ona əsl bərabərsizlik münasib deyilsə, hər yerdə qiyamın səbəbi bərabərliyin olmamasıdır, məgər bərabərlərin arasında olan çar hakimiyyəti bərabərsizlik deyilmi. Qiyamı da, ümumiyyətlə, bərabərliyə nail olmaq üçün qaldırırlar.

7. Bərabərlik iki cür olur: kəmiyyət cəhətdən bərabərlik və ləyaqət cəhətdən bərabərlik. Kəmiyyət cəhətdən bərabərlik deyəndə mən eyniliyi və bərabərliyi miqdar, yaxud ölçü mənasında, ləyaqət cəhətdən bərabərlik deyəndə – bərabərliyi nisbət mənasında nəzərdə tuturam. Məsələn, kəmiyyət cəhətdən üç ikidən, iki birdən eyni miqdarda çoxdur, nisbət cəhətdən isə – dörd ikidən, iki birdən eyni dərəcədə çoxdur; axı iki dördün, bir də ikinin bərabər hissəsidir, iki dördün yarısıdır, bir – ikinin. Ləyaqət cəhətdən bərabərliyiin düzgün olması ilə qəti surətdə razılaşdıqda, adamlar arasında əvvəllər deyildiyi kimi aşağıdakı fikir ayrılığı üzə çıxır; bəziləri hesab edir ki, əgər onlar nisbətən bərabərdirlərsə, onda onlar, ümumiyyətlə, bərabər olmalıdırlar; digərləri özlərini nisbətən bərabər hesab etməsələr də, bu cür bərabərsizliyin hər cəhətdən özlərinin xeyrinə olmasına iddia edirlər. 8. Buradan da daha çox iki dövlət quruluşu forması – demokratiya və oliqarxiya meydana çıxır; əsli-nəcabətlilik və xeyirxahlıq bir para adama, əks keyfiyyətlər isə əksəriyyətə xasdır; heç yerdə yüz dənə də əsli – nəcabətli və cəsur adam tapmaq olmaz, amma yoxsul hər yerdə var. Bu və digər növ bərabərliyin sadəcə olaraq hər yerdə gözlənilməsinə cəhd etmək – ümumiyyətlə, səhvdir. Bundan sonra baş verənlər də bunu sübut edir: bu cür bərabərliyə əsaslanan dövlət quruluşu formalarından heç biri möhkəm olmur. Bu onunla izah olunur ki, yalnız səhv başlanğıc bu və digər pis nəticəyə gətirib çıxara bilər.

Buna görə bəzi hallarda kəmiyyət cəhətdən olan bərabərliyə əsaslanmaq lazımdır, digər hallarda – ləyaqət cəhətdən olan bərabərliyə. 9. Hər neçə olsa da demokratik quruluş, oliqarxiya quruluşuna nisbətən daha təhlükəsizdir və daha az daxili çəkişmələrə səbəb olur. Oliqarxiyalarda qarışıqlığın iki cür əsası olur: bir-birilə və xalqla ədavətdə olmaq; demokratiyalarda isə – yalnız oliqarxiya ilə. Üstəlik ortababların üstünlük təşkil etdiyi dövlət quruluşu oliqarxiyadan çox, demokratiyaya yaxındır, bizim xatırlatdığımız dövlət quruluşlarından ən çox təhlükəsizliyə malik olanı da budur.

II. 1. Biz qiyamların və dövlət çevrilişlərinin mənbələrinə diqqət yetirməyi nəzərdə tutduğumuzdan, bizə hər şeydən öncə, ümumiyyətlə, onların əsas səbəbləri haqqında məsələni araşdırmaq lazımdır. Belə əsas səbəblərdən üçünün adını çəkmək olar; onlardan hər birini özü-özlüyündə götürdükdə, hər şeydən öncə onların əsas əlamətlərini xarakterizə etmək lazımdır. Birincisi, qiyam qaldıran adamların əhval-ruhiyyəsini bilmək vacibdir; ikincisi nəyə görə; üçüncüsü, əslində siyasi qarışıqlıq və daxili çəkişmələr nədən başlayır.

Dövlət çevrilişi hazırlayan adamların əhval-rühiyyəsinə gəlincə burada, ümumiyyətlə, ən çox, artıq bizim xatırlatmış olduğumuz səbəb nəzərə alınmalıdır. Yəni: bəziləri çəkişməyə başlamaqla hüquq bərabərliyinə can atırlar, əsas da budur ki, onların fikrincə hüquqları azaldılır, hərçənd onlar hüququ çox olanlarla bərabərdir; digərləri, əksinə, bərabər olmamağa və üstünlüyə can atırlar, çəkişməyə o halda başlayırlar ki, bu adamların qənaətinə görə, onlar qalanları ilə bərabər olmadıqda, onlarla müqayisədə heç bir üstünlüyə malik olmurlar, ancaq onlarla bərabər, yaxud da əksik olurlar. 2. Göstərilən iddialar bəzi hallarda ədalətli olur, digər hallarda – ədalətsiz: axı hüququ az olanlar da qalanları ilə bərabərləşməkdən ötrü, bərabər



hüquqa malik olanlar isə böyük hüquqlar əldə etmək üçün yerdə qalanlarla da çəkişməyə başlayır. Göstərilənlər qiyam əhval-ruhiyyəsinin yaranmasını aydınlaşdırmaqdan ötrü kifayətdir. Çəkişmələr bunlardan törəyir – gəlirdən, mənsəb və rütbədən və bunlara əks olan şeylərdən; dövlətlərdə çəkişmələr həm də vətəndaş hüquqlarının itirilməsi qorxusundan və qoyulan cərimənin ödənilməsinin arzu olunmamasından da baş verir – özlərindən ötrü, yaxud dostlarından ötrü olmasının fərqi yoxdur. 3. Adam-ların hərəkətinin bəlkə də yeddi və daha çox səbəb və bəhanələrini sadalamaq olar ki, bunun da təsiri altında, yuxarıda deyildiyi kimi, adamlar qalxır və göstərilən tələbləri irəli sürür. Bu səbəblərdən ikisi yuxarıda göstərilənlərə uyğun gəlir, lakin onların hərəkəti bir qaydada meydana çıxmır. Gəlirin, saygı və ehtiramın əldə edilməsinə cəhd göstərmək adamların qarşılıqlı surətdə acıqlanmasına, əvvəllər deyildiyi kimi, ona görə gətirib çıxarmır ki, onlar özləri özləri üçün bunu əldə etmək arzusunda bulunurlar, ancaq ona görə ki, onlar – bəziləri haqlı, digərləri haqsız olaraq – başqalarının bunlardan əhəmiyyətli dərəcədə neçə faydalandığını görürlər. Həmçinin həyasızlıq, qorxu, üstünlük, nifrət, həddindən artıq yüksəliş; digər tərəfdən – fitnə-fəsad, etinasız münasibət, xırda təhqirlər, xasiyyətlərin tutmaması çəkişmələrə səbəb olur. 4. Bu halda həyasızlıq və acgözlük hansı əhəmiyyətə malikdir və hansı cəhətdən bunlar daxili çəkişmələrə səbəb olur – bu, çox güman aydındır; əgər hakimiyyətdə olanlar həyasız və acgözdürlərsə, onda əhali həm onlara, həm də bu şəraiti onlara yaradan dövlət quruluşuna qarşı düşmənçilik münasibətində bulunur; acgözlük isə bəzən xüsusi şəxslərin mülkiyyətinə, bəzən də dövlət malına tuşlanır. Saygı və ehtiramın da nə kimi əhəmiyyət daşıması və bunun da nəyə görə daxili çəkişmələrə səbəb olması aydındır; adamlar, özlərinin bu saygı və ehtirama malik olmamasını, başqalarının

isə, əksinə, malik olmasını gördükdə hiddətlənirlər. Ədalətsizlik burda ondan ibarətdir ki, bəzi adamlar sayğı və ehtiramdan yararlanırlar, başqaları isə bundan məhrumdur, həm də bu və digərlərinin yaxşı cəhəti nəzərə alınmır; ədalət, əksinə, o halda olar ki, sayğı və ehtiram yaxşı cəhətə əvəz olaraq verilsin. Hər hansı bir adam – bir, yaxud bir neçə nəfər – öz qüdrəti ilə dövlətin və hökumət orqanlarının bir araya sığa bilən xarakterindən seçildikdə, üstünlük də daxili çəkişmələrə səbəb olur. Bu halda, adətən, monarxiya və sülalə üsul-idarəsi meydana çıxır. 5. Buna görə bəzi, məsələn, Arqos və Afina kimi dövlətlərdə bir qayda olaraq sürgün etməyə əl atılır, hərçənd buna yol verib, sonra çarə qılmaqdansa, hələ lap əvvəlcədən dövlətdə başqalarından bu qədər yüksəkdə dayanan adamların meydana çıxmamasından ötrü bu işə nəzarət etmək yaxşı olardı. Qorxu o cəhətdən çəkişməyə səbəb olur ki, bir tərəfdən təqsiri olan adamlar cəzaya məruz qalmaqdan çəkinirlər, digər tərəfdən isə – haqsızlığın qurbanı olmaq təhlükəsi altında olanlar, ehtimal olunan haqçızlığın qarşısını hələ buna məruz qalmamışdan almağı arzu edirlər. Məsələn, Rodosda kübarlar onlara qarşı başlanan məhkəmə işinə görə demokratiyaya qarşı birləşmişdilər[3]. 6. Nifrət çəkişmə və hiddətə səbəb olur; bu, məsələn, oliqarxiyada baş verir, orada vətəndaşların çoxu özündə güc hiss etsə də, dövlət idarəçiliyində iştirak etmir. Həm də demokratiyalarda dövlət quruluşundakı qarışıqlıq və özbaşınalıq varlı adamlarda ona qarşı hiddət doğurur. Məsələn, Fivada Enofit vuruşmasından sonra dövlət qaydaları pozulduqda, demokratiya ləğv edildi; belə bir şey Meqarada, Gelonun istibdad üsul-idarəsindən əvvəl – Sirakuzada, demokratiyanın devrilməsindən əvvəl – Rodosda da baş vermişdi, həmin yerlərdə intizamsızlığa və özbaşınalığa görə demokratlar məğlubiyyətə uğradılmışdı.



7. Dövlət çevrilişləri uyğunsuz yüksəliş nəticəsində də baş verir. Məlumdur ki, bədən hissələrdən ibarətdir və mütənasibliyi saxlamaq üçün öz boyuna uyğun böyüməlidir. Əks halda, əgər, məsələn, ayaq dörd dirsək uzunluğunda, bədənin yerdə qalan hissəsi isə iki qarış[4] olarsa o, məhv olar; bəzən də bədən, əgər o, yalnız kəmiyyət cəhətcə deyil, həm də keyfiyyət cəhətcə qeyri-uyğun bir şəkildə inkişaf etsə, başqa canlı varlıq şəklini alacaq. Dövlət də eynən belə ayrı-ayrı hissələrdən ibarətdir; onlardan bəziləri, məsələn, demokratiyalarda və politiyalarda yoxsullar kütləsi çox vaxt hiss edilmədən inkişaf edir. 8. Bu, bəzən təsadüfi hallar nəticəsində də baş verir. Belə ki, məsələn, İran müharibələrindən az sonra, Tarantedə yapiqalarla mübarizədə kübarların çoxu məğlubiyyətə uğrayıb, məhv oldu və politiyadan demokratiya əmələ gəldi. Arqosdakı «yeddinci gün»[5] vuruşmasında Lakonlu Kleomen arqosları məğlub etdikdən sonra, parieklərin bir hissəsini vətəndaşlığa qəbul etmək lazım gəldi. Quruda aparılan uğursuz vuruşmalar Afinada kübarların sayını azaltdı, cünki Lakon müharibəsinə qədər orduda siyahı üzrə xidmət edirdilər[6]. Bu, nadir hallarda baş versə də, demokratiyalarda varlıların sayı çoxaldıqda, yaxud, ümumiyyətlə, mal-mülk artdıqda – demokratiya quruluşu oliqarxiyaya və sülalə üsul-idarəsinə keçir.

9. Dövlət quruluşu çəkişmələrsiz, intriqalar nəticəsində də dəyişilir. Geridə belə olmuşdu, burada seçki ilə təyin edilən vəzifəli şəxsləri püşklə təyinat alanlarla əvəz etmişdilər, ona görə ki, fitnə-fəsad törədənləri seçirdilər. Həm də başısoyuqluq nəticəsində bu zaman mövcud dövlət quruluşuna düşmənçilik münasibəti bəsləyən adamların yüksək dövlət vəzifəsi tutmasına yol verilir, Oreyada oliqarxiya belə devrilmişdi, Herakleodor vəzifəli şəxslər sırasına düşən zaman oliqarxiyanı politiya və demokratiya ilə əvəz etmişdi[7]. Həmçinin xırda şeylərə laqeyd

münasibət nəticəsində; yəni xırda şeylərə belə laqeyd münasibət qanuni qaydada təsis edilmiş şeylərdə böyük dəyişikliklərə səbəb olur. Məsələn, Ambrakiyada vəzifə tutmaq üçün zəruri olan əmlak senzi kiçik idi, axırdan – axıra isə senzdən asılı olmayaraq vəzifə tutmağa başladılar, ona görə ki, kiçik senzlə, ümumiyyətlə, hər hansı birinin olmaması arasında fərq çox azdır, ya da bu, heç yoxdur.

10. Əhalinin müxtəlif tayfalardan ibarət olması da, bu aradan qalxmayana qədər çəkişmələrin mənbəyi olur: axı dövlət təsadüfi kütlədən təşkil edilmir, bu səbəbdən də onun təşkilinə müəyyən vaxt lazımdır. Buna görə əksər hallarda dövlətin təşkili zamanı, yaxud sonralar özgələri öz yanlarına götürənlər daxili çəkişmələrin acısını çəkmişlər. Məsələn, axeylər, Sibarisin əsasını birgə qoyduqları trezensləri sonradan sayca üstələdikdə, onlar trezensləri qovdular və bu cinayət ağır günah kimi Sibarisin sakinlərinin üzərində qaldı. Furiyada sibarislilər o sakinlərlə düşmənçilik edirdilər ki, onlarla birgə bu şəhərin əsasını qoymuşdular; ölkənin onlara məxsus olduğunu səbəb göstərən sibarislilər özlərinə müstəsna hüquqlar tələb edirdilər. Bizansda gəlmə sakinlər sui-qəsd hazırlamışdılar və ifşa olunanlar vuruşmadan sonra sürgün edilmişdi[8]. 11. Antissanın sakinləri Xiosdan sürgün olunanları qəbul edib, vuruşmadan sonra onları qovdular, samoslulara sığınacaq verən Zanklın sakinləri isə axırda özləri qovulmuşdu. Pont Yevsinskdə yerləşən Apolloniyada yeni sakinlərin qəbul edilməsi üstündə daxili çaxnaşmalar baş vermişdi. Sirakuzada istibdad üsul-idarəsi devrildikdən sonra[9], haçan ki, əcnəbilər və muzdurlar vətəndaşlıq hüququ aldı, daxildə hərcmərclik başlandı və iş silahlı toqquşmaya qədər gəlib çıxdı. Amfipoliya əhalisinin vətəndaş hissəsinin əksəriyyəti vətəndaşlığa qəbul edilən Xalkid mühacirləri tərəfindən şəhərdən qovulmuşdu.



12. Bəzən dövlətlərdə daxili çəkişmələr yerli şərait nəticəsində baş verir, məsələn, ərazi vahid dövlət yaratmaq üçün yararsız olan zaman. Klazomendə belə olmuşdu, Xitedə yaşayanlar adada yaşayanlarla düşmənçilik edirdilər; həm də Kolofonun sakinləri ilə Notiyanın sakinləri. Afinanın da əhalisi bir-birilə düz gəlmir: Pireyin sakinləri, demokratiyaya şəhərin özünün sakinlərindən daha çox meyllidir. Və bunun kimi, necə ki, müharibədə çox da böyük olmayan səngərin üstündən keçərkən piyadaları bir neçə sırada düzürlər, elə də görünür ki, hər cürə fərq çəkişməyə səbəb olur. Ola bilsin bu çəkişmələr hər şeydən çox xeyirxahlıq və pislik arasında olan fərqlə şərtlənir, sonra var-dövlət və yoxsulluq arasında olan fərqlə, daha sonra isə çox və ya az mahiyyətə malik olan səbəblər gəlir ki, buraya da bizim elə indicə göstərdiklərimiz aiddir.

III. 1. Beləliklə, daxili çəkişmələr xırda səbəblərə görə olmasa da, xırda şeylərdən meydana çıxır; çəkişmələr həmişə mühüm işlər üstündə baş verir. Kiçik çəkişmələr, qədim zamanlarda Siraguzada olduğu kimi, yüksək vəzifəlilər arasında baş verdikdə xüsusi əhəmiyyət daşıyır. Dövlət çevrilişi mühüm vəzifə tutan iki gəncin arasında məhəbbət məsələsi üstündəki çəkişməyə görə baş vermişdi. Onlardan biri olmadıqda, o birisi onun sevgilisini tovlayıb öz yanına aparır, onda ikincidən bərk incimiş birinci əvvəlincinin arvadını öz növbəsində onunla cinsi əlaqəyə girməyə təhrik edir. Sonra öz çəkişmələrinə onlar tayfa başçılarını da cəlb edirlər, belə ki, hamı iki düşmən tərəfə ayrılır. 2. Buna görə belə şeylər təzəcə meydana çıxan zaman onlara qarşı ehtiyat tədbirləri görmək, həm də bir-birilə düşmənçilik edən hökmdarları və qüdrətli şəxsləri barışdırmağa çalışmaq lazımdır; səhv düşmənçiliyin başlanğıcında olur, başlanğıc isə, neçə deyərlər – hər işin yarısıdır, belə ki, başlanğıcda buraxılan

cüzi səhvin özü-özlüyündə sonrakı bütün səhvlərlə qarşılıqlı əlaqəsi var. Ümumiyyətlə, kübarlar arasındakı çəkişmələri bütün dövlət həll etməli olur, məsələn, İran müharibələrindən sonra Gestiada olduğu kimi, burda iki qardaş atalarından qalmış miras üstündə bir-birilə çəkişməyə başlamışdı. Daha yoxsul olan öz qardaşının atalarının varını və onun vaxtı ilə tapdığı xəzinəni gizlədiyini iddia edib, sadə xalqı da öz tərəfinə çəkir, böyük varidata malik olan qardaşsa varlı adamları öz tərəfinə cəlb edir. 3. Delfada bir elçilik dalaşmaya səbəb olur, bu isə sonralar daxili çəkişmələrə gətirib çıxarır. Bəy gəlini gətirməyə gedərkən yolda özü üçün pis olan əlamət görür və evlənməkdən imtina edir; bəy qurban kəsdiyi zaman, gəlinin təhqir olunmuş qohumları ona ziyarətgaha məxsus olan bəzi əşyalar atıb, sonra isə kafir kimi onu öldürürlər. Mitilendə varis qızların üstündə başlanmış mübahisə böyük müsibətin başlanğıcı olur və Mitilenlə Afina arasında müharibə ilə nəticələnir, bu zaman Paxet onların şəhərini ələ keçirir. Timofanın özündən sonra iki qızı qalır; Deksandr onları öz oğlanları üçün istəyir, lakin rədd cavabı alır; onda o, çəkişməyə başlayır və afinalıların prokseni[10] olduğundan onları öz tərəfinə çəkir. 4. Eləcə də fokidlilərdə varis qızlar üstündə Mnasonun atası Mnasla Onomarxın atası Yevfikrat arasında çəkişmə düşən zaman, bu çəkişmə fokidlilər üçün Müqəddəs müharibənin başlanmasına səbəb olur. Epidamnedə də toy məsələləri üstündə dövlət çevrilişi olmuşdu: biri öz qızını bir cavana adaxlayır, haçan ki, qızının adaxlısının atası vəzifəli şəxs olub, onu cərimələyir, axırıncı özünü təhqir olunmuş hesab edərək, vətəndaşlar sırasına mənsub olmayan adamları öz tərəfinə çəkir.

5. Oliqarxiya, demokratiya, politiya yönümlü dövlət çevrilişləri həm də onunla şərtlənir ki, dövlətin hər hansı bir hissəsi – bu, istər bir idarə olsun, yaxud əhalinin bir hissəsi – şöhrət



qazanır, ya da əhəmiyyət kəsb edir. Məsələn, İran müharibələri zamanında şöhrətlənmiş aeropaq, görünür ki, dövlət quruluşuna daha düzgün forma vermişdi; digər tərəfdən gəmidəki qaragüruh Salamin qələbəsinə, bunun da sayəsində Afinanın dənizdə hegemonluğuna səbəb olub, demokratiyanın möhkəmlənməsinə köməklik etmişdi. Eləcə də Arqosda lakedemonlulara qarşı Mantineya vuruşmasında ad qazanmış kübarlar demokratiyanı aradan qaldırmağa təşəbbüs göstərmişdilər. 6. Sirakuzada, afinalılarla müharibədə qələbə qazanmış sadə xalq politiyanı demokratiya ilə əvəz edir, Xalkiddə kübarların köməkliyi ilə müstəbid Foksun[11] axırına çıxmış sadə xalq durmadan dövlətdə hakimiyyətə yiyələnir. Bu, eynilə Ambrakiyada da baş vermişdi, burada sadə xalq sui-qəsdçilərlə birləşərək müstəbid Periandrı qovub dövlətdə hakimiyyəti öz əlinə alır.

7. Ümumiyyətlə isə, dövlətin qüdrətli olmasının səbəbkarlarını nəzərdən qaçırmaq olmaz, – bu istər ayrı-ayrı adamlar, vəzifəli şəxslər, fillər olsun, yaxud əhalinin hər hansı hissəsi, ya təbəqəsi – onların hamısı divana qalxır. Axı çəkişməyə, ya o adamlar başlayır ki, bu şəxslər onların hörmətə minməsinə paxıllıq edir, ya da onların özləri əldə etdikləri üstünlüyə görə yerdə qalanlarla eyni mövqedə olmaq istəmir. Dövlət quruluşu o halda dəyişdirilir ki, onun bir-birilə ziddiyyət təşkil edən hissələri, məsələn, varlılarla yoxsul xalq sayca bərabərləşir, ortabab vətəndaşlar isə ya qətiyyən olmur, ya da tamamilə az olur. Əgər göstərilən hissələrdən biri böyük üstünlük əldə edərsə, onda digərinin onunla mübarizəyə girməyə cürəti çatmayacaq. Yeri gəlmişkən öz xeyirxahlıqları ilə seçilən adamların, adətən, çəkişməyə girməmələri bununla da izah edilir: onlar əksəriyyətlə müqayisədə olduqca azdır.

Ümumiyyətlə, bütün dövlət quruluşu formalarında daxili qarışıqlıqların və dövlət çevrilişlərinin səbəb və bəhanələri bax bunlardır.

8. Dövlət çevrilişləri ya zorakılıq, ya da hiylə yolu ilə törədilir, həm də nəzərə almaq lazımdır ki, zorakılığa ya bilavasitə lap əvvəlcədən, yaxud bir qədər vaxtdan məcburiyyət qarşısında əl atılır. Hiylə də iki cür olur. Bəzən xalqı aldadıb, çevrilişi onun razılığı ilə törədirlər, bir qədər vaxtdan sonra isə artıq xalqın istəyinin əksinə olaraq hakimiyyəti zorakılıq yolu ilə ələ keçirirlər. Məsələn, Dördyüzlərin hökmranlığı zamanında xalqı yalandan inandırmışdılar ki, şah[12] lakedemonlularla müharibəyə görə pul verəcək, bu yalanın üstü açıldıqdan sonra isə çalışdılar ki, hakimiyyəti öz əllərində saxlasınlar. Bəzən öncə xalqın inamına təsir göstərirlər, sonra yenə onu inandırırlar və onun razılığı ilə idarə edirlər.

Beləliklə, bütün dövlət quruluşu formalarında dövlət çevrilişlərinə gətirib çıxaran səbəblər, ümumiyyətlə, bax bunlardır.

IV. 1. Biz indi, bu bölməyə müvafiq olaraq, dövlət çevrilişlərinin hər bir dövlət quruluşu formasında hansı xarakter almasına nəzər yetirməliyik. Dövlət çevrilişləri hər şeydən öncə demaqoqların özbaşınalığından törəyir, onlar bir tərəfdən varlı adamlar haqqında topladıqları yalançı donoslarla bu axırıncıları birləşməyə vadar edirlər (axı ümumi qorxu ən qatı düşmənləri də birləşdirir), digər tərəfdən isə onları xalq kütləsinin üzərinə qaldırırlar. Bu mülahizənin doğruluğunu bir çox misallarla təsdiqləmək olar. 2. Məsələn, Kosda yaramaz demaqoqlar meydana çıxdıqdan, kübarlar isə birləşdikdən sonra demokratiya süqut etdi[13]. Rodosda da belə olmuşdu: demaqoqlar dövlətin pul vəsaitinin idarəçiliyini öz üzərlərinə götürdülər və dövlətin triyerarxlara olan borcunun ödənməsinə mane olmağa başladılar[14]; axırıncılar onları qorxu altında saxlayan məhkəmə araşdırmalarına görə öz aralarında birləşməyə məcbur oldular və demokratiyanı ləğv etdilər. Demokratiya Herakledə də ləğv edilmişdi[15]; bu koloniya yaradıldıqdan dərhal sonra demaqoqların sıxışdırdığı kübarlar sürgündə oldular, sonra sürgün edilmişlər birləşdilər və qayıtdıqda demokratiyanı ləğv etdilər. 3. Meqarada da demokratiya bu cür ləğv edilmişdi: demaqoqlar kübarların çoxunu qovmuşdular ki, onların əmlaklarını müsadirə etməyə imkanları olsun; bu sürgün edilmişlər çox idi; qayıtdıqda, onlar vuruşmada demokratlara qalib gəlib, oliqarxiyanı bərpa etdilər. Demokratiya zamanında Kimdə də belə olmuşdu, bunu Frasimax ləğv etmişdi[16]. Diqqət yetirdikdə məlum olur ki, digər yerlərdə də dövlət çevrilişləri təxminən bu cür baş vermişdir. Demaqoqlar gah xalqa yaltaqlanaraq, kübarları sıxışdırmağa başlayırlar, bununla da onları qiyam etməyə vadar edirlər, ya onların əmlakını bölüşdürməyi tələb edirlər, yaxud onların gəlirini dövlət mükəlləfiyyətinə verirlər [17]; gah da onlar barəsində donos toplayırlar ki, onların əmlakını müsadirə etməyə imkan qazansınlar.

4. Qədimlərdə, demaqoq eyni zamanda qoşun başçısı olduqda, dövlət quruluşu istibdad üsul-idarəsinə keçirdi; qədimlərdə olan müstəbidlərin az qala böyük əksəriyyəti demaqoqlardan olmuşdu. Bu, nə üçün əvvəllər belə olurdu, indi isə belə olmur, bunun səbəbi aşağıda göstərilənlərdən ibarətdir: o vaxt demaqoqlar sərkərdələr arasından çıxırdı (natiqlik istedadına malik olan adamlar yox idi), indi isə natiqlik sənəti yüksəlişdə olduğuna görə o adamlar demaqoq olur ki, onlar gözəl danışa bilir; lakin hərbi işdə təcrübəli olmadıqlarından müstəbid olmağa cəhd göstərmirlər, belə bir şey isə baş verdikdə bu yalnız qısa müddətlik olur. 5. Əvvəllər indikinə nisbətən istibdad üsul-idarəsi həm də ona görə tez-tez meydana çıxırdı ki, böyük səlahiy-

yətlər bəzi adamların əlində toplanırdı; məsələn, Miletdə istibdad üsul-idarəsi pritaniyaya görə meydana çıxmışdı (pritan bir çox mühüm işləri idarə edirdi)[18], həm də ona görə ki, o zaman şəhərlər çox da böyük deyildi, sadə xalq çöllərdə yaşayıb, dinclik bilmədən öz işi ilə məşğul olurdu, beləliklə də, xalq tərəfdarları[19] hərbi istedad sahibi olduqda, müstəbidliyə cəhd göstərirdi. Lakin onların hamısı ona görə buna nail olmuşdu ki, xalqın etimadını qazanmışdılar, etimad qazanmaq yolu isə ondan ibarət idi ki, onlar özlərini varlıların düşməni elan etmişdilər. Məsələn, Afinada Pisistrat pediaklarla çəkişməyə başlayıb, istibdad üsul-idarəsi qurmağa nail oldu. Meqarada Feagen – varlı adamların mal-qarasını çay kənarındakı otlaqda yaxalayaraq, tələf etdi; Dionisi – Dafneyi və varlıları taxsırlandırdıqdan sonra, bu düşmənçiliyin nəticəsi olaraq onun xalqa sədaqətli olmasına inandılar[20]. 6. Eyni zamanda əcdadlardan qalmış demokratiyadan müasirinə keçilməsinə də təsadüf edilir[21]. Harda ki, vəzifələrə əmlak senzi əsasında deyil, seçkilər yolu ilə adam təyin edilir, seçən də xalqdır, demaqoqlar vəzifələri öz əllərinə almağa cəhd göstərib, ona nail olurlar ki, xalq qanunun özündən yüksəkdə durur. Bunu aradan qaldırmaq və ya zəiflətmək üçün faydalı vasitə o ola bilər ki, vəzifəli adamların seçkisi zamanı səsvermə elliklə deyil ayrı-ayrı fillər üzrə getsin.

Demokratiyalarda dövlət çevrilişləri bax bu səbəblər üzündən baş verir.

V. 1. Xüsusən iki nəzərə çarpan səbəb, oliqarxiyanı çox vaxt dağılmağa doğru aparır: birincisi, – oliqarxların xalq kütləsini sıxışdırması; bu halda havadar istənilən şəxs olur, xüsusən bu rəhbərin özünün, Naksosda olduğu kimi, oliqarxların içərisindən çıxması məlum olanda, Naksosda Liqdamid sonralar buranın müstəbidi olmuşdu. 2. Həmçinin bir-birinin arasında



olan narazılıq da[22] çəkişmələrə səbəb olur. Bəzən, o vaxt ki, imtiyazlara çox az adam malikdir, dövlətin dağılmasına vəzifə tutmayan varlı adamlar səbəb olur, Messaliyada, İstrada, Herakledə və digər dövlətlərdə bu, öz yerini tapmışdı. Burada vəzifəyə keçə bilməyən adamlar ta ki, əvvəlcə böyük qardaşlar, sonrasa öz növbəsində kiçiklər vəzifə alana qədər həyəcan təbili çalırdılar. (İş ondadır ki, bəzi yerlərdə ata və oğul eyni bir vaxtda vəzifə tuta bilmir, digər yerlərdə – böyük və kiçik qardaş). Nəticədə Massaliyada oliqarxiya quruluşu politiyaya yaxınlaşdı, İstrada oliqarxiya, nəhayət, demokratiyaya çevrildi, Herakledə isə hakimiyyət bir para adamdan altı yüz vətəndaşa keçdi. 3. Knid-də kübarlar arasında çəkişmə başladıqdan sonra oliqarxiya devrilmişdi, bu onunla əlaqədar idi ki, yalnız bəzi adamlar vəzifəyə keçə bilərdi, indicə xatırlandığı kimi ata vəzifədə olduqda, oğul kənarda qalırdı, qardaşlardan isə onlar bir neçə olduqda, vəzifəyə yalnız böyüyü buraxılırdı. Bu düşmənçilikdən istifadə edən xalq özünə kübarlar içərisindən havadar seçib, onlara hücum etdi və qələbə qazandı, axı qarşılıqlı çəkişmələr həmişə zəifliklə nəticələnir. 4. Eləcə də qədim dövrlərdə Erifrada Basilidlərin[23] oliqarxiyası zamanı belə olmuşdu, hakimiyyətdə olanlar dövlət işlərinə çox can yandırsalar da, xalq, bir para adamın onu idarə etməsindən narazı qalıb, dövlət quruluşunu dəyişdirdi. Oliqarxiya fəlakətin acısını ayrıca olaraq həm də demaqoqluqla məşğul olanların şöhrətpərəstliyi üzündən çəkir. Demaqoqluq əlavə olaraq iki cür olur. Bəzən oliqarxların özlərinin arasında, çünki axırıncılar tamam az olsalar da, onların içərisində yenə də demaqoq tapılacaq; məsələn, Afinada Xarikl Otuzların arasında, yaxud Dörd yüz Frinin içərisində, onlara yaltaqlanaraq güc qazandı.

5. Bəzən oliqarxlar qara camaatın arasında demaqoqluqla məşğul olurlar. Məsələn, vətəndaşlardan ötrü seçkisi qara ca-

maatdan asılı olan mühafizə dəstələri demaqoqluq fəaliyyəti ilə məşğul olurdu, ümumiyyətlə isə, o, oliqarxiya dövlətlərində, harada ki, vəzifəyə seçilməli olan adamları vəzifəyə seçmirlər, amma harada ki, seçicilər ağırsilahgəzdirənlər, yaxud sadə xalqdır, vəzifəyə seçkilər isə böyük əmlak senzi ilə, yaxud heteriyalara[24] mənsub olmaqla şərtlənir, necə ki, bu Abidosda yerini tapmışdı, həmçinin harada ki, məhkəmələr idarəçiliklə məşğul olan vətəndaşlar içərisindən tamamlanır, axırıncılar Pont Herakledə olduğu kimi demaqoqcasına məhkəmə qarşısında yaltaqlanır və dövlət çevrilişi edirlər.

6. Oliqarxiyalarda dövlət çevrilişi hakimiyyətin daha az adamın əlində cəmləşdiyi halda da baş verir. İncidilmişlər bərabərliyi saxlamağa cəhd göstərərək xalqın yardımına əl atmağa məcbur olurlar. Oliqarxiyalarda dövlət çevrilişləri, haçan ki, oliqarxlar pozğun həyat keçirib, öz əmlaklarını dağıdırlar, onda da baş verir; axı belə adamlar yeniləşmə aparmağa səy edirlər və yaxud qəddarcasına hakimiyyəti ələ keçirməyə çalışırlar, ya da bir başqasını buna hazırlayırlar, necə ki, məsələn, Hipporin [25] Sirakuzada – Dionisini, Amfipoliyada Kleotim adlı birisi şəhərdə Xalkiddən gəlmiş mühacirləri yerləşdirmişdi, həmin adamlar gəldikdə onları varlı adamların üstünə qaldırmışdı. Eləcə də Egində kim ki, Xarətlə danışıq aparırdı, elə həmin səbəbdən də dövlət çevrilişi etməyə cəhd göstərmişdi[26]. 7. Bəzi oliqarxlar çalışırlar ki, xalqı tez, bu və ya başqa hərəkətə təhrik etsinlər, bəzən Pont Apolloniyada olduğu kimi onlar ictimai malı oğurlayır, nəticədə ya onların özləri kimilər, ya da talançılara qarşı mübarizəyə qalxanlar onlarla çəkişməyə başlayır. Amma oliqarxiyanın daxilində həmrəylik varsa, onda onun öz-özünə dağılması çətindir. Farsaldakı dövlət quruluşu bunu sübut edir, burda oliqarxlardan ibarət kiçik bir dəstə kütlə üzərində hakimiyyəti öz əlində saxlayır, çünki onların arasında yekdillik var.



8. Oliqarxiya, onda digər oliqarxiya əmələ gəldiyi halda da dağılır. Bu o zaman baş verir ki, tam hüquqlu vətəndaşlar az olduqda, onların hamısı yüksək vəzifələrə buraxılmır. Bu, vaxtı ilə Eliddə olub; dövləti oliqarxlar idarə edirdi və onların çox az bir qismi heront ola bilirdi, çünki onlar doxsan nəfər idilər, həm də vəzifəyə həmişəlik yiyələnmişdilər, seçkilər isə sparta herontları seçkiləri kimi dinastiya formasında keçirilirdi.

9. Oliqarxiyanın dağılması həm hərb, həm də sülh dövrlərində baş verə bilər. Müharibə zamanlarında oliqarxlar xalqa inanmadıqlarından muzdlu hərbçilərdən istifadə etməyə məcbur olurlar və onlar bu adamları kimə etibar edirsə, o çox vaxt müstəbid olur, məsələn, Korinfdə Timofan kimi; amma onlar bir neçə nəfər olarsa, onda onlar özləri üçün sülalə hakimiyyətini əldə edirlər[27]; bununla belə, bəzən bundan qorxaraq xalq kütləsinə də dövlət idarəçiliyində bulunmağa imkan verirlər, çünki onlar xalqın yardımı olmadan keçinə bilmirlər. Sülh zamanlarında bir-birinə qarşı olan inamsızlıq nəticəsində oliqarxlar hərbi mühafizəni ədavət aparan tərəflərin vasitəçisi olan muzdlu hərbçilərə və onların rəisinə tapşırırlar, axırıncı bəzən bunların və digərlərinin hökmdarı olur. Larisada Alevadların[28] idarəçiliyi dövründə Simlə və Abidosda heterilərin, rəhbərlik edənlərdən biri də İfiad idi, hökmranlığı zamanında belə olmuşdu.

10. Çəkişmələr həm də ona görə baş verir ki, oliqarxlardan bəziləri digər oliqarxların nigah təkliflərini rədd edir və ya məhkəmə araşdırmalarında düşməncəsinə hərəkət edirlər. Məsələn, yuxarıda göstərildiyi kimi baş tutmayan elçilik üstündə çəkişmə. Yeri gəlmişkən Eritriyada atlıların oliqarxiyasını da elçilikdə incimiş Diaqor dağıtmışdı. Herakledə və Fivada məhkəmənin çıxardığı qərar üstündə qiyam baş vermişdi: Herakiedə Yevetionu, Fivada isə Arxini zinakarlıq üstündə doğrudan da haqlı olaraq cəzalandırırlar, lakin bunu insafsızcasına həyata ke-

çirirlər: Yevetionun və Arxinin siyasi rəqibləri bu işdə hədlərini o qədər aşırlar ki, onların boyunlarına kündə vurub, şəhər meydanına çıxarırlar.

11. Oliqarxiyaların çoxu ona görə devrilmişdi ki, onlar olduqca zalımanə xarakter daşıyırdı, bu isə bütün hüquqlara malik olan şəxsləri acıqlandırırdı. Kniddə və Xiosda oliqarxiyalarla belə olmuşdu. Politiya adlandırılanlarda və oliqarxiyalarda, hansılarda ki, şura üzvlüyünə, hakim vəzifəsinə və digərlərinə təyin edilmə əmlak senzi ilə şərtlənir, dövlət çevrilişləri bəzən adicə təsadüfdən də asılı olur. Tez-tez əvvəllərdə müəyyən edilmiş, vəziyyətə münasib olan senzə müvafiq olaraq, belə ki, buna əsasən oliqarxiyalarda həqiqətən bəzi adamlar, politiyalarda isə ortabab vətəndaşlar dövlət idarəçiliyində iştirak edirdilər, sonralar, haçan ki, dövlət ağ günə çıxır, sülhəmi, yoxsa başqa bir münasib səbəbə görəmi eyni bir əmlak bir neçə dəfə senzi üstələyir, belə ki, hər şey bütün vətəndaşların üzünə açıq olmalıdır. Bu halda çevriliş ya yavaş-yavaş, tədriclə, səsə salınmadan, ya da sürətlə baş verir.

12. Oliqarxiyalarda baş verən çevrilişlərin və çəkişmlərin səbəbləri, bax, bunlardır. Əlavə olaraq qeyd etmək lazımdır ki, demokratiyalar və oliqarxiyalar bəzən onlara müvafiq olmayan, zidd, lakin oxşar quruluşa keçirlər; məsələn, məhdud qanunları olan demokratiya və oliqarxiyalardan qeyri-məhdud demokratiya və oliqarxiyalar törəyir və əksinə.

VI. 1. Aristokratiyalarda çəkişmələr qismən ona görə baş verir ki, onlarda imtiyazlara yalnız bir para adam malikdir; bu hal yuxarıda göstərildiyi kimi oliqarxiyalarda da siyasi hərəkatla nəticələnir, çünki əslində aristokratiya məlum cəhətdən oliqarxiyadır: bir para adamın seçilməsi nəticə etibarı ilə eyni olmasa da, hər ikisini idarə edən bir para adamdır. Buna görə aristokratiyanı da oliqarxiya hesab etmək olar. Bu, ən çox istər-istəməz o halda baş verir ki, bu və ya başqa miqdarda adam lovğalıqdan əl çəkir, onlar öz fədakarlıqları ilə tam hüquqlu vətəndaşlara bənzəyir. Lakedemonda parfeniyalar adlananlarla belə olmuşdu (onlar «oxşarlardan» meydana çıxmışdı), onların suiqəsdinin üstünü açdılar və Taranta, kaloniya təşkil etməyə göndərdilər[29].

2. Həmçinin – haçan ki, görkəmli yer tutan bəziləri, böyük hüquqlara malik olan bir para adam tərəfindən alçaldılır, hərçənd fədakarlıqda həmin axırıncılardan geri qalmırlar; məsələn, Lisandr – çarlar tərəfindən[30]. Yaxud bir cəsur insan imtiyaza malik olmadıqda, yararlanmadıqda, məsələn, Aqasilayın dövründə spartiadlara qarşı silahlı üsyan qaldıran Kinadon. Eyni zamanda – əhalinin bir hissəsi həddindən artıq yoxsul olduqda, digəri isə firavan yaşadıqda; bu hər şeydən çox müharibə vaxtlarında olur; Tirteyin «Qanunçuluq» adlı şerindən aydın olur ki, bu Messin müharibəsi zamanı[31] Lakedemonda da baş vermişdi; bəzi adamlar müharibəyə görə yoxsulluğa dözüb, torpağın cana görə yenidən paylaşdırılmasını tələb edirdilər. Nəhayət, əgər birisi dövlətdə çox mühüm bir mövqeyə yüksəlibsə, həm də daha yüksəyə qalxmaq üçün bütün keyfiyyətlərə malikdirsə, qiyam qaldırır ki, zatən Lakedemonda İran müharibələri zamanı keçmiş ali baş komandan Pavsani və Karfagendə Annon kimi hakimi – mütləq olsun[32].

3. Lakin politiya və aristokratiyaların dağılmasının əsas səbəbi bu dövlət quruluşlarının özlərinin ədalətdən yayınmalarıdır. Dağılma ondan başlayır ki, politiyaya demokratiya və oliqarxiya düzgün olmayan nisbətdə birləşdirilir, aristokratiyaya isə – bu və o biri, həm də xeyirxahlıq, xüsusən də göstərilən iki element. Demokratiya və oliqarxiyanı nəzərdə tuturam, çünki, məhz onları politiyaya və aristokratiya adlandırılanların böyük hissəsinə birləşdirməyə çalışırlar. 4. Axı aristokratiya politiya adlananlardan,

məhz bu cəhəti ilə də fərqlənir, buna görə də birincilərin davamlığı az, ikincilərin daha çoxdur. Oliqarxiya tərəfə daha çox meyl edən dövlət quruluşları aristokratiyalar adlanır, demokratiya tərəfə daha çox meyl edənlər isə – politiyalar. Buna görə ikincilər birincilərdən daha davamlıdır: əksəri böyük qüdrətə malikdir və hüquq bərabərliyi həyata keçirilən yerlərdə adamlar nizam-intizamı daha çox sevir, halbuki böyük var-dövlət sahibləri, dövlət quruluşu onlara əhəmiyyətli dərəcədə üstünlük versə, cəhd göstərirlər ki, həyasızlıq və acgözlük etsinlər. 5. Ümumiyyətlə, dövlət quruluşu hansı tərəfə meyl edirsə, dəyişiklik də həmin istiqamətdə gedir, çünki bu və digərləri onlara nə sərfəlidirsə, onu gücləndirməyə çalışırlar; məsələn, politiyanın demokratiyaya, aristokratiyanın oliqarxiyaya keçməsi. Yaxud dəyişiklik əks istiqamətdə gedir, yəni aristokratiya demokratiyaya çevrilir (əgər daha az təmin olunmuşlar, incikliyə məruz qalıb əks tərəfə çəkməyə başlarsa), politiya isə – oliqarxiyaya. Yalnız o quruluş davamlı dövlət quruluşu olur ki, beləsində bərabərlik yaxşı cəhətə uyğun olaraq həyata keçirilir, həm də eləsində ki, orada hər kəs özünə məxsus olan şeydən istifadə edir.

6. Biz bu kimi nümunələrlə Furiyada rastlaşırıq, burada vəzifə tutmaq üçün əmlak senzi çox yüksək olduğundan sonralar azaldıldı, vəzifələrin sayı isə – artırıldı. Kübarlar qanunsuz olaraq bütün torpaq mülkiyyətini öz əllərində cəmləşdirdiklərindən (axı daha çox oliqarxiya tərəfə meyl edən dövlət quruluşu onlara öz var-dövlətlərini artırmağa imkan verirdi)...[33] Xalq müharibə zamanı öz gücünü artırıb, qarnizon üzərində qələbə çaldı və böyük torpaq sahələrinə malik olanları bunlardan əl çəkməyə məcbur etdi[34].

7. Üstəlik, hər bir aristokratiya quruluşu oliqarxiyaya yaxın olan quruluş kimi kübarların daha çox zənginləşməsinə gətirib çıxarır. Məsələn, Lakedemonda mülkiyyət bir para adamın əlində cəmləşib və kübarların nəyi istəsələr onu etməyə, kimlə istəsələr qohum olmağa daha çox imkanları var. Buna görə də Lokrların dövləti Dionisinin o nigahı üzündən məhv oldu ki, nə demokratiyada, nə də düzgün təşkil edilmiş aristokratiyada yer tapa bilməzdi[35]. Bununla belə, aristokratiyalar, hər şeydən çox tədricən zəifləyərək, dəyişir. Əvvəllər də, ümumiyyətlə, bütün dövlət quruluşu formaları xüsusunda deyilmişdi ki, kiçik dəyişikliklər də çevrilişlərə doğru aparır; dövlət idarəçiliyi işində nəyəsə etinasızlıq etmək kifayətdir ki, bundan sonra daha əhəmiyyətli bir şey asanca yerini dəyişməyə başlayır və bu, asanlıqla, ta dövlət quruluşu dağılana qədər davam edir.

8. Bu, Furiya dövlət quruluşunda da özünü göstərdi: buradakı qanuna görə strateq vəzifəsinə seçilməyə beş il keçdikdən sonra icazə verilirdi; acıqlanmış və xalq kütləsinin hüsn-rəğbətini qazanmış əksəri cavan olan bir para adam, hakimiyyətdə olanlardan qorxmadan və nəzərdə tutduqlarını asanca həyata keçirmək ümidi ilə, hər şeydən öncə bu qanunu dəyişdirməyə cəhd göstərdi ki, eyni şəxslər strateq vəzifəsini həmişəlik tuta bilsin: onlar qabaqcadan görürdülər ki, xalq onları məmnuniyyətlə seçəcək. Xatırlanan qanunun icra edilməsinə nəzarət etməkdən ötrü təyin edilmiş vəzifəli şəxslər (onlar simbul adlanırdı[35]), əvvəl müqavimət göstərmək istədilər, lakin sonra özlərini inandıraraq, güman etdilər ki, onlar xatırlanan qanunu dəyişdirib, yerdə qalan şeylərdə dövlət quruluşuna toxunmayacaqlar. Sonralar isə digər dəyişikliklərə mane olmaq istəsələr də, onlar heç nəyə nail olmadılar və dövlət quruluşu, kimlər ki, yenilik tətbiq etməyə başlamışdı, onların xeyrinə dinastiya ilə əvəzləndi.

9. Bütün dövlət quruluşu formaları ya daxili, ya da xarici səbəblərdən onda dağılır ki, əks quruluşa malik olan dövlət yaxınlıqda olur, yaxud lap uzaqda olsa da qüdrətlidir. Biz bunu

Afina və Lakedemonun hegemonluğu timsalında görürük: afinalılar hər yerdə oliqarxiya, lakedemonlular isə – demokratiya idarəçiliyini ləğv etmişdilər. İndi demək olar ki, dövlət çevrilişlərinə doğru aparan çəkişmələrin və daxili qarışıqlıqların səbəbi haqqında hər şey söylənildi.

VII. 1. *Bilavasitə bundan sonra o xilasedici tədbirlərdən* danışmaq lazımdır ki, bunların sayəsində, ümumiyyətlə, dövlət quruluşunun, o cümlədən onun hər bir formasının möhkəmliyini qorumaq olur. Hər şeydən öncə aydındır ki, bizə dövlət quruluşlarını məhvə doğru aparan səbəblər məlumdursa, onda biz, əlbəttə, onların mühafizə edilməsi ilə şərtlənən səbəbləri də bilirik: əks tədbirlər əks hərəkətlər doğurur, dağılma isə mühafizə edilməyə ziddir. O dövlət quruluşunda, hansında ki, əsas prinsiplər yaxşı qarışdırılıb, onları hər şeydən öncə başqa qanun pozuntularından qorumaq lazımdır, həm də bütün xırda şeylərin mühafizə edilməsinə xüsusilə diqqət yetirmək gərəkdir.

2. Qanun pozuntusu dövlət həyatına hiss edilmədən daxil olur, necə ki, kiçik məxaric, tez-tez təkrar olunmaqla var-dövlət itkisinə səbəb olur, məxaric isə, məhz ona görə hiss edilmir ki, birdən-birə baş vermir; bu ağılı çaşdırır – sofistikaya bənzər nəticə meydana çıxır: ayrı-ayrı hissələr kiçikdirsə, onda tam da böyük deyil. Bu isə qismən belədir, qismən yox: axı tam, bütövlükdə götürəndə balaca deyil, o yalnız kiçik hissələrdən ibarətdir. Beləliklə, hər şeydən öncə bu cür əsaslardan çəkinmək lazımdır, ona görə də xalq kütləsini aldatmaqdan ötrü quraşdırılmış sofizmlərə inanmaq gərək deyil: onlar dəlillərlə ifşa ediləcək. Siyasi sofizm adlandırdıqlarımız barəsindəsə biz əvvəllər danışmışdıq.

3. Bundan başqa nəzərə almaq lazımdır ki, təkcə aristokratiyalar yox, həm də elə oliqarxiyalar vardır ki, onlar bu quruluşun davamlı olmasına görə deyil, yalnız ona görə mühafizə edilir ki, vəzifə sahibləri tam hüquqlu vətəndaşlığa aidiyyatı olmayanlara da, buna aidiyyatı olanlar kimi yaxşı münasibət göstərir: birinciləri onlar sıxışdırmır, həm də onlardan dövlət idarəetməsində iqtidarlı olanları tam hüquqlu vətəndaşlar sırasına daxil edirlər, ümumiyyətlə, şöhrətpərəst adamları hörmət-izzətə, xalq kütləsini isə – maddi marağa aid olan işlərdə sıxışdırmırlar; bir-birilə və adamlarla bərabər hüquqlu vətəndaşlığa aidiyyatı olan qarşılıqlı münasibətlərdə isə demokratiklik göstərirlər. Zira bərabər hüquqlu şəxslər arasında demokratların xalq kütləsi üçün bu bərabərliyi[37] əldə etməyə cəhd göstərməsi yalnız qanunauyğun deyil, həm də faydalıdır. 4. Buna görə bərabər hüquqlu vətəndaşlar çoxdursa, demokratiya qanunlarının bəziləri böyük fayda verir, məsələn, bərabər hüquqa malik olanların hamısı vəzifə tuta bilsinlər deyə vəzifəli şəxslərin yarım il müddətinə seçilməsi, axı bərabər hüquqlular rəiyyət kimidir, ona görə də onların arasında, yuxarıda deyildiyi kimi, tez-tez demaqoqlar peyda olur. Bu səbəbdən oliqarxiyalar və aristokratiyalar dinastiya quruluşuna daha az keçirlər: qısa *müddətdə hakimiyyətdə olmaqla, uzun müddətdə olduğu kimi,* bu qədər şər işlər görmək olmaz, yəni bu axırıncı cəhət onunla nəticələnir ki, oliqarxiyalarda və demokratiyalarda istibdad üsul-idarəsi meydana çıxır, bununla belə hər yerdə istibdad üsul-idarəsinə o adamlar cəhd göstərir ki, ən böyük nüfuza onlar malikdir, yəni demokratiyalarda demaqoqlar, oliqarxiyalarda sülalələr[38], yaxud o adamlar ki, uzun müddət mühüm vəzifələri onlar tuturlar.

5. Dövlət quruluşunun mühafizə edilməsinə təkcə onun hər cür dağıdıcı əsaslardan uzaq olması kömək etmir, bəzən də axırıncının yaxınlıqda olması, qorxuya səbəb olub, mövcud dövlət quruluşundan möhkəm yapışmağa vadar edir. Buna görə dövlət

quruluşunun qeydinə qalanlar vətəndaşları ehtiyatlı olmağa təhrik etməlidirlər ki, bu adamlar dövlət quruluşunu qorusunlar və onu dağıtmasınlar, onlar gecələr mühafizənin qayğısına qaldıqları kimi, əlavə olaraq yaxınlarına da əslində nəyin uzaqda olduğunu göstərsinlər. Bundan sonra, kübarlar arasında baş verən rəqabət və çəkişmələrin qarşısını qanunda göstərilən vasitələrlə almağa çalışmaq lazımdır; bunu rəqabət aparmayanlar barəsində də etmək vacibdir ki, onlar bundan kənarda qalsınlar. Bəlanın əmələ gəlməsini əvvəlcədən duymağı bacarmaq – hər yoldan keçənin deyil, təcrübəli dövlət xadiminin işidir.

6. Oliqarxiya və demokratiyalarda, əmlak senzi ilə əlaqədar, yəni çoxlu pulun meydana çıxmasına baxmayaraq, bu senz əvvəlki qaydada qaldıqda quruluşun dəyişilməsinin qarşısını almaqdan ötrü aşağıda göstərilənlərə əsaslanmaq faydalıdır: yeni senzin məbləğini əvvəlki ilə tutuşdurmaq lazımdır, həm də əmlaka ildə bir dəfə qiymət qoyulan ölkələrdə bunu hər il etmək vacibdir; daha böyük dövlətlərdə isə – ya iki ilin, ya da dörd ilin tamamında. Həm də əgər vətəndaşların var-dövləti dövlətdə mülkiyyətə qiymət qoyulan əvvəlki vaxta nisbətən artmışsa, yaxud azalmışsa, onda senzin artması, yaxud azalması xüsusunda həmin vaxta uyğun olan qanun təsis etmək lazımdır – əgər var-dövlət artmışsa, onun artma dərəcəsindən asılı olaraq qiyməti qaldırmaq; var-dövlət əksilibsə, azaltmaq lazımdır. 7. Əgər oliqarxiya və politiyalarda bu iş görülməsə, onda bir sıra hallarda oliqarxiya dinastiyaya (sülalə üsul-idarəsinə), politiya isə – oliqarxiyaya keçə bilər, digər hallarda – politiyadan demokratiya, oliqarxiyadan isə – politiya, yaxud demokratiya əmələ gələ bilər. Həm demokratiyada, həm oliqarxiyada, həm monarxiyada[39], həm də hər bir dövlət quruluşunda kimsənin həddən artıq şişirdilməsinin lüzumsuzluğu ümumi prinsip olmalıdır; mənsəb və rütbəni isə bir dəfəyə həddən artıq deyil, cüzi



və uzun müddətə verməyə çalışmaq lazımdır (axı adamlar yolundan çıxır, bundan başqa elələri var ki, uğurdan başları gicəllənir). Əgər bu mümkün deyilsə, onda bütün mənsəb və rütbələri verdikdən sonra onları bir dəfəyə yox, tədricən geri almaq lazımdır. 8. Hər şeydən yaxşı isə işi müvafiq qanunlar vasitəsi ilə elə nizamlamağa cəhd etmək lazımdır ki, heç kəs, bu dost-aşnanın çoxluğuna, yaxud var-dövlətə əsaslanmış olsa da belə, həddən artıq öz qüdrəti ilə seçilməsin; əks təqdirdə belə adamları ölkədən kənarlaşdırmaq yaxşıdır. Bəziləri dövlətə hətta öz həyat tərzləri ilə yenilik gətirdiklərindən, bir vəzifə təsis etmək lazımdır ki, bu, kimin həyat tərzinin dövlət quruluşu üçün zərərli olmasına nəzarət etsin, yəni demokratiyada demokratiyalardan ötrü, oliqarxiyalarda oliqarxiyalardan ötrü, digər dövlət quruluşlarında da buna müvafiq surətdə. Bu səsbəblərdən də vətəndaşlardan bir hissəsinin həddən artıq firavan yaşamasından çəkinmək lazımdır; əhalinin əks hissəsinin bu və ya digər dövlət işlərinə və vəzifələrinə daimi olaraq cəlb edilməsi buna qarşı olan davacatdır (mən nəcib adamlarla **(epieikeis)** xalq kütləsini, varlılarla yoxsulları əhalinin əks hissələri hesab edirəm); bununla bərabər ya yoxsullarla varlıları yaxınlaşdırmağa, ya da ortababların gücünü artırmağa çalışmaq lazımdır – axırıncı vasitə bərabərsizlik üzündən baş verən daxili çəkişmələrə nəhayət verilməsi ilə nəticələnir.

9. Hər bir dövlət quruluşunda ən başlıcası – qanunun və digər üsulların vasitəsilə işi elə qurmaqdır ki, vəzifəli şəxslərin varlanması mümkün olmasın. Oliqarxiya dövlətlərində buna çox diqqətlə nəzarət etmək lazımdır. Dövlət idarəçiliyində iştirak etməkdən uzaqlaşdırılan kütlə bu xüsusda doğrusu, çox da hiddətlənmir, əksinə, əgər hər kəsə öz şəxsi işləri ilə sakitcə məşğul olmağa imkan verilirsə, o hətta razı qalır; lakin o fikirləşsə ki, idarə edənlər ümumun malını yeyir, onda imtiyazdan və

gəlirdən yararlanmaması onu məyus edir. 10. Əgər kiməsə bunu təşkil etmək nəsib olsa, onda yalnız bu halda demokratiya ilə aristokratiyanın birləşdirilməsini mümkün hesab etmək olar: kübarlardan ötrü də, xalq kütləsindən ötrü də elə imkan yaranar ki, bunlar da, o birilər də öz istədiklərinə nail olsunlar. Axı bir tərəfdən hamını idarə etməyə buraxmaq – demokratiyanın prinsipidir, digər tərəfdən – kübarların vəzifə tutması – aristokratiyanın prinsipidir; bu isə o halda ola bilər ki, vəzifə tuta-tuta varlanmaq mümkün olmasın. Doğrudan da, yoxsullar hakimiyyətdə olmaq istəmirlər; çünki bu bir mənfəətlə bağlı deyil, onlar öz şəxsi işləri ilə məşğul olmağa üstünlük verirlər; varlı adamlar isə vəzifə tuta bilər, ona görə ki, ümumun pulunu mənimsəməyə onların ehtiyacı yoxdur. Məlum da olur ki, yoxsullara öz işlərində səylə çalışmalarına görə varlanmaq imkanı veriləcək, kübarlar isə hər yoldan keçənin tabeçiliyi altında olmamaq imkanı qazanacaq. 11. Ümumi sərvətin oğurlanmasının qarşısını almaqdan ötrü pulun hamısının təhvil verilməsində bütün vətəndaşlar iştirak etməlidir, surətləri isə fratriyalarda, loxlarda və fillərdə saxlanmalıdır[40]; vəzifəsini təmənnasız icra etməkdə fərqlənənlərə qanunun müəyyənləşdirdiyi kimi hörmət və ehtiram göstərilməlidir. Demokratiyalarda varlı adamlara aman verilməli və onların yalnız əmlakı deyil, gəliri də bölüşdürülməməlidir (axırıncı bəzən bir sıra dövlətlərdə gizlincə baş verir); əgər onlar, məsələn, xor, məşəllə qaçmaq və bu kimi işləri təşkil etməkdə xeyir verə bilmirsə belə, yaxşı olardı ki, tələb olunan böyük mükəlləfiyyət borclarını öz öhdəsinə götürənlər saxlanılsın. 12. Oliqarxiyalarda isə yoxsullara münasibətdə böyük qayğı göstərmək, onlara gəlirli vəzifələrdə işləmək imkanı vermək və əgər varlılardan birisi yoxsullarla həyasızcasına rəftar etməyi özünə rəva bilibsə, necə ki, o, bunu özününkülər arasında etsəydi, çox ciddi cəza kəsmək lazımdır. Bundan başqa, əmlak bağışlama yolu ilə deyil, varislik hüququ əsasında keçməlidir, həm də bir adam bir neçə mirasa yox ancaq birinə yiyələnməlidir. Bu yolla əmlak bərabərliyinə daha artıq dərəcədə riayət etmək olardı, yoxsulların əksəriyyəti isə firavanlığa çatardı. 13. Bütün bunlardan başqa demokratiyalarda da, oliqarxiyalarda da, kimlər ki, siyasi hüquqların hamısına malik deyil, onlara bərabər və yaxud da xüsusi maraq göstərmək faydalıdır (demokratiyalarda bu varlılara aiddir, oliqarxiyalarda – yoxsullara). Yalnız ən yüksək vəzifələr istisna təşkil etməlidir; bunların ya hamısını, ya da əksəriyyətini tamhüquqlu şəxslərə vermək lazımdır.

14. Kimlər ki, yüksək vəzifə tutmaq niyyətindədir, onlar üç keyfiyyətə malik olmalıdır: birincisi, mövcud dövlət quruluşuna hüsn-rəğbət göstərmək; sonra, qulluğu ilə bağlı vəzifəsini icra etmək üçün böyük qabiliyyətə malik olmaq; üçüncüsü, hər bir dövlət quruluşu formasına uyğun xeyirxahlığı və ədalətliliyi ilə fərqlənmək. Əgər ki, eyni olmayan şeylər bütün dövlət quruluşlarında qanunauyğunluq sayılırsa, onda ədalətin anlaşılmasında da istər-istəməz təfavüt var. Amma budur, ortaya çətinlik çıxır: əgər butun bunlar eyni bir adamda yoxdursa, burada seçim necə olmalıdır? Məsələn, birisi sərkərdəlik qabiliyyətinə malikdir, lakin ləkələnib və məlum dövlət quruluşu formasına hüsn-rəğbət göstərmir; digəri – ədalətlidir və hüsn-rəğbət göstərir, lakin sərkərdəlik qabiliyyətinə malik deyil – seçim necə olmalıdır? 15. Yəqin ki, bu halda, iki fikirlə hesablaşılmalıdır; bütün insanlar hansı keyfiyyətlərə daha çox dərəcədə, hansılara isə – daha az malikdir. Buna görə müharibəyə başçılıq məsələsində üstünlüyü daha çox hərbi işdəki təcrübəyə vermək lazımdır, nəinki xeyirxahlığa: hərbi qabiliyyətə az, alicənablığa tez-tez təsadüf olunur. Pulun saxlanılması və xəzinəyə binagüzarlıq etmək məsələsində əksinə hərəkət etmək lazımdır: burda əksə-

riyyətə xas olan xeyirxahlıq daha çox tələb olunur, bilik isə, əlavə olaraq tələbat nə qədərdirsə – ümumi sərvətdir. Lakin meydana sual çıxa bilər: əgər qabiliyyət göz qabağındadırsa və dövlət quruluşuna hüsn-rəğbət varsa, daha xeyirxahlıq nəyə lazımdır? Axı artıq bu iki keyəfiyyət xeyir gətirməyə başlayacaq. Amma, məgər elə ola bilməzmi ki, bu iki keyfiyyətə malik olanlar, hədlərini bilməyən adamlar olsun? Necə ki, özlərini tanımalarına və özlərinə qarşı məhəbbətlərinin olmasına baxmayaraq, yenə də özlərini gözləmək halında deyillər, eləcə də bəzilərinə ictimai işə münasibətdə özlərini bu cür aparmağa heç nə mane olmur.

16. Ümumiyyətlə, qanunlarda dövlət quruluşundan ötrü faydalı olan bütün şeylər, bizim fikrimizcə, həm də quruluşun mühafizə edilməsinə xidmət edir; eyni zamanda, başlıcası da dəfələrlə xatırlanan qayda – ona nəzarət etmək lazımdır ki, əhalinin bir hissəsi, hansı ki, mövcud dövlət quruluşunun saxlanılmasını istəyir, bunu istəməyən digər hissədən güclü olsun. Bütün bunlardan başqa, düzgünlərdən yayınan dövlət quruluşlarında – nəyə diqqət yetirilmirsə, o, yəni ortabab vətəndaşlar nəzərdən qaçırılmamalıdır: o şeylər ki, demokratiyaya xas olan kimi görünür, onların əksəriyyəti demokratiyanı zəiflədir, o şeylər ki, oliqarxiyaya şamil edilir, onların əksəriyyəti oliqarxiyanı zəiflədir. 17. O adamlar mübaliğəyə yol verir ki, onlar yalnız öz dövlət quruluşlarının dəyərli olduğunu görür; onlar bu halda nə baş verirsə, bunun burunla da olduğunu nəzərdən qaçırırlar, əgər o, düz və daha qəşəng formadan uzaqlaşıb, ya əyri, ya da fındıq formasına yaxınlaşırsa, lakin bununla bərabər yenə də qəşəng qalmaqda davam edirsə, onda o, bizim gözümüzü oxşayır, əgər o, bu, yaxud digər pis vəziyyətə düşürsə, onda hər şeydən öncə sifətin ayrı-ayrı hissələrinin tarazlığı pozulacaq və nəhayət iş o yerə gəlib çatacaqdır ki, bu uyğunsuzluq tamamilə



yox olacaq, həm də ya böyük, yaxud çox kiçikliyinə görə burun öz xoş görünüşünü itirəcək; bunu bədənin yerdə qalan hissələri barəsində də demək olar. Bu, digər dövlət quruluşu formalarında da baş verir. 18. Düzgün quruluşdan yayınmalarına baxmayaraq demokratiya da, oliqarxiya da babat quruluş ola bilər. Lakin birisi bu və ya digər quruluşu gücləndirməyə başlasa, onda hər şeydən öncə o bunu korlayar, axırda isə heçə döndərər. Buna görə qanunverici və siyasi xadim hansı demokratik qanunların demokratiyanın saxlanılmasına xidmət etdiyini, hansıların onu məhvə doğru apardığını və oliqarxiya qanunlarından hansılarının oliqarxiyanı mühafizə, hansıların məhv etdiyini yaxşı bilməlidir. Axı bu və digərinin mövcudluğu və mühafizə edilməsi varlı adamlar və xalq kütləsi olmadan mümkün deyil; lakin onlarda əmlak bərabərliyi həyata keçirilsə, istər-istəməz başqa quruluş meydana çıxacaqdır. Beləliklə, kimlər ki, varlı adamların, yaxud xalq kütləsinin həddən artıq cəsarətli qanunlarla axırına çıxır, əslində dövlət quruluşunu dağıdır.

19. Bu kimi səhvlər həm demokratiyalarda, həm də oliqarxiyalarda olur. Xalq kütləsinin qanunlardan üstün olduğu demokratiyalarda – demaqoqlar: onların varlı adamlarla mübarizəsi həmişə dövləti iki yerə parçalayır. Demaqoqlar, əksinə, həmişə varlıların xeyrinə danışmalıdır, oliqarxiyalarda isə, oliqarxlar xalqın mənafeyinin qeydinə qalmalıdır. Həm də oliqarxlar and içməni indi etdiklərinin əksinə etməli idilər. Hal-hazırda bəzi oliqarxiyalarda belə and içirlər: «Mən sadə xalqa ədavət bəsləyəcəyəm və ona qarşı ən pis niyyətdə olacağam»; amma əks fikirlərlə yaşamaq lazımdır və gözə çarpdırmaq üçün oliqarxlar bunları özlərinin andlarında göstərməlidir: «Mən sadə xalqı incitməyəcəyəm».

20. Lakin dövlət quruluşunun mühafizə edilməsinə köməklik edən bizim göstərdiyimiz bütün vasitələrdən ən başlıcasına hal-hazırda etina edilmir – bu müvafiq dövlət quruluşu ruhunda

tərbiyələnmədir. Əgər vətəndaşlar dövlət qaydalarına alışdırılmasa və bu ruhda tərbiyələnməsə, dövlət idarəçiliyində bulunanların hamısının yekdilliklə bəyəndiyi ən yararlı qanunlar belə heç bir xeyir verməyəcək, yəni əgər qanunlar demokratik dövlətlərindirsə – demokratiya ruhunda, əgər oliqarxiyalarındırsa – oliqarxiya ruhunda olmalıdır; axı biri intizamsızdırsa, bütün dövlətlərdə də intizamsızlıqdır[41]. 21. Dövlət quruluşu ruhunda tərbiyələnmədə məsələ oliqarxların, yaxud demokratiyanın tərəfdarlarının xoşuna gəlməkdən ibarət deyil, ona görədir ki, birincilərə oliqarxiya quruluşunu müdafiə etmək imkanı verilsin, ikincilərə – demokratiyanı. Bununla belə hal-hazırda oliqarxiyalarda hakimiyyət başında duranların oğlanları ərköyündur, yoxsulların oğlanları isə dözümlü və mətanətli olduqlarına görə dövlət həyatında yeniliklərə cəhd edirlər, bunları da həyata keçirmək iqtidarındadırlar. 22. De-mokratiyalarda, hər halda hansılar ki, daha çox demokratiya hesab edilir, onlarda demokratiyaların xeyrinə zidd olan qaydalar müəyyən edilib, bunun səbəbi odur ki, bunlarda azadlığın nə olduğunu pis başa düşürlər. Doğrudan da, demokratiya bir qayda olaraq iki əlamətlə müəyyənləşir: ali hakimiyyətin çoxluğun əlində cəmləşməsi ilə və azadlıqla. Ədalət, onların fikrincə, bərabərliyə mütabiqdir; bərabərlik isə o mənada başa düşülür ki, xalq kütləsinin çıxardığı qərar quvvəyə malik olmalıdır; azadlıq isə hər kəsə istədiyini etməyin mümkünlüyü kimi izah olunur. Bax budur, bu cür demokratiyalarda hər kəs öz istədiyi tək, yaxud Yevripid dediyi kimi «öz ürəyinin şiddətli arzusu ilə» yaşayır. Lakin bu pisdir: axı dövlət quruluşu ilə uzlaşan həyatı köləlik deyil, qurtuluş hesab etmək lazımdır.

Ümumiyyətlə, o səbəblər, hansılar ki, bunlara görə dövlət quruluşları dəyişilir və məhv olur, həm də o vasitələr, hansılar ki, bunların köməkliyi ilə onlar uzun müddət muhafizə edilir və mövcud olur, bax bunlardır.



VIII. 1. Monarxiya quruluşunun hansı səbəblər nəticəsində dağılmasına və hansı vasitələrlə mühafizə edilməsinə nəzər yetirmək qalır. Çar hakimiyyəti və istibdad üsul-idarəsi ilə nə baş verirsə, demək olar ki, respublika quruluşları barəsində söylənilənlərlə eynidir. Axı monarxiya aristokratiyaya yaxındır, istibdad üsul-idarəsi isə özündə ifrat oliqarxiya və demokratiyanı birləşdirir. Buna görə istibdad üsul-idarəsi təbəələr üçün ən təhlükəli dövlət quruluşudur, o iki şərin birləşməsi olduğundan bu və digərinə xas olan bütün yayınma və səbəblər onda vardır.

2. Monarxiya quruluşunun hər iki forması bir-birinə ziddir və bir araya sığmır. Çar hakimiyyəti nəcib adamları xalq kütləsindən müdafiə etmək üçün meydana gəlmişdi. Çar, məziyyətlərinin üstünlüyünə görə, yaxud məziyyətlərdən asılı olub, şəxsən onun özünə xas əməlinə və ya onun nəslinin seçildiyi üstünlüyə görə nəcib adamlardan qoyulur. Müstəbid isə xalqın içərisindən, yəni xalq kütləsindən, kübarlara qarşı qoyulur ki, xalq onlardan heç bir ədalətsizlik görməsin. 3. Hadisələr bunu aydın göstərir. Axı müstəbidlərin əksəriyyəti, əslində, kübarları ləkələməklə, xalqın etimadını qazanan demaqoqlardan çıxmışdır. İstibdad üsul-idarələri, dövlətlər çoxaldıqdan sonra bu cür meydana gəlmişdi. Bunlardan qabaqkı digər istibdad üsul-idarələri çar hakimiyyətindən əmələ gəlmişdi, bunlar əcdadların vəsiyyətinə riayət etməyib, daha zalımanə hakimiyyətə can atdılar. Üçüncü istibdad üsul-idarələri ən yüksək vəzifələrə seçilən adamların rəhbərliyi ilə meydana gəlmişdi (qədim zamanlarda xalq mülki və dini işləri idarə edən vəzifəli şəxsləri uzun müddətə təyin edirdi). Nəhayət, bəzi istibdad üsul-idarələri oliqarxiyalardan törəmişdi, bunlarda kimsə bir nəfər baş icraçı sifətilə ən mühüm vəzifələrə seçilirdi. 4. Bütün bu hallarda, əlbəttə, arzu etdikdə, istəyə o qüdrət və əzəmət sayəsində asan-

lıqla yetişmək olur ki, beləsi bəzilərinə çar hakimiyyəti, digərlərinə – hörmətli mövqe müyəssər edir. Məsələn, Arqosda Fidon və digərləri istibdad üsul-idarəsinə çar hakimiyyəti əsasında nail olmuşdular, ion müstəbidləri və Falarid isə – hörmətli mövqelərinə görə; Leontidə Paneti, Korinfdə Kipsel, Afinada Pisistrat, Sirakuzada Dionisi və digərləri – demaqoqluğun köməkliyi ilə buna yetiblər[42].

5. Bu xartırlatdığımız kimi, çar hakimiyyəti aristokratiya ilə eyni əsaslar üzərində qurulub: bu çarın ləyaqətinə, yaxud şəxsən onun və ya onun nəslinin məziyyətlərinə, yaxud onun yaxşılığına, yaxud bunların hamısına, həm də onun qüdrət və əzəmətinə əsaslanır. Doğrudan da, hamı bu cür hörmətə yaxşılıq göstərməklə, yaxud bunu dövlətlərdən və ya tayfalardan ötrü etmək iqtidarında olduğu üçün nail olmuşdur; onlardan biri hərb zamanı dövlətini, onu gözləyən köləlik təhlükəsindən xilas etmişdir, məsələn, Kodr kimi, digərləri Kir kimi əsarətdən qurtuldular, üçüncülər lakedemon, makedoniya, molos çarları kimi dövlətin əsasını qoydular və ya ondan ötrü ərazi əldə etdilər[43].

6. Çar ona nəzarət etməlidir ki, mülkiyyət sahibləri heç bir inciklİyə, xalq isə heç bir xüsusda təhqirə məruz qalmasın. Müstəbid isə, dəfələrlə göstərildiyi kimi ümumun marağını nəzərə almır, yalnız şəxsi mənafeyini güdür. Müstəbidin məqsədi – xoşagələndir, çarın məqsədi – çox gözəldir. Odur ki, müstəbid öz üstünlüyünü özünün var-dövlətini artırmaqda görür; çar isə əsas etibarı ilə özünün hörmət-izzətini artırmaqda; çarın mühafizə dəstəsi vətəndaşlardan ibarətdir, müstəbidin mühafizə dəstəsi – muzdla tutulmuş əskərlərdən. 7. Həm demokratiyaya, həm oliqarxiyaya xas olan bütün pis işlərin istibdad üsul-idarəsində olması da şübhəsizdir. Oliqarxiyadan – əsas məqsədin var-dövlət olması (təbii ki, yalnız bu şərtlə mühafizə dəstəsi saxlamaq və dəbdəbəli həyat keçirmək olar); həm də xalq kütləsinə tam inamsızlıq (bax buna görə müstəbidlər silahları müsadirə edirlər; qara camaatın isə sıxışdırılması, onun şəhərdən uzaqlaşdırılması və müxtəlif yerlərdə yerləşdirilməsi oliqarxiya və istibdad üsul-idarəsinə məxsus ümumi tədbirlərdir). Demokratiyadan – kübarlarla mübarizə, həm gizlin, həm də aşkar surətdə onların axırına çıxmağa cəhd etmək, onları hakimiyyətə aparan yolun üstündə dayanan rəqib kimi sürgünə göndərmək. Həqiqət naminə, elə də olur ki, sui-qəsdə onlar əl atır, çünki onlardan bəziləri istəyir ki, hakimiyyətdə özləri olsun, digərləri isə – köləlikdə bulunmaq istəmir. Periandrın Frasibula verdiyi məsləhət bununla da izah edilir, – digərlərindən hündürə qalxmış sünbülləri qoparıb-atmaq, yəni görkəmli adamları aradan götürməyə həmişə cəhd etmək.

8. Artıq deyildiyi kimi, etiraf etmək lazımdır ki, monarxiyalarda dövlət çevrilişlərinin səbəbləri respublikalarda olduğu kimidir: təbəələrin əksəriyyəti haqsızlığa, dəhşətli şeylərə, nifrətə məruz qaldıqlarına görə, monarxiyanın əleyhinə qalxır, xüsusilə həyasızlıqdan baş verən haqsızlığa görə, bəzən isə həm də ona görə ki, onları, onlara məxsus olan mülkiyyətdən məhrum edirlər. İstibdad üsul-idarələrində və monarxiyalarda dövlət çevrilişlərinin məqsədi də eynidir: həm böyük var-dövlət, həm də böyük hörmət və ehtiram hökmdara məxsusdur, buna da, ona da hamı can atır. 9. Sui-qəsd bəzi hallarda hökmdarların özlərinə, digər hallarda isə – onların hakimiyyətinə edilir. O sui-qəsdlər ki, müstəbidlərin həyasızlığı üzündən baş verir, onların özlərinə yönəlir. Həyasızlıq isə çox müxtəlif formada üzə çıxa bildiyindən, bunun hər dəfə özünü göstərməsi acıqlanmaya səbəb olur, həm də nəzərə almaq lazımdır ki, hiddətlənən adamların əksəriyyəti qəsdi şöhrətpərəstlikdən ötrü deyil, qisas almaqdan ötrü törədir. Məsələn, o səbəbdən Pisistratidlərə sui-qəsd olmuşdu ki, Harmodinin bacısı təhqir edilmişdi, Harmodinin özü

isə incimişdi (Harmodi bacısına görə qisas almışdı, Aristogiton isə – Harmodiyə görə). Ambrakiyanın müstəbidi Periandra qarşı ona görə sui-qəsd təşkil edilmişdi ki, xudmani məclisdə o, öz məşuqundan onun uşağa qalıb – qalmadığını soruşmuşdu. 10. Pavsani, Makedoniyalı Filippi, onu Attalın və onun ətrafının təhqirindən müdafə etmədiyinə görə öldürmüşdü[44]. Kiçik Aminta Derda tərəfindən ona görə öldürülmüşdü[45] ki, o cavan olarkən, onunla özünün cinsi əlaqədə olması ilə lovğalanmışdı. Hərəmağasının Kiprli Yevaqora[46] qarşı sui-qəsdi də bu səbəbdən baş vermişdi: hərəmağası özünü təhqir olunmuş hesab etdiyindən onu öldürmüşdü, çünki, Yevaqorun oğlu onun arvadı ilə əylənmişdi. 11. Sui-qəsdlər tez-tez onun üstündə olur ki, hökmdarların bəziləri adamları cinsi əlaqəyə səkib, rüsvay edir. Krateyin Arxelaya [47] etdiyi sui-qəsd beləsindəndir. Kratey həmişə bu əlaqədən sıxılırdı, belə ki, cüzi bəhanə kifayət etdi, yəni: o biri söz vermişdi ki, qızlarından birisini ona versin, lakin öz sözünün üstündə durmadı; böyük qızını, Sirroyu və Arrabeyi[48] müharibədə sıxışdıran elimey çarına verdi, kiçiyini – öz oğlu Amintaya, o ümıdlə ki, bu surətlə axırıncını Kleopatradan olan oğlu ilə barışdırsın; amma Krateyin Arxelaya qərəzli münasibətinin əsas səbəbi hər halda bu idi ki, o, bu şəxslə cinsi əlaqədən usanmışdı. 12. Bu sui-qəsdə elə həmin səbəbdən Larisadan olan Hellenokrat da qoşuldu. Arxelay onun cavanlığından yararlandı, lakin öz vədinə əməl etmədi və onu öz vətəninə qaytarmadı; onda o, qərara gəlir ki, Arxelayın onunla yaxınlığı məhəbbətdən irəli gəlməyib, o sadəcə olaraq həyasızlıq göstərib. Ena əhlindən olan Pifon və Heraklid öz atalarının qisasını almaqdan ötrü Kotisi öldürdülər. Adamant isə Kotisdən[49] ona görə ayrıldı ki, yeniyetməlik dövründə onun tərəfdən axtalanıb, təhqir olunmuşdu.

13. Vəzifə sahiblərinin və çar sülaləsinə mənsub olanların çoxusu təhqirə məruz qalıb, alçaldıldıqlarına görə hiddətlənirdi,



bu təhqirdən qəlbi qırılanlar ya onları təhqir edənlərlə hesablaşırdılar, ya da hesablaşmağa çalışırdılar. Məsələn, Mitilendə Meqakl öz dostları ilə Perfilidlərə [50] hücum etmişdi, onlar şəhərdə veyillənərək qarşılarına çıxanı kötəkləyib, hamısını döymüşdü. Nəticədə də Perfilin döydüyü və onun arvadının yerlə sürüklədiyi Smerd onu öldürdü. Arxelaya olan sui-qəsdə Dekamnix rəhbərlik etmişdi; ona qarşı sui-qəsdi birinci o, hazırlamışdı; onun hiddətinə səbəb o olmuşdu ki, Arxelay onu şallaqlamaqdan ötrü şair Yevripidə vermişdi; Yevripidin isə Dekamnixə ona görə acığı tutmuşdu ki, o, guya Yevripidin ağzından nə isə pis iy gəlir kimi sözlər demişdi.

14. Bu kimi bəhanələr bir çox hökmdarın öldürülməsilə və onlara qarşı sui-qəsdlə nəticələnmişdi. Həmçinin qorxu, çünki bu da respublikalarda olduğu kimi, demokratiyalarda da sui-qəsdlərin səbəblərindən biridir. Məsələn, Artapan ondan hazırlanacaq donosun qorxusundan Kserksa qarşı sui-qəsd təşkil etmişdi, çünki o, Kserksin qadağan etməsinə baxmayaraq, bağışlanmasına ümid edib və çarın nahar zamanı verdiyi əmri yadından çıxarmasına bel bağlayıb, Daranı[51] asmışdı. Digər sui-qəsdlər nifrət nəticəsində baş vermişdi. Məsələn, kimsə Sardanapallın [52] qadınlarla birlikdə necə yun əyirdiyini görmüşdü (əgər mifoloqların[53] bu barədə danışdıqları düzdürsə; lakin Sardanapalla da olmasa, bu, əslində, bir başqası ilə baş verə bilərdi). Dion da Kiçik Dionisiyə nifrət bəslədiyinə görə qəsd etmişdi: o görürdü ki, Dionisiyə öz həmvətənləri nifrət edir, Dionisinin özü isə həmişə keflidir. 15. Nifrət üzündən hökmdarın bu və ya digər dostları da qəsd törədir, onlar onun yanında etimada malik olduqlarından ona nifrət edib və inanırlar ki, onların niyyəti gizlin qalacaq. Nifrətdən doğan sui-qəsdlər həm də o adamlar tərəfindən törədilir ki, onlar hakimiyyəti hər hansı bir yolla ələ keçirmək iqtidarında olmalarına ümid edirlər: öz güc-

lərinə arxalanaraq, buna görə də qorxu bilmədən, onlar asanlıqla qəsdi başa çatdırırlar, məsələn, qoşun başçıları hökmdarlara qəsd edir. Beləcə, Kir Astiaqın[54] həyat tərzinə və hərbi qüvvəsinə nifrətlə baxıb ona qarşı çıxdı: axı hərbi qüvvə zəifləmişdi, Astiaqın özü isə cah-cəlal içində batıb qalmışdı. Həmçinin frakiyalı Sevf Amodaka[55] qarşı, onun qoşun başçısı ola-ola. Bəziləri qəsdi bir neçə səbəbə görə, bir növ həm nifrətə, həm də acgözlüyə görə törədirlər, məsələn, Mitridat Ariobarzana[56] qarşı. Daha çox bu səbəbdən qəsd törədənlərə təbiət cəsarət bəxş etmişdir və onlar hökmdarların yanında yüksək vəzifələr tuturlar, axı cəsurluq qüvvə ilə birləşdikdə cəsarət verir və kim ki, həm buna, həm də digərinə malikdir, bunun öhdəsindən asanlıqla gəlmək ümidi ilə də sui-qəsd hazırlayır. 16. Şöhrətpərəstlik üzündən qəsd törədən adamların bəhanələri öz mahiyyətinə görə yuxarıda göstərilənlərlə ziddiyət təşkil edir. Əgər bəziləri çoxlu var-dövlətə və yüksək hörmətə (hökmdarlarda olduğu kimi) can atdığından, hökmdarlara qəsd edirsə, o zaman şöhrətpərəstlik üzündən qəsd törədənlərin heç biri bundan ötrü təhlükəyə məruz qalmağa üstünlük vermir; o birilər yüxarıda göstərilən səbəblərə əsaslanırlar, bu birilər isə – əgər söhbət digər bir qeyri-adi hərəkətdən gedirsə, hansı ki, buna görə başqa adamların nəzərində tanınar və məşhurlaşarlar – hökmdarlarla hesablaşırlar, amma hökmdar səlahiyyətini deyil, cəhd edirlər ki, özlərinə böyük şöhrət qazansınlar.

17. Amma belə bir səbəbdən ürəklənənlərin sayı olduqca azdır. Axı ehtimal edilir ki, qəsdi törədən öz işini həyata keçirə bilməsə, qətiyyən öz xilasının qeydinə qalmamalıdır. Bu qəbildən olan adamlar Dionun nöqteyi-nəzərinə tərəfdar olmalıdır, bu isə çoxları üçün asan deyil: o hərb etməkdən ötrü kiçik dəstəylə Dionisinin üstünə gedir, həm də deyir ki, iş heç olmasa, bir uğurla nəticələnsə, onun bunda bir növ iştirak etməsi ondan



ötrü kifayət edər; amma ki, o quruya çıxdıqdan sonra həlak olsa, onda bu cür ölüm onun üçün çox gözəl olar.

18. İstibdad üsul-idarəsi, bütün digər dövlət quruluşu formaları kimi, düşmən dövlət quruluşu güclü olduqda, xarici səbəblərdən də dağılır. Cəhdlər ziddiyyət təşkil etdiyinə görə bunu həyata keçirmək arzusu açıq-aşkar kifayət etmir: amma ki, belə bir imkan olduqda istəyə nail olmağa hamı cəhd göstərir. Bir-birinə düşmən olan dövlət quruluşu formaları isə – demokratiya və istibdad üsul-idarəsi, Gesioda görə, dulusçu ilə dulusçunun düşmənçiliyinə bənzəyir (axı ifrat demokratiya – elə istibdad üsul-idarəsidir); digər tərəfdən istibdad üsul-idarəsi monarxiya və aristokratiya dövlət quruluşlarına zidd olduğuna görə bununla da, onunla da düşməndir (bax buna görə lakedemonlular və sirakuzalılar onlarda çox gözəl dövlət quruluşu olan zamanlarda, bir çox istibdad üsul-idarələrini ləğv etdilər). 19. Bundan başqa istibdad üsul-idarəsinin məhvi, onunla bilavasitə əlaqəsi olan adamlar öz aralarında çəkişməyə başlayan kimi, onun özündə hazırlanır, necə ki, bu Gelonun istibdad üsul-idarəsi və yaxın keçmişdə Dionisinin istibdad üsul-idarəsi ilə olmuşdur. Gelonun tiran hökuməti ona görə devrildi ki, Gieronun qardaşı Frasibul, özü idarə etməkdən ötrü demaqoqluq vasitəsilə Gelonun oğlunu özünə cəlb etməyə başladı və onu keflə yaşamağa həvəsləndirdi; haçan ki, onlara yaxın adamlar istibdad üsul-idarəsinin tamamilə ləğv olunmasına yol verməməkdən, yalnız Frasibulla bölüşdürməkdən ötrü birləşdilər, onların yoldaşları əlverişli şəraitdən yararlanıb, onların hamısını qovdu. Dionisi isə xalqı öz tərəfinə çəkib, qudası Dionu sürgünə göndərdi, bundan sonra da özü öldü.

20. İstibdad üsul-idarəsinə də qəsd əsas etibarı ilə iki səbəblə şərtlənir – ədavətdən və nifrətdən – birinci, yəni ədavət ola bilsin, müstəbidlərin labüd yol yoldaşı hesab edilir, lakin nif-

rət də bir çox hallarda müstəbidlərin devrilməsinə səbəb olur. Buna sübut: hökmranlığa yetişən müstəbidlərin əksəriyyəti bunu mühafizə etmişdir, buna irsən yiyələnənlərinsə az qala hamısı bunu dərhal itirir. Bu adamların zövqlə dolu həyatı onlara qarşı nifrət doğurur ki, bundan da qəsd törətmək üçün ələ çoxlu girəvə keçir.

21. Qəzəbi də ədavətin tərkib hissələrindən biri hesab etmək lazımdır, çünki müəyyən dərəcədə həmin o hərəkətlərin səbəblərindən biri də odur. Nifrətə nisbətən qəzəb tez-tez, hətta daha aktiv təkanverici qüvvəyə çevrilir və bir halda ki, qəzəbdən düşüncə susur, qəsd qətiyyətlə törədilir. Qəzəb isə hər şeydən öncə müstəbidlərin həyasız hərəkətlərindən coşur, bu da yeri gəlmişkən Pisistratidlərin və bir çox digər müstəbidlərin tiran hökumətini dağıtmışdı. Lakin ədavətdə hislər özünə çox yer tapmır: axı qəzəb acınacaqlı hislərlə bağlıdır, belə ki, ağılın hökmünə qulaq asmaq çətindir: əksinə, düşmənçilik kədəri özündə saxlamır.

Yekunlaşdırarkən, demək lazımdır ki, o səbəblər, hansılar ki, bizim fikrimizcə, xalis və mükəmməl oliqarxiyanın və ifrat demokratiyanın dağılması ilə nəticələnir, istibdad üsul-idarəsinin süqutuna da səbəb olur, çünki bu dövlət quruluşları – həmin də istibdad üsul-idarələri, yalnız çoxluq arasında bölüşdürülür.

22. Çar rejimi hər şeydən daha az xarici səbəblər nəticəsində dağılır, buna görə də o, uzunömürlü olur, onun dağılması əksər hallarda ancaq onun özündə olan səbəblərə görə baş verir. O, iki halda məhv olur: birincisi, çarın ailə üzvləri bir-birilə çəkişməyə başladıqda, ikincisi, çarlar çox qəddarcasına idarə etməyə cəhd göstərdikdə, yəni onlar qanunun ziddinə olaraq öz səlahiyyətlərini genişləndirməyə başladıqda. Bizim dövrümüzdə çar hakimiyyəti həqiqi mənada daha əmələ gəlmir, əmələ gəldikdə isə, bu daha çox təkhakimiyyətlilik və istibdad üsul-idarəsi olur. Çar hakimiyyəti bir tərəfdən onun könüllü olaraq qəbul edilməsi ilə şərtlənir, digər tərəfdən – özündə mühüm işlər üzrə ali instansiyanı təmsil edir. İndi isə adamların çoxu bərabərdir, onlardan da heç kim o qədər fərqlənmir ki, əzəməti və ləyaqəti ilə belə bir hakimiyyətə münasib olsun. Buna görə adamlar könüllü olaraq belə bir hakimiyyət təklifi vermir; əgər ki, birinə hiylə yolu ilə və ya zorakılıqla hakimiyyəti ələ keçirmək nəsib olsa, onda bu, artıq istibdad üsul-idarəsi hesab edilir.

23. O səltənətlərdə, harda ki, hakimiyyət vərəsəlik yolu ilə keçir, göstərdiyimiz ölümlə nəticələnən səbəblərdən başqa, onu da göstərmək lazımdır ki, bir çox çarlar asanlıqla özlərinə nifrət qazanır, həmçinin müstəbidlərin malik olduqları gücə malik olmasalar da, onlar yalnız çarın nüfuzuna arxalanaraq, yenə də həyasızlıq göstərirlər. Bu, tezliklə iflasa gətirib çıxarır: əgər onu istəmirlərsə, o da çar olmayacaq; müstəbid isə, əksinə, hətta onu istəməsələr də qalır.

Beləliklə, monarxiyalar bu və bu kimi səbəblərdən dağılır.

IX. 1. Onların bütövlüyü, görünür, ümumiyyətlə, əks vasitələrlə mühafizə edilir; o cümlədən, çar quruluşunun bütövlüyü qoyulan məhdudiyyətlərlə təmin edilir. Doğrudan da, çar hakimiyyəti nə qədər az vəkalətə malik olsa, o təbii ki, bir o qədər toxunulmaz qalacaq: bu halda çarların zalımlığı az olur, onlar öz təbəələrinin düşüncə tərzinə yaxınlaşır və axırıncılarda az dərəcədə həsəd doğurur. Buna görə çar hakimiyyəti moloslularda və lakedemonlularda lap əvvəlcədən iki şəxsin arasında bölüşdürüldüyünə görə uzun müddət mühafizə edilmişdi, həm də ona görə ki, Feopomp[57] onu müxtəlif vasitələrlə məhdudlaşdırıb, eforat vəzifəsini təsis etmişdi; çar hakimiyyətinin rolunu zəiflətməklə, o bunun ömrünün uzanmasına səbəb oldu, belə ki, müəyyən baxımdan o, bunu qiymətdən salmadı, əksinə, yük-

səltdi. Deyirlər, arvadı ona, sənə eyib deyilmi öz oğlanlarına sənə atandan miras qalandan daha az çar səlahiyyəti verirsən söyləyəndə, o, belə cavab vermişdir: «Qətiyyən eyib deyil, çünki mən bunu onlara daha uzun müddətə verirəm».

2. İstibdad üsul-idarəsi bilavasitə bir-birilə zidiyyət təşkil edən iki vasitə ilə mühafizə edilir. Bunlardan biri – ənənəvidir və əksər müstəbidlər öz idarəçilik üsulunda buna əsaslanır. Deyirlər ki, öz sahəsində əhəmiyyətli olan bu vasitəni Korinfli Periandr[58] meydana çıxarmışdı; iranlıların idarəçilik üsullarında da belə şeyləri çox görmək olar. Artıq bizim əvvəllər göstərdiyimiz bir şey var ki, bu da istibdad üsul-idarəsinin mümkün olan mühafizəsinə səbəb olur; bir vasitə, məsələn, bundan ibarətdir ki, bütün görkəmli adamları nə iləsə «sındırmaq», azad fikirli adamların hamısını aradan götürmək, sissitiyaları, cəmiyyətləri, tərbiyə etməni və bu kimi şeyləri qadağan etmək, ümumiyyətlə, hardan ki, özünə əminlik və qarşılıqlı inam əmələ gəlir, belə şeylərdən *qorunmaq, təhsil məqsədi ilə məktəblərin, yaxud* hansısa digər cəmiyyətlərin təşkil edilməsinə yol verməmək və ümumiyyətlə, hər şeyi elə qurmaq ki, hamı çox vaxt bir-birinə yad olsun, çünki tanışlıq daha çox inam yaradır. 3. Daha sonra, şəhərə gələn bütün adamların həmişə göz qabağında olması və öz vaxtlarını öz qapılarının ağzında kesirməsi lazımdır: onda onlara məşğul olduqları işi gözləmək çox çətin olacaq; həm də həmişə qul vəziyyətində qalmaqla, onlar fərağat durmağa alışacaqlar. İranlıların və barbarların tətbiq etdiyi bu kimi digər vasitələr də istibdad üsul-idarəsinə münasibdir (axı onların hamısı eyni bir məqsədi güdür). Bir də işi elə təşkil etməyə çalışmaq lazımdır ki, təbəələrdən heç birinin nə barədə danışması və nə ilə məşğul olması gizlin qalmasın, məsələn, Sirakuzada olan «xəbər gətirənlər», yaxud Gieronun hər dəfə keçirilən bir dostyana məclisi və ya görüş yerlərinə gizlin surətdə qulaq asmaq



üçün göndərdiyi adamlar kimi casuslar saxlamaq; belə adamlardan ehtiyatlanaraq təbəələr açıq fikir mübadiləsi aparmağı yadırğayacaqlar, amma ki, onlar açıq danışmağa başlasa, onda, öz söhbətlərini gizləmək onlara çətin olacaq. 4. Həm-vətənləri bir-birinə qarşı qaldırıb, dostları dostlarla, sadə xalqı kübarlarla, varlıları öz mühitindən olan adamlarla toqquşdurmaq lazımdır. Müstəbidin məqsədlərindən biri də, həmçinin öz təbəələrini müflisləşdirməkdir, ondan ötrü ki, bir tərəfdən özünün mühafizə dəstəsini saxlamaq imkanı olsun, digər tərəfdən isə ondan ötrü ki, gündəlik qayğıları ilə başı qarışıq olan təbəələrin *ona qarşı qəsd təşkil etməyə asudə vaxtı olmasın.* Buna misal – Kipselidlərə həsr edilmiş Misir ehramları, Pisistratlar tərəfindən Olimpionun qurulması, Samosda isə – Polikratın[59] tikililəri. Bu kimi işlər eyni bir şeyi nəzərdə tutur: təbəələrin boş vaxtının olmamasını və onların yoxsulluğunu. 5. Bura həmçinin, vaxtı ilə Sirakuzada olduğu kimi vergi ödəmək də aiddir, orada məlum olduğu kimi Dionisinin idarə etdiyi beş il ərzində təbəələrin bütün mülkiyyəti vergi ödənişinə getmişdir. Təbəələrin boş vaxta malik olmamasından və həmişə başçıya ehtiyacları olmasından ötrü müstəbid həm də hərbə meyl edir. Çarın hakimiyyətini dostlar himayə edir, müstədidə isə dostlara etibar etmək xas deyil, çünki, məhz onlar, çox ehtimal, hamının istədiyi şeyi həyata keçirə bilər.

6. İfrat demokratiyanı fərqləndirən bütün əlamətlər, həm də istibdad üsul-idarəsinə xasdır: ev işlərində qadınların üstünlüyü ondan ötrüdür ki, onlar öz ərlərinin işlərini hamıya məlum etsinlər, qulların intizamsızlığı da bu səbəbdəndir; qullar və qadınlar müstəbidlərə qarşı qəsd hazırlamırlar, əksinə, ağ günə çıxmaqla bunlar və o birilər, əlbəttə, həm istibdad üsul-idarələrinə, həm də demokratiyalara meyl göstərir, axı rəiyyət də bir növ hökmdar olmaq istəyir. Buna görə burda da, orda da yal-

taqların hörməti var: demokratiyalarda – demaqoqun (axı demaqoq – xalqın yaltağıdır), müstəbidlərin yanında isə – özünü aciz tutan adamların, bu isə yaltaqlara xasdır. Bunun nəticəsi olaraq istibdad üsul-idarəsi bütün yaramaz şeyləri sevir; axı müstəbidlərə yaltaqlanmaq, onları xoşhallandırır, bunu isə ağlı olan heç bir azad insan etməz. Pis adamların isə bütün yaramaz şeylər əlindən gəlir – məsəl var «pazı pazla». 7. Heç bir yüksək şeyə, heç bir azad şeyə hüsn-rəğbət göstərməmək – istibdad üsul-idarəsinə xas olan cəhətdir; bu keyfiyyətlərə yalnız müstəbidin özü iddialıdır, əgər ki, azadlığa səcdə edən, yüksək hislərə malik olan bir adam olsa, onda o, istibdad üsul-idarəsini, ona üstünlük və hökmranlıq verən şeylərdən məhrum edər. Buna görə müstəbidlərin, onların hökmranlığını məhv etməyə iqtidarlı olan bu cür adamları görməyə gözləri yoxdur. Müstəbidlərə öz süfrəsinə əcnəbiləri dəvət etmək və ümumiyyətlə, öz vaxtını daha çox onlarla keçirmək xasdır, nəinki yerli vətəndaşlarla; axırıncılar – onun üçün düşməndir, birincilər isə onun əleyhinə qalxmaz. Bax, bu və bu kimi vasitələrlə müstəbid öz hakimiyyətini mühafizə edir; bütün bu vasitələr tamamilə alçaq xarakter daşıyır.

8. Nəyə ki, biz indiyə qədər baxmışıq, bütün bunları üç bəndə ayırmaq olar. Yəni müstəbid üç məqsədə doğru can atır: birincisi, öz təbəələrini qorxaq etmək, çünki, qorxaq adam ona qarşı qəsd təşkil etməyəcək; ikincisi, qarşılıqlı inamsızlıq yaratmaq – istibdad üsul-idarəsi yalnız o zaman süqut edə bilər ki, bəzi vətəndaşlar bir-birinə etibar etsin, buna görə müstəbidlər – onların hakimiyyəti üçün qorxulu olduqlarından nəcib adamların düşmənidir və yalnız ona görə yox ki, onlar zalımanə hakimiyyətə dözmürlər, həm də ona görə ki, onlar öz mühitlərində olduğu kimi digərlərinin arasında da etimada malikdirlər və nə özününkülərə, nə də özgələrə xəbərçilik etməklə məşğul olmayacaqlar; üçüncüsü, adamları siyasi qətiyyətdən məhrum etmək: Heç kəs çətin işə, deməli, istibdad üsul- idarəsinin devrilməsinə də, əgər onun buna gücü çatmırsa, qərar verməyəcək. 9. Müstəbidlərin bütün fikri gösrəilən üç məqsədə yönəlmişdir. Bunları üç ilkin şərt kimi aşağıdakı qaydada gösrətmək olar: adamlar bir-birinə etibar etməsinlər; hərəkət edə bilməsinlər; qorxu hiss etsinlər. İstibdad üsul-idarəsinin mühafizə edilməsinin vasitələrindən biri bax budur.

10. Digər vasitə, yuxarıda göstərilənlərlə demək olar ki, ziddiyyət təşkil edən tədbirlərin qeydinə qalmaqdır. Bunu, çar hakimiyyətini dağılmağa doğru aparan səbəblər haqqında nə deyilmişdisə, o cür başa düşmək olar. Elə bunun kimi, onun məhvinə səbəb olan vasitələrdən biri çar hakimiyyətinə daha çox zalımlıq çaları verməkdən ibarətdir, bəli, istibdad üsul-idarəsi üçün nicatverici vasitə onun tezliklə çar hakimiyyətinə bənzər etməkdir, əlavə olaraq bir şeyin qeydinə də qalmaq lazımdır: nəinki bunu istəyən, həm də istəməyən adamlar üzərində hökm sürməkdən ötrü silahlı qüvvələri öz əlində saxlamaq. Silahlı qüvvələri itirməklə, müstəbid zalımanə hakimiyyətini də itirəcək, lakin axırıncı, necə deyərlər, hər şeyin əsasını təşkil etməlidir, bütün başqa hallarda isə o, çar rolunu oynamalıdır, yaxud bu rolun yaxşı ifaçısı kimi görünməlidir. 11. O, hər şeydən öncə ümumi sərvətin qeydinə qalmalı, pulları xalq kütləsinin narazılığına səbəb olan bəxşişlərə sərf etməkdən çəkinməlidir, halbuki xalqın əməyindən və ağır işindən əldə olunanlar gen-bol surətdə geteralara[60], əcnəbilərə, ustalara paylanır; artıq bəzi müstəbidlər[61] etdiyi kimi mədaxil və məxaric barəsində hesabat verilməlidir, – belə hərəkət etməklə müstəbid, müstəbiddən çox təsərrüfat müdirini andıracaq; bununla bərabər o, pulsuz qalarsa, bundan ötrü narahat olmağa dəyməz, axı dövlətdə ali hakimiyyət onun əlindədir. 12. Amma müstəbidlərə

dövlətin sərhədlərindən kənarda olmaq lazım gəlir; onlara birinci[62], toplanmış sərvəti qoyub getməkdən hətta sərfəlidir, çünki axırıncı halda mühafizə kimə həvalə edilirsə, çox guman, tezliklə onun hakimiyyətinə qəsd hazırlayacaq. Müstəbidlər üçün, onlar olmadıqda bu mühafizə dəstəsi vətəndaşlardan çox təhlükə əmələ gətirir, çünki vətəndaşlar[63] müstəbidi müşayiət edir, mühafizə dəstəsi isə şəhərdə qalır. Sonra, müstəbid elə etməlidir ki, verginin və pulun toplanmasının dövlət təsərrüfatının saxlanmasından ötrü olması və lazım gəldiyi halda bunların hərbi ehtiyaclara sərf edilməsi aydın olsun; həm də pullar şəxsi deyil, ümumi olduğundan o, özünü, ümumiyyətlə, bunların mühafizəçisi və xəzinədarı kimi göstərməlidir. 13. O, özünü lovğa deyil, qürurlu tutmalıdır, ümumiyyətlə, elə etməlidir ki, qarşısına çıxan ondan qorxmasın, əksinə, ona daha çox hörmət etsin. Buna isə, o özünə nifrət oyadırsa, nail olmaq çətindir. Bax buna görə müstəbid, əgər o başqa heç nəyin dərdinə qalmırsa da, hər halda hərbi şücaət barəsində düşünməli və özünü, heç olmasa öz təbəələrinə bu yöndən göstərməlidir. Nəinki müstəbidin özü, həm də onun yaxın adamlarından heç biri təbəələrdən hər hansı birinə qarşı münasibətdə həyasız hərəkətlərə yol verməməlidir, nə cavan oğlanlara, nə də qızlara toxunmamalıdır. Ona yaxın olan qadınlar da qalan qadınlara qarşı münasibətdə özlərini belə aparmalıdır, çünki qadınların həyasızlığı üzündən çox müstəbid məhv olub.

14. Cismani zövq almaq cəhətdən hal-hazırda bəzi müstəbidlərin[64] etdiyi kimi hərəkət etmək lazım deyil, onlar səhər obaşdandan, bununla belə bir neçə gün dalbadal, təkcə buna aludə olmurlar, həm də bunu başqalarına göstərməyə cəhd edirlər ki, onlara məsud və çox xoşbəxt adamlar kimi heyrətlə baxsınlar. Yox, müstəbid bütün bu işlərdə xüsusilə iddiasız olmalıdır, ya da ki, heç olmasa bunu başqalarına göstərməkdən



çəkinməlidir; axı qəsdə və nifrətə ayıq adam deyil, kefli, oyaq qalan deyil, yatan asanlıqla məruz qalır. 15. Bir sözlə müstəbid, demək olar ki, bütün işlərdə əvvəl deyildiyi kimi hərəkət etməməlidir. O, dövləti müstəbid kimi deyil, qəyyum kimi qaydaya salmalı və bəzəməlidir. Bundan başqa dini ibadətlərə aidiyyatı olan bütün işlərə həmişə böyük həvəs göstərməlidir: əgər təbəələr hökmdarı mömin və dini işlərə can yandıran adam hesab edirsə, onlar, o, allahların müttəfiqi olduğundan, ondan qeyri-qanuni bir şeyə məruz qalacaqlarından az ehtiyat edəcəklər və ona qarşı daha az xəyanətdə bulunacaqlar. Amma bununla bərabər müstəbid özünü axmaqlıq dərəcəsinə qədər çatdırmamalıdır. 16. Nə iləsə fərqlənən adamlara müstəbid elə hörmət etməlidir ki, azad adamlardan daha çox hörmət görə biləcəkləri onların ağlına da gəlməsin. Rütbəni də müstəbidin özü verməlidir, cəzalandırmağı isə digər vəzifəli şəxslərə və məhkəməyə həvalə etməlidir.

Hər hansı bir mütləqiyyəti mühafizə etmək üçün ümumi vasitə aşağıda göstərilənlərdən ibarətdir: hər kəsi ayrılıqda götürdükdə şişirdib, göylərə qaldırmaq lazım deyil, amma bunu doğrudan da etmək lazım gəlirsə, onda bir neçə adamı yüksəltmək lazımdır, çünki onlar bir-birinə göz olacaqlar; ancaq ki, bir nəfəri yüksəltmək lazım gələrsə, onda da bu, hər halda ürəkli adam olmamalıdır (axı hamıdan çox ən təhlükəli işlərə bu cür adam cəsarət edir). Əgər hökmdar bu və ya digər bir adamın rolunu heçə endirmək qərarına gəlibsə, onda bunu yavaş-yavaş etməli və onun bütün səlahiyyətini bir dəfəyə əlindən almamalıdır.

17. Daha sonra – hər bir zorakılıq hərəkətlərindən özünü gözləməli, xüsusilə fiziki zorakılıqdan və gənclərə qarşı münasibətdə zorakılıqdan çəkinməlidir. Əlalxüsus o, şöhrətpərəst adamlarla bu cür rəfdar etməkdən vaz keçməlidir: axı tamahkar adamlar şəxsi əmlaka yüngül münasibətdən narazı qalırlar,

şöhrətpərəst və nəcib adamlar isə onların vətəndaşlıq heysiyyətinə saymazyana münasibətə çox çətin dözürlər. Buna görə ya bu cür tədbirlərə qətiyyən əl atmaq gərək deyil, ya da göstərmək lazımdır ki, müstəbid belə cəzaları bir ata kimi verir, daha nifrətdən yox. Gənclərə qarşı münasibətdə özünü elə göstərməlidir ki, guya o, istədikdən hərəkət edir, daha səlahiyyət vasitəsilə yox; ümumiyyətlə isə, həqarətlə uyuşa bilən bütün şeylərin əvəzini o, yüksək rütbələr verməklə çıxmalıdır. 18. Müstəbidin həyatına əl uzadan adamlardan ən təhlükəliləri o adamlardır ki, və ən ciddi surətdə o adamlara nəzarət etmək lazımdır ki, onlar öz həyatlarından keçməyə hazırdırlar, təki müstəbidi məhv etsinlər. Buna görə hər şeydən çox o adamlardan çəkinmək gərəkdir ki, onlar ya özlərini, ya yaxınlarını onun tərəfindən təhqir olunmuş hesab edirlər. Kim əsəbiləşdikdə qəsd törədirsə, onun özünə də rəhmi gəlmir, bu xüsusda Heraklit belə demişdir: «Ehtirasla çarpışmaq çətindir, çünki bu – həyat hesabına başa gəlir».

19. Dövlət iki hissədən – yoxsullardan və varlılardan ibarət olduğu üçün, bunlara və o birilərinə təlqin etmək lazımdır ki, onların xoşbəxtliyi, firavanlığı müstəbidin hakimiyyətinə əsaslanır və çalışmaq da gərəkdir ki, biri digərindən heç bir haqsızlıq görməsin. Amma onlardan hansı daha güclüdürsə, müstəbidə vacibdir ki, onu öz hakimiyyətini saxlamaq üçün daha çox şirnikləndirsin və müstəbid buna nail olsa, ona nə qulları azadlığa buraxmaq, nə də vətəndaşları tərki-silah etmək lazım olmayacaq: xatırlanan hissələrin birinin hakimiyyət tərəfə cəlb olunması kifayət edir ki, o, ona qarşı qəsd törədənlərdən güclü olsun.

20. Bütün bunların haqqında təfərrüatı ilə danışmaq artıq olar. Məqsəd aydındır: o, öz təbəələrinin gözündə müstəbid deyil, təsərrüfata baxan adam və çar, soyğunçu deyil, qəyyum olmalıdır; o, sadə həyat tərzi keçirməlidir, israfçılığa yol verməməli, öz rəftarı ilə kübarları öz tərəfinə çəkməlidir, xalqa isə demaqoqluq üsullarının köməkliyi ilə rəhbərlik etməlidir. Bunun labüd nəticəsi yalnız ondan ibarət deyil ki, müstəbid heç zaman nifrət etməyəcəyi və qorxu altında saxlamayacağı məzlumlar üzərində yox, ən yaxşılar üzərində hökmranlıq etdiyinə görə onun idarəçiliyi çox gözəl və qibtə doğuran olacaq, həm də odur ki, hakimiyyətin ömrü uzanacaq və nəhayət, müstəbidin mənəvi siması elə olacaq ki, ya hökmən xeyirxahlığa meyl edəcək, ya da buna aparan yolun yarısında durub, yararsız deyil, qismən yararsız adam olacaq.

21. Ancaq ki, oliqarxiya və istibdad üsul-idarəsi – daha az davam edən dövlət quruluşu formalarıdır. Ən uzun sürən istibdad üsul-idarəsi Sikionedə – Orfaqorun nəslinin və Orfaqorun özünün istibdad üsul-idarəsi olmuşdur; bu, yüz il davam etmişdir[65]. Səbəbi odur ki, onlar təbəələrlə mülayim davranırdılar, çox şeydə qanuna qul kimi tabe olurdular, daha sonra – odur ki, cəngavər adam olan Klisfenə nifrətlə baxmırdılar və nəhayət, odur ki, onlar qayğı göstərməklə, demaqoqlar kimi, əksər hallarda xalqın rəğbətini öz xeyirlərinə qazanırdılar. Rəvayətə görə Klisfen onu qalib kimi tanımaq istəməyən hakimin başına çələng qoymuşdu[66], bəziləri isə hətta əlavə edirlər ki, guya meydanda olan heykəl həmin qərarı çıxaran adamındır. Həmçinin Pisistrar haqqında da danışırlar ki, guya o, Aeropaqın məhkəməsinə çağırıldıqda, buna əməl etmişdi. 22. İkinci yerdə Kipselidlərin Korinfdəki istibdad üsul-idarəsi durur; bu yetmiş üç il altı ay davam etmişdi, Kipsel otuz il müstəbid olmuşdu, Periandr qırx il yarım, Qorqun oğlu Psammetix – üç il. Burda da səbəb həminkidir: Kipsel demaqoq olmuşdu, bütün idarəçilik dövrü ərzində mühafizəsiz yaşamışdı, Periandr isə əsl müstəbid olsa da, lakin cəngavər adam idi. 23. Üçüncü – Pisistratidlərin Afinadakı istibdad üsul-idarəsidir. Doğrudur, bu fasi-

lələrlə olmuşdur: Pisistrat öz istibdad üsul-idarəsi dövründə iki dəfə qovulmuşdu, belə ki, otuz üç ildən yalnız on yeddisi onun, on səkkizi-onun oğlanlarının istibdad üsul-idarəsinə təsadüf edir, cəmisi isə, demək otuz beş il. Qalanlarından – Gieronun və Gelonun Sirakuzadakı istibdad üsul-idarəsi. Amma bu da uzun müddət sürməmişdi, bütövlükdə on səkkiz il, Gelon yeddi il müstəbid olmuşdu, səkkizinci ildə isə vəfat etmişdi, Gieron on il idarə etmişdi; Frasibul öz idarəçiliyinin on birinci ayında qovulmuşdu[67]. Lakin istibdad üsul-idarələrinin böyük əksəriyyəti tamamilə az davam etmişdi.

İndi biz istər respublikaların, istərsə də monarxiya quruluşlarının dağılma səbəbləri və mühafizə edilmə vasitələri haqqında, demək olar ki, hər şeyi söylədik.

X. 1. «Dövlət» əsərində Sokrat dövlət çevrilişləri haqqında danışır, lakin uğursuz. Məsələn, o, ən yaxşı və ilk dövlət quruluşlarında olan dövlət çevrilişlərini ayrıca olaraq şərh etməmişdir. O, bunlara bir səbəb kimi onu göstərir ki, ümumiyyətlə, dəyişməyən heç nə yoxdur, lakin hər şey müəyyən vaxt ərzində dəyişilir. Bu dəyişikliklərin əsasında guya ki, rəqəmlərin nisbəti durur, yəni dördün üçə nisbəti, hansı ki, beşlə kombinasiya edildikdə iki müvafiq birləşmə verir, başqa sözlə, bu fiqurun sayının kubu olduqda; o, hesab edir ki, təbiət müəyyən vaxtlarda dünyaya yararsız və heç bir mədəniyyətə uyuşmayan adamlar bəxş edir. Bu halda ola bilsin ki, o, çox da haqlı deyil, çünki həqiqətən elə ola bilər ki, tərbiyənin də belələrini dəyərli adam etməyə gücü çatmasın. Sual olunur, nəyə görə bu cəhət, hansıları ki, o, ən yaxşı quruluş adlandırır, daha çox həmin dövlətlərdə dövlət çevrilişlərinin xüsusi səbəbi olmalıdır, bütün yerdə qalan dövlətlərdə isə, həm də, ümumiyyətlə, bütün yeni əmələ gələnlərdə isə yox.



2. Əgər vaxt varsa, onun sözlərinə görə, birinci səbəbdən hər şey dəyişilir, məgər göstərilən müddətdə hər şey, hətta eyni vaxtda əmələ gəlməyənlər dəyişilməməlidirmi, belə ki, məsələn, əgər bir şey dəyişikliyə uğramamışdan bir gün əvvəl əmələ gəlibsə, məgər o, dəyişilməməlidirmi? Bundan başqa, məgər bu quruluş hökmən Lakon quruluşu ilə əvəz edilməlidirmi? Axı neçə dəfələrlə bütün dövlət quruluşu formaları onlara yaxın olanlarla deyil, əks olan formalarla əvəz edilir. Bunu qalan bütün dövlət çevrilişləri haqqında da söyləmək olar. O, deyir ki, Lakon quruluşu oliqarxiyaya, oliqarxiya demokratiyaya, demokratiya istibdad üsul-idarəsinə keçir. Lakin dəyişikliklər əks istiqamətdə də olur, məsələn, demokratiya oliqarxiyaya keçir, özü də tez-tez, nəinki monarxiyaya.

3. İstibdad üsul-idarəsi barəsində Sokrat heç nə demir, o, ümumiyyətlə, dəyişikliyi sınaqdan keçirirmi, yoxsa yox, əgər ki, keçirirsə, onda hansı səbəbdən və hansı formaya keçir. Bütün bunlar haqqında susması onunla izah olunur ki, onun üçün bu məsələlər barəsində mühakimə yürütmək çox da asan olmamışdı: burada aydınlıq yoxdur. Onun fikrincə istibdad üsul-idarəsi birinci və ən yaxşı dövlət quruluşu formasına keçməlidir, çünki fasiləsizlik və dövrə yalnız bu halda əmələ gələ bilər. Amma ki, istibdad üsul-idarəsi bəzən istibdad üsul-idarəsinə keçir, məsələn, istibdad üsul-idarəsi Sikionedə Mirakdan Klisfenin istibdad üsul-idarəsinə keçdiyi kimi, yaxud oliqarxiyaya, məsələn, Xalkiddə Antileontun istibdad üsul-idarəsi kimi, yaxud demokratiyaya, Sirakuzada Gelonun ailəsinin istibdad üsul-idarəsi kimi, ya da aristokratiyaya, Lakedemonda Xarilayın istibdad üsul-idarəsi kimi[68], eləcə də Karfagendə.

4. Həmçinin oliqarxiya da istibdad üsul-idarəsinə keçə bilər, Siciliyada qədim oliqarxiyaların böyük əksəriyyətində olduğu kimi, hansı ki, Leontinada oliqarxiya Panetinin istibdad

üsul-idarəsinə, Geledə oliqarxiya – Kleandranın istibdad üsul-idarəsinə, Regiyada – Anaksilayın istibdad üsul-idarəsinə keçmişdi; eləcə də bir çox digər şəhərlərdə. Bu fikir də mənasızdır, oliqarxiyaya keçmə onunla izah olunur ki, guya hakimiyyətdə olanlar acgöz və pulpərəstdirlər[69], daha onunla yox ki, əmlak cəhətdən digərlərini bir qədər üstələyənlər, hesab edirlər ki, dövlətdə heç bir şeyə malik olmayanların mülkiyyət sahibləri ilə eyni hüquqa malik olması haqsızlıqdır; bir çox oliqarxiyalarda nəinki qazanclı işlərlə məşğul olmağa icazə verilmir, axırıncı hətta müvafiq qanunlarla qadağan edilir, halbuki demokratik quruluşa malik olan Karfogendə, vətəndaşlar qazanclı işlərlə məşğul olurlar, indiyə qədər də orada dövlət quruluşu dəyişilməyib. 5. Bu da mənasız fikirdir, guya oliqarxiya dövlətində ikitirəlik olur – varlıların dövləti və yoxsulların dövləti. Nəyə görə bu oliqarxiyada olmalıdır, daha lakedemon dövlətində, yaxud başqa birisində yox, harda ki, hamı bir bərabərdə mülkiyyətə yiyələnməyib, yaxud hamı eyni dərəcədə şanlı xadim deyil. Amma baxmayaraq ki, heç kəs əvvəlkinə nisbətən daha da kasıblaşmır, madam ki, yoxsullar çoxalır, oliqarxiya demokratiyaya keçir və əksinə, əgər varlılar xalq kütləsi üzərində üstünlük qazanırsa və axırıncılar bunu nəzərdən qaçırdığı halda, birincilər bunu hesaba alırsa, demokratiya oliqarxiyaya keçir. Dövlət çevrilişlərinin səbəblərinin çox olmasına baxmayaraq[70], Sokrat yalnız birini göstərir, guya yoxsulluq, məhz pozğun həyat keçirmək nəticəsində təşəkkül tapır və böyük faizlə pul götürməklə sanki hamı, yaxud əksəriyyət lap əvvəldən varlı olub. 6. Bütün bunlar səhvdir. Bununla belə hakimiyyət başında duranlardan bir neçəsi öz var-dövlətini itirərsə, onda onlar dövlət quruluşunda yeniliyə cəhd edirlər, amma yerdə qalanlardan biri olsa, o zaman bundan heç bir mühüm nəticə hasil olmur, həm də birinci halda dövlət quruluşu, əsla daha yaxşı hesab edilən demokratiyaya deyil, hər hansı bir digər quruluşa keçir. Kimləri ki, dövlət vəzifələrinə buraxmırlar, kimləri ki, onlar öz mal-mülkünü israf etməsələr də, incidib təhqir edirlər, həmin adamlar çəkişməyə və dövlət çevrilişləri etməyə başlayırlar...[71]bunun nəticəsində onlara istədiklərini etməyə icazə verirlər ki, bunu da o, azadlığın son dərəçə çox olması ilə izah edir. Ümumiyyətlə, oliqarxiya və demokratiyanın bir neçə formasının olmasına baxmayaraq, Sokrat bunlarda baş verən dəyişikliklər haqqında elə danışır ki, sanki bunun və o birinin yalnız bir forması var.

I. 1. Müxtəlif formalarda olan məşvərətçi, yəni dövlətdəki ali hakimiyyət haqqında, dövlət vəzifələrinin təşkili haqqında və divanxanalar haqqında, hansının hansı dövlət quruluşuna uyğun gəlməsindən yuxarıda danışılmışdı; həmçinin dövlət quruluşu formalarının dağılması və mühafizə edilməsi haqqında, yəni bu və o biri nə ilə əlaqədardır və hansı səbəblərlə şərtlənir. Demokratiya kimi qalan dövlət quruluşlarının da bir neçə forması olduğuna görə, bizim əvvəllər bir kənara qoyduğumuz şeyləri də eyni zamanda müzakirə etmək, həm də hər sistem üçün ona xas və daha faydalı olan quruluşu müəyyənləşdirmək məqsədəuyğundur. 2. Biz, həmçinin yuxarıda adları çəkilən bütün təsisatların bütün qurulma yollarının mümkün birləşmələrini müzakirə edəcəyik: onların birləşməsi müxtəlif dövlət quruluşu formalarının çarpazlaşmasından törəyir, belə ki, oliqarxiya çalarlı aristokratiyalar və demokratiya çalarlı – politiyalar əmələ gəlir. Müzakirə edilməli olan, lakin hələ indiyə qədər müzakirə edilməyən birləşmələr dedikdə mən, məsələn, aşağıdakıları nəzərdə tuturam: əgər məşvərətçi orqan və vəzifəli şəxslərin seçkisi oliqarxiyasayağı təşkil edilibsə, divanxanalar isə – aristokratiyasayağı; yaxud bu axırıncılar və məşvərətçi orqan – oliqarxiyasayağı, vəzifəli şəxslərin seçkisi isə – aristokratiyasayağı, ya da bir başqa cürədirsə, onda dövlət quruluşu hərtərəfli olaraq öz əsas xarakterinə uyğun surətdə təşkil olunmayacaq.

3. Hansı demokratiyanın hansı dövlətə uyğun gəlməsi, eləcə də hansı əhaliyə hansı oliqarxiyanın uyğun gəlməsi və hansı dövlətlərin yerdə qalan hansı dövlət quruluşları üçün xeyirli olması haqqında əvvəllər danışılmışdı, əlavə olaraq yalnız bu dövlət quruluşlarından hansının dövlətlər üçün ən yaxşı olması deyil, həmçinin təcrübədə bunların da, qalan dövlət



quruluşu formalarının da necə müəyyənləşdirilməsi aydınlaşdırılmalıdır; bax bu barədə biz indi qısaca olaraq danışacayıq. Hər şeydən öncə demokratiyanın müzakirəsinə başlayaq; bununla bərabər buna zidd olan, yəni bəzilərinin oliqarxiya adlandırdığı quruluş da bəlli olacaq. 4. Belə bir araşdırma zamanı demokratiyanın bütün fərqli cəhətlərini nəzərə almaq lazımdır, həm də bütün o şeyləri ki, bunlar demokratiya quruluşunun ayrılmaz mənsubiyyəti hesab edilir, çünki demokratiyanın ayrı-ayrı formaları da bütün bunlardan əmələ gəlir və belə formalar bir deyil, bir neçədir, özü də müxtəlifdir. Demokratiyanın forma müxtəlifliyi iki səbəblə izah olunur: bunlardan birincisi haqqında biz əvvəllər danışmışdıq; bu, xalqın tərkib cəhətdən müxtəlifliyidir (xalq kütləsinin tərkibinə əkinçilər, digər tərəfdən – sənətkarlar və günəmuzd işləyənlər daxildir, əgər birincilərə ikincilər, üçüncülərə isə öz növbəsində birincilərin hər ikisi birləşdirilsə, onda fərq demokratiyanın yaxşı və ya pis olmasından deyil, bunun eyni cür olmamasından ibarət olacaq). 5. İkinci səbəb odur ki, – biz bunun haqqında indi danışırıq. Yəni, demokratiyanı fərqləndirən xüsusiyyətlər və bu quruluşa xas hesab edilənlər, bunlar, bu və ya ayrı cür birləşdikdə, demokratiyanın dəyişilməsinə səbəb olur: bir halda demokratiyaya ona daha az xas olan xüsusiyyətlərlə keçilir, digər halda – daha çoxla, üçüncü halda – hamısıyla. Bu xüsusiyyətlərdən hər biri haqqında məlumatlı olmaq ona görə faydalıdır ki, birisi təcrübədə yeni formada demokratiya qurmaq, yaxud demokratiyada bu və ya digər düzəlişlər etmək arzusunda buluna bilər. Axı bu, yaxud digər dövlət quruluşu formasını təşkil edənlər bunların hər birində ona xas olan bütün xüsusiyyətləri onun əsas prinsipinə müvafiq surətdə birləşdirməyə çalışırlar, lakin onlar bu halda yanılırlar, bu da dövlət quruluşlarının dağılması və mühafizə edilməsi haqqında olan mühakimələrdə əvvəllər göstərilmişdi.

İndi biz müxtəlif dövlət quruluşlarından nə tələb olunduğu barədə, onların xarakterləri və məqsədləri haqqında danışacayıq.

6. Demokratiya quruluşunun əsas prinsipi azadlıqdır. Ümumi rəyə görə, yalnız bu dlövlət quruluşunda hamı azadlığa malikdir, zira buna, iddia edildiyi kimi, hər demokratiya can atır. Azadlığın şərtlərindən biri isə – növbə ilə idarə olunan və idarə edən olmaqdır. Doğrudan da, demokratiya qaydalarının əsas prinsipi ondan ibarətdir ki, bərabərçilik kəmiyyət baxımından həyata keçirilir, daha məziyyətə əsaslanmır; əgər ədalət bundadırsa, onda, şübhəsiz, ali hakimiyyət xalq kütləsinə mənsubdur, çoxluq da bir şey haqqında qərar çıxardıqda, bu qəti və haqlı qərar sayılmalıdır. Deyirlər, bütün vətəndaşlar bərabər hüquqlara malik olmalıdır, belə ki, demokratiyada daha böyük səlahiyyətlərə varlılar deyil, yoxsullar sahib olur, axı onlar çoxluq təşkil edir, çoxluğun qərarı isə ali qüvvəyə malikdir. 7. Beləliklə, demokratiya quruluşunun əlamətlərindən biri demokratiyanın bütün tərəfdarlarının etirafına görə azadlıqdır. İkinci prinsip – hər kəs necə istəyir, elə də yaşamalıdır; bu xüsusiyyət, deyirlər, məhz azadlığın nəticəsidir, halbuki köləliyin nəticəsi istənilən kimi yaşamağın mümkünsüzlüyüdür. Beləliklə, bu demokratiya quruluşunun ikinci fərqli əlamətidir. Ümumiyyətlə, tabeçilikdə olmamaq cəhdi artıq buradan meydana çıxmışdı – hər şeydən yaxşı heç kimin tabeçiliyində olmamaq, əgər buna yetmək mümkün deyilsə, heç olmasa növbə ilə olmaq[1]. Bu halda da bü cəhd bərabərçiliyə əsaslanan azadlıq prinsipinə uyğun gəlir.

8. Bu başlıca müddəalara və belə bir prinsipə əsaslanaraq, biz aşağıda göstərilən qanunları demokratik hesab etməliyik: bütün vəzifəli şəxslər bütün vətəndaş heyətindən seçilir; hamı, ayrılıqda götürdükdə hər kəsi idarə edir, hər kəs də, haçan ki, onun növbəsi çatdı – hamını; ya bütün vəzifələrə, ya da xüsusi təcrübə və bilik tələb edilənlər istisna olmaqla, qalan



vəzifələrə adam püşklə təyin edilir; vəzifə tutmaq heç bir əmlak senzi ilə şərtlənmir, yaxud ən aşağı senzlə şərtlənir; heç kəs eyni bir vəzifəni, hərbi vəzifələr istisna olmaqla, iki dəfə tuta bilməz; bütün vəzifələr, yaxud mümkün olan yerdə, bunlar qısamüddətlidir; məhkəmə hakimiyyəti hamıya məxsusdur, hakimlər bütün vətəndaşlardan seçilir və bütün məsələlərə dair işlərə, yaxud bunların əksər qisminə baxır, yəni mühüm və mövcud olan, bir növ: vəzifəli şəxslərin hesabatına dair, siyasi məsələlərin hesabatına dair, şəxsi müqavilələrin hesabatına dair işlərə. Xalq məclisi bütün məsələlərdə ali səlahiyyət sahibidir; heç bir vəzifə heç bir məsələdə bu cür səlahiyyətə malik deyil, yaxud son dərəcə məhdud dairələrdə olan məsələlərdə buna malikdir; ya da ki, başlıca məsələlərdə ali səlahiyyət şuraya məxsusdur. 9. Şura – harda ki, bütün vətəndaşları mükafatlandırmaqdan[2] ötrü vəsait yoxdur, orada hökumət təsisatlarından ən demokratikidir; əks halda bu təsisat öz əhəmiyyətini itirir, çünki xalq[3], mukafatlandırıldıqca, bütün məsələlərin həllini öz əlində cəmləşdirir (əvvəlki mülahizələrdə bu haqda deyilmişdi). Demokratiya quruluşunun başqa bir xüsusiyyəti hamının mükafatlandırılmasıdır: xalq məclisi, məhkəmə, vəzifəli şəxslər, ya da heç olmasa vəzifəli şəxslər, məhkəmə, şura, adi xalq məclisləri, yaxud vəzifəli şəxslərdən, bir yerdə dolanmalı olanlar. Həm də oliqarxiya əsli-nəcabətlə, var-dövlətlə və təhsillə səciyyələnirsə, onda bunlara əks olan xüsusiyyətlər demokratiyanın əlamətləri sayılmalıdır, yəni əsilsizlik, yoxsulluq, qabalıq. 10. Vəzifələrə gəldikdəsə, onlardan heç biri həmişəlik olmamalıdır, amma çoxdankı dəyişikliyə görə belə birisi varsa, onda bunun əhəmiyyətini heçə endirib, buna artıq seçki yolu ilə deyil, püşklə adam təyin edilməlidir.

Bunlar demokratiya üçün səciyyəvi olan ümumi əlamətlərdir. Demokratiya nöqteyi-nəzərincə anlaşılan ədalətə əsa-

sən, yəni hamının payının bərabər miqdarda olmasından çox vaxt demokratiya hesab edilən quruluş əmələ gəlir və demokratiya dövləti meydana çıxır. Axı bərabərçilik ondan ibarətdir ki, yoxsullar varlılardan heç nədə artıq səlahiyyətə malik olmasın, həm də ali hakimiyyət birinə deyil, eyni dərəcədə hamıya mənsub olsun (kəmiyyətcə). Onlar düşünürlər ki, dövlətdə bərabərçilik və azadlıq bu yolla həyata keçirilir.

11. Lakin burda sual meydana çıxır: bəs bu bərabərçiliyə necə yetmək olar? Min nəfərin hüququnu beş yüz nəfərin hüququ ilə bərabərləşdirməkdən ötrü, beş yüz adamın əmlakını bu min nəfərin arasında bölüşdürmək lazımdırmı? Yoxsa bərabərçiliyi bu üsulla müəyyənləşdirmək lazım deyil, lakin bu surətlə bölüşdürdükdən sonra beş yüzün içərisindən və minin içərisindən yarısını götürüb, bunları vəzifəli şəxslərin seçkisinə və məhkəməyə ötürmək gərəkdir? Bu cür dövlət quruluşu demokratiyada olan haqlara əsasən hamısından ədalətli olacaqmı, yoxsa yalnız xalq kütləsi ilə hesablaşan dövlət quruluşu daha ədalətli olacaq? Axı demokratiyanın tərəfdarları o şeyin ədalətli olduğunu iddia edirlər ki, buna çoxluq qərar verir, oliqarxiyanın tərəfdarları isə o qərarı ədalətli sayır ki, bunu böyük mülkiyyət sahibləri çıxarır, çünki onların fikrincə, mülkiyyətin böyüklüyünü əldə rəhbər tutmaqla qərar çıxarmaq lazımdır. 12. Lakin bu halda da, digər halda da biz bərabərsizlik və ədalətsizliklə üzləşirik: azlığın qərarı qəbul edilsə, onda istibdad üsul-idarəsi əmələ gələcək (əgər ki, bir adam qalan varlı adamlardan daha böyük mülkiyyətə malikdirsə, onda oliqarxiyada olan haqlara əsasən, yalnız bu bir nəfər də hökm sürməlidir), əgər ki, çoxluğun qərarı qəbul edilsə, onda da ədalət, əvvəllər deyidliyi kimi, azadlıqda olan varlıların əmlakının müsadirə edilməsi ilə pozulacaq. Beləliklə, bu cür bərabərçiliyə yetməkdən ötrü, o bərabərçiliyə ki, bu onların və o birilərin nöqteyi-nəzərinə uyğun



gəlib qəbul edilsin, bunu onların və o birilərin ədalət anlayışına verdikləri qərarlarda axtarmaq lazımdır. Doğrudan da, onlar iddia edirlər ki, vətəndaşların əksəriyyətinin qərarı həlledici gücə malik olmalıdır. 13. Qoy belə olsun, hərçənd ki, ümumi nöqteyi-nəzərə görə belə deyil. Lakin dövlət iki hissədən – varlılardan və yoxsullardan ibarət olduğuna görə, əgər onların və o birilərin, yaxud onların və o birilərin əksəriyyətinin qərarı bir-birinə uyğun olsa, onda bu, həlledici əhəmiyyətə malik olacaq; əgər ki, bir-birilə ziddiyyət təşkil edən qərarlar qəbul edilsə, onda çoxluğun çıxardığı qərar və yüksək əmlak senzinə sahib olanların qərarı həlledici əhəmiyyətə malik olmalıdır. Məsələn, birincilər – on nəfərdir, ikincilər – iyirmi; varlılar arasından altı nəfər bir qərar qəbul edib, nisbətən az varlı olanlar arasından on beş nəfəri – digərini; kasıblara varlılar arsından dörd nəfər qoşulur, varlılara – kasıblar arasından beş nəfər; aparılan hesablamadan sonra onların və o birilərin hansının tərəfində əmlak senzi üstünlük təşkil edəcəksə, həmin tərəfin də qərarı həlledici əhəmiyyətə malik olmalıdır. 14. Əgər rəqəmlərin sayı bərabər olsa, onda belə bir əngəlli işə elə yanaşmaq gərəkdir ki, belədə, hal-hazırda olduğu kimi, xalq məclisində, yaxud məhkəmədə səslər bərabər bölündükdə, məsələni ya püşk, ya da buna bənzər başqa bir yolla həll etmək lazım gəlir. Bərabərçiliyə və ədalətə aid olan şeylərdə həqiqəti tapmaq olduqca çətin olsa da, hər halda bu, hər hansı bir üstünlüyə əsaslanmağa imkanı olanları özünlə razılaşmağa məcbur etməkdən asandır; axı daha zəiflər həmişə bərabərçiliyə və ədalətə doğru can atırlar, güclülər isə qətiyyən bunun dərdinə qalmırlar.

II. 1. Əvvəlki mühakimələrdə deyildiyi kimi demokratiyanın dörd formasından ən yaxşısı sırada birinci yeri tutandır, həm də demokratiyanın bu forması hamısından qədimdir. Mən onu

əhalinin təbii bölgüsünə uygun olaraq birinci adlandırıram. Doğrudan da, əhalinin ən yaxşı hissəsi əkinçilərdir; buna görə harda ki, xalq kütləsi əkinçiliklə və heyvandarlıqla dolanır, orada da demokratiyanı tətbiq etmək mümkün olur. Əhəmiyyətli dərəcədə mülkiyyətə malik olmadıqlarından, orada adamların tez-tez xalq məclisləri təşkil etməyə vaxtları olmur. Bütün lazımi şeylərə malik olmaqla onlar öz işlərilə məşğul olur və özgələrin işlərinin dərdinə qalmırlar; onlara zəhmətə qatlaşmaq, siyasətlə məşğul olmaqdan və harda ki, vəzifə almaq qazancla çox bağlı deyil, orada idarəçiliklə məşğul olmaqdan, daha xoşdur. Axı insanlar kütləvi halda götürdükdə rütbə və mənsəbdən çox gəlirə can atır. 2. Bu onu sübut edir ki, onlar kesmişdə istibdad üsul-idarəsindən çəkiblər, indi isə oliqarxiyaya dözürlər, təki onlara öz işləri ilə məşğul olmağa heç kim mane olmasın və heç nəyi onların əlindən almasın; bu şəraitdə onlardan bir qismi varlanır, digəri isə ehtiyac hiss etmir. Üstəlik, əgər onlarda bir qədər şöhrətpərəstlik varsa, onların ehtiyacı seçkilərdə iştirak etmək və hesabat qəbul etməklə ödənilir. Bəzi demokratik dövlətlərdə, məsələn, Mantineyada olduğu kimi onlar vəzifəli şəxslərin seçkisində iştirak etmirlər, yalnız növbə ilə vətəndaş heyətindən bəzi nümayəndələr iştirak edir, lakin müzakirələrdə hamısı iştirak edir ki, bu da əksəriyyətini tamamilə razı salır (bir vaxt Mantineyada olan bu dövləti də demokratiyanın formalarından biri kimi qəbul etmək lazımdır). 3. Yuxarıda haqqında danışılan demokratiya üçün aşağıda göstərilən qayda həm faydalı, həm də adidir: bütün xalq vəzifəli adamların seçkisində və onlardan hesabat alınmasında iştirak edir, hakim vəzifəsini icra edir, lakin yüksək vəzifələrə adam seçki yolu ilə və əmlak senzi əsasında təyin edilir, həm də nəzərə almaq lazımdır ki, vəzifə nə qədər yüksəkdirsə, senz də bir o qədər böyükdür, ya da vəzifələrdən heç birinə senz əsasında adam təyin edilmir, yalnız insanda olan qabiliyyət nəzərə alınır. Bu cür quruluşa malik



olan dövlətin, əlbəttə, yaxşı dövlətçiliyi olacaq, zira vəzifələri həmişə, xalqın iradəsinə əsasən, nəcib adamlara kin bəsləməyən ən yaxşı vətəndaşlar tutacaq. Nəcib adamlar və kübarlar bu cür idarə üsulundan razı qalacaq, çünki onlar özlərindən pis olanların idarəçiliyi altında olmayacaq, onlar isə, onların fəaliyyətinə nəzarət başqalarına məxsus olduğundan ədalətlə idarə edəcəklər. 4. Digərlərindən bir qədər asılı olmaq və ağıla gələn hər şeyi etmək imkanına malik olmamaq, xeyirli işdir: axı hər kəsə istədiyi kimi hərəkət etməyə imkan verməklə, hər adamda olan yaramaz şeylərin qarşısını saxlamaq olmur. Beləliklə də, istər-istəməz o şey alınır ki, bu daha çox dövlətin xeyrinədir, – daha az səhvə yol verən nəcib adamlar idarə edir, xalq kütləsi isə heç bir xüsusda alçaldılmır. Demokratiyanın bu formasının hansı səbəbdən ən yaxşı olması da aydındır: çünki xalqın burada açıq-aşkar dəyəri var.

5. Əhalini əkinçiliklə məşğul etməkdən ötrü keçmiş zamanlarda bir çox dövlətlərdə işlənmiş bəzi qanunlar, şübhəsiz, faydalıdır: torpağın müəyyən olunmuş miqdardan artıq ələ keçirilməsi, ya ümumiyyətlə, ya da müəyyən edilmiş yerdən başlayaraq şəhər və akropol istiqamətində qadağan olunur. Keçmiş zamanlarda bir çox dövlətlərdə əvvəlinci pay torpaqlarını satmaq qanunla qadağan edilmişdi. Oksilə[4] də aid edilən qanun, hansı ki, torpağın hər kəsə mənsub hissəsinin girov qoyulmasına icazə verilməməsi elə bu məqsədi güdür. 6. Həm də afiteylərin qanunundan istifadə edilsə, hansı ki, yuxarıda göstərilən məqsədlər üçün faydalıdır, indiki zamanda cinayətlərdən yaxa qurtarmaq olar; iş ondadır ki, əhalinin sayı əhəmiyyətli dərəcədə olduqda onların torpaq sahəsi olur, bununla belə hamı əkinçiliklə məşğul olur; onlar torpaq sahəsinin hamısına qiymət qoymurlar, lakin onu elə hissələrə ayırırlar ki, hətta kasıbların əmlakı qanuni senzi üstələyir.

7. Xalqın əkinçiliklə məşğul olan hissəsindən sonra ən yaxşıları çobanlıq etməklə və heyvandarlıqla dolanan adamlardır. Axırıncı bir çox baxımdan əkinçiliyə yaxındır; bu adamlar hərbi xidmət üçün də öz həyat tərzlərinə görə daha yararlı olur: onlar bu iş üçün həm fiziki cəhətdən möhkəm olduqlarına görə faydalıdırlar, həm də ona görə ki, açıq səma altında uzun müddət qala bilirlər. Başqa demokratiyaları təşkil edən əhalinin digər hissələrinin hamısı demək olar ki, bunlardan pisdir, axı onların həyat tərzinin özü yaxşı deyil və sənətkarlardan, ticarətçilərdən, günəmuzd işləyənlərdən ibarət olan kütlənin gördüyü işlərin heç hansı birisinin xeyirxahlıqla əlaqəsi yoxdur. Buna hələ o cəhəti də əlavə etmək lazımdır ki, bu cür adamların hamısı həmişə meydanda və şəhərdə görünərək, çox asanlıqla, necə deyərlər, xalq məclisi təşkil edirlər. Əksinə, dövlətin ərazisinə səpələnmiş əkinçilər bir-birilə nadir hallarda görüşürlər, həm də belə bir görüşə ehtiyacları olmur. 8. Hansı dövlətin ərazisində şum üçün yararlı sahələr şəhərdən böyük məsafədə yerləşirsə, orada asanlıqla yaxşı demokratiya da, politiya da təşkil etmək olar. Belə hallarda xalq kütləsi sahələrdə məskunlaşmağa məcbur olur; bu onunla nəticələnir ki, şəhərdə qara camaat olsa da belə, onlar hər halda bu cür demokratiyalarda dövlətin ərazisində yaşayan xalq kütləsi olmadan xalq məclislərində üstünlük qazana bilmirlər.

Hal-hazırda ən yaxşı və birinci demokratiyanın necə təşkil edilməsindən danışıldı; həmçinin demokratiyanın digər formalarının necə təşkil ediləcəyi də aydındır: ən yaxşı demokratiyadan addım-addım uzaqlaşmaq lazım gəlir, lakin həmişə əhalinin ən pis hissələrini idarəçilikdən kənarlaşdırmaq gərəkdir.

9. Dövlət idarəçiliyində hamının iştirak etdiyi ifrat demokratiyaya gəldikdə isə, hər dövlət buna tab etmək iqtidarında deyil, həm də o, əgər qanunlarla və vətəndaşların adətlərilə möhkəmləndirilməyibsə, ona uzun müddət davam gətirmək asan olmayacaq (artıq bunun da, digər dövlət quruluşu formalarının da dağılma səbəbləri haqqında hər şey demək olar ki, əvvəllər deyilmişdir). Bu demokratiyanı qurmaqdan və xalqı güclü etməkdən ötrü, adətən, onun başında duranlar vətəndaşların sırasına mümkün qədər çox adam cəlb edir və yalnız qanuni doğulanlara deyil, həm də qeyri-qanuni doğulanlara və valideynlərindən biri – ya atası, ya anası – vətəndaş olanlara vətəndaşlıq hüququ verirlər; axı onlar bu cür demokratiya üçün daha münasibdir. 10. Demaqoqlar, adətən, belə edirlər. Əslində, isə xalq kütləsi kübarların və ortababların ümumi sayını üstələyənə qədər belə adamları vətəndaşların sırasına qəbul etmək lazımdır. Daha bundan uzağa getmək gərək deyil, çünki çoxluqda olan kimi onlar dövlət quruluşuna bir az da çox nizamsızlıq gətirəcəklər; bu cür demokratik quruluşa onsuz da çətinliklə dözən kübarlar daha da acıqlanacaq, bu isə Kirendə[5] daxili çəkişmələrə səbəb olmuşdu. Kiçik acığa fikir verməmək də olar, lakin acıq çoxalmağa başlasa, bu daha tez gözə çarpacaq. 11. Belə bir demokratiya üçün daha sonra o qanunlar da faydalıdır ki, bunlardan demokratiyanın möhkəmləndirilməsi məqsədilə Afinada Klisfen, eləcə də Kirendə demokratiyanın baniləri istifadə etmişdilər. Yeni fillər və fratsiyalar tətbiq etmək, həm də onların sayını artırmaq lazımdır; digər tərəfdən şəxsi ziyarətgahları sayca az ümumi ziyarətgahlara çevirmək və ümumiyyətlə, elə biclik işlətmək lazımdır ki, bütün vətəndaşlar mümkün qədər bir-birilə çox qarışsın, əvvəlki birləşmələr isə parçalansın.

12. Bununla belə müstəbidlərin əl atdığı bütün tədbirlər görünür ki, demokratiya üçün də səciyyəvidir. Mən, məsələn, qulların, qadınların, uşaqların azad yaşamasının (qulların azad yaşaması müəyyən dərəcədə faydalı ola bilər), hər birinə özü bildiyi kimi

sərbəst həyat sürmək imkanının verilməsini nəzərdə tuturam. Bütün bunlar belə bir dövlət quruluşunun möhkəmlənməsinə səbəb olacaq, zira əksəriyyət üçün sağlam düşüncəyə tabe olmaqdan çox, nizam-intizama riayət etmədən yaşamaq xoşdur.

III. 1. Qanunverici üçün və belə bir dövlət təşkil etmək istəyən şəxslərdən ötrü bunun meydana çıxarılması əsas və yeganə vəzifə deyil, daha önəmlisi – bunun mühafizə edilməsi üçün görülən tədbirlərdir. Axı hər hansı bir dövlət quruluşunun bir, iki, üç gün qorunub saxlanılması çətin deyil. Buna görə, bizim əvvəlki mühakimələrimizdə dövlət quruluşunun dağılmasına və mühafizə edilməsinə səbəb olan şeyləri nəzərə alaraq, bütün dağıdıcı şeylərdən qorunmaq üçün, çalışıb təhlükəsizliyi təmin etmək, həm yazılmamış, həm yazılı elə qanunlar meydana çıxarmaq lazımdır ki, bunlar dövlət quruluşu üçün əsasən xilasedici olsun[6]; dövlətdə daha aydın şəkildə demokratiya, yaxud oiiqarxiyanın əlaməti kimi özünü göstərən tədbiri deyil, o tədbiri demokratiyanın, yaxud oliqarxiyanınkı hesab etmək lazımdır ki, bu onun mövcudluğunu daha uzun müddətə təmin edir. 2. İndiki demaqoqlar isə xalqa xoş gəlməkdən ötrü tez-tez məhkəmədə iş qaldırmaq vasitəsilə əmlakları müsadirə edirlər. Buna görə dövlət quruluşunun mühafizə edilməsinə canıyananlıq göstərənlər qanunlar çıxarmaq vasitəsilə buna mane olmalıdırlar, bunun nəticəsində məhkum edilmişlərin əmlakı məhkəmənin hökmü ilə heç bir halda dövlətin xeyrinə müsadirə edilməməli və ümumun mülkiyyətinə deyil, yalnız dinlə əlaqədar olan mülkiyyətə çevrilməlidir. Cinayət edənlər bu əməldən daha da qoçaqlaşmayacaq (axı onlar hər necə olsa cəzaya məruz qalacaq) qara camaat isə bundan heç bir mənfəət götürmədiyindən müttəhimlərə cəza kəsilməsinə çox da həvəs göstərməyəcək. Bundan başqa çalışıb mümkün qədər dövlət məhkəmə işlərinin sayını azaltmaq, bunları ciddi cəza hədəsiylə əsası olmadan qaldırmağı qadağan etmək lazımdır; bu cür məhkəmə işlərini,



adətən, xalqın içərisindən olan adamlara qarşı deyil, kübarlara qarşı qaldırırlar. Amma elə etmək lazımdır ki, bütün vətəndaşlar bu idarəetmə formasına da daha çox dostluq münasibəti göstərsinlər; əgər buna nail olmaq mümkün deyilsə, onda işi elə təşkil etmək lazımdır ki, ali hakimiyyət sahiblərinə düşmən kimi baxmasınlar.

3. İfrat demokratiyalarda əhali çox olduğuna görə, haqq vermədən onlarda xalq məclisləri təşkil etmək çətindir, o dövlətin qaydalarında ki, orada gəlirə dair maddələr yoxdur, o, kübarlara düşməndir: axı gəliri belə halda istər-istəməz təcili surətdə vergilər müəyyən etmək yolu ilə, müsadirə yolu ilə, yaramaz mühakimə üsulu ilə əldə etmək lazım gəlir, bütün bunlar isə artıq neçə-neçə demokratiyanı yıxmışdır. Beləliklə, harda ki, gəlirə dair maddələr yoxdur, orada xalq məclislərini nadir hallarda çağırmaq, məhkəmə iclaslarını isə hakimlərin sayını çoxaltmaqla, bir neçə günlük təşkil etmək lazımdır. Bunun o cəhəti üstündür ki, dövlətlilər daha məsarifdən qorxmurlar, hərçənd məhkəmədə iştiraka görə varlılar deyil, yoxsullar haqq alacaqdır; həm də məhkəmə araşdırmaları daha düzgün aparmağa başlayacaq: axı varlılar öz şəxsi işlərindən uzun müddətə ayrılmaq həvəsində bulunmurlar, lakin qısa müddətə məmnuniyyətlə razı olurlar. 4. Harda ki, gəlirə dair maddələr var, orada demaqoqların hal-hazırda etdiyi kimi hərəkət etməkdən çəkinmək lazımdır, onlar gəlirin artığını paylayırlar; xalq isə alır və bununla bərabər dönəbədönə yenə də buna ehtiyacı olur, belə ki, yoxsullara bu cür yardım deşiyi olan çəlləyi xatırladır. Xalqın əsil dostu ona fikir verməlidir ki, xalq kütlələri həddən artıq kasıb vəziyyətdə olmasın, çünki vəziyyətin belə olması demokratiyanın heç nəyə yaramayan quruluş olmasına gətirib çıxarır. Beləliklə, buna elə vasitələr axtarıb tapmaq lazımdır ki, vətəndaşların güzəranı həmişə xoş keçsin. Bunda varlı adamların da maraqlı olmasını nəzərə alaraq, yığılan gəlirdən əmələ gələn bütün artıq məbləği yoxsullar arasında bölüşdürmək lazım-

dır, xüsusən, imkan varsa, o qədər yığmaq gərəkdir ki, hər kəs özünə kiçik torpaq sahəsi ala bilsin, amma bunu etmək mümkün deyilsə – ticarətlə, ya da əkinçiliklə məşğul olsun. Əgər bütün yoxsullara bu imkanı vermək mümkün olmursa, onda fillər üzrə, yaxud vətəndaşların ayrıldığı digər hissələr üzrə növbəti paylanmanı təşkil etmək lazımdır. Eyni zamanda varlılar zəruri olan xalq məclislərini və məhkəmə iclaslarını təşkil etməkdən ötrü pul buraxmalıdırlar; bundan əlavə onları faydasız liturgiyalardan[7] azad etmək lazımdır. 5. Bu kimi tədbirlərlə karfagenlilər xalqın rəğbətini qazanırlar; adətən, sadə xalq içərisindən olan adamları ətraf şəhərlərə göndərməklə onlar həmin adamların varlanmasına imkan yaradırlar. Kübarlar tərəfindən isə, əgər onlar humanist və qanacaqlıdırsa, yoxsulları öz aralarında bölüşdürmək və onları pulla təmin edib, bu, yaxud digər işə göndərmək düzgün hərəkət olardı. Tarantinilərdən belə bir nümunə götürmək də pis olmazdı: yoxsulların istifadə etməsi üçün ümumi əmlak müəyyənləşdirməklə onlar xalq kütləsinin rəğbətini qazanır; onlarda vəzifələr iki cürdür: bir qisminə adam seçki yolu ilə təyin edilir, digərinə – püşklə; püşklə – o məqsədlə ki, xalqın onlara əli çatsın, seçki yolu iləsə – ona görə ki, dövlət daha yaxşı idarə edilsin. Eyni bir vəzifə barəsində də – bunun bir qisminə püşklə, digərinə seçki yolu ilə adam təyin etməkdən ötrü – bu cür etmək olar. Hal-hazırda demokratiya idarəçiliyinin necə təşkil edilməsi barəsində danışıldı.

IV. 1. İrəli sürülmüş fikirlər əsasında oliqarxiya idarəçiliyinin necə təşkil edilməsi də demək olar ki, aydın olmağa başlayır. Məhz oliqarxiyanın hər formasını demokratiya quruluşunun əsaslarına zidd olan əsaslardan təşkil etmək lazımdır, həm də o, demokratiyanın onunla ziddiyyət təşkil edən formasına müvafiq olmalıdır. Oliqarxiyanın daha çox orta və bununla bərabər sıra ilə birinci olan forması politiya adlanan quruluşa yaxınlaşır;



həm də iki cür əmlak senzi müəyyənləşdirilməlidir – daha aşağı və daha yuxarı. Daha aşağı senz vətəndaşlara adi dövlət vəzifələrini tutmağa yol açacaq, ikincisi – daha mühüm vəzifələri. Müəyyən edilmiş əmlak senzinə sahib olan hər kəs qoy bütün vətəndaş hüquqlarından istifadə etsin; əlavə olaraq senzin sayəsində tamhüquqlu vətəndaşların tərkibinə xalqın içərisindən əhəmiyyətli sayda o qədər adam daxil ediləcəkdir ki, vətəndaşlar axırıncılarla birlikdə vətəndaş hüququna malik olmayanlardan üstünlük təşkil edəcək. Amma tamhüquqlu vətəndaşların sırasına həmişə xalqın ən yaxşı təbəqələrinə mənsub olan adamları cəlb etmək lazımdır.

2. Oliqarxiyanın digər formasına da yalnız yüngülcə belə bir xarakter verib, buna bənzər dövlət quruluşu təsis etmək lazımdır. Lakin o oliqarxiya quruluşu ki, ifrat demokratiyaya münasibdir, o daha çox dinastiya və istibdad üsul-idarəsidir; o nə qədər pis olursa, onun bir o qədər də çox güclü qoruyucu tədbirlərə ehtiyacı olur. Necə ki, anadangəlmə sağlam bədən və üzmək üçün yaxşı hazırlanmış, çox gözəl heyəti olan gəmi çox bədbəxt hadisələrə məruz qala bilər, bunlardan məhv olmayan xəstə bədən və pis hazırlanmış, heyəti pis olan gəmi isə cüzi qəzaya davam gətirmək iqtidarında deyil, eləcə də ən pis dövlət quruluşu formalarının qoruyucu tədbirlərə daha çox ehtiyacı var. 3. Əhalinin çox olması demokratiya üçün xilasedicidir (o, məhz bununla, hər kəsin yaxşı cəhətinə əsaslanaraq qanuna qarşı qoyulur); burdan aydındır ki, oliqarxiya özünü mühafizə etmək üçün buna qarşı tədbirlər aramalıdır, yəni yaxşı qaydalar müəyyənləşdirilməlidir.

Adətən, xalq kütləsi dörd hissədən ibarət olduğuna görə – əkinçilər, sənətkarlar, tacirlər, günəmuzd işləyənlər, hərb üçün də dörd qoşun növü münasibdir – atlı qoşun, ağırsilahlı piyada qoşunu, yüngülsilahlı piyada qoşunu, donanma, harda ki, yerli

şərait at sürmək üçün yararlıdır, orada möhkəm oliqarxiya təşkil etmək üçün müəyyən əlverişli şərait olur: axı ordunun bu növü – əhalinin nicatı üçündür, atları isə yalnız böyük mülkiyyət sahibləri saxlaya bilər; harda ki, yerli şərait ağırsilahlı ordu təşkil etmək üçün əlverişlidir, oradakı şərait oliqarxiyanın ikinci forması üçün münasibdir: axı ağırsilahlı piyada qoşununda xidmət etməyin öhdəsindən yoxsullardan çox, varlılar gələ bilər, yüngülsilahlı ordu və matroslar isə tamamilə demokratiyaya uyğundur. 4. Hal-hazırkı dövrdə də harda ki, bu axırıncılar üstünlük təşkil edir, orada oliqarxiya daxili çəkişmələrin baş verməsi nəticəsində çox vaxt məğlubiyyətə uğrayır. Buna qarşı çarə etmək üçün hərbi istedada malik olan sərkərdələrdən süvari və ağırsilahlı qoşunları müvafiq surətdə yüngulsilahlı qoşuna birləşdirməyi iqtibas etmək lazımdır. Axırıncının sayəsində xalq kütləsi daxili iğtişaşlar zamanı varlılar üzərində üstünlük qazanır; yüngulsiahlı olsa da o, asanlıqla süvari və agırsilahlı qoşunların öhdəsindən gəlir.

5. Beləliklə, oliqarxiya, öz hərbi qüvvələrini onlardan[8] təşkil edirsə, əslində, onları özünə qarşı təşkil edir; oliqarxlar gəncləri böyük və kiçik yaşlılara ayırmalı, həm də öz oğlanlarını onlar hələ kiçik yaşda ikən yüngülsilahlı qoşunlara xas olan yüngül təlimlərə öyrətməli idilər; yeniyetməlik dövründən çıxdıqda isə, onlar hərbi işdə bişməlidir.

Oliqarxlar, əvvəl deyildiyi kimi, vətəndaş kütləsi içərisindən o adamlara dövlət işində iştirak etməyə imkan verməməlidir ki, onlar müəyyən əmlak senzi ədlə etmiş olsunlar, yaxud Fivada olduğu kimi, o adamlara ki, onlar müəyyən müddət ərzində sənətlə bağlı heç bir işlə məşğul olmasınlar, ya da, nəhayət, Massaliyada olduğu kimi, həm tam hüquqlu vətəndaşlar, həm də onlara aidiyyatı olmayan dəyərli şəxslər arasında edilən seçməyə əsasən. 6. Üstəlik mühüm vəzifələrlə, hansı ki, idarə edən vətəndaşların əlində qalmalıdır, liturgiyaları birləşdirmək lazımdır ki, sadə xalq



könüllü olaraq bunlardan imtina etsin və böyük qurbanlar bahasına öz səlahiyyətinin əvəzini verən vəzifəli şəxslərə iltifatla yanaşsın. Eyni zamanda vəzifəli şəxslər vəzifə başına keçdikdə təmtəraqlı şəkildə qurbanlar kəsdirsəydilər və bir ictimai binanın inşasına başlasaydılar yaxşı olardı; bu halda verilən qonaqlıqda iştirak edən, şəhərin abidələrlə **(anathēmasi)** və ictimai binalarla necə bəzəndiyini görən xalq həvəslə mövcud dövlət quruluşunun saxlanmasının tərəfdarı olur; həm də bütün bunlar kübarların özləri üçün, onların hesabına hazırlanmış abidələr kimi qalır. Amma indiki oliqarxlar, belə yox, əksinə hərəkət edir: onlar özlərinin dövlətdə olan üstünlüyündən nə qədər gəlir gözləyirlərsə, bir o qədər də hörmət gözləyirlər. Bax buna görə də indiki belə oliqarxiyalara kiçik demokratiya adı çox yaxşı yaraşır.

İndi kifayət qədər müəyyən edildi ki, demokratiya və oliqarxiya quruluşları necə olmalıdır.

V. 1. Bilavasitə yuxarıda deyilənlərin ardınca vəzifələrə **(archas)** aid olan hər şeyi düzgün müəyyənləşdirmək lazımdır; lazımi vəzifələr olmadan dövlət mövcud ola bilməz, nizam-intizama və əxlaqa baxan vəzifələr olmadan isə o, yaxşı idarə edilə bilməz. Bundan başqa yuxarıda deyildiyi kimi kiçik dövlətlərdə vəzifələrin sayı az olmalıdır, böyüklərdə – çox. Beləliklə, həm də aydınlaşdırmaq lazımdır ki, hansı vəzifələr birləşdirilə bilər və onlardan hansı ayrıca təşkil edilməlidir.

2. Şəhər meydanına himayə lazımi qayğılar arasında birinci yeri tutur; bundan ötrü ticarət sövdələşmələrinə və ümumiyyətlə, meydanda ədəb qaydalarına nəzarət edən bir hökumət orqanı olmalıdır, axı vacib olan qarşılıqlı ehtiyacları təmin etmək üçün bütün dövlətlərə istər-istəməz alqı-satqı ilə məşğul olmaq lazım gəlir; bu müstəqilliyə nail olmaq üçün ən münasib vasitədir, adamların da bir vətəndaş icmasında birləşməsi, görünür, elə

bundan ötrüdür. 3. Bilavasitə bundan sonrakı və bununla çox sıx əlaqədə olan ikinci himayə şəhərdəki ictimai və xüsusi binalara olan qayğıdır; ondan ötrü ki, onlar lazımi qaydada olsun (bərbad halda olan evlərin və küçələrin mühafizəsi və təmiri) və ondan ötrü ki, ayrı-ayrı malikanələrin hüdudu tam dəqiqliklə müəyyənləşdirilsin, həm də bu kimi qayğıya ehtiyacı olan digər işlərdən ötrü. Lakin belə vəzifəni, adətən, astinomiya adlandırırlar; bu vəzifəni icra edən şəxsin fəaliyyət sahəsi bir neçə şaxəyə bölünür, bunların hər birindən ötrü əhalisi çox olan dövlətlərdə xüsusi vəzifəli şəxslər təyin edirlər, məsələn, şəhər divarlarının keşikçisi, çeşmələrin müdiri, limanların mühafizəçisi kimi.

4. Digər – vacib olan və buna uyğun hökumət orqanı da belə işlərə nəzarət edir, lakin onun fəaliyyət sahəsinə yalnız dövlətin ərazisi, yəni, məhz şəhərdən kənarda yerləşən nə varsa, onlar aiddir; bəziləri bu cür vəzifəli şəxsləri aqoranomlar, digərləri – giloramlar[9] adlandırır. Göstərilən şeylərə dair üç qayğı bundan ibarətdir. Sonrakı vəzifə – dövlətin əldə etdiyi gəlirə nəzarət edir; bunları mühafizə edən və idarəetmənin ayrı-ayrı sahələrinin ehtiyacları üçün bölüşdürən adamlar apodeklər[10] və xəzinədarlar adlanır. Bundan sonrakı vəzifələr xüsusi müqavilələrin və məhkəmə qərarlarının surətlərinin mühafizə edilməsi işinə baxır; yazılı şikayətlər də onlara göndərilməlidir, həm də ibtidai məhkəmə işlərinə onlar baxır. Bəzi yerlərdə bu vəzifəni bir neçə adamın arasında bölüşdürürlər, digərlərində isə bütün bunlara bir vəzifəli şəxs baxır. Bu, «gieromnemonlar», «epistalar», «mnemonlar» və bu kimi adlarla ifadə edilir.

5. Daha sonrakı hökumət orqanı ən vacib orqan olsa da, işi demək olar, ağırdır: bu, məhkum edilmişlər üzərində məhkəmənin hökmünü həyata keçirir, dövlətə borclu olanlardan verginin qalığını alır, məhbusların keşiyini çəkir. Özünə böyük nifrət doğurduğu üçün bu çətin vəzifədir; buna görə də harda ki, bu vəzifəni icra etmək böyük mənfəətlə bağlı deyilsə, orada hər kəs bunu öz üzərinə götürməkdən imtina edir, bu vəzifəyə göndərildikdə isə qanunla işləmək istəmir. Bu, ona görə vacibdir ki, məhkəmənin qərarı həyata keçirilməzsə, ədalət məhkəməsinin heç bir xeyri də olmaz, belə ki, dövlət münasibəti, ümumiyyətlə, məhkəməsiz mümkün olmadığı kimi, qərarların yerinə yetirilməsi olmadan da mümkün deyil. 6. Buna görə yaxşı olardı ki, bu vəzifə bir adama verilməsin, ancaq ayrı-ayrı məhkəmə palatalarından olan müxtəlif şəxslər arasında bölüşdürülsün; həmçinin dövlətə borclu olan adamlardan vergi qalığının alınması ilə əlaqədar vəzifələri də bir neçə şəxsin arasında bölüşdürmək lazımdır. Üstəlik, bəzi cərimələrin alınmasını məhkəmənin hökmü ilə başqa vəzifələri icra edən vəzifəli şəxslərə də həvalə etmək olar, həm də vəzifəsinin icrasına başlamış şəxslər, səlahiyyətini itirmiş vəzifəli şəxslərin çıxardığı məhkəmə qərarlarını həyata keçirə bilər, vəzifədə olan şəxslərin çıxardığı qərarı isə digər bir vəzifəli şəxs həyata keçirə bilər, məsələn, aqoranomların elan etdikləri qərarları astinomlar həyata keçirər, ikincilərin qərarlarını isə – digərləri. Axı cərimə qoyan şəxslərə qarşı nifrət nə qədər az olsa, qərarlar bir o qədər tez həyata keçirilər. Əgər eyni şəxslər həm qərar çıxarırsa, həm də onu həyata keçirirsə, onda nifrət ikiqat olacaq; əgər eyni şəxslər hər şey barəsində...[11] onda onlar hamıyla düşmən münasibətdə olacaq. 7. Bir çox yerlərdə məhkəmə qərarlarını həyata keçirən vəzifəli şəxslərə həm də dustaqların keşiyini çəkənlər qoşulur, məsələn, Afinada on bir adlananlar. Buna görə həm bu vəzifəni ayırmaq, həm də buna tezliklə bir çarə tapmaq yaxşı olardı. Bu vəzifə göstərilən birincidən heç də az vacib deyil; amma elə olur ki, nəcib adamlar inadla xüsusən bu vəzifəyə yaxın gəlmirlər: bu işi yaramaz adamlara tapşırmaq isə qorxuludur, çünki bu cür adamların başqalarını mühafizə etməkdən çox, özlərinin

nəzarətə ehtiyacı var. Bunu nəzərə alaraq belə işlərə bir nəfəri təyin etmək lazım deyil, bununla belə fasiləsiz olaraq eyni bir adamı, amma gənclərdən təyin etmək olar, harda ki, xüsusi efeb qrupu, yaxud qarnizonda xidmət edənlər var, həm də vəzifəli şəxslərdən ayrı-ayrı adamlar bu işin yerinə yetirilməsinin dərdinə qalmağa borcludurlar. 8. Yuxarıda bir-bir adları çəkilən bütün vəzifələri, ən lazımi vəzifələr kimi birinci yerə qoymaq lazımdır. Bunların ardınca gələn, lakin daha yüksək vəzifələr də bir o qədər vacibdir, zira bunları icra etmək üçün böyük təcrübə və mötəbərlik lazımdır. Bu cür vəzifələr sırasına dövlətin mühafizəsindən, həm də hərbi ehtiyaclardan ötrü təsis edilən vəzifələri aid etmək olar. Həm sülh, həm də müharibə dövrlərində elə adamlar olmalıdır ki, şəhər darvazasının və divarlarının mühafizəsinə can yandırmış olsunlar, vətəndaşlara baxış keçirsinlər və onları hərbi bölmələrə ayırsınlar.

9. Bəzi dövlətlərdə bütün bu işlərin yerinə yetirilməsindən ötrü çoxlu vəzifə təsis edilir, digərlərində az, kiçik dövlətlərdə – hamısı üçün biri. Bu cür vəzifə sahiblərini strateqlər və polemarxlar adlandırırlar. Üstəlik, dövlətdə atlı qoşun, yaxud yüngülsilahlı qoşun və oxatanlar, yaxud donanma varsa, onda hər qoşun növündən ötrü hərdən ayrıca bir vəzifə təsis edilir. Onların navarxlar, hipparxlar, taksiarxlar, onların tabeçiliyində onları isə müvafiq olaraq trierarxlar, loxaqlar, filarxlar[12] adlandırırlar, sonrakılar da bu qaydada bölünür. Bütün bunlar – eyni cür vəzifələrdir, hərbi iş hər birinin ixtiyarında olan işdir. 10. Beləliklə, bu vəzifə haqqında belə demək olar. Vəzifəli şəxslərin hamısının olmasa da, bəzilərinin əlindən çoxlu dövlət pulu gəlib keçdiyinə görə müstəsna olaraq hesabatların qəbul edilməsi və yoxlanılmasından ötrü digər bir vəzifə də lazımdır; belə vəzifəli şəxslər yevfinlər, logistamlar, eksetastlar, seneqorlar[13] adlanır.

Bütün bu vəzifələr üzərində, bütün işlərdə ali səlahiyyətə malik olan hökumət orqanı durur; o, çıxarılan qərarları həyata keçirir, qanun layihələri təklif edir, harda ki, ali hakimiyyət xalqa məxsusdur, həmin dövlətlərdə xalq məclisinə sədrlik edir, axı dövlətə rəhbərlik edənləri dəvət etməkdən ötrü də bir vəzifə lazımdır. Bəzi yerlərdə bu hökümət orqanını probullar adlandırırlar, çünki onlar ilkin qərarları tərtib edir; demokratiyalarda isə çox vaxt – şura. Beləliklə, fəaliyyəti siyasi sahəyə aid olan bütün vəzifələr demək olar ki, bunlardır.

11. Himayənin digər forması dinə aiddir. Bura kahinlər və ziyarətgahlara aidiyyatı olan hər şeyə hamilik edənlər daxildir – dinlə əlaqədar mövcud olan tikililərin mühafizəsi, qədimdən qalanların bərpası və dini işlərin saxlanılmasına xidmət edən bütün qalan şeylərin qayğısı. Elə olur ki, bəzi yerlərdə, məsələn, kiçik dövlətlərdə bütün bu işləri himayə etmək bir vəzifəli şəxsə həvalə edilir, digər yerlərdə isə kahinlikdən fərqli olan çoxlu ayrı-ayrı vəzifələr var, yəni: gieropelər, naofilaklar[14], dinlə əlaqədar olan pulların xəzinədarları; bunların ardınca ayrı-ayrı vəzifəli şəxslər gəlir, bunlar dövlət səviyyəsində qurban kəsmələri yerinə yetirmək üçün seçilir, bu işi qanuna görə kahinlərə həvalə etmirlər, lakin dövlət yerinə yetirdiyindən xüsusi əhəmiyyətə malikdir. Bu cür vəzifəli şəxsləri bəziləri arxontlar, digərləri – çarlar, üçüncüləri – pritanlar adlandırırlar.

12. Beləliklə, lazımi himayələr ümumi nəticəyə gəldikdə aşağıdakı sahələri əhatə edir: dini, hərbi, mədaxili və məxarici, şəhər meydanını, şəhərin özünü, limanı, dövlətin ərazisini, həmçinin məhkəməni, müqavilələrin qeydiyyatını, həbsxanaların mühafizəsini, hesabatların qəbul edilməsini və yoxlanılmasını, vəzifəli şəxslər üzərində nəzarəti, nəhayət, dövlətə aidiyyatı olan işlərin müzakirəsini.

13. Asudə vaxtın və firavanlığın çox olduğu dövlətlərdə və harda ki, üstəlik ədəb qaydalarının qeydinə qalırlar, orada xüsusi vəzifələr aşağıdakılardır: ginekonomiya, nomofilakiya, pedonomiya, gimnasiarxiya; bundan başqa, gimnik və dionisik yarışların[15] və ümumiyyətlə, dövlətdə olan bu kimi ictimai tamaşaların himayəsi. Bu vəzifələrdən bəziləri açıq-aşkar demokratiyaya xas deyil; məsələn, ginekonomiya və pedonomiya belələrindəndir. Axı yoxsul adamlar qulların olmaması üzündən öz arvadları və uşaqlarından bir nökər kimi istifadə etməyə məcbur olurlar. Üç vəzifədən, hansılara ki, bəziləri vəzifəli şəxs təyin etməklə ali səlahiyyətlər verirlər, yəni nomofilaklardan, probullardan və şura üzvlərindən, nomofilaklar – aristokratiyada, probullar – oliqarxiyada, şura – demokratiyada olan qurumlardır. Bütün vəzifələr haqqında ümumi şəkildə bax bunları demək olar.



## YEDDİNCİ KİTAB (H)

I. 1. Ən yaxşı dövlət quruluşuna dair araşdırmaları təqdim etməyə hazırlaşan mütləq hər şeydən öncə dəqiq müəyyənləşdirməlidir ki, hansı həyat daha yüksək tutulmağa layiqdir. Əgər bu qaranlıq qalsa, onda, əlbəttə ki, hansı dövlət quruluşunun ən yaxşı kimi qəbul edilməsi də naməlum qalacaq. Axı aydındır ki, ən yaxşı dövlət quruluşuna malik olanlar onları əhatə edən şəraitin təsiri altında olmalıdır və buna bir gözlənilməz təsadüf maneçilik etmirsə, onlar ən xoşbəxt həyat sürməlidir. Buna görə də hər şeydən öncə hansı həyat tərzinin, ümumiyyətlə desək, hamısından daha yaxşı olması barədə razılığa gəlinməlidir, sonra isə artıq o məsələ həll edilməlidir ki, bu, ümumiyyətlə, hamı üçün və ayrı-ayrı adamlardan ötrü eyni olacaq, yoxsa başqa-başqa.

2. Hesab etsək ki, bizim eksoterik mühakimələrimizdə ən yaxşı həyat haqqında məsələ kifayət qədər şəhr edilib, biz hal-hazırda da bunlardan istifadə edəcəyik. Doğrudan da, göstərilən həmin bölmələrə əsaslanaraq, kimsə mövcud olan üç növ: dünyəvi, cismani və mənəvi nemətlərin mövcud olmasına çətin ki, şübhə edə bilər; bütün bu nemətlərin hamısı xoşbəxt adamların gözünün qabağındadır. Axı kim az dərəcədə olsa da cəsarətli, təmkinli, ədalətli, ağıllı deyilsə, kim uçan milçəkdən qorxursa, kim aclıq və susuzluğunu yatırmaq üçün heç nədən, hətta ən qəti vasitələrdən belə çəkinmirsə, kim yarım qroşa görə ən yaxın dostlarını qurban verməyə hazırdırsa, kim uşağa və dəliyə bənzər dərəcəyə qədər dərrakəsiz və nöqsanlıdırsa, heç kəs onu xoşbəxt adlandırmaz. 3. Lakin bununla bərabər bu barədə hamı, demək olar ki, tam razılığa gəldiyindən bu dünyəvi nemətlərin dərəcəsi və dəyəri xüsusunda fikirayrılığı var. Adamlar hətta cüzi dərəcədə belə xeyirxahlığa malik olduqda, bunu kifayət qədər hesab edirlər, var-dövlətə, mülkiyyətə, qüdrətə, şan-

şöhrətə və bu kimi şeylərə doğru can atdıqda isə onlar heç bir hədd bilmirlər. Bizsə onlara deyirik ki, həqiqətdə olan şeylərin köməkliyi ilə burada işlərin necə olması asanlıqla yəqin edilir; diqqəti təkcə ona çəkək ki, məziyyətləri dünyəvi nemətlər əldə edib qorumur, əksinə, məziyyətlər dünyəvi nemətləri əldə edir və qoruyur; həyatda xoşbəxtliyin adamlardan ötrü özünü zövq-səfa kimi, yaxud xeyirxahlıq kimi, yaxud bu və ya o biri kimi göstərib-göstərməməsindən asılı olmayaraq bu, o adamlara həmrah olur ki, onlar artıqlaması ilə xoş xasiyyətlə və ağılla zinətlənirlər, həm də o adamlara ki, onlar dünyəvi nemətlərin əldə edilməsində mötədillik göstərirlər, onlardan daha çox dərəcədə isə o adamlara ki, onlar mənəvi cəhətdən kasıb olsalar da dünyəvi nemətləri lazım olduğundan artıq əldə ediblər.

4. Ancaq burası da var ki, nəzəri mühakimələr, görünür, elə həmin nəticəyə gətirib çıxarır. Dünyəvi nemətlərin bir növ vasitə kimi – hər vasitə isə müəyyən məqsəd üçün yararlıdır – həddi vardır; bunların çox olması bunlara malik olanlara istər-istəməz zərər yetirir, yaxud hər halda heç bir xeyir gətirmir; əgər, ümumiyyətlə, qəbul edilsə ki, mənəvi nemətlər çox gözəl olmaqla bərabər, həm də xeyirlidir, onda onlardan hər biri nə qədər çox olsa, bir o qədər xeyirli olar. Hər halda, biz deyirik ik, şeylərin ən yüksək mükəmməlliyi birinin digəri üzərində üstünlüyünü təyin etmək məqsədi ilə müqayisə edildikdə, görünür, bizim araşdırma zamanı müəyyənləşdirdiyimiz kimi, ayrı-ayrılıqda götürdükdə onların hər birinin arasında olan fərqlə birbaşa əlaqədardır. Bu minvalla, əgər ruh öz-özündən və biz insanlardan ötrü mülkiyyətə və bədənə nisbətən daha dəyərlidirsə, onda, əlbəttə ki, onların mükəmməl vəziyyəti də belə bir nisbətdə olmalıdır. Daha sonra, bütün bunlar, təbii ki, ruhdan ötrü lazımdır və bütün sağlam fikirli adamlar ruhu bunlar üçün deyil, bunları məhz ruh üçün arzu etməlidir. 5. Beləliklə, şərtləşək ki,



hər kəsin payına nə qədər xoşbəxtlik düşürsə, bir o qədər də xeyirxahlıq, dərrakə və buna uyğun fəaliyyət düşür; hər hansı bir dünyəvi nemət sayəsində deyil, ancaq özü-özlyüyndə və öz təbiətinə xas xüsusiyyətlər sayəsində xoşbəxt və müqəddəs olan Allah bizə zamindir. Əlbəttə, xoşbəxtliyin uğurdan fərqi də bundan ibarətdir: təsadüf və xoşbəxt tale nəticəsində bizim payımıza mənəvi deyil, dünyəvi nemətlər düşür, ancaq elə bir adam yoxdur ki, o, taleyi ilə bağlı, həm də bunun sayəsində ədalətli və təmkinli olsun. Həmin o səbəblərdən də irəli gələn fikirlərin nəticəsi budur ki, ən yaxşı dövlət elə xoşbəxt və rifah içində bulunan dövlətin özüdür ki, var, yaxşı əməl sahibi olmayan adamlar isə rifah içində yaşaya bilməz, insan da, dövlət də xeyirxahlığa və ağıla malik olmadan heç bir yaxşı əməl sahibi ola bilməz. Cəsarət, ədalət və ağıl hər bir adamda olduğu kimi dövlətdə də əhəmiyyətə və həminki sifətə malikdir, adamlar bunlarla əlaqədar olduğuna görə ədalətli, ağıllı və təmkinli adlanır.

6. Qoy əvvəlki mühakimələr bizim araşdırmamızın başlanğıcı olsun. Bunlara, əsla toxunmamaq olmazdı, hərçənd ki, bura aid olan məsələləri müfəssəl surətdə müzakirə etmək də mümkün deyil – bu xüsusi bir fəndir. Hələlik hesab edəcəyik ki, aşağıda göstərilənlər əsaslı surətdə müəyyən edilmişdir: ən yaxşı həyat ayrı-ayrılıqda hər kəs üçün, eləcə də dövlətlər üçün odur ki, burada məziyyət özünü dünyəvi nemətlərlə o qədər təmin edir ki, bunun nəticəsində öz fəaliyyətini xeyirxahlığın tələbinə uyğun surətdə qurmaq mümkün olur. Bu [fikrə] qarşı ola biləcək etirazları biz indiki mühakiməmizdə bir kənara qoyuruq və bunları sonralar – kimisə yuxarıdakı dəlillər qane etmirsə, o halda müzakirə edəcəyik.

II. 1. Onu araşdırmaq qalır ki, hər bir adamın xoşbəxtliyi ilə dövlətin xoşbəxtliyinin eyni olduğunu qəbul etmək olarmı, yoxsa

yox. Buna cavab aydındır, zira, görünür ki, hamı bunun eyni olması ilə razıdır, kim sayırsa ki, hər kəsin xoşbəxtliyi var-dövlətdir, həmin kəs bütün dövləti də, əgər o varlı olsa, xoşbəxt hesab edir. Kim hər şeydən çox müstəbidin həyatına pərəstiş edirsə, o, elə dövləti ən xoşbəxt hesab etməyə hazırdır ki, burada bir nəfərin gücü olduqca çox adama şamil edilir ki, kim fikirləşirsə ki, hər adam ona xas olan xeyirxahlıqdan asılı vəziyyətdədir, o, daha yaxşı işlərlə seçilən dövləti ən xoşbəxt hesab edəcək. 2. Lakin burda izahı tələb olunan iki sual meydana çıxır: biri – hansı həyat üstünlüyə layiqdir, o həyatmı, hansı ki, adamları bir dövlətdə birləşdirir və onları ona qoşur, yoxsa daha çox dövlət münasibətindən kənarda olan gəlmə adamın həyatı? İkincisi isə – hansı dövlət quruluşu təşkil edilən hansı dövləti ən yaxşı hesab etməlidir, onumu, hansında ki, hamı üçün dövlət quruluşunda iştirak etmək yaxşı olardı, yoxsa onu, hansında ki, bu hamı üçün deyil, bəziləri üçün arzu olunur? Nəzərə alsaq ki, siyasi düşüncəyə və müzakirəyə qoymağa aid olan məsələ, ayrıca olaraq hər bir adam üçün daha yaxşı hesab edilən yox, məhz budur, biz ikinci məsələni əsas sayaraq, araşdırmamızda indi daha çox onun müzakirəsi ilə məşğul olacayıq, birinci məsələni isə ikincidərəcəlilər sırasına daxil edək.

3. Beləliklə, aydındır ki, eləsi ən yaxşı dövlət hesab edilməlidir ki, onun təşkil edilməsi hər adama rifah içində və xoşbəxt yaşamaq imkanı verir. Lakin hətta o adamlar, hansılar ki, səmimiyyətlə xeyirxahlığın tələbinə uyğun olan həyatı hamısından daha yaxşı hesab edir, mübahisə edirlər ki, nəyə üstünlük verək: adamların siyasi və əməli cəhətdən işgüzar həyatınamı **(politikos kai praktikos)**, yoxsa elə həyata ki, beləsi hər bir kənar işdən azaddır, məsələn, o passiv həyat ki, bəziləri bunu yalnız filosoflara layiq hesab edir. Ləyaqəti və şərəfi hər şeydən üstün tutan adamların demək olar ki, həmişə bu iki həyat tərzindən birini seçməsini görmək asandır – təcrübi fəaliyyəti və fəlsəfə ilə məşğulluğu, əvvəllər belə olub, iş hal – hazırda da belədir. 4. Həqiqətin kimin tərəfində olmasını bilməyə çox da laqeyd deyilik, çünki həm doğru düşünən hər bir adam, həm də bütövlükdə hər bir dövlət, əlbəttə, həyatın qarşıya qoyduğu ən yaxşı məqsədlə uyğunlaşmalıdır. Bəzilərinin fikrincə, öz yaxınları üzərində zalımcasına hökm sürmək – ən böyük ədalətsizlikdir, onların üzərində isə vətəndaş kimi hökm sürməkdə heç bir ədalətsizlik olmasa da, lakin hökmdarın özünün xoşbəxt yaşamasına əngəl törədir. Digərlərinin fikri tamamilə əksinədir: əməli cəhətdən işgüzar həyat və dövlət üçün yaşamaq yalnız dövlət xadiminə yaraşır, çünki xeyirxahlığın tətbiq edilməsi qeyri-tipik adamlar üçün yox, yalnız ictimai və siyasi işlərlə məşğul olanlardan ötrü böyük fəaliyyət sahəsi açır. 5. Bəziləri belə düşünür, digərləri isə iddia edir ki, daha yaxşısı yalnız istibdad üsulu və dövlət quruluşunun zalım formasıdır. Sonra, bəzilərində dövlət quruluşunun fərqli cəhəti və qanunlar ondan ibarət olur ki, onların qonşular üzərində hökmranlıq etmək məqsədi var. Buna görə əksər hallarda qanunların çoxunun, necə deyərlər, qarmaqarışıq vəziyyətdə olmasına baxmayaraq, hər halda harda ki, onlar müəyyən bir məqsəd nəzərdə tutur, orada bunların hamısı başqaları üzərində hökmranlıq etməyə yönəlib. Məsələn, Lakedemonda və Kritdə, demək olar, bütün tərbiyəetmə işləri və qanunlar külliyyatı müharibəni nəzərə alır. Həmçinin kifayət qədər güclü olan bütün qeyri-yunan tayfalarında da, hərbi qüvvə böyük əhəmiyyətə malikdir, məsələn, skiflərdə, iranlılarda, frakıyalılarda, keltlərdə. 6. Bə-zilərində bu cömərdliyi təşviq etmək üçün müəyyən qanunlar var, məsələn, deyirlər Karfagendə zinət əşyası fərqlənmə nişanı hesab edilir, bu edilən yürüşlərin sayı qədər olan üzüklərdən ibarətdir. Keçmiş zamanlarda Makedoniyada olan qanuna görə isə bir düşmən belə öldürmə-

yən adam belinə ovsar bağlamalıydı. Skiflərdə belə adamın hər hansı bir bayramda dairəvi fincandan içməyə haqqı yox idi. Döyüşkən iber tayfasında ölənin məzarı ətrafına o, nə qədər düşmən qırıbsa, o qədər də boyunbağılar sancırlar. Digərlərində də belə şeylər çoxdur, bunların bir qismi qanunlarla müəyyən edilib, bir qismi əziz tutulan adətlərdir. 7. Doğrudur, dövlət xadiminin başlıca vəzifəsi qonşuları üzərində, onların bunu istəyib-istəməməsinə fərq qoymadan ağalıq və hökmranlıq etmək axtarışından ibarətdirsə, həqiqət ən yaxınlarda ediləcək müzakirələrdə tamamilə mənasız görünə bilər. Doğrudan da, o şey nə cür dövlət xadiminin, yaxud qanunvericinin vəzifəsi hesab edilə bilər ki, o elə özü-özlüyündə qeyri-qanunidir? Hökm sürmək yalnız hüquqi cəhətdən yox, hüququn ziddinə də qanuni deyil, tabe etmək isə qanunun ziddinə də mümkündür.

8. Biliyin digər sahələrində biz buna bənzər heç bir şey görmürük. Nə həkim, nə də sükançı ya inandırmağı, yaxud zorla məcbur etməyi öz qarşısına məqsəd qoymur, biri – xəstələri, digəri – apardığı adamları. Amma adamların əksəriyyəti zalımanə hökmranlığı görünür ki, siyasətin başlıca məqsədi hesab ebir və özlərinə qarşı nə ədalətli, nə xeyirli saymadıqları belə hərəkətləri utanmadan yerdə qalanları barədə mümkün hesab edirlər; özlərində onlar ədalətli hakimiyyətə can atırlar, yerdə qalanlara gəldikdə isə onlar, əsla bunun dərdinə qalmırlar.

9. Hər halda bəziləri zalımanə hakimiyyət altında olmağa təbiətən öyrəncəlidir, digərləri isə belə hakimiyyət altında olmağa öyrəncəli deyil, əgər iş belədirsə, hamının üzərində zalımanə hakimiyyət mənasızdır, lakin təkcə buna öyrəncəli olanlar üzərində olar: axı ziyafət, yaxud qurbankəsmə təşkil etməkdən ötrü insanların yox, yalnız o məxluqların şikarına çıxmaq lazımdır ki, onlar ov üçündür, beləlləri isə vəhşi heyvanlardır, həm də elə heyvanlar ki, onların əti yeməlidir. Buna görə də tamamilə təcrid olunmuş dövlət – əgər, ümumiyyətlə, müharibə aparmaq və düşmənləri məhv etmək siyasəti yürütməyən dövlətin olması mümkündürsə, axı bütün bunlar olmaya da bilər – özü-özlüyündə o halda salamat ola bilər ki, onun quruluşu, şübhəsiz, çox yaxşıdır.

10. Beləliklə, burdan belə nəticə çıxır ki, hərbi işlərin qeydinə qalmağı, ali və başlıca məqsəd deyil, yalnız buna yetişməyin vasitəsi kimi çox yaxşı hesab etmək lazımdır. Qanunverici başa düşməyə çalışmalıdır ki, dövlət, bu və ya digər qəbildən olan adamlar və ümumiyyətlə, bütün digər münasibətlərdə bulunan adamlar yaxşı həyatdan, həm də onlar üçün mümkün ola biləcək xoşbəxtlikdən zövq almalıdır. Əlbəttə, müəyyən edilmiş qanunların bəziləri heç də eyni olmayacaq; hansı qonşular barəsində, əgər tədbirlər varsa, hansı tədbirlərin görülməsini və hər birinə qarşı bu kimi tədbirlərin nə cür tətbiq edilməsini nəzərə almaq da qanunvericinin işidir. Lakin bu məsələni aşağıda, haçan ki, biz ən yaxşı dövlət quruluşunun hansı məqsədləri güdməli olduğunu araşdırdıqda, əsaslı surətdə ayırd edəcəyik.

III. 1. Xeyirxahlıqla bağlı olan həyatın hamısından yaxşı olmasını etiraf edib, bu həyatın tətbiq üsulları haqqında mübahisə edən adamlara müraciət edərək biz onlara və o birilərinə deməliyik ki, (bəziləri bütün vəzifələrdən imtina edir, onlar hesab edir ki, azad adamın həyatı dövlət xadiminin həyatından tamamilə fərqli və hamısından daha yaxşıdır, digərləri axırıncını ən yaxşı kimi qəbul edib göstərir ki, heç bir işlə məşğul olmayan adamın rifah içində yaşaması mümkün deyil, çünki yaxşı şeylərə yönələn fəaliyyətlə xoşbəxtlik bir-birilə eynilik təşkil edir) – onlar da, o birilər də bir cəhətdən haqlıdır, digər cəhətdən – haqlı deyil. Bəziləri – o mənada ki, azad adamın həyatı ağanın həyatından daha yaxşıdır: ona görə ki, qulla əlaqədə olmaqda, madam ki, o

kölədir, heç bir yaxşı şey olmadığı kimi, məişət təlabatları xüsusunda əmrlər verməyin də çox yaxşı ilə heç bir əlaqəsi yoxdur. 2. Lakin hər bir hakimiyyəti zalımanə hesab etmək düzgün deyil. Axı azad adamlar üzərində və qullar üzərində olan hökmranlığın fərqi, öz xarakterinə görə azad və öz xarakterinə görə kölə olanların arasındakı fərqdən heç də az əhəmiyyətli deyil, mühakiməmizin əvvəlində buna kifayət qədər diqqət yetirilmişdi. Digər tərəfdən fəaliyyətsizliyin fəaliyyətdən yüksək tutulub təriflənməsinə heç bir əsas yoxdur, çünki xoşbəxtliyi şərtləndirən, məhz fəaliyyətdir, həm də ədalətli və təmkinli adamların fəaliyyətinin sonu bir çox gözəl işlərlə nəticələnir. 3. Belə bir müəyyənləşdirmədən sonra kimsə, çox güman, bu fikrə düşəcəkdir ki, hamının üzərində ali hakimiyyətə malik olmaq – ən zəruri şeydir, yaxud bu halda daha çox gözəl işlərin görülməsinə imkanat yaranır[1], belə ki, kim hökm sürə bilirsə, bu səlahiyyəti öz yaxınına güzəştə getməlidir, lakin hakimiyyəti atanın oğuldan, oğulun atadan, dostun dostdan almasını hesaba almadan, ondan almağa çalışmalıdır. Axı ən zəruri şey hər şeydən daha yaxşıdır, rifah içində yaşamaq isə ən zəruri şeyin özüdür ki, var.

4. Əgər talan edənlər və zor işlədənlər bilsəydilər ki, bütün mövcud olan şeylərin hamısından yaxşı nədir, bəlkə də bu fikir doğru ola bilərdi, lakin bu, çox guman, mümkün olmadığı üçün göstərilən fikir də yanlışdır. Axı kişi qadından, ata övladlarından, ağa kölədən nə qədər fərqlənirsə, birinin digərindən bir o qədər fərqlənməsini çox yaxşı iş saymaq olmaz; kim qanunu tapdalayırsa, həmin adam artıq onun yolundan uzaqlaşdığından, məziyyətlər bu pis işi sonradan düzəltmək vəziyyətində olmur. Axı bir-birilə eynilik təşkil edən çox yaxşıyla qanunauyğunluq arasında əvəzlənmə var[2], yaxud o həm bərabərçiliyi meydana çıxarır, həm də oxşarlığı; bərabərlər arasında bərabərsizliyin və



eynilər arasında fərqin olması qeyri-normal haldır, heç bir qeyri-normal şeysə çox yaxşı ola bilməz. Buna görə əgər birisi digərini xeyirxahlıqda üstələyirsə və ən yaxşı cəhətdən iş görmək iqtidarındadırsa, onda belə adamın ardınca getmək çox yaxşıdır, ona tabe olmaq isə – qanunauyğundur. Belə adam xeyirxahlığa malik olmaqla bərabər fəaliyyət də göstərməlidir.

5. Əgər bunların hamısı belədirsə və əgər yaxşı iş xoşbəxtlik hesab edilməlidirsə, onda hər bir dövlət üçün də, o cümlədən, hər bir adam üçün də ən yaxşı həyat işgüzar həyat olardı. Lakin bəzilərinin düşündüyü kimi, əməli işin digər şeylərə yönəldilməsi vacib deyil; əməli iş təkcə, fəaliyyətin özündən meydana çıxıb müsbət nəticələr naminə tətbiq edilən ideyalardan ibarət deyil, o nəzəriyyə və fikirlər daha böyük əhəmiyyətə malikdir ki, bunlarda məqsəd – onların özüdür və özləri naminə mövcud olmalarıdır. Axı burda da məqsəd yaxşı işdən ibarətdir, belə ki, bunda da fəaliyyət var; biz hətta ciddi halda o adamların praktiki fəaliyyəti barədə danışırıq ki, onların fikri kənarda baş verən işlərə istiqamət verir. 6. Buna baxmayaraq özlərindən ötrü təşkil edilən və bu vəziyyətdə[3] qalmağa üstünlük verən dövlətlər də fəaliyyətdən çəkinməlidir; onlar az da olsa fəaliyyət göstərə bilər, çünki dövlətin hissələri arasında cürbəcür əlaqələr mövcuddur. Bunu ayrı-ayrılıqda hər bir adam barəsində də demək olar, zira əks halda Allahın və bütün dünyanın gözəl varlığını təsəvvürə gətirmək çətin ki, mümkün olardı, onlar isə, onlara xas olan coşğunluq nəzərə alınmasa, heç bir fəaliyyətdə bulunmur.

Beləliklə, aydındır ki, ən yaxşı həyat ayrı-ayrılıqda hər adam üçün və bütövlükdə dövlət üçün eyni bir şeydən ibarətdir.

IV. 1. Biz yuxarıda deyilənləri müqəddimə şəklində söylədikdən sonra, qalan dövlət quruluşu formaları haqqında isə biz öz fikrimizi əvvəllər ifadə etmişdik, o şeyləri müzakirə

etməyin vaxtı gəlib çatmışdır ki, onlar hələ araşdırılmayıb, hər şeydən öncə isə aydınlaşdırılmalıdır ki, arzu olunan quruiuşun olması üçün dövlət qarşısında hansı tələblər qoymaq lazımdır. Axı ən yaxşı dövlət quruluşu ona münasib xarici şərait olmadıqda meydana çıxa bilmir. Buna görə bizim haqqımız var ki, istədiyimiz kimi bir çox ilkin şərtlər irəli sürək. Amma bunlardan heç biri, əlbəttə, yerinə yetirilə bilməyən olmamalıdır. Mən, məsələn, vətəndaşların sayı haqqında, ərazinin böyüklüyü haqqında məsələləri nəzərdə tuturam.

2. Hər qəbildən olan sənətkarın, məsələn, toxucunun, gəmiqayıranın sərəncamında onun işi üçün yararlı olan material olmalıdır; və bu material nə qədər yaxşı hazırlanmış olsa, sənət məhsulu da, şübhəsiz, bir o qədər gözəl olacaq. Eləcə də dövlət xadiminin və qanunvericinin sərəncamında müvafiq və yararlı material olmalıdır. Vətəndaşların bir yerdə bulunması dövlətin mövcud olmasının təmin edilməsi üçün ilkin şərtdir; ortaya sual çıxır: onların sayı çoxmu olmalıdır, onlar hansı təbii keyfiyyətlərə malik olmalıdır, eləcə də ərazi hansı böyüklükdə olmalı və onun xüsusiyyətləri necə olmalıdır?

3. Əksəriyyət hesab edir ki, xoşbəxt dövlət öz ölçülərinə görə böyük olmalıdır. Lakin bu fikir doğru olsa da belə, hər halda onlar bunu başa düşmür ki, hansı dövlət böyük olmalıdır, hansı isə kiçik. Onlar dövlətin böyüklüyünü onun əhalisinin miqdarı ilə ölçürlər; lakin diqqəti daha çox kəmiyyətə deyil, imkana yetirmək lazımdır. Axı dövlətin də öz vəzifələri var, ona görə də eləsini ən böyük dövlət hesab etmək lazımdır ki, o, həmin vəzifələri ən yaxşı surətdə həyata keçirmək vəziyyətində olsun. Məsələn, Hippokratı bir həkim kimi böyük adlandırmaq olar, ancaq bir insan kimi ondan daha yüksək boyu ilə fərqlənənlərlə müqayisədə bunu demək olmaz. 4. Lakin miqdar da əgər meyar sayılmalıdırsa, bu halda yenə də təsadüfi miqdara əsaslanmaq olmaz (axı



dövlətlərdə istər-istəməz çoxlu qullar, habelə meteklər və əcnəbilər vardır), lakin yalnız o əhalini hesaba almaq lazımdır ki, o, dövlətin hissəsini təşkil edir, həm də dövlətin çox mühüm mənsubiyyətidir. Belə qəbildən olan əhalinin çoxluğu, doğrudan da, böyük dövlətin nişanəsidir, sənətkarları çox, ağırsilahlı qoşunu az olan dövləti isə böyük dövlət saymaq olmaz; axı böyük dövlətlə əhalisi çox olan dövlət – eyni-eyni şeylər deyil.

5. Amma təcrübə göstərir ki, əhalisi həddən artıq çox olan dövlətlərin yaxşı qanunlarla idarə edilməsindən ötrü söz deməmək son dərəcə çətindir; hər halda biz görürük ki, o dövlətlər, hansılar ki, çox yaxşı quruluşları ilə məşhurdur, öz əhalisinin sayının həddən artıq artmasına yol vermir. Bu məntiqi fikirlər əsasında da aydındır: axı qanun nə isə bir qaydadır; qanunçuluq gözəl qaydanın özüdür ki, var; amma həddən artıq böyük miqdar qanunun qarşısına sədd çəkir. Bu, ilahi qüvvənin işi olardı, hansı ki, kainatın birliyini təmin edir **(oikoymenen)**. 6. Çox yaxşı özünün ifadəsini, adətən, miqdarda və böyüklükdə tapır, buna görə o dövlət də çox yaxşıdır ki, orada yuxarıda göstərilən böyüklüyun və həddin[4] birliyi var. Amma ki, bütün digər şeylər – heyvanlar, bitkilər, alətlər kimi dövlətin böyüklüyünün də müəyyən həddi var. Doğrudan da, həddən artıq kiçik olan, yaxud öz böyüklüyü ilə seçilənlərdən heç biri onlara xas olan imkanı həyata keçirmək iqtidarında olmur, bir halda öz təbii xüsusiyyətlərini tamamilə itirir, digər halda – pis vəziyyətə düşür. Belə ki, məsələn, bir qarış böyüklükdə olan gəmi, ümumiyyətlə, gəmi deyil, eləcə də iki stadiya böyüklüyündə olan gəmi[5]; müəyyən ölçülərə qədər çatdırılmış gəmi öz səfərini bir halda ölçülərinin kiçik olması üzündən, digər halda isə – olduqca böyük olması üzündən pis başa çatdıracaq.

7. Eyni surətdə də əhalisinin sayı olduqca az olan dövlət heç bir şeydən asılı deyil (dövlət isə müstəqil bir şeydir).

Əhalisinin sayı həddən artıq çox olan dövlət, doğrudan da, ən mühüm tələbatların təmin edilməsi cəhətdən müstəqildir, amma ki, bu dövlət birliyindən çox, tayfa birliyidir, çünki hər hansı bir düzgun quruluşa malik olmaq onun üçün asan deyil. Həqiqətən, kim bu dərəcəyə qədər çatan çoxluğa sərkərdəlik edəcək, kim, Stentorun[6] səsinə malik olmadan carçı olacaq? Burdan belə nəticə çıxır ki, dövlətin ən əvvəlinci formasının əhalisinin sayı o qədər olmalıdır ki, beləsi hər şeydən öncə siyasi münasibətlər əsasında gözəl həyat qurmaq iqtidarında olsun. Elə dövlət də mümkündür ki, o, əhalisinin sayına görə birincini üstələyib, ondan böyük olsun; lakin biz əvvəllər göstərdiyimiz kimi əhalinin bu artımı hədsiz-hüdudsuz olmamalıdır. Əhalinin həddinin artıq olmasını isə işlərin gerçək vəziyyətinə əsasən müəyyən etmək asandır. Dövlətin fəaliyyəti hökm sürənlərlə itaətdə bulunanlar arasında müəyyənləşdirilir; birincilərin vəzifəsi – sərəncam vermək və məhkəmə qərarları çıxarmaqdır. Qərarların düzgün çıxarılmasından ötrü, həm də vəzifələrin məziyyətə görə bölüşdürülməsindən ötrü vətəndaşlar bir-birini tanımalıdır – onlar hansı keyfiyyətlərə malikdir, harda ki, bu yoxdur, orada vəzifəyə adam təyin edilməsi və məhkəmə araşdırmaları ilə bağlı işlər istər-istəməz pis vəziyyətdədir. 8. Üstəlik, əcnəbilərə də, meteklərə də vətəndaşlıq haqqını mənimsəmək asandır, çünki bunu əhalinin çox olması nəticəsində nəzərə çarpmadan etmək çətin deyil. Beləliklə, aydındır ki, dövlət üçün ən yaxşı hədd aşağıdakından ibarətdir: əhalinin çox olması onun müstəqil halda yaşaması məqsədilə mümkündür, bunu araşdırmaq da asandır. Biz dövlətin böyüklüyünü bax belə müəyyənləşdirirk.

V. 1. Ərazi haqqında məsələ ilə də iş təxminən belədir. Onun xüsusiyyətlərinə gəldikdə, aydındır ki, hər kəs o ərazini tövsiyə edərdi ki, beləsi dövlətin müstəqilliyini daha yaxşı təmin



edir. Hər cür məhsul əmələ gətirən ərazi belələrindəndir, zira müstəqillik də ondan ibarətdir ki, heç nədə çatışmazlıq olmasın. Ərazinin böyüklüyü o dərəcədə olmalıdır ki, oradakı əhalinin boş vaxtdan yararlanmaq, azadlıqdan zövq almaq, həm də bunlarla bərabər toxtaq yaşamaq imkanı olsun. Bizim verdiyimiz tərifin düz olub-olmamasını biz sonralar, mülkiyyət haqqında və mülkiyyət firavanlığı haqqında danışmalı olduqda ətraflı surətdə müzakirə edəcəyik[7], yəni onlardan nə cür faydalanmaq lazımdır. Bu məsələni müzakirə etdikdə, adamlar bu cəhətdən bu və ya digər ağır vəziyyətə düşdüyü üçün bir çox mübahisələr meydana çıxır: bəziləri xəsisliyə başlayır, digərləri – israfçılığa.

2. Ərazinin ümumi xarakterini müəyyənləşdirmək çətin deyil (axı strategiyadan xəbərdar olan adamların bəzi göstərişləri ilə də hesablaşmaq lazımdır): o, basqın üçün çətin keçilə bilən, həm də əlverişli çıxışa malik olmalıdır. Üstəlik, bizim fikrimizcə, dövlətin əhalisi asan araşdırıldığı kimi, ərazisi də eləcə asan araşdırılmalıdır; «asan araşdırma» o deməkdir ki, onu müdafiə etmək asandır. Əgər şəhərin yeri ən yaxşı təkliflərə uyğun olmalıdırsa, onu elə təşkil etmək lazımdır ki, o həm dənizə, həm də dövlətin qalan ərazisinə nisbətdə eyni dərəcədə yaxşı yerləşsin. Bununla bərabər, əvvəllər artıq diqqət yetirdiyimiz bir şərti nəzərə almaq lazımdır: şəhər bütün ətraf sahədə özünü mərkəzi punkt kimi göstərməlidir, hansı ki, buradan bütün ətraf tərəflərə yardım göstərmək mümkün olsun. Başqa şərt – odur ki, şəhərə ərzaq məhsulları asanlıqla gətirilə bilsin, daha sonra odur ki, emal etməkdən ötrü ölkədə olan meşə və bütün digər materialları ora rahat daşımaq olsun.

3. Yaxşı qanunlarla idarə edilən dövlətlərin dənizə yaxın olmasının xeyirli, yaxud zərərli olması xüsusunda çoxlu fikir ayrılıqları var. Deyirlər ki, başqa qanunlarla tərbiyələnmiş əcnəbilərin dövlətdə uzun müddət qalması, orada qanunçuluğun

saxlanılmasından ötrü zərərlidir, eləcə qələbəlik də ondan ötrü zərərlidir; bu ona görə ortaya çıxır ki, dəniz yolunun rahat olması nəticəsində dövlətə xaricdən çoxlu tacirlər gəlib, orada yaşayır, bu hal isə yaxşı idarəçiliklə ziddiyyət təşkil edir.

4. Lakin göstərilən nöqsanları əgər saymasaq, onda tamamilə aydındır ki, şəhərin və dövlətin bütün ərazisinin dənizlə əlaqəsi həm dövlətin təhlükəsizliyini təmin etmək üçün, həm də onun bütün şeylərlə bol təchiz edilməsi üçün böyük üstünlük verir. Kimlərə xilas olmaq, düşmənin hücumuna davam gətirmək lazım gəlirsə, o eyni vaxtda hər iki tərəfdən – həm qurudan, həm də dənizdən yardım aldıqda, onlara xeyli asan olur; eyni surətdə dövlət üçün hər iki yol açıq olduqda, hücum edənlərə hər iki tərəfdən olmasa da, heç olmasa bir tərəfdən zərbə endirmək asandır. Eləcə də özündə olmayan zəruri məhsulları almaq, öz məhsullarının artığını isə xaricə göndərmək dövlət üçün rahatdır, axı ticarəti dövlət başqalarının marağından ötrü deyil, öz xüsusi marağından ötrü aparmalıdır. 5. Hansılar ki, özünü bazar kimi hamının istifadəsinə verir, bunu mənfəətə görə edir, bu cür tamahkarlığa cəhd etməyi lüzum bilməyən dovlətə belə bir limanın olması lazım deyil. İndi isə biz görürük ki, bir çox ölkə və şəhərlərdə, şəhərə nisbətdə çox gözəl yerləşib, onunla bir tam əmələ gətirməyən port və limanlar vardır, lakin ondan çox da uzaqda deyil, həm də şəhər özünün divarları və bu kimi digər istehkamları sayəsində onlar üzərində hakim olur. Aydındır ki, limanlarla olan əlaqə nəticəsində bir fayda hasil edilirsə, onda bu fayda dövlət üçün də qalır, əgər ki, bir zərər dəyirsə, onda müvafiq qanunlar çıxarmaq yolu ilə bunun qarşısını asanlıqla almaq olar, hansı ki, müəyyənləşdirər və dəqiq göstərərdi ki, kimə qarşılıqlı münasibətdə olmağa icazə verilir, kimə isə yox.

6. Dəniz qüvvələrinə gəldikdə, onda, tamamilə aydındır ki, onu müəyyən inkişaf həddinə gətirmək yaxşıdır. Axı dövlət



təkcə özünümüdafiəyə hazır olmamalıdır, həm də qorxuya salmaq və bəzi qonşularına quruda olduğu kimi, dənizdə də kömək etmək vəziyyətində olmalıdır. Bəs bu qüvvə hansı miqdarda və dərəcədə olmalıdır – bunu artıq dövlətin həyat tərzindən bilmək olar, əgər o, təkcə mülki həyat sürməyə yox, üstün olmağa da cəhd edirsə, onda, əlbəttə, onun dəniz qüvvələri də onun bu məqsədinə uyğun olmalıdır. 7. Digər tərəfdən, dövlətdə dənizçilərdən ibarət qara camaatın çox olması heç də vacib deyil, hər halda bu axırıncıların vətəndaşlıq hüququna aidiyyatı olmamalıdır. Axı dəniz hərbçiləri bekar adamlardan və piyada döyüşçülərdən yığılır, onlar isə dənizçilik işində başlıca rol oynayır və əsas qüvvəni təşkil edir; əgər perieklər və əkinçilər çoxdursa, onda dənizçilərin sayı da çox olur. Belə qəbildən olan hadisələrlə biz hal-hazırda da rastlaşırıq, məsələn, herakleotların dövləti[8], çoxlu sayda trier hazırlasa da, özü-özlüyündə böyüklüyünə görə digər dövlətlərdən geri qalır.

Dövlətin ərazisi haqqında, onun limanları, şəhərləri, dənizi və dəniz qüvvələri haqqında bizim fikirlərimiz bax budur.

VI. 1. Biz əhalinin vətəndaş hissəsinin həddi haqqında yuxarıda danışmışdıq, indi o haqda danışacayıq ki, o hansı xüsusiyyətlərə malik olmalıdır. Bu xüsusda, məşhur ellin dövlətlərinə və müxtəlif tayfaların bütün dünyada yerləşməsinə diqqət yetirdikdə, kifayət qədər aydın məlumat əldə etmək olar. Soyuq ölkələrdə, həm də Avropada yaşayan tayfalar cəsarətlidirlər, lakin kifayət qədər ağıllı və işə yararlı deyillər. Buna görə onlar öz hürriyyətlərini daha çox saxlayırlar, lakin dövlət qurub, yaşamağı bacarmırlar, həm də öz qonşuları üzərində ağalıq edə bilmirlər. Asiyada yaşayanlar isə ağıllıdırlar və iş qabiliyyətləri ilə fərqlənirlər, lakin cəsarətli deyillər, ona görə də onlar tabeçilikdə və kölə vəziyyətində yaşayılar. Ellinlər soyu isə elə bil

orta mövqe tutaraq bu və digər xüsusiyyətləri özündə birləşdirir: o, həm cəsur xarakterə, həm də əqli qabiliyyətə malikdir, əgər bir dövlət quruluşunda birləşə bilsəydi, hamının üzərində ağalıq etməyi də bacarardı. 2. Belə bir fərq ayrı-ayrı ellin tayfaları arasında da müşahidə edilir: bəziləri öz birtərəfliliyi ilə fərqlənir, digərləri hər iki keyfiyyətə malikdir. Aydındır ki, o adamlar yaranışından ağıllı və cəsarətli olmalıdır ki, onlar məziyyətlərə qarşı həssaslıq mənasında qanunvericinin əlində yolayovuq olsunlar. Bəzilərinin fikrincə mühafizəçilərin fərqlənməli olduqları şey, – özününkülərə qarşı mehribanlıq, özgələrə qarşı münasibətdə isə sərtlik – ürəyin mərdanəliyidir, bu mehribançılıq hissindən irəli gəlir; axı bu, qəlbin o xüsusiyyətidir ki, bunun sayəsində də biz sevirik. 3. Buna sübut odur ki, bizə özgələr tərəfindən deyil, daha çox yaxınlarımız və dostlarımız tərəfindən diqqət yetirilmədikdə, hislər coşur. Bax buna görə də Arxilox öz dostlarını qınayaraq öz hislərinə yerində müraciət edir: «öz dostlarından ötrü üzülürsən»[9]. Bütün adamlarda ağalıq etməyin və sərbəstliyin səbəbi bu qüvvədən asılıdır, axı qəlb amirliyi ilə də seçilir və tabeçilikdə bulunmağa dözmür. Lakin mühafizəçilərə xitabən yuxarıda göstərilən tələb yaxşı səslənmir – özgələrə qarşı qəddar olmaq. Heç kimə belə yanaşmaq lazım deyil, yaranışından böyük mənəviyyata malik olan adamlar da, kimlər ki, düzgün hərəkət etmir, yalnız onlara qarşı düşmən münasibətində bulunurlar. Artıq yuxarıda deyildiyi kimi, bu onlarda daha çox dərəcədə o zaman olur ki, onlar öz yaxın adamlarından qəlblərinin sındığını hiss edirlər. 4. Bu isə məntiqə uyğundur: kimlər ki, onlara kömək etməlidir, nəinki onlara zərər yetirir, həm də bu kəməkdən məhrum edirlər. Buna görə də deyilir: «Qardaşların davası ağırdır», «Kim məhəbbət odunda yanırdı, onda da nifrət aşıb-daşırdı»[10].



Dövlətin vətəndaşları haqqında bizim fikirlərimiz təxminən bax bu cürdür: onlar nə qədər olmalıdır və onlar hansı təbii keyfiyyətlərilə fərqlənməlidir, həmçinin dövlətin ərazisi nə böyüklükdə olmalıdır və o, hansı xüsusiyyətlərə malik olmalıdır. Nəzəriyyədə həmin o dəqiqliyi tələb etmək olmaz, hansı ki, bu, müşahidələr zamanı təcrübələr yolu ilə olan araşdırmalarda mümkündür.

VII. 1. Təbiətin yaratdığı digər mürəkkəb törəmələrdə olduğu kimi o şeylər ki, tam onlarsız mövcud ola bilmir, onların hamısı yenə də tamın hissələri deyil, eləcə də, görünür, dövlətin mövcud olması üçün vacib olan bütün şeyləri onun hissələri saymaq olmaz; bunu isə, eyni hissələrdən əmələ gələn hər bir digər münasibətə də aid etmək olar (axı münasibətdə bulunan adamlarda, onların bərabər, yaxud qeyri-bərabər miqdarda pay alacaqlarından asılı olmayaraq, nə isə mütləq ümumi və eyni olmalıdır; bu qida, ya ərazinin miqdarı, yaxud nəsə digər buna bənzər bir şey ola bilər). 2. Lakin haçan ki, biri vasitə, digəri isə – məqsəd olur, onda, onların arasında ümumi heç bir şey olmur, burada istisna edilən şey yalnız odur ki, biri aktiv, digəri – passiv rol oynayır. Məsələn, hər növ alət, həm də işçi bir tərəfdən və bu alətin düzəltdiyi şeylə, bu işçinin gördüyü iş – digər tərəfdən belə bir nisbətdədir. Evlə evtikənin arasında onları bir-birinə bağlaya bilən heç bir şey yoxdur, lakin evtikənin sənəti evdən ötrü mövcuddur. Buna görə də dövlətin mülkiyyəti olmalıdır, lakin mülkiyyətin özü, əsla dövlətin hissəsini təşkil etmir, baxmayaraq ki, bura bir çox canlı məxluqlar daxildir. Dövlət isə bir-birinə bənzər adamların mümkün qədər ən yaxşı həyata yetişməsindən ötrü olan bir münasibətdir.

3. Ən zəruri şey xoşbəxtlikdir, xoşbəxtliyin isə mükəmməl fəaliyyətdən və xeyirxahlığın tətbiqindən ibarət olduğunu nəzərə alaraq, həm də bəzi adamlar xeyirxah, digərləri isə az

dərəcədə, yaxud heç xeyirxah olmadıqları üçün aydındır ki, məhz elə bu, müxtəlif dövlət quruluşu formalarının, həm də bir neçə dövlət quruluşunun yaranmasına gətirib çıxarmışdır: adamlar müxtəlif üsullar, həm də müxtəlif vasitələrlə müxtəlif formalı həyat və dövlət quruluşu təşkil edirlər. İndi baxaq görək, o şeylər nə qədərdir ki, onlarsız dövlətin mövcud olması mümkün deyil; bizim dövlətin hissələri adlandırdığımız şeylər də istər-istəməz bundan ibarətdir. 4. Beləliklə, biz dövlətin vəzifələrini **(erga)** sadalamalıyıq, onda məsələ də aydın olacaq. Hər şeydən öncə ərzaq məhsulları olmalıdır; sonra – iş (insan həyatda bir çox alətlərə möhtacdır); üçüncü, silah (silah dövlət münasibətində bulunanlar üçün həm dövlətin daxilində itaətsizlik göstərənlərə qarşı, həm də xarici düşmənlərə qarşı, onlardan müdafə olunmaq üçün vacibdir); eyni zamanda xüsusi və hərbi ehtiyaclar üçün pul vəsaiti; beşinci, bu isə hər şeydən öncə dini işlərin himayə olunmasıdır, yəni o şey ki, o, kahin adlanır, hesabla altıncısı, lakin ən vacibi – vətəndaşlar arasında nəyin xeyirli və nəyir ədalətli olması xüsusunda qərar. 5. Hər bir dövlətin ehtiyacı olduğu şeylər bax bunlardır; axı dövlət özlüyündə adamların təsadüfi toplusu deyil, lakin, biz iddia etdiyimiz kimi, müstəqil mövcud olmağa iqtidarlıdır, əgər məlum olsa ki, bizim sadaladıqlarımızdan birisi çatmır, onda bu münasibət, əsla müstəqil ola bilməz. Beləliklə, dövlət bizim sadaladığımız vəzifələrə müvafiq hissələrdən ibarət olmalıdır. Deməli, orada müəyyən sayda əkinçilər, hansı ki, onu ərzaq məhsulları ilə təmin etməlidir, sənətkarlar, hərbi qüvvə, varlı adamlar, kahinlər və nəyin ədalətli və xeyirli olması xüsusunda qərar çıxaran adamlar mövcud olmalıdır.

VIII. 1. Əgər bu müəyyənləşdirilibsə, onu müzakirə etmək qalır ki, dövlətin bütün yuxarıda göstərilən vəzifələrinin icrasında hamımı iştirak etməlidir. Axı eyni adamların hamısının həm əkinçi, həm sənətkar, həm şura üzvü, həm də məhkəmənin üzvü olmasını ehtimal etmək mümkündür, yoxsa adı çəkilən hər vəzifəyə xüsusi bir şəxs təyin edilməlidir, ya da, nəhayət, vəzifələrdən bəziləri zərurət üzündən xüsusi şəxslərə mənsub olmalıdır, digərləri – ümumən vətəndaşlara. Hər dövlət quruluşü üçün eyni qaydalar müəyyən etmək mümkün deyil. Biz dediyimiz kimi, hamının hər işdə iştirak etməsinə imkan verilə də bilər, verilməyə də bilər, lakin yalnız bəzi işlərdə bəziləri iştirak edə bilər. Bu da dövlət quruluşunun müxtəlifliyinə gətirib çıxarır: demokratiyalarda bütün vətəndaşlar hər işdə iştirak edir, oliqarxiyalarda biz bunun əksini görürük.

2. Biz ən yaxşı dövlət quruluşu haqqında məsələni araşdırdığımızdan, bu isə dövlətin daha çox xoşbəxt ola biləcəyi quruluşdur, xoşbəxtlik isə, əvvəl deyildiyi kimi, xeyirxahlıq olmadan mövcud ola bilməz, onda burdan aydındır ki, çox gözəl quruluşa malik olan və özündə şərti olaraq ədalətli olan xadimləri deyil, tam mənada ədalətli xadimləri birləşdirən dövlətdə vətəndaşlar sənətkarların, yaxud tacirlərin yaşadığı kimi həyat sürməməlidir (bu, alçaq həyatdır və xeyirxahlığın əksinədir); bizim layihələşdirdiyimiz dövlətdə vətəndaşlar əkinçi də olmamalıdır, çünki xeyirxahlıqda və siyasi fəaliyyətdə irəliləmək üçün onların asudə vaxta ehtiyacı olacaq. 3. Nəzərə alsaq ki, hələ hərbi işi, nəyin xeyirli və nəyin ədalətli olduğunu müzakirə etmək qalıb – bunlar isə açıq-aydın dövlətin əsas hissələridir – onda ortaya sual çıxır, bu hər iki vəzifə müxtəlif, yoxsa eyni şəxslərə həvalə edilməlidir. Bu məsələnin cavabı da aydındır: bəzi münasibətlərdə – eyni adamlara, digər münasibətlərdə – müxtəlif, göstərilən hər bir vəzifənin yerinə yetirilməsindən ötrü ayrı-ayrı yaşlarda olan adamlara ehtiyac olduğu üçün və bir işdən ötrü ağıl, digərindən ötrü – fiziki qüvvə tələb olunduğundan – ayrı-ayrı

adamlara; amma digər tərəfdən ağlasığmazdır ki, gücünü göstərməyə, həm də müqavimət göstərməyə imkanı olan adamlar həmişə özlərinin asılı vəziyyətdə olması ilə barışsınlar, onda – eyni şəxslərə. Axı, doğrudan da, dövlət quruluşunun saxlanılması, yaxud ləğv edilməsi silaha malik olanların ixtiyarındadır. 4. Beləliklə, bir şey qalır – bu dövlət vəzifələrinin hər iki kateqoriyasını eyni adamlara vermək, lakin eyni vaxtda yox, yalnız təbiətin cavanlara fiziki qüvvə, böyüklərə – ağıl bəxş etdiyinə müvafiq olaraq, vəzifə bölgüsünü də bu və digərləri arasında müvafiq surətdə aparmaq xeyirli və ədalətlidir. Bu cür bölgü onların dəyərinə uyğun olacaq.

5. Mülkiyyət də onların əlində cəmləşməlidir. Axı vətəndaşlar istər-istəməz varlı olmalıdır, vətəndaşlar isə, məhz onlardır. Ümumiyyətlə, əhalinin bütün digər təbəqələri kimi, fəaliyyəti xeyirxahlığın xidmətinə yönəlməyən sənətkarların da vətəndaşlığa aidiyyatı yoxdur. Bu ilk şərtdən aydındır ki, yalnız xeyirxahlıqla birlikdə xoşbəxt olmaq mümkündür, dövlət isə, əgər ümumən bütün vətəndaşlar deyil, təkcə hər hansı bir hissə nəzərə alınırsa, xoşbəxt sayıla bilməz. Madam ki, əkinçilər kölə, yaxud barbar – periek olmalıdırsa, bu da aydındır ki, mülkiyyət hüququ o birilərə mənsub olmalıdır.

6. Sadalananlardan kahinlər təbəqəsi qalır, onun təşkili də aydındır. Nə əkinçini, nə sənətkarı kahin təyin etmək olmaz (axı Allaha ehtiram göstərmək vətəndaşlara yaraşır). Vətəndaşlar bütövlükdə iki hissəyə, yəni ağırsilahlılara və məşvərətçilərə parçalandığından, həm də bir tərəfdən dini işləri icra etmək lazım olduğundan, digər tərəfdən isə – o adamlara istirahət verilir ki, onlar yaşlarına görə digər işlərdən azad olur, onda kahin vəzifəsinin icrasını da bu axırıncılara tapşırmaq lazımdır.

İndi biz artıq o hissələri göstərdik ki, onlarsız dövlətin mövcud olması mümkün deyil, həm də dövlətin hissələrinin sayını



müəyyən etdik; hərçənd ki, əkinçilər, sənətkarlar və hər qəbildən olan günəmuzd işləyənlər istər-istəməz dövlətdə olmalıdır, lakin, əslində, dövlətin hissələri ağırsilahlılar və məşvərətçilərdir; bu hissələrdən hər biri də digərindən fərqlənir, həm də bir cəhətdən tamamilə fərq var, digər cəhətdən – nisbi.

IX. 1. Görünür ki, siyasi mütəfəkkirlərə bu, həqiqətən, indi yox, çoxdan aydın olmuşdur ki, dövlət ayrı-ayrı təbəqələrə parçalanmalıdır və əsgəri təbəqə əkinçilərdən ayrı olmalıdır. Misirdə, eyni zamanda da Kritdə belə bir qayda hələ indiyə qədər də var, həm də deyirlər ki, Misirdə bu, Sesobrisin qanunları ilə yerini tapmışdır, Kritdə isə – Minosun. 2. Sissitiyalar da, görünür ki, keçmişdə yaradılmışdı. Kritdə bunlar Minosun çarlığı dövründə, İtaliyada isə – bundan da xeyli qabaq tətbiq edilmişdi. Orada yaşayan alimlər **(logioi)**[11] danışır ki, İtal adlı birisi Enotriyanın çarı olmuşdu; onun adıyla enotrlar öz adlarını italla əvəz etmişlər, İtaliya adı da burdan ortaya çıxmışdı. Avropanın bu sahil zonası yarımgünlük məsafə ilə bölünmüş Skillet və Lamet körfəzləri arasında uzanıb gedir. 3. Deyirlər ki, həmin bu İtal köçəri həyat sürən inotları əkinçi etdi, onlarda yeni qanunlar qurdu və birinci olaraq sissitiyaları təsis etdi, hələ indinin özündə də İtalın nəslindən kimlərdəsə sissitiyalar mövcuddur və onun çıxartdığı qanunlardan bəziləri işləyir. Tirren dənizi istiqamətində yerləşən ölkəni[12] opiklər tutmuşdular, onlar əvvəllər olduğu kimi indi də avsonlar adlanır, Yapigiya və İon dənizi istiqamətində olan, yəni Siritis adlanan ölkədə isə xonlar məskunlaşmışdı; xonlar da mənşəcə enotrdır. 4. Beləliklə, sissitiyalar oradan meydana çıxıb, dövlətin əhalisinin vətəndaş hissəsi isə – Misirdən, axı Sesostrinin çarlıq dövrü, zamanına görə Minosun çarlıq dövrünü xeyli qabaqlayır. Həm də, ümumiyyətlə, onunla hesablaşmaq lazımdır ki, qalan qanunlar da, madam ki, əsrlər ərzində

düşünülmüşdür, çoxdur, yaxud yaxşı olar deyək ki, saysız-hesabsızdır.

5. Bütün bu qanunların – qədim mənşəyə malik olduğunu bizə Misir subut edir, misirlilər ən qədim xalq sayılır, onlarda isə həmişə qanun da, dövlət qaydaları da olub. Buna görə bir tərəfdən birinci növbədə düşünülüb tapılmış şeylərdən kifayət dərəcədə istifadə etmək, digər tərəfdən isə – nəzərdən qaçırılmış şeylərin yerini doldurmaq lazımdır.

Əvvəllər göstərilmişdi ki, dövlətin ərazisi öz hesabına silahlanmış adamlara və dövlət idarəçiliyində iştirak etmək hüququna malik olanlara məxsus olmalıdır, əvvəllər o da göstərilmişdi ki, əkinçilər nəyə görə xüsusi təbəqə olmalıdır, həm də dövlətin ərazisi öz böyüklüyünə və keyfiyyətinə görə necə olmalıdır. 6. İndi bunun hər şeydən öncə necə bölüşdürülməsi haqqında bir neçə söz demək lazımdır, hansı qəbildən olan adamlar əkinçi olmalıdır, onlar hansı xüsusiyyətlərə malik olmalıdır: axı biz bəzilərinin[13] fikrinə zidd olaraq o nöqteyi-nəzər üstündə dururuq ki, torpaq mülkiyyəti ümumi olmamalıdır, o, ancaq dostluq əsasında ümumun istifadəsinə verilməlidir və heç bir vətəndaş dolanışacaqdan məhrum edilməməlidir. Hamı bununla razıdır ki, abad dövlətlərdə olan sissitiyalar – faydalı qurumdur; onun nəyə görə bizdə də belə təsəvvür yaratması haqqında biz sonralar danışacayıq[14]. Bunda bütün vətəndaşlar iştirak etməlidir, hərçənd ki, yoxsullara öz vəsaitlərindən müəyyən edilmiş haqqı vermək və əlavə olaraq həm də yerdə qalan ev təsərrüfatını saxlamaq çətindir.

7. Daha sonra dini işlərin icra edilməsinin xərci bütün dövlət üçün ümumi olmalıdır. Buna görə dövlətin bütün ərazisini iki hissəyə bölmək lazımdır: onlardan biri ümumun istifadəsində olmalıdır, digəri – şəxsi mülkiyyət. Bu iki hissədən hər biri öz növbəsində iki yerə bölünməlidir: ümumun istifadəsində olan torpağın bir hissəsi allahların xidmətinə verilməlidir, digəri – sissitiyaların təşkil edilməsinin xərcini ödəməlidir. Xüsusi sahibkarların torpağının bir payı dövlətin sərhədində yerləşməlidir, digəri – şəhərin yanında, ondan ötrü ki, iki məntəqənin hər birində bir pay olmaqla, hamının iki pay torpağı olsun. 8. Beləliklə, bərabərlik və düzgünlüyə riayət olunmaqdan başqa qonşularla müharibə olduğu halda daha da çox həmrəylik yaranardı. Doğrudan da, göstərilən qaydalar saxlanılan yerlərdə bəziləri qonşularla qərəzli münasibətə laqeyd baxırlar, digərləri isə buna olduqca çox, hətta biabırçı **(para to kalon)** dərəcədə fikir verir. Buna görə bəzilərində sərhəddə yaşayanlara öz qonşuları ilə müharibə haqqında məsələnin müzakirəsində iştirak etməyə yol verməyən qanun da mövcuddur, çünki onlar şəxsi maraqlarını əldə rəhbər tutduqlarından düzgün məsləhət vermək iqtidarında deyillər.

Beləliklə, dövlət ərazisi xülasə edilmiş səbəblərə görə yuxarıda göstərilən tərzdə bölünməlidir.

9. Əgər arzu olunan qaydalar haqqında danışılmalıdırsa, onda əkinçilərin qul olması hər şeydən yaxşıdır. Amma, onlar eyni bir xalqa **(homophylon)** mənsub və coşqun ehtirasa malik olmamalıdır; yəni belə bir şəraitdə onlar iş üçün yararlı olacaqlar və onlar tərəfindən hər hansı bir qiyama təşəbbüsdən ehtiyatlanmağa lüzum olmayacaq. Ona görə ikinci yerdə, onlar həminki təbii xüsusiyyətlərlə fərqlənən barbar – periek də ola bilərlər. Onlardan xüsusi sahibkarların torpağında yaşayanlar xüsusi sahibkarlara mənsub olmalıdır, hansılar ki, ümumi torpaqda yaşayır, onlar isə ümumi olmalıdır. Qullardan necə yararlanmaq lazımdır və nəyə görə bütün qullara bir mükafat kimi azadlığa çıxmağa ümud verilməsinin düzgünlüyü haqqında biz sonralar danışacayıq[15].

X. 1. Yuxarıda göstərilmişdir ki, şəhər mümkün qədər materik və dənizlə sıx əlaqədə olmalıdır, eləcə də dövlətin bütün ərazisi ilə. Əgər özlüyündə şəhərin coğrafi mövqeyini müzakirə etsək, onda onun ən yaxşı tələblərə uyğun olması üçün dörd cəhətə diqqət yetirmək lazımdır. Hər şeydən öncə, bu da ən başlıcasıdır, sağlamlıqdır. Yəni cənuba və cənub küləkləri tərəfə yönəldilmiş şəhərlər cana daha çox faydalıdır, bunların ardınca şimal küləklərindən qorunan şəhərlər gəlir, – onlarda şimal küləkləri daha mülayimdir. 2. Digər şərtlərdən daxili siyasi fəaliyyət üçün və müharibə dövründən ötrü nə ki, faydalıdır, onları nəzərdə tutmaq lazımdır. Bir qəfil müharibə başladıqda, şəhər vətəndaşlara rahat yol verməlidir, düşmənlərdən ötrü isə çətin keçilən və çətin mühasirəyə alınan olmalıdır. Su və çeşmələrlə şəhər mümkün qədər çox təchiz edilməlidir; əks təqdirdə bunun əvəzinə yağış sularının saxlanılmasından ötrü çoxlu, həm də böyük çənlər təşkil edilməlidir. Belə ki, müharibə nəticəsində vətəndaşların öz əraziləri ilə əlaqəsi itərsə, onda hər ehtimala qarşı heç vaxt çatmamazlıq olmasın.

3. Sakinlərin səhhətinin qeydinə qalmaq lazım olduğundan, bu isə müvafiq olaraq şəhərin coğrafi mövqeyi ilə əlaqədardır, onda ikinci planda şəhərin sağlam su ilə təchiz edilməsinin təşkili məsələsi olacaq; bu vəzifənin yerinə yetirilməsi ciddi diqqət tələb edir. Axı bizim öz fiziki tələbatlarımız üçün çox böyük miqdarda, həm də çox tez-tez istifadə etdiyimiz şeylərin bizim səhhətimizə böyük təsiri var, su və havanın vəziyyəti isə, məhz bunlara aiddir. Buna görə, əgər ehtiyatkarlıq göstərən şəhərlərdə məlum olsa ki, ora axan suyun hamısı eyni dərəcədə keyfiyyətli deyil, yaxud onlarda çeşmələrin sayı az olsa, içməli suyu digər təlabatlardan ötrü olan sudan ayırmaq lazımdır.

4. Şəhərin möhkəmləndirilmiş yerlərinə gəldikdə isə, bütün dövlət quruluşu formaları üçün onların faydası eyni



dərəcədə deyil. Məsələn, akropol – oliqarxiya və monarxiya üçün, bütün hissələrin eyni dərəcədə möhkəmləndirilməsi – demokratiya üçün, aristokratiya üçün isə nə bu, nə də digəri deyil, daha çox bir neçə yerin möhkəmləndirilməsi münasibdir.

Şəxsi evlərin düzülüşü o vaxt daha gözəl və adi həyat üçün faydalı sayılır ki, yeni, yəni Hippodamın üsulu üzrə küçələr düz olsun. Hərbi cəhətdən təhlükəsizliyə görə isə – əksinə, keçmişdə olduğu kimi: bu planlaşdırma elə olmuşdu ki, bunda yad qoşunlar çətinliklə çıxış yolu tapırdı, şəhərə soxulduqda isə orada olduğu yerin səmtini müəyyən etmək çətin olurdu. 5. Buna görə şəhər özlüyündə bu və digər planlaşmaya uyğunlaşdırılmalıdır (onun təşkilində isə, əgər bu mümkündürsə, kənd sakinlərinin üzüm çubuqlarını basdırdıqda, onları necə deyərlər çarpaz sıralarda necə yerləşdirirsə, elə də etsin[16]). Şəhərin hamısı deyil, yalnız ayrı-ayrı hissələri və yerləri düzgün planlaşdırılmalıdır. Bu təhlükəsizlik və gözəllik cəhətdən yaxşı olar.

Şəhərlərin divarlarına gəldikdə isə, şəhərlər üçün bunların gərəkliyini dananlar, hansılar ki, sakinlərinin cəsurluğu ilə öyünürlər, doğrudan da, həddən artıq keçmişdəki kimi mühakimə yürüdürlər, buna baxmayaraq görürlər ki, şəhərlərin bu qəbildən olan özündən razı iddialarını gerçəklik təkzib edir.

6. Əlbəttə, cəsurluğu səninlə eyni dərəcədə olan, yaxud say etibarı ilə səni bir qədər üstələyən düşmənlə üz-üzə gəldikdə istehkam divarları arxasında gizlənməyə çalışmaq nanəciblikdir. Lakin öz sayı ilə həm adi, həm də bəzi cəsur insanlardan üstün olan düşmənlərlə üz-üzə gəlməli olduğundan və bu ehtimal edildiyindən, madam ki, məsələ həyatın xilas edilməsində, bədbəxtlikdən və həqarətdən qurtulmadadırsa, onda müharibə zamanı təhlükəsiz möhkəm divarları daha vacib hesab etmək lazımdır, xüsusən nəzərə alınsa ki, hal-hazırda

atıcı cihazların və mühasirə zamanı istifadə edilən maşınların ixtirasında belə uğurlar əldə edilib[17].

7. Şəhərləri divarlarla əhatə etməmək tələbi ona bərabər olur ki, birisi düşmənlərin soxulması üçün rahat yer axtarmaqla, bütün dağlıq yerlərin uçurulmasını da əmr edir, yaxud xüsusi evlərin də divarlarla əhatə olunmasını qadağan edir, zira bunlar olduqda, bu evlərin sakinləri də qorxaq olacaq. Üstəlik, onunla da hesablaşmaq lazımdır ki, əgər şəhər divarlarla əhatə edilibsə, onda bundan həm belə, həm də başqa cür istifadə etmək olar, yəni həm divarı olan, həm də olmayan şəhər kimi, divarı olmayan şəhərə bu şamil edilmir. 8. Əgər belədirsə, onda şəhəri təkcə divarlarla əhatə etmək deyil, həm də bunların sazlığının qeydinə qalmaq lazımdır: bu da şəhərə layiqincə bəzək verilməsinə səbəb olacaq və müharibə zamanı həm şəhərin digər vasitələrlə mühasirə edilməsinə qarşı, həm də hal-hazırda ixtira edilənlərə qarşı onun müdafiəsi üçün xidmət edəcək. Necə ki, hücum edənlər uğura nail olmaq yollarının dərdinə qalırlar, eləcə də kim ki, müdafiə olunur, onlar üçün bir vasitə artıq tapılıb, digərlərini isə axtarmaq və ixtira etmək lazımdır. Axı, kim yaxşı hazırlıqlıdırsa, onlara, ümumiyyətlə, hücum etməyə cəsarət etmirlər. Bütün vətəndaşlar sissitiyalardan ötrü müəyyən qruplara bölünməli olduqlarından və digər tərəfdən divarlara, həmin yerlər üçün rahat qaroulxanalar və gözətçi qüllələri artırmaq lazım gəldiyindən özlüyündə aydındır ki, sissitiyalardan bəzilərinin, məhz bu otaqlarda təşkil edilməsi vacibdir.

XI. 1. Bunu, məhz bu surətlə də təşkil etmək olar. Ən yüksək vəzifəli şəxslər üçün nəzərdə tutulan dini işlər və sissitiyalardan ötrü olan binaları isə bundan ötrü düzəldilmiş eyni bir yerdə birləşdirmək əlverişlidir, əgər bu, ya qanunla, yaxud bir



kahinin göstərişi ilə olan ayrıca səcdəgah deyilsə. Yerin özünün, onun yüksək roluna uyğun görkəmi olmalıdır, həm də şəhərin qonşu hissələri ilə müqayisədə daha çox möhkəmləndirilməlidir. 2. Bu yerdən aşağıda elə meydan təşkil etmək lazımdır ki, beləsi Fessaliyada «azad meydan» adlanır. Bura heç bir mal çıxarılmamalıdır, həm də nə sənətkarlardan, nə əkinçilərdən, nə də bu qəbildən olan digər adamlardan heç birinin, əgər onu vəzifəli şəxslər dəvət etməsə, ora ayaq basmağa haqqı yoxdur. Əgər göstərilən yerdə böyüklərdən ötrü gimnasiyanı da yerbəyer etmək mümkün olsaydı, ora gözəllikdə udardı, axı şəhərə gözəllik verən bu binaları da yaşa uyğun birləşdirmək lazımdır, həm də nəzərə alınmalıdır ki, gənclər gimnasiyasında hansısa vəzifəli şəxslər olmalıdır, böyüklərinki isə vəzifəli şəxslərin yaxınlığında olmalıdır. Vəzifəli şəxslərin gözünün qabağında olmaq xüsusən həyalı və məsuliyyətli olmağı öyrədir ki, bu da azad adamlara xasdır.

Ticarət meydançası bu meydandan ayrı olmalı və ayrıca yerləşməlidir: onun üçün elə yer seçmək lazımdır ki, dənizlə və quru yolla gətirilən hər cürə malı ora daşımaq rahat olsun.

3. Dövlət başında duranlar kahinlərə və vəzifəli şəxslərə bölündüyündən, kahinlərin sissitiyalarından ötrü olan otaqları da dinlə əlaqədar olan binaların yaxınlığında yerləşməlidir. Müqavilələr bağlanmasına, məhkəmə işlərinin qaldırılmasına, müqəssirlərin çağırılmasına və bu kimi işlərə, habelə aqoranomiyaya və astinomiya adlananlara nəzarət edən vəzifəli şəxslərin olduğu yerlər meydanın yaxınlığında bir qəiəbəlik yerdə təşkil edilməlidir, belə yer isə gündəlik işlərdən ötrü olan meydandır[18]: axı o, yuxarı meydan bizim layihəmiz üzrə asudə vaxtdan ötrü təxsis edilmişdi, bu isə – işgüzar tələbat üçün.

4. Göstərilən qaydaları dövlət ərazisi xüsusunda da tətbiq etmək olar: bəzilərində giloralar, digərlərində aqoranomlar adla-

nan vəzifəli şəxslərə nəzarət etmək məqsədilə, oralarda da qaroulxanalar və sissitiyalar təşkil edilməlidir. Eyni zamanda, bəziləri – allahlara, digərləri – qəhrəmanlara həsr edilmiş səcdəgahlar da dövlət ərazisi üzrə bölüşdürülməlidir. Lakin bunun üzərində çox dayanmaq və hər şey barəsində ətraflı danışmaq darıxdırıcı olardı. Bunun hamısını düşünmək asan, amma yerinə yetirmək çətindir: sözlər yaxşı arzuların nəticəsidir, onları həyata keçirmək isə – müvəffəqiyyət. Buna görə də biz indi bu cür məsələlərin sonrakı müzakirəsindən imtina edirik.

XII. 1. İndi bizə dövlət quruluşunun özü haqqında danışmaq lazımdır: xoşbəxt və ən gözəl quruluşa malik olmaq istəyən dövlət nə kimi və hansı keyfiyyətə malik tərkib hissələrindən ibarət olmalıdır. Rifah bütün hallarda iki şərtə əməl olunmasından asılıdır: bunlardan biri – hər bir işdə vəzifənin və axır məqsədin düzgün müəyyənləşdirilməsi, ikincisi – axır məqsədə doğru aparan hər cür vasitənin tapılmasıdır. Ola bilər ki, bu iki tələb bir-birinə zidd olsun, ola da bilsin ki, bunlar bir-birinə uyğun gəlsin, axı hərdənbir məqsəd çox yaxşı olur, lakin buna yetişməyə doğru aparan vasitələrdə səhvlər buraxılır. Bəzən, məsələn, tibbdə olduğu kimi, bunda da, o birində də yanlışlıq olur; doğrudan da, həkimlər bəzən insan bədəninin sağlam vəziyyətinin nədən ibarət olduğunu kifayət qədər aydın təsəvvür etmir və qarşılarında duran məqsədə nail olmaq üçün həqiqi vasitə tapmırlar. Amma elmdə və sənətdə buna da, digərinə də malik olmaq lazımdır, yəni məqsədi də, məqsədə yetməyə imkan yaradan işləri də müəyyənləşdirməyi bacarmaq lazımdır. 2. Aydındır ki, hamı firavanlığa və xoşbəxtliyə can atır; amma bəziləri buna nail olur, digərləri isə – bir təsadüfə görə, yaxud özünün xasiyyəti üzündən yox. Axı ən yaxşı həyatdan ötrü bu və ya digər əlverişli şərait tələb olunur – yaxşı vəziyyətdə olan adamlar üçün az



dərəcədə, pis vəziyyətdə olanlar üçün – çox. Nəhayət, bəziləri onlara xoşbəxtliyə yetmək imkanı verilsə də, bunu düzgün olmayaraq lap əvvəldən axtarır. Bizim vəzifəmiz ən yaxşı dövlət quruluşunu müəyyənləşdirmək olduğundan, bu isə ondan ibarətdir ki, dövlət burada daha yaxşı tərzdə idarə edilsin, axırıncıya da o halda yetmək olur ki, bu zaman dövlət xoşbəxtlikdən daha çox yararlanmaq imkanına malik olur, onda aydındır ki, xoşbəxtliyin nə olduğu nəzərdən qaçırılmamalıdır. 3. Biz iddia edirik ki, («Etika»da da müəyyənləşdirdik ki, əgər bu əsər bir şeyə yarayırsa), xoşbəxtlik xeyirxahlıq ruhunda fəaliyyətdir və bu axırıncının mükəmməl surətdə tətbiqidir, həm də şərti yox, tam mənada; şərti dedikdə mən zərurəti nəzərdə tuturam[19], tam dedikdə – özlüyündə çox yaxşını. Hüquq sahəsindən bir misal gətirək: verilən cəzalar və tənbehlər, zərurətdən doğan xeyirxah qərarlardır, onlar bu zərurətə görə çox yaxşı olur (axı belə tədbirlərə, nə insanın, nə də dövlətin əl atmasına ehtiyac olmasa, daha yaxşı olardı). Əksinə, şərəf və xoş güzərana doğru yönələn fəaliyyət tam mənada çox yaxşıdır. İş bundadır ki, birinci səpgidə olan fəaliyyət yalnız hər hansı bir pis işin aradan qaldırılmasına yönəlir, halbuki ikinci səpgidə olan fəaliyyət, əksinə, xoşbəxtliyin hazırlanması və qurulmasından ibarətdir.

4. Yaxşı insan taleyinə yazılan yoxsulluğa da, xəstəliyə də, digər fəlakətlərə də çox yaxşı dözür, lakin xoşbəxtlik bunlarla ziddiyyət təşkil edən şeylərdən ibarətdir (həqiqətən, «Etika»da həmçinin bu da müəyyən edilmişdi: o şəxs yaxşı adamdır ki, özündə olan xeyirxahlığa görə şəfqətli olmaq onun üçün tam mənada yaxşılığın özüdür ki, var; buradan aydındır ki, bu cür adam şəfqətli olduğundan, əlbəttə, tam mənada xeyirxahlıq edəcək və çox yaxşı olacaq). Bu isə o fikrin formalaşması ilə nəticələnir ki, guya xoşbəxtliyin həqiqi səbəbləri dünyəvi nemətlərdən ibarətdir; lakin hər halda bu ona bənzəyir ki, kifara-

nın çox yaxşı və əla çalınmasını, çalanın sənətində deyil, daha çox alətin özündə görmüş olsunlar.

Bütün yuxarıda göstərilənlərdən belə çıxır ki, bəzi məlumatlar[20] hazırda olmalıdır, digərlərini qanunverici hazırlamalıdır. 5. Buna görə də biz arzu edirik ki, taleyin ixtiyarında olan bütün şeyləri (biz güman edirik ki, o, bu xüsusda ixtiyar sahibidir) dövlət meydana çıxan zaman əldə etsin; lakin dövləti dəyərli etmək artıq taledən yox, bilikdən və əzmkarlıqdan asılıdır. Dövlətin xeyirxahlığı özünü onda göstərir ki, dövlət idarəçiliyində iştirak edən vətəndaşlar xeyirxahdırlar, bizimsə dövlətdə bütün vətəndaşlar dövlətin idarə edilməsində iştirak edir. Buna görə də baxmaq lazımdır görək, insan necə xeyirxah olur. Hərçənd mümkündür ki, insanlar cəm halda xeyirxah olsun, amma ayrı-ayrılıqda yox, hər halda bu axırıncı daha yaxşıdır, çünki ayrı-ayrılıqda hər kəsin xeyirxahlığı, birlikdə götürdükdə, hamının da xeyirxahlığına səbəb ola bilər.

6. Üç səpgidə olan amillər insanları yaxşı və xeyirxah edir. Bu amillər aşağıdakılardır: xasiyyət, vərdiş və ağıl. Hər şeydən öncə başqa bir canlı məxluq deyil, özlüyündə insan doğulmaq, həm də insana xas cismani və mənəvi xüsusiyyətlərə malik olmaq lazımdır. Lakin müəyyən hallarda anadangəlmə əlamətlərin də heç bir xeyri olmur: vərdişlər dəyişikliyə gətirib çıxarır və insanın bəzi anadangəlmə xüsusiyyətləri vərdişlərin təsiri altında bu və digər tərəfə inkişaf etmək iqtidarındadır – həm pis, həm də yaxşı tərəfə. 7. Bununla belə digər canlı məxluqlar çox vaxt təbiətin öyrətdiyi kimi yaşayır, onlardan yalnız bəziləri, bir parası eyni zamanda vərdişlərə də əsaslanır, insan isə həmçinin ağılın səsinə də qulaq asır, çünki ağıl yalnız ona verilmişdir. Beləliklə, insanda bütün göstərilən amillər qarşılıqlı harmoniyada olmalıdır. Və insanlar inandıqda ki, başqa cür hərəkət etmək daha yaxşıdır, məhz ağılın sayəsində çox şeydə özlərində yaranan vərdişlərin və xasiyyətlərin əksinə olaraq hərəkət edirlər. Qanunverici üçün bunlar yararlı material olsun deyə, biz artıq əvvəllər müəyyənləşdirmişdik ki, insan öz xarakterinə görə necə olmalıdır. Qalan şeylər – tərbiyəyə aiddir, bunun vasitəsi ilə adamlar bəzi şeylərə vərdiş edirlər, digərlərini – öyrənirlər.



XIII. 1. Dövlət münasibəti hökm sürənlərdən və tabeçilikdə bulunanlardan ibarət olduğu üçün, baxmaq lazımdır görək hökm sürənlər və tabeçilikdə bulunanlar bir-birini əvəz edərək ayrı-ayrı adamlardan ibarət olmalıdır, yoxsa həmişəlik olaraq eyni. Tərbiyənin istiqaməti də bu məsələnin həllindən asılıdır. Əgər bəziləri digərlərindən, bizim təbirimizcə, allahlar və qəhrəmanlar insanlardan, hər şeydən öncə onları üstələyən cismani, sonra isə həm də mənəvi xüsusiyyətləri ilə nə qədər fərqlənirsə, bir o qədər fərqlənsəydi və əgər bu surətlə hökm sürənlərin üstünlüyü tabeçilikdə bulunanlar üçün şəksiz və aşkar olsaydı, *onda aydındır ki, eyni adamlara imkan vermək yaxşı olardı* – bəzilərinə hökm sürmək, dəgərlərinə həmişəlik olaraq tabeçilikdə bulunmaq. 2. Bunun mümkün və belə olmadığını nəzərə alaraq, necə ki, Skilak[21] induslar barəsində deyir ki, onların çarı öz təbəələrini belə əhəmiyyətli dərəcədə üstələyir, onda bir çox səbəblərdən aydın olur ki, hamı eyni dərəcədə növbə ilə hökm sürməli və tabeçilikdə bulunmalıdır. Axı bərabərlik bərabərlər üçün eyni vəziyyətdən ibarətdir, həm də ədalətin ziddinə olan dövlət quruluşunun özünü saxlamaq çətin olardı: yeni qaydaların həyata keçirilməsinə can atan dövlətin bütün sakinləri tabeçilikdə bulunanlarla bir olur, bununla belə idarə edənlərin bu cür say üstünlüyü hesabına onlardan güclü ola bilməsi mümkün olmayan hallardan biridir.

3. Digər tərəfdən şübhə ola bilməz ki, hökm sürənlər tabeçilikdə bulunanlardan fərqlənməlidir. Qanunvericiyə isə düşün-

mək lazımdır ki, bunu necə həyata keçirib təşkil etsin ki, vətəndaşların bunlara və o birilərinə hüsn-rəğbəti olsun. Lakin bu barədə əvvəllər söhbət edilmişdi. Təbiətin özü bu fərqi müəyyənləşdirmişdir: o, mənşəcə eyni bir məxluqu daha cavan və daha kamil etmişdir. Onlardan bəzilərinə tabeçilikdə bulunmağı, digərlərinə hökm sürməyi layiq bilmişdi. Heç kim, müvafiq yaşla hesablaşdıqda, tabeçilikdə olmasına qeyzlənməyəcək və özünü ən yaxşı hesab etməyəcək, madam o bilirsə ki, digər hallarda, yəni lazımi vaxt yetişdikdə ziyafətdə öz payını alacaq.

4. Beləliklə, təsdiq etmək olar ki, idarə edənlərlə tabeçilikdə bulunanlar həm eyni-eyni adamlardır, həm də müxtəlif. Burdan belə çıxır ki, tərbiyə də bir tərəfdən mütləq eyni olmalıdır, digər tərəfdən – müxtəlif. Deyirlər: kim ki, çox yaxşı idarə etmək istəyir, əvvəlcə boyun əyməyi öyrənməlidir. Hər bir hakimiyyət isə, əvvəlki mühakimələrdə deyildiyi kimi, bir tərəfdən hökm sürənlərin xeyrinə ola bilər, digər tərəfdən – tabeçilikdə bulunanların xeyrinə, birinci halda biz ağanın qullar üzərində səlahiyyətini nəzərdə tuturuq, ikinci halda – azad adamlar üzərində səlahiyyətini.

5. ...[22] Bəzi əmrlərin fərqi tələb olunan işlərdən deyil, əmrlərin nəyə görə verilməsindən ibarətdir. Buna görə xidmətçilər üçün münasib görünən bir çox işləri ata-anası kölə olmayan cavanlar da çox gözəl yerinə yetirə bilər. Çox yaxşı və pis fəaliyyət bir-birindən daha çox axır məqsədin nə olması və bunların nəyin naminə baş verməsi ilə fərqlənir. Bizim fikrimizcə, vətəndaşla hökmdarın xeyirxahlığı ən yaxşı adamın xeyirxahlığı ilə eyni olduğundan, daha sonra, eyni bir adam əvvəlcə tabeçilikdə bulunmalı, sonra isə hökm sürməli olduğundan, qanunvericinin vəzifəsi, görünür, işi elə təşkil etməkdir ki, adamlar yaxşı olsun, göstərməkdir ki, hansı tərzi-hərəkət buna səbəb olur və ən yaxşı həyatın axır məqsədi nədir.



6. İnsanın qəlbi iki hissədən ibarətdir. Onlardan biri özlüyündə ağıla malikdir, digəri özlüyündə malik deyil, lakin ağıla qulaq asmağı bacarır. Bizim fikrimizcə insan, ümumiyyətlə, bu hər iki hissənin məziyyətlərinə yiyələnməkdən asılı olaraq yaxşı sayılır. Axır məqsədi qəlbin bu iki hissəsinin daha çox hansında axtarmaq lazımdır – kim ki, bizim təklif etdiyimiz fərqi qəbul edir, bu onun üçün qeyri-müəyyən olmayacaq. Axı həmişə ən pis ən yaxşıya görə mövcud olur və eyni dərəcədə həm insanın əliylə düzələn şeylərdə, həm də təbiətin yaratdığı şeylərdə özünü göstərir – nədə ağıl varsa, hər yerdə ən yaxşı şey odur. 7. Axırıncı, bizim tərəfimizdən qəbul edilən bölgü üsulu iki cürdür: təcrübi ağıl və nəzəri ağıl. Yəqin qəlbin bu hissəsi də[23] bu cürə bölünməlidir. Biz isə deyirik ki, fəaliyyət də belə bir nisbətdədir – kimlər hər iki hissəyə yiyələnməyi bacarırsa, onların işi xarakterinə görə onlar üçün daha yaxşı, daha çox arzu olunandır, axı hər kəs həmişə o şeyə daha çox üstünlük verir ki, buna yetişmək onun üçün ən böyük məqsəddir.

8. İnsanın bütün həyatı tərkib hissələrinə ayrılır – işə və asudə vaxta, hərbə və sülhə, insanın bütün fəaliyyətinin isə bir qismi lazımi və xeyirli, bir qismi çox yaxşı işlərə yönəlib. Burda, qəlbin hissələri haqqında deyilən fikirləri nəzərə alaraq onların fəaliyyətinin şərtləndiyi şeylərə də üstünlük vermək lazımdır: hərbsülh xatirinə olur, iş – asudə vaxt xatirinə, lazımi və xeyirli işlər – çox yaxşı işlər xatirinə. 9. Dövlət xadimi bütün bünlarla hesablaşmalıdır və onun qanunları həm qəlbin hissələri ilə, həm də onlarla şərtlənən fəaliyyətlə üyğunlaşdırılmalıdır, bunlardan daha çox isə o şeylə ki, o, ən yaxşıdır və axır məqsəddir. Ayrı-ayrı həyat tərzlərinə və fəaliyyətin seçilməsinə münasibətdə də o, eynən bu cür hərəkət etməlidir. Axı vətəndaşların işlə məşğul olmağa, müharibə aparmağa imkanı olmalıdır, lakin daha da yaxşısı dünyadan zövq almaq və asudə vaxtdan yararlanmaq,

bütün lazımi və xeyirli, daha çox isə – çox yaxşı işləri başa çatdırmaqdır. Bu məramları nəzərə alaraq uşaqlar üçün və tərbiyəyə ehtiyacı olan digər yaşlar üçün uyğun gələn tərbiyəni də müəyyənləşdirmək lazımdır.

10. O ellinlər, hansılar ki, ümumun fikrinə görə, hal-hazırda ən yaxşı dövlət quruluşlarına malikdir[24] və o qanunvericilər, hansılar ki, bu axırıncıları meydana çıxarmışdır, görünür ki, öz dövlətlərinin qanunlarında ən yaxşı məqsədi güdmürdülər, bu haqda da düşünmürdülər ki, onların tətbiq etdiyi qanunlar və onların müəyyənləşdirdiyi tərbiyə bütün məziyyətlərin inkişafına doğru yönəlməlidir. Əksinə, onlar kobud surətdə bütün diqqətlərini elə məziyyətlərin inkişafına yönəltmişdilər ki, bunlar ilk baxışda onlara malik olanların xeyrinə böyük qazanc gətirməyi də vəd edir. Onlar kimi, bəzi yazarlar da sonralar elə bu nöqteyi-nəzərə yaxın fikir söyləmişdir: Lakedemon dövlət quruluşunu tərifləyərək onlar qanunvericinin qarşıya qoyduğu məqsədə heyran olur – yəni bütün qanunlar istila və hərb etmək üçün uyğunlaşdırılmalıdır. 11. Bu cür baxışları məntiqə əsaslanaraq asanlıqla təkzib etmək olar, hal-hazırda isə onlar dəlillərlə də təkzib edilir. Necə ki, külli miqdarda adam çoxları üzərində ağalığa can atır, guya ki, bu gözə görünən xoşbəxtliyə səbəb olur, eləcə də Fibron[25], habelə lakedemon dövlət quruluşu haqqında yazanların hamısı onların qanunvericisinə münasibətdə açıq bir məftunluqla göstərirlər ki, lakedemonlular təhlükələrə sinə gərib, möhkəm olmaları sayəsində öz hakimiyyətlərini çox genişləndirmişlər. 12. Lakin lakedemon hegemoniyasının mövcud olmadığı indiki dövrdə, aydındır ki, onlar xoşbəxt adlandırıla bilməz, həm də onların qanunvericisi, əsla qusursuz deyil. Bunu da etiraf etmək gülməli olardı ki, onlar, onun çıxardığı qanunlara sadiq qalaraq, onların müəyyənləşdirdiyi qanunlardan yararlanmağa heç bir maneə olmadıqda ən yaxşı həyata malik olmaq



imkanını itirirlər. Həmçinin, qanunvericinin hörmətlə yanaşmalı olduğu hakimiyyətin xarakterinə dair məsələdə də yanılırlar: axı azad adamlar üzərində hökm sürmək qullar üzərində ağalıqdan daha yaxşı və daha layiqlidir. 13. Bundan başqa, dövləti xoşbəxt saymaq və əgər qanunverici qonşuları tabe etmək üçün lazım olan şeylərə vətəndaşları alışdırmağa məcbur etmişsə, onu tərifləmək lazım deyil, axı bu çox ziyanlı şeydir. Aydındır ki, onda hər bir vətəndaş da öz səylərini mümkün qədər ona yönəldəcək ki, öz dövləti üzərində hökm sürmək iqtidarında olsun. Bunda isə, bütün xidmətlərinə baxmayaraq, lakedemonlular çar Pavsanini günahlandırırlar. Beləliklə, nə bu səpgidə olan əsas müddəalardan heç birində, nə də bu cür qanunlardan heç birində nə dövlət müdrikliyi, nə fayda, nə həqiqət var. Əksinə, qanunverici adamları qəlbən inandırmağa cəhd etməlidir ki, həm ictimai, həm də şəxsi həyatda ən zəruri şey – eyni bir şeydir. 14. Vətəndaşların hərbi təlim keçməsinin qeydinə qalmaq ondan ötrü deyil ki, onlar əsarət altına alınmağa layiq olmayanları buna məruz qoysunlar, ancaq ondan ötrüdür ki, hər şeydən öncə onlar özləri başqalarının əsarəti altına düşməsinlər, sonra ondan ötrüdür ki, asılı vəziyyətdə olanların xeyrinə hegemonluğa yetişməyə cəhd etsinlər, daha ona görə yox ki, hamının üzərində zalımanə hakimiyyət tətbiq etsinlər, nəhayət, üçüncüsü, kim ki, kölə olmağa layiqdir, onlar yalnız o adamların üzərində zalımanə hakimiyyətə can atsınlar. 15. Məntiqi fikirlər də, faktik dəlillər də bunu göstərir ki, qanunverici həm hərbi, həm də bütün digər işlərdə asudə vaxtı və sülhü nəzərə almağa cəhd etməlidir. Axı diqqətini yalnız hərbi hazırlığa verən dövlətlərin əksəriyyəti nə qədər ki, müharibə edir, yaşayır, ağalığa yetdikdə isə məhv olur. Əminamanlıq zamanı onların öz davamlığını itirməsi bir adət halını almağa başlamışdır.

Vətəndaşlara asudə vaxtdan istifadə etmək bacarığını aşılamayan qanunverici bunda günahkardır.

16. Dövlət həyatında da, şəxsi həyatda da adamların axır məqsədi oxşar olduğundan və əlbəttə, ən yaxşı adamın da, ən yaxşı dövlət quruluşunun da məqsədi eyni olduğundan, aydındır ki, asudə vaxt üçün lazım olan məziyyətlər olmalıdır, axı dəfələrlə göstərilmişdi ki, sülh hərbin axır məqsədidir, iş – asudə vaxtın.

17. Asudə vaxta və xoşbəxtliyə malik olmaq üçünsə, o məziyyətlər faydalıdır ki, bunlar həm asudə vaxta, həm də iş vaxtına uyğunlaşmış olur. Axı asudə vaxtdan zövq almaq üçün ən zəruri şeylərə malik olmaq lazımdır. Buna görə dövlət gərək həm təmkinli, həm cəsarətli, həm də möhkəm olsun. Atalar sözündə deyilir: «kölələrin boş vaxtı olmur», təhlükəli vaxtlarda cəsarət göstərə bilməyənlər isə, hücum edənlərin qulu olur. 18. Beləliklə, cəsarət və dözüm iş üçün, fəlsəfə asudə vaxt üçün lazımdır; təmkinlik və ədalət həm bu, həm də başqa vaxtlarda, daha çox isə əmin-amanlığa və asudə vaxta malik olanlara gərəkdir, axı müharibə ədalətli və təmkinli olmağa vadar edir, əmin-amanlıq zamanı xoş güzərandan və asudə vaxtdan zövq almaq isə adamları daha çox ərköyünləşdirir. 19. Beləliklə, daha çox xoşbəxt adam kimi tanınanlar və kef sayılan bütün şeylərdən zövq alanlar çox ədalətli, həm də çox təmkinli olmalıdır, bu isə, məsələn, o şəxslərə də şamil edilir ki, onlar şairlərin təbirincə, bəxtiyar adamların adasında yaşayır. Bu cür adamlara ola bilsin ki, sakit həyat keçirməkdən, həm də bolluq içərisində asudə vaxta malik olmaqdan daha çox fəlsəfə, təmkinlik və ədalət lazımdır. Buna görə yəqin ki, xoşbəxt və xeyirxah olmaq istəyən dövlət də gözlənilən xeyirxahlıqlara malik olmalıdır. Yaxşı şeylərdən faydalanmağı bacarmamaq gülüncdürsə, asudə vaxtda bunlardan faydalanmağı bacarmamaq daha da gülüncdür; tutulduqda və vuruşduqda qəhrəman kimi görünsə də, əmin-amanlığa və asudə vaxta malik olduqda köləyə bənzəyir. 20. Deməli, öz şücaətini, necə ki, bunu Lakedemon dövləti artırır, o cür artırmaq lazım deyil. Onlar digər ellinlərdən, ən yaxşı şeylər haqqında başqa təsəvvürlərə malik olduqlarına görə deyil, ona görə fərqlənir ki, onların fikrincə, bu şeylərə yetmək daha çox bir sıra xeyirxahlıqların vasitəsi ilə mümkündür. Lakin bu şeylər – daha çox, bunlardan alınan zövq isə, xeyirxahlıqdan alınan zövqdən daha böyük olduğundan...[26] bunun vasitəsilə olduğu da buradan aydındır. 21. Lakin buna necə, hansı vasitələrin köməkliyi ilə yetmək olar – bax bunu müzakirə etmək lazımdır. Artıq biz əvvəllər müəyyənləşdirmişik ki, anadangəlmə keyfiyyətlər – vərdiş və ağıl lazımdır. İnsanlar öz xarakterinə görə necə olmalıdır – bu yuxarıda müəyyənləşdirilmişdi. Ona baxmaq qalır ki, ağılın tərbiyəsindən başlamaq lazımdır, yoxsa vərdişlərin. Axı bu və o biri mükəmməl surətdə bir-birinə uyğun olmalıdır, zira ağılın ən yaxşı məqsədə yetə bilməsinin mümkünlüyü istisna edilmir, bu isə vərdişlərə əsaslandıqda baş verə bilər.

22. Hər şeydən öncə, aydındır ki, bütün digər hallarda olduğu kimi, bu halda da doğulma başlanğıcdır, məqsəd isə öz növbəsində digər məqsədin başlanğıcıdır; bizim üçün dərrakə və ağıl – məqsəddir, xasiyyət də bunlara doğru can atır. Buna görə biz də gərək insanın dünyaya gəlməsini və onun vərdişlərini ölçüb-biçək. 23. Daha sonra, necə ki, qəlb və bədən – iki başlanğıcdır, eynən biz qəlbdə də iki hissə ayırd edirik: ağıla malik olmayan və əqli qabiliyyətə malik olan; onların iki xüsusiyyəti var, bunlardan biri – cəhddir, digəri ağıl. Və bunun kimi, necə ki, bədənin əmələ gəlməsi ağılın əmələ gəlməsindən qabaq olur, eləcə də ağıla malik olmayan əqli qabiliyyətə malik olandan əvvəl törəyir. Bu da həmçinin aydındır: coşğunluq,

əzm, eyni zamanda istək təzə doğulmuş uşaqlara da xasdır, bununla belə düşüncə və ağıl yalnız yaşla əlaqədar olaraq meydana çıxır. Buna görə də qəlbdən qabaq bədənin qeydinə qalmaq lazımdır, bədəndən sonra isə xasiyyətin tərbiyəsi ilə məşğul olmaq vacibdir ki, bunların tərbiyəsi ağılın tərbiyəsinə xidmət etsin, bədənin tərbiyəsi isə – qəlbin tərbiyəsinə.

XIV. 1. Qanunvericiyə əvvəl başdan tərbiyə edilənlərin fiziki cəhətdən mükəmməl olmasına diqqət yetirmək vacib olduğundan, hər şeydən öncə o, evlənib birləşənlərin dərdinə qalmalıdır, yəni adamlar haçan və hansı xüsusiyyətlərə malik olmaqla ailə qurmalıdır. Nigaha girənlərin özlərini və onların yaşını nəzərə alaraq bu birləşməyə dair qanunlar müəyyənləşdirmək lazımdır; onlar yaş cəhətdən bir-birinə uyğun gəlməlidir; həm də onların potensiyası bir olmalıdır; əks təqdirdə belə çıxacaq ki, ər uşaq törətmək iqtidarındadır, qadın isə yox, yaxud əksinə, qadın buna malikdir kişi isə – yox. Bunun nəticəsində çəkişmələr və anlaşılmazlıqlar olur.

2. Ona görə də – haçan ki, uşaqlar valideynlərinin yerini tutmalıdır, o zaman: uşaqlar və atalar arasında çox böyük yaş fərqinə yol vermək lazım deyil (axı bu halda qocalar üçün uşaqlar tərəfindən, uşaqlar üçünsə – qocalar tərəfindən edilən minnətdarlıq faydasız olur). Lakin yaş cəhətdən çox böyük yaxınlıq da olmamalıdır: bu yaxınlıq böyük narahatlıq doğurur, çünki bir tərəfdən uşaqlar öz ataları ilə, demək olar, həmyaş kimi olduqlarından, axırıncılara az dərəcədə də hörmət bəsləyirlər, digər tərəfdən isə evdə bu zaman hər cür çəkişmələr üçün çoxlu bahanələr meydana çıxır. Nəhayət, o şey ki, biz ondan başlamışdıq: həmişə yadda saxlamaq lazımdır ki, doğulan uşaqların fiziki xüsusiyyətləri qanunvericinin qabaqcadan müəyyənləşdirdik-lərinə uyğun gəlsin.



3. Bütün bunlara, demək olar, bir ehtiyat tədbiri sayəsində nail olunur: kişi üçün nəsil törətmək qabiliyyətinin son həddi təxminən yetmiş yaşla məhdudlaşdırılır, qadın üçün – əlli yaşla; buna görə ailə qurub, birgə yaşamağın əsası da göstərilən hər iki müddətə uyğun gəlməlidir. 4. Gənclərin birləşməsi uşaq doğumu cəhətdən arzuedilməzdir. Bütün canlı məxluqlarda da gənclərdən törəyənlər zəif olur, doğulanlar əksər halda dişi, həm də boydan balaca olur. Bu, əlbəttə, istər-istəməz adamlarda da belə olur. Sübut: nigahın vaxtından əvvəl intişar tapdığı ölkələrdə, adamlar zəif və balaca boyludur. Üstəlik, doğuş zamanı gənc qadınlar daha çox əzab çəkir, həm də onların çoxu tələf olur. Ona görə bəziləri bunu kahinin trezenslərə qabaqcadan dediyi məlumatla bağlayır, yəni bunu onun hesabına yazmaq lazımdır ki, çoxlu gənc qadın bar-bəhər yığmaq üstündə deyil, erkən izdivac nəticəsində tələf olurdu. 5. Təmkinliyi təkmilləşdirmək məqsədi ilə qızları daha böyük yaşda ərə vermək faydalıdır; zira, görünür ki, gəncliyin erkən çağında cinsi əlaqəyə girdikdə, onlarda böyük ehtiras meydana çıxır. Gənclər toxumluğun yetişmə dövründə cinsi əlaqədə olduqda onların fiziki inkişafı ləngiyir, çünki bundan ötrü də müəyyən müddət var, bu keçid getdikdə bu yetişmə başa çatır. 6. Buna görə qızlara on səkkiz yaşda nigaha girmək daha məqsədəuyğundur, kişilərə isə otuz yeddi yaşda, ya da bir az tez. Bu yaşda nigah bağladıqda, evlənənlər fiziki cəhətdən çiçəklənmə dövrünü yaşayacaq və belə bir təxmin uşaq yetirmək qabiliyyətinə nəhayət verilməsi dövrünə tamamilə uyğun olacaq. Üstəlik, uşaqların müstəqil həyata başladıqları dövr də, məhz bu çağlara düşür, çünki uşaqların inkişaf dövrü, məhz bu vaxtlara təsadüf edir. (Guman var ki, doğum, gözlənildiyi kimi, dərhal baş verəcək), bununla belə atalar həmin bu vaxtlarda yetmiş yaşı haqlayıb, artıq zəifləməyə başlayacaq.

7. Beləliklə, nigah bağlayıb, birləşməyin vaxtı haqqında biz danışdıq. Bunun üçün daha münasib olan vaxta gəldikdə isə, burada çoxlarının müəyyənləşdirdiyi qaydalarla hərəkət etmək olar: onlar hesab edir ki, ailə qurmaq üçün daha münasib vaxt qışdır. Bununla belə evlənənlərə doğum məsələsində həkimin və təbiət bilicilərinin məsləhətlərilə hesablaşmaq lazımdır, çünki həkimlər bədənin yaxşı inkişaf etməsi xüsusunda məsləhətlər verə bilər, təbiət biliciləri isə – küləklər xüsusunda (onlar cənub küləklərindən çox, şimal küləklərini tövsiyyə edir).

8. Valideynlərin hansı xüsusiyyətlərinin onların əmələ gətirdiyi nəsil üçün daha faydalı ola bilməsi məsələsinə gəldikdə isə, bunun ətraflı müzakirəsi daha çox pedonomiya sahəsinə[27] aid edilə bilər; lakin bu xüsusda ümumi göstərişlər vermək burda da faydalıdır.

Vətəndaşın normal fiziki vəziyyəti üçün, onun sağlamlığı üçün, onun uşaq əmələ gətirmə qabiliyyəti üçün heç də atletin fiziki gücü tələb olunmur, digər tərəfdən burada zərif və bədəncə zəif olanlar deyil, hər ikisinin arasında olan ortababı yarayır. Bədən inkişaf etdirilməlidir ki, lakin atletlərdə olduğu kimi üzücü məşqlər vasitəsilə deyil, həm də yalnız bir tərəfli yox, ata-anası kölə olmayan adamların işlərinə yarasın. Bu eyni dərəcədə həm kişilərə, həm də qadınlara aiddir.

9. Hamilə qadınlar da öz bədənlərinin qeydinə qalmalıdırlar, onlar işsiz oturmamalı, zəif yeməklərlə qidalanmamalıdır. Qanunverici buna onda asan nail olar ki, onlara hər gün gedib allahlara səcdə eləməyi tapşırsın, o allahlara ki, doğum onların sərəncamındadır. Onların mənəvi həyatı fiziki həyatın əksinə olaraq daha sakit qurulmalıdır, bitkilər öz qidasını üstündə bitdikləri torpaqdan aldıqları kimi, onların özlərində gəzdirdikləri döl də qidasını qadından alır.



10. Təzə doğulan uşaqların bəslənilməsi və onların bəslənilməsindən imtina edənlər barəsində qoy qanun olsun: heç bir şikəsti böyütmək lazım deyil. Uşaqların sayına gəldikdə isə, əgər müəyyən edilmiş qaydalar təzə doğulanlardan hər hansı birini böyütməyi qadağan edirsə (axı doğumun sayı qəti surətdə müəyyənləşdirilib), ona yer olmamalıdır. Əgər ailəli olanlarda yol verilən bu həddən artıq uşaq anadan olacaqsa, döldə həssaslığın və həyatın meydana çıxmasından öncə aborta əl atmaq lazımdır; yol verilənlə yol verilməyənin arasındakı hədd həssaslığın və həyatın mövcudluğundan asılı olacaqdır.

11. Kişi və qadın üçün həmin o başlanğıc yaş müəyyən edildikdən sonra, hansı ki, bu vaxtdan nigaha girib birgə yaşamaq lazım olur, o müddəti də müəyyənləşdirmək vacibdir ki, onlar buna qədər dövlətin marağına münasib olan surətdə nəsil əmələ gətirsinlər. Yaşa dolmuş valideynlərin uşaqları da çox gənc olanların uşaqları kimi anadan həm fiziki, həm də əqli cəhətdən nöqsanlı olur, qoca valideynlərdən olan uşaqlar isə – zəif. Buna görə həddi kamilləşmə dövrünə uyğun müəyyənləşdirmək lazımdır. İnsanın həyatını yeddiillik dövrlərlə ölçən bəzi şairlərin göstərdiyinə görə, adamların əksəriyyəti bu çağlara əlli yaşına yaxın yetir. 12. Beləliklə, kim bu sinni dörd-beş il adladı, o açıq-aşkar dünyaya uşaq gətirməkdən imtina etməlidir və ömrünün qalan hissəsində yalnız cansağlığına, yaxud buna bənzər başqa bir səbəbə görə cinsi əlaqəyə girməyi davam etdirə bilər. Ərin və ya arvadın kənar əlaqələrinə gəldikdə isə, bu cür əlaqələr, nə qədər ki, adamlar qanuni surətdə ər-arvaddırsa və belə adlanırsa, heç bir yerdə və ümumiyyətlə, heç bir vəchlə ədəbli bir şey sayılmamalıdır. Əgər birisində aşkara çıxsa ki, o, ömrü boyu belə bir hərəkətdə bulunub, onda o, nalayiq hərəkətinə müvafiq surətdə bir cəza kimi təhqirə məruz qalmalıdır.

XV. 1. Uşaqlar anadan olduqdan sonra zənn edilir ki, onların bədənini qüvvətləndirmək üçün keyfiyyət cəhətdən çoxlu seçmə yeməklər hazırlamaq lazımdır. Digər canlı məxluqlar üzərində, eləcə də başlıca qayğıları cəngavərlik vərdişlərini təkmilləşdirmək olan tayfalar üzərində aparılan müşahidələr göstərir ki, südlə zəngin qida bu cür inkişaf üçün daha yaxşıdır. Şərabdan istifadə edilməməsi isə xəstəliklərin meydana çıxmasının qarşısını alır. 2. Hərəkət də faydalıdır, çünki bu, ümumiyyətlə, belə erkən yaşla bir araya sığır. Bununla bərabər bədənin zərif üzvlərində mümkün ola biləcək çıxıqlardan özünü gözləmək üçün bəzi tayfalar hal-hazırda qeyri iradi olaraq vərdiş edilən şeylərdən istifadə edir, bunlar körpələrin bədənlərini zədələrdən qoruyur. Kiçik yaşlarından uşaqları bilatəxir soyuğa öyrətmək faydalıdır: bu həm sağlamlığın mühafizə edilməsi üçün, həm də hərbi məşğələlərə tab gətirməyə hazırlıq üçün ən münasib vasitədir. Buna görə bir çox barbarlarda təzə doğulmuş uşaqları soyuq çaya basmaq adəti vardır; digər tayfalarda, məsələn, keltlərdə uşaqları soyuq ədyala bükürlər. 3. Ümumiyyətlə, uşağa nə öyrətmək mümkündürsə, onu bilatəxir, lap əvvəllərdən, lakin yavaş-yavaş öyrətmək yaxşı olar. Uşaq orqanizmi malik olduğu istilik sayəsində möhkəmlənməyə tamamilə qabildir, həm də soyuğa yaxşı dözür. Beləliklə, uşaqlara ilkin çağlarda bax bu cürə və buna bənzər qayğılar göstərmək faydalıdır.

4. Sonrakı, beş yaşına qədər olan çağlarda, uşağa hələ nə isə öyrətməyə başlamaq, onu bir işlə yükləmək lazım deyil, bütün bunlar onun boyunun artmasına mane olmasın deyə, onun bədəninin hərəkətsiz qalmamasından ötrü, ona nə qədər gərəkdirsə bir o qədər hərəkət etməyə icazə vermək lazımdır; bunun üçün həm digər vasitələrdən, həm də oyunlardan istifadə edilməlidir; amma bu oyunlar ata-anası kölə olmayan adamın məziyyətinə uyğun olmalı, uşağı çox yormamalı, həm də başlı-başına buraxılmamalıdır.



5. Bu yaşda hekayə və əfsanələrin hansına qulaq asmağın münasib olmasına gəldikdə isə, bunun qeydinə pedonom adlanan şəxslər qalmalıdır. Bütün bunlar sonrakı məşğələlər üçün bir növ başlanğıc olmalıdır, buna görə oyunlar da gələcəkdə olacaq ciddi məşğələlərə bənzəməlidir. 6. Bəzi qanunvericilər tamamilə əsassız olaraq uşaqlara bərkdən qışqırmağı və ağlamağı qadağan edir – bu və digəri onların boyunun artmasına kömək edir, çünki bədən üçün bir növ gimnastikadır: nəfəsin saxlanılması işləyənlərin gücünü artırır, bu isə uşaqlar haçan ki, çığırmaqla özlərini yorurlar, onlarda da olur. Pedonomlar, ümumiyyətlə, o şeyə nəzarət etməlidir ki, uşaqlar mümkün qədər qullardan kənarda olsunlar, bu yaşda və yeddi yaşına qədər uşaqlar ev şəraitində tərbiyələnməlidir. 7. Nə ki, ata-anası kölə olmayan adamın məziyyətinə uyğun deyil, bütün bunları bu yaşda uşaqların da qulaqlarından və gözlərindən kənar etmək məntiqəuyğundur. Həm də qanunverici ümumiyyətlə dövlətdən nalayiq sözləri və bu kimi şeyləri uzaq etməlidir (çünki ağzına gələni danışmaq vərdişindən, həm də yaramaz əməllərə meyllik artır); xüsusən də gənclərdən, ona görə ki, onlar özləri belə şeylər danışmasınlar, bunları da başqasından eşitməsinlər. Əgər məlum olsa ki, birisi qadağan olunmuş bir şey danışır və ya edir, ata-anası kölə olmayan, lakin hələ sissitiyalara qəbul edilməyən adamı şallaqlamaq lazımdır, amma əgər onun yaşı artıq bundan çoxdursa[28], onda o, gərək kölə kimi hərəkət etdiyinə görə azad adama layiq olmayan təhqirə məruz qalsın.

8. Madam ki, biz dövlətdə bu kimi sözlərin işlənməsinə icazə vermirik, onda aydındır ki, ədəbsiz rəsmlərə və tamaşalara da baxmağa izn vermirik. Beləliklə, qanunverici o işin qeydinə qalmağa borcludur ki, heç bir heykəl və ya rəsm əsəri belə

hərəkətləri əks etdirməsin, qanun yalnız müəyyən allahlara edilən sitayiş qaydalarında ədəbsizliyə icazə verdikdə, bu hallar istisna edilir. Burası da var ki, qanun bu allahlara sitayiş etməyi adamların həm özlərinə, həm uşaqlarına, həm də arvadlarına yalnız müəyyən yaşa yetdikdə icazə verir.

9. Qanun gənclərə yambların tamaşalarında[29] və komediyalarda bir tamaşaçı kimi iştirak etməyi o vaxta qədər qadağan etməlidir ki, onlar sissitiyalarda iştirak etməyə və təmiz şərab[30] içməyə icazə verilən yaşa çatsınlar, onların aldıqları tərbiyə isə heç kəsi buradan meydana çıxan zərərli şeylərə yoluxmağa qoymayacaq. İndi biz bütün bunlar barədə ötəri danışırıq; sonralar bu məsələnin üstündə müfəssəl surətdə dayanmaq lazım gələcək, bunu araşdırdıqdan sonra isə, ümumiyyətlə, buna qadağa qoyulmasının, yaxud icazə verilməsinin, həm də necə icazə verilməsinin lazım olub-olmadığı dəqiqləşdirilməlidir. Biz hələ bu məsələyə nə qədər lazımdırsa, o qədər də toxunduq. 10. Amma ola bilsin, tragediya aktyoru Feodorun bu xüsusda dedikləri qənaətbəxşdir, o, heç bir vaxt heç bir aktyora, hətta orta səviyyəliər içərisindən olanlara da özündən qabaq çıxış etməyə icazə verməmişdir, çünki tamaşaçılar əvvəlcə hansı səsləri eşidiblərsə, bunlara da öyrəşirlər. Bunu bizim adamlarla münasibətimizə və bizi əhatə edən şeylərə də aid etmək olar: biz özümüzün ilk təəssüratımızı həmişə daha çox sevirik. Buna görə gəncləri də bütün pis şeylərlə yaxınlıq etməkdən, ələlxüsus da alçaq və ya nifrəti alovlandıran nə varsa, onlardan qorumaq lazımdır.

Beş yaşları tamam olduqdan sonrakı iki ildə, yeddi yaşına qədər, uşaqlar artıq o fənlərə dair dərslərdə iştirak etməlidir ki, bunları öyrənmək onların özlərinə sonralar lazım olacaq.

11. Tərbiyə iki yaşa müvafiq olaraq bölünməlidir: yeddi yaşdan cinsi yetişkənliyə çatana qədər və cinsi yetişkənliyə



çatdıqdan iyirmi bir yaşa qədər. Yaşı yeddiillik dövrlərə bölən adamlar, adətən, pis düşünmürlər, lakin bu bölgünü hər halda xüsusiyyətlə uyğunlaşdırmaq lazımdır. Axı hər bir dövlət və tərbiyə yaranışdan nə çatmırsa, onun yerini doldurmaq üçündür. Beləliklə, hər şeydən öncə onu müzakirə etmək lazımdır ki, uşaqlar üçün qaydalar müəyyənləşdirilmə-lidirmi, yoxsa yox, daha sonra – onların qayğısına qalmağı dövlətə həvalə etmək faydalıdır, yoxsa ki, adamların özlərinin öhdəsinə buraxmaq (bu, əksər dövlətlərdə indi də belədir) və nəhayət, üçüncüsü, bu qayğı özünü nədə göstərməlidir.

## SƏKKİZİNCİ KİTAB (Ö)

I. 1. Gənclərin tərbiyəsinə qanunvericinin son dərəcə diqqətlə münasibət göstərməsinin gərəkliyinə, çətin ki, kimsənin şübhəsi olsun, çünki bu hansı dövlətlərdə yoxdur, həmin dövlət quruluşu da itkiyə məruz qalır. Axı tərbiyə hər dövlət quruluşuna uyğun olmalıdır; hər bir dövlət quruluşuna xas olan xarakter, adətən, həm dövlət quruluşunun saxlanılmasına, həm də lap əvvəldən – onun müəyyənləşdiril-məsinə xidmət edir, necə ki, məsələn, demokratik xarakter – demokratiyaya, oliqarxik – oliqarxiyaya; ən yaxşı xarakter isə həmişə quruluşun ən yaxşı formasını təmin edir. 2. Daha sonra, hər bir qabiliyyət və bacarığı ilkin tərbiyə və ilkin öyrədilmə işlərinə uyğun gələn surətdə tətbiq etmək iazımdır. Görünün ki, bütün bunlar xeyirxahlıq ruhunda olan fəaliyyət üçün də vacibdir. Amma bütövlükdə dövlətin axırda yeganə bir məqsədi olduğundan, aydındır ki, hamı üçün bir və eyni tərbiyə lazımdır, bu tərbiyənin dərdinə qalmaq isə ümumun işi olmalıdır, daha hər kəsin şəxsi işi yox, necə ki, indi hər kəs öz uşaqlarının qeydinə özü qalır və özünün ağlına nə gəldi, onu dərs keçir. İctimai maraq nədən ibarətdirsə, bununla da birgə məşğul olmaq lazımdır. Bundan başqa, düşünmək lazım deyil ki, guya hər bir vətəndaş özü özündən ötrüdür; yox, bütün vətəndaşlar dövlətə məxsusdur, çünki hər bir vətəndaş dövlətin bir zərrəsidir. Hər bir zərrənin dərdinə qalmaq isə təbii ki, tamın qayğısına qalmağı nəzərdə tutur. 3. Bu cəhətdən lakedemonluları təqdir etmək olar: onlar uşaqların tərbiyəsinə çox böyük qayğı göstərir, həm də bu onlarda ictimai xarakter daşıyır.

Beləliklə, aydındır ki, tərbiyəyə aid qanunlar mövcud olmalı, axırıncı isə ictimai olmalıdır. Ümumiyyətlə, tərbiyənin nə olduğunu və bunun necə həyata keçirilməsini aydınlaşdırılmamış qoymaq olmaz. Hal-hazırda tərbiyənin praktika edilməsi barədə fikir ayrılığı mövcuddur: həm gənclərin daha çox xeyirxah olmasından ötrü, həm də ən yaxşı həyatdan ötrü onlara nə öyrədilməlidir, bu xüsusda həmrəylik yoxdur; həmçinin təcrübənin məqsədi də aydınlaşdırılmamışdır – əqli qabiliyyət inkişaf etdirilməlidir, yoxsa mənəvi keyfiyyətlər. 4. Adi tərbiyənin xarakteri ucbatından, tərbiyənin müzakirəsində də qarma-qarışıqlıq var, həm də tamamilə qaranlıq qalmışdır ki, nəyi öyrətmək lazımdır, həyatda faydalı olan şeyləri, yoxsa xeyirxahlığı, yoxsa, nəhayət, mücərrəd biliyə aid olan şeyləri. Göstərilən hər fikrin öz müdafiəçiləri var. Eyni zamanda xeyirxahlığa nəyin səbəb olması barəsində də heç bir razılığa gəlinməmişdir. Hamı heç də eyni bir xeyirxahlığı dəyərləndirmədiyindən təbii ki, bu məsələdə də fikir ayrılığı var.

II. 1. Tamamilə aydındır ki, yararlı fənlər içərisindən, hamısı deyil, həqiqətən, lazım olanlar öyrədilməlidir. Çünki bütün məşğələlərdən elələri var ki, bunlar ata-anası kölə olmayanlara münasibdir, elələri də var ki, bunlar kölələrə xasdır, onda, görünür, yalnız o yararlı məşğələlərdə iştirak etmək lazımdır ki, bunlarda iştirak edənlər dönüb sənət adamı olmasın. Elə məşğələlər, elə peşələr və elə dərs fənləri kustar sayılmalıdır ki, bunlar ata-anası kölə olmayan adamların cismini və qəlbini xeyirxahlıq göstərmək üçün, həm də bununla bağlı olan fəaliyyət üçün yararsız edir. Buna görə biz hansı peşələr və məşğələlər ki, ödənişlə həyata keçirilir, onları kustar adlandırırıq; bunlar adamları lazım olan asudə faxtdan məhrum edir və onları alçaldır.

2. Müstəqil elmlərdən bəzilərini ata-anası kölə olmayan adamlar yalnız müəyyən həddə qədər öyrənə bilər; bunları əsaslı surətdə öyrənmək üçün bunlar üzərində olduqca səylə çalışmaq yuxarıda göstərilən ziyana səbəb olur.

Birisinin hansı məqsədləsə nə isə etməsinin, yaxud öyrənməsinin fərqi böyükdür. Əgər bu, ya özündən ötrü, ya dostlarından ötrü, ya da xeyirxahlıqdan ötrü edilirsə, onda bu, ata-anası kölə olmayan adama layiqdir; amma ki, bu, özgələrdən ötrü edildikdə çox vaxt günəmuzd işləyənin və kölənin etdiyi hərəkət kimi görünə bilər. Artıq yuxarıda qeyd edildiyi kimi hal-hazırda intişar tapmış dərs fənləri adları çəkilən hər iki məqsədə xidmət edir. 3. Dörd adi dərs fənni var: qrammatika[1], gimnastika, musiqi və hərdənbir də rəsm. Qrammatikanı və rəsmi adi həyatda və təcrübədə geniş tətbiq edilən faydalı fənlər kimi öyrənirlər; gimnastika ilə ona görə məşğul olurlar ki, o cəsarətin artmasına səbəb olur. Musiqiyə gəldikdə isə bəlkə də şübhə yarana bilər, çünki hal-hazırda musiqi ilə əksər hallarda yalnız zövq almaq üçün məşğul olurlar. Lakin dəfələrlə göstərildiyi kimi bizim əcdadlarımız musiqini ona görə ümumtəhsil fənləri ilə bir sıraya qoymuşdular ki, təbiətin özü yalnız bizim fəaliyyətimizi düzgün istiqamətləndirməkdən ötrü deyil, həm də asudə vaxtdan çox gözəl yararlanmaq üçün bizə imkan verməyə çalışır. Axırıncı isə – biz bunu yenə də qeyd edirik – hər şeyin başlanğıcını müəyyən edəndir; bu isə bizi yenə onun yanına dönməyə təhrik edir. 4. Əgər bu və o biri lazımdırsa, asudə vaxtda da fəaliyyətə üstünlük verilməlidir, onda, nəhayət, ortalığa sual çıxır, bu boş vaxtı nə ilə doldurmaq lazımdır. Əlbəttə, oyunla yox, çünki bu halda o, istər-istəməz bizim həyatımızın axır məqsədi olardı. Madam ki, bu mümkün deyil, oyunlara da daha çox bizim dərslərimiz arasında yer vermək lazımdır (axı zəhmətkeşlərə istirahət verilməlidir, oyunlar isə istirahət üçündür, hər cür fəaliyyət isə zəhmət və gərginliklə bağlıdır), buna görə oyunlar tətbiq etmək, bunu dərman kimi vermək üçün münasib vaxt seçmək lazımdır, axı oyunlar zamanı edilən hərəkət cana rahatlıq gətirir, alınan zövq nəticəsində isə adam



dincəlir. 5. Lakin asudə vaxt artıq, görünür ki, özü-özlüyündə həm zövqdən, həm xoşbəxtlikdən, həm də kefdən ibarətdir və bütün bunlar məşğul adamların deyil, asudə vaxta malik olan adamların payına düşür. Axı nə iləsə məşğul olanlar bununla nədən ötrüsə məşğul olur, çünki onlar hələ məqsədə yetməyiblər, bununla belə xoşbəxtlik özü-özlüyündə bir məqsəddir, bu isə bütün insanların təsəvvürünə məyusluqla deyil, ancaq zövqlə bağlanır. Amma hər kəs bu zövqü eyni cür deyil, öz xüsusiyyətlərinə müvafiq olaraq, fərdi qaydada alır – ən yaxşı adam ən yaxşı zövqə və ən gözəl mənbələrdən meydana çıxan şeylərə üstünlük verir. Burdan aydındır ki, asudə vaxtdan istifadə etməyi bacarmaq üçün həyatda bəzi şeyləri öyrənmək, bir az tərbiyə almaq lazımdır və necə ki, bu tərbiyə, eləcə də bu təhsil özü-özlüyündə məqsəddən ibarətdir, halbuki işgüzar həyata tətbiq edilmək üçün vacib olan təhsil digər məqsədləri nəzərdə tutur.

6. Buna görə bizim də əcdadlarımız musiqini tərbiyəvi fənlər sırasına vacib və hamı üçün faydalı olan (bunda qətiyyən belə şey yoxdur) fənn kimi qoymayıblar, necə ki, savad, hansı ki, həm pul işlərini bilmək üçün, həm ev işləri üçün, həm elmlə məşğul olmaq üçün, həm də dövlətin bir çox sahələrində fəaliyyət göstərmək üçün vacibdir. Rəsm çəkməkdən də, görünür, fayda hasil edilir – incəsənət əsərlərinə daha yaxşı qiymət vermək bacarığı, öz növbəsində, gimnastikanın sağlamlığın möhkəmlənməsinə və bədənin gücünün artmasına xidmət etməsi kimidir (musiqi ilə məşğul olmaq buna bənzəmir). Deməli, bir şeyi qəbul etmək qalır, musiqi bizim boş vaxtımızı doldurmaq üçündür, o yəqin ki, buna görə də adi tərbiyəyə tətbiq edilir. Doğrudan da, xəyal edilən kimi, ata-anası kölə olmayanların əyləncəsi nədən ibarətdirsə – bura musiqi də aiddir. Buna görə də Homer belə şer yazmışdı: «Zəngin ziyafətə yalnız o çağırılma-

lıdır»[2]; bəzilərinin adlarını bir-bir saydıqdan sonra o deyir: «Kim hamıya kef verən xanəndəni çağırar»[3]. Digər yerdə Odissey deyir ki, vaxt keçirmək üçün ən yaxşısı odur ki, adamlar şənlənən zaman «qonaqlar evlərdə vəzifələrinə görə yanaşı oturub, nəğməkara qulaq assınlar»[4].

III. 1. Beləliklə, belə bir tərbiyənin olması da aydındır, hansı ki, valideynlər bunu oğlanlarına praktiki cəhətdən faydalı və ya vacib olduğu üçün deyil, ona görə verməlidir ki, bu ata-anası kölə olmayan adama layiqdir, yaxud özü-özlüyündə çox gözəldir. Bu tərbiyənin əhatə sahəsinə bir fənn daxildirmi, yoxsa bunlar bir neçədir və bunlar hansılardır, həm də necə təşkil edilməlidir – bütün bunlar barədə biz axırda danışacayıq[5]. İndi isə bizim qabaqcadan göstərdiklərimizdən kifayət qədər aydın oldu ki, bizim adi tərbiyə haqqında olan fikirlərimizin xeyrinə keçmişdəkilər də şəhadət verir: musiqinin timsalında bu bəlli olur. Üstəlik, uşaqlara hamı üçün faydalı olan fənlər yalnız mənfəət üçün deyil, – savad almaq, məsələn, belələrindəndir, həm də ona görə öyrədilməlidir ki, bu təhsil nəticəsində onlara bir sıra məlumatları çatdırmaq mümkün olsun.

2. Rəsm çəkməklə də iş bu vəziyyətdədir: bunu bazarlıq edərkən səhvə yol verməməkdən, həm də ev ləvazımatlarının və qəşəng şeylərin alqı-satqısında aldanmamaqdan ötrü deyil, daha çox ona görə öyrənirlər ki, bu maddi gözəlliklərin müəyyənləşdirilməsi zamanı gözləri inkişaf etdirir. Ümumiyyətlə, hər yerdə yalnız bircə fayda axtarmaq yüksək mənəvi keyfiyyətlərə malik olan və ata-anası kölə olmayan adamları hər şeydən az şərəfləndirir.

Aydındır ki, tərbiyə işində vərdişlərin inkişafı ağlın inkişafından əvvəl olmalıdır, həm də fiziki tərbiyə əqli tərbiyənin önündə getməlidir. Burdan belə çıxır ki, oğlan uşaqlarını gimnastika



müəllimlərinə və pedotriblərə tapşırmaq lazımdır: birincilər onların bədənlərini lazımi vəziyyətə gətirəcək, ikincilər isə onlara diribaşlıq aşılayacaq.

3. Hal-hazırda uşaqların tərbiyə edilməsinə olsun ki, hamısından çox fikir verən dövlətlər arasından bəziləri onlarda atletik bədən quruluşu yaratmağa çalışır və təbii inkişafa mane olmaqla, uşaqların bədən quruluşunu korlayırlar; lakedemonlular belə səhvə yol vermədilər, lakin ağır təlimlərlə onlar uşaqları vəhşi heyvan ovçusu edir, guya ki, bu cəsarətin artması üçün hər şeydən daha çox faydalıdır. Amma, tez-tez göstərildiyi kimi, bütün fikri bircə şeyə, daha çox isə bu məqsədə yönəltmək lazım deyil, buna baxmayaraq hətta onlar yalnız bu məqsədə doğru can atsalar belə, onda hər halda heç nəyə nail olmurlar. Axı nə vəhşilərdə, nə də barbar tayfalarda cəsurluğun onlardan mütləq ən vəhşisinə həmrah olduğunu hiss etmirik, əksinə – bunu daha çox mülayim və aslanlara oxşar olanlarda görürük. 4. Qətl törətməyə və adamyeməyə meyl edən bir çox tayfalar var. Pont sahillərində məskunlaşan axeylər və genioxlar belələrindəndir, həm də materikdə yaşayan bir para digər tayfalardan[6] – bəziləri eyni, digərləri – daha çox dərəcədə; bütün bunlar quldur tayfalardır, lakin heç də cəsur deyillər. Həm də lakedemonlular haqqında biz bilirik ki, onlar nə qədər ki, səylə çətin təlimlərlə məşğul olurdular, digərlərini üstələyirdilər, indi isə həm gimnastika yarışları sahəsində, həm də hərbi işlərdə onlar digərlərindən geri qalırlar. Axı lakedemonlular digərlərindən, öz gənclərinə yuxarıda göstərilən tərzdə təlim keçməklə deyil, bircə onunla fərqlənirdilər ki, onları möhkəmlənməyənlərə qarşı möhkəmləndirirdilər. 5. Burdan belə çıxır ki, birinci yeri vəhşilik deyil, ən yaxşı tutmalıdır. Axı nə canavar, nə də digər bir vəhşi heyvan ən yaxşıya görə, cəsur xadim kimi təhlükəli mübarizəyə

girməz. Amma kimlər ki, olduqca səylə uşaqları bu tərəfə istiqamətləndirir və onları yaşamaq üçün lazım olan tərbiyədən kənarda qoyur, həqiqətdə onları sənətkar edir; onlar dövlətdə yaşamaqdan ötrü bunları yalnız bir cəhətdən faydalı edirlər, lakin bu cəhət də, bizim ölçüb-biçməmiz göstərir ki, digərlərindən pisdir. Bütün bunlar barəsində keçmişdəki vəziyyətdən asılı olaraq yox, indiki vəziyyətdən asılı olaraq fikir söyləmək lazımdır: indi onların tərbiyə etmə işində rəqibləri var, əvvəllər isə yox idi.

IV. 1. Beləliklə, gimnastikanın təlim edilməsini, eyni zamanda da bu təlimin necə təşkil edilməsini hamı tərəfindən qəbul edilmiş saymaq olar. Cinsi yetişkənliyə çatmamışa qədər daha yüngül gimnastika təmrinləri keçmək lazımdır; məcburi kökəldilmə və çox ağır işlər istisna edilməlidir ki, fiziki inkişafa heç bir maneçilik olmasın. Olimpiya yarışları qaliblərinin siyahısını nəzərə çarpdırmaq, bu tədbirlərin fiziki gücün inkişafını ləngitməsinə ciddi sübutdur. Orada nadir hallarda iki-üç nəfər eyni bir adama rast gələrsən ki, onlar böyük kişi, həm də uşaq ola-ola qalib gəlsinlər. Bu onunla izah olunur ki, gənclər daimi olan çox ağır gimnastika məşqlərindən öz gücünü itirir. 2. Necə ki, həddi-buluğa çatdıqdan sonrakı üç il ərzində digər fənləri[7] öyrənməyə həsr etməlidirlər, sonrakı yaş dövrlərində də işləməyə və məcburi surətdə yeməyə məruz qalmaq yerində olan bir işdir. Hər halda, eyni vaxtda həm zehni, həm də fiziki cəhətdən olduqca gərgin işləməyə vadar etmək lazım deyil: bu və digər cəhətdən olan gərginlik, təbii olaraq, tamamilə əks təsir doğurur: fiziki gərginlik ağılın inkişafına mane olur, zehni gərginlik – bədənin inkişafına.

3. [8] Musiqiyə gəldikdə isə, biz artıq əvvəllər də bəzi şeyləri müəyyən etmişdik, lakin indi də bizim araşdırmamızı davam



etdirmək üçün bunun üstünə qayıtmağımız tamamilə yerinə düşər, bu, öz fikirlərini bu xüsusda bildirmək istəyənlərdən ötrü bir əsas olar.

Musiqinin əhəmiyyətinin nədən ibarət olmasını dəqiq müəyyənləşdirmək asan deyil, bununla nəyə görə məşğul olmaq lazımdır – yatmağımız və xudmani məclislərdə iştirak etməyimiz kimi əyləncə və istirahət üçünmü (axı sonuncular özü-özlüyündə heç bir ciddi məqsəd güdmür, lakin Yevripid dediyi kimi bu xoşagələndir və dərdi adamdan uzaqlaşdırır; buna görə bəziləri də bunu yuxu, həm də xudmani məclislərlə bir sıraya qoyur və bu məşğuliyyətlərə əl atır, yəni yatmaq, içmək və musiqi ilə məşğul olmaq eyni bir məqsəd üçündür, rəqslər də həmçinin bura daxildir). 4. Yaxud daha çox düşünmək lazımdır ki, musiqi yaxşı işlərə doğru istiqamətləndirir və bu, gimnastika kimi fiziki keyfiyyətlərə təsir etməyi bacarır, insanda düzgün şadlanmaq qabiliyyətini inkişaf etdirməklə onun mənəvi xüsusiyyətlərinə təsir göstərir; yaxud da – bu isə ortaya qoyulmalı olan üçüncü sual olardı – onda asudə vaxtdan istifadə etmək üçün, həm də ağılı inkişaf etdirməkdən ötrü nə isə var?

Tamamilə aydındır ki, gəncləri əylənməkdən ötrü tərbiyə etmək lazım deyil; oxuyan zaman oynamırlar, əksinə, oxumaq məyusluqla bağlıdır. Əlbəttə, oğlan uşaqlarına və yaşca onlara yaxın olanlara vaxtlarını böyüklər kimi keçirməyə imkan verməyin yeri yoxdur, axı qeyri-mükəmməl bir şey yüksək məqsədi təşkil edən bir şeyə layiq deyil. 5. Bəlkə də elə görünə bilər ki, oğlan uşaqlarının ciddi surətdə məşğul olduqları şeylər, onlar kişi olub, yetkinləşdikdə onlar üçün bir əyləncə vasitəsi olsun. Lakin bu belədirsə, onda nəyə görə oğlan uşaqları musiqini öyrənməlidir, daha İran və Midiya çarları kimi musiqidən zövq alıb, başqasının ifasında bununla tanış olmamalıdır. Xüsusən, bunu öz işi və sənəti seçən adamlar, bunu mənimsəməyə nə

qədər vaxt lazımdırsa, bir o qədər məşğul olanlardan daha yaxşı ifa edəcək. Və əgər oğlan uşaqları musiqi ilə əsaslı surətdə məşğul olursa, onda aşpaz sənətini də öyrənmək lazımdır. Lakin bu mənasız hərəkət olardı.

6. Eləcə də yenə bir sual, musiqi xasiyyəti nəcibləşdirirmi? Və yenə də nəyə görə oğlan uşaqları musiqini öyrənməlidir, daha digərlərini dinləyib lazımi surətdə sevinməməli və lakedemonlular kimi öz düzgün rəylərini bildirməməlidirlər? Onlara musiqi təhsili verilməsə də, hər halda onlar, necə deyərlər, hansı mahnının yaxşı, hansının pis olduğu barəsində doğru mühakimə yürüdə bilirlər. Musiqinin ata-anası kölə olmayan adamlara layiq yaraşıq və əyləncə olduğu qəbul edildiyi halda da bu qeydi etmək olar. Onlar nəyə görə öyrənməlidir, daha başqasının ifasından zövq almalı deyil?

7. Bizim allahlar haqqında olan təsəvvürlərimizi müzakirəyə cəlb etmək olar: şairlərdə Zevsin özü oxumur və kifarada çalmır. Üstəlik, bununla məşğul olanları biz sənətkar adlandırırıq, həm də bu məşğuliyyətləri, əgər xadim şənlikdə deyilsə və əylənmirsə ona layiq hesab etmirik. Lakin ola bilər sonralar yenə biz bunun üstünə qayıdaq.

V. 1. Birinci vəzifə aşağıdakından ibarətdir: musiqini tərbiyə etmə fənləri ilə bir sıraya qoymaq olarmı, yoxsa yox? Və bu, bir-birilə ziddiyyət təşkil edən üç fikrin hansında əhəmiyyət daşıyır: bu, tərbiyə etmə fənnidirmi, əyləncədirmi, yoxsa vaxt keçirmə üsulu? Onu tamam əsaslı surətdə bütün bunlara aid etmək olar, bütün bunlara da bu, görünür ki, aiddir. Axı əylənmə istirahət etmək üçündür, istirahət isə mütləq xoşagələn olmalıdır, çünki o, məşğələ-lərdən meydana çıxan məyusluğa qarşı nə isə bir çarədir; vaxt keçirmək isə yalnız gözəl olmalı deyil, həm də xoşagələn olmalıdır, ona görə ki, xoşbəxtlik,



məhz bununla o birinin birləşməsindən ibarətdir. Musiqini isə bizim hamımız, bu oxumaqla müşahidə olunur, ya yox, olduqca xoşagələn şeylər sırasına aid edirik. 2. Musey[9] isə deyir ki, «ölümə məhkum olana oxumaq – hər şeydən xoşdur». Buna görə də musiqiyə şənləndirmək vasitəsi kimi adamların yığışdığı və əyləndiyi məclislərdə icazə verilir. Beləliklə, artıq bu nöqteyi-nəzərə görə iddia etmək olar ki, bu, gənclərin tərbiyə edilməsindən ötrü bir fənn olmalıdır. Bütün zərərsiz keflər kimi, bu təkcə ən yüksək məqsədə müvafiq deyil, həm də dinclik gətirir. İnsanlar isə həyatda çox nadir hallarda ən yüksək məqsədə nail olduqlarından, onlar tez-tez dincəlirlər və əylənməyə ən yüksək məqsəddən ötrü deyil, ancaq zövq almaqdan ötrü əl atırlar, onda ola bilsin ki, musiqinin bəxş etdiyi keflə tam istirahət etmək faydalıdır.

3. Elə adamlara rast gəlinir ki, əylənmək onlar üçün ən yüksək məqsəddir; axı bu məqsəddə ola bilsin ki, nə isə bir zövq var; bu zövqə cəhd edən insanlar təsadüfi zövqləri buna oxşadırlar, çünki bunun da insan fəaliyyətinin ən yüksək məqsədilə müəyyən oxşarlığı var. Axı ən yüksək məqsəd gələcəkdə yaxşı şeylər vəd etdiyinə görə üstün tutulmur; eləcə də xatırlanan zövqlər hələ olacaq bir işdən ötrü deyil, artıq baş vermiş bir işdən ötrü olmalıdır, məsələn, işlədikdən sonra dincəlmək və dərd-qəmi yüngülləşdirmək üçün. Beləliklə, burda doğrudan da, o səbəbi görmək olar ki, bu, təsadüfi zövqlərin köməkliyi ilə xoşbəxtliyi tapmaq üçün çalışmağa insanlarda həvəs oyadır.

4. Amma musiqiyə yalnız bircə səbəbə görə deyil, həm də ona görə müraciət edirlər ki, bu, görünür, istirahət zamanı fayda verir. Bununla belə baxmaq lazımdır görək, musiqidən olan bu fayda yalnız təsadüfdürmü, yoxsa mahiyyətcə onun dəyəri göstərilən uyğunlaşma ilə müqayisədə daha çoxdur; musiqi, adətən, zövq bəxş etməkdən savayı – bu duyğunu hamı hiss edir (çünki

bədən musiqidən həzz alır, buna görə də musiqiyə qulaq asmaq hər yaşda, hər xarakterdə olan adamın ruhunu oxşayır) – xasiyyətə və qəlbə öz təsirini göstərir. Əgər sübut olunsaydı ki, o bizim mənəvi keyfiyyətlərimizə təsir göstərir, bu aydın olardı.

5. Bunun əslində, belə olmağını bir çox digər şeylərdən başqa xüsusən Olimpin[10] mahnıları sübut edir; bunlar, ümumun etirafına görə, bizə ruh yüksəkliyi gətirir, ruh yüksəkliyi isə qəlbin mənəvi hissəsinin həyəcanıdır. Hətta melodiya və ritmlərin müşahidəsi olmadan belə bunlara bənzəyən şeylərə qulaq asdıqda hamıda müvafiq əhval-ruhiyyə köklənir. Musiqi xoşagələn şeylər sahəsinə aiddir. Məziyyət isə öz tərəfindən lazım olan sevinc, məhəbbət, həm də nifrətdən ibarətdir və aydındır ki, nəcib xarakterlər və çox gözəl hərəkətlər barəsində düzgün mühakimə yürütməyi bacarmaq, həm də bu və digərinə layiqincə sevinmək kimi heç nəyi belə ciddi – cəhdlə öyrənmək və heç nəyə bu dərəcədə alışmaq lazım deyil. 6. Rimt və melodiyalarda təxminən gerçəkliyi özündə əks etdirən qəzəb və həlimlik, cəsarət və təmkinlik, həm də bütün bunlara zidd olan xüsusiyyətlər, eyni zamanda digər mənəvi keyfiyyətlər var (bu, təcrübədən də məlumdur: biz qulaqlarımızla ritm və melodiyanı qavrayan zaman daxilən dəyişilirik). Gerçəkliyə bənzəyən bir şeyi qavrayan zamanda qəm-qüssəni və sevinci hiss etmək adəti isə ona səbəb olur ki, biz gerçəkliklə toqquşduqda həmin hisləri keçirməyə başlayırıq. Kimsə, məsələn, kiminsə şəklinə baxdıqda başqa bir səbəbə görə deyil, məhz həmin zahiri surətdən sevinc hisləri keçirir, ona, əlbəttə, kimin şəklinə baxırsa, həmin adamla da üz-üzə gəlmək xoş olardı. 7. Hissiyyat orqanlarının qavradığı bütün qalan şeylərin, məsələn, hansıların ki, bizim lamisə və dad duyğumuza əli çatır, mənəvi durumla heç bir oxşarlığı yoxdur. Bizim görməmiz nəyi qavrayırsa, bu oxşarlıq yalnız cüzi dərəcədə olur: burada biz şeyi ancaq zahirən görürük, həm də o yalnız cüzi dərəcədədir və heç də



hamıda müvafiq həyəcana səbəb olmur; həmçinin burada mənəvi hislər yoxdur, lakin cizgilər və rənglər daha çox mənəvi hislərin gözə görünən inikasıdır, çünki axırıncılar həyəcanlanmış insanın xarici görkəmində özünü göstərir. Bununla belə biz nəyə baxırıqsa, ona o dərəcədə əhəmiyyət vermək olar ki, gənclərə Pavsonun çəkdiyi şəkillərə deyil, Poliqnotun çəkdiyi şəkillərə, yaxud digər bir rəssamın və ya heykəltəraşın əsərlərinə baxmaq lazımdır, onlar təsvir etdikləri şəxsin mənəvi xarakterini göstərməyi bacarırlar.

8. Əksinə, musiqiyə gəldikdə isə, artıq onların mənəvi hislərə oxşarlığı var. Bu aşağıdakılardan aydındır: musiqi ahəngləri əhəmiyyətli dərəcədə bir-birindən fərqlənir, belə ki, onlara qulaq asdıqda bizim kefimiz müxtəlif cür olur və biz onların heç birinə eyni cür yanaşmırıq; demək, bir ahəngi, məsələn, miksolid adlananı dinləyərkən biz çox qəmli və qaş-qabaqlı oluruq; digər, az ağır olan ahəngləri[11] eşitdikdə yumşalırıq; başqa ahənglər bizə daha çox babat və sakit əhval-ruhiyyə bəxş edir; axırıncı xüsusiyyətə, görünür ki, yalnız biri, yəni doriya ahəngi malikdir; frigiya ahəngi bizi həyəcana gətirir. 9. Kimlər ki, bu tərbiyə məsələlərini fəlsəfi nöqteyi-nəzərdən müzakirə edib, o adamlar bütün bu barədə çox gözəl danışır – onların nəzəri fikirləri dəlillərə əsaslanır. Bu, ritmlərə də aiddir: bəziləri daha sakit xarakterə malikdir, digərləri – oynaq; bu axırıncılardan bəziləri daha qaba hərəkətlərilə fərqlənir, digərləri – daha nəcib hərəkətlərilə.

Deyilənlərdən aydındır ki, musiqi qəlbin mənəvi hissəsinə təsir etməyi bacarır; madam ki, müsiqi belə xüsusiyyətə malikdir, onda, görünür, bu gənclərin tərbiyə edilmə fənləri sırasına daxil edilməlidir. 10. Musiqini öyrənmək bu yaşın özünə uyğun gəlir: adamlar gənc yaşlarında öz xoşları ilə pis bir şeyə dözmürlər, musiqi isə öz xarakterinə görə zövq gətirən şeylərdən biridir. Həm də harmoniya və vəzndə, görünür ki, bir oxşarlıq var, buna

görə də filosoflardan[12] çoxu qəlbin harmoniya olduğunu, digərləri[13] isə – onun hamoniyanı özündə daşıdığını iddia edir.

VI. 1. İndi, əvvəllər bizim tərəfimizdən cavabsız qoyulmuş məsələni həll etmək lazımdır: beləliklə, uşaqlar özləri musiqi alətlərində çalıb-oynamaqdan ötrü müsiqi təhsili almalıdılarmı, yoxsa yox? Şübhəsiz ki, insanın bu və ya digər istiqamətdə inkişaf etməsi üçün həyatda onun özünün bu və ya digər işi öyrənməsinə laqeydlik göstərilmir; axı o işin ki, icrasında özün iştirak etmirsən, onun əsaslı surətdə hakimi olmaq mümkün deyil, ya da hər halda çətindir. Digər tərəfdən uşaqların da əyləncəli bir işi olmalıdır, bu cəhətdən isə Arxitin[14] oyuncağını çox gözəl ixtira saymaq olar, bunu kìçik uşaqlara ondan ötrü verirlər ki, bununla oynayıb, ev əşyalarından heç nəyi sındırmasınlar: axı yetkinləşməmişlər sakit dura bilmirlər. Beləliklə, əgər Arxitin oyuncağı kiçik uşaqlar üçün münasibdirsə, onda daha böyük uşaqların tərbiyə edilməsində musiqini öyrənmək belə bir oyuncaqdır. Göstərilən fikirlərdən aydındır ki, musiqi üzrə tərbiyə elə təşkil edilməlidir ki, tərbiyə alanlar bunu həyatda öyrənsinlər.

2. Müvafiq yaş üçün nəyin münasib olduğunu, nəyin isə münasib olmadığını müəyyənləşdirmək çətin deyil, bununla bərabər kim iddia edirsə ki, guya musiqi ilə məşğul olmaq sənətkara xasdır, bunları da təkzib etmək asandır. Hər şeydən öncə bir iş haqqında fikir söyləməyi bacarmaqdan ötrü, həmin işi görməyi bacarmaq lazımdır, buna görə də adamlar, nə qədər ki, onlar gəncdir, özləri bu işlə məşğul olmalıdır; haçan ki, onlar böyüdü, bü məşğuliyyətdən əl çəkməlidirlər, əvəzində onlar ən yaxşı barədə fikir söyləmək iqtidarında olacaq və cavanlıqda aldıqları dərslərin sayəsində lazımi həzzi hiss edəcəklər.

3. Bəzilərinin etdiyi tənəni isə, guya musiqi ilə məşğul olmaq adamları peşəkara çevirir, təkzib etmək çətin deyil – yalnız araşdırmaq lazımdır ki, siyasi cəhətdən xeyirxahlığa adət etmək məqsədi ilə tərbiyə alan adamlar hansı həddə qədər praktiki olaraq musiqi öyrənməklə məşğul olmalıdır, hansı melodiya və hansı ritmlərlə onlar tanış olmalıdır, eyni zamanda hansı alətlərdə onlar çalmağı öyrənməlidir, zira bu axırıncı da, şübhəsiz, maraq doğurur. Xatırlanan tənənin təkzibi bundan ibarətdir, çünki musiqinin bəzi formalarından göstərilən təsirin əmələ gəlməsini inkar etmək olmaz.

4. Aydındır ki, musiqi ilə məşğulluq insanın sonrakı fəaliyyəti üçün əngəl törətməməli və onu fiziki cəhətdən peşəkara çevirməməlidir, hərbi və vətəndaşlıq borcunu yerinə yetirmək məqsədilə həm indiki zamanda bunları praktikada öyrənmək üçün, həm də gələcəkdə bunlara adət etmək üçün onu yararsız etməməlidir. Əgər gənclər peşəkarların bəhsləşməsində iştirak etmək məqsədilə bununla gərgin surətdə məşğul olmasalar, həm də onlar musiqi bəhsləşmələrində ifaya daxil olub, oradan isə musiqi təliminə keçən o qəribə və artıq şeylərə adət etməsələr, musiqi təhsili alarkən buna müvəffəq olmaq olar. Lakin, bunu istisna etməklə, gənclərə melodiya və ritmlərdən həzz almağa imkan vermək lazımdır, hansı həzzi ki, ümumiyyətlə, musiqi verir və hansını ki, hətta heyvanlar, eyni zamanda da bütün kölələr və nökərlər kütləsi hiss etməyi bacarır, yalnız bununla kifayətlənmək lazım deyil.

5. Bütün deyilənlərdən, hansı alətlərdən istifadə etməyin gərəkliyi də aydındır. Tərbiyə edilmədə nə fleytaya, nə də peşəkar musiqiçilərin çaldıqları kifaraya, yaxud nə isə buna bənzər digər bir alətə icazə vermək lazım deyil; hansı alətlər ki, musiqidə olduğu kimi digər tərbiyə işlərində də yaxşı dinləyici olmağa kömək edir, belələrini əldə etmək lazımdır. Həmçinin fleyta – bir alət olaraq mənəvi xüsusiyyətlərə təsir göstərmək iqtidarında deyil, lakin eyş-işrətə həvəs oyadır, bunun üçün də buna o

halda müraciət etmək lazımdır ki, tamaşa insana bir şey öyrətməkdən çox, onu saflaşdırsın **(katharsin).** Bunu da əlavə edək ki, fleytada çalmaq tərbiyə işində əngəl törədir, çünki onda danışmağa imkan olmur[15]. Buna görə də bizim əcdadlarımız tamamilə əsaslı surətdə həm gənclərə, həm də ata-anası kölə olmayan adamlara, ümumiyyətlə, fleytadan istifadə etməyi qadağan etmişlər, hərçənd ki, özləri ilk əvvəl bundan istifadə etmişdilər.

6. Rifahın artması sayəsində çoxlu asudə vaxt və məziyyətdən daha çox dərəcədə vəcdə gəlmək imkanı əldə edərək, onlar qismən də əvvəllər, xüsusən İran müharibələrində göstərdikləri qəhrəmanlıqlardan sonra qürurdan aşıb-daşan vaxtlar, hər bir fənni, lakin onları arayıb araşdırmadan öyrənməyə başladılar. Buna görə də fleytada çalmağı məktəb tərbiyəsi sahəsinə daxil etdilər. Lakedemonda da bir xoreq özünün təşkil etdiyi xor üçün fleytada çalmışdı, Afinada isə fleyta o qədər dəbdə olmuşdu ki, ata-anası kölə olmayan adamların az qala əksəriyyəti bunda çalmağı bacarırdı. Bu, Frasippin Ekfantid[16] üçün təşkil etdiyi xora ithaf elədiyi şəkildən də aydın görünür. 7. Amma, axırda, nəyin xeyirxahlığa yol göstərdiyi, nəyinsə buna yol göstərmədiyi haqqında daha yaxşı mühakimə yürütməyi öyrəndikdən sonra, əldə edilən təcrübə əsasında fleytadan istifadə edilməsinə son qoyuldu. Bir çox digər qədim alətlərin də aqibəti belə oldu, məsələn, pektidlər, barbitlər kimi və ümumiyyətlə, o alətlər ki, – yeddibucaqlılar, üçbucaqlılar, sambiklər[17], – bunları çaldıqda dinləyicilərin hissləri qıcıqlanır, həm də bütün o alətlər ki, bunlar əllə ifa etmək bacarığı tələb edir.

8. Fleyta haqqında keçmişdəkilərin uydurduğu əfsanə çox incədir. Nəql edirlər ki, Afina fleytanı icad etdikdən sonra onu bir kənara atmışdır. Buna yaxşı səbəb düşünülmüşdür, yəni ilahə guya ona görə qəzəblə belə hərəkət etmişdir ki, fleytada



çalan zaman sifət eybəcər formaya düşür. Əsil səbəb isə, əlbəttə, ondan ibarətdir ki, fleytada çalmağı öyrənməyin zehni inkişafa heç bir aidiyyatı yoxdur, biz isə həm biliyi, həm də incəsənəti Afinanın ayağına yazırıq.

VII. 1. Beləliklə, biz alətlər üzrə olduğu kimi, ifaçılıq üzrə də peşəkar təlimi istisna edirik. Peşəkar adı altında başa düşdüyümüz təlim bəhsləşmədə çıxış etmək üçün olan hazırlıqdır, axı əlavə olaraq ifaçı musiqi ilə öz məziyyətini mükəmməlləşdirməkdən ötrü deyil, dinləyicilərin zövqündən ötrü, bundan başqa qaba zövqdən ötrü məşğul olur; buna görə biz də hesab edirik ki, belə məşğuliyyətlər ata-anası kölə olmayan adamların yox, muzdla tutulmuş adamların işidir; bu ifaçılar peşəkara çevrilir, çünki onların nəzərdə tutduğu məqsəd yararsızdır. Tamaşaçıların qabalığı musiqinin özünün xarakterinin dəyişməsinə səbəb olur, belə ki, peşəkar ifaçıların özləri də tamaşaçıların zövqünə uyğunlaşıb, öz daxili keyfiyyətləri və bədən hərəkəti tərəfindən dəyişikliyə məruz qalır.

2. Musiqi ahənglərini və ritmlərini həm ümumiyyətlə, həm də tərbiyəyə tətbiq olunmuş halda müzakirə etmək qalıb – bütün ahənglərdən, bütün ritmlərdən istifadə etmək lazımdırmı, yoxsa bunlar arasında fərq qoyulmalıdır. Sonra, gənclərin tərbiyəsi ilə məşğul olanlar üçün həmin bu həddi müəyyənləşdirməliyikmi, yoxsa burada başqa bir, üçüncü hədd olmalıdır. Axı musiqi, biz gördüyümüz kimi, melopelərdən[18] və ritmlərdən ibarətdir və tərbiyə işində bu tərkib hissələrindən hər birinin hansı təsiri göstərməsi nəzərdən qaçırılmamalıdır; hansı müsiqi bu cəhətdən üstün olmağa layiqdir – omu, hansı ki, melodiyası yaxşıdır, yoxsa o birimi, hansı ki, ritmi yaxşıdır.

3. Musiqinin müasir bilicilərindən bəzilərinin və musiqinin təlim edilməsi işində təcrübəsi olan filosofların bizim qoyduğu-

muz suallara çox gözəl cavablar verdiyini zənn edərək, biz bu fənlə əsaslı surətdə tanış olmaq istəyənləri öz işlərinin ardınca yollayaq, özümüz isə indi onu ancaq ümumi nöqteyi-nəzərdən müzakirə edək və onun yalnız başlıca xüsusiyyətlərini göstərək. 4. Bəzi filosofların melodiyaları əxlaqi, həyati və ruh yüksəkliyi[19] ilə dolu hissələrə ayırmasını, həm də ayrı-ayrı ahənglərin xüsusiyyətlərinin bu melodiyaların hər bir növünə müvafiq surətdə müəyyən olunmasını qəbul etdiyimizə görə biz iddia edirik ki, musiqidən bir deyil, bir neçə məqsəd üçün yararlanmaq lazımdır: həm tərbiyə edilmə, həm də saflaşma üçün (biz nəyi saflaşma adlandırırıq – bunu indi izah etməyəcəyik, «Poetika haqqında» olan əsərdə isə bu xüsusda aydın danışacayıq)[20]; üçüncüsü, vaxt keçirməkdən ötrü, yəni gərgin fəaliyyətdən sonra sakitləşmək və istirahət etmək üçün. 5. Burdan aydındır ki, bütün ahənglərdən istifadə etmək olsa da onları eyni cür tətbiq etmək lazım deyil. Tərbiyə edilmədə o ahənglərə müraciət edilməlidir ki, bunlar hər şeydən çox əxlaqi melodiyalara uyğun gəlir, dinləyicilər üçünsə, haçan ki, musiqi əsərlərini digər şəxslər ifa edir, həm həyati, həm də ruh yüksəkliyi ilə dolu melodiyalardan istifadə etmək olar. Axı bəzi adamların qəlbinə güclü surətdə təsir edən hislərə, zatən hamı meyllidir – fərq yalnız dərəcədədir, misal üçün – şəfqət, qorxu, eyni zamanda da şövq. Bəzi adamlar ruh yüksəkliyi ilə dolu həyəcana da meyllidir, biz gördüyümüz kimi, dini nəğmələrin təsiri altında buna məruz qalanlar daxilən həyəcanlanır və bu nəğmələr elə bil ki, şəfa **(iatrea)** və saflaşma **(katharsis)** gətirir.

6. Bunu istər-istəməz şəfqət və qorxuya, həm də, ümumiyyətlə, hər cür hislərə meylli olanlar da duyur – bu cür həyəcan hər kəsə xasdır; bütün bu adamlar zövqlə əlaqədar olaraq saflaşır və yüngüllük tapır; eləcə də saflaşdırma xarakterində olan dini mahnılar insanlara zərərsiz sevinc gətirir. Buna görə



də bu cür ahəngləri və melodiyaları teatrda musiqi partiyaları ifa edən artistlərin istifadəsinə vermək lazımdır. 7. Tamaşaçı iki cür, biri – ata-anası kölə olmayan, həm də mədəni, digəri – sənətkarlar, günəmuzd işləyənlər və bu kimi adamlar olduğundan, bu axırıncıya istirahət vermək üçün bəhsləşmələr və tamaşalar təşkil etmək lazımdır. Onların hisləri öz təbii halından sapdığı kimi, musiqi ahənglərində də sapmalar var, melodiyalarda isə yüksək gərginlik və xasiyyətə zidd çalarlar müşahidə edilir. Axı hər kəs öz xasiyyətinə nə xasdırsa, ondan zövq alır; buna görə bəhsləşmənin iştirakçılarını da belə bir tamaşaçıya uyğunlaşdırıb, onlara bu cür musiqidən istifadə etməyə imkan vermək lazımdır.

8. Tərbiyə edilmədə isə, yuxarıda deyildiyi kimi, əxlaqi xarakterə malik olan melodiyalardan və bunlara müvafiq ahənglərdən istifadə edilməlidir. Belə ahəng, biz əvvəllər dediyimiz kimi, doriya ahəngidir; lakin eyni zamanda da digər ahənglərin bu və ya başqa birindən istifadə etmək olar, əgər fəlsəfə məşğələlərinə və müsiqi təliminə aidiyyatı varsa, buna icazə verilir. Sokrat «Dövlət» əsərində iddia edəndə ki, doriya ahəngi ilə yanaşı bir də ancaq frigiya ahəngini qoymaq olar, düz danışmır, xüsusən ona görə ki, musiqi alətlərindən fleytanı istisna edir. Axı frigiya ahəngi digər ahənglərlə bir sırada elə yer tutur ki, beləsi – musiqi alətləri arasında fleytaya məxsusdur: bu və o biri eyş-işrət xarakterli olub, coşqun xüsusiyyətə malikdir. 9. Poeziya bunu sübut edir: Bakhın[21] cuşa gəlməsini ifadə etmək üçün və buna bənzər ehtiraslardan ötrü alətlərin hamısından daha çox fleyta lazımdır, ahənglər arasında isə müvafiq ifadə üçün belə poeziya frigiya ahənginə müraciət edir. Mədh, məsələn, ümumun fikrincə, frigiya ahəngi sayılır, buna bir sübut kimi, bu məsələ ilə məşğul olan adamlar, yeri gəlmişkən, çoxlu misallarla bərabər aşağıdakını da göstərir: mədh və əsatirləri doriya ahəngi şəklinə salmağa təşəbbüs göstərən Filoksen[22]

bunu həyata keçirə bilmədi, lakin mahiyyətin özünü əldə rəhbər tutaraq, daha münasib ahəng kimi o, təzədən frigiya ahənginin üstünə qayıtdı. 10. Doriya ahənginə gəldikdə isə, hamı bununla razılaşır ki, ona daha çox əmin-amanlıq xasdır, həm də o, ən çox mərd xarakteri ilə seçilir. Üstəlik, madam ki, biz ifratların qarşısında üstünlüyü ortaya veririk, bizim fikrimizcə də, bu ortaya cəhd edilməlidir, doriya ahəngi isə o birilərin arasında, məhz bu xüsusiyyəti ilə fərqlənir, onda aydındır ki, gəncləri daha çox doriya melodiyaları ilə tərbiyələndirmək lazımdır.

İki məqsəd var: mümkün olan və ədəbli, hər kəs də başlıca olaraq özü üçün mümkün olan, həm də özünün ədəb qaydalarına uyğun olan işdən yapışmalıdır. Lakin bu da insanın yaşı ilə müəyyənləşdirilir. Belə ki, məsələn, yaşadığı uzun illər boyu yorğun düşmüş adamlara gərgin ahənglərdə oxumaq asan deyil; belə adamlara təbiətin özü süst ahənglərdə yazılmış mahnılara müraciət etməyin zəruriliyini təlqin edir.

11. Bax, buna görə bəzi musiqi biliciləri Sokratı həm də o səbəbdən möhkəm sərkiləyir ki, o, süst ahəngləri məstedici sayıb, bunları tərbiyə edilmədən kənarlaşdırırdı, o mənada yox ki, onlar insanı məst etmək iqtidarındadır (məstlik insanı daha çox vaksayağı cuşa gətirir), ona görə ki, onlar gücdən düşmüşdür. Sonrakı sinlər üçün yəni, daha yaşlılar üçün, həm belə ahənglərə, həm də bunlara müvafiq olan melodiyalara imkan vermək lazımdır. Lakin ahənglər arasında, əgər, uşaq yaşlarına münasib olanı varsa, məhz ona görə ki, o, tərbiyə edilmədən əlavə ədəbin artmasına səbəb olur – bu ehtiyacı isə görünür ki, hər şeydən çox lidiya ahəngi təmin edir, – onda aydındır ki, tərbiyə edilmə işində üç qaydaya əsaslanmaq lazımdır: orta bir xətt götürmək, mümkün olan işdən yapışmaq, ədəbli yaşamaq[23].



# BÖYÜK ETİKA

## BİRİNCİ KİTAB (A)

1. Etika **(ēthikōn)** məsələləri barəsində danışmaq qərarına gələrək biz hər şeydən öncə müəyyənləşdirməliyik ki, əxlaq nəyin bir hissəsidir. Qısaca demiş olsaq əxlaq, görünür ki – siyasətin tərkib hissəsidir. Doğrudan da, müəyyən əxlaqi keyfiyyətlərə malik olmayan adamın, yəni ləyaqətsiz adamın ictimai həyatda fəaliyyət göstərməsi qətiyyən mümkün deyil. Ləyaqətli adam olmaq – məziyyətlərə malik olmaq deməkdir[1]. Və hər kim ictimai və siyasi həyatda fəaliyyət göstərməyi düşünürsə, o xasiyyətcə yaxşı adam olmalıdır. Beləliklə, görünür ki, etika siyasətə onun bir hissəsi və başlanğıcı **(arch)** kimi daxildir[2]; ümumiyyətlə bu, fənn haqq naminə etika deyil, siyasət adlanmalıdır.

Belə ki, hər şeydən öncə, göründüyü kimi, məziyyət haqqında danışmaq lazımdır, bu nədir və nədən meydana gəlir **(ek tinōn ginetai)**, ola bilsin ki, onun necə və nədən ortaya çıxmasını başa düşmədən məziyyət haqqında biliyə malik olmaq əbəsdir. Doğrudan da, bizə onu müzakirə etmək sadəcə olaraq onun nə olduğunu bilməkdən ötrü deyil, həm də onu başa düşməkdən ötrü lazımdır ki, buna hansı yolla yetmək olar, əgər biz yalnız onu başa düşməklə kifayətlənməyib, həm də özümüz yaxşı olmaq istəyiriksə, bunu da biz onun nədən və necə meydana gəldiyini bilmədiyimiz halda edə bilmərik. Əlqərəz, məziyyətin nə olduğunu bilmək lazımdır, ona görə ki, bütün elmlərdə olduğu kimi, onun nə olduğunu bilmədən onun nədən və necə meydana gəldiyini başa düşmək çətindir. Lakin bu xüsusda digərlərinin nə dediyini də nəzərdən qaçırmaq olmaz.

Məziyyət haqqında danışmağa birinci olaraq Pifaqor başlasa da, düzgün mühakimə yürütməmişdir. O, məziyyətləri rəqəmlərlə yanaşı qoymuş, bununla da məziyyəti özlüyündə araşdırmamışdır[3]. Axı ədalət **(dikaiosynē)**, məsələn, – heç də öz-özünə artırılmış rəqəmlər deyil.

Sonra Sokrat gəldi və məziyyət haqqında daha yaxşı və dolğun danışdı, lakin onun fikri də yanlış oldu. Yəni o, məziyyəti biliklə bir tutdu, lakin bu mümkün deyil. İş bundadır ki, bütün biliklər mühakimə **(meta logoy)** ilə əlaqədardır, mühakimə isə qəlbin düşünən **(dianōetikōi)** hissəsində meydana gəlir, belə ki, əgər Sokrata inansaq, bütün məziyyətlər qəlbin şüurlu **(logistikōi)** hissəsində əmələ gəlir. Belə çıxır ki, məziyyəti elmlərlə eyniləşdirərək Sokrat qəlbin şüurdankənar **(alogon)** hissəsini, bununla bərabər isə ehtirası **(pathos)** və xasiyyəti ləğv edir. Onun məziyyətə bu cür yanaşması düz deyil. Ondan sonra Platon qəlbi düzgün olaraq şüurlu və şüurdankənar hissələrə ayırmışdır, hər hissəyə də onlara uyğun məziyyətləri bölüb vermişdir. Buna qədər onda hər şey yaxşı idi, lakin bundan sonrakılar – yenə də düz olmadı. Platon məziyyəti özünün ən zəruri şey haqqında təlimi ilə qarışdırıb, əlaqələndirdi və düzgün hərəkət etmədi: bunun özlüyündə məziyyətə aidiyyatı yoxdur. Varlıq və həqiqət haqqında söhbət apararkən onun məziyyət haqqında danışmağa əsası yox idi, çünki onların bununla heç bir ümumi əlaqəsi yoxdur[4].

[Filosoflar məsələyə] bax bu dərəcədə və bu cür toxunublar. İndi onlardan sonra baxaq görək bizim özümüz bu şeylər barəsində nə deyə bilərik.

Birinci olaraq ona diqqət yetirmək lazımdır ki, hər bir elmdə **(epistēmēs)** və qabiliyyətdə **(dinameōs)** bir məqsəd var və bu məqsəd həmişə nə isə bir yaxşı şeydir: heç bir elm, heç bir qabiliyyət pis işdən ötrü deyil. Və əgər yaxşı şey – bütün qabiliyyətlərin məqsədidirsə, onda aydındır ki, ən böyük qabiliyyətin məqsədi ən zəruri şeydir. Ən böyük qabiliyyət isə, şübhəsiz siyasi bacarıqdır, belə ki, məhz siyasətin məqsədi ən zəruri şey olacaq. Deməli, bizə yaxşı şey haqqında danışmaq lazım olacaq, həm də, ümumiyyətlə **(haplōs)**, yaxşı şey haqqında deyil, bizə aid olan yaxşı şey haqqında, – axı biz burda allahlara aid olan yaxşı şey haqqında danışmamalıyıq, ona görə ki, bu başqa təlimdir və onu başqa cür araşdırmaq lazımdır. Beləliklə, bizim işimiz ictimai, siyasi həyatda olan yaxşı şeylər haqqında danışmaqdır.

Üstəlik, bunu da hissələrə ayırmaq lazımdır. Yaxşı şey hansı mənada? O, axı birmənalı deyil. Hər varlıq üçün daha yaxşı nədirsə, ya onu yaxşı şey adlandırırlar, yəni öz xüsusiyyətinə görə seçilməyə layiq olan bir şeyi, ya da o şeyi ki, o özünə aid olan şeyi faydalı edir, yəni firavanlıq ideyasını. Firavanlıq ideyası haqqında danışmaq lazımdırmı, yoxsa[5] yaxşı şey daha çox bütün yaxşı şeylərə xas olan ümumidir. Ancaq [yaxşı şey belə bir ümumi əlamətlə] firavanlıq ideyası ilə eynilik təşkil etmir. Firavanlıq ideyası – nə isə ayrılmış **(khōriston)** və özlüyündə mövcud olan bir şeydir, ümumidə isə bütün şeylər var və əlbəttə, ayrılmışla eynilik təşkil etmir, ona görə ki, ayrılmış və özlüyündə mövcud olan [ayrı-ayrı şeylərin] hamısında ola bilməz. Beləliklə, biz bütün ayrı-ayrı şeylərə xas olan yaxşı şeydənmi danışmalıyıq, yoxsa ondan yox? [Ondan yox]. Niyə? Ona görə ki, bu ümumi müəyyənləşdirmə **(horismos)** səviyyəsində və induksiya[6] **(epadode)** nəticəsində mövcuddur.

Müəyyənləşdirmənin məqsədi odur ki, hər şeyin mahiyyətini və [şeyin] yaxşı, pis, yaxud daha necə olduğunu göstərsin; və müəyyənləşdirmə hər hansı bir yaxşı şeyi özlüyündə seçilməyə layiq olan şey kimi, ümumiyyətlə, yaxşı şey adlandırır. Bütün şeylərə aid olan ümumi əlamətlər müəyyənləşdirmə kimi-

dir. Lakin müəyyənləşdirmə göstərir: *bu* və *o yaxşı* şeydir. Bununla belə heç bir elm və heç bir qabiliyyət özünü o xüsusda göstərmir ki, onların məqsədi yaxşı şeydir, buna başqa bir qabiliyyət baxır. Məsələn, nə həkim, nə də memar demir ki, sağlamlıq və ya ev – yaxşı şeydir, ancaq biri deyir ki, – filan şeylər sağlamlığı təşkil edir, digəri deyir ki, – filan şeylər evi meydana gətirir. Müvafiq olaraq siyasət də yəqin ki, ümumiyyətlə, bu yaxşı şey haqqında mühakimə yürütməməlidir, çünki o da elə qalanları kimi bir elmdir. Heç bir qabiliyyət, heç bir elm deməz ki, onların məqsədi – ümumiyyətlə, yaxşı şeydir. Deməli, müəyyənləşdirmə yolu ilə mövcud olan, ümumiyyətlə, yaxşı şey haqqında mühakimə yürütmək siyasətin işi deyil.

Lakin induksiya yolu ilə əldə edilən ümumi yaxşı şey haqqında da danışmaq onun işi deyil. Niyə? Çünki haçan ki, biz hansısa ayrıca bir yaxşı şeyi göstərmək istəyiriksə, onu ya müəyyənləşdirmənin köməkliyi ilə göstəririk, hansı ki, ümumiyyətlə, yaxşı şeydən ötrüdür, həm də ondan ötrüdür ki, biz yaxşı şeyə eyni bir anlayışın uyğun gəldiyini elan edirik, yaxud da biz induksiyaya əl atırıq. Məsələn, sübut etmək istəyəndə ki, alicənablıq **(megalopsychia)** – yaxşı şeydir, cəsarət və ümumiyyətlə, məziyyətlər – yaxşı şeylərdir, alicənablıq isə – məziyyətdir, buna görə bu da yaxşı şeydir. Deməli, siyasət induksiya yolu ilə ortaya çıxmış ümumi yaxşı şeyi ifadə etməməlidir, ona görə ki, müəyyənləşdirmənin göstərdiyi kimi, ümumi yaxşı şeydə olan əngəllər, burda da olacaq. Axı burda da deyiləcək: bu, bax yaxşı şeyin özüdür ki, var.

Beləliklə, aydındır ki, ən zəruri şey haqqında danışmaq lazımdır, yəni bizim üçün olan ən böyük haqqında. Ümumiyyətlə isə, yaxşı şeylərin hamısına bütövlükdə baxan elm və ya qabiliyyətin olmadığını görmək asandır. Niyə? Ona görə ki, hər kateqoriyanın özünə aid olan yaxşı var, bu mahiyyət, keyfiyyət, kəmiyyət, münasibət, zaman, məkan, ümumiyyətlə, hər hansı kateqoriya olsa belə. Üstəlik, məhz hansı vaxtın müalicə üçün yaxşı olduğunu həkim, hansının gəminin idarə edilməsi üçün yaxşı olduğunu – sükançı bilir, eləcə də hər kəs öz elmində: haçan cərrahiyyə əməliyyatı aparmaq lazım olduğunu həkim bilir, sükançı isə bilir ki, gəminin üzməsinə haçan icazə verilməlidir. Beləliklə, hər hansı sənətdə hansı vaxtın iş üçün yaxşı olduğunu sənətkar bilir: həkim hansı vaxtın gəminin idarə edilməsi üçün əlverişli olduğunu, sükançı isə – hansının müalicə etmək üçün yaxşı olduğunu bilə bilməz. Deməli, bu mənada da zaman [kateqoriyasının] hamıdan ötrü ümumi olduğuna istinad edib, ümumi yaxşı şey haqqında danışmaq olmaz. Bunun kimi münasibət kateqoriyasındakı yaxşı şeydə də, digər kateqoriyalardakı yaxşı şeydə də bütün elmlər üçün ümumi bir şey var, amma heç bir qabiliyyətə, heç bir elmə onu göstərmək olmaz ki, (həm də, məhz haçan) bütün elmlər üçün bir yaxşı şey var. Deməli, siyasətə də yaxşı şey haqqında ümumi kimi danışmaq olmaz. Beləliklə o, ona xas olan yaxşı şey haqqında danışmalıdır, həm də ən zəruri şey haqqında və bizə aid olan ən zəruri şeydən.

Ancaq bir şeyi izah etmək istədikdə aydın olmayan misallardan istifadə etmək lazım deyil, lakin aydın olmayan bəlli olanla izah edilməlidir, həm də ağlabatan – hiss edilənlə: bu tamamilə aydındır. Məhz buna görə də yaxşı şey haqqında söhbətə başlayarkən onun ideyası haqqında danışmaq lazım deyil. Amma adamlar düşünür ki, əgər söhbət yaxşı şey haqqında gedirsə, ideya barəsində danışmaq lazımdır: ən zəruri şeyi araşdırmaq gərəkdir, bu isə özlyüyndə mövcud olan şeyə məxsusdur, buna görə onlar hesab edir ki, ideya – yəqin ən zəruri şeyin özüdür ki, var[7]. Mühakimə ola bilsin ki, doğrudur, ancaq siyasət, yaxud qabiliyyət, hansı ki, bizim söhbətimiz indi bunlar haqqındadır, bunları deyil, bizə aid olan yaxşı şeyləri müzakirə

edir. Əgər heç bir elm, heç bir qabiliyyət göstərmirsə ki, onların məqsədi – yaxşılıqdır onda siyasət də bunu göstərmir. Müvafiq olaraq o da firavanlıq ideyası haqqında mühakimə yürütmür.

Kimsə, doğrudur, etiraz edər ki, firavanlıq ideyasını əsas **(archē)** kimi qəbul etmək olar və ondan hər şeyə ayrılıqda xas olan yaxşı şeyin müzakirəsinə keçmək olar. Lakin bu fikir də düz deyil, çünki əsası [şeyə] uyğun qəbul etmək lazımdır. Deyək ki, üçbucağın bucaqlarının cəminin iki düz bucağa bərabər olduğunu sübut etmək istədikdə əsas [fikir] kimi «ruhun ölməzliyini» götürmək mənasızdır. Belə əsas [şeyə] yaddır, halbuki əsas şeyə uyğun gəlməli və onunla əlaqədar olmalıdır. Üçbucağın bucaqları cəminin iki düz bucağa bərabər olduğu ruhun ölməzliyinə əsaslanmadan da sübut olunub. Eləcə də müxtəlif səpgidə olan rifahı götürdükdə, onları firavanlıq ideyasından asılı olmayaraq müzakirə etmək olar, çünki məhz bu rifahın daxili əsası **(archē)** o deyil.

Sokrat da yanlış olaraq məziyyətləri elmlərlə eyniləşdirmişdir. Axı heç nə, onun fikrincə, lazımsız olmamalıdır. Bununla belə onun məziyyətləri elmlərlə eyniləşdirməsindən belə çıxırdı ki, məziyyətlər lazımsızdır. Niyə? Çünki elmdə olan bilik, hansı ki, elm bundan təşkil olunub, ona yiyələnmə ilə bir-birinə uyğun gəlir. Kim həkimlik elmini bilirsə, o da həkimdir; eləcə də digər elmlərlə. Lakin məziyyətlərlə – ayrı cürdür: əgər ədalətin nədən ibarət olduğunu kimsə bilirsə, o bundan dərhal ədalətli olmayır; eləcə də digər məziyyətlərlə. Belə çıxır ki, elm olmadığından, məziyyətlər bir elm kimi lazımsızdır.

2. Bu şeyləri araşdırarkən yaxşı şey haqqında neçə mənada danışıldığını müəyyənləşdirməyə cəhd edək. Yaxşı şeylərdən bəziləri qiymətləndirilən **(limia)**, digəri – təriflənən **(epanieta)** şeylərə, üçüncüləri – imkana **(dynameis)** aiddir.



Qiymətləndirilən şeyi mən ilahi, ən yaxşı şey adlandırıram, məsələn, əzəli və əsas olan qəlbi, ağılı və bu kimi şeyləri. Həm də nəzərə almaq lazımdır ki, qiymətləndirilən – hörmətə layiq olandır və hamıda, məhz bu səpgidə olan şeylər hörmətdədir. Madam ki, insan məziyyətə görə ləyaqətli **(spoydaios)** olur, onda məziyyət də qiymətli şeydir; o, bu zaman məziyyətə xas olan gözəlliyə **(eis to tēs aretēs schēma hekei)** yetir. Təriflənən yaxşı şey – bu, həmin məziyyətlərdir, o dərəcədə ki, onlara müvafiq fəaliyyətdə bulunduqda tərifə səbəb olur. Firavanlıq imkanı – bu səlahiyyət, var-dövlət, güc və gözəllikdir. Yaxşı adam bunlardan xeyirxahlıq üçün istifadə edə bilər, yaramaz – pis işlər üçün, buna görə də belə dəyərli şeyləri imkan adlandırırlar. Onlar doğrudan da dəyərli şeylərdir, cünki onlardan hər biri yaramaz adamın deyil, ləyaqətli adamın ondan necə faydalanmasına şəhadət verir. Belə dəyərli şeylərin meydana çıxmasına bəzən də təsadüf səbəb olur: təsadüf üzündən həm var-dövlətə, həm hakimiyyətə və ümumiyyətlə, imkana aid olan bütün şeylərə yetmək olur. Yaxşı şeyin dördüncü növü də var: bir şeyi mühafizə edən və meydana çıxaran digər yaxşı şey; məsələn, gimnastika sağlamlığı mühafizə edir və bu kimi şeylər.

Yaxşı şeylərin digər növləri də var. Deyək ki, yaxşı şeylərdən bəziləri həmişə və hər vasitə ilə seçilməyə layiqdir, digərləri – həmişə yox: məsələn, ədalət və digər məziyyətlər həmişə və hər vasitə ilə seçilməyə layiqdir, güc, var-dövlət, səlahiyyət isə – həmişə və hər vasitə ilə yox. Və yenə başqa [bölünmə üsulu]: yaxşı şey məqsəd ola bilər də, bilməz də; deyək ki. sağlamlıq – məqsəddir, lakin sağlamlıq naminə nə edilirsə – məqsəd deyil. Bunlardan həmişə ən zəruri şey – məqsəddir; məsələn, sağlamlıq şəfaverici vasitədən yüksəkdə durur, ümumiyyətlə isə, həmişə o şey yüksəkdə durur ki, qalan şeylərin mövcudluğu ona görədir. Öz növbəsində mükəmməl

yarımçıqdan daha yaxşıdır. Mükəmməl odur ki, o olduqda artıq bizim heç nədən ehtiyacımız olmur, yarımçıq – odur ki, o olduqda ehtiyac içində bulunmağımız davam edir. Məsələn, biz ədalətli olsaq da hələ çox şeydən ehtiyacımız olur, xoşbəxt olduqda isə, daha heç nədən ehtiyacımız olmur. Mükəmməl məqsəd isə bizim axtardığımız ən zəruri şeydir. Beləliklə, mükəmməl məqsəd yaxşı şeydir və bütün digər yaxşı şeylərin məqsədidir.

Bundan sonra ən zəruri şeyi, onu digər yaxşı şeylərə aid etməklə, necə araşdırmaq lazımdır? Lakin bu mənasızdır. Ən zəruri şey mükəmməl məqsəddir, mükəmməl məqsəd isə özlüyündə görünür ki, xoşbəxtlikdən başqa bir şey deyil. Lakin xoşbəxtlik yaxşı şeyin bir çox növlərindən ibarətdir. Ən zəruri şeyi müzakirə etdikdə, sən onu da [yaxşı şeyin növlərinə] aid edəcəksən, madam ki, o – ən böyükdür, onda öz-özündən də yüksəkdə duracaq. Sağlamlığı bəxş edən vasitəni, bunun yanında da sağlamlığın özünü götür və bax, burda ən yüksəkdə duran nədir: ən yüksəkdəki sağlamlıqdır, əgər ki, o hər şeydən yüksəkdədirsə, onda o, özü-özündən də yüksəkdədir! Mənasız şey alınır. Ən zəruri şeyə, əlbəttə, bu cür baxmaq olmaz.

Bəs onda necə? Bəlkə ayrıca mövcud olan şey kimi? Yoxsa bu da cəfəngiyyatdır? Axı xoşbəxtlik yaxşı şeylərdən ibarət bir şeydir və onlardan daha yaxşı olan ayrı-ayrı yaxşı şeylərdən ibarət şeyi müzakirə etmək mənasızdır. Xoşbəxtlik onlardan ayrılmış halda mövcud olan şey deyil, lakin onlarla uyğunlaşır.

Bəlkə, ən zəruri şeyi araşdıran zaman bir müqayisəyə əl atmaq düzgün olardı? Məsələn, ayrı-ayrı yaxşı şeylərdən ibarət xoşbəxtliyi, xoşbəxtliyin tərkibinə daxil olmayan yaxşı şeylə müqayisə etdikdə biz ən zəruri şeyi düzgün araşdıra bilərikmi? Lakin bizim indi axtardığımız ən zəruri şey adi bir şeylə eynilik təşkil etmir. Əgər ağıllılığı **(phronēsis)** bütün şeylərlə ayrı-ayrılıqda müqayisə etsəydik, bəlkə də, demək olardı ki, o – ən zəruri



şeydir. Amma ən zəruri şeyi axtarıb tapmaq bu cür çətin ki, baş tutsun. Axı burda biz mükəmməl olan yaxşı şeyi arayırıq. Ağıllılıq isə özlüyündə hələ mükəmməl deyil. Deməli, o bizim araşdırdığımız həmin o və həmin o mənada olan ən zəruri şey deyil.

3. Bununla yanaşı yaxşı şeylərin başqa bir bölgüsü də var. Yaxşı şey qəlbdə ola bilər – məziyyətlər belələrindəndir, yaxud bədəndə – sağlamlıq, gözəllik belələrindəndir, və ya bundan və digərindən kənarda – var-dövlət, səlahiyyət, hörmət və bu kimi şeylər belələrindəndir. Ən zəruri şey – qəlbdə olan yaxşı şeydir. Qəlbdə olan yaxşı şeyin üç tərkib hissəsi var: ağıllılıq, məziyyət və həzz.

Biz burda bir şeyə yaxınlaşırıq, hamımız bunu da qəbul edirik ki, görünür, həm bütün yaxşı şeylərin, həm də ən zəruri şeyin məqsədi var; mən xoşbəxtliyi nəzərdə tuturam. Biz deyirik, xoşbəxtlik-firavanlığın **(ey prattein)** və yaxşı həyatın **(ey dzēn)** özüdür ki, var. Belə ki, hər məqsəd ancaq iki mənalıdır: bəzi şeylərdə məqsəd fəaliyyət və faydalanmadır **(chrēsis)**, necə ki, görünmə – görmənin məqsədidir, həm də nəzərə almaq lazımdır ki, faydalanma adicə yiyələnmədən əhəmiyyətlidir, axı məqsəd – məhz faydalanmadadır, ona görə ki, gözlərini yumulu saxlayıb, baxmamağı qət edən adam gözə malik olmaq istəməzdi. Bunu eşitmə və bu kimi şeylər haqqında da demək olar. Beləliklə, faydalanma və yiyələnmə olan zaman, faydalanma yiyələnmədən həmişə daha yaxşıdır və üstün tutulmağa layiqdir: faydalanma və fəaliyyət – məqsəddir, yiyələnmə isə faydalanmaya görə mövcuddur.

İndi, əgər biz bütün elmlərə nəzər yetirsək, onda görərik ki, [özlüyündə] ev tikən xüsusi bir elm, həm də yaxşı ev tikən [başqa] bir elm yoxdur, ancaq bir elm var – memarlıq. Həm də nəzərə almaq lazımdır ki, memar hansı işi yaxşı görürsə, onun

məziyyəti **(aretē)** bu işi görmək iqtidarındadır. Yerdə qalanlarla da iş belədir.

4. Bundan sonra ona diqqət yetirək ki, biz başqa şeylə deyil, ancaq qəlblə yaşayırıq. Lakin məziyyət də qəlbdədir: eyni şey haqqında da biz deyirik ki, bu qəlbin fəailiyyətidir, bu onun məziyyətlərinin fəaliyyətidir. Hər məziyyət, biz dediyimiz kimi, özünü nədə göstərirsə, onu da yaxşı edir. Qəlb, əlbəttə, bir-çox işlərdə də bulunur, amma hər şeydən öncə o elə şeydir ki, biz onun sayəsində yaşayırıq; deməli, qəlbin məziyyətləri sayəsində biz yaxşı yaşaya bilərik. Başqa şeyləri deyil, yaxşı yaşayışı və firavanlığı biz xoşbəxt həyat adlandırırıq. Beləliklə, xoşbəxt həyat və səadət yaxşı yaşamaqdan ibarətdir, yaxşı yaşamaq isə – deməli, xeyirxahlıq edə-edə yaşamaqdır. Məqsəd, xoşbəxtlik və ən zəruri şey bundadır. Həm də xoşbəxtlik hansısa bir faydalanmadan ibarət olmalıdır, yəni fəaliyyətdən; axı biz dediyimiz kimi, həm yiyələnmə, həm də faydalanma olduqda, məqsəd məhz faydalanma olur, yəni fəaliyyət. Məziyyətə qəlb malikdir, lakin axırıncı üçün həmçinin fəaliyyət də, xeyirxahlığa uyğunlaşmaq da mümkündür və deməli, onun məqsədi – bu fəaliyyətdə və faydalanmadadır, xoşbəxtlik isə ondadır ki, xeyirxahlıqla əlbir olub yaşayasan. Beləliklə, bir halda ki, ən zəruri şey – xoşbəxtlikdir, bu isə məqsəddir, mükəmməl məqsəd isə – fəaliyyətdədir, onda xeyirxahlıq edə-edə yaşamaqla, biz xoşbəxtliyə qovuşa və ən zəruri şeyə malik ola bilərik.

Bunu da nəzərdən qaçırmaq olmaz, madam ki, xoşbəxtlik mükəmməl olan yaxşı şeydir və mükəmməl məqsəddir, o, nöqsansız uşağa deyil, kamil yaşa çatmış yekə kişiyə nəsib olacaq. Həm də kiçik möhlət ərzində deyil, tam möhlətdə. Tam möhlət isə – insan ömrünün müddətidir. Doğru deyirlər ki, insanı ömrünün axırında xoşbəxt hesab etmək lazımdır – o mənada ki, tam



xoşbəxtlik üçün həm ömrün tamamlanmasına, həm də kamil insana hacət var. Xoşbəxtlik nədir – fəaliyyət, bunu aşağıda göstərilənlərdən görmək olar: biz insanı yuxuda olan zaman xoşbəxt adlandırmaqla razılaşmırıq – deyək ki, kimsə bütün ömrünü yuxuda keçirir – məhz ona görə ki, bu halda yaşayır, lakin xeyirxahlığa görə yaşamır, yəni fəaliyyət göstərmir.

Daha sonra deyiləcək şeylərin, ilk baxışdan şərh edilənlərlə bağlılığı yoxdur, lakin buna tamamilə yabançı da deyil. Görünür, qəlbin elə bir hissəsi var ki, biz bunun köməkliyi ilə qidalanırıq və bunu qidalanan adlandırırıq. Daşlar, biz görürük, qidalana bilmir, belə ki, qidalanma qabiliyyəti açıq-aydın canlı məxluqlara xasdır, əgər bu canlı məxluqların xüsusiyyətidirsə, onda bunun səbəbi – qəlbdir. Bununla bərabər isə qidalanma qabiliyyəti qəlbin nə şüurlu, nə qəzəbli, nə də ehtiraslı hissəsində ola bilməz, bu başqa hissədir, hansı ki, biz onu doydurucu **(threptikon)** adlandırırıq. Belədə soruşa bilərlər: qəlbin bu hissəsinə də məziyyət xasdırmı? Əgər xasdırsa, onda aydındır ki, qəlb onun vasitəsilə də fəaliyyət göstərməlidir; axı məziyyətin başa çatdırdığı fəaliyyət – xoşbəxtlikdir. Qəlbin bu hissəsində məziyyət varmı, yoxsa yox – ayrıca məsələdir. Mətləb ondadır ki, əgər o mövcuddursa, ona fəaliyyət xas deyil. Harda ki, təşəbbüs yoxdur, orada axı fəaliyyət də olmayacaq, bu hissədə isə görünür ki, təşəbbüs yoxdur, o, oda bənzəyir: oda nə atsan, o hər şeyi tələf edir, ancaq ki, atmasan, onda onun özü öz yemini qamarlamağa həvəs göstərmir. Qəlbin bu hissəsi də özünü eynən belə aparır: ona yemək verirsənsə – o, qidalanır, amma ki, verməsən, onda qidalanmağa həvəsi olmayacaq. Buna görə onun, təşəbbüsdən məhrum olduğu üçün, fəaliyyəti də yoxdur. Belə çıxır ki, qəlbin bu hissəsi xoşbəxtliyə qətiyyən səbəb olmur.

Əgər məziyyətin fəaliyyəti xoşbəxtlikdirsə, indi onun nə olduğu haqqında danışmaq lazımdır. Ümumi mənada məziyyət –

yaxşı haldır **(bexis).** Amma bu cür ümumi sözlər ehtimal ki, kifayət deyil, məziyyət üzərində daha məntiqli müəyyənləşdirmə aparmaq lazımdır.

5. Hər şeydən öncə onun mənbəyi olan qəlb haqqında danışmaq lazımdır – qəlbin nə olması haqqında yox (bu başqa bir tədqiqatdır), ümumi şəkildə onun tərkib hissələri haqqında. Biz iddia edirik ki, qəlb iki hissəyə bölünür – şüurlu **(to loqonechon)** və şüurdankənar **(to alogon)**. Şüurlu hissədə ağıllılıq **(pronēsis)**, fərasət **(agkhinoia)**, müdriklik, öyrənmə qabiliyyəti, yaddaş və bu kimi şeylər var; şüurdankənar hissədə – o şey ki, bu məziyyət adlanır: tədbirlilik **(sōphrosunē)**, ədalət **(dikaiosynē)**, cəsarət və xasiyyətin **(ēthos)** təqdir olunan digər xüsusiyyətləri. Doğrudan da, bizi onlara görə bəyənirlər, halbuki qəlbin şüurlu hissəsinə aid olan xüsusiyyətlərə görə heç kim heç kimə təşəkkür etmir: adamı heç vaxt ağılı, şüurluluğu, yaxud digər bu kimi xüsusiyyətlərinə görə bəyəndiklərini bildirmirlər. Lakin qəlbin şüurdankənar hissəsini, əlbəttə, o yalnız qəlbin şüurlu hissəsi ilə uyğunlaşan və ona xidmət edən zaman təqdir edirlər.

Əxlaqi məziyyət üçün əksik də, artıq da zərərlidir. Əksik kimi, artığın da zərərli olmasını hissiyyata qabil olan şeylərin timsalında sübut etmək asandır (söhbət bəlli olmayan şeylərdən getdikdə, bəlli olan dəlillərdən istifadə etmək lazımdır). Doğrudan da, biz deyilənlərə gimnastika təlimlərinin timsalında dərhal əmin oluruq: bunlar həddən artıq çox olduqda qüvvə tükənir, həddən artıq az olduqda da – belə olur. Yemək və içməklə də belədir: bunların miqdarı həddən çox olduqda sağlamlıq pozulur, az olduqda da – həmçinin, haçan ki, hər şey lazımi dərəcədədir, qüvvə və sağlamlıq mühafizə edilir. Tədbirlilik, cəsarət və digər məziyyətlərlə də bu kimi şeylər baş verir: insanı həddən artıq cəsarətli etsən, belə ki, o, allahlardan qorxmamağa başlayacaq – o, artıq cəsur deyil, sərsəmdir; ancaq ki, hər şeydən çəkinirsə, onda qorxaqdır. Buna görə hər şeydən qorxan adam da, heç nədən qorxmayan adam da cəsur deyil. Məziyyət eyni bir şeydən həm ziyan çəkir, həm də artır, həddən artıq qorxu da, hər şeydən qorxmaq da zərərlidir, heç nədən qorxmamaq da həmçinin. Cəsarət – bu qorxu qarşısında olan cəsarətdir, belə ki, qorxu nə az, nə çox olduqda cəsarət artır; eyni şeylər cəsarəti həm artırır, həm də məhv edir: həmin o qorxunun təsiri altında adamlar həm cəsur olur, həm də qorxaq. Bunu digər məziyyətlər haqqında da demək olar.

6. Məziyyət yalnız bununla deyil, həm də kədər və həzlə müəyyənləşir: həzdən ötrü biz axmaq hərəkətlər edirik, kədər yaxşılardan çəkinir. Ümumiyyətlə isə, kədər və həzzi duymadan nə məziyyəti, nə də qüsuru qazanmaq olmaz. Beləliklə, kədər və həzzin məziyyətə aidiyyatı var.

Əgər həqiqəti hərfə əsasən araşdırmaq lazımdırsa, əxlaqi məziyyət öz adını bax gör haradan götürmüşdür: **ēthos** sözü xasiyyətdir, adət də **ethos** sözündən əmələ gəlibdir, belə ki, əxlaqi məziyyət vərdiş sözüylə həmahəng səslənir. Artıq burdan aydındır ki, qəlbin şüurdankənar hissəsinin məziyyətlərindən heç biri bizdə anadangəlmə deyil, anadangəlmə nə varsa, o daha vərdişin təsiri ilə dəyişmir. Deyək ki, daş və ümumiyyətlə, yaranışından ağır olan şeylər yerə düşür: yuxarıda uçmağı öyrətməklə, onları nə qədər tez-tez yuxarı atsalar da, onlar yenə də heç vaxt yuxarıda uça bilməyib, həmişə yerə düşür. Bu kimi digər hallarda da işlər belədir.

7. Məziyyətin nə olduğunu müəyyənləşdirmək istəyilə biz indi öyrənməliyik ki, qəlbdə, məhz nə olur. Onda isə hislərin artıb-əksilməsi **(pathē)**, qabiliyyət **(gynameis)** və vəziyyət

**(bexeis)** olur. Buna görə məziyyət açıq-aydın bu üç şeydən biri olacaq. Hislərin artıb-əksilməsi – qəzəb, qorxu, nifrət, hissiyyat, paxıllıq, mərhəmət və bu kimi şeylərdir ki, buna da, adətən, məyusluq və həzz səbəb olur. Qabiliyyət – odur ki, buna görə bizi hislərin artıb-əksilməsini duymağa iqtidarlı olan adlandırırlar, yəni bunun sayəsində biz qəzəblənirik, məyus oluruq, mərhəmət göstəririk. Vəziyyət – odur ki, buna müvafiq surətdə bizim hislərin artıb-əksilməsinə münasibətimiz yaxşı və ya pis olur. Qəzəbə qarşı münasibəti götürək: haçan ki, biz olduqca qəzəbliyik, qəzəb cəhətdən biz pis vəziyyətdə oluruq, ancaq nəyəsə qəzəblənmək lazım olduqda, qətiyyən qəzəblənmiriksə, onda da bizim vəziyyətimiz qəzəbə aid olan şeylərdə pisdir. Burada orta mövqe tutmaq – çox qızışmamaq və ölgün olmamaq deməkdir; biz ona bu cür münasibət göstərdikdə, yaxşı vəziyyətdə oluruq, bu kimi digər şeylər haqqında da bunu demək olar. Doğrudan da, nə az – nə də çox olmayan qəzəb və müvazinət **(to prātion)** qəzəb baxımından qəzəblə ölgünlüyün arasındakı ortadır; lovğalıqla riyakarlıq da **(eironeia)** belə bir qarşılıqlı münasibətdədir[8]: olduğu qədərdən daha çox şeyə malik olmaq kimi özünü göstərmək lovğalıqdır, az göstərmək isə – riyakarlıqdır; bunlar arasındakı orta isə gerçəkliyin **(alētheia)** özüdür ki, var.

8. Bütün qalan şeylərdə də işlər bu cürdür. Yəni öz vəziyyətlərimizə görə hislərin artıb-əksilməsinə bizim münasibətimiz yaxşı, yaxud pisdir; onlara münasibətdə yaxşı vəziyyət də **(ey ekhein)** onların artıqlığına və əksikliyinə meylin olmamasıdır. Hislərin bir-birilə ziddiyyət təşkil edən artıb-əksilməsi zamanı biz orta mövqe tutmaq həvəsində olduqda, bizim vəziyyətimiz yaxşı olur; buna da görə bizi bəyənirlər; əksinə, pis vəziyyət **(kakōs ekhein)** – artığa və ya əksiyə meyllikdir. Madam ki,



məziyyət – həmin hislərin ortasıdır, hislərin artıb-əksilməsi isə – ya məyusluqdur, ya həzz, ya da məyusluqdan, yaxud həzdən məhrum olmayan bir şey, onda burdan aydındır ki, məziyyətin məyusluq və həzlə əlaqəsi var.

Hislərin başqa artıb-əksilmələri də var, bunlar görünür ki, həddən artıq çox, yaxud həddən artıq az olmalarından asılı olmayaraq pisdir, necə ki, məsələn, əxlaqsızlıq: əxlaqsız – o adam deyil ki, o, sərbəst qadınları lazım olduğundan çox yoldan çıxarır, pis şey həzz baxımından pozğunluqdan, eynən də artıqdan və ya əksikdən ibarət olan həm bu ehtiras, həm də hər hansı buna bənzər şeylərdir.

9. Bundan sonra, çox guman, ortaya qarşı nə qoyülması haqqında danışmaq lazımdır: artıq, yoxsa əksik. Bəzi hallarda orta ilə əksik, digər hallarda artıq ziddiyyət təşkil edir. Məsələn, cəsarətə dəlisovluq **(thrasytēs)** deyil, qorxaqlıq ziddir, yəni əksik bir şey. Digər tərəfdən tədbirlilik, həzzə qarşı olan pozğunluqla ölgünlüyün arasındakı orta, görünür ki, ölgünlüyə, yəni əksiyə deyil, pozğunluğa, yəni artığa ziddir. Olur ki, bu və digəri, artıq və əksik ortaya qarşı qoyulur, halbuki orta artıqdan az, əksikdən çoxdur. Məsələn, bədxərclər xəsisləri əliaçıq adlandırır, xəsislər isə səxavətliləri – bədxərc, eləcə də dəlisovlar və diqqətsiz adamlar cəsurları qorxaq, qorxaqlar isə cəsurları – diqqətsiz və dəli **(mainomenous)** adlandırır.

İki səbəb, görünür ki, bizi ortaya qarşı gah artığı, gah da əksiyi qoymağa məcbur edir. Bir halda şeyin ortadan yaxın və ya uzaq olmasına əhəmiyyət verirlər, məsələn, əliaçıqlıqdan nə uzaqdır, bədxərclik, yoxsa xəsislik; əliaçıqlığa xəsislikdən daha çox bədxərclik oxşayır, deməli, xəsislik ondan daha aralıdır, hansı şey də ortadan aralıdır – bu, görünür ki, ona daha çox ziddir, beləcə, şeyin özü göstərir ki, bu halda əksik ortaya hər

şeydən çox ziddir. Digər hallarda buna başqa cür əhəmiyyət verirlər; məsələn, şeyə daha çox xas olan nədirsə, o, ortaya daha çox ziddir. Misal üçün, pozğunluq bizə intizamlı olmaqdan daha çox xasdır. Biz daha çox məxsus olduğumuz tərəfə meyl edirik və nəyə ki, biz daha çox meyl edirik, o [orta ilə] daha çox ziddiyyət təşkil edir; amma biz alicənablıqdan çox pozğunluqda müvəffəqiyyət qazanırıq. Deməli, artıq [bu halda] ortaya daha çox ziddir, axı pozğunluq tədbirlilik baxımından artıqdır.

Beləliklə, biz məziyyətin nədən ibarət olduğunu müzakirə etdik. O, görünür ki, bir-birinə zidd olan ehtirasların arasındakı ortadır. Öz xasiyyətinə **(ethos)** görə hörmətə minmək istəyən adam, məqsədli surətdə, hislərin hər cür artıb-əksilməsi zamanı ortanı gözləməlidir. Buna görə də ləyaqətli adam olmaq asan deyil, axı hər bir işdə ortanı tutmaq çətindir. Məsələn, hər kəs dairə çəkə bilər, lakin ondakı ortanı müəyyənləşdirmək asan deyil; bunun kimi, acıqlanmaq da asandır, buna əks olan vəziyyətə düşmək də, lakin özünü ortada saxlamaq – çətindir. Ümumiyyətlə, hislərin artıb-əksilməsinin hər birində müşahidə etmək olar ki, ortadan uzaqlaşmaq asandır, ortada qalmaq isə, hansı ki, buna görə bizi tərifləyirlər, çətindir. Buna görə məziyyətə az təsadüf edilir.

Bir halda ki, məziyyət haqqında, bu surətlə danışdıq, indi baxmaq lazımdır görək onu əldə etmək mümkündürmü, yaxud, Sokrat dediyi kimi, yaxşı və ya pis olmaq bizdən asılı deyil[9] **(eph' hemin)**. Heç kim, onun fikrincə, o, ədalətli olmaq istəyərmi, yoxsa ədalətsiz sualına cavab verdikdə ədalətsizi seçməz. Bunu cəsarət və qorxaqlıq haqqında da və hər hansı bir məziyyət haqqında da demək olar, həm də əgər adamlar pisdirsə, onda, görünür, onlar könüllü surətdə pis olmurlar; burdan aydındır ki, yaxşıların da xeyirxahlığı, həmçinin könüllü deyil. Həqiqətən, onda qanunverici nəyə görə pis hərəkətlər



etməyə icazə vermir, çox yaxşı və layiqli hərəkətləri isə buyurur? Nəyə görə o, pis işlərdə, haçan ki, onları görürlər, yaxşılarda isə – haçan ki, onları görmürlər cəza müəyyənləşdirir? İcrası bizdən asılı olmayan işləri qanuniləşdirmək düzgün olmazdı. Yox, görünür ləyaqətli, yaxud pis adam olmaq bizdən asılıdır. Tərifin və pisləmənin özü isə bunu sübut edir. Doğrudan da, xeyirxahlığa görə tərifləyirlər, qüsurlu işə görə pisləyirlər, ancaq ki, qeyri-iradi hərəkətə görə nə tərifləyirlər, nə də danlayırlar; deməli, ləyaqətli və ya ləyaqətsiz hərəkət etmək bizim özümüzdən asılıdır. Hərəkətlərimizin bizim özümüzdən asılı olmamasını sübut etməkdən ötrü belə bir misala istinad edirdilər: nəyə görə, əgər biz xəstə və ya gözəl deyiliksə, heç kəs buna görə bizi danlamır? Bu doğru deyil; əgər biz görürüksə ki, öz xəstələnmələrində və bədənlərinin pis vəziyyətdə olmasında onların özləri günahkardır, biz onları da danlayırıq. Biz burda da səbəbin könüllü olduğunu görürük **(to hekoysion).** Beləliklə, aydındır ki, bizim xeyirxah, yaxud pis olmağımız könüllüdür.

10. Bunu aşağıda göstərilənlərdən daha aydın görmək olar. Təbii nə varsa, özünə uyğun tərkib törətməyə qabildir; deyək ki, bitkilər və heyvanlar – bunlar da, o birilər də deyilən tərzdə törətməyə qabildir. Onlar əsasdan **(archōn)** törəyir; ağac, məsələn, toxumdan əmələ gəlir, toxumsa əsasın özüdür ki, var. Əsasdan əmələ gələn özünü bu surətlə aparır: əsas necədirsə, əsasdan əmələ gələn də elədir. Hər şeydən çox bu həndəsədə aydın görünür. Bir halda ki, burda da bəzi əsaslar götürülür, bu əsaslar necədirsə, onlardan alınanlar da bundan asılıdır. Məsələn, əgər üçbucağın bucaqları iki düz bucağın cəminə bərabərdirsə, onda dördbucaq – dörd düz bucağın cəminə bərabərdir və əgər üçbucaq dəyişilirsə, onunla bərabər

dördbucaq da dəyişilir, ona görə ki, o [üçbucağa] uyğundur; əksinə, əgər ki, dördbucağın bucaqları dörd düz bucağa bərabər olmasaydı, onda üçbucaqda da bunlar iki düz bucağa bərabər olmazdı.

11. İnsanla da – belə və bunun kimidir. Bir halda ki, insan məlum əsaslardan bu və ya digər tərkibləri **(oysias)** törət-məyə qabildir, demək, onun etdiyi hərəkətlər də **(praxeōn)** bəzi əsaslardan törəyir. Onları ayrı daha nə doğura bilər? İnsandan başqa nə cansız, nə də canlı varlıqlar haqqında biz demirik ki, onlar fəaliyyət **(prattein)** göstərir, biz ancaq insan haqqında belə [danışırıq]. Aydındır ki, insan – hərəkətin doğurduğu güc-dür. Bir halda ki, hərəkətlər, biz gördüyümüz kimi, dəyişilir və biz heç vaxt eyni bir şeyi etmirik, həm də fəaliyyət müəyyən əsaslardan əmələ gəlir, onda aydındır ki, biz artıq yuxarıda həndəsənin timsalında dediyimiz kimi hərəkətin dəyişilməsi zamanı onların əsasları dəyişilir. Həm yaxşı, həm də pis hərəkətin əsası – niyyət, iradə və s.-dir; görünür, bu surətlə onlar da dəyişilir. Biz öz hərəkətimizi könüllü surətdə dəyişdiririk, belə ki, əsas da, yəni niyyət və iradə, könüllü surətdə dəyişilir. Burdan aydındır ki, yaxşı, yaxud pis olmaq bizdən asılıdır.

Ola bilər, kimsə desin: əgər ədalətli və xeyirxah olmaq məndən asılıdırsa, onda bunu mənə ancaq istəmək lazımdır və mən hamıdan xeyirxah olacağam. Lakin bu, əlbəttə, mümkün deyil. Nəyə görə? Ona görə ki, bu bədənə aid olan şeylərdə də mümkün deyil: öz bədəninə qulluq göstərməyə başlayan adamların hər birinin bədəni mütləq ən yaxşı olmayacaq. Təkcə qulluq deyil, həm də o lazımdır ki, bədən anadangəlmə biçimli və sağlam olsun **(kalon k'agathon)**. Qulluq bədəni yaxşı edir, lakin ən yaxşı yox. Bunu qəlbə münasibətdə də nəzərə almaq lazımdır. Ən xeyirxah olmağa cəhd göstərən adam da, əgər



onun xasiyyəti buna uyğun gəlmirsə, belə ola bilməyəcək, lakin daha dəyərli adam olacaq.

12. İndi ki, xeyirxah olmağın bizdən asılı olması aydındır, mütləq xeyirxah hərəkətin **(to hekoysion)** nə olduğu haqqında danışmaq lazımdır. Bu – könüllülük – xeyirxahlıq üçün həlledici əhəmiyyətə malikdir. O iş sözün həqiqi mənasında könüllü olur ki, biz bunu məcburiyyət olmadan edirik. Bu barədə, amma aydın danışmaq lazımdır. Bu və ya digər hərəkəti nəyin ucbatından ediriksə, o, cəhddir **(orexis)**, cəhd isə üç səpgidə olur: coşğun həvəs **(erithymia)**, meyl **(thymos)**, istək **(boylēsis)**. Əvvəlcə coşğun həvəsə görə edilmiş hərəkəti müzakirə edək. Bu könüllüdürmü? O, könüllü işə bənzəmir. Nəyə görə və hansı əsasla? Ona görə ki, istəmədiyimiz hərəkətləri biz məcbu-riyyət qarşısında edirik, məcburiyyət qarşısında görülən bütün işlər isə məyusluqla nəticələnir, halbuki coşğun həvəslə edilən işlər həzzə səbəb olur. Belə çıxır ki, deməli, coşğun həvəslə edilən işlər könülsüz ola bilməz, ancaq könüllü olmalıdır. Bununla belə bunun əksini göstərən əsas var – bu pozğunluqdur. Doğrudan da, heç kəs, hesab edildiyi kimi, öz xoşu ilə pis iş görmür, əgər bilirsə ki, bu iş pisdir; pozğun adam isə, fərqi yoxdur, bilsə də bu pisdir, bu işi görür, həm də bunu həvəslə edir. Deməli o, istəmədən, nəticə etibari ilə məcburiyyət qarşısında hərəkət edir. Buna qarşı da bir əsas var: bir halda ki, hər coşğun həvəs həzlə əlaqədardır, həzz olan yerdə isə məcburiyyət yoxdur, istəkdən irəli gələn iş məcburiyyət qarşısında edilmir.

Daha bir vasitə ilə göstərmək olar ki, pozğun adam könüllü surətdə hərəkət edir: haqsızlar **(adikoyntes)** öz yalançılıqlarını könüllü edirlər, pozğunlar lap haqsızdır, yalançılıqlarını da edirlər, belə ki, pozğun öz pozğunluğu ilə könüllü surətdə hərəkət edir.

13. Yenə də buna qarşı, könülsüzlüyün xeyrinə əsas var. Doğrudan da, təmkinli öz xoşu ilə təmkinlidir: axı onu tərifləyirlər, özü də könüllü surətdə etdiyi hərəkətlərə görə tərifləyirlər. Lakin coşğun həvəslə edilən işlər, əgər könüllü hərəkətdirsə, onda istəyin əksinə edilən işlər könüllü deyil. Təmkinli isə istəyin əksinə hərəkət edir, onda belə çıxır ki, təmkinli könülsüz surətdə təmkinlidir, amma bu həqiqətə oxşamır. Deməli, coşğun həvəslə də görülən işlər öz növbəsində könüllü deyil.

Bunu meylin təhrik etdiyi hərəkətlər haqqında da demək olar: burda da coşğun arzuya aid olan əsaslar öz gücündə qalır, bir halda ki, qəzəb həm pozğun, həm də təmkinli adamı bürüyə bilər, onlar da həmin aporiyanı yaradır.

Bizə daha bir səpgidə olan cəhdi müzakirə etmək qalır, hansı ki, biz bunu istək **(boylēsis)** adlandırırıq. Bu könüllüdürmü? Bizə deyəcəklər: pozğun adamlar nəyə səy edirsə, onu da istəyir; deməli, pozğun adamlar öz istəkləri ilə pis hərəkət edir. Amma könüllü olaraq axı heç kəs pis iş görmür, əgər bilirsə ki, bu pis işdir; pozğun adam isə bilsə də pis iş – pisdir, əgər belə istəyirsə, hər necə olsa bunu edəcək. Belə çıxır ki, o könülsüz hərəkət edir, istək isə könüllü olmayan bir şeydir. Bu kimi fikirlər, bununla belə, pozğunluq və pozğun [anlayışının özünü] aradan götürür. Axı pozğun könülsüz hərəkət edirsə, onu pisləmək olmaz; amma onu pisləyirlər; deməli, onun hərəkəti könüllüdür, nəticə etibari ilə istək könüllüdür.

Madam ki, bəzi əsaslar açıq-aşkar bir-birilə ziddiyyət təşkil edir, könüllülük [anlayışına] aydınlıq gətirmək lazımdır.

14. Hər şeydən öncə, əlbəttə, zor **(bia)** və məcburiyyət **(anagkē)** haqqında danışmaq lazımdır, cansız şeylərə də zor [tətbiq edilə bilər]. Doğrudan da, hər bir cansız şeyin özünəməxsus yeri var: od üçün bu yuxarıdır, yer üçün aşağı. Lakin



burda, şübhəsiz, zor tətbiq edilməsi mümkündür, belə ki, daş yuxarı hərəkət edəcək, od isə – aşağı. Heyvanları da zora məruz qoymaq olar – deyək ki, düz qaçan atı tutub yana döndərmək. Haçan ki, xasiyyətin və ya istəyin əksinə edilən hərəkətlərin səbəbi kənardadır, biz bütün belə işləri zorla görülən işlər adlandırırıq. Əksinə, harda ki, səbəb [icraçıların] özlərindədir, orda biz zor haqqında danışmırıq. Əks təqdirdə isə pozğun adam etiraz edəcək və özünü pis saymayacaq: o deyəcək ki, coşğun həvəs ona güc gəldiyindən özünü belə pis aparır.

15. Beləliklə, zora bu tərifi verək: zor orada öz yerini tapır ki, hərəkət etməyə məcbur edən səbəb kənardadır: əksinə, harda ki, səbəb şeyin özündədir, orada zor yoxdur.

Öz növbəsində məcburiyyət və məcbur olmaq **(toy anagkaioy)** haqqında danışmaq lazımdır. Heç də həmişə nəyinsə haqqında danışmaq vacib deyil. Biz həzz almaqdan ötrü nə isə təşkil etdikdə bunu etmək lazım deyil. Axı demək düzgün olmazdı ki, həzz kimisə öz dostunun arvadını zorlamağa məcbur etdi. Səbəb odur ki, məcburiyyət də hər şeydən deyil, yalnız kənardan baş verə bilər – məsələn, kim isə vəziyyətlə əlaqədar məcbur olub, daha vacib bir şeyi xilas etməklə, ziyana düşür: deyək ki, mən məcbur olub tələsik zəmiyə getdim, əks təqdirdə orda hər şey məhv olacaqdı. Beləliklə, məcburiyyət bu kimi hallara aiddir.

16. Əgər heç bir meyldə **(hormēi)** könüllülük yoxdursa, onda o, görünür ki, niyyətdə **(dianoia)** kök salıb. Qəsdsiz-qərəzsiz **(akoysion)** – bu odur ki, məcbur olaraq, zorakı surətdə və üçüncüsü niyyət olmadan edilir. [Həyatda olan] hadisələr – buna sübutdur. İnsan haçan vurursa, öldürürsə, yaxud başqa bir şeyi bilmədən edirsə, biz deyirik ki, o bunu təsadüfən edib və [bununla

bərabər etiraf edirik ki, ] könüllü iş – qəsdən edilləndir. Nəql edirlər ki, məsələn, bir qadın kiməsə içmək üçün məhəbbət içkisi **(philtron)** verir və adam sonra həmin bu içkidən ölür, qadın isə aeropaqın qarşısında durğuzulur, lakin məhz ona görə bəraət alır ki, hərəkətində pis niyyət olmayıb: istədikdən içirdib, lakin səhv edib. Ölüm hadisəsini qərəzsiz hesab etdilər, çünki o məhəbbət içkisini adam tələf etmək niyyəti ilə verməmişdi. Burdan görünür ki, könüllü iş qəsdən edilən işlə bir-birinə uyğun gəlir.

17. Azad seçmənin **(proairēsin)** nə olduğunu müzakirə etmək qalır, bu cəhddirmi, yoxsa yox. Cəhd digər canlı məxluqlara da xasdır, azad seçmə isə yox; axı seçmə düşüncə **(meta logoy)** ilə müşayiət olunur, düşüncə isə heyvanlardan [insandan başqa] heç birinə xas deyil, belə ki, seçmə cəhd ola bilməz. Lakin o – istək ola bilərmi? Yoxsa yenə yox? Axı istək əlçatmaz şeylərə aiddir: biz istərdik ki, məsələn, ölməz olaq, lakin bunu özümüz seçmirik. Daha bir şey. Seçmə məqsədin özünə deyil, ona aparan şeyə yönəlib: məsələn, heç kəs özü üçün səhhət seçmir, lakin biz səhhət üçün faydalı olan şeyləri seçirik – gəzmə, qaçma; istək, əksinə, məqsədin özünə yönəlib: biz sağlam olmaq istəyirik. Beləcə, burdan da görünür ki, istək və seçmə bir-birinə uyğun deyil. Seçmə **(proairēsis)**, görünür ki, bu sözün əsl mənasına uyğun gəlir: biz birini digərinin yerinə seçirik, məsələn, yaxşını pisin yerinə. Beləliklə, hər dəfə seçmə təklif olunan zamanda biz üstünlüyü **(antikatallattometha)** pisə deyil, yaxşıya verdiyimiz üçün, bizə elə gəlir ki, seçmə haqqında danışmağın yeri var.

Əgər, bu surətlə, cəhdin formalarından heç biri seçmə deyilsə, onda bəlkə seçmə götür-qoyla **(to kata dianoian)** bağlıdır? Yoxsa, ola bilsin, yenə yox? Axı biz götür-qoy etdikdə çox şeylər haqqında düşünürük və özümüzdə fikir yaradırıq, lakin



biz götür-qoy etdiyimiz zaman seçim edirikmi? Çox güman, yox. Axı biz Hindistanda [nə edildiyi] barədə tez-tez götür-qoy edirik[10], amma heç bir seçim etmirik. Deməli, seçmə – götür-qoy etmək deyil.

Əgər seçmə ayrı-ayrılıqda adları çəkilən şeylərin heç biri ilə uyğun gəlmirsə, onlar isə qəlbdə olan bütün şeylərin özüdür ki, var, onda seçmə istər-istəməz onlardan bəzilərinin birləşməsi olmalıdır.

Artıq deyildiyi kimi, seçmə məqsədin özünə yox, məqsədə doğru aparan yaxşı şeylərə aiddir və bu o şeylərdəndir ki, bu və ya digər şeyləri seçməyin lazım olub-olmaması haqqında bizə bəhsləşməyə mümkünat və icazə verilir; burdan aydındır ki, əvvəlcə düşünmək və qərar qəbul etmək **(boyleysasthai)**, düşündükdən sonrasa nəyi isə yaxşı hesab etdikdə bizdə hərəkət etməyə cəhd yaranır və bu hərəkəti etməklə biz, görünür ki, öz seçimimizə uyğun fəaliyyət göstəririk.

Və budur, əgər seçmə – götür-qoyla və qərarla birləşmiş olan nə isə bir cəhddirsə, onda könüllü iş seçmə ilə eyniyyət təşkil etmir. Doğrudan da, biz çox şeyi düşünməyə macal tapmadan və qərar çıxarmadan könüllü surətdə edirik, məsələn, otururuq, dururuq və bu kimi bir çox şeyləri biz götür-qoy etmədən könüllü olaraq edirik, halbuki seçimlə etdiyimiz bütün işlər götür-qoyla əlaqədardır. Deməli, könüllü iş seçmə ilə bir-birinə uyğun gəlmir. Əksinə, seçmə həmişə könüllüdür: fəaliyyət göstərməyi qərara alarkən, seçmə kimi biz könüllü surətdə hərəkət edirik. Hətta qanunvericilər də könüllü edilən işi qərəzlə edilən işdən nadir hallarda fərqləndirirlər və könüllü işə azad seçimə görə edilən işdən daha az cəza nəzərdə tuturlar.

Seçmə hərəkət olan yerdə özünü göstərir və bu hərəkət elə edilir ki, iş görüb-görməmək, onu bu və ya başqa tərzdə görmək, həm də mümkün olan yerdə hərəkətin səbəbini müəy-

yənləşdirmək bizdən asılı olur. Səbəb bir mənada başa düşülmür. Həndəsədə, dördbucaqlıda bucaqların dörd düz bucağa bərabər olmasına səbəb nədir sualına cavab verirlər: ona görə ki, üçbucaqda bucaqlar da iki düz bücağa bərabərdir. Belə hallarda biz səbəbi müəyyən edilmiş əsasda **(arhēs horismenēs)** görürük. Lakin seçimə görə edilən hərəkət zamanı iş başqa cürə olur (axı burda müəyyən edilmiş heç bir əsas yoxdur); burda: nəyə görə sən belə etdin sualına – cavab verirlər: ona görə ki, başqa cür ola bilməzdi, yaxud: ona görə ki, belə yaxşıdır. Şəraiti nəzərə alaraq yaxşı görünəni və yaxşıdan ötrü seçirlər.

Məhz buna görə bu kimi hallarda necə [hərəkət etməyin] lazım olduğu da müzakirə edilə bilər, elmlərdə isə – yox. Heç kəs Arxikl adının necə yazılmasını müzakirə etmir, ona görə ki, Arxikl adını necə yazmaqdan ötrü müəyyənləşdirilmiş qayda var. Burada səhvə düşünən zamanda deyil, yazı yazanda təsadüf edilir. Düşünən zaman səhv ola bilməyən yerdə qərar da qəbul edilmir. Necə [hərəkət etməyin] lazım olması müəyyənləşdirilməyən yerdə isə səhv mümkündür.

Əməl və hərəkətlərdə qaydalar müəyyənləşdirilməmişdir, bunlarda iki cür səhv mümkündür. Xeyirxahlığa olan cəhddəki səhvlərlə əməl və hərəkətlərdə olan səhvlər eynidir. Biz xeyirxahlığa cəhd edərkən, özümüzün anadangəlmə meyllərimizə yol verməklə səhv edirik, həm də nəzərə almaq lazımdır ki, səhv əksik tərəfə olduğu kimi, artıq tərəfə də ola bilər. Bizi buna, həm də digərinə həzz və əzab **(hedonen kai lipēn)** çəkir. Həzdən ötrü biz nalayiq şeylər edirik, əzabdan qaçmaqla isə, yaxşıdan yayınırıq.

18. Bir də. Ağıl **(dianoia)** hissə bənzəmir. Deyək ki, göz yalnız görməyə imkan verir, qulaq – yalnız eşitməyə; onların köməkliyi ilə başqa heç bir şey etmək mümkün olmur. Və biz öz



qulağımızla eşitmək, yaxud görmək lazım olduğunu müzakirə etmirik **(boyleyometha)**. Ağıl belə deyil: o bir şeyi edir, amma bununla bərabər digər şeyi də edə bilir, buna görə onu müzakirə etməyin yeri var.

Yaxşı şeylərin seçimi zamanı olan səhv də məqsədə deyil (axı hamı bununla razıdır ki, cansağlığı, məsələn – yaxşı şeydir), məqsədə doğru aparan şeylərə aiddir, məsələn, səhhət üçün bax bunu yemək yaxşı olardımı, yoxsa yox. Belə hallarda adamı daha çox həzz və narazılıq yanıldır, halbuki, biz ikincidən qaçır, birincini seçirik.

Biz, səhv məhz nədədir və necə baş verə bilər məsələsini ayırd etdikdən sonra, məziyyətin nəyə yönəldiyini soruşmaq qalır; məqsədəmi, yoxsa o şeyə ki, o, məqsədə doğru aparır; məsələn, çox yaxşıya, yaxud o şeyə ki, bununla çox yaxşıya nail olunur. Elmdə işlər nəcədir? İnşaat elminin işi qarşıya yaxşı məqsəd qoymaqdan ibarətdir, yoxsa onu görməkdir ki, məqsədə doğru aparan nədir. [Birincisi]; ancaq qarşıya yaxşı məqsəd qoyulubsa – məsələn, çox gözəl ev tikmək – ondan ötrü lazım olanı da başqa birisi deyil, yalnız inşaatçı tapıb düzəldəcək. Bütün digər elmlərdə də işlər bunun kimidir.

Bu, görünür ki, məziyyətə də aiddir. Onun vəzifəsi məqsədə doğru aparmaqdan çox, məqsədin düzgün qoyulmasından ibarətdir; lakin ondan ötrü hər şəraiti, daha başqa birisi deyil, [yalnız xeyirxah adam] yaradacaq və bütün lazım olan şeyləri tapacaqdır.

Məntiqlə düşündükdə isə, məziyyətin işi, məhz – məqsəd qoymaqdır. Ən yüksək əsasdan ibarət olan hər hansı bir şey özü məqsəd qoyur və bunu həyata keçirir. Lakin məziyyətdən yüksək heç nə yoxdur, digər bütün şeylər də ondan ötrüdür; əsas da ondadır, vasitələrin əksəriyyəti də [məqsədlər kimi

ondan] ötrü mövcuddur. Məqsəd sanki əsasa bənzəyir, hər şey isə ondan ötrü mövcuddur. Amma belə də olmalıdır. Bir sözlə, məziyyətdə də, əgər o, ən yüksək səbəbdirsə, işlər açıq-aşkar [elmdə olduğu kimidir]: o, daha çox məqsədə yönəlib, nəinki məqsədə doğru aparan şeylərə.

19. Məziyyətin məqsədi – çox gözəldir **(to kalon),** həm də o, daha çox onun tərkib hissələrinə deyil, özünə yönəlib. Doğrudur, onların da ona aidiyyatı var, lakin [düşünmək ki, guya təkcə onlardır] düz deyil. Bu hər halda rəssamlıqda yaxşı ixtiraçı ola bilmək kimi bir şeydir, amma ən yaxşı [şeylərdən] nümunə götürməyi öz qarşısına məqsəd qoymasa, beləsini çətin ki, tərifləsinlər. Beləliklə, məziyyətin vacib işi – çox gözəl məqsədlər qoymaqdır. Bizə nəyə görə etiraz edə bilərlər, əvvəlcə biz deyirdik ki, fəaliyyət yiyələnmədən yaxşıdır, indi isə məziyyəti onun ən gözəl xüsusiyyəti kimi izah edirik, özü də bu o şey deyil ki, oradan fəaliyyət meydana çıxır, o şeydir ki, orada fəaliyyət yoxdur. Bəli, ancaq indi isə biz hər necə olsa, təsdiq edirik ki, fəaliyyət yiyələnmədən yaxşıdır. Doğrudan da, dəyərli adamı müşahidə edərkən onun barəsində onun işlərinə görə mühakimə yürüdürlər, balbuki onun hansı seçimin ardınca getməsini [başqa cürə] müəyyən etmək mümkün deyil. Amma əgər ki, adamın vicdanını **(gnōmē)** və onun çox yaxşıya doğru olan cəhdini görmək mümkün olsaydı, onda onu əməlsiz də xeyirxah hesab edərdilər[11].

Madam ki, biz bəzi hislərin bəzi orta vəziyyətini saydıq, söhbətin hansı hislər **(pathon)** haqqında getdiyindən danışmaq lazımdır.

20. Əgər cəsarət ədəbdən kənarda olan özündənrazılıqla və qorxularla əlaqələndirilirsə, onda baxmaq lazımdır görək, məhz hansı qorxularla və hansı özündənrazılıqla. Deyək ki,



insan öz əmlakını **(oysian)** itirməkdən ehtiyat edir, o qorxaqdırmı? Bəs əgər o belə şeylərdən qorxmursa, cəsarətlidirmi? Yoxsa, daha çox, yox? Hər necə olsa əgər kimsə xəstəlikdən qorxursa, yaxud əksinə, ağılsızcasına özündən razıdırsa, iddia etmək olmaz ki, qorxacaq burda qorxaqdır, qorxacaq olmayan isə cəsarətlidir. Deməli, cəsarət belə qorxaqlıqlardan və cürətlərdən ibarət deyil. Ancaq kimsənin göy gurultusundan, ildırımdan və ya in-san qüvvəsi xaricində olan qorxulu bir şeydən qorxmaması da deyil. O, bu vaxt cəsarətli yox, bir sərsəmdir **(mainomenos)**. Beləliklə, cəsarət insana uyğun olan qorxu və cürətlə müəyyən edilir. Deyək ki, hər kim çoxlarının və ya hamının qorxduğu şeylər arasında cürətlidirsə, o kəs cəsarətlidir.

Bu həddi qoymaqla, hansı adamın cəsarətli olmasını müzakirə etmək olar, o mənada ki, adamlar bir çox səbəbdən cəsarətli olur. Adam var ki, topladığı təcrübə sayəsində cəsarətlidir, məsələn, döyüşçülər kimi: onlar bilir ki, filan yerdə, yaxud filan vaxtda, ya da filan cür davrandıqda heç bir şey baş verməyəcək. Bunu bilən və buna görə düşmənə davam gətirən cəsarətli deyil, axı bunu bilməsəydi, düşmənə davam gətirə bilməzdi. Buna görə topladığı təcrübə sayəsində də cəsarətli olanları cəsarətli adlandırmaq düzgün deyil. Əlbəttə ki, Sokrat cəsarəti bilik adlandırmaqda haqlı deyildi[12]: vərdişdən təcrübə qazandıqda bilik dərs olur, təcrübəsi sayəsində [təzyiqə] davam gətirənləri isə biz cəsarətli adlandırmırıq, heç kim də adlandırmaz. Deməli, cəsarət dərs deyil. Lakin təcrübəsizlik üzündən özlərini cəsarətli aparan adamlar var: kim öz təcrübəsindən bilmirsə ki, iş nə ilə qurtaracaq, o, bu səbəbə, yəni təcrübəsiz olduğuna görə qorxu hiss etmir. Digərləri özlərinin ehtiraslarına **(pathē)** görə cəsarətli görünür, məsələn, sevgililər **(erōntes),** yaxud ruhlanmış **(enthoysiadzontes)** adamlar. Lakin onları da cəsarətli adlandırmaq olmaz; axı bunlardan məhrum edilsələr,

onlar cəsarətli olmaqdan əl çəkəcəklər. Heyvanlar haqqında cəsarətli sözünün deyilməməsi əsassız deyil, məsələn, donuzlar haqqında, o vaxt ki, onları döydükdə, onlar özlərini müdafiə edir; və qorxudan cəsarətlənən adamı da cəsarətli saymaq lazım deyil.

Hələ digər cəsarətlər də, necə deyərlər, vətəndaşlıq **(politikē)** cəsarəti də mövcuddur, bu vaxt, misal üçün, adamlar utandıqlarından həmvətənləri qarşısında qorxunu üstələyib, cəsarətli görünürlər, buna nümunə bax budur. Homer Hektoru danışan təsvir etmişdir: «Birinci Polidamas məni məzəmmət edəcək»; Hektor odur ki, döyüşə getməyin lazım olduğunu düşünür. Lakin bunu da cəsarət adlandırmaq olmaz. Bütün belə hallar üçün eyni bir hədd qoymaq **(diorismos)** münasibdir: insan nədənsə məhrum olduqda cəsarətini itirirsə, onda o, çətin ki, cəsarətli olsun; doğrudan da, utancaqlıq bir kənara qoyulsa, hansı ki, o, buna görə cəsarətli olub, onda cəsarətli olmaqdan o, əl çəkəcək.

Hələ başqaları da cəsarətli görünür, o adamlar ki, onlar xeyirxahlıq ümidi və bunun intizarı ilə cəsarətlidir. Amma onları da cəsarətli adlandırmaq olmaz, ona görə ki, vəziyyətdən asılı olaraq cəsarətli olanları cəsarətli adlandırmaq düzgün deyil.

Beləliklə, bu cür adamlardan heç birini cəsarətli saymaq olmaz. Onda araşdırmaq lazımdır ki, cəsarət nədən ibarətdir və hansı adam cəsarətlidir. Doğrudan da **(hōs haplōs)**, kimsə yuxarıda sadalananlardan hansı birinəsə görə cəsarətli deyil, ona görə ki, cəsarəti yaxşı şey sayır və kiminsə bunda iştirak edib-etməməsindən asılı olmayaraq cəsarətlə hərəkət edir. Lakin, əlbəttə, cəsarət heç də ehtirassız və meylsiz olmur. Ancaq bu meyl ağıla əsaslanmalıdır və çox yaxşıya doğru yönəlməlidir. Kim şüurlu surətdə **(dia logon)** xeyirxahlıq **(kaloy)** naminə özünü təhlükəyə atırsa və bundan qorxmursa, o, cəsarətlidir, cəsarət də bundadır. Cəsarətli o kəs deyil ki, o heç nədən qorxmur – onda daş və digər cansız əşyalar da cəsarətli olardı; yox, cəsarətli hökmən qorxur, lakin yerində qətiyyətlə **(hypomenein)** dayanır. Qorxu hiss etməyən qətiyyətli adama isə cəsarətli deməzlər.



Və bir də. Biz yuxarıda müəyyənləşdirdiyimiz kimi, söhbət, ümumiyyətlə, qorxu və təhlükələrin hamısından deyil, elələrindən gedir ki, belədə məsələ həyata **(oysias)** aid olur. Və bir də: cəsarət, ümumiyyətlə, özünü hər zaman yox, qorxu və təhlükə hər şeydən yaxın olduqda göstərir. Axı kimsə on ildən sonra da təhlükədən qorxmursa, bu hələ o demək deyil ki, o cəsarətlidir, çünki bəzi adamlar təhlükə uzaq olduqda cəsarətli olurlar, o yaxınlaşdıqda isə qorxudan ölürlər. Cəsarət və cəsarətlilik, bax bunlardır.

21. Tədbirlilik **(sōphrosynē)** – həzzə münasibətdə pozğunluqla ölgünlüyün arasındakı ortadır. Doğrudan da, tədbirlilik və ümumiyyətlə, hər bir məziyyət – ən yaxşı haldır **(bexis)**, ən yaxşı hal isə – ən yaxşıya yiyələnmədir, ən yaxşı isə – artıq və əksik arasında olan ortadır, çünki buna və o birinə görə – artığa və əksikə görə məzəmmət edirlər: deməli, əgər orta – ən yaxşıdırsa, onda tədbirlilik də pozğunluqla ölgünlüyün **(anaisthēsias)** arasında orta bir şey olmalıdır. Beləliklə, bu onların ortasıdır.

Tədbirliliyin həzz və məyusluğa aidiyyatı var, lakin hamısına və hər şey xüsusunda yox. Məsələn, əgər kimsə rəsm əsərinə, heykələ və ya bu kimi şeylərə baxmaqdan həzz alırsa, o bundan pozğun olmur. Bunları eşitmə və iy bilmə qabiliyyətlərinin həzləri haqqında da demək olar, tədbirlilik isə toxunma hissindən və dadmadan alınan həzlərə münasibətdə özünü göstərir. Bu şeylərdən heç bir həzz hiss etməyən adam ağıllı ola bilməz (belə adam hissiz – duyğusuz adamdır). Ağıllı adam

odur ki, onları hiss edir, lakin bunu həyatda hər şey hesab edib, bunlara hədsiz dərəcədə aludə olmur, həm də odur ki, o, özünü başqa şeyə görə deyil, yalnız xeyirxahlıqdan ötrü belə aparır. Kim ya qorxudan, ya da buna bənzər səbəbdən hədsiz dərəcədə həzdən özünü saxlayırsa, onu ağıllı adlandırmaq olmaz. Və biz, insandan başqa, heç bir canlı məxluqu ağıllı adlandırmırıq, çünki heyvanların ağlı yoxdur ki, bunun köməkliyi ilə araşdırıb, yaxşı şeyi seçsinlər. Axı hər bir məziyyətin məqsədi yaxşılıqdır **(kalon)**, *yaxşı şeyə də can atır.*

Beləliklə, tədbirliliyin həzz və məyusluqla əlaqəsi var, bu isə dadma və toxunma hissi zamanı olur.

22. Bunu müəyyənləşdirdikdən sonra müvazinət **(praotêtos)** haqqında danışmaq lazımdır, bu nədir və özünü nədə göstərir. Müvazinət (xasiyyətdə) – qəzəb və bunun əksi arasında olan ortadır, ümumiyyətlə isə, məziyyətlər mahiyyətcə, görünür ki, nə isə bir ortadır. Onların orta olmasını bu cür də ifadə etmək olar: əgər ən yaxşı – ortadırsa, məziyyət isə – ən yaxşı haldırsa, onda məziyyət orta bir şey olmalıdır. Onların hər birini diqqətdən keçirdikdə bu aydın olur. Doğrudan da, o adam qəzəblidir ki, o, hər hansı bir səbəbdən tamam qəzəblənir; və o, məzəmmət olunmağa layiqdir, ona görə ki, hər bir səbəb üzündən, hamıya, büsbütün və həmişə qəzəblənmək lazım deyil. Bununla belə, digər tərəfdən, o halda da olmaq lazım deyil ki, heç vaxt heç kimin üstünə qəzəblənməyəsən: belə adam da hissiz-duyğusuz adam kimi məzəmmət olunmağa layiqdir. Beləliklə, həm qəzəbi [çox] olan adam, həm də az olan adam əgər məzəmmət edilməyə layiqdirsə, ortadakı təmkinli olub, təqdirə layiq olacaq. Həqiqətən, təqdirə layiq və təmkinli adam qəzəbi nə az, nə də çox olan adam deyil, ancaq o adamdır ki, o burada orta mövqe tutur. Müvazinət – adı çəkilən hislərin artıb-əksilməsi **(pathōn)** arasındakı ortadır.



23. *Əliacıqlıq* **(eleytheriotēs)** – israfçılıqla *xəsislik* arasında olan ortadır. Bu hislərin artıb-əksilməsi pula, var-dövlətə aiddir. O adam israfcıldır ki, lazım olmayan bir şeyə, lazım olduğundan çox, həm də lazım olmayan zaman pul xərcləyir. Xəsis, əksinə, harda lazımdır, nə qədər lazımdır və haçan lazımdır xərcləmir. Hər ikisi məzəmmət olunmağa layiqdir: biri – əksiyə, digəri – artığa görə. Əliaçıq, madam ki, o təqdirə layiqdir, bunların arasında orta bir şey olmalıdır. O kimdir? O adam ki, o, harda lazımdır, nə qədər lazımdır və haçan lazımdır pul xərcləyir.

24. Yeri gəlmişkən, xəsisliyin bir çox növü var: biz, məsələn, bir başqalarını simic adlandırırıq, digərlərini – xırdaçı, tamahkar, əhəmiyyətsiz adam. Bütün bunlar xəsisliyə aiddir. Həqiqətən, pis iş müxtəlif səpgilidir, xeyirxahlıq isə bir: can-sağlığı elə belədir, xəstəlik isə cürbəcür. Xəsisin hər cürəsinin pulla rəftarı məzəmmət olunmağa layiqdir. Pul qazanıb, onu yığmaq əliaçıq adama xas olan cəhətdirmi? Yoxsa, daha çox, yox? Digər məziyyətlərdən heç bircəciyi də bununla məşğul olmur. Doğrudan da, silah düzəltmək – cəsarətin deyil, ayrı bir şeyin işidir, lakin cəsarətin işi – onu götürüb, ondan da düzgün istifadə etməkdir. Bunu tədbirlilik və digər məziyyətlər haqqında da [demək olar]. Qazanca fikir vermək, əlbəttə, əliaçıqlığa deyil, əldə etmə bacarığına **(chrēmatistikēs)** xasdır.

25. Nəciblik **(megalopsykhia)** – bu lovğalıqla məzlumluğun arasında olan ortadır. İş burada şərəf və şərəfsizliyə aiddir – o şərəfə ki, o, kütlə tərəfindən deyil, ləyaqətli adamlar tərəfindən verilir, həm də məhz belə şərəf hər şeydən artıqdır. Axı ləyaqətli adamlar düzgün başa düşdükdən və ətraflı düşündükdən sonra hörmətə layiq görürlər, nəcib adam isə, kim onun layiq olduğunu bilirsə, onların da onu şərəfləndirməsinə

üstünlük verir. Haçan ki, hörmətlə anılan yaxşı şeyin özüdür, həm də eləsi ki, o, yaxşı şeylərin arasında əsas yeri tutur, onda nəcibliyin hər cür şərəfə deyil, ən yüksək şərəfə aidiyyatı olacaq.

Özlərini dahi sayıb, onlara müvafiq surətdə hörmət göstərilməsini fikirləşən aciz və axmaq adamlar – lovğadır. Özünü layiq olduğundan daha az ləyaqətli sayan adamlar – məzlumdur. Deməli, bunların arasında o adam durur ki, o, layiq olduğundan nə az, nə də çox şərəfi özünə layiq bilmir, həm də hər cürə hörməti özünə yaraşdırmır. Nəcib adam belədir. Beləliklə, aydındır ki, nəciblik – lovğalıqla məzlumluğun arasında olan ortadır.

26. Genişlik **(megaloprepeia)** – bədxərcliklə xırdaçılığın arasında olan ortadır. Genişlik – məsarifə [aid olan məziyyətdir], bunu münasib hallarda etmək lazımdır. O adam ki, o, lazım olmayan yerdə pul xərcləyir – bədxərcdir, deyək ki, kimsə ziyafətdə kef edənləri şərikli surətdə elə qonaq edir ki, elə bil bu toy ziyafətidir, belə adam bədxərcdir (bədxərc – o adamdır ki, lazım olmayan vaxtda özünün xoş güzəranını nümayiş etdirir). Xırdaçı adam özünü bunun əksinə olaraq aparır: böyük xərc lazım olan yerdə o, bunu etmir, yaxud xoreqə və ya toya xərc çəkdikdə, ləyaqətsiz surətdə, zəif pul xərcləyir. Xırdaçı adam belədir. Genişlik artıq öz adı ilə göstərir ki, o, biz onun haqqında danışdığımız kimidir. Axı insan uyğun vaxtda geniş surətdə pul xərclədikdə, «genişlik» onun kimliyini düzgün göstərir. Beləliklə, genişlik, madam ki, o, təqdirəlayiqdir, az xərclə son dərəcə böyük xərc arasında olan nə isə bir ortadır, bu zaman insan uyğun surətdə nəyə lazımdırsa, ona da pul xərcləyir.

Ümumun fikrincə, genişliyin bir çox növü var. Deyəndə ki, məsələn: «O, geniş jest etdi» onu nəzərdə tuturlar. Bu kimi



digər hallarda da genişlik haqqında düz deyil, məcazi mənada danışırlar, ona görə ki, genişlik bu şeylərdən yox, biz haqqında danışdığımız şeylərdən ibarətdir.

27. Hiddət **(nemesis)** – həsədlə bədxahlıq arasında olan ortadır. Həm bu, həm də o biri hiss məzəmmət olunmağa, hiddət isə təqdirəlayiqdir. Hiddət – bu, o xüsusda olan kədərdir ki, yaxşı şeylər ləyaqətsiz adama mənsubdur; hiddətli – o adamdır ki, onu belə şeylər məyus edir. O, kiminsə haqsız olaraq əzab çəkdiyini gördükdə də məyus olur. Hiddət və hiddətli belədir. Paxıl isə özünü bunun əksinə olaraq aparır. Onu hər adamın, o kəs buna layiqdirmi, yoxsa yox, xoşbəxt və firavan həyatı məyus edir. Bədxah da həmçinin hər adamın, o, buna layiq olsa da, olmasa da bədbəxtçiliyinə sevinir. Hiddətli isə belə deyil, o, bir növ bunlar arasında olan nə isə bir ortadır.

28. Heysiyyat **(semnolēs)** – inadcıllıqla yaltaqlığın arasında olan ortadır. Bu, adamların qarşılıqlı münasibəti zamanı özünü göstərir. İnadcıl elə adamdır ki, o, heç kəslə nə ünsiyyətdə olmağı bacarmır, nə də danışmağı. Adın özü, görünür ki, onun xarakterini göstərir: inadcıl – bu, bir növ öz-özünü bəyənən və öz-özündən razı olandır. Yaltaq isə – hamı ilə, hər cürə, hər yerdə ünsiyyətdə olmağı bacarandır. Nə bu, nə də o biri tərifəlayiq deyil. Tərifəlayiq o adamdır ki, onun heysiyyatı var; onların arasında olan orta kimi, o, ləyaqətlilərdən başqa heç kəslə, onları sonalamadan, ünsiyyətdə olmur, hamıdan aralı gəzməsə də, ancaq ləyaqətlilərlə əlaqə saxlayır.

29. Təvazökar **(aidōs)** – abırsızlıqla utancaqlığın arasında olan ortadır. O, özünü hərəkətlərdə və sözdə göstərir. Həyasız hər hansı şəraitdə hər kəsə müraciət edib, danışır və necə gəldi

hərəkət edir. Utancaq, əksinə, hər adamın qarşısında hər sözü danışmağa və hərəkət etməyə çəkinir (axı hər şeydən utanan passivdir). Təvazökarlıq və təvazökar – bunların ortasında olan bir şeydir: təvazökar abırsızdan sonra ağzına gələni danışmayacaq, lakin utancaq kimi hər şeydən də həmişə çəkinməyəcək, harda lazımdır, nə lazımdır və haçan lazımdır, orda da danışıb, hərəkət edəcək.

30. Yumor hissi **(eytrapelia)** – təlxəkliklə kobudluğun arasında olan ortadır. Onun sahəsi – rişxənddir. Təlxək hər hansı bir səbəbdən araya qoymağı lazım bilir, kobud isə zarafat etməkdən imtina edir, istəmir ki, onunla da zarafat etsinlər və əsəbləşir. Bunların arasında yumor hissinə malik olan adam durur. O, hər kəslə hər səbəbə görə zarafat etmir, lakin adamdan da qaçmır. Yumor hissi haqqında iki mənada danışmaq olar: yumor hissinə malik olan adam – həm o adamdır ki, zarafatı yerində etməyi bacarır, həm də o adamdır ki, istehzaya dözür.

31. Səmimilik **(philia)** – yaltaqlıqla düşmənçilik arasında olan ortadır. Bu, özünü hərəkətlərdə və sözdə göstərir. Yaltaq nə lazımdırsa onun, həm də, əslində, nə varsa onun üstünə əlavə edir, düşməncəsinə ədavət aparan isə nə varsa onu da alır. Ədalət naminə nə bu, nə də o biri təqdirəlayiq deyil, səmimi adam isə bunların arasında orta mövqe tutur: o, nə varsa bunun üstünə heç nə əlavə etməyəcək, həm də lazım olmayan şeyi tərifləməyəcək, amma kiçiltməyəcək də və heç bir vəchlə düşündüyünün əksinə danışmayacaq. Səmimi adam belədir.

32. Doğruçuluq **(alētheia)** – riyakarlıqla lovğalığın arasında olan ortadır və özünü danışıqda göstərir, amma hər danışıqda yox. Lovğa özünü, nəyi varsa bundan artıq olan, yaxud



nəyi bilmirsə, onu bilən adam kimi göstərir; riyakar, əksinə, özünü elə göstərir ki, əslində olduğundan daha az şeyə malikdir, bildiyini də danışmayıb, bunu gizlədir. Doğruçu nə bunu, nə də digərini etməyəcək: o nəyə malikdirsə, onu artırıb-əksiltməyəcək, əmlakı və biliyi barəsində nə varsa, onu da deyəcək.

*Bunun məziyyət olub-olmaması* – başqa *araşdırmanın* işidir. Bununla belə, aydındır ki, onlar – adları çəkilən [ifratçılıqların] arasındakı ortadır və [belə bir ortaya] uyğun olaraq yaşayan adamlar təriflənir.

33. Hələ ədalət **(dikaiosynēs)** haqqında danışmaq qalır – bu nədir, özünü nədə göstərir və nəyə aiddir. Əvvəlcə ədalətliliyi götürək – bu nədir. Ədalətlilik iki cur olur. Bunlardan biri – qanunauyğunluqdur: qanunun buyurduğu şeyi ədalətli adlandırırlar. Qanun cəsarətlə, tədbirlə hərəkət etməyi, ümumiyyətlə isə, məziyyət adlanan şeyə uyğunlaşmağı buyurur. Bax buna görə, deyildiyi kimi[13], ədalət, – görünür ki, nə isə mükəmməl bir məziyyətdir. Axı ədalətli əgər – odursa ki, bunu etməyi qanun buyurur, qanunsa bütün xeyirxahlıqları həyata keçirməyi hökm edir, onda qanunun tələblərinə uyğun ədalətlə hərəkət edən mükəmməl ləyaqətə yetəcək, belə ki, ədalətlilik və ədalət – nə isə mükəmməl bir məziyyətdir. Ədalətliliyin bir forması bundan ibarətdir və buna aiddir. Lakin biz belə ədalətliliyi və belə ədaləti araşdırmırıq. Doğrudan da, ədalətlilik bu cür başa düşüldükdə özbaşına ədalətli olmaq ehtimalı var: tədbirli, cəsarətli, təmkinli özlüyündə belə olur. Qanunun tələb etdiyi ədalətlilikdən digər adama münasibətdə olan ədalətlilik, yəni ikinci formada olan ədalətlilik fərqlənir. Ədalət baxımından digərlərinə münasibətdə insan [yalnız] özü-özündən ötrü ədalətli olmamalıdır. Biz isə, məhz başqasına münasibətdə olan ədalətliliyi və buna uyğun olan ədaləti araşdırırıq[14].

Digərinə münasibətdə olan ədalətlilik, əslində, bərabərliyin **(to ison)** özüdür ki, var. Doğrudan da, ədalətsizlik – bərabərsizlikdir: adamlar özlərinə yaxşı şeyləri çox, pisləri isə az bölüb götürdükdə bərabərsizlik burada öz yerini tapır və belə düşünmək qəbul olunmuşdur ki, bu cür yolla ədalətsizlik edirlər, buna da məruz qalırlar. Beləliklə, əgər ədalətsizlik bərabərsizliyə müncər olursa, onda görünür ki, ədalət və ədalətliliyin öhdəliyi **(symbolaiōn)** birdir. Buna görə aydındır ki, ədalət artıqla əksik arasında, çoxla az arasında olan nə isə bir ortadır: ədalətsiz ədalətsizlik etdikdə çoxa malik olur, ədalətsizliyə məruz qalan isə buna düçar olduqda aza malik olur. Ədalətlilik – bunlar arasında olan ortadır, orta isə – bərabərlikdir. Belə ki, çoxla azın arasında olan bərabərlik ədalətlidir, ədalətli isə – bərabərliyə çalışan adamdır. Həm də nəzərə almaq lazımdır ki, bərabərlik ən azı iki şəxsin arasında olur. Beləliklə, başqasına münasibətdə bərabərlik ədalətlidir və belə adamı ədalətli adlandırmaq olar.

Amma, madam ki, ədalət ədalətlidən, yəni bərabərlikdən, yəni ortadan ibarətdir, həm də nəzərə almaq lazımdır ki, ədalətli haqqında nədəsə ədalətli kimi, bərabərlik haqqında nəyəsə bərabər olmaq kimi, orta haqqında – nəyinsə arasında olan orta kimi danışılır, onda nəticə etibarı ilə ədalət və ədalətlilik kiməsə və nəyəsə münasibətdə belə olacaq.

Əgər ədalətlilik – bərabərlikdirsə, onda proporsional surətdə bərabərlik də ədalətli olacaq. Proporsionallıq ən azı dörd həddi nəzərdə tutur: A V-yə aid olan kimi, Q də D-yə aiddir. Məsələn, böyük əmlaka malik olanların çox, kiçiklərin isə az haqq verməsi proporsional bərabərlikdir, eləcə də bu bərabərlik ondadır ki, çox zəhmət çəkənlər çox alır, az zəhmət çəkənlər isə – az. Zəhmət çəkənlər zəhmət çəkməyənlərə aid olduğu kimi, [birincinin aldığı] çox da [ikincinin aldığı] aza aiddir, zəhmətçəkməyənlər [onların aldığı] aza aid olduğu kimi, zəhmət



çəkənlər də [onların aldığı] çoxa aiddir. Platon da «Dövlət» əsərində açıq-aşkar bu ədalətli proporsionallığı tətbiq edir. O deyir ki, əkinçi çörək istehsal edir, memar – ev, toxucu – plaş, pinəçi – ayaqqabı; əkinçi əlavə olaraq memara çörək verir, memar isə əkinçiyə – ev, eyni surətdə o birilərin hamısı öz mallarını digərlərində olan şeylərlə dəyişərək belə bir qarşılıqlı münasibətdə olur. Nisbət bundan ibarətdir: əkinçinin memara göstərdiyi münasibəti, memar da əkinçiyə göstərir. Eyni surətdə pinəçi, toxucu və qalanlarının arasında da eyni nisbətdə qarşılıqlı münasibət mövcuddur, ictimai həyat **(politeian)** da, bu proporsionallıq üstündə durur. Beləliklə, ədalətlilik – görünür ki, proporsionaldır; ictimai həyat ədalət üstündə bərqərardır, proporsional nədirsə, ədalətlilik də odur.

Amma, bir halda ki, memar öz işini pinəçininkindən daha yüksək qiymətləndirirdi, pinəçiyə də memarla mübadilə etmək çətin olurdu – ayaqqabını dəyişdirib ev almaq mümkün deyildi – onda gümüşü sikkə **(nomisma)** adlandırmaqla, bundan istifadə etməyi qərara aldılar **(enomisan)**, hansı ki, bununla bütün bunları almaq olar: hər kəs öz malına qiymət qoyurdu, beləcə də bir-birləri ilə mübadilə aparırdılar; bununla belə dövlət birliyi **(politikēn koinonian)** saxlanılırdı.

Beləliklə, əgər ədalətlilik belə şeylərdən və yuxarıda haqqında danışdığımız şeylərdən ibarətdirsə, onda ədalət nə isə bir sahmandır **(bexis)**, hansı ki, göstərilən vəziyyətlərdə göstərilən şeylərə bilə-bilə can atır.

Ədalətlilik – həm də qarşılıqlı surətdə məruz qalmadır **(to antipeponthos)**, lakin bunu pifaqorçuların anlamında başa düşmək lazım deyil. Onlar zənn edirdilər ki, başqasına nə etmisənsə, ona da məruz qalmaq ədalətlidir. Lakin belə müəyyənləşdirmə hamıya aid ola bilməz. Axı eyni bir şey nökərlə azad adam üçün ədalətli deyil: əgər nökər azad adamı vursa, vur-

maqla deyil, ona çox şeylə cavab vermək ədalətlidir, yəni qarşılıqlı surətdə məruz qalma həmçinin proporsionallıq şəraitində ədalətlidir: uca tutulan azad adamla kölə arasında mövcud olan münasibət, cavab hərəkəti ilə kölənin hərəkəti arasında da mövcuddur. Azad adamın azad adama münasibəti də belə [proporsional] olacaq. Əgər kimsə birinin gözünü çıxarmışsa, onda ədalət ondan ibarət deyil ki, cavab olaraq onun da ancaq gözləri çıxarılmalıdır, ondadır ki, proporsionallığa riayət etməklə o, daha çox şeyə məruz qalsın: axı o, həm birinci başlamışdır, həm də ədalətsiz hərəkət etmişdir; o ikiqat ədalətsizdir və ədalətsizliyə proporsional surətdə cavab olaraq etdiyindən daha çox şeyə onun məruz qalması ədalətlidir.

Madam ki, ədalətlilik haqqında bir çox mənalarda danışılır, müəyyənləşdirmək lazımdır görək, bizim araşdırdığımız ədalətlilik, məhz hansıdır.

Deyirlər ki, həm nökərin ağaya, həm də oğulun ataya münasibətində ədalət üçün yer var. Lakin ədalətlilik burda, görünür ki, dövlətin vətəndaşları arasında ədalətliliyə yalnız bir omonimdir[15]. Bizim araşdırdığımız ədalət – mülki ədalətdir, yəni o, hər şeydən çox bərabərçiliyə müncər olur (axı vətəndaşlar bir növ «ortaqdır», həm də xarakterlərinə görə bərabərçiliyə can atırlar, lakin xasiyyətcə fərqlənirlər), oğulun ataya və nökərin ağaya münasibətində isə, bizə elə gəlir ki, belə bir ədalətdən heç bir əsər yoxdur. Axı mənə, mənim ayağıma və ya əlimə, eləcə də bədənimin hər hansı bir üzvünə [münasibətdə də belə bir ədalət yoxdur]. Oğulun ataya münasibəti də görünür ki, belədir. Oğul – nə qədər ki, böyük kişilər sırasında durmayıb və atadan ayrılmayıb, elə bil, onun nə isə bir hissəsidir. O zaman o, atasına tən gəlib, ona oxşayır. Vətəndaşlar məhz belə olmağa cəhd edirlər. Ancaq bu səbəbdən nökərin ağaya münasibətində ədalətdən heç bir əsər yoxdur. Nökər – ağaya məxsus bir



şeydir. Əgər ondan ötrü ədalətli şey varsa da ona münasibətdə bu «ev məişətinə aid olan ədalətlilikdir». Biz isə beləsini deyil, mülki ədaləti araşdırırıq. Mülki ədalət, görünür ki, bərabərçilikdən və oxşarlıqdan ibarətdir. Amma dövlətin ədalətliliyi ilə o ədalətlilik yaxındır ki, bu ərlə-arvadın arasındakı münasibətdə olur. Arvad ərdən aşağıdır, lakin ona çox yaxındır, həm də ona daha çox tən gəlir, buna görə də həmin adamlar yaxın münasibətdədir, bununsa vətəndaşlar arasında öz yeri var və belə çıxır ki. arvadla ər arasındakı münasibətdə olan ədalətliliyin digər [ədalətlilik formaları] qarşısındakı üstünlüyü mülki ədalətin özüdür ki, var. Beləliklə, madam ki, ədalətlilik – dövlətin daxilində adamların münasibətində özünə yer tapır, ədalət və ədalətli adamın mülki ədalətə aidiyyatı var.

Ədalət həm təbii ola bilər, həm də qanunla müəyyənləşdirilən. Lakin bunu elə başa düşmək lazım deyil ki, guya [birinci halda] heç bir dəyişiklik olmayacaq. Axı əzəldən mövcud olan şeylərdə də dəyişiklik baş verir. Deyək ki, əgər bizim hamımız tullamada həmişə sol əlimizi məşq etdirsəydik, onda hər iki əlimiz sağ olardı. Lakin, biz hətta hər şeyi sağ əl kimi solla etsəydik belə öz xarakterinə görə sol əl – soldur və sağ hər halda öz xüsusiyyətinə görə soldan daha yaxşıdır. Bu dəyişikliklərdən şeylərin xarakteri dəyişmir, onlar necə varsa, elə də qalır. Və əgər əksər hallarda və əksər vaxtlarda sol əl sol olaraq, sağ isə – sağ olaraq qalırsa, bu onlarda anadangəlmədir.

Təbiətən ədalətli olanla da belə olur. Əgər bizim ona müraciətimizdən o, dəyişilirsə, bu o demək deyil ki, təbiətən ədalətli olan yoxdur. O, var. Əksər hallarda ədalətli olan, görünür, elə yaranışından ədalətli olandır. Biz nəyi ki, qərara alıb ədalətli hesab edirik, bundan sonra belə də olur, biz də onu qanuna görə ədalətli adlandırırıq. Təbiətən ədalətli olan şey qanuna

görə ədalətli sayılan şeydən üstündür, amma biz mülki ədaləti araşdırırıq, o isə əzəldən deyil, qanuna görə mövcuddur.

Elə görünə bilər ki, ədalətsizliklə **(adikon)** ədalətsiz iş **(adikēma)** – eyni bir şeydir, lakin bu belə deyil. Ədalətsizlik qanunla müəyyənləşdirilib; məsələn, saxlamaq üçün aldığın şeyi geri qaytarmamaq ədalətsizlikdir. Ədalətsiz iş – artıq lap ədalətsiz hərəkətdir. Eyni surətdə ədalətlilik **(dikaion)** ədalətli işlə **(dikaiopragēma)** eyniyyət təşkil etmir: ədalətlilik – qanunla müəyyənləşdirilib, ədalətli iş isə – ədalətli hərəkətlərin həyata keçirilməsidir.

Ədalətlilik haçan öz yerini tapır, haçan isə yox? Ümumiyyətlə desək, müstəqil seçim etdikdə könüllü surətdə (könüllülüyün nə olması haqqında biz yuxarıda danışmışıq) və başa düşərək ki, kiməsə qarşı, hansı tərzdə və nəyə görə o, bunu edir, bu halda ədalət baş verir. Bunun kimi ədalətsiz adam da – o adamdır ki, o, kiməsə qarşı, nə tərzdə və nəyə görə hərəkət etdiyini başa düşə-düşə – bu hərəkəti edir. Əgər kimsə bu şeylərdən heç birini bilmədən ədalətsiz hərəkət edibsə, onda o, ədaləti pozan adam yox, bəxtsiz adamdır. Məsələn, əgər düşmənini öldürmək fikrilə adam atasını öldürürsə, o, ədalətsiz hərəkət edəcək, amma bu halda o, ədaləti pozan adam yox, bəxtsiz adam olacaq. Ədalətsizlik edən əgər bilmədən hərəkət edirsə, ədaləti pozan adam olmur, bir halda ki, biz indicə bu barədə danışıb, dedik ki, o, kimə, nə ilə və nəyə görə zərər yetirdiyini bilmədən hərəkət edir, biz indi bilməməzliyə aydınlıq gətirib, insanın hansı halda, hətta birinə zərər yetirdikdə belə ədalətsiz olmadığını [göstərməliyik]. Qoy tərif belə səslənsin: haçan bilməməzlik – hər hansı bir hərəkətin səbəbidirsə və insan onu öz xoşu ilə etmirsə, o, ədaləti pozan adam deyil; haçan ki, insan özü öz bilməməzliyinə bais olur, nəyi isə bilmədən edir, o, özünü ədalətsiz aparır və haqlı olaraq ədalətsiz adlanır. Əyyaşı



götürək. Sərxoş halda pis iş görənlər – ədaləti pozanlardır, çünki bilməməzliklərinin baisi onlar özləridir. Axı onlar o qədər içə bilərdilər ki, atalarını döydüklərini dərk etsinlər. Bunun kimi digər hallarda da ədaləti pozanlar o adamlar olur ki, onlar bilməməzlikdən haqsız hərəkət edir, buna bais də – onlar özləridir. Əgər ki, onlar özləri bunda günahkardırsa və etdiklərinin səbəbi – bilməməzlikdirsə, onda onlar ədaləti pozanlar deyil. Bu cür bilməməzlik təbii bilməməzlik olur. Uşaqlar, məsələn, bilmədən valideynlərini vururlar, amma belə təbii bilməməzlik məcbur etmir ki, bu kimi hərəkətlərə görə uşaqları ədaləti pozan adlandıraq, çünki burda hərəkətin səbəbi – bilməməzlikdir, lakin uşaqlar bunda günahsızdır, buna görə də onları ədalətsiz adlandırmırlar.

Bəs ədalətsizliyə dözməklə necə? Ədalətsizliyə könüllü surətdə məruz qalmaq olarmı? Yoxsa, daha çox, olmaz? Doğrudan da, biz ədalətli və ədalətsiz hərəkətləri könüllü surətdə edirik, lakin başqaları tərəfindən olan ədalətsizliyə öz xoşumuzla məruz qalmırıq. Biz cəzalanmadan da qaçırıq, belə ki, görünür, biz öz xoşumuzla ədalətsizliyə məruz qalmayacayıq. Heç kəs könüllü surətdə zərərə məruz qalmır, ədalətsizliyə məruz qalmaq isə – zərərə məruz qalmaq deməkdir.

Üstəlik, bizə deyərlər, amma elə olur ki, adamlar paya haqları ola-ola bunu kiməsə güzəştə gedirlər, belə ki, əgər bərabər pay, biz dediyimiz kimi, ədalətli, az isə – ədalətsiz-dirsə, həm də aza malik olan buna könüllü surətdə razılıq verirsə, onda belə çıxır ki, könüllü olaraq ədalətsizliyə məruz qalır. Lakin bunun yenə də belə olmaması aşağıda göstəriləndən aydındır. Özlərinə az pay götürən adamların hamısı bunun əvəzinə hörmət, tərif, şöhrət, dostluq və ya bu kimi başqa şeylər əldə edir, kim isə əldən verdiyinin əvəzinə bir şey alırsa, artıq ədalətsizliyə məruz qalmır; əgər ki, ədalətsizliyə məruz qalmırsa,

onda buna öz xoşu ilə də məruz qalmır. Həm də: özünə pay götürənlər, yəni bərabər pay almadıqlarından ədalətsizliyə məruz qalanlar bununla özlərini yaxşı nəzərə çarpdırmağa çalışırlar və öyünüb deyirlər: «Mən bərabər halda pay götürə bilərdim, ancaq bunu böyüyə, yaxud dosta güzəştə gedib, götürmədim». Lakin ədalətsizliyə məruz qalan heç vaxt bununla öyünməyəcək. Əgər ədalətsizliyə məruz qalana öyünmək xas deyilsə, bu halda isə adamlar öyünürlər, onda ziyana düşsələr də ədalətsizliyə məruz qalmırlar; əgər ki, ədalətsizliyə məruz qalmırlarsa, onda könüllü surətdə də ədalətsizliyə məruz qalmırlar.

«Hövsələsizlik» bir səbəb olaraq bu və bu kimi səbəblərə qarşı durur. Yəni hövsələsiz adam öz-özünə pislik edib, zərər yetirir və bunu könüllü surətdə edir; özünə bilə-bilə zərər yetirməklə, o, belə çıxır ki, könüllü surətdə özü öz tərəfindən ədalətsizliyə məruz qalır. Lakin burda da məlum hədd bu əsasdan yararlanmağa yol vermir. Hədd ona müncər olur ki, heç kəs ədalətsizliyə məruz qalmaq istəmir. Hövsələsiz adam isə nəfsini saxlamamaqdan məmnuniyyətlə vaz keçir, belə ki, özünə qarşı ədalətsizlik edir. Deməli, o, istəyir ki, ona pis bir şey üz versin, lakin heç kəsdə ədalətsizliyə məruz qalmaq istəyi olmur. Belə ki, hövsələsiz adam da, həmçinin könüllü surətdə özünə qarşı ədalətsizlik etmir.

Amma, çox güman, burda yenə kimsə sual verəcək, özünə qarşı ədalətsiz hərəkət etmək olarmı? Əgər hövsələsiz adamın nöqteyi-nəzərincə baxsaq onda, görünür, mümkündür. Həm də aşağıda göstərilən tərzdə özünə qarşı ədalətsizliyi təsəvvür etmək mümkündür. Əgər qanunun müəyyənləşdirdiyi işlər ədalətlidirsə, onda bunlara əməl etməyən adam ədalətsizdir, həm də əgər o, bunları qanunun göstərdiyi şəxsə qarşı yerinə yetirmək imkanını əldən qaçırıbsa, onda bu şəxsə həmin adam ədalətsizlik edir. Lakin qanun [digər şeylərlə bir sırada] tədbirli olmağı, əmlak əldə etməyi, bədənin qayğısına qalmağı



və bu kimi şeyləri buyurur; belə çıxır ki, kim özünü bu cür aparmırsa, o özünə qarşı ədalətsizlik edir, axı ədalətsizlik bu halda heç bir başqa şəxsə intişar edilmir. Amma [belə bir fikir] çətin ki, düz olsun və insanın bu düşüncə ilə özünə qarşı ədalətsiz olması mümkün deyil. Doğrudan da, eyni bir adamın, eyni bir vaxtda həm çoxa, həm də aza malik olması, könüllü surətdə, həm də bunun əksinə hərəkət etməsi mümkün deyil. Lakin ədalətsizlik edən ədalətsiz olduğuna görə çoxa, ədalətsizliyə məruz qalan isə, buna məruz qalmağına baxmayaraq aza malikdir. Buna görə, əgər onun özü özünə qarşı ədalətsizdirsə, belə çıxır ki, eyni bir adam eyni bir zamanda həm çoxa, həm də aza malikdir. Lakin bu mümkün deyil. Deməli, insanın özünə qarşı ədalətsiz olması mümkün deyil.

Həm də. Ədalətsizlik edənlər könüllü hərəkət edir, ədalətsizliyə məruz qalanlar isə buna istəmədən düçar olurlar, belə ki, əgər özünə qarşı ədalətsiz olmaq mümkündürsə, onda nəyi isə, həm könüllü surətdə, həm də istəmədən etmək mümkün olacaq. Lakin bu mümkün deyil. Deməli, bu fikir də özünə qarşı ədalətsizliyin mümkünlüyünü istisna edir.

Həm də: ədalətsiz hərəkətlərin hər birini ayrılıqda götürək. Adamlar girovu vermədikdə, əxlaqsızlıq etdikdə, oğurluq etdikdə, yaxud başqa bir haqsız iş gördükdə ədalətsiz olurlar. Lakin heç kəs heç vaxt öz girovundan özünü məhrum etməmiş, öz arvadı ilə əxlaqsızlıq etməmiş və özü özündən oğurlamamışdır. Buna görə əgər əxlaqsız hərəkətlər bundan ibarətdirsə, onda özünə qarşı ədalətsiz olmaq mümkün deyil. Əgər hər halda burda ədalətsizlik mümkündürsə, bu mülki yox, «ev məişətinə aid olan ədalətsizlikdir» **(oikonomikon adikēma)**. Axı bir çox hissələrə ayrılan qəlb yaxşı və pis hissələrə malikdir, belə ki, əgər qəlbdə hər hansı bir ədalətsizlik meydana çıxırsa, onda bu qəlbin hissələrinin bir-birinə qarşı ədalətsizliyidir. Bu «ev məişə-

tinə aid olan ədalətsizliyi», haçan ki, insan öz-özü ilə ədalətli və ədalətsiz hərəkət edir, biz pis və yaxşı hissələrə qarşı olan ədalətsizliyə bölmüşük. Biz, amma, bunu deyil, mülki ədalətsizliyi müzakirə edirik. Beləliklə, söhbət nə qədər ki, ədalətsizlikdən gedir, hansı ki, bizim müzakirəmizə aiddir, özünə qarşı ədalətsizlik etmək mümkün deyil.

Daha bir sual: iki nəfərdən hansı ədalətsizlik edir və ədalətsiz hərəkətin [mənbəyi] kimdir – ədalətsizliyə düçar olanmı, yoxsa yarışlarda olduğu kimi münsiflik edib, qərar çıxaran adam? Birinci yeri sədrlik edəndən və bu qərarı çıxarandan alan adam haqsız olmur, hərçənd ki, birinci yer ona ədalətsiz olaraq verilmişdir. Ancaq bunu pis ayırd edib, verən adam – ədalətsizdir. Lakin o da bir cəhətdən ədalətsizdir, digər cəhətdən isə – haqlı: o, həqiqətən və öz xarakterinə görə nəyin ədalətli olduğunu fərqləndirə bilməmişdir və buna görə də haqlı deyil, bununla belə bir cəhətdən haqlı qalır, ona elə gəlir ki, ədalətlidir.

34. Məziyyətlərin həm nə cür olması, həm nədən ibarət olması, həm də hansı şeylərə yönəlməsi barədə biz danışmağa macal tapdıq, onların hər biri barəsində isə biz dedik ki, düzgün mühakiməyə **(kata ton orthonlogon)** müvafiq olaraq ən yaxşı cəhətdən hərəkət edirik[16]. Lakin düzgün mühakiməyə müvafiq hərəkət haqqında danışmaq – bu, hər halda əgər biz desəydik ki, sağlamlığı gətirən vasitələr tətbiq edilsə, cansağlığına hər şeydən daha yaxşı yetmək olar kimi bir şey olardı. Burda aydınlıq **(asaphēs)** yoxdur. Və mənə deyərlər: izah et, hansı vasitələr sağlamlıq gətirir. Bəli, mühakimə xüsusunda da [aydınlaşdırmaq lazımdır] ki, bu necədir və bu nə vaxt düzgündür.

Öncə, çox güman, müəyyənləşdirmək lazımdır ki, idrak [qəlbin hansı hissəsinə] məxsusdur. Yuxarıda biz artıq ümumi şəkildə ayırma aparıb, dedik ki, qəlbin idraka **(logon ekhon)**



malik olan hissəsi və mühakimə qabiliyyətinə **(alogon)** malik olmayan hissəsi var. Qəlbin mühakimə qabiliyyətinə malik olan hissəsi – məşvərətçi **(boyleytikon)** və dərk etmə **(epistēmonikon)** olmaqla iki hissəyə bölünür. Bunların bir-birindən fərqli olmasını, onların nəyə yönəlməsinə əsaslanıb, aşkar etmək olar. Bunun kimi necə ki, rəng, dad, səs, iy bir-birindən fərqlənir, təbiətin bunları qavramaq üçün verdiyi duyma qabiliyyəti də müxtəlifdir: biz səsi qulağın köməkliyi ilə eşidirik, dadı – dadbilmə orqanının köməkliyi ilə bilirik, rəngi – gözlərin köməkliyi ilə tanıyırıq. Qalanları haqqında da bu tərzdə düşünmək lazımdır: bir halda ki, qəlbə müxtəlif şeylər aiddir, bizim dərk etdiyimiz qəlbin hissələri də müxtəlifdir. Düşünülən şeylər duyğu orqanları ilə qavranıla bilən şeylərdən fərqlənir, lakin bunu da, onu da biz qəlbimizlə dərk edirik; deməli, düşünülən və duyğu orqanları ilə qavranıla bilən şeylər qəlbin eyni bir hissəsi ilə əlaqəli deyil. Qəlbin məsləhətçi, yəni seçən **(proai retikon)** hissəsi duyğu orqanları ilə qavranıla bilən şeylərə yönəlib, o şeylərə ki, onlar hərəkətdə olur və ümumiyyətlə, o şeylərə ki, onlar əmələ gələn və məhv edilən şeylərə aiddir. Doğrudan da, görülüb-görülməməsi bizim seçimimizdən asılı olan, hansıları ki, müzakirə etmək və seçmək mümkündür, biz bu şeylər xüsusunda məsləhətləşirik ki, bunları etmək olar, yoxsa yox. Amma hiss orqanları ilə qavranıla bilən və dəyişilən şeylərin hamısı belədir. Buna görə əgər belə mühakimə yürütsək qəlbin seçən hissəsi duyğu orqanları ilə qavranıla bilən şeylərə aid olar[17].

Bu ayırmalardan sonra, – madam ki, söhbət həqiqət haqqında gedir, biz isə həqiqətin özünü necə göstərdiyini araşdırırıq və madam ki, bilik, ağıllılıq, ağıl, müdriklik, ehtimal [həqiqətin aşkar olması kimi] mövcuddur – bu axırıncıların nəyə yönəldiyindən danışmaq lazımdır. Bilik **(epistēmē)** o şeylərə intişar edilir ki, onlar dəlil və mühakimənin köməkliyi ilə dərk edilir;

ağıllılıq **(phronēsis)** fəaliyyətdə olan o şeylərə aiddir ki, onları seçmək və onlardan imtina etmək olur, həm də bir şeyin görülüb-görülməməsi bizdən asılıdır. Biz şeyləri hazırlamaqla yaradırıq, icra etməklə isə fəaliyyət göstəririk, bu isə eyni bir şey deyil[18]. Hazırlamaqla bərabər yaratmaqda hələ başqa bir məqsəd də var. Məsələn, memarlıq sənətini götürək. O, ev qurub yaratmaq deməkdir, onun məqsədi isə – yalnız onun düzəldilməsi yox, hazır evdir. Bu dülgərlik işinə də, digər yaradıcı fəaliyyət növlərinə də aiddir. İcra etmə zamanı fəaliyyətin özündən başqa özgə bir məqsəd yoxdur. Belə ki, məsələn, kifarada çalmaqda heç bir özgə məqsəd yoxdur, onun öz məqsədi isə, çalmaq fəaliyyətinin və ifanın özüdür ki, var. Ağıllılıq belə bir fəaliyyətə və icra edilən şeylərə yönəlmişdir, ustalıq isə **(technē)** – işə və yaradıcı şeylərə; ixtiraçılığın icra edilən işlərdə deyil, daha çox yaradıcı işlərdə özünü göstərməsi əbəs deyil. Buna görə də etiraf etmək olar ki, ağıllılıq – bu, nə isə seçmənin bir halı, həm də həyata keçirilib-keçirilməməsi bizdən asılı olan icra fəaliyyətidir – xeyrə yönələn fəaliyyətdir.

Ağıllılıq, çox güman, bilik deyil, məziyyətdir. Axı ağıllıları tərifləyirlər, tərif isə məziyyətə görə olur. Həm də: hər bir biliyin ən yüksək dərəcəsi var, amma ağıllılığın ən yüksək dərəcəsi yoxdur, çünki onun özü, görünür ki, nə isə ən yüksək bir dərəcədir.

Ağıl **(noys)** dərk edilən və mövcud olan şeylərin əsaslarına yönəlib. Doğrudan da, bilik sübut oluna bilən şeylərlə əlaqədardır, əsaslar isə sübutedilməzdir, buna görə əsaslarla bilik yox, ancaq ağıl əlaqədardır. Müdriklik isə **(sophia)** bilik və ağıldan ibarətdir. Axı müdriklik həm əsaslarla, həm əsaslardan əmələ gələn şeylərlə, həm də biliyə yönələn şeylərlə əlaqədardır; buna görə müdriklik əsaslarla hansı dərəcədə əlaqədardırsa, onun bir o qədər də ağılla əlaqəsi var, sübut oluna bilən



şeylərlə əlaqədar olduğu dərəcədə isə, bunlar əsaslardan sonra mövcud olub, – onun bilavasitə biliklə əlaqəsi var. Beləliklə, aydındır ki, müdriklik ağıl və bilikdən ibarətdir, belə ki, bu da ağılın və dərk etmənin yönəldiyi şeylərə istiqamətlənməlidir.

Ehtimal isə **(hypolepsis)** – şübhələnmək [qabiliyyətidir], bu vaxt biz hər şey barəsində düşünürük ki, iş belədirmi, yoxsa yox.

Ağıllılıq və müdriklik eyni bir şeydirmi? Yoxsa, daha çox, yox? Axı müdriklik sübut edilə bilən və dəyişilməyən şeylərə yönəlmişdir, ağıllılıq isə – onlara deyil, dəyişilən şeylərə. Misal üçün, deyək ki, düz, əyri, içəri əyilmiş və bu kimi şeylər – bunlar həmişə olduqları kimi qalırlar. Faydalı şeylər isə dəyişməz qalmır: bu gün faydalı olan şey, sabah artıq faydalı deyil, birinə faydalıdır, digərinə – yox, bir formada faydalıdır, digər formada – yox. Faydalı şeylərə yönələn müdriklik deyil, ağıllılıqdır. Deməli, müdriklik ağıllılıqdan fərqlidir.

Müdriklik məziyyətdirmi, yoxsa yox? Məziyyətin nə olduğunu ağıllılığa əsaslanmaqla göstərmək olar. Doğrudan da, ağıllılıq biz dediyimiz kimi, – qəlbin şüurlu hissələrindən birinin bir hissəsidir; ağıllılıq müdriklikdən aşağıdır, çünki ibtidai şeylərə yönəlib: müdriklik, biz iddia edirik ki, əbədi və ilahi şeylərlə bağlıdır, ağıllılıq – insan üçün faydalı olan şeylərlə. Əgər ən aşağı şeylər – məziyyətdirsə, onda ən yüksək şeylər də təbii ki, məziyyət olmalıdır; buna görə aydındır ki, müdriklik – məziyyətdir.

Bəs fəhmlilik **(synēsis)** nədir, o nəyə yönəlib? Ağıllılığın özünü göstərdiyi şeylərdə, fəhmlilik də (tez başa düşmə) özünü göstərir, yəni fəaliyyət və əməllərdə. O adam fəhmli adlanır ki, o qərar çıxarmağı bacarır, həm də düzgün mühakimə yürüdür və görür. Amma onun fikri kiçik şeylərdə olan xırda işlərə toxunur. Fəhmlilik və fəhmli adam – ağıllılığın və ağıllı adamın nə isə bir hissəsidir və o, bunlarsız olmur. Fəhmlini ağıllıdan ayırmaq olmaz.

Görünür, hazırcavablıqla da **(deinotēs)** iş bunun kimidir. Hazırcavablıq və hazırcavab adam – ağıllılıq və ağıllı deyil, baxmayaraq ki, ağıllı hazırcavabdır və buna görə hazırcavablıq bir növ ağıllılığa yardımçıdır. Lakin sarsaq adamı da hazırcavab adlandırırlar. Belə ki, məsələn, Mentor, görünür ki, hazırcavab olub, ancaq ağıllı olmayıb. Ağıllıya və ağıllılığa ən yaxşıya doğru can atmaq, onu seçmək və həmişə həyata keçirmək xasdır. Hər işi hansı [vasitələrin] köməkliyi ilə yerinə yetirmək və onlara imkan yaradılmasını götür-qoy etmək isə hazırcavablığa və hazırcavaba xas olan cəhətdir. Beləliklə, hazırcavab, görünür ki, özünü bunda göstərir və bu kimi şeylərlə əlaqədardır.

Xasiyyət haqqında, yəni bir növ hərəkət tərzi haqqında söhbət apardığımız halda, bizim müdriklik haqqında danışmağımız sual və təəccüb doğura bilər. Birincisi, bunun müzakirəsi mövzuya, görünür, ona görə yad deyil ki, müdriklik – məziyyətdir. Həm də, əlbəttə, ona görə ki, mövzuyla əlaqədar olan bütün şeyləri araşdırmaq filosofa xas olan cəhətdir. Biz qəlbdə nə olması barəsində danışırıq və onun haqqında hər şey demək lazımdır; müdriklik də qəlbdədir, buna görə müdriklik haqqında söhbət [bizim mövzumuza] yabançı deyil.

Hazırcavablıq ağıllılığa necə münasibət göstərirsə, elə də hər bir məziyyətin, görünür ki, [təbii durumu məziyyətin mükəmməl halı ilə əlaqədardır]. Mən deyirəm ki, məziyyət hər bir adama anadangəlmə xas olur. Hər kəsin, məsələn, sözsüz, cəsarətli bir şeyə meyli var, həm də hər hansı bir [məziyyət belə bir həvəsdə bulunur]. Vərdiş və şəxsi seçimdən asılı olan məziyyətlər də mövcuddur. Ağılın yardımçı olduğu məziyyətlər mükəmməldir və nəticə etibarı ilə tərifl ənir. Əsil məziyyətə özlüyündə düşüncə xas deyil; amma əgər o, düşüncədən ayrıdırsa, onda azdır və nəticə etibarı ilə təriflənir, düşüncə və seçmə ilə birləşdikdə isə mükəmməl məziyyət əmələ gəlir. Buna görə



məziyyətə olan əsl meyl ağıllı məziyyətə də səbəb olur, bununla bərabər isə ağılı nəzərə almadan məziyyət ola bilmir. Digər tərəfdən, əgər əsl meyl yoxdursa, düşüncə də, müstəqil seçim də, mükəmməl məziyyət halına gəlib çatmır. Buna görə Sokrat məziyyət – düşüncədir deyəndə haqlı deyildi[19]: əgər insan [məziyyətin nə olduğunu] bilmirsə və onu öz ağıllı seçiminin obyekti etmirsə, cəsarətli və ədalətli hərəkətlərin guya faydası yoxdur. Bunun əsasında Sokrat məziyyəti düşüncə adlandı-nrdı, amma haqlı deyildi. İndikilər daha yaxşı mühakimə yürüdür: onlar deyirlər ki, məziyyət – düzgün düşüncəyə uy-ğun **(kata ton orthon logon)** çox gözəl işlər görmək [qabiliyyətidir]. Amma onlar da haqlı deyillər. Axı insan seçim etmədən və ən yaxşının nə olduğunu bilmədən ədalətli hərəkət edə bilər, ancaq düşünülməmiş bir şeyə meyl edib, fəaliyyət göstərərkən də onun hərəkəti [düzgün olub], düzgün fikrə uyğun gələ bilər (yəni, deyək ki, o, düzgün düşündüyü halda belə hərəkət edərdi). Bununla belə bu halda onun hərəkəti təqdirə layiq deyil. Bizim müəyyənləşdirdiyimiz – «düşüncə ilə bağlı olan ən yaxşıya meyl» – daha yaxşıdır; bu cür meyl məziyyətin özüdür ki, var və bu təqdirə layiqdir.

Kimdəsə, çox güman, sual yarana bilər, ağıllılıq məziyyətdirmi, yoxsa yox? Bəli, o, məziyyətdir və bu, bax burdan görünür: bir halda ki, ədalət, cəsarət və s. – ən yaxşı hərəkətlər olduqlarına və nəticə etibarı ilə təriflənd iklərinə görə məziyyətdir, əgər cəsarətin sövq etdiyi hərəkətlərə ağıllılıq da sövq edirsə, onda o da nəticə etibarı ilə təriflənən və məziyyətlərlə bir sırada duran şeylərə aid olmalıdır. Həm də, ümumiyyətlə, ağıllılıq nəyi buyurursa, cəsarət də onu edir. Buna görə əgər cəsarət ağıllılığın etmək üçün buyurduğu hərəkətlərə görə təqdirə layiqdirsə, onda ağıllılığın özü tamamilə həm təqdirə layiq, həm də məziyyət olmalıdır.

Ağılsızlığın həyata keçirilən **(praktikē)** fəaliyyət olub-olmaması haqqında aşağıdakılardan, məsələn, peşələrə və tikinti işlərinə diqqət yetirməklə nəticə çıxarmaq olar. Biz dediyimiz kimi tikintidə iki nəfər iştirak edir: biri memar adlanan, ikincisi isə – ona köməkçilik edib, evi tikən. Lakin memar da, madam ki, o, evi qurub-yaradır, həmçinin evin yaradıcısıdır. Yaradıcı fəaliyyətin digər növləri ilə də bağlı olan işlər belədir. Burada rəhbər **(arkhitektōr)** və onun köməkçisi iştirak edir. Beləliklə, rəhbərin qurub-yaratdığı şeyi onun köməkçisi də qurub, yaradır.

Əgər məziyyətlərlə də iş həqiqətən belədirsə, bu isə həm ehtimaldır, həm də həqiqətə uyğun, onda ağıllılıq həyata keçirilən məziyyət olmalıdır. Axı bütün məziyyətlər – fəaliyyət icraçılarıdır, ağıllılıq isə – onlar arasında bir növ memardır: o necə buyurursa, məziyyətlər və onların ardınca gələnlər elə də hərəkət edir. Buna görə də əgər məziyyətlər həyata keçirən və fəaliyyət göstərən [şeylər sırasındadırsa], onda ağıllılıq da həyata keçirən və fəaliyyət göstərən olmalıdır.

Bu məsələ də həllinin tapılmasını istəyir: ağıllılıq, ilk baxışda göründüyü kimi, qəlbdə hər şeydən üstündür, yoxsa yox? Ən yüksək [xassələr] üzərində, görünür ki, yox. Məsələn, müdriklikdən üstün deyil. Amma deyə bilərlər, ağıllılıq hər şeyin dərdinə qalır, o – buyuruq sahibidir[20]. Onu olsun ki, ev təsərrüfatını idarə edənlə müqayisə etmək olar. Doğrudan da, o, hər şeyin ağasıdır və hər şeyi idarə edir, bununla belə hər şeydən üstün deyil, sahibi isə boş vaxtla təmin edir ki, həyati tələbatların [qayğısı] ona ən gözəi və onun özünə münasib işlər görməyə mane olmasın. Bunun kimi ağıllılıq da, elə bil, müdrikliyin yanında təsərrüfat müdiridir, o ehtirasların qabağını alıb, onları yola verməklə **(sōphronidzoysa)**, müdrikliyi boş vaxtla təmin edir və ona öz işlərini görməyə imkan yaradır.



## İKİNCİ KİTAB (B)

1. Bundan sonra alicənablığı **(epieikeia)** nəzərdən keçirmək lazımdır, o nədir,, nədən ibarətdir və nəyə yönəlib. Alicənablıq və nəcib adam – odur ki, qanunla onun haqqı nəyə çatırsa, ondan da aza qane olur. Yəni elə şeylər var ki, qanunverici bu şeyləri ayrılıqda dəqiq müəyyənləşdirmək iqtidarında deyil, lakin onları xülasə adlandırır. Kim bununla razılaşıb, özü üçün qanunvericinin ayrılıqda müəyyənləşdirmək istədiyi, amma edə bilmədiyi şeyi seçirsə, o, nəcib adamdır. Bu, o demək deyil ki, o, ümumiyyətlə, özünün qanuni haqlarını qiymətdən salır. O, özünün adi və əsil haqlarını qiymətdən salmır, özünü onda qiymətdən salır ki, qanunla və qanunvericinin müəyyənləşdirmədiyi şeylərlə razılaşır.

2. Düşüncə və düşüncəli **(eygnōmōn)** alicənablığın toxunmuş olduğu şeylərə, yəni ədalətli, lakin qanunun müəyyənləşdirmədiyi şeylərə toxunur. Düşüncəli – qanunverici tərəfindən buraxılmış şeyləri mühakimə etmək iqtidarında olan və bununla belə buraxılan şeylərin ədalətli olduğunu başa düşən adamdır. Düşüncə alicənablıq olmadan olmur. Düşüncəli – o adamdır ki, o, özünə layiq olan surətdə mühakimə yürüdür; nəcib o adamdır ki, o, belə mühakiməyə uyğun olaraq fəaliyyət göstərir.

3. Düşüncəlilik **(eyboylia)** də ağıllılığın toxunmuş olduğu şeylərə toxunur, yəni o şeylərə ki, onları həyata keçirmək, seçmək, yaxud onlardan qaçmaq olur və bunlar ağıllılıq olmadan olmur. Bununla bərabər ağıllılıq belə şeylərdə fəaliyyət göstərməyə yönəlib, düşüncəlilik isə – fəaliyyətin ən gözəl və ən faydalı işlərə yetmək üçün yönəldiyi hal, vəziyyət və ya buna bənzər bir şeydir. Buna görə əgər nə isə kiminsə istəyiiə özlü-

yündə alınırsa, onda düşüncəliliyin burda, görünür ki, heç bir rolu yoxdur: o hallarda, hansı ki, ağıl ən yaxşının axtarışında iştirak etmir, kimdəsə onun istəyilə nə isə olduqda, biz onu düşüncəli adlandırmırıq, ancaq deyirik: onun bəxti gətirdi. Bəxtin gətirməsi – uğurdur, bunda fəaliyyət göstərən ağılın iştirakı yoxdur.

Adamlarla rəftar edən zaman özünü, özünə tən gələnlərlə bərabər tutmaq düzgündürmü? (Məsələn, deyək ki, hər hansı bir adamla münasibətdə olan zaman onu özün kimi bir adam hesab etmək). Yoxsa, daha çox, yox? Axı, görünür ki, yaltaqlar özlərini belə aparır. Eyni zamanda münasibətdə olarkən hər kəsə ləyaqətinə görə öz haqqını vermək, görünür ki, ədalətli və ləyaqətli adama xas olan cəhətdir.

Bax bu da çətinlik doğura bilər: əgər ədalətsizlik edilsə, – bu könüllü surətdə, bilərəkdən ziyan vurmaq deməkdir, həm də əgər ziyan və ədalətsizlik yaxşı şeylərlə əlaqədardırsa və yaxşıya qarşı yönəlibsə, onda ədalətsiz hərəkət edən, yəni haqsız müvafiq olaraq nəyin yaxşı, nəyin də pis olduğunu bilməlidir, belə şeyləri isə bilmək ağıllı adama və ağıllılığa xas olan cəhətdir. Həqiqətən, yanlışlıq əmələ gəlir: haqsıza çox böyük nemət olan – ağıllılıq xasdır. Yoxsa, daha çox haqsıza ağıllılıq xas deyil? Doğrudan da, haqsız, ümumiyyətlə, nəyin yaxşı, nəyinsə onun özü üçün yaxşı olduğunu ayırd etməyi bacarmadığından, səhv edir. Ağıllılığa isə belə şeyləri nəzərdən keçirmək xasdır. Burda işlər tibb elmindəki kimidir: bizim hamımız bilirik ki, ümumiyyətlə, cana xeyirli, sağlamlığa səbəb olan nədir, bilirik ki, asırqal bitkisi, işlətmə dərmanları, çərtmələr və müalicə məqsədilə dağlamalar şəfaverəndir və sağlamlığa səbəb olur, amma biz tibb elminə vaqif deyiiik, ona görə də ayrı-ayrı hallarda nəyin faydalı olduğunu bilmirik, ancaq həkim filan vasitənin, məhz kimin üçün, haçan və hansı halda yaxşı olduğunu bilir. Axı tibb



elmi də yalnız bundan ibarətdir. Biz isə, ümumiyyətlə, səhhət üçün xeyirli vasitələri bilsək də tibb elminə vaqif deyilik və onun bizimlə əlaqəsi yoxdur. Ədalətsiz adam da belədir: o bilir ki, özlüyündə hökmranlıq, idarəetmə və səlahiyyət yaxşı şeydir, amma bunun özü üçün yaxşı şey olub-olmadığını, həm də məhz haçan və özünün hansı vəziyyətində yaxşı olduğunu bilmir. Amma bunu bilmək – ağıllılığın əsas işidir, buna görə də ağıllılıq ədalətsiz adama xas olan cəhət deyil. Ədalətsiz adamın seçdiyi və düzgün istifadə etdiyi şeylər – faydalıdır, lakin özlüyündə faydalıdır, ondan ötrü yox: var-dövlət və səlahiyyət özlyüyndə yaxşı şeydir, amma bunlar ondan ötrü yaxşı olmaya bilər, çünki firavanlıq və səlahiyyət əldə etməklə o, həm özözünə, həm də dostlarına çoxlu yamanlıqlar edəcək, axı o, səlahiyyətdən düzgün yararlana bilməyəcək.

Düşünməyə vadar edən və müzakirəyə ehtiyacı olan bir də bax budur: yaramaz adama qarşı ədalətsizlik etmək olarmı? Yoxsa, yox? Axı əgər ədalətsizlik – ziyan [vurmaqdırsa], ziyan da firavanlıqdan məhrum olmaqdan ibarətdirsə, onda [ədalətsizlik] görünür ki, [yaramaz adama] zərər yetirmir: iş ondadır ki, rifah, hansı ki, yaramaz adam bunu özü üçün yaxşı şey sayır, onun üçün əsil rifah deyil. Var-dövlət və səlahiyyət bunlardan düzgün yararlanmağı bacarmayan yaramaz adam üçün zərərli olacaq. Beləliklə, əgər bunların olması yaramaz adama zərər yetirirsə, bunları onun əlindən alan adam, görünür ki, heç bir ədalətsizlik etmir. Kütləyə bu fikir, çox güman, qeyri-adi görünəcək: axı hamı düşünür ki, onlar səlahiyyət, güc və var-dövlətdən istifadə etməyi bacarır. Amma qanunvericilik təcrübəsi göstərir ki, bu fikir yanlışdır. Qanunverici hamıya başçılıq etməyə imkan vermir: hakimiyyət başında durmağa hazırlaşan adam üçün yaş və gəlir müəyyənləşdirilir, ona görə də hamı başçı olmaq iqtidarında deyil. Əgər ki, kimsə hakimiyyət başında olmamasın-

dan və idarə etməyə imkan verilməməsindən narazı qalsa, ona demək olar: sənin qəlbində o şey yoxdur, hansı ki, onun köməkliyi ilə sən başçılıq və idarə edə biləsən. Biz həmçinin görürük ki, özlüyündə yaxşı olan şeylər [xəstə] bədənə sağlamlıq gətirə bilmir, amma kim xəstə bədəni sağaltmaq istəyirsə, hər şeydən öncə su içməli və az miqdarda yemək qəbul etməlidir. Eləcə də pis qəlbə malik olan adama heç bir yaramaz iş görməməkdən ötrü, məgər var-dövlətdən, səlahiyyətdən, gücdən və bu kimi şeylərdən çəkinmək lazım deyilmi? Bunun kimi xəstə bədənə göstərilən həyat tərzi vacib olduğu tək, xəstə qəlbli insana da yuxarıda adları çəkilənlərdən heç birinə malik olmamaqla buna bənzər həyat keçirmək lazımdır.

Bu məsələ də çətinlik doğurur: əgər eyni zamanda həm cəsarətli, həm də ədalətli iş görmək olmursa, necə hərəkət etmək lazımdır? Biz artıq demişik ki, anadangəlmə məziyyətlər yalnız ən yaxşıya meyl edir, ancaq ağıla əsaslanmır. Seçim edən insan isə bunu ağılın və qəlbin mühakimə yürütmək qabiliyyəti olan hissəsinin köməkliyi ilə edir. Buna görə [belə adamda] seçmə də və biz dediyimiz kimi, ağıllılıqla birləşib, ən yaxşıya anadangəlmə meyli olan mükəmməl məziyyət də öz yerini tapır. Məziyyət məziyyətə qarşı çıxmaz, axı ağıla itaət etmək və onun buyurduğu kimi [hərəkət etmək] ona xas olan cəhətdir: o hara çəkmiş olsa, o da ora meyl edəcək. Ağıl isə daha yaxşını seçir. Başqa məziyyətlər ağıllılıq olmadan, mükəmməl ağıllılıq isə tək, digər məziyyətlərsiz olmur: onlar, ağıllılığa həmrah olmaqla, bir-birilə bir növ əməkdaşlıq edir **(synergoysi)**.

Bu məsələni də həll etmək çətindir: məziyyətlərlə də iş, başqa – xarici və bədənə aid olan nemətlərdəki kimidirmi? Bu nemətlər həddən artıq çox olduqda adamları korlayır. Məsələn, çoxlu var-dövlət adamları lovğa və xoşagəlməz hallara salmışdır. Bunu digər yaxşı şeylər – səlahiyyət, hörmət, gözəllik və əzəmət haqqında da demək olar. Məziyyətlə də iş belədirmi və insan artıqlaması ilə ədalətə, həm də cəsarətə malik olsa, o pismi olacaq? Yoxsa, yox? Əlbəttə, olmayacaq. Amma ki, məziyyət özünə qarşı hörmət yaradır, olduqca böyük hörmət isə insanları korlayır: məziyyət hörmətə səbəb olan şeydir, buna görə, artmaqla, məziyyət insanları korlaya bilər. Yoxsa bu belə deyil? Doğrudan da, baxmayaraq ki, məziyyətin bir çox başqa işləri var, bunlar içərisində ən başlıcası – belə və bu kimi nemətlərdən düzgün istifadə etmək bacarığıdır. Əgər həm böyük hörmət, həm də səlahiyyət sahibi olan ləyaqətli bir adam bunlardan düzgün yararlanmırsa, onda o artıq ləyaqətli adam sayıla bilməz. Nə hörmət, nə də səlahiyyət ləyaqətli adamı korlamır, deməli, məziyyət də onu korlamır.

Ümumiyyətlə isə, biz əvvəldə müəyyənləşdirdiyimiz kimi, məziyyətlər – ortadır və məziyyət nə qədər yüksəkdədirsə, o, bir o qədər də çox ortadır. Buna görə məziyyət, artdıqca, adamı pis deyil, daha yaxşı edir. Ehtirasların zəifliyilə onların çoxluğu arasında olan ortanı isə biz orta adlandırmışdıq.

4. Bu barədə deyilmişdi. İndi biz yeni mövzuya müraciət etməli, həm də təmkinlik və hövsələsizlik haqqında danışmalıyıq. Bu, həm məziyyətdir, həm də qeyri-adi qüsur **(atopoi)**; lazım gəldikdə onlar barəsində müzakirə də qeyri-adi olacaq. Bu məziyyət qalan məziyyətlərə oxşamır. Doğrudan da, digər məziyyətləri [əgər götürsək], onda ağıl və [yaxşı] duyğu eyni bir şeyə yönəlir və bir-birinə zidd getmir[1], bu halda isə ağıl və duyğu bir-birilə ziddiyyət təşkil edir.

Qəlbdə üç xüsusiyyət kök salıbdır ki, bunlara görə bizi yaramaz adlandırırlar: əxlaqsızlıq **(kakia)**, hövsələsizlik **(akrasia)**, vəhşilik. Əxlaqsızlıq və məziyyət haqqında, bunların nə və nə-

dən ibarət olması haqqında biz artıq yuxarıda danışmışdıq. İndi özbaşınalıq və vəhşilik haqqında danışmaq lazımdır.

5. Vəhşilik **(thēriotēs)** – bu, ifrat pozğunluqdur **(kakia)**. Haçan ki, tamam yaramaz bir adamı görürük, biz deyirik ki, bu adam deyil, vəhşidir, bununla da belə bir qüsurun – vəhşiliyin olmasını mümkün hesab edirik. Əks məziyyət adsız qalır: o, qəhrəman və ilahi bir məziyyət kimi insandan yüksəkdədir. Adsız ancaq məziyyətdir, ona görə ki, Allahın öz məziyyəti yoxdur: Allah hər bir məziyyətdən yüksəkdədir, həm də Onun dəyəri məziyyətlə müəyyənləşdirilmir, ona görə ki, bu halda məziyyət Allahdan yüksəkdə olar. Bax buna görə adsız məziyyət vəhşilik qüsuru ilə ziddiyyət təşkil edir. Bu qüsura qarşı insani deyil, ilahi [məziyyət] durur. Bunun kimi vəhşilik də, ona zidd olan məziyyət də – qeyri-insani qüsurdur.

6. Hövsələsizlik **(akrasias)** və təmkinliyə **(eg krateias)** dair tədqiqata, sual doğuran və göz qabağında olanlara aid olan şeylərdən başlamaq lazımdır ki, çətinliklərdən və ziddiyyətlərdən ibarət olan dəlilləri diqqətə çəkməklə, bu nə qədər mümkündürsə, onlar nəzərdən keçirilsin, araşdırılsın və bu şeylər haqqında həqiqət öyrənilsin. Həqiqəti görmək belə daha asan olar. Böyük Sokrat[2] hövsələsizliyi tamam aradan qaldırır, o, iddia edir ki, belə şey yoxdur, elan edir ki, heç kim bilə-bilə ki, bu pis şeydir, bunu özü üçün seçmir, hövsələsiz isə, görünür ki, pis işin pis olduğunu bilir, lakin ehtirasdan boğularkən, ona üstünlük verir. Bu səbəbə görə Sokrat güman edirdi ki, hövsələsizlik mövcud deyil. Lakin o, haqlı deyil. Bu fikrə inanıb, təcrübədə mövcudluğuna əmin olduğumuz şeyləri sezməmək mənasızdır. Hövsələsiz adamlar olur və onlar pis hərəkət etdiklərini bilirlər, amma belə də hərəkət edirlər. Əgər ki, hövsələsizlik



varsa, onda belə sual doğur: hövsələsiz hansısa bir biliyə **(epistēmēn)** malikdirmi, hansı ki, bunun köməkliyi ilə o görür və araşdırır ki, pis elə pisdir? Görünür ki, yox, ona görə ki, bizdə olan ən yaxşı və davamlı şeylərə nəyinsə üstün gəlməsi mənasız olardı, axı bilik – bizdə olan daimi və yenilməz şeyin özüdür ki, var. Beləliklə, [Sokratın] fikri daha bir dəlillə təkzib edilir – o dəlillə ki, [hövsələsizin] biliyi yoxdur.

Bilik yoxdur, amma, bəlkə, fikir var. Ancaq hövsələsizin fikri varsa, onu məzəmmət etmək olmaz. Axı o, əgər bunu, görünür ki, bilmədən, ancaq ehtimal edərəkdən nədəsə yaxşı iş görmürsə, onda ona o şeyi keçmək olar ki, o, həzzə uyub və görünür ki, bilmədən ancaq ehtimal edərəkdən pis hərəkət edib. O adamlarda ki, biz üzürlü səbəb tapırıq, onları məzəmmət etmirik, belə ki, əgər hövsələsiz ancaq təkcə fikrə malikdirsə, məzəmmətə tuş gəlmir. Lakin o, buna tuş gəlir.

Çıxılmaz vəziyyətə gətirib çıxaran fikirlər bax bunlardır: [hövsələsizin] biliyə malik olmamasını iddia edən dəlillər cəfəngiyyatdır, həmçinin onda fikrin olmamasını göstərən dəlillər də belə bir mənasız şeydir.

Bir də bax bu kimdəsə sual doğuracaq: tədbirli adam **(sōphrōn)** təmkinli hesab edilir, lakin o nəyə qarşısa güclü meyl hiss edirmi? Əgər o, təmkinlidirsə güclü meyl hiss etməlidir; axı özündə yalnız sakit meylləri saxlamağı bacaran adamı təmkinli adlandırmaq olmaz. Güclü meyllərlə çulğalanmış olan adam isə artıq tədbirli olmayacaq, ona görə də tədbirli o adamdır ki, o, bu cür meyl və ehtiraslara malik deyil[3].

Belə bir çətinlik də əmələ gəlir: deməyə əsas var ki, bəzi hallarda hövsələsiz təriflənir, təmkinli isə – məzəmmət olunur. Tutaq ki, deyirlər kimsə səhv düşünür və haçan ki, mühakimə yürüdür, yaxşı şeylər ona pis görünür, o isə yaxşını istəyir. Belə çıxır ki, ağıl ona hərəkət etməyə imkan vermir, lakin o, başı öz

istədiyinə qarışdığından [yenə də] hərəkət edəcək, axı hövsələsiz, məhz belədir. Və o, çox gözəl iş görəcək – doğrudan da, biz güman etdiyimiz kimi, istək onu buna sövq edəcək, ağıl isə mane olmağa başlayacaq – biz axı güman edirdik ki, o, özünün ən yaxşı haqqında olan fikirlərində səhv edir, belə adam hövsələsiz olsa da tərif olunacaq: onun gördüyü iş yaxşı olduğuna görə o, təqdirə layiqdir. Açıq-açığına cəfəngiyyat alınır. Daha belə bir ehtimal edək: insan səhv düşünür və gözəl şeylər ona gözəl görünmür; təmkinli odur ki, o, bir şeyi çox istəyir, amma etmir, çünki ağıl onun qabağını alır. Və budur gözəl şeylər haqqında səhv düşünən adam istədiyi işi etməyi özünə rəva görmür, o iş isə, hansı ki, o, bundan özünü saxlayır – yaxşı işdir, axı onu buna istəyi cəlb etmişdi. Amma lazım olan zamanda yaxşı iş görməyən adam məzəmmət olunmağa layiqdir. Deməli, təmkinli arabir məzəmmət olunacaq. Belə bir nəticə də mənasızdır.

Hövsələsizlik və hövsələsiz həmişəmi və hər şeyə münasibətdəmi [özünü göstərir] – məsələn, pula, hörmətə, qəzəbə, şan-şöhrətə münasibətdə; axı görünür ki, adamlar, məhz belə şeylərdə hövsələsiz olur, – yaxud, əksinə, hövsələsizlik müəyyən şeylərdə özünü göstərir? Bu məsələ də çətinlik törədə bilər.

Bizi çıxılmaz vəziyyətə salan belə şeylərdir. Lakin bu məsələləri həll etmək lazımdır. Birinci məsələ – bilik haqqındadır. Biliyə malik olan insanın bundan məhrum olması və ya dəyişilməsi mənasız görünürdü. Həminki dəlil fikirdən ötrü də öz qüvvəsini saxlayır, ona görə ki, burada söhbətin bilik haqqında, yaxud fikir haqqında getməsinin mənası yoxdur: əgər fikir öz qətiliyi və möhkəmliyi ilə güclüdürsə, onda insanlar o fikrə tərəfdar olur ki, hər şey elə onların gözünə göründüyü kimidir, bu zaman fikir bilikdən heç nəylə fərqlənməyəcək. Məsələn, Efesli



Heraklitin şeylər haqqında fikri beləydi, o şeylər haqqında ki, bunlar barədə onun öz fikri vardı.

Haqqında danışdığımız biliyə və ya belə bir fikrə malik olan hövsələsiz adamın yaramaz hərəkətində heç bir cəfəng şey yoxdur. İş ondadır ki, bilik iki cür olur: biliyə malik olmaq olar (biz deyirik ki, insan haçan biliyə malik olduğunu özü bilir), amma biliyin köməkliyi ilə də hərəkət etmək olar. Belə ki, hövsələsiz ən yaxşı haqqında biliyə malikdir, lakin bu biliyə uyğun hərəkət etmir. O, öz biliyinə müvafiq surətdə hərəkət etmədikdə, biliyə malik olsa da, pis hərəkət edəcək, bunda isə heç bir cəfəng şey yoxdur. Burda o şey baş verir ki, bu yatmış adamda olur: onlar biliyə malik olsalar da, amma yuxuda bir çox xoşagəlməz şeylər edir və buna məruz qalırlar, ona görə ki, bilik onlara təsir göstərmir. Hövsələsiz də özünü bu cür aparır. O, yatan adama bənzəyir və biliyin köməkliyi ilə hərəkət etmir. Bu çətinlik belə həll edilir. Ortaya sual çıxmışdı: hövsələsiz belə hallarda biliyi rədd edir, yoxsa onu dəyişdirir? Bu da, o biri də boş şeydir. Bu məsələyə aydınlıq gətirmək olar. Biz «Analitika»-da dediyimiz kimi sillogizm[4] iki mühakimədən ibarətdir: birinci – ümumi, ikinci isə – bundan asılı və xüsusi[5]. Məsələn: mən qızdırmadan əzab çəkən hər adamı sağaltmağı bacarıram; bax bu adam qızdırmadan əzab çəkir; deməli, mən onu da sağaltmağı bacararam. Ola bilsin ki, mən, ümumiyyətlə, bilikdən necə istifadə etməyi bilirəm, lakin ayrı-ayrı hallarda bilmirəm ki, bununla nə edim. Burada bilikli adam səhvə yol verə bilər: qızdırmadan əzab çəkən hər kəsi sağaltmağı [mən bacarıram], lakin bax bu adamın qızdırmadan əzab çəkdiyini bilmirəm. Hövsələsiz bilikli adam da belə səhv edir. Axı mümkündür ki, hövsələsiz hansı şeylərin zərərli və pis olması barədə ümumi biliyə malikdir, lakin bilmir ki, məhz ayrı-ayrı filan şeylər zərərlidir, buna görə də, biliyi ola-ola, o, səhvə yol verir. Onun biliyi ümu-

midir, ayrı-ayrı şeylər haqqında isə biliyi yoxdur. Deməli, hövsələsiz biliyi ola-ola səhv edirsə, bunda yenə də heç bir cəfəng şey yoxdur. Bu, keflilərdə olan kimidir. Keflilər sərxoşduqdan ayılan zaman yenə özlərinə qayıdırlar. Sərxoşluqdan sarsılmış olsalar da, nə ağıl, nə də bilik onları tərk etmir. Sərxoşluqdan ayıldıqdan sonra, bu adamlar yenidən özlərinə qayıdırlar. Hövsələsiz də özünü belə aparır: ehtiras güc gələrək onun düşüncəsini susmağa vadar edir, lakin, sərxoşluq kimi ehtiras onu tərk etdikdə, o, yenə də özünə qayıdır.

Hövsələsizlik haqqında daha bir fikir çıxılmaz vəziyyətə aparıb çıxara bilər: bu, arabir hövsələsizin təriflənməsi, təmkinlinin isə – məzəmmət olunması dəlilidir. Amma belə şey olmur. Doğrudan da, təmkinli və ya hövsələsiz – o adam deyil ki, o, öz fikrində aldanır, ancaq o adamdır ki, o, düzgün fikirləşir və bunun köməkliyi ilə nəyin pis, nəyin isə yaxşı olduğu barəsində mühakimə yürüdür. Hövsələsiz bu fikirlə hesablaşmır, təmkinli isə hesablaşır və ehtiraslarının dalınca düşmür. Axı təmkinli o adam deyil ki, o, atasını döymək istəyən zaman bundan özünü saxlayaraq onu döymür və o, düşünmür ki, atanı döymək biabırçılıqdır. Əgər belə hallarda təmkinliliyə və hövsələsizliyə yer yoxdursa, onda, görünür ki, hövsələsizlik, görünə bildiyi kimi, heç vaxt təriflənə, təmkinlik isə – məzəmmət oluna bilməz[6].

Hövsələsizlik anadangəlmə də qeyri-adi olur. Məsələn, belə qeyri-adi: bəzi adamlar saçlarını yolur və dırnaqlarını [gəmirir]. Əgər insan özündə bu səpgidə olan həzzi boğursa, onu tərifləmirlər, ancaq boğmursa – onu danlamırlar, yaxud yalnız yüngülcə danlayırlar. Anadangəlmə hövsələsizliyə isə misal bax budur: oğulu məhkəmədə ona görə mühakimə edirlər ki, o, atasını döyür, o da onunla bəraət qazanır ki, o biri də həmçinin öz atasını döyür – və oğul cəzadan canını qurtarır, çünki hakimlər qərara alır ki, bu cinayət anadangəlmədir.



Atasını döymək arzusunu özündə boğduğuna görə adamı tərif etmirlər. Biz isə indi hövsələsizliyin və təmkinliyin belə hallarını deyil, elələrini araşdırırıq ki, bunlara görə bizi açıq-açığına tərifləyirlər və məzəmmət edirlər. Üzdə olan dəyərlər olur, məsələn, var-dövlət, səlahiyyət, hörmət, dostlar, şan-şöhrət ; ehtiyaca görə bizə məxsus və bədənlə əlaqədar olan dəyərlər olur. Lamisə və dad (əgər kimsə bunda hövsələsizdirsə, onu, ümumiyyətlə, hövsələsiz hesab etmək olar), həm də duyğu orqanları ilə qavranılan həzlər bələlərindəndir. Bizim araşdırdığımız hövsələsizlik görünür ki, məhz bu axırıncılara aiddir.

Hövsələsizliyin daha nədə üzə çıxa bilməsi məsələsi çətinlik törətmişdi. Hörmətə qarşı [cəhddə] insan sözün həqiqi mənasında hövsələsiz olmur. Axı qarşısıalınmaz adam hörmətə qarşı cəhddə hərdənbir təqdirə layiq olur: o, şərəfi yüksək qiymətləndirir. Biz, ümumiyyətlə, bu kimi şeylərə münasibətdə hövsələsizlik haqqında danışarkən, əlavə edirik: hörmət, şöhrət [axtarışında] hövsələsizdir; qəzəbli halda özünü saxlaya bilməyəndir. Amma söhbət haçan ki, ümumiyyətlə, hövsələsiz haqqında gedir, biz əlavə etmirik – nədə, güman edərək ki, belədə də, heç bir şey əlavə etmədən, onun nədə hövsələsiz olması aydındır: hövsələsiz, ümumiyyətlə, cismani həzlərdə və məmnuniyyətsizliklərə aid olan şeylərdə hövsələsizdir.

Və daha bir səbəbə görə aydındır ki, hövsələsizlik, ümumiyyətlə, adları çəkilən şeylərə aiddir. Əgər hövsələsiz məzəmmətə tuş gəlirsə, onda [o hövsələsiz] olduğu şeylərdə də buna tuş gəlməlidir. Hörmət, şan-şöhrət, səlahiyyət, pul və digər şeylər, hansılar ki, bunlara münasibətdə adamları hövsələsiz adlandırırlar, məzəmmətə tuş gəlmir; duyğu orqanları ilə qavranılan həzlər isə tuş gəlir. Bax buna görə də, təbii olaraq, kim ki, bunlara lazım olduğundan çox uyursa, onu sözün əsl mənasında **(teleōs)** hövsələsiz adlandırırlar.

Dəqiqləşdirmə tələb edən hövsələsizliklər arasında insan özünü nədə, məhz hövsələsiz aparırsa, qəzəbli halda özünü saxlaya bilməmək məzəmmətə daha çox tuş gəlir. Qarşıya sual çıxır: məzəmmətə daha çox nə layiqdir – qəzəbli halda özünü saxlaya bilməmək, yoxsa həzdən özünü saxlaya bilməmək? Qəzəbli halda özünü saxlaya bilməmək o xidmətçilərə bənzəyir ki, onlar xidmət göstərməyə tam hazır vəziyyətdə durublar. Ağaya «gətir mənə» demək kifayətdir ki, onlar hər dəfə daşıyıb-gətirməyə hazırdırlar, məhz nəyi gətirmək lazım olduğunu eşitmədiklərindən isə səhv edirlər: kitabı gətirmək lazım olduqda, onlar tez-tez çaşıb, məktub üçün olan çubuğu gətirirlər. Qəzəbli halda özünü saxlaya bilməyən adam da onlara bənzəyir. O adama ilk «xətrimə dəydin» sözünü eşitmək kifayətdir ki, qəzəb onu hədəfə doğru qovur, yol vermir ki, sakitcə araşdırsın, qəzəblənmək lazımdırmı, yoxsa yox, yaxud lazımdır, lakin bu dərəcədə yox. Qəzəbli halda özünü saxlaya bilməməkdən meydana çıxan hiddətlənməni çox da pisləmək lazım deyil. Ancaq bax həzzə qarşı meyl məzəmmətə tuş gəlir. Bu hövsələsizlik birincidən fərqlənir: axırıncı halda insanın özünü həzdən saxlamağının məntiqə uyğun əsası var, lakin insan özünü ağılsız aparır: məhz buna görə belə hövsələsizlik qəzəbli halda özünü saxlaya bilməməkdən daha çox məzəmmətə tuş gəlir. Qəzəbli halda özünü saxlaya bilməmək – bu, məyusluqdur **(lypē)**, çünki elə bir adam yoxdur ki, o, qəzəblənəndə məyus olmasın. Əksinə, ehtiraslı halda özünü saxlaya bilməmək həzlə əlaqədardır, ona görə də o, böyük məzəmmətə layiqdir. Ehtiraslı halda özünü saxlaya bilməmək, görünür ki, lovğalıqla **(hybris)** bağlıdır.

Təmkinlik və hövsələ **(karteria)** eyni bir şeydirmi? Yoxsa, daha çox, yox? Təmkinlik həzzə aiddir və təmkinli – o adamdır ki, o, həzzə güc gəlir, hövsələ isə məyusluqla əlaqədardır, yəni dərdi-



qəmə səbrlə dözən – hövsələli adamdır. Ancaq hövsələsizlik və zəiflik **(malakia)** eyni bir şey deyil. Zəiflik və zəif – odur ki, başqaları belə çətinlik-lərə dözdükləri halda onlar dözmür. Hövsələsiz isə o adamdır ki, o, həzzin qarşısında dayana bilmir, zəiflik göstə-rir **(katamalakidzomenos)** bunlara aludə olur.

Bir də intizamsız **(akolastos)** adlandırılanlar olur. İntizamsız və hövsələsiz – eyni bir şeydirmi? Yoxsa, daha çox, yox? İntizamsız – o adamdır ki, o, özü üçün ən yaxşı və faydalı iş gördüyünü düşünür və heç bir məntiq ona xoş görünən şeyə qarşı çıxmır. Hövsələsiz isə özündə məntiq daşıyır, bu, öz növbəsində ehtirasın onu çəkdiyi şeylərə qarşı durur.

Kimi islah etmək asandır – intizamsızı, yoxsa hövsələsizi. İlk baxışdan görünür ki, hövsələsizi yox: intizamsız daha asan müalicə olunur, axı onda məntiqin meydana gəlməsi kifayətdir ki, bu ona pisin pis olduğunu öyrətsin və o, pis iş görməsin; hövsələsizdə isə məntiq var, amma yenə də [pis] hərəkət edir, belə ki, bu cür adam, görünür ki, müalicəolunmazdır.

Lakin digər tərəfdən kim pis vəziyyətdədir – o adammı, hansında ki, yaxşı heç bir şey yoxdur, yoxsa [o adam, hansında ki, ] pis xüsusiyyətlərlə bərabər, yaxşı bir şey də var? Görünür, birinci, xüsusən əgər onda ən dəyərli xüsusiyyət varsa. Hövsələsizdə ən yaxşı xüsusiyyət – onda olan məntiqin düzgün yol göstərməsidir **(orthos logos)**. İntizamsızlıqda bu yoxdur. Həm də: məntiq **(logos)** – hər adamın əsasıdır **(archē)**. Hövsələsizdə əsas, ən yüksək dəyər, yaxşı vəziyyətdə olur, intizamsızda – pis vəziyyətdə, deməli, intizamsız belə çıxır ki, özbaşınadan pisdir. Həm də bu vəhşiliklə əlaqədar məsələyə bənzəyir. Biz əxlaqsızlığı belə adlandırmışdıq, hansı ki, heyvanda deyil, insanda özünü göstərir: vəhşilik – həddən artıq olan pozğunluğun adıdır. Nəyə görə yalnız insanda? Başqa bir səbəbə görə deyil, ancaq o səbəb görə ki, heyvanın əsası xarab **(archē**

**playle)** deyil. Əsas – bu, məntiqdir **(logos)**[7]. Kim daha çox pislik edə bilər: şir, yoxsa Dionisi, Falarid, Klearx, yaxud da başqa bir yaramaz. Aydındır ki, onlar. Əsas xarab olduqda, o, başlıca surətdə [pis işlərə] səbəb olur; heyvanda isə heç bir əsas yoxdur. İntizamsız adamın əsası xarabdır: madam ki, o pis işlər görür, bunlarsa onun məntiqi ilə bəyəlinir və ona elə gəlir ki, belə də hərəkət etmək lazımdır, bu adamın əsası korlanıb. Belə çıxır ki, hövsələsiz yenə də intizamsızdan yaxşıdır.

Hövsələsizlik iki tərzdə olur. Biri – tez özündən çıxan, fikirləşmədən edilən, gözlənilməz hövsələsizlikdir. Belə ki, məsələn, gözəl bir qadın gördükdə, bizi dərhal bir hiss bürüyür və ehtirasdan bir şey etməyə, ola bilsin, yaramaz bir şey etməyə meyl yaranır. Hövsələsizliyin ikinci tərzi – bir növ qeyri-normaldır, fikirlər bir-birinə qarışaraq, fəaliyyətdən yayınır. Birinci tərz, görünür ki, çox tutarlı məzəmmətə tuş gəlmir; belə özbaşınalıq ləyaqətli, tez özündən çıxan və istedadlı insanlarda olur. İkinci tərz laqeyd və qaraqabaq adamlara xasdır **(psykhrois kai melagkholikois)**; onlar məzəmmətə tuş gəlir. Həm də: insan o halda hislərin təsiri altına düşmür ki, əsas **(logos)** onu çəkindirir; deməli, qəşəng bir qadın gəldikdə özünü saxlamaq lazımdır. Kimi ki, ilk təəssürat hövsələsiz etməyə qabildir, o adam, belə bir əsasla qorunmuş olaraq, duyğulanmayacaq və heç bir eyib iş görməyəcək. Ən çox o adam məzəmmətə layiqdir ki, o, belə hərəkət etməyin lazım olmadığını dərk edir, amma həzzə uyur və haldan düşür. Doğrudan da, ləyaqətli adam heç vaxt bu axırıncı tərzdəki kimi hövsələsiz olmaz və bundan başqa bu elə haldır ki, burda qoruyucu əsas şəfa verməyə qabil deyil. Bu məntiqə uyğun əsasın isə qəlbdə üstünlük təşkil etməsinə baxmayaraq, insan ona qətiyyən qulaq asmır, həzlərə uyur, haldan düşür və elə bil ki, düşgünləşir **(eksasthenei pōs)**.



Yuxarıda artıq bu məsələ qoyulmuşdu, tədbirli adam **(sophrōn)** təmkinlidirmi? Buna indi cavab verək. Tədbirli, bununla bərabər həm də təmkinlidir. Təmkinli yalnız o adam deyil ki, o, məntiqlə hərəkət edərək, öz ehtiraslarının qarşısını alır, həm də o adamdır ki, o, ehtiraslardan azad olduqda da belədir, əgər ki, onlar onda əmələ gəlsə, onların qarşısını almağı bacarır. Tədbirli o adamdır ki, onun ehtirasları sarsaq deyil, lakin onlar barədə düzgün fikrə malikdir; təmkinli o adamdır ki, o, sarsaq ehtiraslara malik olsa da, onlar barədə düzgün düşünür, belə ki, təmkinlilik tədbirliliyə həmrah olur, tədbirli də təmkinli olacaq. Amma, əksinə, təmkinli tədbirlidir demək olmaz. Axı tədbirli ehtiraslara dözmür, təmkinli isə dözür və ehtiraslara güc gəlir, yaxud bunlara malik olmağı bacarır. Tədbirlidə nə bu, nə də o biri yoxdur, buna görə də demək omaz ki, təmkinli tədbirlidir.

İntizamsız hövsələsizdirmi, hövsələsiz də – intizamsızdırmı? Yoxsa, daha çox, onlar arasında asılılıq yoxdur? Hövsələsiz – o adamdır ki, onun ağlı ehtiraslarla mübarizə aparır; intizamsız isə belə deyil, çünki onun ağlı sarsaq hərəkətlərlə razılaşır. Deməli, intizamsız hövsələsizə oxşamır, hövsələsiz isə intizamsıza. İntizamsız hövsələsizdən daha pisdir. Anadangəlmə olan şeyi yaxşı kökə salmaq, vərdiş halını alan şeyi düzəltməkdən daha çətindir, axı vərdiş də açıq-aşkar onunla güclüdür ki, o, xasiyyət olur. İntizamsız özlüyündə bir növ axmaq təbiətə malikdir, bax buna görə və bu səbəbdən onun ağlı qüsurludur; hövsələsiz isə belə deyil: axı ona görə yox ki, o, özlüyündə belədir, onun fikri **(logos)** qeyri-qənaətbəxşdir (əgər o anadangəlmə axmağa bənzəmiş olsaydı onun fikri gərəksiz olardı). Deməli, hövsələsiz vərdişlərinə görə yaxşı deyil, intizamsız isə – anadangəlmə. İntizamsızı islah etmək daha çətindir: bir adət başqa bir adətlə aradan qaldırılır, anadangəlmə isə heç nəylə aradan qalxmır.

Əgər hövsələsiz biliyə malikdirsə və səhvsiz fikirləşirsə, ancaq ağıllı da hər şeydə düzgün mühakimə yürüdürsə **(logoi orthōi)**, onda ağıllı hövsələsiz ola bilər, yoxsa yox? Deyilənlər çətinlik törədə bilər. Əgər biz əvvəllər iddia etdiklərimizin ardınca getsək, onda ağıllı hövsələsiz olmur. Axı biz demişdik ki, ağıllıya yalnız düzgün düşünmək deyil, həm də o işi görmək xasdır ki, düşüncə onu ən yaxşı iş hesab edir. Əgər ki, ağıllı ən yaxşı cəhətdən hərəkət edirsə, onda o artıq hövsələsiz ola bilmir. Ancaq hövsələsiz hazırcavab ola bilər. Doğrudan da, yuxarıda biz ağıllı və hazırcavab arasında fərq qoyduq, onlar eyni şey olmasa da, eyni şeylərlə əlaqədardır, lakin biri nə lazımdırsa, onu edir, o birinin isə bunu etməsi mütləq deyil. Madam ki, hazırcavab lazım olan şeyi etməyə bilir, deməli o, hövsələsiz ola bilir, ağıllı isə hövsələsiz ola bilmir.

7. İndi həzz və ya zövq **(hēdonēs)** haqqında məsələyə keçək, çünki biz xoşbəxtlik **(eydaimonias)** haqqında söhbət aparırıq. Xoşbəxtlik isə, hamı düşündüyü kimi, – ya həzz, həm də xoş həyatdır, ya da həzsiz keçməyən [həyat]. Bəziləri, əksinə, həzzi pisləyir və həzzin yaxşı şeylərə aid olmadığına əmin deyil, lakin hər halda xətərsizliyi **(to alypon)** buna aid edirlər, xətərsizlik isə, əlbəttə, həzzə yaxındır. Beləliklə, həzz haqqında yalnız ona görə danışmaq lazım deyil ki, başqaları bunu gərəkli sayır, həm də ona görə ki, həzz haqqında danışmaq vacibdir, çünki söhbət xoşbəxtlikdən gedir, xoşbəxtlik isə, biz müəyyənləşdirdiyimiz və iddia etdiyimiz kimi – mükəmməl həyatda məziyyətin fəaliyyətidir, məziyyət isə həzz, həm də məyusluqla əlaqədardır. Həzz haqqında danışmaq ona görə vacibdir ki, xoşbəxtlik həzsiz olmur.

Hər şeydən öncə o adamların dəlillərini bir-bir söyləyək ki, onlar həzzin yaxşı şeylərə aid olmadığını düşünür. Birincisi, onlar deyir ki, həzz – təşəkkül tapmadır **(genēsin)**, təşəkkül tapma isə natamam bir şeydir; ikincisi, guya sarsaq həzlər də olur, yaxşı şey isə heç bir sarsaq şeydən ibarət deyil; və bir də həzz ona görə yaxşı şey deyil ki, o, hamıya xasdır: axmağa və ləyaqətliyə, həm də zalıma və qammaza; yaxşı şey isə sarsaq şeylə qarışmır və çoxları üçün ümumi olmur. Bundan başqa həzz – ən yaxşı olan şey deyil, yaxşı şey isə odur ki, – o hər şeydən yaxşıdır. Və nəhayət, həzz yaxşı hərəkət etməyə mane olur, yaxşıya mane olan şeysə, yaxşı şey ola bilməz.

Hər şeydən öncə zövqün təşəkkül tapma olduğunu əsaslandıran birinci dəlili müzakirə etmək lazımdır, bunun isə həqiqətə uyğun olmadığını göstərmək üçün bu məsələni həll etməyə çalışaq. Doğrudan da, hər həzz təşəkkül tapma deyil. Məsələn, tamaşa etməkdən **(theōrein)** alınan həzz qulaq asmadan, baxmaqdan, iy duyğusundan alınan həzz kimi təşəkkül tapma deyil, çünki o digər hallarda, məsələn, yeməkdə yaxud içməkdə olduğu kimi çatışmayan bir şeyin [yerini doldurmur]. Bu kimi hallar kiminsə yoxsullaşmasına və ya artıq olmasına o mənada səbəb olur ki, burada əksiyin yeri dolur, yaxud artıq aradan qaldırılır; buna görə o, sanki təşəkkül tapmadır. Əksik və artıq isə kədərləndiricidir; deməli, məyusluq burda həzz kimi görünən təşəkkül tapmadan əvvəl olur. Lakin, əlbəttə, heç bir məyusluq görməni, eşitməni, hiss duyğusunu qabaqcadan xəbər vermir: heç kim buna qədər görmədən və ya iydən aldığı zövqdən məyusluq hiss etməyib, eləcə də fikrə gedən adam əzaba qatlaşmazdan öncə kiməsə tamaşa etməkdən həzz ala bilər. Əgər ki, həzz, onlar əsaslandırdığı kimi, təşəkkül tapma olduğuna görə yaxşı deyilsə, lakin həzz də olur ki, o təşəkkül tapma deyil, onda həzz yaxşı şey ola blər.

Üstəlik, heç bir həzz, ümumiyyətlə, təşəkkül tapma deyil, ona görə ki, hətta yemək və içməyin gətirdiyi zövq təşəkkül tapma

deyil və kim ki, bütün bu kimi zövqləri təşəkkül tapma adlandırır, onlar yanılır. Onlar hesab edir ki, madam ki, həzz yemək qəbulu zamanı əmələ gəlir, demək o, təşəkkül tapmadır. Ancaq bu belə deyil. Qəlbdə bir hissə var ki, özümüzə lazım olan bir şeyi istehlak etdikdə, bunun sayəsində biz zövq alırıq. Qəlbin bu hissəsi fəaliyyət göstərir və hərəkət edir; onun fəaliyyəti və onun hərəkəti, zövqün özüdür ki, var. Qəlbin bu hissəsinin qida qəbuluna təsir etməsi üzündən, yaxud onun fəaliyyəti üzündən onlar zövqü təşəkkül tapma adlandırırlar, çünki qida qəbulu aşkardadır, qəlbin bu hissəsi isə aşkarda deyil[8]. Görünür, elə vaxt olur ki, insanın vücud olduğunu düşünürlər, çünki vücud hiss ediləndir, qəlb isə – yox. Amma qəlb də mövcuddur. Belə bir şey burda da öz yerini tapır. Qəlbin nə isə bir hissəsi var ki, bunun vasitəsi ilə zövq duyuruq, bu hissə isə yemək yedikdə fəaliyyət göstərir. Buna görə də heç bir zövq təşəkkül tapma deyil.

Eyni zamanda sübut etməyə çalışırlar ki, [həzz]–təbii vəziyyətin əhəmiyyətli dərəcədə bərpasıdır **(apokatastasis)**. Amma [biz etiraz edirik], o adamlar da zövq alırlar ki, onlar təbii olan şeyi əvvəlki vəziyyətinə qaytarmırlar. Axı təbii olan şeyin əvvəlki vəziyyətinə qaytarılması – təbii çatışmazlığın yerini doldurmaq deməkdir. Zövqü isə, biz təsdiq edirik ki, nədəsə çatışmazlıq olmadan da duymaq olar. Axı bir şey çatışmayan yerdə dərd olur. Biz isə deyirik ki, dərdsiz və dərdə mübtəla olmamışa qədər həzz almaq olar. Deməli, zövq – əsla çatışmazlığın əvvəlki vəziyyətinə qaytarılması deyil, çünki bu cür [kədərlə bağlı olmayan] zövqlərdə çatışmazlıq olmur. Beləliklə, əgər zövqü təşəkkül tapma olduğuna görə yaxşı şey hesab etmirlərsə, həqiqətən də, heç bir zövq təşəkkül tapma deyii, onda burdan belə çıxır ki, zövq tamamilə yaxşı şey də ola bilər.

Digərləri, bununla belə, təsdiq edir ki, hər zövq – yaxşı şey deyil. Bunu, çox güman, aşağıdakı qaydada anlamaq olar.



Biz təsdiq etdiyimiz kimi, hər bir kateqoriyada bu iştər mahiyyət olsun, istər miqdar, istər zaman, istərsə də, ümumiyyətlə, hər hansı bir kateqoriya, söhbət yaxşı şeydən getdiyinə görə aşağıdakılar bəllidir: hər bir firavanlıq şəraitində həzz olur, yaxşı şey isə bütün kateqoriyalarda özünə yer tapır, buna görə zövq də yaxşı şeydir. Beləliklə, madam ki, bunlarda, [kateqoriyalarda], həm firavanlıq, həm də zövq var, zövq isə – yaxşı şeylərdən alınan həzdir, onda hər bir zövq yaxşı şey olacaq[9]. Burdan o da aydın olur ki, zövq müxtəlif tərzlərdə olur. Axı həzzin özünə yer tapdığı kateqoriyalar da müxtəlifdir. Burdakı məsələ elmdə olduğundan fərqlidir – məsələn, qrammatikada və ya başqa bir elmdə olduğu kimi deyil. Əgər Lampрın qrammatikadan başı çıxırsa, onda o, bir qrammatik kimi özünün qrammatika sənətinə görə qrammatikadan başı çıxan hər hansı bir adamla eyni keyfiyyətə malik olacaq, çünki ikinci ayrı qrammatika yoxdur: biri Lamprdan ötrü, digəri İldən ötrü. Lakin həzzə gəldikdə hər şey başqa cür olur: sərxoşluğun gətirdiyi həzlə, cinsi əlaqə zamanı olan həzz eyni cür deyil. Bu yolla məlum olur ki, zövqlər öz tərzinə görə müxtəlifdir.

Bəzi zövqlərin sarsaq olması da bir əsas kimi həmçinin onları vadar edirdi ki, onlar həzzi yaxşı şey sayma-sınlar. Bu cür əsas və belə bir qiymət yalnız zövqə deyil, həm də xassəyə və elmə aid edilir. Xassə alçaq **(playle)** olur, məsələn, soxulcanlarda, böcəklərdə və ümumiyyətlə, iyrənc heyvanlarda, lakin burdan elə çıxmır ki, özlüyündə xassə alcaq şeylərə aiddir. Aşağı elmlər də belə olur, məsələn, peşələr, lakin elm buna görə yenə alçaq şey deyil. Elm də, xassə də özünün mahiyyətinə görə yaxşı şeydir. Heykəltaraşın necə olduğunu görməkdən ötrü onda alınmayan və onun pis düzəltdiyi şeylərə deyil, onda yaxşı alınan şeylərə baxmaq lazımdır; elm, xassə və digər bütün şeylər barəsində də bu tərzdə mühakimə yürütmək

lazımdır, onlar sarsaq növlərinə görə deyil, yaxşı növlərinə görə necədir. Həzz də bunun kimi – özünə görə yaxşı şeydir, hərçənd sarsaq zövqlərin olduğunu da yaddan çıxarmırıq. Madam ki, canlı varlıqlar müxtəlif – yaxşı və alçaq xassələrə malikdir, insanda, məsələn, bu yaxşıdır, canavarda və digər heyvanlarda isə – alçaqdır, eləcə də at və insanın, eşşək və itin təbiəti eyni deyil, həzz isə – qeyri-təbii haldan təbii hala keçməlidir, hansı ki, hər kəsin özünə məxsusdur, onda belə xüsusiyyət öz yerini tapmalıdır: alçaq xassədə – alçaq həzz olur. Doğrudan da, atla insana eyni şey xas deyil, eləcə də digər [heyvanlara], lakin bir halda ki, xassələr eyni deyil, onda zövqlər də eyni deyil. Zövq, [müzakirə edilən fikrin tərəfdarlarının] müəyyənləşdiyi kimi – təşəkkül tapmadır **(apokatastasis)**, həm də onlar dediyi kimi xassələrin əvvəlki vəziyyətinə qaytarılmasıdır, belə ki, alçaq xassənin əvvəlki vəziyyətinə qaytarılması alçaqdır, yaxşının isə – yaxşı.

Lakin özlüyündə həzzi yaxşı bir şey hesab etməyənlər təxminən belə vəziyyətdə olurlar, necə ki, nektarın nə olduğunu bilməyən adamlar, düşünür ki, allahlar şərab içir, şərabdan isə daha ləzzətli heç bir şey yoxdur. Belə şey onlarda bilməməzlikdən olur. Bu cür şeylər, kimlər ki, bütün zövqləri törəmə hesab edir, onlarla da baş verir, ona görə də bunları yaxşı şey saymırlar: onlara yalnız cismani həzz məlumdur, onlar başa düşürlər ki, bu təşəkkül tapmadır, yəni dəyərsiz şeydir, buna görə də həzzi, ümumiyyətlə, yaxşı şey hesab etmirlər. Madam ki, həzz həm xassənin əvvəlki vəziyyətinə qaytarılması olan yerdə, həm də artıq onun əvvəli vəziyyətinə qaytarılmış olduğu yerdə olur, həm də nəzərə almaq lazımdır ki, harda çatışmazlığın yeri dolursa, orda zövq əvvəlki vəziyyətinə qaytarılmış olur, əvvəlki vəziyyətinə qaytarılmış xassənin zövqü isə – zövqün görmədən, eşitmədən və bu kimi şeylərdən baş verdiyi yerdə olur,



onda artıq əvvəlki vəziyyətinə qaytarılmış xassənin fəaliyyəti, çox güman, ən yüksək hesab ediləcək. Bu və o biri tərzin zövqü – fəaliyyətdir. Buna görə də, əgər cismani zövq – çatışmazlığın yerinin doldurulmasından alınan həzdirsə, görünür ki, görmədən, eşitmədən və fikirləşmədən **(philotmias)** alınan həzz daha yaxşı olmalıdır.

Həzzi bir də ona görə yaxşı şey hesab etmirlər ki, guya, hər şeydə olmaq, həm də hamı üçün ümumi olmaq yaxşı şey deyil. Amma bu əsas daha çox şöhrətpərəst adama və şöhrətpərəstliyə **(philotimias)** xasdır. Şöhrətpərəst adam yeganə sahib olmaq istəyir, bununla isə başqalarını geridə buraxır. Deməli, [o düşünür ki,] həzz də yaxşı şey olmaqdan ötrü təxminən belə bir şey olmalıdır. Lakin, bəlkə də, bu belə deyil? Məgər, əksinə, bu yaxşı şey hesab edildiyinə görə hamı buna can atmırmı? Axı hamı təbii olaraq yaxşı şeyə can atır. Və əgər hamı həzzə can atırsa, onda həzz özlüyündə yaxşı şey olmalıdır.

Həm də həzzi ona görə yaxşı şey hesab etmədilər ki, o, əngəldir. Zövqü əngəl adlandırmağa vadar edən, görünür ki, aparılmayan araşdırma üsuludur **(mē orthos skopein)**. Doğrudan da, həzz yerinə yetirilən işə əngəl deyil, lakin əgər bu nə isə başqa bir şeydə həzdirsə, onda əngəldir, məsələn, sərxoşluqdakı həzz – işə əngəldir, lakin bu mənada elm də elmə əngəl olacaq, ona görə ki, eyni vaxtda iki elmdə çalışmaq olmaz. Amma elm zövq gətirdiyi halda, məgər yaxşı şey deyilmi? Məgər o, buna əngəl törədir? Yoxsa, daha çox, əksinə – adam çox iş görərdi? Doğrudan da, həzz fəaliyyətdə daha səylə işləmək həvəsi oyadır: məsələn, ləyaqətli adamı xeyirxahlıq etməyə, həm də bunları həzlə etməyə vadar et, məgər iş əsnasında onun səyi artmayacaqmı? Həm də kim işi zövqlə görürsə, o, ləyaqətli adamdır, ancaq çox gözəl işi övqatı təlx halda gö-

rürsə, onda ləyaqətsizdir. Axı məyusluq məcburi işlərlə eyni zamanda baş verir, əgər kim isə çox gözəl işləri kədərlə həyata keçirirsə, o, bunları məcburən edir, məcburiyyət qarşısında hərəkət edənsə, – ləyaqətsiz adamdır. Üstəlik, xeyirxah işləri əzab çəkmədən və ya həzz almadan etmək mümkün deyil. Orta yol yoxdur. Nəyə görə? Ona görə ki, xeyirxahlıq hisslərin artıb-əksilməsi ilə **(en pathei)** özünü göstərir. Hisslərin artıb-əksilməsi isə məyusluqla və həzlə bağlıdır, hansı ki, bunların arasında hisslərin heç bir artıb-əksilməsi yoxdur. Burdan aydındır ki, xeyirxahlıq da ya məyusluqla, ya da həzlə bağlıdır. Çox gözəl işi təlx övqatla görən – ləyaqətsiz adamdır. Buna görə xeyirxahlıq məyusluqla bağlı olmamalıdır; deməli, o, zövqlə bağlı olmalıdır. Beləliklə, həzz nəinki əngəl deyil, hətta daha çox fəaliyyətə meyldir, ümumiyyətlə, o, zövq vermədən xeyirxahlıq da ola bilmir.

Belə bir əsas da vardı: heç bir elm **(epistēmē)** zövq vermir[10]. Bu da həqiqətə uyğun deyil. Axı aşpazlar, çələng hörənlər, ətir düzəldənlər zövq gətirir. Digər elmlərdə zövq həqiqətən onların məqsədi deyil, buna rəğmən həzz bunlarla da bağlıdır və [bu elmlərlə məşğulluq zövqsüz olmur]. Deməli, elm də zövq verir.

Belə əsas da gətirilmişdi: həzz – ən yaxşı şey deyil. Lakin, belə düşünərkən, eyni uğurla məziyyətin az təsadüf edilən [növlərini də] aradan qaldırmaq olar. Cəsarət – ən yaxşı şey deyil, amma, o məgər heç yaxşı şey deyilmi? Mənasız bir şey alınmırmı? Digər məziyyətlərlə də iş belədir. Həzz ən yaxşı şey olmasa da, onun yaxşı şey olduğunu inkar etmək olmaz.

Əgər indi xeyirxahlığa diqqət yetirsək, onda bax belə çətinlik meydana çıxa bilər: məlumdur ki, ağıl hissləri özünə tabe etməyə qabildir (biz təmkinli adam haqqında danışırıq), əks istiqamətdə hərəkət edən hisslər də ağılı özünə tabe etməyə qa-



bildir, necə ki, bu, hövsələsiz adamlarda olur; əgər o halı götürsək, yəni haçan ki, qəlbin şüurdankənar hissəsi, əxlaqsızlıq **(kakian)** burda yerləşir, doğru məsləkə qulluq edən ağılı **(logoy ey diakeimenoy)** özünə ta-be edir (hövsələsiz belədir), həmçinin bu halı da götürsək, yəni haçan ki, pis məsləkə qulluq edən ağıl **(logos faulōs diakeimenos)**. Xeyirxahlıqdan ibarət olan doğru məsləkə qulluq edən hissləri özünə tabe edir, onda belə çıxır ki, xeyirxahlıqdan şər məqsədilə istifadə etmək olar (çünki pis məsləkə qulluq edən ağıl, hətta xeyirxahlıqdan istifadə etsə də, onu şərə çevirəcək). Görünür ki, mənasız şey alınır.

Belə müddəanı təkzib etmək və məsələni artıq bizim xeyirxahlıq haqqında dediklərimizə əsaslanaraq həll etmək asandır. Xeyirxahlıq, biz qəbul etdliyimiz kimi, doğru məsləkə qulluq edən ağıl, hansı ki, əsil xeyirxahlıq ona məxsusdur, hisslərin artıb-əksilməsinə uyğun olduqda, hisslərin artıb-əksilməsi isə ağıla uyğun olduqda meydana çıxır. Bu halda ağıl və hisslər bir-birinə həmahəng olur, belə ki, ağıla həmişə yaxşı şeyi əmr etmək xas olacaq, doğru məsləkə qulluq edən hisslər isə – ağıl nə əmr edirsə, onların hamısını asan yerinə yetirəcək. Harda ki, ağıl doğru məsləkə qulluq etmir, hisslər isə doğru məsləkə qulluq edir, orada xeyirxahlığa yer yoxdur, çünki [doğru məsləkə qulluq edən] ağıl yoxdur, xeyirxahlıq isə bundan və o birindən əmələ gəlir. Bax buna görə də xeyirxahlıqdan şər məqsədilə istifadə etməyə heç bir imkan verilmir.

Ümumiyyətlə, bəzilərinin fikrinin əksinə olaraq, xeyirxahlıqların başlanğıcı və rəhbəri – ağıl yox, daha çox hisslərin artıb-əksilməsidir **(ta pathē)**. Əvvəlcə ən yaxşıya qarşı düşünülməmiş bir meyl **(hormēn alogon)** əmələ gəlməlidir – necə ki, bu da olur, – sonra isə artıq ağıl qərar çıxarır və münsiflik edir. Bunu uşaqlarda və dilsiz-ağılsız heyvanlarda müşahidə etmək olar: onlarda əvvəlcə ağlın iştirakı olmadan hisslərdə ən yaxşıya

**(kalon)** qarşı meyl əmələ gəlir, sonrasa artıq ağıl, onlarla razılaşaraq, ən gözəl işlərin başa çatmasına kömək edir. Lakin haçan ki, ən yaxşıya qarşı cəhd öz başlanğıcını ağıldan götürür, işlər bu cür olmur: hislər onunla tamamilə həmrəy olmur və tez-tez ona qarşı çıxır. Buna görə ağıl deyil, daha çox doğru məsləkə qulluq edən hislərin artıb-əksilməsi **(pathos ey diakeimenon)** xeyirxahlığa səbəb **(archēi)** olur.

8. Əgər bizim söhbətimiz xoşbəxtlik haqqında gedirsə, bunun ardınca biz təsadüfi uğur **(ey tykhias)** haqqında da danışmalıyıq. Kütlə düşünür ki, xoşbəxt həyat – uğurlu və ya uğurdan məhrum olmayan həyatdır; və o, deyəsən, haqlıdır, çünki təsadüfi uğurun bəxş etdiyi yaxşı şeylər olmadan xoşbəxt olmaq olmaz. Buna görə uğur barədə danışmaq lazımdır və o haqda ki, sözün həqiqi mənasında **(laplōs eytykhēs)** bəxti belə üzdə olan kimdir, bu nəyə görə, həm də nə ilə əlaqədar olur.

Hər şeydən öncə artıq burda, əgər düşünsək, çətinlik meydana çıxa bilər. Heç kim deməz ki, təsadüf – xassədir. Harda ki, xassə – nə isə bir şeyə səbəb olursa, orada o, adətən, hər dəfə eyni işi görür, təsadüf isə belə yox, nizamsız, necə gəldi **(hōs etykhen)** fəaliyyət göstərir, buna görə də təsadüfün bu kimi şeylərə uyğun olduğunu söyləyirlər. Həmçinin demək olmaz ki, təsadüf ağıla və ya düzgün mühakiməyə bənzər bir şeydir, çünki bunlarda da, əsla təsadüf yox, nizama salma və dəyişməzlik az deyil. Harda ki, ağıl və düzgün mühakimə daha çox fəaliyyət göstərir, orada təsadüf azdır, ancaq harda ki, təsadüf üçün geniş meydan var, orada ağıla az meydan verilir. Lakin, ola bilsin, təsadüfi uğur – bu, allahların göstərdiyi bir qayğıdır **(epimeleia)**? Ya da, ola bilsin, belə düşünmək olmaz? Allah, biz hesab edirik ki, bu kimi şeylərin üzərində ağadır, həm də yaxşı və pis şeyləri əmələ görə bölüşdürür.



Əgər biz güman etsək ki, Allah təsadüfən bölüşdürür, onda Onu pis və ədalətsiz hakim hesab edərdik. Ancaq belə şey Allaha yaraşmır. Və hər halda təsadüfi sadalanan şeylərdən başqa bir şeyə aid etmək olmaz, buna görə aydındır ki, o, məhz buna aiddir. Bununla bərabər ağıl, mülahizə, elm, görünür ki, təsadüfdən tamam fərqlidir. Digər tərəfdən Allahın nə qayğısını, nə də iltifatını xoşbəxt təsadüf kimi qəbul etmək olmaz, çünki bu yaramazlara da düşür, yaramazların dərdinə qalmaqsa Allaha xas deyil. O qalır ki, xassə uğura hər şeydən yaxındır.

Uğur və təsadüf **(eytykhia kai tykhē)** – bizdən asılı şey deyil, biz bu işdə ixtiyar sahibi deyilik və özümüzün heç nə etməyə gücümüz çatmır. Buna görə, biz buna qadir olsaq da, olmasaq da, ədalətli adamı ədalətli olduğuna görə bəxti üzdə olan adlandırmırlar, cəsuru da belə adlandırmırlar və ümumiyyətlə, heç kəsi məziyyətinə görə belə adlandırmırlar. Böyük bir haqla aşağıda göstərilən şeyləri müvafiq olaraq uğur barəsində demək olar: biz əsli-nəcabətli adamı, ümumiyyətlə isə, belə yaxşı şeylərə mənsub olan hər kəsi, hansılar ki, ondan asılı deyil, bəxti üzdə olan adlandırırıq. Amma burda da təsadüfi uğur sözün əsil mənasında **(kyriōs)** işlənmir. Bəxti üzdə olan çox məna kəsb edir: biz o adamı bəxti üzdə olan adlandırırıq ki, o kəsə ehtimalının əksinə olaraq nə isə yaxşı bir şey etmək nəsib olur, həm də gözlənilən ziyanın əvəzinə gəlir əldə edəni bəxti üzdə olan adlandırırıq.

Beləliklə, uğur ondan ibarətdir ki, biz mülahizə etmədiyimiz xeyri əldə edirik və gözlədiyimiz yamanlığa məruz qalmırıq. Bununla bərabər xeyir əldə etmək, məhz təsadüfi uğura xasdır: nə isə yaxşı bir şey əldə etmək – təsadüfi uğurun özüdür ki, var; yamanlığa məruz qalmamaq isə gəldi-gedər olan **(kata simbebēkos)** xoşbəxt təsadüfdür. Təsadüfi uğur, beləliklə, – bir xassədir ki, düşünülmədən fəaliyyət göstərir. Bəxti

üzdə olan o adamdır ki, o, haq-hesab bilmədən **(aney logoy)** yaxşı şeylərə can atır və onları tapır, bu isə xasiyyətə xasdır, çünki qəlbdə yaranışımızdan elə bir şey gizlənmişdir ki, bunun sayəsində biz haq-hesab bilmədən hər şeyə can atırıq, bu da bizə yaxşı şərait **(ey ekhōmen)** qismət edir. Əgər belə hərəkət edən adamdan soruşsan: «Bax bunu etmək nəyə görə sənin xoşuna gəlir?» O, cavab verəcək: «Bilmirəm, ancaq mənim xoşuma gəlir və ruhlanmış adamlar **(enthoysiadzoysin)** nə hiss edirsə, mən də onu hiss edirəm». Ruhlanmış adamlar fikirləşmədən nə isə bir şey **(prattein ti)** etməyə səy göstərməyin dəlisidir.

Təsadüfi uğur üçün bizdə ayrıca olaraq buna uyğun gələn, xüsusi bir ad yoxdur, lakin biz tez-tez bunun haqqında bir səbəb kimi danışırıq. Səbəb, bununla belə, uğur anlayışına yad bir şeydir[11], çünki səbəb və onun nəyəsə bais olması – ayrı-ayrı şeylərdir. Haçan ki, yaxşı şeylər tapmağa heç bir səy göstərilmir, təsadüfi uğuru onda da səbəb adlandırırlar, – məsələn, pis bir işdən qurtardıqda, yaxud, əksinə, xeyir əldə etməyi düşünmədən xeyir əldə etdikdə. Belə uğur birincidən fərqlidir və şəraitə uyğun gəldikdə olur; bu uğur həqiqi mənada deyil, gəldi-gedərdir. Buna görə o təsadüfi uğur olsa da, amma xoşbəxtlik, görünür ki, insanın daxilində gizlənmiş yaxşı şeylərə qarşı olan ən adi meyllə bağlıdır. Madam ki, yaxşı şeylər olmadan xoşbəxtlik olmur, bunlar isə, biz bir az bundan qabaq dediyimiz kimi, təsadüfi uğurdan olur, onda belə uğur onun köməkçisi **(synergos)** olmalıdır. Təsadüfi uğur barəsində biz belə deyirik.

9. Biz hər məziyyət haqqında ayrı-ayrılıqda danışmışıq; indi, çox güman, xüsusiyyətləri bir tam kimi toplayıb, ümumiləşdirmək qalır. Doğrudan da, çox yaxşı insanla əlaqədar yaxşı bir ad var – əxlaqı gözəl **(kalokagathia)**. Tamamilə ləyaqətli olan **(teleōs spoydaios)** adamı çox gözəl əxlaqa malik olan adlandırırlar. Axı əxlaqı gözəl olan haqqında məziyyət xüsusunda danışırlar: ədalətli, cəsarətli, tədbirli və ümumiyyətlə, bütün məziyyətlərə malik olan [adamı] çox gözəl əxlaqa malik olan adlandırırlar.



Bölməni ikiyə tətbiq edərək, biz bəzi şeyləri çox yaxşıya **(kala)**, digərlərini – yaxşıya **(agatha)** aid edirik, yaxşılardan isə bəziləri özlüyündə **(haplōs)** yaxşıdır, digərləri – yox. Və ən yaxşı şeylərə biz məziyyətləri, həm də xeyirxah işləri aid edirik, yaxşılara isə – səlahiyyət, var-dövlət, şan-şöhrət, şərəf və bu kimi şeyləri. O adam çox gözəl əxlaqa malikdir ki, ondan ötrü özlüyündə yaxşı olan şeylər yaxşıdır, özlüyündə çox yaxşı olan şeylər isə çox yaxşıdır. Belə adam həm yaxşıdır, həm də çox yaxşıdır **(kalos kai agathos)**. Ancaq kimdən ötrü özlüyündə yaxşı olan şeylər pisdir, o adam çox gözəl əxlaqa malik olmayacaq, necə ki, o adam sağlam olmayacaq ki, ondan ötrü faydalı şeylər faydasızdır. Məsələn, kiməsə var-dövlət və səlahiyyət zərərlidirsə, bunlar onun üçün arzuedilməzdir və bu adam o şeylərə malik olmağı üstün tutacaqdır ki, bunlar ona ziyan gətirməsin. Kim bir yaxşı şeyə sahib olmaqdan çəkinirsə, onu çox gözəl əxlaqa malik olan hesab etmək olmaz. Yaxşı və çox yaxşı o adamdır ki, onunçün yaxşı elə yaxşıdır və onu, məsələn, var-dövlət, səlahiyyət kimi şeylər korlamır.

10. Məziyyətə uyğun olan düzgün hərəkət haqqında danışılıb, lakin az. Biz düzgün mühakiməyə uyğun olan hərəkəti **(kata ton orthon logon)** belə adlandırmışdıq. Lakin nadan adam burda soruşa bilər: bəs düzgün mühakiməyə uyğunluq nə deməkdir, bu düzgün mühakimə hardadır? Qəlbin şüurdankənar **(alogon)** hissəsi onun şüurlu **(logistikon)** hissəsinin səyinə mane olmadıqda, düzgün mühakiməyə uyğun hərəkət edirlər; onda bizim hərəkətimiz düzgün mühakiməyə uyğun

olur. Bizim qəlbimizdə ən yüksək və ən sadə şeylər var, ən sadə şey isə həmişə ən yüksəkdən ötrü mövcud olur, necə ki, qəlblə bədənin münasibətində bədən qəlbdən ötrü mövcuddur və bədən nəinki maneçilik etməməyə, hətta qəlbə yardım edib, onun işlərinə kömək etməyə qabil olduqda, biz deyirik ki, bədən yaxşı vəziyyətdədir **(ekhein kalōs)** (axı ən sadə ən yüksəkdən ötrü mövcud olur ki, ən yüksəyə yardım etsin). Buna görə, hislərin artıb-əksilməsi, öz işini görərkən, ağılın fəaliyyətinə maneçilik törətmədikdə, məntiqə uyğunluq öz yerini tapır.

Buna etiraz edə bilərlər: «Doğrudanmı, ancaq hislərin artıb-azalması hansı vəziyyətdə maneçilik etmir? Və bu cür vəziyyət nə vaxt olur? Axı mən belə şeyi bilmirəm». Bu cür suala cavab vermək asan deyil. Həkim də belə bir vəziyyətə düşür, o, tinkturanı[12] qızdırmalı xəstəyə verməyi buyurduqda, ondan soruşurlar: «Bəs qızdırmanı necə bilməli?» O cavab verir: «Xəstəni saralmış gördukdə». – «Bəs saralmışı necə tanımalı?» burda həkim [necə cavab verməyi] bilməlidir: o, deyəcək, əgər sən özün belə şeyləri duymursansa, mən artıq sənə anlatmaq gücündə deyiləm. Bu ümumi fikri digər şeylərə də tətbiq etmək olar. Bu, [ağılın fəaliyyətinə maneçilik etməyən] hislərin artıb-əksilməsini müəyyən etmək lazım olan yerdə də öz gücünü saxlayır, yəni bunu duymaqdan **(aisthēsin)** ötrü insan özü də bir səy göstərməlidir.

Həm də belə bir sual verə bilərlər: əgər bütün bunları bilsəm mən həqiqətən xoşbəxt olacağammı? Belə mülahizə etmək qəbul olunub ki, bəli. Lakin bu belə deyil. Axı başqa elmlərin də heç birinin tətbiqə və ya istehsal etməyə heç bir aidiyyatı yoxdur, bunlar yalnız [bilik] verir. Burda da belədir: bu cür şeyləri bilmək, onları həyata keçirməyə maraq oyatmır (halbuki xoşbəxtlik, biz təsdiq edirik ki, – fəaliyyətdir), yalnız insanı [bilik] sahibi edir. Xoşbəxtlik onun hansı şeylərdən **(exhōn)** ibarət olmasını bilməkdə deyil, ancaq onları həyata keçirməkdədir. Həyata keçirmək, tətbiq etmək və fəaliyyət göstərmək – [xoşbəxtlik haqqında] elmin işi deyil, çünki heç bir başqa elm də işi onun istifadəsinə gətirib çatdırmır, yalnız bilik verir.



11. Bunların hamısına əlavə olaraq dostluq haqqında **(philla)** danışmamaq olmaz: bu nədir, nədə və nə ilə əlaqədar özünü göstərir. Biz görürük ki, bu – yaxşı şeydir, buna görə onun haqqında xoşbəxtliyə aidiyyatı olan şey kimi danışmaq lazımdır. Çox guman, çətinlik doğuran və araşdırılmağa ehtiyacı olan nədirsə, ondan başlamaq daha yaxşıdır.

Dostluq mülahizə edilən və deyilən kimi bir-birinə bənzər adamların arasındamı bərqərar olur? «Dolaşa, – deyirlər, – dolaşanın yanında oturur», həm də «Tay öz tayı ilə əbədi müncər olur». Nəql edirlər ki, bir it həmişə eyni bir kərpicin üstündə yatırdı. Empedokldan soruşduqda ki, it nəyə görə eyni bir kərpicin üstündə yatır, o, cavab vermişdi ki, it bir az bu kərpicə oxşayır, anladaraq ki, it üçün buranın ən çox sevilən yer olmasının səbəbi – oxşarlıqdır.

Digərləri, əksinə, zənn edirlər ki, dostluq – əksliklərin bir-birinə olan qarşılıqlı meylidir, axı deyilir ki: «Torpaq quru olduqda, onun yağışı mildir[13]». Onlar hesab edir ki, əks əkslə dostluq etməyə səy göstərir, halbuki, oxşar özünə oxşayana ehtiyac duymadığı kimi, oxşar oxşarla dostluğu mümkün hesab etmir.

Dost olmaq çətindir, yoxsa yox? Tez etimad qazanan yaltaqlar – dost kimi görünsələr də, əsla dost deyillər.

Və daha bir sual: ləyaqətli adam yaramaz adamın dostu ola bilərmi, yoxsa yox? Dostluq etmək üçün düzlük və sadiqlik lazımdır, yaramaz adam isə qətiyyən belə deyil.

Yaramaz yaramazın dostu ola bilərmi? Yoxsa o da ola bilməz?

Lap əvvəldən müəyyənləşdirmək lazım idi ki, biz, məhz hansı dostluğu müzakirə edirik. Belə düşünmək qəbul olunmuşdu ki, dostluq Allahla və cansız əşyalarla olur. Bu düz deyil. Biz təsdiq edirik ki, qarşı tərəfdən məhəbbət **(antiphileisthai)** mümkün olan yerdə dostluq olur. Ancaq Allahla dostluqdan qarşı tərəfdən məhəbbətə, ümumiyyətlə isə, heç bir məhəbbətə yol verilmir. Axı kimdənsə onun «Zevslə dostluq etməsini» eşitmək **(philein ton Dia)** mənasızdır. Eləcə də cansız əşyalar tərəfindən qarşılıqlı məhəbbət ola bilməz. Amma cansız şeylərə də məhəbbət **(philia)** olur, məsələn, şəraba və ya daha nə isə bir şeyə. Beləliklə, biz Allahla və cansız şeylərlə dostluğu deyil, ancaq canlı şeylərin dostluğunu müzakirə edirik, həm də elələrini ki, onlar tərəfindən qarşılıqlı məhəbbət mümkündür. Əgər indi nəzər yetirsək ki, özünə qarşı məhəbbət doğuran şey nədir, onda görərik ki, o, yaxşı şeydən başqa bir şey deyil. Məhəbbət doğuran şey **(philēton)** özünə qarşı məhəbbət tələb edən şey **(philēteon)** deyil, eləcə də istəkli şey **(boylēton)** arzu olunan şey **(boylēteon)** deyil. İstəkli şey – özlüyündə yaxşı şeydir, arzu olunan şey – bəlli adam üçün yaxşı olan yaxşı şeydir. Eləcə də məhəbbət doğuran şey özü-özlüyündə yaxşı şeydir, məhəbbət tələb edilən şey isə – bəlli adamın özü üçün yaxşı şeydir; buna görə özünə qarşı məhəbbət tələb edən şey həmişə özünə qarşı məhəbbət doğuran şeylə birlikdə ola bilər, lakin məhəbbət doğuran şey özünə qarşı məhəbbət tələb edən şeylə bir-birinə uyğun gəlmir. Bununla bir sual bağlıdır: ləyaqətli adamla yaramaz adamın dostluğu olurmu, yoxsa yox? Doğrudan da, bəlli adam üçün, öz sahibindən ötrü yaxşı olan yaxşı şey, ümumiyyətlə, yaxşı şey ilə bir növ bağlıdır, eləcə də özünə qarşı məhəbbət doğuran nə ilə bağlıdırsa, özünə qarşı məhəbbət tələb edən də həmin şeylə bağlıdır, ancaq yaxşı şey ilə bağlı və ona həmrah olan xüsusiyyət xoşagələn və faydalı olmaqdır. Ləyaqətli adamların dostluğu onların bir-birinə olan qarşılıqlı məhəbbətidir **(antiphilōsin)**. Onlar bir-birini özlərinə qarşı məhəbbət doğuran kimi sevirlər, onların məhəbbət oyatmaları isə [yaxşı] olmaları ilə əlaqədardır. Belə ki, soruşacaqlar, ləyaqətli adamla yaramazın dostluğu olmayacaqmı? Hər halda olacaq. Yaxşı şeyə fayda **(to sympheron)** və xoşa gəlimlilik **(to hedy)** həmrahdır; yaramaz isə – nə dərəcədə xoşagələndirsə, o dərəcədə dostdur; O, nə qədər yararlıdırsa, yenə də dostdur. Amma bu cür dostluq, əlbəttə, özünə qarşı məhəbbət doğuran şeyə **(phileton)** əsaslanmır. Özünə qarşı məhəbbət doğuranı biz yaxşı şey kimi müəyyənləşdirdik, yaramaz isə özünə qarşı məhəbbət doğurmur. Bu dostluğun təməli [məhəbbət doğuran yox], ancaq özünə qarşı məhəbbət tələb edəndir, – [istəkli şey yox, ancaq arzu olunandır]. Həqiqətən, yaxşı adamlar arasında olan bütünlüklə həmin o dostluqdan dostluğun bütün bu [formaları] baş verir: zövdən ötrü dostluq və faydadan ötrü dostluq. Bəxş edilən zövqə görə məhəbbət ifadə edənin, eləcə də fayda sevənin dostluğunun əsasını yaxşı şey təşkil etmir. Əsasını yaxşı şey, zövq və fayda təşkil edən dostluğun bu formaları oxşar olmasa da, bir-birinə də yabançı deyil, bunlar bir növ ümumi bir şeyə gedib çıxır. Məsələn, biz deyirik, qayçı müalicə edir, insan müalicə edir, elm müalicə edir, lakin bu sözlərin mənası eyni deyil: bıçaq xüsusunda o mənada danışılır ki, o, müalicə zamanı istifadə edilir, insan barəsində o mənada danışılır ki, o, müalicə edir, elm xüsusunda o mənada danışılır ki, o, səbəb və əsasdır. Eyni surətdə yaxşı şeyə əsaslanan yaxşı adamların dostluğu ilə zövq və fayda ilə nəticələnən dostluğun oxşarlığı yoxdur. Dostluğun bu formaları sadəcə olaraq ononim deyil: onlar eyni olmasa da, ancaq hardasa eyni bir şeylə əlaqədardırlar, həm də eyni bir şeydən əmələ gəliblər. Doğrudan

da, əgər birisi desə: zövqdən ötrü sevən bu adamın dostu deyil, çünki burda dostluğun əsasını yaxşı şey təşkil etmir, onda bu əlavə olaraq yaxşı adamların dostluğuna əsaslanır, hansı ki, özündə dostluğun bütün bu formalarını birləşdirir: yaxşı şeyə, zövqə, faydaya əsaslanan dostluq. O adam gerçəkdən, belə dostluqda bulunmur, ancaq elə dostluqda bulunur ki, beləsi xoş bir şey və fayda axtarır.

Yaxşı yaxşının dostu olacaqmı? Bənzərin, deyirlər, özünə bənzər olan heç bir şeyə ehtiyacı olmur. Bu əsas fayda axtaran dostluğu nəzərdə tutur. Əgər dostlar bir-birinə nə qədər lazımdır, o qədər də dostluq edirsə, onların dostluğu faydaya əsaslanan dostluqdur. Lakin biz artıq xeyirxahlığa əsaslanan dostluğu ya zövq, ya da fayda axtaran dostluqdan fərqli olan dostluq kimi müəyyənləşdirmişik. Ləyaqətli, həqiqətən, yaxşının dostudur, həm də nəzərə almaq lazımdır ki, bu dostluq dostluğun digər formalarından çox-çox tutarlıdır: axı bu dostluğa hər şey daxildir: həm yaxşı şey, həm xoş bir şey, həm də fayda. Lakin yaxşı yaramazla dost olacaqmı? – Əlbəttə, o, hansı dərəcədə onun xoşuna gəlirsə, o dərəcədə də onun dostu olacaq. Bəs yaramaz yaramazla dost olacaqmı? – Onlara eyni bir şey nə qədər sərfəlidirsə, onlar bir o qədər dostdurlar; onlara eyni bir şey sərfəli olduqda, biz bunu hər dəfə müşahidə edirik; onları bir-birinə dost edən faydadır və yaramaz adamlara da nə isə bir şeydə eyni faydanı tapmağa heç nə mane olmur.

Beləliklə, ən möhkəm, etibarlı və ən gözəl dostluq – əsasını, təbii olaraq, xeyirxahlıq və yaxşı şey təşkil edən yaxşı adamların qarşılıqlı məhəbbətidir. Bu cür dostluğun əsaslandığı xeyirxahlıq daimidir, belə ki, dostluğun özü də daimidir. Fayda isə heç vaxt daimi olmur, buna görə fayda axtaran dostluq möhkəm deyil və faydadan asılı olaraq dəyişilir. Bu, əsasını zövq təşkil edən dostluğa da aiddir.



Ən yaxşı adamların dostluğu xeyirxahlığa əsaslanır, əksəriyyətin dostluğu – faydaya, kobud **(phortikois)** və adi **(tykhoysin)** adamların dostluğu isə alınan həzdən asılıdır.

Pis dostlara rast gələrkən adamlar, adətən, qeyzlənir və təəccüb edirlər. Amma o şey ki, onlara üz verir, onda heç bir qəribəlik yoxdur. Əgər bu adamlar zövqdən və faydadan ötrü dost olublarsa, onda dostluğa son qoyulan kimi onlara gözdən itmək lazımdır. Tez-tez belə olur: dostluq davam edir, lakin dost dostla pis dolanır, bu isə narazılığa səbəb olur. Burda gözlənilməz heç bir şey yoxdur: sənin onunla olan dostluğun xeyirxahlığa əsaslanmamışdır və onun özünü pis aparmasında da heç bir qəribəlik yoxdur. Bu cür hallarda narazılıq edən adamlar, haqsızdır. Onların dostluğu zövq arayarkən başlayıb, ancaq düşünürlər ki, o, xeyirxahlığa əsaslanan dostluq olmalıdır, bu isə mümkün deyil. Xoş bir şey və fayda axtaran dostluq xeyirxahlıqla bağlı deyil. Onlar zövqdən ötrü dostlaşaraq [özlüyündə dostluqda nə isə bir] yaxşı şey axtarırlar, lakin bu düzgün deyil: harda zövq və fayda var, orda xeyirxahlıq yoxdur; əksinə, harda xeyirxahlıq var, orda ona zövq və fayda həmrah olur. Ləyaqətliyə hamıdan xoş gələn ləyaqətlidir, bunu danmaq mənasızdır, çünki hətta yaramazlar bir-birinə xoş gəlir, necə ki, Yevripid onlar haqqında deyir: «Yaramaz yaramazı tapır»; doğrudan da, həzz xeyirxahlığa deyil, ancaq xeyirxahlıq həzzə səbəb olur.

Ləyaqətli adamlar arasındakı dostluqda zövq olmalıdırmı, yoxsa yox? Guya olmamalıdır, bunu təsdiq etmək mənasızdır. Əgər onlar bir-birinə xoş gəlmək xüsusiyyətindən məhrum edilsə, bu o deməkdir ki, onlar [bir-birilə deyil], başqaları ilə, xoşlarına gələn dostlarla əlaqə saxlamalıdır, çünki birgə həyat üçün bir-birinin xoşuna gəlməkdən mühüm heç nə yoxdur. Guya ləyaqətlilər bir yerdə yola getməməlidir, bunu düşünmək

mənasızdır. Bununla belə adamlar, haçan ki, bu onlara xoş olur, o zaman yola gedirlər. Deməli, xoşa gəlmək xüsusiyyəti, məhz yaxşılara daha çox xas olmalıdır.

Dostluq bizdə üç yerə bölünmüşdü və bir sual çətinlik törədirdi: onların dostluğu bərabərliyə, yaxud bərabərsizliyə əsaslanırmı? Buna indi cavab verək: o həm buna, həm də o birinə əsaslanır. Oxşarlıqdan yaranmış dostluq – ləyaqətli adamların dostluğu olub, mükəmməl dostluqdur, bənzərsizliyə əsaslanan dostluq fayda arayan dostluqdur. Yoxsul – varlının dostudur, cünki onda kifayət etməyən nədirsə, varlı onunla təmin olunub. Pis də elə bu səbəbdən-yaxşının dostudur: çünki özündə kifayət etməyən xeyirxahlığı ondan əxz eləməyə ümid edir. Deməli, oxşar olmayanlar arasındakı dostluq faydaya əsaslanır və Yevripid əbəs yerə demir: «Torpaq quru olduqda, onun yağışı mildir[13]», nəzərdə tutaraq ki, bu iki əkslik arasında faydaya əsaslanan dostluq əmələ gəlir. Ən ifrat əksliyi – su ilə odu götür və [görəcəksən ki,] onlar bir-birinə faydalıdır. Od, deyirlər, rütubət olmasa sönür, axı o, guman edildiyi kimi, alovun üstün gəldiyi miqdarda götürüldükdə, onun yanmasına səbəb olur. Əgər rütubət çoxdursa, o güc gəlib odu söndürəcək, lakin onun miqdarı əgər uyğundursa, onda bu onu qüvvətləndirəcək[14]. Beləliklə, görünür ki, ən zidd şeylər arasında dostluq yaranır, bu dostluq isə faydadan ötrüdür. Bərabərlik və bərabərsizlik əsasında olan bütün dostluq münasibətləri [bizim etdiyimiz] üç növ ayırmaya daxildir.

Dostluğun bütün formalarında olan qarşılıqlı münasibətlərdə fərq var. Dostlar sevməyi, xeyirxahlıq etməyi, əl tutmağı, yaxud daha nə isə bu qəbildən olan şeyləri eyni qaydada etmirlər. Haçan ki, biri can yandırır, digəri isə etinasızlıq göstərir, onda etinasızlıq üstündə [onu] danlayıb, məzəmmət edirlər. Haçan ki, dostlar ümumi məqsəd güdür, məsələn, əgər onlar



faydadan, zövqdən, xeyirxahlıqdan ötrü dostluq edirlərsə, dostların biri tərəfindən olan etinasızlıq özünü çox açıq göstərir. Əgər sən mənə, mən sənə etdiyimdən daha çox yaxşılıq edirsənsə, onda mübahisə etmirəm, mən səni daha çox sevməliyəm. Ancaq biz əgər ümumi bir şeydən ötrü dostluq etmiriksə, onda fikir ayrılığı daha çox olur. Belə hallarda dostların biri tərəfindən olan etinasızlıq az dərəcədə nəzərə çarpır. Məsələn, əgər dostlardan biri zövq, ikincisi isə – fayda gətirirsə, onda burda mübahisə yaranır: daha çox fayda gətirən adam düşünür ki, o, gətirdiyi faydaya layiq zövq almır, daha çox xoş ovqat gətirən isə hesab edir ki, həzzə görə əldə etdiyi qazanc – yetərincə deyil. Bax buna görə dostluğun bu formalarında tez-tez fikir ayrılığı əmələ gəlir.

Dostlar bərabər olmadıqda, kimin var-dövləti çoxdursa, yaxud da bu qəbildən olan bir şey varsa, düşünürlər ki, onlar özləri sevməli deyil, amma ki, daha kasıb adamlar onları sevməlidir. Lakin özünün sevməsi, sevimli olmaqdan daha yaxşıdır; sevmək – həzz, həm də yaxşı şey bəxş edən **(energeia tis hēdonēs)** nə isə bir hərəkətdir, sevimli olmaq isə məhəbbətin özündə heç bir fəaliyyət doğurmur. Həm də: dərk etmək dərk edilən olmaqdan yaxşıdır, axı dərk edilən olmaq cansızlara da xasdır, dərk etmək və sevmək isə – canlılara. Həm də: xeyriyyəçi olmaq, olmamaqdan daha yaxşıdır. Sevən nə qədər sevirsə, bir o qədər də xeyriyyəçilik edir, sevimli isə bir sevimli kimi xeyriyyəçilik etmir. Bununla belə adamlar şöhrətpərəstlik üzündən özləri sevməyi deyil, sevimli olmağı daha üstün tuturlar, çünki sevimli olmaq bir üstünlüklə bağlıdır, sevimli həmişə həzdə də, vəsaitin çoxluğunda da, xeyirxahlıqda da üstünlüyə malikdir, şöhrətpərəst isə belə bir üstünlüyə can atır. Və üstünlüyə malik olanlar sevməyə borclu olduqlarını düşünmür, hesab edərək ki, onlar sevənləri onlardan üstün olduqları şeylə

mükafatlandırırlar. Həm də: əgər sevənlər aşağı mövqedə olanlardırsa, sevimlilər düşünür ki, onlar özləri sevməli deyillər, ancaq sevgini qəbul etməlidirlər. Kimə ki, pul, zövq, xeyirxahlıq çatmır, o adam kimdə hər şey boldursa, bunlara məftun olub, onu sevir, guman edərək ki, bunu ondan alır və ya alacaq.

Birinə canı yanıb, yaxşılıq etmək istəyilə də dostluq olur. Lakin yaranan bu dostluqda [yuxarıda göstərilən xüsusiyyətlərin] hamısı olmur: biz tez-tez birinə yaxşılıq arzulayırıq, lakin bir başqası ilə ünsiyyət saxlamaq istəyirik. Ümumiyyətlə, bu hisləri dostluğun xüsusiyyəti adlandırmaq lazımdır, yoxsa yalnız xeyirxahlığa əsaslanan mükəmməl dostluğu? Bunların hamısı məhz dostluğun axırıncı formasına xasdır: xoşagəlimlilik də, fayda da, xeyirxahlıq da ləyaqətli adamda birləşir və biz heç bir başqa şəxslə birlikdə yaşamaq istəməzdik, həm də biz, məhz ona xeyir, eyni zamanda da yalnız ona – ömür və salamatlıq arzulayardıq.

İnsanın öz-özü ilə dost olub-olmamasının, həm də özünə qarşı məhəbbətin olub-olmamasının üstündən biz indi keçəcəyik, lakin sonralar bu barədə danışacayıq. Biz öz-özümüzə hər şey arzulayırıq: öz-özümüzlə əlaqə saxlamaq (bu, deyəsən həm də qaçılmazdır), xoşbəxt yaşamaq, dolanmaq, başqa birisinə deyil, ancaq özümüzə xeyir arzulamaq istəyirik. Özümüzə hamıdan çox canıyananlıq edirik: zədələnən kimi, yaxud bu qəbildən olan başqa bir şeyin acısını çəkərkən, biz dərhal kədərlənirik. Bir sözlə, bu nöqteyi-nəzərdən, görünür ki, adamın öz-özü ilə dostluğu olur. Doğrudan da, canıyananlıq, xoşbəxt yaşamaq arzusu və digər bu kimi şeylər haqqında danışarkən onları ya öz-özü ilə dostluğa aid edirik, ya da mükəmməl dostluğa. Hər iki halda bütün bunlar olur: burda birgə həyat da, yaşamaq arzusu da, xoşbəxt yaşamaq da, salamatlıq da var.

Çox guman, hesab etmək olar ki, ədalət [münasibətləri] olan hər bir yerdə dostluq da olur. Buna görə ədalət neçə növdürsə, dostluğun da bir o qədər forması var. Doğrudan da, ədalət əcnəbinin vətəndaşa qarşı, qulun ağaya qarşı, vətəndaşın vətəndaşa qarşı, oğulun ataya qarşı, arvadın ərə qarşı [münasibətində özünü göstərir] və ümumiyyətlə, münasibətin neçə forması varsa, dostluq da bir bu qədər olur. Əcnəbilərin dostluğu görünür ki, hər şeydən möhkəm olur: onlar nəyin üstündə rəqabət aparırsa, vətəndaşlar arasında olduğu kimi, bunda onların ümumi məqsədi yoxdur. Birincilik üstündə rəqabət apardıqlarından vətəndaşlar dost kimi qalmırlar.

İndi, yekun vuraraq, biz deyə bilərik ki, insanın öz-özü ilə dostluğu olur, yoxsa yox. Artıq yuxarıda qısaca olaraq dediyimiz kimi, biz görürük ki, dostluq ona yönələn yaxşı şeylərin ayrı-ayrı növləri ilə məlum olur, bütün bu yaxşı şeylərə malik olmağı isə biz hər şeydən çox özümüz özümüzə arzulayırıq: özümüzə xeyir də, ömür də, xoşbəxt həyat da arzu edirik, hamıdan çox özümüzə canımız yanır, hər şeydən çox özümüzlə güzəran keçirmək istəyirik. Buna görə, əgər dostluq yetirilmiş olan ayrı-ayrı yaxşı şeylərin növünə görə bilinirsə, bütün bu yaxşı şeylərə malik olmağı isə biz ancaq özümüzə arzu edərdik, onda aydındır ki, özümüzün özümüzlə dostluğumuz olur, bunun kimi də, bizim fikrimizcə, özümüzün özümüzə qarşı ədalətsizliyimiz olur. Təhqir edənlə təhqir edilmiş – başqa-başqa şəxslər, adam özü isə tək olduğuna görə elə görünür ki, öz-özünə qarşı ədalətsizlik olmur. Bununla belə bu olur, necə ki, qəlbin tərkibinə daxil olan hissələrə nəzər salıb, biz buna əmin olduq: onlar çoxdur və onların hər bir ixtilafı zamanı özümüzdə özümüzə qarşı ədalətsizlik meydana çıxır. Bunun kimi, görünür ki, öz-özü ilə dostluq da olur. Əbəs yerə deyil ki, əgər [bizim] dostumuz varsa, onda hər dəfə onun haqqında böyük dost kimi danışmaq istəyərkən biz deyirik: «Bizim qəlbimiz onunla birdir». Madam ki, qəlb bir neçə hissədən ibarətdir, onda ağılla hislər uzlaşdıqda

«qəlb bir olacaq» (bu cür yolla o, bütövləşəcək); və əgər qəlbdə birlik olsa, özümüz özümüzə dost olacayıq. Yaxşı adam öz-özü ilə belə dost olur: yalnız onun qəlbində tərkib hissələri yaxşı vəziyyətdədir və bir-birinin ziddinə getmir. Pis isə heç zaman özünün dostu olmur, o, həmişə öz-özü ilə düşmənçilik edir. Özbaşına olan adam həzz arayarkən, nə isə bir iş çıxarırsa, sonra peşman olur və özünü bədnam edir. Pis öz-özü ilə düşmənçilik etməkdən və özünə zidd olmaqdan əl çəkməyərək, özünün digər qüsurlarına görə də bu cür acı çəkir.

Bərabərliyə əsaslanan dostluq da olur. Məsələn, yoldaşların dostluğu miqdarına və dəyərinə görə onların mal-mülkünün bərabər olmasını nəzərdə tutur: yoldaşlardan heç biri nə miqdarına, nə dəyərinə, nə də ölçüsünə görə digərindən daha çox əmlaka sahib olmamalıdır, ancaq hər şeydə digərləri ilə bərabər olmalıdır. Bərabərsizliyə əsaslanan dostluq, – ata ilə oğulun, tabeçilikdə bulunanla başçının, yaxşı ilə pisin, arvadla ərin dostluğudur; ümumiyyətlə isə, bu, dostlar arasında, harda ki, aşağı və yuxarı pillə var, bunların hamısında olur. Bərabər olmayan belə dostluq proporsionallığı nəzərdə tutur. Məsələn, mal payladıqda, heç kim bunu yaxşı ilə pisə bərabər surətdə ayırıb vermir, lakin həmişə üstünlüyə kim malikdirsə, ona daha çox xeyir verir. Proporsional bərabərliyə bununla nail olunur: hardasa az xeyir əldə edən pis daha çox xeyir əldə edən yaxşı ilə bərabərləşir.

12. Yuxarıda göstərilən bütün dostluq formalarında hamısından çox məhəbbət doğmaların dostluğunda, məhz – atanın oğula münasibətindədir. Lakin nəyə görə atanın oğula olan məhəbbəti, oğulun ataya olan məhəbbətindən güclüdür? Ona görə yoxmu ki, əlbəttə, camaatı nəzərə alaraq, bəzilərinin doğru dediyi kimi, ata-oğulun hamisidir, baxmayaraq ki, iltifatına görə oğul ona minnətdar olmalıdır? Bu səbəb, görünür ki, dostluğun faydaya əsaslandığı yerlərdə də qüvvəsini saxlayır. Burda iş elədir ki, biz bunu işə yararlıqda da **(epistēmas)** müşahidə edirik. Mən məqsədlə işin bir-birinə uyğun gəldiyini və işdən başqa özgə məqsədin olmadığı hallar haqqında danışıram. Fleytaçalanda, məsələn, onun məqsədi ilə iş üst-üstə düşür (axı ondan ötrü fleytada çalmaq – həm məqsəd, həm də işdir), inşaat sənətində isə bunlar bir-birinə uyğun gəlmir, çünki burda işdən əlavə xüsusi məqsəd mövcuddur. Dostluq – işdir və onun işdən – məhəbbətdən savayı özgə bir məqsədi yoxdur, ancaq və ancaq budur. Ata bu mənada həmişə elə bil oğuldan daha çox iş görür, çünki oğul – onun törəməsidir. Bunu biz digər hallarda da müşahidə edirik: hamı öz törəməsinə meyl göstərir. Ata bir növ oğluna yaradıb, hərəkətə gətirdiyi, həm də xatirə və ümidi kimi xeyirxahlıq göstərir. Buna görə ata oğulu, oğul atanı istədiyindən daha çox istəyir.

Dostluğun o formalarına nəzər salmaq lazımdır ki, bunlar dostluq adlanır və dostluq kimi görünür, bunlar həqiqətənmi dostluqdur. Məsələn, rəğbəti **(eynoia)** dostluq hesab edirlər. Ümumiyyətlə, rəğbət görünür ki, dostluq deyil. Kimdəsə yaxşı bir şey gördükdə, yaxud kiminsə haqqında yaxşı bir şey eşitdikdə bizim ona addımbaşı rəğbətimiz olur, ancaq bundan məgər biz artıq dostuqmu? Çox guman, yox. Axı kimsə Persiyalı Daraya mərhəmət göstərsəydi, belə bir şey isə ola bilərdi, onda buna hələ Dara ilə dostluq demək olmazdı. Amma rəğbət, görünür ki, dostluğun başlanğıcı ola bilər; bu o vaxt dostluq ola bilər ki, yaxşılıq etməyə qabiliyyəti olan insan rəğbəti olduğu adama qarşı yaxşılıq etmək arzusunu rəğbətlə birləşdirsin. Rəğbət – əxlaqi keyfiyyətdir və əxlaqın əsas prinsipinə çevrilmişdir. Axı demirlər ki, insanın ürəyindən şərab, yaxud cansız olan daha nə isə yaxşı bir şey, həm də həzz keçir. O adama rəğbət bəsləyirlər ki, o yaxşı əxlaqa

malikdir. Rəğbət dostluqdan ayrılması mümkün olan şey deyil və dostluq özünü nədə göstərirsə, o da özünü onda göstərir. Buna görə onu dostluq hesab edirlər.

Əgər həmfikirlik **(homonoia)** sözün həqiqi mənasında başa düşülsə, həmfikirlik dostluğa çox yaxındır. Tutaq ki, kimdəsə olan anlayışlar Empedoklda olan kimidir və Empedokl hansı əsasları qəbul edirsə, o da onları qəbul edir. Belə bir adam Empedoklla həmfikirdirmi? Yoxsa, daha çox, yox? Doğrudan da, həmfikirlik başqa qəbildən olan şeyləri nəzərdə tutur. Hər şeydən öncə o abstrakt mühakimədə deyil, əməli işdə, həm də bu axırıncıları eyni cür başa düşdükdə yox, onları eyni cür başa düşüb, işdə düşündükləri eyni şeylərə üstünlük verdikdə özünü göstərir. Məsələn, əgər ikisi də hakimiyyət haqqında xəyal edirsə, biri özündən ötrü, digəri də özündən ötrü, onda onlar həmfikirdirmi? Çətin! Lakin əgər mən özüm hökm sürmək istəyirəmsə, o da istəyir ki, mən hökm sürüm, onda biz həmfikirik. Əməli işlərdə həmfikirlik eyni bir şeyi istədikdə olur. Əməli işlərdə həmfikirlik sözün həqiqi mənasında **(kyriōs legomenē)** eyni bir şəxsin başçı təyin edilməsinə aiddir.

13. Madam ki, biz iddia etdiyimiz kimi, öz-özü ilə dostluq olur, onda yaxşı adam özünü sevəcəkmi, yoxsa yox? Ancaq özünü sevən adam – o adamdır ki, o, fayda gətirən işlərdə hər şeyi özü üçün edir. Deməli, ancaq özünü sevən adam pisdir, axı o, hər şeyi özü üçün edir: yaxşı isə belə deyil. O, ona görə yaxşıdır ki, başqası üçün iş görür, deməli o, ancaq özünü sevən adam deyil. Bununla belə hamı rifaha can atır və əmindilər ki, məhz onlara daha çox firavanlıq lazımdır. Harda ki, məsələ var-dövlətə və hakimiyyətə aiddir, orada bu daha çox görünür: yaxşı adam bunlardan başqasının xeyrinə əl çəkər, lakin ona görə



yox ki, o, özü bunlara artıqlaması ilə malik olmaq istəmir, ancaq ona görə ki, o, bir başqasının bunlardan daha yaxşı necə istifadə etmək bacarığı olduğunu görür. Qalan adamlar isə ya bilməməzlik üzündən (onlar bilmir ki, belə şeylərlə cinayət edə bilərlər), ya da şöhrətpərəstlikdən hakimiyyətə can atdıqlarına görə belə hərəkət etmirlər. Lakin nə bu, nə də digəri yaxşı adama təsir etmir. O, nəticə etibarı ilə, hər halda bu kimi şeylərə gəldikdə ancaq özünü sevən adam deyil. Ancaq əgər o, özünü sevirsə də, onda o yerdə ki, söhbət orda ən yaxşı haqqında gedir. O, yalnız burada başqasına güzəştə getmir. Faydadan və həzdən isə əl çəkir. Əgər ən yaxşını **(tokalon)** seçmək lazım gəlirsə, onda o, özünü sevir; ancaq – faydanı və zövqü seçmək lazım gəlirsə, onda o deyil, pis özünü sevir.

14. Yaxşı adam özünü sevəcəkmi, yoxsa yox? Bəzi hallarda o, ən çox özünü sevəcək, digər hallarda – yox. Madam ki, biz iddia etdiyimiz kimi, yaxşı adam fayda gətirən yaxşı şeylərdən dostunun xeyrinə əl çəkir, o, dostunu sevəcək. Bəli, ancaq o, bunlardan dostuna nə qədər güzəştə gedirsə, bir o qədər də özü üçün ən yaxşını əldə edir. Deməli, bəzi hallarda o, dostunu özündən çox sevir, digər hallarda – özü özünü. Haçan ki, söhbət faydadan gedir, o, dostunu özündən çox çevir; əgər ki, ən yaxşıdan və dəyərli şeylərdən gedirsə, onda özünü daha çox sevir, axı bu şeyləri – bunlarsa, əslində, ən yaxşılardır – o, özü üçün əldə edir. Deməli, o, ancaq özünü sevən deyil, xeyir sevəndir. Əgər o, özü-özünü sevirsə, onda yalnız yaxşı olduğuna görə sevir. Pis isə ancaq özünü sevən adamdır: onda heç bir şey yoxdur ki, buna görə özünü sevsin, heç bir yaxşı şey yoxdur, lakin bunlar olmadan da o, özü-özünü ona görə sevəcək ki, bu, onun özüdür. Buna görə onu sözün düzgün mənasında ancaq özünü sevən adam **(philaytos)** adlandırmaq olar.

15. [Müzakirə edilənlərə] əlavə olaraq müstəqillik **(ayt erkeias)** və müstəqil adam haqqında danışmaq olar. Onda dostluğa ehtiyac yaranacaqmı, ya yox? Yoxsa o, burda da öz-özü ilə kifayətlənəcək? Axı şairlər belə çözlər deyir:

Onda dost nə üçündür? Uğurlar arasında
Allahın iltifatı bizimçün bəsdir.

Bu səbəbdən sual doğur: bütün nemətlərə malik olub, özü-özündən razı olan adamın dostluğa ehtiyacı varmı? Yoxsa, daha çox, belə hallarda buna tələbat xüsusilə güclüdür? Doğrudan da, o, kimi himayə etməli və kiminlə birgə yaşamalıdır? Əlbəttə ki, o, həyatını təklikdə keçirməyəcək. Madam ki, onun bu kimi şeylərə ehtiyacı var, bunlar isə dostluq olmadan həyata keçirilməsi mümkün olmayan şeylərdir, onda müstəqilin, görünür ki, dostluğa ehtiyacı var. [Məlum] mühakimələrdən ötrü adət halını almış Allahla müqayisəyə müraciət etmək orda da (bu mühakimələrin özündə) düzgün deyil, burda da yol verilməzdir. Əgər Allah müstəqildirsə və heç nədən ehtiyacı yoxdursa, onda burdan belə çıxır ki, bizim də heç nədən ehtiyacımız olmayacaq. Allah haqqında belə bir fikir də var. Allah, deyirlər, bütün yaxşı şeylərə malikdir və müstəqildir, ancaq O, nə ilə məşğuldur? O ki, yatmır? Fikirdə sübut etməyə çalışırlar ki, O, nəyi isə seyr edir, çünki bu ən yaxşı məşğuliyyətdir və Ona daha çox xasdır. O, nəyi seyr edir? Əgər O, özündən fərqli olan bir şeyi seyr edəcəksə, onda özündən yaxşı bir şeyə tamaşa etməli olacaq. Lakin Allahdan yaxşı bir şeyin mövcud olması mənasızdır, deməli, özü-özünü seyr edəcək, bu isə boş şeydir: axı biz öz-özünü diqqətlə gözdən keçirən adamı korazehinlikdə qınayırıq. Allah, əgər öz-özünü gözdən keçirməyə başlasa – belə nəticə çıxır ki, – özünü mənasız aparmış olacaq. Allahın,



məhz nəyə baxacağı məsələsinin üstündən keçək. Biz Allahın müstəqilliyi haqqında deyil, insanın müstəqilliyi haqqında araşdırma aparırıq: müstəqil adam dostluğa ehtiyac duyacaqmı, yoxsa yox? «Dost» anlayışını araşdırarkən dostun nə olduğunu, onun necə olduğunu görmək, həm də [başa düşmək olar ki, ] dost – söhbət ən yaxın dosta aid olduqda bu «ikinci mən»dir. Atalar sözündə deyildiyi kimi, «bu ikinci Herakldır»; dost – bu ikinci məndir[15].

Öz-özünü tanımaq – həm çox çətin, bəzi müdriklərin dediyi kimi, həm də çox sevindiricidir (axı özünü tanımaq bir sevincdir)[16], lakin öz gücümüzlə özümüz özümüzü görə bilmirik (özümüzün özümüzü [görə] bilməməyimiz ondan aydındır ki, özgələri qınayarkən, özümüzün eyni hərəkətlər etdiyimizi hiss etmirik; bu [özümüzün özümüzə qarşı olan] yumşaqlığımızdan, yaxud tərəfgirliyimizdən olur və bu düzgün mühakimə yürütməyimizə mane olub, bizim çoxumuzu azdırır); buna görə necə ki, öz üzümüzü görmək arzusunda olduqda biz güzgüyə baxıb, onu görürük, eləcə də özümüz özümüzü anlamaq arzusunda olduqda, dostumuza baxıb özümüzü dərk edə bilərik. Axı dost, biz dediyimiz kimi, – «ikinci mən»dir. Beləliklə, əgər öz-özünü tanımaq fərəhli şeydirsə, özünü tanımaq isə dostun köməkliyi olmadan mümkün deyilsə, onda öz-özünü dərk etməkdən ötrü müstəqil adam dostluğa ehtiyac duymalıdır. Həm də tale kimi nemət sahibi edibsə, onun xeyriyyəçi olması çox yaxşıdırsa, bu isə belədir ki, var – onda o, kimi himayə edəcək? Kiminlə birlikdə yaşayacaq? O, əlbəttə ki, ömrünü təklikdə keçirməyəcək. Birgə həyat xoşdur, həm də vacibdir. Əgər bu şeylər çox yaxşıdırsa, vacibdirsə, xoşdursa və dostluğun köməkliyi olmadan həyata keçə bilmirsə, onda müstəqil adam dostluğa ehtiyac hiss etməlidir.

16. Çox dosta malik olmaq lazımdır, yoxsa az? Ümumiyyətlə desək, nə çox, nə də az. Əgər dostlar çoxdursa, onda hər birini

aynılıqda sevmək çətindir. Digər hallarda isə bizim zəif təbiətimizin də uzaqda olan şeylərə yetişməyə gücü yoxdur. Gözün köməkliyi ilə biz uzaqları görmürük və əgər bir şeydən lazım olan dərəcədən uzaqda dayansaq, onda təbii gücsüzlükdən [görmə] qeyri-qənaətbəxş olacaq. Belə bir şey eşitməyə və yerdə qalan digər şeylərə də aiddir. Lakin əgər təbii gücsüzlükdən sevgi azlıq etsə, bu haqlı olaraq məzəmmətlə nəticələnəcək, belə adamdan isə dost ola bilməz, çünki sevmir, o, ancaq sözdə dostdur, dostluqsa bununla hesablaşmır. Həm də əgər dostlar çox olsa, onda kədərin sonu olmayacaq. Axı dostlar çox olduqda, təbii olaraq, onlardan birinə həmişə qəza üz verir, burda isə kədərdən qaçmaq olmur. Digər tərəfdən az – bir, ya iki dosta [malik olmaq yaxşı deyil], onların sayı şəraitə və insanın məhəbbətə qarşı olan meylinə münasib olmalıdır.

17. İndi isə dostla necə rəftar etməyin vacibliyinə baxmaq lazımdır. Bizim araşdırmamız hər dostluğa deyil, ancaq o dostluğa aid olacaqdır ki, bu halda dostlar ən çox bir-birini təqsirləndirir **(egkaloysi)**.

Bütün hallarda eyni cür təqsirləndirmirlər. Ata ilə oğulun dostlugu, məsələn, dostluğun bəzi formaları kimi, təqsirləndirmələrdən ötrü belə bəhanələr doğurmur, həmin dostluq formalarında [belə bir qayda var]: «mən sənə necə, sən də mənə elə, xətaya görəsə ciddi cəza **(egklēma)**». Harda ki, dostlar tən deyil, orada bərabərlik yoxdur. Atanın oğula məhəbbəti bərabərsizliyə əsalanır, həm də arvadın ərinə qarşı, nökərin ağaya qarşı, ümumiyyətlə isə, aşağının yuxarıya qarşı məhəbbəti də bunun kimidir. Dostluğun belə formalarında təqsirləndirmələr olmur. Təqsirləndirmələr, dostlar – bir-birinə tay olduqda olur. Buna görə biz ona baxmalıyıq ki, dostlar bir-birinə tay olduğu halda, dostla necə rəftar etmək lazımdır...[17]



# ŞƏRHLƏR

## SİYASƏT

### BİRİNCİ KİTAB

1. Sokratla Platonun gizli mübahisəsi.

2. Delfi bıçağı – eyni zamanda həm bıçaq, həm də qılınc kimi işlədilən alət.

3. Mizrablar – kifara simli musiqi alətində vibrasiya (titrəyiş) əmələ gətirməkdən ötrü işlədilən, ağacdan, metaldan, fil sümüyündən, buynuzdan olan müxtəlif formalı kiçik vasitədir.

4. **«Lokos»** yünan sözü olub, «faiz» mənasını verir, hərfi mənası «artım» deməkdir.

5. Bu müəlliflərin haçan yaşadığı məlum deyil.

6. İltizam- xüsusi şəxslərə verilən vergi toplama hüququ.

7. Çox guman Sirakuza müstəbidi Böyük Dionisi (b.e.ə. təxminən 432-367) nəzərdə tutulur. 406-cı ildə o, Sirakuzada hakimiyyəti ələ keçirmişdi.

8. Çox guman b.e.ə. IV əsrin ortalarında Afinada maliyyə işlərini idarə edən Yevbul nəzərdə tutulur.

9. Herodot yazır: «Aprini devirdikdən sonra hakimiyyət başına Amasid keçdi... İlk vaxtlarda misirlilər Amasidə laqeydlik göstərirdilər və onu az da olsa dəyərləndirmirdilər, çünki əvvəllər o, adi bir vətəndaş olmuşdu, özü də əsli-nəcabətli nəsildən deyildi. Zaman ötüşdükcə o, fəndgirliklə misirlilərdə özünə qarşı rəğbət oyatdı, yəni: onda çox qiymətli şeylər vardı, bunlardan biri də qızıldan hazırlanmış ləyən idi. Amasid və onun bütün süfrə yoldaşları bunda ayaqlarını yuyardılar. O, bu ləyəni kiçik hissələrə bölüb, bundan bir büt düzəltdi və bunu şəhərin ən görkəmli yerində qoydu. Misirlilər abidəyə yaxınlaşıb, buna böyük hörmət göstərməyə başladılar. Şəhərlilərin bu hərəkətini

eşidən Amasid, misirliləri çağırıb, onlara başa saldı ki, büt ləyəndən hazırlanıb, hansı ki, misirlilər əvvəllər buna tüpürür, pəşo edir və bunda ayaqlarını yuyurdular, ancaq indi isə ona böyük hörmət göstərirlər. O dedi ki, ləyənlə olan iş onun da başına gəlib: o, əvvəllər adi bir vətəndaş olsa da hal-hazırda hökmdardır, buna görə də onlara məsləhət gördü ki, ona hörmət etsinlər və onu qiymətləndirsinlər».

## İKİNCİ KİTAB

1. Mətndə buraxılış; mənası çox guman belədir: « lakin hər peşənin marağı naminə hər halda yaxşı olardı ki, hər bir sənətkar öz peşəsi ilə məşğul olsun, onda...».

2. Mətndə buraxılış. Mənası təxminən belə ola bilər: «yoxsa bu halda bəzi istisnalar mümkündür?»

3. Atalar sözü Pifaqorun adına çıxılır. Bax: – Layortlu Diogen, X 11: «Pifaqor hesab etmirdi ki, mala, pula birgə yiyələnmək lazımdır. Pifaqora görə dostlarda hər şeyin ümumi olması inamsızlığı göstərərdi, inam göstərməyən adamsa dost deyil».

4. Yünanlarda içtimai yeməkxanalar sissitiyalar adlanırdı.

5. Aqoranomiya – bazar medanına nəzarət. Astinomiya – şəhərdə qayda-qanuna nəzarət.

6. İlotlar, Spartada əkinçilər, dövlətin mülkiyyəti sayılırdılar və içtimai vəziyyətlərinə görə qullardan fərqlənmirdilər. Penestlər – ilotlar kimi Fessaliyada asılı olan əkinçilər.

7. Mətndə buraxılış.

8. Korinfli Fidonun fəaliyyəti, olsun ki, b.e.ə. VII əsrin I yarsına aiddir.

9. Eforat (**ephoroi** – nəzarətçilər) – Spartada ildə bir dəfə seçilən 5 nəfər ali vəzifəli şəxsdən ibarət kollegiya, ali nəzarət orqanı, tam hüquqlu vətəndaşların məclisində seçilirdi.

10. Senz – bir şəxsin bu və ya digər hüquqlarının həyata keçirilməsini məhdudlaşdıran şərt.

11. Layortlu Diogenə görə VI-72, Kinikli Diogen deyirdi ki, qadınlar ümumi olmalıdır və qanuni nigahı inkar edirdi: «Kim



hansı qadını öz təsiri altına aldı, o da onunla nigahsız yaşaya bilər; buna görə də oğullar ümumi olmalıdır». Onun adına çıxılan «Politiya» əsərində, Diogen əgər belə bir fikir söyləyibsə, onda Aristotelin bu əsərdən xəbəri olmamışdır. Amma ola bilər, bu sonradan meydana çıxmış və Aristoteldən ötrü naməlum qalmışdı. Qadınların ümumi olması fikri Aristofanın «Qadınlar xalq məclisində» komediyasında da irəli sürülür. Bu elmi əsər deyil, komediya olduğu üçün Aristotel burdakı fikirlə hesablaşmağı görünür ki, lazım bilməmişdir.

12. Xalkedonlu Faley haqqında məlumat Aristotelin «Siyasət»də onun haqqında dedikləri ilə başa çatır. Ola bilsin ki, Faleyin əsəri Platonun «Dövlət» əsərindən əvvəl yazılmışdı.

13. Ehtimal ki, Orta Yunanıstanda deyil, Cənubi İtaliyada yaşayan Lokrlar nəzərdə tutulur.

14. İranlı sərkərdə Avtofradat tərəfindən Yevbulun hökmü altında olan Atarneyin mühasirəsi b.e.ə. 360-350-ci illərdə olmuşdu.

15. Diofant – b.e.ə. IV əsrin ikinci rübündə Afinanın görkəmli dövlət xadimi.

16. Miletdən olan Hippodam – b.e.ə. V əsrin ortalarında memar – şəhər salma mütəxəssisi.

17. Belə bir vəzifə **(pulitophulakes)** Fessaliyadakı Larisada məlumdur; şəhərin bütün idarəçiliyi qanun keşikçilərinin əlində cəmləşmişdi.

18. Mina (lat. **mina**; yün. **mna**) – Qədim Şərqin və Qədim Yunanıstanın gümüşdən ibarət pul və hesab-çəki vahidi.

19. Ola bilsin, pifaqorçular nəzərdə tutulur. Aristoksenin şəhadətinə görə, atalardan qalma adət və qaydalara sadiq qalmağı yaxşı iş hesab edirdilər, «hətta bunlar digərlərindən geri qaldıqda belə». İsokrat başqa fikirdə olmuşdu: «Sənətin və bütün digər şeylərin tərəqqisi həmişə mövcud qaydaların saxlanması ilə şərtlənmir, onunla şərtlənir ki, onlar hər zaman düzəldilir və pis vəziyyətdə onların əvəzinə yeniləri tətbiq edilir». Korinfli natiq Fukididin də fikri maraqlıdır: «...sənətdə olduğu kimi, siyasətdə də ümumiyyətlə həmişə yenilik üstünlük

təşkil edir. Nə qədər ki, dövlətdə sakitlik hökm sürür, ən yaxşı qanunlar odur ki, onlar dəyişməz qalır, lakin haçan ki, zərurət insanları bir çox təşəbbüsdə bulunmağa vadar edir, onda bir çox yeniliklərə də ehtiyac olur.

20. Şəhərlərdən hansının Kim adı daşıdığının nəzərdə tutulduğu məlum deyil.

21. Perieklər – Spartadan başqa Lakon şəhər və kəndlərinin azad sakinləri, vətəndaş olsalar da, siyasi hüquqlara malik deyildidər.

22. Ares – qədim yunan mifologiyasında fəlakət, dağıntı gətirən müharibə allahı. Dəbilqəli, qüvvətli döyüşçü kimi təsvir edilirdi.

23. Afrodita **(Aphrodite)** – qədim yunan mifologiyasında məhəbbət və gözəllik ilahəsi.

24. Ola bilsin, Peloponnes müharibəsinin qurtarmasından Levktra vuruşmasına (b.e.ə. 404-371) qədər olan müddət nəzərdə tutulur.

25. Ehtimal ki, b.e.ə. VIII əsrin ikinci yarısı – VII əsrin axırı nəzərdə tutulur.

26. Yunanların mülki hüququ qadınları varis olmaq imkanından məhrum etmişdi. Müəyyən hallarda (onların qardaşları olmadıqda) onlar yalnız dünyadan köçüb getmiş atalarının əmlakını saxlaya bilirdilər, həm də bunu yaxın qohumla olan nigahdan törəyən uşaqlarına verməli idilər. Beləlləri varis qız adlanırdı.

27. Mətndə buraxılış.

28. Lakedemonluların Levktrada məğlubiyyəti nəzərdə tutulur. Ksenofont Spartanı ən az əhalisi olan şəhərlər sırasına aid edir.

29. Təsvir edilən hadisələr təfsilatı ilə məlum deyil.

30. Əlyazmalarında mətnin bu yeri başqa cür ifadə olunmuşdur. Edilən bəzi düzəlişlər cümlənin mənasını dəyişmir.

31. Lakedemonda təxti-tac bir qayda olaraq vərasətlə birindən başqasına keçirdi. Eforun şəhadətinə görə, artıq Lisandr çarlıq edən sülalələrin hakimiyyətinə son qoymağı və «çarın ən yaxşı vətəndaşlardan seçilməsini» planlaşdırmışdı.



32. Navarxlar – dəniz komandanı, olsun ki, b.e.ə. V əsrin ikinci yarısında Kriti; navarxlar haqqında qanunu, özünün «Lakedemon politiyası» əsərində sərkiləmişdi.

33. Mətndə buraxılış.

34. Kontinental yunan dövlətləri ilə müqayisədə adalarda yerləşən dövlətlər kasıb sayılırdı. Belə bir söz vardı: «İran şahı dünyada hamıdan varlıdır, bu ona görədir ki, o, öz gəlirlərini adalardan deyil, materikdən əldə edir».

35. Bu cür tədbirlər Likurqun adına çıxılır; onun tətbiq etdiyi qanun əsasında yalnız məxsusi icazədən sonra əcnəbilər Spartada yaşaya bilərdilər; lakin yaramaz hərəkət üstündə vəzifəli şəxslərin onları qovmaq haqqı vardı.

36. B.e.ə. 345-ci ildə (Üçüncü müqəddəs müharibə), yaxud 333-cü ildə (Sparta çarı III Agisin desantı) olan hadisələr nəzərdə tutulur.

37. Mətndə buraxılış. Mənası belə ola bilər: «herontlara gəldikdə isə, onlar...».

38. Sonrakıları nəzərə alaraq «onlar» sözünü görünür ki, görkəmli vətəndaşlar kimi başa düşmək lazımdır.

39. Pentarxiya (beş nəfərdən ibarət kollegiya) – Karfagendə suffetlərdən sonra ikinci dövlət hakimiyyət orqanı.

40. Bu qanunların meydana çıxdığı vaxt – b.e.ə. VII əsr. Lokrlu Zalevk (VII əsr) – qədim yazılı qanunların yarıməfsanəvi müəllifi. Harond (VI əsr) – Qədim Yunanıstanın tanınmış qanunvericisi.

41. Lokrlu Omokrit haqqında Aristotelin «Siyasət» əsərində deyilənlərdən savayı başqa bir məlumat yoxdur. Likurqun müəllimi, şair və krit qanunvericisi Faletin adını Strabon və Plutarx da öz əsərlərində çəkir. Mantika – kahinlik sənəti.

42. Filolay, görünür ki, b.e.ə. VII əsrdə yaşamışdır.

43. Mittelendən olan Pittak b.e.ə. 651-ci ildə anadan olmuşdur. Diogenə görə b.e.ə. 579-569-cu illərdə hökmdar olmuşdur.

44. Androdamant «Siyasət» əsərinin yalnız bu yerində xatırlanır.

## ÜÇÜNCÜ KİTAB

1. Vətəndaş sıralarına qəbul edilən adam bağışlanmış vətəndaşdır **(poietos polites)**. Bağışlanmış vətəndaşlar bütün hüquqlara malik deyildilər; Afinada, məsələn, onlar arxont və kahin ola bilmirdilər.

2. Meteklər, yunan şəhərlərində əcnəbi vətəndaşlar siyasi hüquqlara malik deyildilər. Bir ölkənin vətəndaşının digər bir ölkədə yaşaması yunan dövlətləri arasında bağlanmış olan müqavilə əsasında tənzimlənirdi. Aristotelin özü metek sifətilə Afina ilə Makedoniya arasında bağlanmış belə bir müqavilə əsasında Afinada yaşayırdı.

3. Prostat – tamqüququlu vətəndaş olub, meteklə dövlət hakimiyyəti arasında vasitəçi.

4. Afinalılar vətəndaş siyahısına 18 yaşına yetdikdən sonra daxil edilirdilər.

5. Qorgi (V əsr) – Cənubi İtaliyanın Leontina şəhərindən olan tanınmış bəlaqət müəllimi və sofist, o, həmçinin Fessaliyada, olsun ki, Fessaliyanın Larisa şəhərində mühazirə oxumuşdur. Aristotelin Qorginin Larisanın vətəndaşları haqqındakı qeydini bir misal kimi gətirməsi söz oyunudur. **Larisaioi** – Larisanın vətəndaşları, **larisopoioi** – xüsusi qazanlar hazırlayan ustalardır. Yaradıcılar, görünür ki, Larisada böyük səlahiyyətlərə malik vətəndaşlar olmuşlar.

6. Müstəbidlərin qovulması – b.e.ə. 510-cu il. Klisfenin islahatları – b.e.ə. 508-507-ci illər.

7. Parastat – bir növ xor rəhbərinin assistenti.

8. E u r, itmiş «Eol» faciəsindən (olsun ki, çar Eol öz oğlanlarına bu sözlərlə müraciət edirmiş). Strabon yazır ki, Onesikrat guya İran şahı Daranın qəbri üstündə yazılmış aşağıdakı sözləri misal gətirir: «Dostlarla dost idi; ən yaxşı at çapan və ox atan idi; ovçular arasında birinci idi; hər şey edə bilirdi».

9. Yason – Fessaliyada yerləşən Fera şəhərinin müstəbidi (b.e.ə. IV əsr).

10. Mətndə buraxılış.



11. Öz əllərinin əməyi hesabına yaşayan sənətkarlar **(khernetes)**.

12. Hipparx – süvari dəstəsinin başçısı, strateq – piyada qoşununun başçısı. Loxaq – kiçik piyada dəstəsinin komandiri. Toksiarx – daha böyük və ya daha kiçik piyada bölməsinin komandiri.

13. Vətəndaş hüquqlarının hamısı vətəndaşı hörmətə mindirirdi. Afina vətəndaşları aşağıdakı üstünlüklərə malik idilər: vəzifə tutmaq, hakim olmaq, vəzifəli şəxslərin seçkisində iştirak etmək hüquqlarına; Afina qadınları ilə nigaha girmək hüququna, daşınmaz əmlaka yiyələnmək hüququna.

14. Aristotel o əsərləri eksoterik əsərlər adlandırırdı ki, bunlar məxsusi olaraq filosofun şagirdi üçün deyil, geniş oxucu kütləsi üçün nəzərdə tutulurdu.

15. Pedotrib – palestrın (gimnasiyanın gimnastika təlimləri üçün nəzərdə tutulan şöbələri) direktoru.

16. Politiya termini adətən respublika, ən çox da demokratik quruluşu ifadə etmək üçün işlədilirdi.

17. Epiqamiya – xüsusi müqavilə əsasında, iki dövlətin vətəndaşları arasında olan nigah hüququ.

18. Platon başqa cür düşünür: «...kütlənin fikri gülməlidir, guya o nəyin harmonik və ritmik olduğunu, nəyinsə olmadığını kifayət qədər başa düşür...»

19. Yəni atletika, gimnastika və s. yarışlarda.

20. Yəni kütlə birlikdə götürüldükdə azlıqda olan daha dəyərli adamlardan yüksəkdə dura bilər.

21. Antisfen (b.e.ə. təxminən 444 – təxminən 365-ci il) – Sokratın tələbəsi, kinik məktəbinin başçısı.

22. «İkinci gəmi səfəri» – atalar sözü, bunun mənası odur ki, arxadan əsən küləyin səmti dəyişdikdə, avar çəkməklə üzmək lazım gəlir.

23. Epidamnedə və Opuntedə oliqarxiya üsul-idarəsi idi.

24. Sözbəsöz – qanun cəhdsiz (instinktsiz) dərrakədir.

25. Yəni politiyaya aid olan (dövlət quruluşunun üçüncü normal forması kimi).

## DÖRDÜNCÜ KİTAB

1. Dövlət quruluşları və qanunları arasında olan fərq haqqında.

2. Platon.

3. Bəzi müəlliflərin fikrincə Aristotel burada Platonu nəzədə tutur, bəzilərinin fikrinə görə isə yox.

4. Bundan sonra mətndə görünür ki, kiçik bir buraxılış var, o bundan ibarət ola bilir: «Bu, dövlətin beşinci tərkib hissəsidir; altıncı hissəsi isə kahinlərdən ibarətdir».

5. Kooptasiya – hər hansı bir seçilən orqanın öz heyətinə seçkisiz olaraq yeni üzv daxil etməsi, .

6. Bu cür sülalələr Eliddə və bəzi şəhərlərdə vardı.

7. Aristotel burada ola bilsin ki, Platonun «Qanunlar»ını nəzərdə tuturdu.

8. Dövlət quruluşunun ən düzgün forması dedikdə, bəziləri bunu politiya, bəziləri isə əsl aristokratiya kimi başa düşür.

9. Qonaqcıllıq telləri ilə bağlı olan adamlar, adətən hər hansı bir əşyanı (üzük, möhür) sındırıb yarısını özlərində saxlayırdılar ki, həm özləri, həm də özlərindən sonra gələn nəsillər, bu yarıları bir-birinə yapışdırdıqda bu iki ailənin arasında qonaqcıllıq münasibətinin olmasına əmin olsunlar.

10. Lakedemon herontları nəzərdə tutulur.

11. Esimnetlər – qədim zamanlarda yunan dövlətlərində kəskin sosial böhran zamanı seçilən və qanunvericilik hakimiyyətinə yiyələnən böyük səlahiyyətlərə malik ekstraordinal vəzifəli şəxslər.

12. Fokilid – b.e.ə. VI əsrin ortalarında yaşamış, əslən Miletdən olan lirik şair.

13. Afina və Sparta.

14. Bu sözlər yəqin ki, yalnız makedoniyalı İsgəndərə aiddir.

15. Afinada vətəndaşlar 20 yaşına yetdikdən sonra xüsusi «xalq məclisi siyahısına» salınırdı. Bu vaxtdan etibarən onlar bütün vətəndaş hüquqlarına malik olurdular, əlləri yalnız vəzifəli



şəxslərə və şuraya çatmırdı ki, buna da 30 yaşından sonra imkan verilirdi.

16. Arxaistik – qədim formaları təqlid edən.

17. Teleklin adı «Siyasət» əsərinin yalnız bu yerində çəkilir. Bəziləri onu nəzəriyyəçi hesab edərək Hippodam, Faley, Platon və Aristotelin özü ilə tutuşdurur.

18. Probullar bəzi dövlətlərdə şura təşkil edirdilər ki, bunun da vəzifəsi qanun layihələri hazırlayıb, qərar çıxarmaqdan ötrü bunları xalq məclisinə təqdim etmək idi. Nomofilaklar isə sözün həqiqi mənasında «qanun keşikçiləri» idilər, onlar Afinada ona nəzarət etməyə borcluydular ki, dövlətin ziyanına heç bir qanun nəzərdə tutulmasın, bu kimi qanunlar təklif edən adamları təqib etsinlər; nomofilaklar, həmçinin mövcud olan qanunları və xalq məclisinin qərarlarını qorumalı idilər. Afinada nomofilaklar kollegiyasının təsis edilməsini bəzi alimlər b.e.ə. V, bəziləri isə IV əsrə aid edirlər.

19. Politiya sözü burada «konstitusiyalı respublika» mənasında işlədilib.

20. Afinada xoreqlərin vəzifəsi bəzi bayramlar zamanı yarışlarda iştirak edən xorlardan birini öz hesablarına təşkil edib, öyrətmək idi. Xoreq müəyyən əmlak senzinə malik olan vətəndaşlardan təyin edilirdi.

21. Ginekonomlar – qadınların davranışına nəzarət etməli olan vəzifəli şəxslər, xüsusən də dini və ictimai bayramlar zamanı. Pedonomlar isə uşaqların gimnastika təlimlərinə sədrlik etməli və ümumiyyətlə, onların tərbiyəsinə nəzarət etməliydi.

22. Çörəyin elliklə paylanması zamanı onu çəkmək bir vəzifə olaraq sitometrlərin üzərinə qoyulmuşdu.

23. Əlyazmalarında buraxılış.

24. Vəzifə təyinatında Aristotelin sadaladığı vasitələri başa düşməkdən ötrü tədqiqatçılardan biri belə cədvəl tərtib etmişdi:

| | | |
|---|---|---|
| I Hamı | A) Hamıdan | 1) seçki ilə |
| | | 2) püşklə |
| | | 3) qismən seçki ilə, qismən püşklə |
| | B) Bəzilərindən | 4) seçki ilə |
| | | 5) püşklə |
| | | 6) qismən seçki ilə, qismən püşklə |
| | C) Qismən hamıdan, qismən bəzilərindən | 7) seçki ilə |
| | | 8) püşklə |
| | | 9) qismən seçki ilə, qismən püşklə |
| II Bəziləri | A) Hamıdan | 10) seçki ilə |
| | | 11) püşklə |
| | | 12) qismən seçki ilə, qismən püşklə |
| | B) Bəzilərindən | 13) seçki ilə |
| | | 14) püşklə |
| | | 15) qismən seçki ilə, qismən püşklə |
| | C) Qismən hamıdan, qismən bəzilərindən | 16) seçki ilə |
| | | 17) püşklə |
| | | 18) qismən seçki ilə, qismən püşklə |
| III Qismən hamı, qismən bəziləri | A) Hamıdan | 19) seçki ilə |
| | | 20) püşklə |
| | | 21) qismən seçki ilə, qismən püşklə |
| | B) Bəzilərindən | 22) seçki ilə |
| | | 23) püşklə |
| | | 24) qismən seçki ilə, qismən püşklə |
| | C) Qismən hamıdan, qismən bəzilərindən | 25) seçki ilə |
| | | 26) püşklə |
| | | 27) qismən seçki ilə, qismən püşklə |



23) Mətndə buraxılmış bu yeri tədqiqatçılardan biri belə bərpa etmişdir: «və bütün vətəndaşlar bəzi vətəndaşların içərisindən vəzifəyə adam təyin edilməsində iştirak etdikdə».

24) «Əgər... kimsə barışılması mümkün olan bir əməl üstündə sürgün edilibsə, qətldə və ya kimisə yaralamaq üstündə təqsirləndirilirsə, onu Freat səcdəgahında mühakimə edirlər, o isə qayıqda sahilə yan almaqla müdafiə olunur». Aristotel, «Afina politiyası».

1. Tarixçi Efor xəbər verirdi ki, Lisandr Heraklidlərin Spartada olan çar hakimiyyətini ləğv etmək istəyir (Bax: Plutarx). Pavsani – sparta çarı (b.e.ə. 408-394).

2. Filarxlar – fillərin başında duran və gizli şuradan ibarət olan şəxslər. Qalileya – xalq məclisi.

3. Yəqin ki, b.e.ə. 390-cı ildə Rodosda olan çevriliş nəzərdə tutulur.

4. Qarış – təxminən 17, 78 sm, dirsək – təxminənə 38-46 sm.

5. «Yeddinci gün» vuruşması, yəni bədrdən (on dörd gecəlik aydan) sonrakı yeddinci gün. Plutarx deyir ki, Kleoman bəzi məlumatlara görə bədrdən yeddi gün sonra, digər məlumatlara görə isə bədr gecəsi olan gün qalib gəlmişdir (b.e.ə. 520-ci il).

6. Söhbət Peloponnes müharibəsindən gedir. Siyahı üzrə – üç yüksək sinfə mənsub olan vətəndaşların siyahısı üzrə.

7. Evbeydə yerləşən Orey şəhəri b.e.ə. IV əsrin əvvəllərində Spartanın təsiri altında olub, oliqarxiya quruluşuna malik idi. B.e.ə. təxminən 377-ci ildə Orey Spartanın təsiri altından çıxdı. Artıq bu zamanlar, görünür ki, ordakı oliqarxiya quruluşu demokratiya ilə əvəzlənmişdi.

8. Bizans – Bosfor boğazının Avropa sahilində b.e.ə. 658-ci ildə təşkil olunmuş meqar koloniyası. Hadisələrin təfsilatı, hansı ki, Aristotel bunlar barəsində danışır, bizə məlum deyil.

9. Söhbət müstəbid Frasibulun (VI əsr) qovulmasından gedir. Frasibulun qardaşı Gelonom Sirakuzaya 10 min əcnəbi və muzdur gətirmişdi. Frasibulda isə bunların sayı 8 min idi. Silahlı toqquşma b.e.ə. 462-ci ildə baş vermişdi.

10. Proksen öz ölkəsində digər dövlətlərin vətəndaşlarını himayə etməli idi (proksenin vəzifəsi indiki konsulların vəzifəsinə yaxın olmuşdu).

11. Müstəbid Foks haqqında bizdə başqa məlumat yoxdur.



12. İran şahı nəzərdə tutulur.

13. Təsvir edilən hadisələrin haçan baş verməsi məlum deyil.

14. Triyerarx – triyerin (üç sıra avarı olan hərbi gəmi) kapitanı, yaxud Afinada olduğu kimi öz hesabına triyer hazırlatdırıb, ona rəhbərlik edən.

15. Görünür ki, Pont Herakle və b.e.ə. VI əsrin ortalarında Qara dənizin cənub sahilində təşkil edilmiş meqar koloniyası nəzərdə tutulur.

16. Ola bilsin ki, Aristotel Eoliddəki Kim haqqında danışır.

17. Liturgiya adlanan dövlət mükəlləfiyyətlərini varlı vətəndaşlar həyata keçirirdi (triyerləri təchiz edib, onlara ekipaj seçmək, dram tamaşaları üçün xor təşkil etməyin xərcini ödəmək və s. ).

18. Miletdə pritan yəqin ki, ən birinci şəxsdir (əvvəlki çarın yerini tutur).

19. Demokratik qrupların rəhbərləri xalqın tərəfdarları (müdafiəçiləri) adlanırdı.

20. Pisistrat, Afina müstəbidi (b.e.ə. təxminən 600-527). Birinci dəfə 560-cı ildə Afinada hakimiyyəti ələ keçirmişdi. İki dəfə hakimiyyətdən məhrum edilsə də, yenə iki dəfə onu ələ keçirmişdir. Feagen – meqar müstəbidi (VII əsrin ikinci yarısı). Dafney – Böyük Dionisinin rəqibi, Sirakuza sərkərdələrindən biri.

21. Orta demokratiyadan radikal demokratiyaya keçid nəzərdə tutulur.

22. Yəni oliqarxlar arasında çəkişmə.

23. Basilidlər – çar hakimiyyətinin ləğvindən sonra Erifranı idarə edən adlı-sanlı sülalə.

24. Məqsədləri demokratiyanı devirmək olan siyasi klublar heteriyalar adlanırdı.

25. Böyük Dionisinin qayınatası olan Hipparin görkəmli sirakuzalılıardan biri idi.

26. Bəzilərinin fikrincə söhbət Afina sərkərdəsi Xaretdən gedir, xatırlanan faktı isə b.e.ə. 367-ci ilə aid edirlər.

27. Yəni oliqarxiyadakına nisbətən idarə edənlərin sayı daha az olduqda belə bir idarəçiliyə cəhd edirlər.

28. Alevadlar – Fessaliyada hökmdarlar nəsli.

29. Spartada dövlət hesabına tərbiyə alan, ictimai trapezlərdə iştirak edən və Likurqun qanunları ilə yaşayan vətəndaşlar «oxşarlar» **(homoioi)** adlanırdı. Ancaq onlar tamhüquqlu vətəndaşlar idi və sözün həqiqi mənasında Sparta dövlətini təşkil edirdilər. Tarant rəvayətə görə 705-ci ildə parfeniyalar tərəfindən salınmışdır ki, bunlar da Spartanın dul qadınlarının və qızlarının nigahdan kənar uşaqları idi.

30. Sparta çarı II Agesilay (b.e.ə. təxminən 444-360) və Pavsani nəzərdə tutulur.

31. Söhbət II Messens müharibəsi haqqında (b.e.ə. VII əsrin axırı) gedir. Bu zaman, Pavsaninin sözlərinə görə, məhsul qıtlığı hiddətə səbəb olmuşdu. Tirtey – şair (VII əsrin ikinci yarısı), ehtimal edilir ki, II Messans müharibəsi zamanı o, spartalıların başçısı idi.

32. Burda xatırlanan Pavsanini (b.e.ə. təxminən 470-ci il) sonrakı çar Pavsanidən fərqləndirmək lazımdır. İran müharibələri zamanı (b.e.ə. 500-449) baş komandan olan Pavsani çar deyil, yalnız səltənət naibi (çarı əvəz edən adam) idi, çünki çar Plistarx (Leonidin oğlu) hələ uşaq idi. Annon – görkəmli Karfagen aristokratı, onun ixtiyarında olan qüvvələr, dövlət qüvvələrindən üstün idi.

33. Mətndə buraxılış.

34. Furiyada dövlət quruluşunun dəyişilməsi vaxtı dəqiq məlum deyil.

35. Sirakuza müstəbidi Böyük Dionisi birinci arvadının özünü öldürməsindən sonra eyni vaxtda iki qadınla evləndi. Onlardan biri Lokrdan (Cənubi İtaliya) olan aristokrat Ksenetin qızı idi. Bu qadından Dionisinin oğlu – Kiçik Dionisi oldu. Kiçik Dionisi b.e.ə. 357-ci ildə Dion tərəfindən Sirakuzadan qovulduqda o, Lokra getdi və orada müstəbid üsul-idarəsi qurdu.



36. Simbullar (sözün həqiqi mənasında «məsləhətçilər»), digər dövlətlərdə mövcud olan probullara oxşar kollegiya. Onların vəzifəsi qanun layihələri və dekretlər hazırlayıb, bunları müzakirə və təsdiq etmək üçün xalq məclisinə təqdim etmək idi.

37. Yəni aristokratiya və oliqarxiya.

38. Yəni qüdrətli, tanınmış nəsillərin nümayəndələri.

39. Bəzi əlyazmalarında «monarxiya» sözü yoxdur.

40. Vəzifə səlahiyyətləri başa çatmış adamların pulları vəzifəyə təzə keçmiş şəxslərə təhvil verməsi nəzərdə tutulur. Surətlər – aktların surətlərinin təhvil verilməsi. Adətən, hərbi bölmələr, həmçinin siyasi maraqlar zəminində vətəndaşların birləşməsi loxlar adlanırdı.

41. Aristotel ola bilsin, Afina dövlətini nəzərdə tuturdu. Layortlu Diogen yazır, Aristotel deyirdi ki: «afinalılar insanlar üçün buğdanı və qanunları kəşf etmişlər, ancaq buğda ilə yaşamağı öyrəndilər, qanunlarla yaşamağı isə yox».

42. Fidon – Arqosun çarı (b.e.ə. VII əsr). Falarid – Akraqantedə müstəbid (b.e.ə. VII əsrin ikinci yarsı). Kipsel b.e.ə. 657-ci ildə Korinfdə hakimiyyəti ələ keçirdi.

43. Kodr – əfsanəvi Afina çarı. Kir – əhəmənilər dövlətinin banisi (b.e.ə. 558-ci ildə); Herodotun yazdığına görə iranlıları midiyilalıların əsarətindən qurtarıb. Moloslar – rəvayətə görə Fessaliyadan Epirə keçən tayfa.

44. Pavsani – Filippin cangüdənlərindən biri. Filipp b.e.ə. 336-cı ildə öldürülmüşdü. Attal – tanınmış makedoniyalı, çar Filippin arvadı Kleopatranın əmisi.

45. II Aminta – Makedoniya çarı (b.e.ə. 392-390). Derda – Elimeyin hakimi (Yuxarı Makedoniyanın vilayəti).

46. Yevaqor – b.e.ə. 410-cu ildən Kipr şəhəri Salaminanın çarı.

47. Arxelay – Makedoniya çarı (b.e.ə. 413-399-cü illərdə idarə edib).

48. Arrabey – Linkestidanın hakimi (Yuxarı Makedoniyada vilayət). Burda xatırlanmış Aminta – Makedoniyanın gələcək çarı III Amintadır (onun idarəçiliyi b.e.ə. 389-383 və 381-369-cu illərə təsadüf edir).

49. Kotis – odrislərin çarı və bütün Frakiyanın yiyəsi, b.e.ə. 358-ci ildə öldürülmüşdür.

50. Penfilidlər – Mitilendə hökmdarlar nəsli.

51. Burda xatırlanan Dara – Kserksın böyük oğludur. Bir çox araşdırıcıların dediyinə görə Kserksın sevimlisi Artaban öncə Kserksı öldürdü, sonra isə Artakserksda Daraya qarşı şübhə oyatdı və axırıncının işini bitirdi.

52. Sardanapall – bir çox qədim müəlliflərə görə sonuncu Assuriya çarının adı.

53. Aristotel mifoloqlar haqqında danışarkən əsas etibarı ilə Herodotun, Hippokratın, Ksenofontun müasiri olan Ktesiyanı nəzərdə tutur (əsas əsəri «İran tarixi»dir).

54. Midiyalıların hökmdarı olan Astiaq həm də Kirin babası idi.

55. Amadok – b.e.ə. V əsridə Frakiyada odrislərin hökmdarı.

56. Ariobarzan – Propontiddəki Daskiliyada iran valisi (b.e.ə. 387-ci ildən), valilərin şaha qarşı üsyanında iştirak etmiş, oğlunun xəyanəti nəticəsində 362-ci ildə çarmıxa çəkilmişdi.

57. Feopomp b.e.ə. VIII əsrin ikinci yarısında Spartanı idarə edib.

58. Periandr b.e.ə. 627-ci ildən 585-ci ilə qədər Korinfi idarə edib.

59. Korinf müstəbidləri olan Kipselidlər Delfa və Olimpiyaya hədiyyələr göndərirdilər. Olimpion, Afinada Olimpiya Zevs məbədini Pisistrat tikdirməyə başlamış, tikintini onun oğlu Hippi davam etdirmiş, lakin axıra çatdırmamışdır. Semak müstəbidi Polikrat (b.e.ə. 532-523-cü illərdə idarə etmişdi) şəhəri bir sıra tikintilərlə bəzəmişdir; daha məşhurları möhtəşəm Hera məbədi, və şəhəri su ilə təchiz edən su kəməridir.

60. Getera – Qədim Yunanıstanda sərbəst həyat sürüb öz artistlik məharəti ilə kişiləri cəlb edən ərsiz qadın.

61. Məsələn, Sirakuzada Gelon, Regiya müstəbidi Mikif.

62. Yəni pulsuz olmaq.

63. Görünür ki, şəhərlilərdən ən tanınmışları nəzərdə tutulur.

64. Aristotel yəqin Sirakuza müstəbidi Kiçik Dionisini (b.e.ə. 367-344-cü illərdə hökmranlıq etmişdi) və Kipr şəhəri Salaminanın müstəbidi Nikoklu nəzərdə tutur.

65. B.e.ə. 677-ci ildən 570-ci ilə qədər.

66. Yarışlarda qələbə nəzərdə tutulur.

67. Sirakuzada birinci istibdad üsul-idarəsi (Gelon və onun xələfləri) b.e.ə. 491-ci ildən 473-cü ilə qədər davam edib.

68. Bəzi müəlliflərin fikrincə Aristotel daha çox xəyanəti araşdırır, o xəyanəti ki, Likurq Kritə səfər edən zaman Xarilay (yaxud Xaril) Spartada çar idarəçiliyini istibdad üsul-idarəsi ilə əvəz etmişdi.

69. Sokratın fikri nəzərdə tutulur.

70. Aristotel oliqarxiyalarda dövlət dəyişikliyini nəzərdə tutur.

71. Mətndə buraxılış. Söhbət demokratiyadan gedirdi.

## ALTINCI KİTAB

1. Yəni növbə ilə hökm sürüb, tabeçilikdə olmaq.
2. Bu, xalq məclisində və məhkəmədə iştirak etməyə görə nəzərdə tutulan mükafatlandırmadır.
3. Xalq burda «xalq məclisi» mənasını verir.
4. Oksil – Elidin əfsanəvi çarı.

5. Kirendə ilk öncə monarxiya quruluşu idi. Sonra isə b.e.ə. V əsrin axırlarında demokratiya tətbiq edildi. Bu dəyişiklik böyük qarışıqlıqla müşahidə olunmuşdu.

6. Yunanlar yazılı qanunlarla bərabər onlarda **agraphoi nomoi** (yazılmamış qanunlar) adlanan qanunlara da böyük əhəmiyyət verirdilər; bunlar İlahidən gələn qanunlar sayılırdı, buna görə bu qanunlar hətta yazılı qanunlarla ziddiyyət təşkil etdikdə, bunları pozmaq olmazdı.

7. Liturgiya – ibadət ayini.

8. Yəni yüngülsilahlılardan.

9. Aqoranomlar şəhər təsərrüfatını idarə edirdi, gilorlar – meşələri.

10. Apodektlər – bu sözün hərfi mənası «qəbul edənlər» deməkdir.

11. Mətndə buraxılış.

12. Polemarx – Afinada doqquz arxontdan üçüncüsüdür, o, dövlətin silahlı qüvvələrinin başında dururdu; Spartada – morun, yəni 400 nəfərdən ibarət dəstənin komandiri idi. Triyerarxiya – triyerin komandanlığı. Navarxiya – donanmanın komandanlığı. Filarxiya – süvari dəstələrin komandanlığı. Strateqlər, hipporxlar, taksiarxlar, loxaqlar – bax, üçüncü kitab şərhin 12-ci bəndi.

13. Yevfinlər – nəzarətçilər; logistlər – hesablayıcılar, eksetastlar – müfəttişlər; sineqorlar (hərfi mənası «bir yerdə danışanlar») Afinada – logistlərin köməkçiləri.

14. Gieropelər qurbankəsməyə nəzarət edirdilər; məbəd əmlakını qoruyanlar da elə onlar idi. Naofilaklar – məbədlərin keşikçiləri.

15. Gimnasiarxiya – gimnasiyaya rəhbərlik etmək (bədən hərəkətləri, həmçinin fəlsəfi və siyasi söhbətlər üçün ictimai yer). Gimnik yarış, yəni gimnastika, dionisik yarış -yəni teatr.



## YEDDİNCİ KİTAB

1. Ola bilsin ki, Aristotel bu halda Fessaliyada olan Fer şəhərinin müstəbidi Yasonu nəzərdə tutur. O, «Ritorika» əsərində qeyd edir: «... bir çox ədalətli işlər görmək üçün hərdən ədalətsizlik etmək lazımdır».

2. Növbə ilə hökm sürüb, tabeçilikdə olmaq nəzərdə tutulur.

3. Yəni təcrid edilmiş vəziyyətdə.

4. Əhalinin miqdarı mənasında.

5. Qarış – bax beşinci kitab, şərhin 4-cü bəndi; stadiya – təxminən 189 m (Herodota görə).

6. Stentor – «İliada» əsərində carçı.

7. «Siyasət»də verilən vədlərdən biridir ki, yerinə yetirilməmiş qalır.

8. Yəni Pont Herakledə.

9. Arxilox – b.e.ə. VII əsrin ikinci yarısında yaşamış, əslən Faros adasından olan şair.

10. Naməlum faciədən hissə.

11. Olsun ki, b.e.ə. V əsrin iknci yarısında yaşamış tarixçi Sirakuzalı Antiox nəzərdə tutulur.

12. Yəni Latsi, Kampaniya və Lukaniya.

13. Əsas etibarı ilə Platon nəzərdə tutulur.

14. Bu vəd, əslində, yerinə yetirilməmiş qaldı.

15. Bu vəd yerinə yetirilmədi.

16. Şərhçilər bu yerləşdirməni bu cür təsvir edirlər:

___ ___ ___ ___

___ ___ ___

___ ___ ___ ___

17. Aristotel Sirakuzada Böyük Dionisinin vaxtında mancanağın (ox və daş atan alət) icad edilməsini nəzərdə tutur.

18. Yəni bazar meydanı.

19. Xoşbəxtliyə yetmək üçün vacibdir.

20. Dövlətin xoşbəxtliyi üçün lazım olan məlumatlar nəzərdə tutulur.

21. Skilak – b.e.ə. VI əsrin ikinci yarısı – V əsrin əvvəllərində yaşamış yunan coğrafiyaşünası və səyyahı. «Peripl» əsəri onun adına çıxılır.

22. Mətndə buraxılış.

23. Yəni qəlbin ağıla malik olmayan hissəsi.

24. Lakedemonlular və kritlilər nəzərdə tutulur.

25. Daha heç bir yerdə xatırlanmayan müəllif.

26. Mətndə buraxılış.

27. Yəni uşaqların tərbiyə sahəsi.

28. Yəni 21 yaşından yuxarı.

29. Satira tamaşalarının nümayişi nəzərdə tutulur.

30. Yunanca **methe** (hərfi mənası «keflənmədir») sözün həqiqi mənasında qonaqlığın, artıq əhval-ruhiyyənin qalxdığı və şərabın qarışdırılmamış halda içilməyə başlandığı hissəsini ifadə edir.

## SƏKKİZİNCİ KİTAB

1. Yəni oxu və yazı.

2. Aritotelin bu formada misal gətirdiyi şer Homerin bizə gəlib çatan poemalarının mətnində yoxdur.

3. Homer, «Odisseya» poemasından.

4. Homer, «Odisseya» poemasından.

5. Vəd yerinə yetirilməmiş qaldı.

6. Yəqin ki, Kiçik Asiyada yaşayan tayfalar nəzərdə tutulur.

7. Digər fənlər – oxu, yazı, musiqi, rəsm.

8. Bu bölmədən başlayaraq oxıra qədər Aristotel özünün ayrıca olan müsiqi haqqındakı traktatını «Siyasət» əsərinin VIII kitabına salmışdı.



9. Musey – əfsanəvi şair.

10. Olimp – yunanlarda qədim instrumental musiqinin əfsanəvi nümayəndəsi.

11. Görünür ki, Aristotel ion və lidiya ahənglərinin müxtəlif variantlarını nəzərdə tutur.

12. Pifaqorçular nəzərdə tutulur.

13. Məsələn, Platon «Fidonda».

14. Tarentadan olan Arxit – Platonun müasiri, pifaqorçu – filosof, riyaziyyatçı, sərkərdə və siyasi xadim.

15. Burda **loqos** sözünü hərdən «səs» və ya «nəğmə» kimi başa düşürlər.

16. Ekfantid – attik komediyanın qədim nümayən-dələrindən biri (b.e.ə. V əsrin ortaları).

17. Pektida – simləri müxtəlif uzunluğunda olan lidiya lirası. Barbita – liraya bənzər simli alət, ancaq ondan daha böyükdür, simləri isə ondan daha möhkəmdir. Yeddibucaqlılar, üçbucaqlılar – arfaya bənzər alətlər, simlərin qalınlığı eyni olsa da uzunluqları müxtəlifdir. Sambika – bunların növlərindən biri, yunanlar bunu Misirdən iqtibas etmişlər.

18. Yəni musiqinin müşayiəti ilə olan mahnı.

19. Yəni bizim mənəvi xüsusiyyətlərimizə təsir edən melodiyalar, bizim fəaliyyətimizi qüvvətləndirən melodiyalar və bizi vəcdə gətirən melodiyalar.

20. «Siyasət»in bizə gəlib çatan mətnində verilən vəd yerinə yetirilməmişdir.

21. Mif. Qədim Yunanıstanda içki və kef allahı.

22. Mədhnamələr yazan Kiferalı Filoksen b.e.ə. 435-380-cı illərdə yaşamışdır.

23. «Siyasət» əsərini latın dilinə çevirən Vilhelm fon Myorbeke (XII əsr) qeyd etmişdir: «Yunan orijinalında bu əsərin davamını mən hələ tapmamışam».

# BÖYÜK ETİKA

## BİRİNCİ KİTAB

1. Aristoteldə məziyyət və yaxşı şey kənardan diktə edilən normalar deyil, fərdi və sosial praktikada vacib olan ilkin şərt kimi onun uğurunun təminatıdır: yaxşılıq, daxili aləmin mötəbərliyi, yararlıq, əməl və hərəkətlərin «doğruluğu».

2. Etika artıq bu mənada siyasətin bir hissəsidir, lakin polis (şəhər-dövlət) ədalət və dostluq əsasında qurulduğundan siyasət öz növbəsində başlanğıcını etikadan götürür. Bir-birindən olan bu asılılıq siyasəti hərb sənətilə, iqtisadiyyat və ritorika ilə deyil, ancaq etika ilə bağlayır; əvvəlkilərin üçü siyasətdən asılıdır, halbuki etika, əslində, onunla eyniləşir. Burda siyasətlə etikanı bir tam kimi araşdıran Platondan fərqli uzaqlaşma yoxdur (müvafiq traktatın adı belədir: «Dövlət və ya ədalət haqqında»). İki filosof arasındakı fərq bundan ibarətdir ki, Platon üçün ən başlıcası daxili aləmin «göylərin nizam-intizamına» riayət etməsidir və dövlətin zahiri ondan ötrü ancaq bir model və daxili bir simvoldur, halbuki Apistotel daxili aləmin durumunun cəmiyyətdən və dövlətdən asılılığını, həm də insanın mövcud olması üçün ümumi işin vacibliyini dərindən dərk edir. Hamının rifahı ondan ötrü bir nəfərin rifahından, şübhəsiz, «daha yaxşıdır», hərçənd ki, əvvəlcə bu axırıncıya yetişmək lazımdır.

3. **Oyk oikeian tōn aretōn tēn theorian epoieto.** Pifaqorçuların say strukturalizmi haqqında. Aristotelin «Pifaqorçular haqqında» əsəri mühafizə edilməmişdir. Aşağıda Pifaqorun ədalət prinsipinin – «qarşılıqlı surətdə məruz qalmanın» **(to antipeponthos)** adı çəkilmişdir. Mümkündür ki, pifaqorçuların fikri burda sadələşdirilmişdir və «qarşılıqlı surətdə məruz qalma» sadəcə olaraq çəkilən cəzanın bərabər olmasını nəzərdə tutmurdu.



4. Yəni etikanın vəzifəsi – əsil məziyyəti konkret olaraq dərk etmək, bəsləmək və möhkəmləndirmək olduğundan, xaricdə olan ideyaların seyr edilməsini mücərrədləşdirə bilər və insanı ruhdan salar. Bütün bu birinci fəsil – dünyanı iki cür, həqiqi və ideal kimi başa düşən platonçuluqla mübahisədir.

5. Aristotelin «yoxsası» (ē), bu halda olduğu kimi, tez-tez əvvəlki tezisi inkar etdiyini bildirir.

6. İnduksiya, xüsusi mülahizələrdən ümumi nəticə çıxarmaq üsuludur.

7. Həqiqi şəraiti nəzərə alan Platon ideyalar haqqında mücərrəd mühakimə yürütmədən düşünməyi və danışmağı bacarırdı, belə ki, Aristotel Platona qarşı deyil, real şeylər əvəzinə xəyali şeylər təsəvvürə gətirən platonçuluğa qarşı çıxır, bu halda qeyri-adi ideallaşdırma bir arqument kimi «elmdən» ayrılır: təcrübi elmin, hünərin, bacarığın işi – firavanlığın formaları haqqında düşünmək deyil, ancaq ona qarşı addım atmaqdır.

8. Aristotelizmdə çətin mümkün olan «orta» ortabab adamın mövqeyinə ziddir, çünki ifrat şeylərdən həmişə uzaqdır, hansı ki, adamlar bunların arasında tərəddüd edir, belə ki, onlar gah çılğın, gah olduqca lovğa, gah öz fikir və niyyətlərini gizlin saxlayan, gah da bir başqa cür olurlar.

9. Sokrata və Platona görə haçan ki, bizi unutqanlıq «qəsb edir», əzab və əziyyət «zorlayır», həzz «yoldan çıxarır», biz öz iradəmizin əksinə olaraq pis və pozğun işlərlə məşğul oluruq: pis işlərin səbəbi – cəmiyyətin mükəmməl olmaması, əsil biliyin az olması və yaşamağı bacarmamaqdır.

10. Burda Makedoniyalı İskəndərin Hindistan yürüşü nəzərdə tutulmur. Aristotel ayrı-ayrı əsərlərində Hindistanı yalnız uzaq bir ölkə kimi xatırlayır. Aristotel və Platon üçün xas olan cəhətlərdən biri də budur ki, onlar dəfələrlə Misir müdrikliyi və elmi haqqında danışırlar, lakin əsərlərində hind fəlsəfəsinin adını belə çəkmirlər.

11. **Kai aney toy prattein**. Platonun ağılın görünməyən gözəlliyi haqqında fikri, Aristoteldə bunun mütləq ifadə edilməklə özünü bildirməsidir. Bunun kimi, Aristotelə görə, əgər məhəbbət özünü heç cür bildirmirsə, onda o, məhəbbət deyil.

12. Cəsarəti biliyə müncər etməklə Sokrat yalnız məlumatlı olmağı və səriştəni nəzərdə tutmurdu. Sokratın məziyyətlə eyniləşdirilmiş «biliyi» düzgün mühakiməyə və ağıllılığa yaxındır, hansı ki, Aristotelin özündə də məziyyətlər bunlardan asılıdır.

13. «Mükəmməl məziyyət» Platonda ədalət adlanır («Dövlət» əsərində bu, bütün məziyyətlərin başında durur). Ədalət nəciblikdən və hətta ağıllılıqdan daha çox dərəcədə özünə yerdə qalan məziyyətləri seçməyə meyl göstərdiyindən məziyyətlər məziyyəti **(holē arete)** olur, çünki qanunların icrasını nəzərdə tutur, ancaq o birilər adamlardan xeyirxahlıq tələb edir.

14. Başqalarına qarşı olan ədalət **(pros heteron)** açıq-aşkar Platonun əksinə olaraq nəzərə çarpdırılır, hansı ki, ondan ötrü ədalət hər şeydən öncə daxili aləmin həmrəyliyidir.

15. Omonim, deyilişinə görə başqa sözə oxşayan, lakin ondan fərqlənən söz.

16. Tez-tez Platonda, həmçinin sofistlərdə, sonralar isə stoiklərdə (stoisizm fəlsəfəsi tərəfdarları) **orthos logos** ifadəsini (hərfi mənası «düzgün ağıl») Aristotel özünün teleologiyasında (təbiətdə hər şeyin müəyyən məqsədlə yaranmış olduğunu və hər bir inkişafda qabaqcadan müəyyən olunmuş məqsədin həyata keçirildiyini iddia edən idealist nəzəriyyə) və orta haqqında təlimində başa düşdüyü tək izah edir (hansı ki, öz növbəsində elə Platonun özündən gəlir: «Həmişə ortanı seçməyi bacarmaq lazımdır»). Aristoteldə düzgün mühakimə ilə bağlı şey məziyyətdir. Məziyyətlərlə uyğunluq təşkil edən düzgün hərəkətlər düzgün mühakimə ilə uyğunluq təşkil edən yaxşı hərəkətlər vasitəsilə izah edilir.

17. «His etmə qabiliyyəti» – **aisthēsis** – Aristoteldə bəzən loqosdan (burda qəlb mənasındadır) daha yüksəkdir.



18. Yaratma və hazırlama – **poiesis**, icra və fəaliyyət, **praxis** – fərqləndirmə Platondan gəlir, o da öz növbəsində bunu Geosiddən əxz etmişdi.

19. Sokrat, sofistikanın əksinə olaraq «Loqosa yardım edib» məziyyəti biliyə və ağıla bərabər tutur. Aristotelin qısa və dürüst ifadəsi (düzgün mühakimə ilə bağlı olaraq) özünü orta mövqedə göstərir: məziyyət loqosdan aralanmır və onunla düşünülmüş surətdə bağlılıq olmadan mümkün deyil.

20. Platonda nümunəvi siyasətçi dövlətin hissələrini idarə etdiyi kimi, burda da ağıllılıq qəlbin hərəkətlərini idarə edir.

## İKİNCİ KİTAB

1. Daxili aləmin hərarətli hərəkətləri ilə düzgün mühakimənin uyğunluğu aristotelizmin məziyyət konsepsiyası üçün elə vacibdir ki, Aristotelin özü təmkinliyi onun daxili çarpışmaları ilə hara aid etməyi bilmir və Aristoteldə bu, hardasa məziyyət və qəlbin bacarığı arasında asılı qalır. Müvafiq surətdə hövsələsiz pozğundan fərqli olaraq pis olmur.

2. **Sokratēs ho presbytēs** – ola bilsin, «kiçik Sokratdan» fərqli olaraq. Mümkün olan tərcümə – daha çox qəlbin amirlik bacarığıdır, buna görə heç vaxt demək olmaz ki, insanın iradəsi çatmır: iradəsiz görünən adam hələ tamamilə bilmir ki, ona həyatda nə lazımdır.

3. **Sōphrosynē** – tədbirlilik şübhə doğuran təmkinlikdən fərqli olaraq pozğun və zərərli meyllərdən uzaq mükəmməl məziyyətdir.

4. Sillogizm, formal məntiqdə: məntiqi nəticə, məntiqi xülasə.

5. **Katholoy... epi meroys**. Şifahi surətdə bu ifadə «Birinci Analitikaya» deyil, «Topikaya» yaxındır, lakin öz əsərlərində düzgün olmayan sitatlar gətirmək Aristotel üçün xarakterikdir.

6. Yəni təmkinlik tamamilə məziyyət olmasa da, hətta həmişə təriflənməsə də, o, heç vaxt məziyyətlərlə ziddiyyət təşkil etmir.

7. Hamıdan yaramaz adam prinsip **(arkhē)** ucbatından pis iş görən adamdır. Yaramaz Sirakuzalı Dionisi (onun adı «Siyasət» və «Ritorika»da dəfələrlə çəkilir) Falarid (adı «Nikomax Etikası»nda, həm də «Siyasət»də çəkilir), və Platonun vəfasız şagirdi müstəbid Klearx belələrindəndir.

8. Psixoloji analiz, hansı ki, ümumiyyətlə, həmişə Aristotelin etikasına həmrah olur, burda müvəqqəti olaraq araşdırmanın əsas mövzusuna çevrilir. Aristotelin psixologiyası müasir psixologiya elmindən onunla fərqlənir ki, həmişə sağlam psixi təzahürləri nəzərdə tutur, daha qeyri-normal təzahürləri sezmir.

9. Yığcam olduğuna görə fikir aydın deyil. Məna bəlkə də belədir: pis şey kimi görünən zövq, əgər ayrı formada, ayrı adamda, ayrı yerdə, ayrı vaxtda və i. a. təcrübədən keçibsə, onda yaxşı şey olacaq.

10. Ehtimal edilir ki, əgər elm zövqü qəbul etmirsə, onda o, ümumiyyətlə, inkar olunmağa layiqdir. «Həzz gətirən elmlər» məsəli açıq-aşkar Platonun «Qorgiya»sından götürülmüşdür.

11. Bəzən təsadüfi uğuru «səbəb» adlandıran Aristotel indi dəqiqləşdirir ki, fəaliyyətdə olan əsası səbəb saymaq lazımdır, burdakı haldasa – bizim yaxşı cəhətimizi və bizim yaxşı şeyə olan cəhdimizi, bu cəhd olmasa «uğurdan» söhbət də gedə bilməz, belə ki, təsadüfi uğuru səbəb yox, nəticə adlandırmaq daha yaxşı olar.

12. Tinktura – suda, spirtdə və ya efirdə hazırlanmış dərman maddəsi.

13. Mil, coğrafi mil (7420 metr), dəniz mili (1852 metr).

14. Aristotel düşünmür ki, rütubət alovun yanmasına şərait yaradır, lakin bu fikri tənqid etmədən, bir misal kimi, ziddiyyət təşkil edən şeylərin bir-birinə uyğun gəlməsini göstərir.

15. Qəhrəman və çox güclü adamları ikinci Herakl adlandırırdılar. Burdakı atalar sözünün mənası ola bilsin, insanın özünə lazım olduğundan çox qiymət verməsinə həlim bir rişxənddir.



16. Bu, güzgüyə baxan kimi, yaxın dosta baxıb öz-özünü dərk etmək haqqında təlimdir, müəllif həm də Platonun bu yöndə olan fikirlərini inkişaf etdirir.

17. Fikir qırılmışdır, lakin hətta əgər «Böyük Etika»nın quruluşu «Nikomax Etikası»ndakı kimidirsə, onda yalnız yevdemoniya mövzusu araşdırılmamış qalacaq. Yəqin ki, daha çox «Böyük Etika» bilavasitə bunun kimidir, yəni həmin mövzuya toxunmur. Bu halda bizə gəlib çatan mətndə yalnız bir neçə sətir və ya vərəq çatışmır.

# MÜNDƏRİCAT

Ön söz ........................................ 3

## SİYASƏT

Birinci kitab (A) ........................................ 7
İkinci kitab (B) ........................................ 37
Üçüncü kitab (Q) ........................................ 83
Dördüncü kitab (D) ........................................ 130
Beşinci kitab (E) ........................................ 175
Altıncı kitab (Z) ........................................ 226
Yeddinci kitab (H) ........................................ 247
Səkkizinci kitab (Ö) ........................................ 292

## BÖYÜK ETİKA

Birinci kitab (A) ........................................ 311
İkinci kitab (B) ........................................ 361

## ŞƏRHLƏR

Siyasət ........................................ 405
Böyük etika ........................................ 426

Kağız formatı 60x84 1/16. Həcmi 27 ç.v.
Sifariş 8. Tirajı 2000. Qiyməti müqavilə ilə.

«Qızıl Şərq» ASC çap olunub.